Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

İlin beşinci fəsli

# Kamran

sənədli roman

Silinməz izlər • Silinməz izlər • Silinməz izlər • Silinməz izlər



*"Taleyimdən razıyam. Onu özüm yaratdım. Oxutmadılar - oxudum. Evləndirmədilər - evləndim. Böyütmədilər - böyüdüm. Dayağa söykənmədim, dayaq oldum. Öyrətmədilər- öyrəndim..."*

**Deyilmişdir**

Allah, "Ol" - deyir. Ana doğur, insan özü özünü yaradır.

Vaqif Bəhmənli



İlin beşinci fəsli

# Kamran

sənədli roman

*Məsləhətçi:*

**Hicran Hüseynova**
Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq
Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Vaqif Bəhmənli**. İlin beşinci fəsli. Kamran. Sənədli roman.
"Renessans" nəşriyyatı, Bakı. 2013. 550 səh.

"İlin beşinci fəsli.Kamran" əsəri indi işğal altında olan qədim Zəngəzur-Qarabağ bölgəsindən erkən yaşlarında ayrılıb düşüncəli həyatını xalqın firavan yaşamına həsr edən Kamran Əsəd oğlu Hüseynovun dolğun, yeni gələnlərə örnək ömründən danışır. İyirminci yüz ilin yeddi ilini də insana verilən yaşın üstünə artırmaq imkanı olsaydı, o, zəmanəsi ilə əkiz sayılardı. Bu, bizlik deyil, qələm yaradanın əlindədir. Bununla belə, əsərin qəhrəmanı Kamran Əsəd oğlunun varlığı başabaş yaşadığı əsrin içinə sığmır. Və bəlkə də Kamran (sözün mənası qüdrətli, iqtidar deməkdir) adının hökmü ilə milli yaddaşın özündən irəliki çağlarını da birləşdirər.

Söz bununla tamama yetmir. Niyə? Ona görə ki, o, təbiətin yaratdığı dörd fəslə yeni bir fəsil artırmış böyük vətəndaşdır.

Azərbaycan daha gözəl gələcəyə gedir.Azərbaycan düz yoldadır. Cismən bu dünyada olmasa da, bu ulu yolda o, bizimlə yanaşı yeriyir. Çünki Kamran Hüseynov sözün həqiqi mənasında getdiyi yola əbədi sadiq olan yoldaşdır.

Redaktor: **Ələddin Əsədzadə**
Tərtibat və dizayn: **Xəyyam**

$B\frac{4702060201}{93}2013$

© "Renessans" nəşriyyatı. 2013

*Bütün xidmətlərdən üstün olan tək bir xidmət var:*
*Vətənə xidmət! Bu, tək olan Allaha xidmətə bərabərdir!*

**Şeir**

Həyat nədi, əzizim,
de nədi, iki gözüm?..
Həyat eradı, andı,
Həyat ilikdi, qandı,
Qocadı həyat, qoca,
həm də sütül oğlandı...
Alçaqdı, həm ucadı,
Həyat iki hecadı:
Yolu haça-haçadı,
Pəncərədi, bacadı...

Bunlardan da irəli
Həyat dahi romandı-
Ilk kəlməsi məhəbbət,
son kəlməsi al qandı;
Həyat dahi romandı!
O roman içində sən
fağır Allah adamı-
yaddaşının yox ucu-
adın düşməz yadına,
Yazanın yox, oxucun
desin sənin adını...

Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kamran Hüseynovun 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına əsasən nəşr olunur.

**Deyilmişdir**

**"Zəbur"**: "Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar..."

**"Tövrat"**: Hökm çıxararkən haqsızlıq etməyin, heç kimin tərəfini saxlamayın, rüşvət almayın, çünki rüşvət müdrik insanın da gözlərini kor edir, salehlərin, yalnız salehlərin ardınca gedin, onda həyat taparsınız.

**"Qurani-Kərim"**: İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver; onlar üçün ağacları altından çaylar axan cənnətlər vardır... Onlar orada əbədi qalacaqlar.

**"Kitabi-Dədə Qorqud"**: Allah-Allah deməyincə işlər düzəlməz. Qadir Allah verməyincə işlər düzəlməz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vaxtı çatmadıqca kimsə ölməz.

# Kitabdakılar

Bioqrafiaya
Ön söz. Bəxtiyar Vahabzadə
Mənim atam. Hicran Hüseynova
Proloq
Yaza qədər
Birinci fəsil. Yaz
İkinci fəsil. Yay
Üçüncü fəsil. Payız
Dördüncü fəsil. Qış
Epiloq və yaxud beşinci fəsil

**Epiqraf**. "İradə hətta ovcunuzdakı xətləri belə dəyişməyə qadirdir".

*J.Kokto.*

# Bioqrafiya

***və yaxud bütün fəsillərin qısa məzmunu***

Tarix elmləri doktoru, professor Kamran Əsəd oğlu Hüseynov 1913-cü il dekabr ayının 15-də Qubadlı rayonunun Çərəli kəndində anadan olub.

Əmək fəaliyyətinə gənc yaşlarından başlayıb, 1934-cü ildən Bakı neft sənayesində müxtəlif işlərdə çalışıb. 1938-1940-cı illərdə Xarkov İnşaat Mühəndisləri İnstitutunda, 1940-1941-ci illərdə Azərbaycan Sənaye Akademiyasında təhsil alıb. 1949-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini və Bakıda Ali Partiya Məktəbini bitirib.

1941-1944-cü illərdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərib, 1944-1945-ci illərdə Sumqayıt Rayon Partiya Komitəsinin sənaye və kadr işləri üzrə katibi, 1945-1947-ci illərdə indiki Binəqədi Rayon Partiya Komitəsinin birinci katibi seçilib.

1949-1952-ci illərdə Mingəçevirdə aparılan inşaat işlərinin rəhbərlərindən biri olan Kamran Hüseynov 1952-1953-cü illərdə Nefçala Rayon Partiya Komitəsinin birinci katibi, 1953-1958-ci illərdə Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışıb.

1958-1961-ci illərdə Azərbaycan Həmkarlar İttifaqları şurasının sədri, 1961-1968-ci illərdə Moskva şəhərində Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi, 1968-1980-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1980-1993-cü illərdə Respublika Ticarət və Sənaye Palatasının sədri, 1993-cü ildən isə Ticarət və Sənaye Palatasının müşaviri vəzifələrini tutub. O, Azərbaycanın ictimai-siyasi həyatında, sözün gerçək mənasında can qoyan dəyərli şəxsiyyətlərdəndir. Onun dövlət idarəçiliyi və iqtisadiyyatın müxtəlif sahələrində gördüyü işlər böyük bir dövrü əhatə edir. Sıravi fəhləlikdən başlamış strateji əhəmiyyətli mühüm dövlət obyektlərinin tikilib istismara verilməsinə qədər çalışdığı bütün sahələrdə peşəkarlıq, fədakarlıq və yüksək təşkilatçılıq qabiliyyəti göstərib. Azərbaycanda yeni yaşayış məntəqələrinin salınıb, sənaye mərkəzlərinə çevrilməsi və inkişafında Kamran Hüseynovun əməyi əvəzsizdir. Tutduğu vəzifələrdən, gördüyü işlərdən asılı olmayaraq, qəhrəmanımızın mövqeyi daim vətənpərvərlik ruhu ilə səciyyələnir. 1967-ci ildə tarix elmləri doktoru elmi dərəcəsi alıb. Sahəyə aid və xatirələrdən ibarət bir neçə kitab yazıb. Azərbaycan

Respublikası Ali Sovetinin, RSFSR Ali Sovetinin deputatı seçilib. Xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Bir sıra orden və medallara layiq görülüb, müstəqillik zamanı Azərbaycan Respublikasının ali mükafatı – "Şöhrət" ordeni ilə təltif edilib. Tanınmiş ictimai xadim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Kamran Əsəd oğlu Hüseynov 2006-cı il aprelin 20-də ömrünün 93-cü ilində haqq dünyasına qovuşub.

### Sözün qüvvəti

Qarışıq illər və çoxlu rəqəmlər sırası, qarışıq zaman və o zamanın özü qədər mürəkkəb, enişli-yoxuşlu ömür yolu...

Özü özünü böyüdən, özü özünü yarada, ciddi, ağırtəbiətli kişi həyatının bircə vərəqlik bioqrafiyaya sığması heç insafdan deyil.

Əslində onun ömrü hər kəlməsində ləyaqət işaran zəngin bir romandır.

Bu roman yüz ilin başında şəxsiyyət və zaman ucalığından bir misqal aşağı enməyən canlı tarixin bir parçasıdır. Bu roman heç şübhəsiz ki, çox ibrətlidir, deməli onu vərəq-vərəq çevirib kəlmə-kəlmə oxumaq yeni gələn nəslin vəfa borcudur. Çünki o, sanballı kişi idi...

## Şeir

Bir ağır ailədə
o bir ağır oğuldu,
ağır-ağır doğuldu!
Ağır-ağır ağladı,
ağır-ağır kiridi.
İllər ağır illərdi,
yollar ağır yollardı –
ağır-ağır yeridi.

Beş yaşında tək qaldı
ağır-ağır qışlara.
Körpə çiynini verdi
ağır-ağır işlərə.
Fikirlər ürəyində

buluddu ağır-ağır.
Vuruldu görən kimi,
unutdu ağır-ağır.

Qış əkdi, yaz bitirdi-
tapılmayan, tapılan,
Keçdi dərin dəhlizlər,
açdı ağır qapılar...

Sınaq dikini qalxdı
o oğlan ağır-ağır.
idrak kəməri taxdı-
imtahan ağır...ağır!

Mətləbi daşdan çıxdi,
hər işi ağır-ağır,
yerişi ağır-ağır,
gülüşü ağır-ağır...

Haya çağırdığını
ağır-ağır səslədi,
adamlığın yolunda
qızıl ömür xərclədi.

Dizini qatlamadı;
çöldən, nobatdan gəldi.
Dilləndi ağır-ağır-
kəlməsi batman gəldi.

Uşaq ağlını qoşdu
ağır-ağır başlara.
Gur saçı yeldə uçdu,
yoldaş oldu quşlara.

Odur bax, ağır adam
çəkib ağır yükünü
qalxır ömür dağını,
Onu görəndə hamı
ehtiramla yol verir,
Çıxarır papağını.

Ağır adam neyləyir
ağır şanı-şöhrəti?-
çəkdiyi öz qisməti,
öz əməli, işidi.
Ağıllı ağır adam
yaşın hər vədəsində
dağdan ağır kişidi;
Ölüm də qorxur ondan!

**Deyilmişdir**

Sevdiyi işi görmək üçün vaxt tapan insan bəxtəvərdir.

**Epiqraf**
Yaşamaq yanmaqdır yanasan gərək
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək
Onun da mənası yanmağındadır.

*Bəxtiyar Vahabzadə*

# Ön söz

Respublikamızda xeyirxahlıq, alicənab və insanpərvərlik timsalı kimi tanınmış Kamran Əsədoğlu Hüseynovun adını ilk dəfə əllinci illərdə böyük yazıçımız Süleyman Rəhimli və Əli Vəliyevdən eşitmişəm. Bu yazıçılarla mənim aramda böyük yaş fərqinin olmasına baxmayaraq, hər ikisi ilə çox isti münasibətimiz var idi. Ayda heç olmasa bir-iki dəfə mən onlarla bir yerdə olar (ya onlarda, ya bizdə), bu iki qüdrətli sənətkarın şirin söhbətlərini huş-guşla dinlərdim.

Bu söz ustadlarının xatirələrinin bir qismi Kamran Əsədoğluna həsr olunardı. Hər ikisi xeyirxah əməllərindən, alicənablığından, həmişə haqq tərəfində durmasından danışırdılar. İnandığım və dərin hörmət bəslədiyim sənətkarların K.Əsədoğlu haqqındakı söhbətləri mənim qəlbimdə bu gözəl insanın heykəlini ucaltmışdı. Amma şəxsən tanış deyildim. Altmışıncı illərin sonunda o, Nazirlər Sovetinin sədr müavini vəzifəsində işlədiyi zaman mən onunla ilk dəfə görüşdüm...

Müharibədən sonra Mingəçevir su elektrik stansiyasını tikmək və orada şəhər salmaq işləri başlandı. ÜİKP nüma-

yəndəsi kimi Kamran Əsədoğlunu bu böyük inşaat işlərinə rəhbər təyin etdilər. Mingəçevir və Sumqayıtın tikintisində Moskvanın maddi marağından başqa, Azərbaycanı ruslaşdırmaq məqsədi də vardı. Bu məqsədlə Rusiyanın müxtəlif şəhərlərindən axın-axın gənc oğlan və qızlar bu şəhərlərə gətirildi.

Mingəçevirdə inşaatın rəhbəri və sonralar Sumqayıtda Şəhər Partiya Komitəsinin katibi vəzifələrində işləyən Kamran Əsədoğlu rus axınının qarşısını almaq üçün Azərbaycanın müxtəlif rayonlarından gəncləri işə dəvət edir və onlara hər cür şərait yaradırdı. O zaman ziyalıların demək olar ki, hamısı Əsədoğlunun bu təşəbbüsünü bilir, alqışlayır və bu barədə xısınlaşırdılar.

Burada böyük şairimiz S.Vurğunla bağlı eşitdiyim bir əhvalatı yada salmaq istəyirəm. Deyilənə görə, müharibə qurtarandan bir-iki ay sonra Mircəfər Bağırov Moskvada Mingəçevir tikintisinin layihəsini Stalinə təsdiq etdirib Bakıya qayıdırmış. Vağzalda uzaqdan S.Vurğunu görür. Yanındakılara tapşırır ki, S.Vurğunu onun şəxsi vaqonuna dəvət etsinlər.

M.Bağırov vaqonda təsdiq olunmuş Mingəçevir tikintisinin layihəsini sevinə-sevinə S.Vurğuna göstərib tikintinin respublika üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu uzun-uzadı ona izah edir. Baxır ki, dedikləri şairi heç sevindirmədi, soruşur:

- Hə... Necə baxırsan bu böyük işə?

S.Vurğun narahatlığını bildirir:

- Bu boyda tikintidə kimlər işləyəcək? Bizimkilər, yoxsa?..

Bağırov şairin nəyə işarə vurduğunu başa düşür və "Sən köhnənin millətçisisən" – deyə onu öz vaqonundan çıxarır.

S.Vurğun bu tikintidə Moskvanın əsas məqsədini şair fəhmi ilə çox gözəl başa düşmüşdü. Ancaq dərdini deməkdən başqa əlindən nə gələrdi?

Azərbaycanın başqa bir qeyrətçəkəni – K. Əsədoğlu böyük şairin arzusunu heç nə deмədən, haraysız-həşirsiz yerinə yetirdi, yeni tikilən 2 böyük şəhərimizi çox böyük məharətlə yad axınından qorudu. Yalnız bu xidmətinə görə mən bu gözəl insana hər iki şəhərimizdə heykəl qoyardım. Bu gün Mingəçevir şəhərinin küçələrindən birinin sağ ikən onun adını daşıması məni çox fərəhləndirir.

Bu günlərdə köhnə dostum, xalqımızın ləyaqətli oğlu professor İmamverdi Əbilovun Kamran müəllim haqqında yazdığı məktub-məqaləsi əlimə keçdi. Heç demə, 1952-53-cü illərdə Kamran Əsədoğlu Neftçalada raykomun birinci katibi vəzifəsində işləmiş və bu iki il müddətində rayonda çox böyük işlər görmüşdür: Çörək zavodu, mədəniyyət sarayı, stadion, xəstəxana şəhərciyi, nümunəvi şəhər məktəbi tikdirmiş, Həsənabad, Qoltuq, Yeniqışlaq kəndlərində su kəməri çəkdirmiş, kəndlər arasında asfalt yollar saldırmışdir ...

İmamverdi müəllim yazır ki, Kamran Əsədoğlu Neftçalada Rayon Partiya Komitəsinin katibi vəzifəsində olduğu zaman onun yanına şikayətçilər gəlib bildirirdilər ki, rayonun əyyaş prokuroru günahsız adamları həbs etdirir və sonra məhbusların arvadlarını axşamlar yanına çağırtdırıb dindirir. Bunu eşidən katib dərhal rayon həbsxanasına gedib, həbsxana rəisinin etirazlarına baxmadan, zindan hücrələrini açmağa onu məcbur edir. Özü məhbusları bir-bir dindirir. Sonra Bakıya zəng çalıb əlaqədar təşkilatlardan işin yoxlanılmasını tələb edir. Yoxlama nəticəsində aydın olur ki, 6 məhbus

tamamilə günahsızmış. Bu faktı oxuyanda bu günlərdə qəzetlərdə oxuduğum bir məlumat yadıma düşdü: heç demə 95 nəfər yüksək rütbəli polis işçisi adamları döyə-döyə, zorakılıqla olmayan cinayəti onların boynuna qoyurmuş. Qanunu hər şeydən üstün tutan bizim sivil adlandırdığımız bu ölkədə biz belə qanunsuzluqlara təəssüf ki, tez-tez rast gəlirik. Bəs bu gün hanı bizim rayonlarımızda K.Əsədoğlu kimi haqqı nahaqqa verməyən, insan ləyaqətini hər şeydən üstün tutan, ədalətli rəhbər işçilərimiz?

Sözümüzün sonunda üzümü K.Əsədoğluya tutub deyirəm: Əziz qardaşım, sən öz ədalətin və həqiqətsevərliyinlə, xeyirxahlığın və alicənablığınla, işlədiyin bölgələrdə qurduğun fabrik və zavodlarla, mədəniyyət sarayları və xəstəxanalarla, məktəb və uşaq bağçaları ilə özünə abidə ucaltmısan. Sənin bu əməllərin dərin hörmətini qazandığın xalqının yaddaşında əbədi yaşayacaq. Çünki sən xalqının böyük oğlu, vətənin əsl vətəndaşısan!

**Bəxtiyar Vahabzadə**
Azərbaycanın Xalq Şairi
02.11.1998

**Sözün qüvvəti**

Məqaləni Türk dünyasının qüdrətli şairi Bəxtiyar Vahabzadə 1998-ci ilin noyabr ayının 2-də qələmə alıb. Bu sətirlər yazılandan on bir il sonra Bəxtiyar Vahabzadə (2009), səkkiz il sonra Kamran Əsədoğlu (2006) haqq

dünyasına qovuşdular. Qəhrəmanımızın 100 illik yubileyi ərəfəsində yaradılan bir kitaba əlində qələm tutan hər hansı bir azərbaycanlı ədib, alim, dövlət xadimi... ön söz yazmağı özünə şərəf bilərdi. Ədalət naminə, böyük Bəxtiyarın qələmindən deyil, qəlbindən püskürən bu məqaləni seçdik. Eldə deyim var, dağ dağa arxalanar. Bu kitabın bəlkə də əsas məziyyəti millətimizin fikir, düşüncə zirvəsi ilə əməl, məslək, əqidə ucalığının yanaşı durmasıdır. Lap iki qardaşın qoşa çəkilmiş fotoşəklində olduğu kimi...

**Deyilmişdir**

İstisnasız olaraq bütün fövqəladə işlər
fövqəladə vəziyyətdə-iki daşın arasında görülür.
Sadə dillə desək, beşiklə məzarın arasında!



**Epiqraf**

"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam".

Heydər Əliyev

# Mənim atam

Mənim atam, Azərbaycanın tanınmış dövlət və ictimai xadimi, hərtərəfli şəxsiyyət, ölkəsini və xalqını bütün varlığı ilə sevən vətəndaş-Kamran Hüseynov 93 illik mənalı ömür yaşadı. O, hər işdə yenilik yaratmağı bacarırdı, üstünə əl qoyduğu işin miqyası ilə ətrafdakıları heyrətləndirə bilirdi. Biz, ailəmizin üzvləri çox istəyirdik və əlimizdən gələni edirdik ki, atamız uzunömürlülük məsələsində də yenilik eləsin, yüz yaşına çatsın, amma neyləməli, hələ indiyəcən alın yazısını pozan, qismətdən bircə tikə artığına yiyələnən olmayıb. Bəlkə bizim bu işə qarışmağımız da düzgün olmaz. Amma yenə, mən onun övladıyam və bu gün Kamran Hüseynov haqqında daha bir kitaba ön söz yazarkən düşünürəm: atamız o qədər dolğun, o qədər çətin, o qədər idraklı, hər düyününün açılması zəka tələb edən o qədər dəyərli bir həyat yükünün altına girib ki, on il daha artıq yaşaması və bu gün yüz yaşını bizimlə birgə keçirməsi çox ədalətli bir iş olardı...

Məsələ burasındadır ki, indi biz, Kamran Hüseynov "həyatda yoxdur" düşüncəsini də özümüzə yaxın buraxa bilmirik.

Barəsində söz açan, tanıyan, hətta həyatda bir dəfə də görməyib "Bir ömrün salnaməsi", "Quruculuğa həsr olunmuş ömür" kitabından onun bioqrafiyasını öyrənənlərin də söhbətlərinə fikir verəndə və adamların insan xatirəsinə yanaşma tərzini təhlil edəndə, təəccüblənirəm ki, hər kəs Kamran Hüseynovu canlı olaraq yad edir, sanki, o, dünyasını dəyişməyib, yüz yaşında da bizim yanımızdadır, yalnız xatirəsi yox, özü bizimlədir, fiziki olaraq bizimlədir.

Bu mənə böyük təskinlik verir. "Bu dünyada hərədən öz əməlinə münasib istilik qalır – nahaq yerə biz onun adına xatirə deyirik." Dəyərli kəlmələrdir, sərrast deyilib. Kamran Hüseynov çox vəzifələrdə çalışıb, hökmlü, mərd, əyilməz, istəklərinin hər birinə yetməyə qadir səlahiyyət sahibi, el adamı olub. İndi, sözün bu məqamında sanki atamızdan bizə, Vətənimizə, insanlara qalan ən dəyərli miras, bax həmən o istilikdir ki, biz onun adına Kamran müəllimin xatirəsi deyirik. Həmin xatirə - yaddaş isə o dərəcədə istidir ki, camaat hələ də onun sağ olduğunu düşünür, nəfəsini duyur, ruhunun əbədi yanan pak haləsini görür...

Kamran Hüseynov 20-ci yüzilliyin əvvəlindən yola çıxıb, həmən yüz ilin sonuna qədər addımlamış bir şəxsiyyətdir. XX əsrdə Azərbaycanın və keçmiş SSRİ-nin simasının dəyişməsində onun rolu olmuşdur. O, zamanı yaradanlardan idi, o zamana məzmun verənlərdən, vaxtı, əslində mücərrəd olan bir nəsnəni maddiləşdirə bilən nadir şəxsiyyətlərdən biri olmuşdu. Bununla bərabər zaman da atamı yaratmış, yaşatmış, şəxsiyyət ucalığına qaldırmışdır. Onun mənəvi varlığında öz dövrünün bütün əlamətlərini, ən sadə cizgilərini izləmək mümkündür.

Düşünürəm, Kamran Hüseynov istedadlı adam idimi?

Sovet vaxtı, uzun zaman aralığında istedad sözünü yalnız şairlərə, rəssammlara, xanəndələrə, heykəltəraşlara, artistlərə... aid edirdilər.

"Bir ömrün salnaməsi" kitabını oxuyarkən belə qərara gəldim ki, əgər Kamran Hüseynov orta təhsilini vaxtında alıb, Hərtiz dağına həsr etdiyi şeirin işığından tutub bədii yaradıcılıq yolu ilə irəliləsəydi, dövrünün ən maraqlı qələm sahiblərindən olardı. Çünki onun qələmə aldığı bədii-publisistik parçalarda çox dərin həyatilik, canlılıq, mahiyyətə varmaq qüdrəti var. Mən elə bilirəm "Quruculuğa həsr olunmuş ömür" kitabı tarixi baxımdan nə qədər dəyərlidirsə, ədəbi baxımdan da diqqətəlayiqdir.

Atam ömrü boyu ədəbiyyatı, folkloru, mədəni sərvətləri, incəsənəti sevdi, ona vurğun oldu. O, bu sərvətləri yaradan dahi insanlara, mənəviyyat korifeylərinə sonsuz bir ehtiram bəsləyir, onların yaratdıqlarını söz-söz, rəng-rəng, kərpic-kərpic, nəfəs-nəfəs öyrənməyə can atırdı. O, yaradıcı ziyalıları millətin qaymağı sayırdı.

Lakin atam başqa yol seçdi, nə şair, nə yazıçı oldu. Onun bioqrafiyası, həyatından alınmış unudulmaz epizodlar sübut edir ki, zəhmət, idarəçilik, insanlarla təmas, ləyaqətli həyat daha ciddi istedad tələb edir. Kamran Hüseynovun həyatı sübut edir ki, istedad yalnız estetik kateqoriya deyil, həm də sosial-etik mənbədir. İlkin başlanğıcda istedad-baxmayaraq ki, o ruhi vəziyyət kimi təzahür edir, bioloji izahı olan təbii hadisədir. Miqyas fərqi ilə istedad hamıda var. İndi tanış olacağınız "İlin beşinci fəsli. Kamran" romanında siz bu məsələni ispan şairi Q.Lorkadan örnək götürülmüş "duenda"-

zəlzələ sözünün işığında nəzərdən keçirməli olacaqsınız. Əslində istedad-insan sözünün sinonimidir, daha geniş mənada canlı təbiət anlayışının özüdür.

Kamran Hüseynovun həyat yolundan, onun yaradıcılığından kifayət qədər yazılsa da, özü xeyli sayda kitabın, məqalənin müəllifi olsa da, xatirələr kitabına yazdığı yeddi cümlədə bütün ömrünü dəqiq ifadə edib: "Taleyimdən razıyam. Onu özüm yaratdım. Oxutmadılar, oxudum. Evləndirmədilər, evləndim. Böyütmədilər – böyüdüm, böyütdüm. Dayağa söykənmədim – dayaq oldum. Öyrətmədilər – öyrəndim."

Bu cümlələrə atamın, özünün dediyi kimi, quruculuğa həsr olunmuş ömrünün fonunda baxanda onların hər biri tutumlu roman təsiri bağışlayır. Sizcə, çox böyük əminliklə yaşının səksən beşində "Taleyimdən razıyam. Onu özüm yaratdım" deyən adamı istedadlı adlandırmamaq olarmı? Hətta mən deyərdim ki, insanın nəyisə mükəmməl yaratmağı yox, məhz özünü yaratmağı ən qüdrətli istedaddır, dahiyanə bir əməldir.

Kamran Hüseynov böyük yol keçib. Sadə fəhləlikdən peşələrə, briqadirliyə, sex rəisliyinə, partiya təşkilatçısına, raykom katibi, respublika və ümumittifaq səviyyəli həmkarlar təşkilatlarında rəhbər işə qədər addım-addım yüksəlib. Sumqayıt, Mingəçevir, Neftçala, Naftalan kimi şəhərlərin ilk bünövrə daşlarını düzənlərdən olub.

Kamran Hüseynov yazır ki, o, 50 ölkədə 80 dəfədən çox işgüzar ezamiyyətdə olub. Bunlar sərbəst gəzintilər, turist səfərləri deyildi. O, bu səfərlər zamanı dünyaca nüfuzu olan həmkarlar təşkilatlarının liderləri, dövlət başçıları, dünyanın ictimai-siyasi taleyini həll edən insanlarla görüşürdü, söh-

bətlər aparırdı. Afrika qitəsi "qaynayan" vaxt (orada müstəmləkəçiliyə qarşı ölüm-dirim müharibəsi gedir, 50-dən çox toplum tarixi ərazilərdə dövlətlərini yaratmaq istəyirdilər.) SSRİ dövləti sanki Kamran Hüseynovu bu nəhəng regiona "təhkim" eləmişdi.

Kamran Hüseynov böyük zəhmətlər bahasına müharibədən sonra Sumqayıtı sürətli inkişaf yoluna çıxardanda, gözü götürməyənlər ordan-burdan boy verdi, ağzıgöyçəklər tapıldı, onlar səlahiyyət sahibi idilər və lazımlı şəhərə "öz adamlarını yerləşdirmək", hər gün bir təşəbbüs qaldıran, yorulmaq bilməyən Hüseynov yoldaşdan can qurtarmaq istədilər. Bu zaman ona dedilər ki, gəl səni daxili işlər naziri qoyaq, beş-altı müavin verək. "Siz nə danışırsız, Sumqayıtda türmə tikilməsi pisimə gəlir, qoymuram bizim şəhərin ərazisində həbsxana yerləşsin, siz məni daxili işlər naziri qoyursunuz."

Atam quruluşca qəddi-qamətli, əzəmətli idi, amma onun yuxa kimi nazik, uşaq kimi kövrək ürəyi vardı.

İndi Kamran Hüseynovun xarici səfərlər zamanı nümayiş etdirdiyi yüksək diplomatiya mədəniyyəti, dərin siyasi fəhmi, vəziyyəti məharətlə qiymətləndirib yaranmış gərginliyi aradan qaldıra bilmək bacarığnı xatırlayır və SSRİ-nin ağlı olsaydı, Kamran Hüseynova daxili işlər naziri yox, xarici işlər naziri vəzifəsini təklif edərdi, düşünürəm. Əlbəttə, mən bunu söz-gəlişi deyirəm.

Atam xatirələrində bir ilahi kəliməni bəlkə yüz kərə işlədib – Xudaya. Yəqin ki, bu kəlimə Kamran Hüseynova ənənələrdən, qan və dil yaddaşı ilə ötürülmüş koddur. Çox güman həmin söz mənim ulu nənə-babalarımın da dilindən düşmürmüş.

İndi deyirəm: görəsən, Kamran Hüseynovda o boyda güc, işləmək həvəsi, yaratmaq-qurmaq eşqi haradan imiş? O, güclü idi. Lakin heç bir işi gücün hesabına həll etməzdi. Həmişə biliklərini dərinləşdirməyə can atır, ən güclü vasitə ağlın qüdrətini sayırdı.

Onda insanlara necə də sonsuz sevgi və mərhəmət vardı. Vaxtı ilə bir yerdə işləmiş sonradan qocalmış, xəstəlik tapmış ailəni maşına yığaraq dörd otaqlı mənzilinin bir gözünə köçürür ki, rahatlıq tapsınlar, üç gün vaqona darı yükləyib aldığı iyirmi manatın on manatını həmyerlisinə bağışlayır, müharibə vaxtı Ukraynadan gəlmiş uşaqlara inək alıb süd içizdirirdi. Vaxtilə ona zülm eləmiş, müflis olmuş bəy ailəsinə təmənnasız ət, yağ, qənd... talonlarını bağışlayır. Neftçalada türməni açdırıb günahsız insanları azadlığa buraxdırır...

O, kimləri görməyib, kimlərlə təmas qurmayıb, kimlərlə işləməyib – Stalin, Beriya, Brejnev, Qrişin, Suslov, Fidel Kastro, Çe Gevara, Xoşi Min, M.Bağırov, Vəli Axundov, İmam Mustafayev, Süleyman Rəhimov, Səməd Vurğun, Əli Vəliyev, Rəsul Rza, Mir Cəlal, Mikayıl Abdullayev, Qara Qarayev, Bülbül, kimlər, kimlər... Yaradıcı ziyalılar öz yerində, adı çəkilən bəzi dövlət rəhbərləri ilə nəinki bir yerdə işləmək, hətta onlarla eyni əsrdə yaşamaq çətin idi...

Kamran Hüseynov öz xalqını, necə böyük övlad məhəbbəti ilə bağrına basır, torpağını qarış-qarış dolanır, olduğu hər bir mərtəbədə Azərbaycanın xeyrinə nəsə edirdi.

Burada bir məsələni də xüsusi vurğulamaq istəyirəm, indi Vətənimiz müstəqillik yolu ilə gedərkən həqiqi bir intibah yaşadığımız günlərdə hər kəs etiraf edir ki, bizim qazandığımız uğurların möhtəşəm bünövrə daşları Ulu öndər,

xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Yaxın-uzaq tarixdə çoxlu şəxsiyyətlərin şərəfli adları var. Lakin XX əsrin ən böyük siması, yeni Azərbaycanı, müstəqil dövlətimizi quran, möhkəmləndirən yeganə qətiyyətli lider Heydər Əliyevdir. Tarixdə onunla müqayisəyə gələn ikinci bir azərbaycanlı yoxdur. Heydər Əliyevlə atamın tanışlığı ötən əsrin 40-50-ci illərinə gedib çıxır. O zaman ki, gənc Heydər Əliyev dövlətçilik meydanında parlayırdı, onun gələcəyinə böyük ümidlə baxırdılar. görünür, bu da qeyd olunmalıdır, onlar aralarında on il yaş fərqi ilə, təqribən iyirmi yaşa qədər Vətən torpağının qonşu bölgələrində, eyni təbii mühitdə, eyni adət-ənənəyə, ləhcəyə malik insanlar arasında yaşayıblar. On yaşlı Kamran Hüseynovun gördüyü ilk şəhər Naxçıvan olub. 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçiləndə Kamran Hüseynovun Moskvadan Vətənə dönüb, Nazirlər Sovetinin sədrinin müavini kimi bir ili tamam olmuşdu. Heydər Əliyev ona ehtiramla yanaşdı, inandı, vəzifəsində saxladı. Ulu öndər Moskvada siyasi büroya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavinliyinə aparılana qədər o, Heydər Əliyevin ən bacarıqlı kadrlarından biri kimi fəaliyyət göstərirdi. ″Şöhrət″ ordeninə layiq görülən Kamran Hüseynov dövlət rəhbərinin apardığı islahatlara ürəklə qoşulur, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirirdi. Atam dönə-dönə bizə deyirdi ki, əgər 1982-ci ildə Heydər Əliyevi Azərbaycandan aparmasaydılar, nə erməni təcavüzü, nə 20 Yanvar qətliamı, nə də torpaqlarımızın işğalı baş verərdi. Heydər Əliyev xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdanda da Kamran müəllimi unutmadı. Onu müdrik el ağsaqqalı gözündə gördü.

Atamın həyatının son üç ili hörmətli Prezidentimiz İlham Əliyevin dövlət başçısı olduğu dövrə düşür. Şahidəm ki, ona dövlət səviyyəsində ehtiram ömrünün son gününə qədər davam etdi. Atam İlham Əliyevin prezidentliyinin elə ilk ilindən böyük uğurlara imza atdığını, ən əsası, işə cəsarətlə girişməsini görür və onunla fəxr edirdi. Mehriban xanımın məktəb tikintisinə kömək, uşaqların sağlamlığı, mədəniyyət sahəsindəki təşəbbüsləri də onu həyəcanlandırırdı, hər ikisi haqqında söz düşəndə deyirdi ki, yaxşı övladlar yalnız valideyinlərinə deyil, bütün xalqa məxsusdur.

Bütün bunları yazır və hər dəfə olduğu kimi Heydər Əliyevin böyük adı ürəyimi qürur və həyəcanla doldurur.

Heydər Əliyev vətənimizin layiqli, işgüzar, istedadlı insanlarını qoruyur, onların xalqa xidmət etməsi üçün hər cür imkan yaradırdı. Ulu öndərin atama münasibəti baxın ən yaxşı örnəklərindən biridir.

Heydər Əliyevin müəyyən etdiyi yol atamın, eyni zamanda, yüz minlərlə insanın təqdir etdiyi, ömür boyu sadiq qaldığı yoldur. Bizə, Kamran Hüseynovu tanıyıb ehtiram bəsləyənlər üçün çox xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti Ulu öndərin ənənəsini davam etdirərək Kamran Hüseynovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Bir övlad kimi mən ömrünü xalq işi uğrunda mübarizəyə həsr etmiş bir insana belə yüksək dəyər verdiyi üçün hörmətli Prezidentimiz İlham Əliyevə ən dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda dövlət başçısının imzaladığı sərəncamdan irəli gələn bütün məsələləri yüksək səviyyədə təşkil etdiyinə və bu kitabın işıq üzü görməsinə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Mədəniyyət

və Turizm Nazirliyinin kollektivinə, nazir Əbülfəs Qarayevə təşəkkür edirəm.

Nəhayət, Kamran Hüseynova həsr olunmuş "İlin beşinci fəsli. Kamran" publistik romanına, mən onu həyacanla oxudum. Müəllif düzgün etiraf edir ki, Kamran Hüseynovun xatirələrindən ibarət iki kitabı - "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür" kitablarını elə mükəmməl işləyib ki, onların təkrar çapı görkəmli ictimai xadimin 100 illik yubileyinə ən layiqli töhfə ola bilərdi. Amma onun xatirələri o qədər cazibədar, faktlarla, həyat lövhələri ilə o qədər zəngindir ki, əlində qələm olan bir şəxs bu mövzunun yanından laqeyd ötüb keçə bilməz. Görünür, sevimli şairimiz Vaqif Bəhmənlini bu mövzuya yeni bir nəzərlə baxmağa məhz bu cəhət vadar etmişdir.

Bəri başdan deyim ki, roman uğurlu alınıb. Mən orada layiqli vətən oğluna məhəbbəti gördüm. Yenidən mənim üçün çox əziz olan bir insanın cazibəsinə düşdüm. Və bir daha qəlbən inandım ki, bu ad yalnız onun ailə üzvləri üçün deyil, bütün xalqımız üçün əzizdir. Çünki bu insan uzun bir ömürdə heç də asan olmayan, çox vaxt havası qarışıq, hətta bəzən sərhədləri bilinməyən dörd fəsildən keçərək yalnız ona məxsus olan beşinci fəsli yaradıb, Kamran fəslini...

**Hicran Hüseynova**



**Epiqraf**
"Gülərüz və ciddi qocanı hamı sevir".
*Demokrit*

# PROLOQ

O doğulanda zamanın qatbaqat sirlərinə bürünmüş möhtəşəm tarix, qan qoxusu və gülüstan ətri, qələbələr və məğlubiyyətlər arxada qalmışdı.

Tanrılar miflərə, əsatirlərə dönmüşdülər.

Biz bu fikirlərə bir də qayıdacağıq.

Amma silinməz izlər qalırdı...

Qalalar, qəsrlər, hələ bundan da ötə kahalar, mağaralar qalırdı...

...Bütün bu deyilənləri qüdrətli varlığında dünəndən qoparıb bugündə dirildən, diriltdiyini kəsib, doğrayıb çin-çin dəstələyən, zəhmətin Sizif sonluğunu düşünmədən əlində-ovcunda olanları sabahlara daşımağa can atan insan var idi.

İnsan-o uşaq doğulana qədər daşdan silah və yemək boşqabı yonmuşdu, ov ovlayıb quş quşlamışdı, dil açıb danışmışdı, paltar geyib isinmişdi, düşünüb adam olmuşdu. O uşaq doğulanda təbii ki, İkiçayarası dəyərlərinə bərabər Quruçay mədəniyyətinin qırağında dünya işığına göz açdığını bilmirdi. Həyat sularının şarhaşar çağlayaraq axdığından,

nəinki Quruçay mədəniyyətinin, indi dünyanın özündən deyən məmləkətlərin başlanğıcı olan Azıx sirlərindən də xəbərsiz idi...

Allah onu insanlıq tarixinin mənbəyində yaratdı. Hələ durulub işığa dolmayan gözləri ilə dünyaya qundaqdan baxan çağa hardan bilərdi ki, sonralar birər-birər dərk edib, hər addımda nəzərə almaq istədiyi zəhmət, hərəkət tarixinin başlanğıc nöqtəsi onun havalı yüyrüyü asılan bu vətən, bu diyar, bu məmləkətdir?!

Sonra...

Sonra min illər min illərə qovuşdu. Axşam düşdü, sabah oldu.

Azıxda, Qobustanda körpə təfəkkürlü adamlar dözümlü daşlar üzərində arzu və niyyətlərini - ibtidai tarixi cızdılar.

Qartal uçuşlu zamanlar ötüb keçəcək, türk vətəninin Zəngəzur-Qarabağ mahalında dünya işığına gələn o körpə bütün idraklı insanlar kimi kökünü dərk etmək üçün qarış-qarış gəzib baxdığı yer üzünün girinti və çıxıntılarda özünü axtaracaq və deyəcək ki, böyütmədilər- böyüdüm, qışqırdılar- qorxmadım, iki böldülər- yaşadım!

Tarixin dərin qatlarından, ulu yaddaşlardan gələn adamlar seçilmiş adamlardır...

Baxın, o, iri cüssəli, azdanışan, amma lazım olanda danışan, qismətinə qane olan, dar macalda dada çatan, hardan gəlib hara getdiyini, kim olduğunu dərk etmək istəyən,bir qədər zəhmli, mərd və həm də bütün bunlarla bərabər mərhəmətli Allah bəndəsi olmuşdu.

Özününün və xalqının kim olduğunu dərk etmək naminə tarixi öyrənən adamlar seçilmiş adamlardır.

Yoxsa nə düşmüşdü ki, atası dünyasını dəyişəndən sonra böyük bir nəslin yükünü çiyninə götürən, mal-heyvan bəsləyən, sümüyü bərkiməmiş mürəkkəb Bakı mühitinə gəlib

duda zavodunun qapqara qurumunu udub, əlini doğraya-doğraya çilingərlik peşəsinə yiyələnən bir kişi otuz dörd yaşında ali tarix dərsi alsın, o dövrə görə tarix fakültəsindən qat-qat üstün Ali Partiya Məktəbini bitirsin!

Özünü axtaran insan seçilmiş insandır.

Bütün varlığını əməyə (fərqi yoxdur, bu əmək fizikidir, yaxud əqli) həsr edən, tarixi yaradan və heç bir halda tarixi tərk etməyən insan seçilmiş insandır.

Əgər bu romanın müəllifi, bəlkə də yozumçusu, yəni mən, insanlığın böyük tarixini xəyalən dolaşaraq öz qəhrəmanımın adını, soyadını bircə yol çəkməsəm belə, oxucu, yəni sən, biləcəksən ki, söhbət çağdaş Azərbaycan varlığının təməlində dayanan yüz isimdən biri barədədir.

Böyük tariximizi yaradan o yüz şəxsdən birinin adı Kamrandır. İnsaallah ki, biz bu məsuliyyətli cümlələri sübut edib sözümüzün ağası olacağıq. Onun kimi, Kamran müəllim kimi...

Bilirsiniz nə var, əslində oxucuya tanıtmaqdan daha çox, onu özüm tanımaq istəyirəm...

Təhkiyyənin sonunda qəhrəmanını tanıya bilən müəllif seçilmiş müəllifdir.

Bu qismətə bel bağlamaq bir qədər çətindir. Çünki meydanda az sayda kitablardan, bir neçə qəzet-jurnal məqaləsindən, xışıltılı videolardan və onun övladları Hicran xanımın, Reyhan xanımın bu ağır işin nəylə başa çatacağına dair təlaşlarından savayı ayrı bir dəlil-sübut yoxdur...

Onu tanıyan dahi azərbaycanlıların böyük əksəriyyəti haqq dünyasına qovuşublar, Kamran müəllimin üz qoyduğu vətən torpağına, ana yurdun ürəyinə sığınıblar. Bu halda müəllif qədim bir sual önündə dayanmalı olur: nədən başlamalı?

Kifayət qədər zəngin yazı təcrübəsi olan biri "nədən başlamalı?" sualı üzərində baş sındırarkən, yəqin fərqinə varmalıdır ki, haqqında əsər yaratmağa başladığı insan da özünə qədərki dəyərli şəxsiyyətlərin doxsan doqquz faizi kimi "nə etməli?" sualı önündə düşünüb-daşınıb. Bu barədə də danışılacaq. Əslində Kamran müəllimin həyatının mənası (siz bunun şahidi olacaqsınız) ən müxtəlif mərhələlərdə "nə etməli?" sualı qarşısında, sual yox, bəlkə də "nə etməli?" sınağı qarşısında dayanmaq və həmişə də ən doğru seçimi etməkdən ibarət olmuşdur.

Hələlik "nədən başlamalı?" sualına nəzər salmağa zərurət var.

**Mənbələr**

Əlbəttə, sənədlərdən başlamalıyam. Baxmayaraq ki, bu sətirərin müəllifi ən azı 50 il ərzində Kamran müəllimin varlığından, onun fəaliyyətindən xəbərdar olmuş, 70-ci illərdən ta bu günə qədər, keçmiş SSRİ-də, Azərbaycanda baş verən proseslərin içində yaşamışdır. Bununla belə, mənə görə sənədlər, az qala canlı həyat qədər mötəbərdir. Sənədlər inandırır. Sadəcə onlara ölçü-biçili, ifrat fantaziya həddinə çatmayan təxəyyülün gücü ilə nəfəs vermək lazımdır.

Budur, yazı masası üzərində yüz iyirmi səhifəlik kitab qızarır. Rus dilindədir, "Azərnəşr"də işıq üzü görüb. Müəllifi Kamran Hüseynov, adı "Azərbaycan Həmkarları kommunizm quruculuğu uğrunda mübarizədə". İthaf belədir: "Sovet hakimiyyətinin qələbəsi və Azərbaycanda Kommunist partiyasının yaranmasının 40 illiyinə həsr olunur." Zamanın ideoloji möhürü qan ləkəsi kimi pozulmazdır, bu öz yerində, müəllif bu

kitabda dərin araşdırmalar apararaq XIX yüzilin ikinci yarısından ötən əsrin 20-ci illərinə qədər Azərbaycanda kapitalist istehsal münasibətlərinin yaranmasını, yeni ictimai-iqtisadi formasiyanın milli iqtisadiyyatda necə təzahür tapmasını indinin özündə də tarixi əhəmiyyətini hifz edən faktlar əsasında açıb göstərmişdir.

Azərbaycanda fəhlə sinfinin formalaşmasında neft sənayesinin inkişafının rolu əvəzsizdir. 200 ildən çox bir müddətdə qara qızıl cəmiyyət həyatının təkamülündə liderliyini qoruyub saxlamışdır. Müəllif yazır: XX əsrin əvvəlində Bakıda 65-70 min fəhlə qüvvəsi cəmlənmişdi. Xaraktercə onun tərkibi çoxmillətli idi. Azərbaycanın kənd yerlərindən, Ermənistandan, Gürcüstandan, Dağıstandan, Rusiyanın digər quberniyalarından insanlar iş dalınca Bakıya axışırdılar. XIX əsrin sonlarında İrandan, xüsusilə Cənubi Azərbaycandan fəhlə qüvvəsinin güclü axını baş verirdi...

1934-cü ildə gənc Kamran Qubadlı rayonunun Çərəli kəndindən 200 nəfər həmyerlisi ilə birlikdə Bakıya gəlib neft sənayesində ilk addımlarını atanda ölkənin baş kəndinə axın hələ də davam etməkdəydi. Bu axın heç indi də bitməyib...

Yenə "Azərnəşr", 1963-cü il. Kamran Hüseynovun yeni kitabı (yeganə nüsxələr Milli Kitabxanada qorunur) belə adlanır: "Biz İtaliyada nələr gördük".

Bu kitabda dünyanın ilk sivilizasiya, mədəniyyət beşiklərindən olan İtaliya haqqında dolğun təəssüratlarla yanaşı 30 il öncə böyük həyatın astanasına ayaq basan bir kəndli balasının nəinki Azərbaycanda, 200 milyonluq SSRİ miqyasında sayılıb-seçilən obrazı da canlanır. Müəllif hədsiz bir marağın təsiri altında şəhərbəşəhər gəzib dolaşdığı İtaliya barəsində əsl yazıçı qələminə məxsus  bacarıqla cümlələr yazmışdır.

Digər monoqrafiya da masanın üzərindədir. "Afrikanın fəhlə sinfi və həmkarlar İttifaqları". Moskva nəşridir. Burada tədqiqatçı-alim Afrika xalqlarının azadlıq mübarizəsini mərhələlərə bölərək, xarakterik xüsusiyyətləri ayırıb ümumiləşdirməklə nəzərdən keçirir.

Təsadüfi deyil ki, bu qiymətli tədqiqat əsəri ötən əsrin görkəmli tarixçilərindən, tarix elmləri doktorları K.Rəhimov və Z.Abdullayevin diqqətini çəkmiş, onlar "Azərbaycan Kommunisti" jurnalının 1969-cu il noyabr sayında "Dəyərli tədqiqat əsəri" adlı tənqidi-biblioqrafik məqalə çap etdirmişlər.

"İlin beşinci fəsli. Kamran" əsəri yazılarkən Kamran Hüseynovun 1961-ci ildə "Sovetskiye Profsoyuzi" (Moskva) jurnalının 2-ci sayında yer alan "Respublikada neft və kimya", "Azərbaycan kommunisti" (Bakı) jurnalının 1976-cı il may nömrəsində dərc olunmuş "Elm və mədəniyyətimiz yeni inkişaf mərhələsində", "Trud" qəzetinin 1959-cu il, 29 mart sayında işıq üzü görən "Qüvvələrimizi birləşdirək", 1958-ci il 12 sentyabr tarixində "Bakinskiy raboçiy" qəzetində təqdim olunan "Həmkarlar kimya sənayesinin sürətli inkişafı uğrunda" məqalələri də nəzərdən keçirilmişdir.

Zamanın qaydalarına uyğun olaraq ötən əsrin 90-cı illərinə qədər rəsmi məlumatlardan başqa dövlət adamları, eləcə də bu əsərin qəhrəmanı haqqında, yaxud onun kitablarına həsr olunmuş məqalələr, oçerklər azlıq təşkil edir. Çünki belə qəbul olunmuşdu; yüksək vəzifəli adamlar haqda yazılar hazırlamaq, heç olmasa onların təcrübəsini yaymaq xatirinə bu adamları mətbuata çıxarmaq sadəcə...olmazdı. Hətta müsahibələrə də yol verilmirdi. Yaxşı ki, Kamran Hüseynovun yazmaq, öz fikirlərini elmi, publisistik, hətta ədəbi üslubda

qələmə almaq istedadı olub. Elə buna görə də ötən yüzilin 90-cı illərinə qədər görkəmli dövlət xadimini ən etibarlı və mükəmməl şəkildə öz əsərləri tanıdır.

1998-ci ildə "Günəş" nəşriyyatı Kamran Hüseynovun "Bir ömrün salnaməsi" kitabını çap etdi. Annotasiyada deyilirdi: "Tanınmiş ictimai və dövlət xadimi Kamran Hüseynovun bu kitabı Azərbaycan Respublikasının son 60-70 illik həyatını əks etdirir. 1941-45-ci illər savaşından sonra Bakının dirçəldilməsi, Sumqayıtın ikinci sənaye şəhəri olaraq yüksəldilməsi, Mingəçevir şəhərinin və SES-nın yaradılması ilə bağlı keşməkeşlər, o dövrün hadisələrinin və tarixi şəxsiyyətlərinin, o cümlədən Mircəfər Bağırov şəxsiyyətinin işıqlı və kölgəli cəhətləri kitabda canlı müşahidələrin məhsulu olaraq təqdim olunmaqdadır."

Redaktor Elman Əliyev redaktoru olduğu digər bir kitaba (Kamran Hüseynov "Quruculuğa həsr olunmuş ömür") ön sözündə yazır ki, "Bir ömrün salnaməsi" adı ilə 1998-ci ildə və eyni anlamı daşıyan "Letopis odnoy jizni" adıyla rus dilində 1999-cu ildə ("Hərbi nəşriyyat") çapdan çıxmışdır, indiki günlərimiz üçün az olmayan tirajla: uyğun olaraq 2000 və 1000 nüsxə. Onun yayılması isə indiki günlərdə (xüsusən Azərbaycan kitabı üçün) görünməmiş bir sürətlə baş vermişdir. "Salnamə" (eləcə də "Letopis") artıq "nadir nüsxəyə" çevrilmişdir. Deyilənə görə adamlar onu bir-birindən müəyyən bir sənədi girov qoymaqla oxumağa götürürdülər..."

İki kitabı üst-üstə ayrıca qoymuşam. Çünki onlar bizim romanın da əsasında dayanır. "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür". Adlar, ön sözlər, əlavələr

və xırda redaktələr nəzərə alınmasa, onları eyni kitabın iki nəşri saymaq olar.

Redaktor Elman Əliyev düz deyir. Təkrar nəşr oxucu tələbatından yaranmışdır. Belə görünür ki, bu kitablar gələcəkdə nəinki yenidən, daha nəfis şəkildə nəşr olunacaq, hətta bax bizim elə bu roman kimi neçə-neçə yeni əsərlərin meydana çıxmasına əsas verəcək. Uzağa getmək lazım deyil. Dəlil əlimin altındadır. Ötən əsrin 80-90-cı illərindən Azərbaycan mətbuatında birgə çalışdığım Xeybər Göyyalının (o gözəl şairdir, bədii publisistikanın çox sayda emosional örnəklərinin müəllifidir) "Görkəmli adamların həyatı" seriyasından "Kamran Hüseynov" kitabını da oxuyumalı oluram...

Bütün bunlar yaxşı ki var.

Amma boynuma alıram. "Quruculuğa həsr olunmuş ömür" də daxil, digər hər hansı bir kitab sözün yaxşı mənasında mənə mane olur. Ona görə yox ki, onlar naqisdir. Əksinə, bu kitablar elə şəkildə yazılıb ki, sanki deməyə söz qalmayıb.

Bir müşahidəni də xatırlatmaq yerinə düşür. Kamran Hüseynovun adı çəkilən iki kitabı, "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür" kitabları çap olunandan sonra Azərbaycan mətbuatında onun şəxsiyyəti, fəaliyyəti və qələmə aldığı əsərlər haqqında o qədər yazı işıq üzü görüb ki, bunlar onun barəsində bütün ömrü boyu yazılanlardan qat-qat çoxdur. Bəzilərini qeyd etmək ən azı ehtiram xatirinə gərəkdir: "Kamran Hüseynov. Ləyaqətli insan" (Hacı Nərimanoğlu, Zəngəzur Birliyinin sədri), "Bir ömrün salnaməsi" (yenə həmin müəllif, "Azərbaycan işıqları", 1999), "Bir ömrün salnaməsi" (Mehdi Mükərrəmoğlu, "Xalq qəzeti", 2013), "Ka-

milliyə, insanlığa, zirvəyə aparan yol" (Mehdi Mükərrəmoğlu, "Xalq" qəzeti, 2007), "Quruculuğa həsr olunmuş ömür" (Pərvanə İbrahimova, "525-ci qəzet", 2011), "Quruculuğa həsr olunmuş ömür" (İsmayıl İsmayılov, Ağalar İdrisoğlu "Azad Azərbaycan", 2009), "Görkəmli ictimai-siyasi xadim haqqında monoqrafiya" (Əsmət Məhsəti Gəncəli, "Respublika", 2010), "Smısl eqo jizni" (Elmira Əliyeva, "Kaspi", 2011), "Əbədi dəyərlər rəmzi" (Qulu Məhərrəmli, "525-ci qəzet", 2010), "Yaddaşda qorunan insan" (Hafiz Osmanov, "Yaddaş", 2007), "İnsandan əməl qalır" (Nurlana Əliyeva, "Xalq" qəzeti, 2010), "Yaşamaq, yaratmaq şövqü ilə yaşayırdı" (Elmira Əliyeva, "Respublika", 2011), "Şərəfli ömür yolu" (Esmira Fuad, "Respublika", 2003)...

Örnək olaraq misal gətirilən məqalələr 1998-ci ildən etibarən, yenə təkrar edirəm, Kamran Hüseynovun "Bir ömrün salnaməsi" və "Letopis odnoy jizni", "Quruculuğa həsr olunmuş ömür" kitabları çap olunandan sonra işıq üzü görmüş yazıların çox az bir qismidir. Mən məqalələrin dərc olunduğu illəri qəsdən qeyd etdim. Yazıların bəziləri görkəmli dövlət xadiminin portret cizgilərini yaratmaq, doğum və ölüm tarixlərinə sayğı göstərmək məqsədi daşısalar da, onlardakı hər bir fikrin mənbəyi Kamran Hüseynovun adı çəkilən üç kitabdır. Hər üç kitab həyat faktlarının zənginliyi, yaşanmış ömrün cazibədar bir dillə, bəzən qəzəbli, bəzən yumorlu, bəzən fərəhli ovqatla təsviri sayəsində maqnit qüvvəsi yaratmış, ona toxunmağa həvəs göstərənləri öz çevrəsinə çəkmişdir. İndi bu sətirlərin müəllifi də həmin xoş cazibə qarşısında "Bir ömrün salnaməsi"nə, "Quruculuğa həsr olunmuş ömür"ə doğru dartılır, nəhayətsiz bir həyəcan keçirir.

**Sözün qüvvəti**

...Mən belə bir həyəcanı Kamran müəllimin hüzurunda da keçirmişəm. Onu tanımaq, onun dizinin dibini kəsdirib bütün bu olanları canlı təfsilatıyla öz dilindən eşitmək, cild-cild bloknotlar götürüb, dəstə-dəstə qələmlər bitirib o qürurlu şəxsiyyətin dilindən çıxan hər kəlməni köçürmək, yenə danışdırıb, yenə köçürmək imkanını boşa verdiyim üçün özümü dəhşətli bir barışmazlıqla qınayıram.

Eh Kamran əmi, biz nələrin, kimlərin qədrini bilməmişik. Burnumuzun ucunda, nəfəs-nəfəsə yaşadığımız sərvətlərə sahib çıxsaydıq, böyük insanların heykəlini küçələrdə yox, içimizdə ucaltsaydıq necə də möhtəşəm türk qovmu, Azərbaycan insanıydıq indi biz?!...

Şərə lənət!

O xalq xoşbəxtdir ki, sonda qənimət övladlarının həyatı hansı bir yollasa kitaba dönür.

Budur, o kitab sizin qarşınızdadır. Mənbəyində "Bir ömrün salnaməsi", "Quruculuğa həsr olunmuş ömür", mənsəbində "İlin beşinci fəsli. Kamran". İnsan və zaman haqqında gerçəkli roman...

Yaradandan arzumuz budur ki, sözümüzə ən azı Kamran əmi qədər ömür versin – Əbədi!

**Salnamə**

Taleyimdən razıyam. Onu özüm yaratdım. Oxutmadılar-oxudum (təhsil aldım). Evləndirmədilər-evləndim. Böyütmədilər - böyüdüm. Dayağa söykənmədim, dayaq oldum. Öyrətmədilər- öyrəndim.



Hüseynovlar ailəsinin qoşa qanadı -
Kamran müəllim, Zeynəb xanım





Kamran Hüseynovun
anası Lalə xanım



Həyat yoldaşı Zeynəb xanımla



Kamran və Gürşad Hüseynov qardaşları



Qardaşı Gürşadla



Lalə xanım (ortada), Gürşad və həyat yoldaşı Yaqut xanım





Zeynəb xanım

K.Hüseynov





K.Hüseynovun bacıları: Sona və Sara

Ömrün şəkillərə
köçən anları...













Ömrün şəkillərə
köçən anları...



Reyhan valideynləri ilə



Soldan sağa: oğulları Eldar, Aydın,
həyat yoldaşı Zeynəb xanım, qızları Hicran və Gülsurə



Səfərdə



Zeynab xanım, qucağında Reyhan, Aydın, Kamran, Hicran.
Moskva, Rublyovo, 1966



Qızı Gülsura ilə



Bəhrəmtəpə.
Nəvələri Murad və
Mehribanla



Hüseynovların ilk
nəvəsi Mehriban



Nəvəsi Mehriban xanım



Qızı Gülsura xanım



Soldan sağa: nəvələri Mehriban, Murad, nəticəsi Mikayıl, nəvəsi Teymur. Qızı Gülsura və onun həyat yoldaşı Elbrus



Nəvəsi Mehriban oğlu Mikayılla



Nəvəsi Murad və onun həyat yoldaşı Ülviyyə



Nəvəsi Murad və onun həyat yoldaşı Ülviyyə,
nəticələri - soldan: Ayan, Ameliya, Mircəfər, Məryəm



Nəvəsi Muradla



Gəlini Gülnarə və nəvəsi Fərhadla



Soldan sağa: gəlini Evgeniya, oğllu Fərhad, Eldar və onun həyat yoldaşı Gülnarə, oğlu İsmayıl



Oğlu Eldar və onun həyat yoldaşı Gülnarə



Oğlu Aydınla



Soldan sağa: gəlini
Leyla, oğlu Aydın,
nəvəsi Kamran



Nəvəsi Aysellə



Aysel və həyat yoldaşı Lui



Gəlini Leyla, nəvəsi Kamran



Nəvəsi Kamran,
onun həyat yoldaşı Svetlana



Qızı Hicran xanım, kürəkəni Rüfət müəllim,
nəvələri Gülşən və Lalə



Nəvəsi Gülşən, nəticəsi Arzu, Arzunun atası Nəsir



Qızı Reyhan xanımla



Soldan: nəvəsi İsmət, qızı Reyhan və onun həyat yoldaşı Pənah, nəvəsi Zeynəb



Soldan: İsmət və Zeynəb



Soldan: nəvəsi Fərhad, oğlu Eldar,
gəlini Gülnarə, oğlu Aydın, nəvəsi Kamran



K.Hüseynov nəvələri ilə



K.Hüseynov nəvələri ilə



Nəvələri. İsmayıl və İsmətlə



Kamran Hüseynov və övladları:
Hicran, Reyhan, Gülsurə, Aydın, Eldar



Nəvələr və nəticələr arasında



Kamran müəllim və Zeynəb xanım

# Yaza qədər

**Epiqraf**
"Həyatımın payızı çatdı. Elə bir bəhərli ağaca bənzəmək istəyirəm ki, hər tərpənişimdə meyvələrim dolu kimi yağsın."

*L.Bethoven.*

Qubadlı Azərbaycanın İkiçayarasıdır. Yəni Mesapotamiya. Fərq çayların adında, yataqdan axan suyun miqdarındandır, orada Dəclə və Fərat, burada Həkəri və Bərgüşad. Suyun həcmini ekoloqların öhdəsinə buraxaq...

Biri var idi, biri yox idi. Bir Bərgüşad çayı var idi, bir də bir Həkəri çayı var idi. Bu iki çay təpəsi qarlı dağların – Zəngəzur zirvələrinin su dolu döşündən sızıb, sonra hardasa bir-birinə qovuşub sarı sulu Araza tökülürdülər. Bir də bir Xudafərin körpüsü vardı. Həkəriynən Bərgüşad Araza töküləndən sonra Ədəm (Adəm) cənnətinə bənzəyən yaşıl vadilər arasından keçərək, belini dərdlər çökürdən Xudafərinə çatır, Qarabağ dilində həmin o belini dərdlər çökdürən Xudafərin körpüsünün su çırpılmaqdan şümallaşan hörgülərinə nəsə deyir, yenə baş alaraq gedir, gedirdi.

**Şeir**

Xudafərin körpü? - əbədi giley...
Dərdinə bir şərik çıxan olmayıb.
Köksünü qartallar didən Prometey
Əzaba bu qədər yaxın olmayıb.

Ağrıdan daşları alışır onun
Köklənib havası güman üstündə.
Tikanlı məftildir balışı onun,
Yatır səhərəcən tikan üstündə.

Dünyanı körpünün qarğışı tutar,
Olmaz heç bir kəsin xuda kərəmi
Anam Azərbaycan, əzabdan qurtar,
Dəyiş yastığını Xudafərinin...

O iki çay Araza qovuşub gedirdi. Xəzərin dərin qatlarından çıxan, bugünki Azərbaycanı ağ günə çıxardan neftin tərkibində Bərgüşad və Həkərinin Zəngəzur zirvələrindən dartıb gətirdiyi cövhərin də payı var. Çünki dənizin dibini ona tökülən axarların çöküntüsü yaradır.

Bərgüşad Həkəriyə və yaxud əksinə Həkəri Bərgüşada qovuşmadığında, çaylar əkiz qardaşlar kimi qol boyun olmağında, gəlib-gəlib Araza tökülməyəndə, oradan da bərəkətli sürü kimi - biri üç olmağında və lap sonda Xızır nəhrinə baş qoymağında olsun, sizə kimdən deyim, nədən deyim... bir ilin içində dörd yox (yaz, yay, payız, qış), beş fəsil olmağından deyim.

Beşinci fəslin adı başqa romanlarda başqa cür ola bilər. Amma bu romanda o beşinci fəslin adı Kamrandır.

Bu fəsli o, özü yaradıb.

Əməli, mərdliyi, vicdanı, vəfası, dözümü ilə...

İndi görək bu, necə olub.

Sərt iqlimləri bir kənara qoyaq. Azərbaycan elə bir məmləkətdir ki, burada fəsillər arasında mülayim keçidlər var.

Məsələn, qışla yazın, yazla yayın, yayla payızın və yenə payızla qışın arasında elə qısa mövsümlər durur ki, anışdıra bilmirsən, sən hansı fəsildəsən, qışda, yoxsa baharda, yazda, yoxsa yayda və beləcə davam... Bizdə fəsillər bir-biri ilə qardaş-bacı kimidir.

O, ondan, bu bundan tutub, isnişib özləri üçün barlı-bəhərli, həyat havalı il yaradırlar.

Kamran 1934-cü ilin may ayında Qubadlı elinin Cərəli obasından 200 nəfər həmyerlisi ilə Həkəri stansiyasından qatara minib böyük ömrünü başlayanda hər havadan daha çox, tumurcuq ömrün yaza qədərki ən azı 200 il sürən aralıq fəslindən vəhy (indiki dillə mesaj) almışdı.

## Novxanı. Qızılqaya

...Müdrik insan 1997-ci ildə ömür kitabını yazmaq qərarına gəldi.

Düz deyiblər ki, kimin xatirəsi yoxdursa, deməli onun həyatı da olmayıb.

Bu elə bir zaman idi ki, hay-harayından yorulub dinclik odasına çəkilmək istəyən Abşeron bağlarına payız qədəm qoyurdu. Yazdan bəri qızmar işığı canına çəkən əncir, nar, heyva, qarağat yarpaqları sanki Günəşdən qopmuş qəlpələr kimi saralırdı. Göy üzünün qızarıb-bozarmağı mövsümün ortalarına doğru təkəm-seyrək, xəsisliklə də olsa, yağan yağışlardan xəbər verirdi. İlıq payız mehi tərpətdikcə hər giləsi bal dadan Abşeron şanıları insan əlinə bənzəyən yarpaqlar arasında işıq saçırdı. Yəqin elə o payız mehinin tərpədib saldığı heyvalar seyrək güzdək otlarının içindən

yarıya qədər görünür, saraldıqca saralırdı. Yığıb aparan olmasa, dekabrın axırınacan elə oradaca qalıb çürüyəcək, torpağa qarışacaqdı.

Dərslər başlanana qədər kölgənin düşməyinə uyğun olaraq həyətin ayrı-ayrı yerlərinə qoyulmuş oturacaqların üstü nəvənəticəni, ev adamlarını tutmurdu. İndi boşalıb. Bir azdan əncir, tənək, nar kimi onları da yağışlar isladacaq...

Onun yazı masası qoyulan artırmadan sevimli, əziz təbiət əl içi kimi görünür, Kamran əmi hay-haraylı yazın, yayın sovuşub gedən qüssəsi ilə yanaşı ağırlığı budaqları əyən barbəhər ovqatının da fərqində idi...

Bu, onun ömrünün 84-cü payızı idi. Aylar öz yerində, hətta həftələr, günlər sağlam, dağ cüssəli azman qocanı özünün doğum gününə, dekabrın 15-nə, demək olar ki, bir quş yüngüllüyü ilə çəkib aparırdı, bəlkə də uçururdu...O iti, möhkəm yaddaşın və qələmin gücünə ömrün yazına qayıtmaq üçün hazırlıq aparır, eldə deyildiyi kimi tədarük görürdü.

"Yaxşı, mən kitab yazmaq istəyirəm, keçdiyim yol, ömrüm kitablıqdırmı?" – o düşünür, neçə ildən bəri götür-qoy eləyəndən sonra verdiyi qərarı sonuncu dəfə qətiləşdirmək istəyirdi. Elə həmin günlərin birində o, "Üç kitab"ın ön söz əvəzini "Önə qayıtmaq" adlandıracaq və yazacaqdı: "Zaman keçir, illər üstə illər gəldiyi kimi, işlər üstə də işlər gəlir, nəsillər bir-birini əvəz eləyir – izlər üstə izlər gəlir. Həyatda itən və ya unudulan izlər sözdə qalır; sözdə yazılan pozulmur, nəticə etibarilə söz daşdan da, metaldan da möhkəm çıxır.

Mənim gördüyüm işlər, qoyduğum izlər isə torpaqda, daşlarda, ayrı-ayrı ünvanlarda qalırdı. Özüm də heç vaxt gündəlik yazmamışam. Ancaq İlahidən mənə güclü yaddaş

verilib. Ona görə də yaxın adamların, dost-tanışın, habelə öz övladlarımın təkidi ilə ömrümün salnaməsini yazdım. Bunu kitab yazmaq xatirinə eləmədim. Ona qalsa, mənim hələ 60-cı illərdə (XX əsrdə - V.B.) Moskvada rus dilində bir sıra iri həcmli kitablarım – monoqrafiyalarım nəşr olunub, "SSRİ fəhlə sinfinin Asiya və Afrika ilə beynəlxalq əlaqələri" (1962), "Afrikada fəhlə hərəkatı" (1963), "Afrika müstəmləkəçilikdən azadlığa doğru" (1966), "Azərbaycan həmkarlar ittifaqları" (1966). Eləcə bir sıra xarici ölkələrdə xarici dillərdə kitablarım çıxıb. "Salnamələr", eləcə də indi təqdim etdiyim "Quruculuğa həsr edilmiş ömür" isə mənim öz əməyimlə həyat səhifələrini əks etdirən xatirələrimdir".

**Deyilmişdir**

Ən böyük fəlsəfə həyat təcrübəsidir. Sadəcə onu sözə çevirmək gərəkdir.

Kamran müəllim öz qənaətində tam haqlıydı. Aradan ötüb keçən min illər çoxlu qalanı, saysız-hesabsız dövlətləri, hətta xalqları yer üzərindən silmişdi. İnsan mağaradan-mağaraya, kahadan-kahaya pənah aparmış, yurddan-yurda karvanlar çəkmiş, o karvanlardan tökülən ləpirləri zaman rüzgarları silib-süpürmüş, yerində ya gül, ya tikan bitirmiş, ya dərə açmış, ya dağ dikəltmişdi. Amma söz nizamını pozmağa Tanrıların belə gücü çatmamış, istinadgah kəlmələr yerindən tərpənməmiş, sözlər içinə yığdığı dünya sirrini yer üzünə gələn təzə nəsillərə nəql etmişdi. Allahları, (antik yunan,

roma ədəbiyyatını xatırla), aləmlərin yaradıcısı bir olan vahid Allahı da (Tövrat, Zəbur, İncil, nəyahət müqəddəs Qurani-Kərim) yaşadan sözdür.

**Şeir**
Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz.
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Ver sözə ehya ki, tutduqca səni xabi əcəl
Edə hər şaət səni ol uyquda bidar söz.

*Məhəmməd Füzuli*

**Yeni tarixə nəzər**

Hər hansı üstü damğalanmış möhürlü saxsı parçasının, yerin dərinliklərinə, qatbaqat torpaq altına gömülmüş divar özüllərinin, qarışıq xətli gil, mixi əlifbalarının açmasını hər kəs bacarmaz, amma Homerin, Strabonun, Heradotun, Plutarxın antik dünya tarixinə dair hekayətlərini söz-söz, kəlmə-kəlmə əxz etmək mümkündür və bu imkan insana böyük dünya karvanının ovsarını-ovsara calayıb bir nizama düzmək, keçmişləri doğru-düzgün təsəvvür etmək şansı verir...

Sözün yeri gəlib, Kamran müəllimin içində yuva kimi sığındığı payızdan qopmaq, bioqrafik xronologiyanı pozmaq lazım gəlir... Yalnız bu xatirə ki, oxucu anlasın, şüurla, ləya-

qətlə yaşanmış insan həyatını alın yazısı və tale ilə məhdudlaşdırmaq, ömrə yalnız qismət prizmasından baxmaq düzgün olmaz...

Dünyanı dərk edən (həm də lap erkən yaşlarından), fəhmli insanların həyatının məğzi təsadüflərdən kənardır, başqa sözlə, onların ömrünün hər bir mərhələsi demək olar ki, zərurət və qanunauyğunluqdan qidalanır.

Dünya gedişatını tamam-kamal dərk etmək düşüncəsi olmasaydı, nə düşmüşdü 34 yaşında böyük bir rayonun rəhbəri vəzifəsinə yüksələn Kamran Əsəd oğlu Hüseynov 1947-49-cu illərdə nəzəri və təcrübi baxımdan fundamental siyasi, tarixi və ictimai dünyagörüşü formalaşdıran Bakı Ali Partiya Məktəbini, bununla yanaşı Azərbaycan Dövlət Universiteninin tarix fakültəsini bitirsin?...

Sonralar həyatı XX əsr Azərbaycan tarixinin bir parçasına çevrilən bu insan ixtisasca tarixçi oldu. O, xalqın və sözün tarixini, həm də bu iki ayrılmaz cəmiyyət atributunun qüdrətini gənc yaşlarında anlamışdı.

Onun indi əlyetməz olan bütöv xarakterli, yenilməz şəxsiyyət obrazını dolğun canlandırmaq, onun varlığını ümumən Azərbaycanın milli-tarixi inkişafının yaratdığını izah etmək üçün, görünür, tarix və şəxsiyyət, tarixi şəxsiyyətlərin ardıcıllığı, 18-ci yüzilliyin ikinci yarısından sonra fərqli türk-azərbaycanlı tipinin formalaşması məsələləri yəqin ki, lakonik olsa təkrarən aktuallaşacaq...

### Novxanı. Qızılqaya

Hələlik isə onun əyləşib həqiqətən də dərin, indiki məqamda bəlkə də taleyüklü düşüncələrə daldığı artırmadan

qoca Abşeronun bəhrəli, di gəl ki, sürətlə saralıb solan payızı görünür. Payız küləyi onun səylə darayaraq geniş alnına yığdığı, bu yaşında da ağlı-qaralı, amma çoxdan seyrəlmiş saçlarını dağıdır, uzun, toppuş barmaqların səyinə baxmayaraq, get-gedə artan rüzgar taleyin hansı hökmü iləsə hərəsi bir sınaqdan salamat çıxmış uzun telləri ora-bura tərpətdikcə, onun geniş sifəti ilə açıq alnı arasındakı hüdudlar itib yox olur... Bu halda indiki ömür tarixcəsini yaradan, o tarixi qələmə almaq istəyən insanın özü də çox qədim bir tarix kimi, qədim tarixin içindən boylanan varlıq kimi görünür. Görən payızın ortasında düşüncələrə dalan 84 yaşlı qoca bilirdimi bunu?

"Gör dünya binnət olandan nə qədər rüzgarlar əsib – yenə də düşünürdü, - kimlər gəlib, kimlər gedib. Elə sən, mənim vətənim, mənim millətim, necə möhtəşəm tarixlər yaşamısan? Azıxdan, Qobustandan, Altaylardan çıxıb, Asiyadan Avropanın ortasınacan çadır-çadır genəlib, hər birinin adı tarix səhnələrini hərəkətə gətirən dövlətlər yaratmısan. Köksündə Alt paleolit dövrünün izləri var. Bu yerdə insanlar sivilizasiyanın bütün qatlarında-qədim, orta, yeni daş, tunc dövrlərini yaşayıblar. Azərbaycanın cənubunda Lullubi, Kuti dövlətləri olub. Qədim Misir, Mesapotamiya insanı ilə əlaqələr yaradan əcdadlarımız bir sıra qüdrətli şərq, xüsusilə türk dövlətlərinin əsrlərlə dövran sürən, sarsılmayan özül daşlarını düzüblər. Böyük İpək yolu sənin sinən üstə uzanaraq dünyanın bu başını o başına birləşdirib, ruzi, bərəkət yolu olub. Xudaya, Manna, Midiya, Atropatena, Albaniya adları, yəni bizim dövlətlərimizin adları olmasaydı, qədim tarixin səhifələri solğun görünməzdimi?

Vətənim, sənin sinəndə bütün dinlər mövcud olub; bütpərəstlik, zərdüştlük, induizm, xristianlıq, nəhayət, möhtəşəm İslam. Mənim soydaşlarımın qan yaddaşında "Avesta", "Kitabi-Dədə Qorqud", "Xəmsə", Nəsimi həqiqəti ara vermədən dünəni, bu günü isidir, gələcəyin sirli yolunu aydınladır."

"Tarixə mirzəlik etməkdən nə çıxar", – sanki Kamran müəllimin - qocaman salnaməçinin düşüncələrində isti və soyuq, gecə və gündüz bir-birilərini əvəz edirmiş kimi təzadlı dəyişmə baş verir. "Tarixi anlamaq, onu ən müxtəlif mənbələrdən dönə-dönə oxuyub həqiqəti bilmək mənə haqq verirmi balaca, şəxsi həyatımı il-il, ay-ay, gün-gün qələmə alıb onun tarixin bir parçası olduğunu bəyan edim? Bu nə qorxu, bu nə təlaşdı, Kamran?" – o içində öz adını çəkdi. Sanki özü öz kürəyinə əl vürüb özü-özünü ürəkləndirdi. – Axı, sən, Kamran, - adını bir də təkrarladı içində, - hec vaxt, heç kimdən, heç nədən qorxub çəkinməmisən. Şüarın yaratmaq, bayrağın cəsarət olub. Hər yerindən duran kitab yazır indi. O boyda təcrübən, möhkəm yaddaşın, cümlə qurmaq istedadın, hər cürə həyat hadisələri ilə dolu bioqrafiyan... Axı niyə yazmayasan, kişi?!"

İş burasındadır ki, mülayim payız mehi dolaşan, hamının iş, dərs dalınca sentyabrın ortalarından köçüb getdiyi, sakitliyə qovuşan artırmada tənha əyləşib, ona görə indiki halda "olum-ölüm" qədər əhəmiyyətli "yazım-yazmayım" dilemması üzərində baş sındıranda çox gərəkli bir cümləni və bir bənd də rübaini ağ vərəqə köçürmüş, qələmi barmaqları arasından, eynəyi gözündən ehmalca sürüşdürüb o ilk cümlə və bir bəndlik rübai yazılan vərəqin üstünə qoymuşdu...

Başdan yazılı kağız üzərində, təsadüfdənmi, ya bəlkə hansısa sirli bir hikmətə görəmi, eynəyin böyüdücü şüşəsinin o üzündəki səliqəli xətt olduğundan xeyli iri görünürdü.

Salnamənini ilk cümləsi belə idi:

"Bu kitabı övladlarımın tərbiyəçisi, sarsılmaz əməyini onların yetişməsinə həsr etmiş həyat yoldaşım Zeynəb xanımın əziz xatirəsinə həsr edirəm".

Sadə, həyatın özü kimi təşbehsiz və mübaliğəsiz cümlə, ithaf cümləsi...

Əlbəttə, bu kitaba təqribən on beş il öncə, heç şübhəsiz qəhərli ürək çırpıntısı, həyəcanla yazılan o ithafdan, "sarsılmaz əmək", "əziz xatirəsinə" deyimləri ilə xüsusi kövrəklik qazanan o dəyərli cümlədən yan keçməyə haqqımız çatmır. Zeynəb xanım barəsində hekayətlərdən xəbərdar olacağıq.

O bir az tələsdi...

Kamran əmini tez tərk elədi. Ahıl yaşında onu tək qoydu...

Bu da bir tale qismətidir.

## Sözün qüvvəti

İndi isə qələm öz əlimizdədir. Bizim əlimizin üstündə isə onun əli var: Kamran əminin. Əslində bu romanı da o yazır, ətək onunkidi, əl bizimki, söz onunkudu, səs bizimki, yaddaş onunkudu, yazı bizimki...

Kamran əmi kimi səbrli olmaqdan ayrı bir yol varmı? Siz Zeynəb xanımın mərhəmətli, gözəl simasını mütləq görəcək, onun ifallı ana qəlbini sevəcəksiniz. Amma bu da bir az sonra olacaq.

**Novxanı.Qızılqaya**

Hələlik isə onun sual rüzgarına bələndiyi, o uzaq, ilıq Abşeron payızına, budaqlarında günəş qəlpələri kimi saralmış yarpaqlar titrəşən üzüm, əncir, nar, heyva... ağaclarının yanına, nəvələrin, nəticələrin, övladların istisi hələ çəkilib getməyən, bir azdan payız yağışlarında islanacağını "düşünən" oturacaqların həndəvərinə qayıdaq. Qayıdaq o yerə ki, qəhrəmanımız artırmada üzü qızıl payıza tərəf əyləşib və cəmi-cümlətanı bircə cümlə yazıb: "...həyat yoldaşım Zeynəb xanımın əziz xatirəsinə"...

**Yeri gəlmişkən**

Əsl türk kişiləri öz ömür-gün yoldaşlarının adını nadir hallarda çəkərlər, hər dəqiqə başı, ona "qadan alım", "başına dönüm" söyləməzlər, ürəkdən, abırlı sevərlər türk kişiləri. Görünür elə bu səbəbdən "Salnamələr"də, eləcə də "Quruculuğa həsr olunmuş" memuar-romanda (bu təyin Kamran Hüseynovun kitabının ana südü kimi halal haqqıdır!) Zeynəb xanımın adı ən az çəkilir, epizodlarda, demək olar, nadir hallarda xatırlanır. Halbuki, bu fədakar qadın 40-cı illərin əvvəlindən başlayaraq hər gün onun yanında, həyatının içində olmuşdu. Və o ailənin pərvəniş tapıb yüksəlməsinə əsl şərq qadınına xas bir mərhəmətlə, təmənnasız, nəsildən gələn bir nəcabətlə xidmət göstərmişdi...

Bütün hallarda söyləyə bilərik ki, Kamran əmi həyat romanının ilk cümləsini uğurlu ifadə edə bilmişdi...və onun iqtibas etdiyi bu rübai də yerinə düşürdü.

**Şeir**
Gördüyün işlərdən peşman olma sən.
Elə et, dünyadan bezikməyəsən.
Gücün çatan işi bu gün vur başa
Bəlkə də sabahı görmədin haşa...

Təbii ki, kitab tərtibinin tələblərinə uyğun olaraq sonradan yazılmış "Ön söz" – adətən belə olur və bizim də ixtiyarımız var ki, düşünək, məhz belə olub – nəzərə alınmazsa, "Bir ömrün salnaməsi"nin ikinci cümləsi dünyanın dahi filosofu, şairi, təbibi İbn Sinanın bu rübaisidir...

**Sözlük**
İbn Sina
*Avesina. 980-1037. Türk filosofu, həkim-mütəfəkkir. O İbn Sina ki, Buxarada doğulmuş, böyük istedadı və güclü mütaliəsi sayəsində Şərqin dahi təbibi zirvəsinə yüksəlmişdi. Onun yaratdığı dörd cildlik Tibb ensiklopediyası bu gün də öz unikal dəyərini qoruyub saxlamaqdadır. O İbn Sina ki, bunları demişdi:*

*Kainatdakı ən kiçik zərrədə də Allahın varlığını görə bilərik.Bizim varlığımız da onun sayəsindədir.*

*Xoşbəxtlik haqlını haqsızdan seçə bilmək sayəsində mümkün olur.*

*Ölümə məhkum olunmuş bir insanda yaşamaq eşqinin nə qədər güclü olduğunu təsəvvür edə bilsəydiniz, ən qüssəli günləriniz də sizə çox gözəl görünərdi.*

*Çox vaxt tikan əkib gül dərmək istəyirik, başa düşmürük ki, bizim bu istəyimiz təbiət qanunlarına ziddir.*

*Elm öyrənmək heç vaxt gec deyil.*

*Təcrübə elmdən üstündür.*

*Heç vaxt yalan danışmayan və əfv etməyi bacaran adam insanların ən xoşbəxtidir.*

**Sözün qüvvəti**

... təsəvvür etmək olar; tutalım, Kamran əminin ömrü, bir başqasının yox, məhz türk demiş, kəndi kəndisinin əli ilə hörülmüş bir divardır, İbn Sinadan alınmış bu ibrətamiz kəlamlar o divarın kərpicləridir, indi gəl o kərpiclərin birini yerindən tərpət görüm, necə tərpədirsən... Deməli, Kamran əmi hərfinə, sözünə, cümləsinə, nidasına, vergülünə qədər yalnız özünə aid olan kitabı yaradarkən İbn Sinanı həmin kitabın ilk səhifəsində xatırlamağı Məkkə nişanəsi möhürə alın söykəmək, Müqəddəs kitabı üç dəfə öpərək göz üstünə qoymaq misalındadır, deyilmi?

# Birinci fəsil. Yaz

## Doğuluş. Böyümə. Şəxsiyyətin yaranması və böyük həyatın astanasında

**Novxanı. Qızılqaya**

Və beləcə kitab başlandı, doğma yerlərin sonsuz məhəbbəti sanki onun qələminə güc vermişdi, kəlmələr qələmin ucunda yağ kimi əriyirdi.

"Neçə yaşa çatsan da, ömründə nə qədər əyri, dolama yollardan keçsən də, ilk növbədə anadan olduğun yerlər, həmin mühit, oradakı insanlar sənə hər şeydən əzizdir! Doğulduğun yerlərin coğrafi iqlimi, təbiətinin gözəlliyi ömrün uzunu xatirələrdən silinmir".

Bu sətirlərdən açıq-aydın görünür ki, Kamran əmi dünyaya göz açdığı o uzaq, balaca dağ kəndi Çərəli də daxil olmaqla yurd sevgisinin əsiridir. O vətəni Azərbaycanın dünya sivilizasiya yolunun ən qaynar nöqtəsində yerləşdiyini bilirdi, torpağın altında, üstündə necə möhtəşəm maddi-mədəniyyət sərvətlərinin var olduğunu anlayırdı, yurdu qarış-qarış gəzib-dolaşmış, hər eli-oymağı görüb öyrənmişdi- dövlət xadimi kimi, üstəlik tarixçi kimi...

Kamran əmini düşüncələrdən ayırmadan təhkiyyəmizin ardıcıllığı naminə bir məqamı qeyd etmək gərəkdir.

**Yeni tarıxın davamı**

Bir az irəlidə keçmiş zamanlara ekskurs etdik. Bəlli bilgilərdən öyrəndik ki, dünya xəritəsində əhəmiyyətli yer tutan qüdrətli Azərbaycan dövlətlərinin əraziləri onlar süqut etdikdən sonra xanlıqlar tərəfindən idarə olunurdu. Nadir Şah öldürüldükdə nəhəng imperiya dağıldı; güneyli-quzeyli Azərbaycan da bu dövlətin tərkibində idi. 18-19-cu yüzildə Cənubda Urmiya, Qaradağ, Marağa, Ərdəbil, Təbriz, Maku,

Sərab xanlıqları, Quzeydə Bakı, Talış, Qarabağ, Gəncə, Naxçıvan, İrəvan, Dərbənd, Şəki, Quba, Şirvan, Şamaxı xanlıqları qurulmuşdu və onlar əslində Azərbaycan ərazisində yaradılmış xırda feodal dövlətlər idi. Bu dövlətlərdə təbii ki, klassik Şərq məmləkətlərinin idarə üsulları hökm sürürdü. İran-Rusiya müharibələrinin yekunu olaraq 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri ilə Azərbaycan ikiyə bölündü. Bu böyük bir tarixi ədalətsizlik idi. Sonralar Çar Rusiyasının, eyni zamanda SSRİ dövlətinin apardığı siyasət nəticəsində Şimali Azərbaycan yenə də ərazilər itirdi, onun torpaqları hesabına Ermənistan dövləti yaradıldı, Gürcüsan Sovet Sosialist Respublikasının ərazisi formalaşdırıldı, Dərbənd tərəflər Rusiyaya qatıldı.

İtkilərlə bərabər tarixdən məlumdur ki, həmin dövrlərdən başlayaraq Şimali Azərbaycanın inkişafı tamamilə yeni bir istiqamətdə getdi. Təbii ki, yeni tipli Azərbaycan insanının dünyagörüşünün Avropa, başqa sözlə qərbyönümlü xüsusiyyətləri də XIX yüzilliyin ortalarından qabarıq görünməyə başladı. Təqribən 100 il ərzində yeni iqtisadi, siyasi, ictimai inkişafın ideoloji, maarifçi, intellektual əsaslarını yaradan görkəmli şəxsiyyətlərin adları Azərbaycan tarixinin səhifələrində yer aldı.

Mirzə Cəfər Topçubaşov, Mirzə Kazım bəy, Abasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Mirzə Cəlil Məmmədquluzadə, Firiddun bəy Köçərli, Ömər Faiq Nemanzadə, Hacı Zeynalabdin Tağıyev, Üzeyir Hacıbəyli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov... onlarla digər alimlər, yazıçılar, maarif, mədəniyyət, dövlət xadimləri məhz yeni tipli

azərbaycanlılar idilər. Onlar tezliklə xalqı cəhalətdən, dini fanatizmdən xilas etmək, savadsızlığın ləğv olunması, gündəlik həyatın qaydaya düşməsi, müstəqillik, qadınlara azad yaşam imkanı yaratmaq üçün ömürlərini şam kimi əridirdilər, mal-mülklərini qızırqalanmırdılar.

Məhz bu özül üzərində Azərbaycanın müstəqil dövlət qurmaq istəyi davamlı olmasa da, bir çox hüquq və azadlıqlar SSRİ qanunları ilə məhdudlaşdırılsa da, işıqlı insanların, böyük şəxsiyyətlərin və xalqın səyləri, mübarizələri ilə yeni Azərbaycan özünü dünyaya tanıda bildi.

Bura qədər deyilənlər hər kəsə, hətta məktəblilərə də bəllidir. O da bəllidir ki, yaranmış şərait ötən yüzillikdə həyatın bütün sahələrində - iqtisadiyyat, elm, mədəniyyət, ədəbiyyat və incəsənət meydanında dahi şəxsiyyətlərin boy verməsinə səbəb oldu.

Dahi Heydər Əliyev azərbaycançılıq məfkurəsinin yetirməsi deyildimi?

Dəhşətli repressiyalar, iki dünya savaşı intellektual nəsillərin arasındakı davamiyyət əlaqəsini zəiflətsə də xoşbəxtlikdən, onu axıra qədər sarsıdıb qıra bilmədi. Heç bir tərəddüd hissi keçirtmədən 1913-cü ildə Qubadlının Çərəli kəndində doğulan, indi 84 yaşında qocaman Abşeronun Novxanı, Qızılqaya məkanında, öz əli ilə saldığı bağda ömrün və fəslin payızına çəkilib memuarlarını qələmə alan Kamran Əsəd oğlu Hüseynovun, eləcə də bir çox başqalarının adlarını gözəl Azərbaycanımızın təməl şəxsiyyətləri sırasına yazmaq tamamilə ədalətlidir...

Bax belə.

Qayıdaq qəhrəmanımızın yanına...

## Novxanı. Qızılqaya

Abşeron, bağ evi, artırma...Payız mehi yarpaqları saralıb qızaran budaqları aram-aram tərpədir. İndi o hələ bircə fəsli də yaşanmamış bütöv bir həyatla üzbəüzdür. İnsan yaddaşı körpə çağlarının hansı dərinliyinə işləyə bilərsə, həmin fəhm və ehtirasla ora dönür.

## Salnamə

"Mən də xatirəyə elə anadan olduğum, orada boya-başa çata bilməsəm də, yadımdan çıxmayan Çərəli kəndindən başlamaq istəyirəm. Qədim zamanlarda bu kəndin adı Çiyələkli olub. Çünki yazağzı kəndin ətraf yamaclarında çiyələk hər yeri bürüyərdi. Kəndin kənarına çıxanda adama elə gələrdi ki, otların üstünə qırmızı yaylıq səriblər. Çiyələyin ətri adamı bihuş edərdi.

Kənd Hərtiz dağının ətəyində yerləşmişdi. Buralar çox mənzərəli yerlər idi. Bu dağ dəniz səviyyəsindən 1073 metr hündür, arxası qalın meşəlik, güney tərəfi otluq, çəmənlik idi. Aləmi tamaşaya çağıran, çiçək-çiçəyə qovuşan bir yer idi. Yazağzı hamı çalışırdı ki, orada bir parça torpaq götürüb çəpərə salsın, biçənək düzəltsin. Mən də uşaq vaxtı gedib həmin biçənəklərə tamaşa edərdim... Xudaya, biçənəklərə, çiçəklərə nə qədər kəpənək qonardı! Necə də gözəl, alabəzək kəpənəklər idi. Elə bil rəssam çəkmişdi onları, tamaşasından doymaq olmurdu.

Qar yağanda kəndin kişiləri kəklik, qırqovul, dovşan ovuna gedərdilər. Ancaq heç kəs quşa güllə atmazdı. Onları uçurdub, yorana qədər qovub diri tutardılar.

Uşaqlığım təbiəti bu cür gözəl olan yerlərdə keçib.

Torpağı şabalıdı rəngə çalırdı. Buranın suyu az olsa da, kəndin torpağı məhsuldar, əkin-biçin üçün yararlı idi. Hər kəs çalışırdı ki, əksin, biçsin, çoxlu heyvan, mal-qara saxlasın. Kəndin camaatı bir-birinin hörmətini saxlayırdı, bir iş görəndə ağsaqqallarla məsləhətləşərdi. Demək olar ki, kəndi ağsaqqallar dolandırardı, ona görə də hamı yaşlıların adını uca tutub hörmətini qaldırardı."

***

Kamran əmi dünyanı beləcə çiyələk-çiyələk, kəpənək-kəpənək dərk etməyə başlayandan, kəklik, qırqovul, dovşan ovuna gedən, lakin tətik çəkib güllə atmadan, ovu qovub yoran kişilərin şux həyatına baxıb fərəhləndiyi çağdan min illər irəli də bu yerlər gözəl cənnəti xatırladırdı. Qarabağ, Qaradağ dağlarıyla qolboyun olub yenilməz zirvələr yaradan Zəngəzur dağlarının zirvələrində qartallar qıy vururdu. Çox qaçaqlar, qoçaqlar ömür sürmüşdü, Bərgüşad, Həkəri suları çox qanları yuyub aparmışdı!

## Bir daha tarix

Tarix şəhadət verir ki, yenilməz türk yurdu Zəngəzur qədimlərdə Atropatenanın, sonralar Albaniyanın tərkibində olub. Bu səbəbdən ümum Azərbaycan tarixi Zəngəzurun da tarixidir. Bu yerlər ərəb istilasını, Babək üsyanını, Xəzər xanlığını görmüşdü. 10-cu yüzilliyin sonunda az bir müddət

ərzində Sünik (Sisakan) knyazlığına qatılan Zəngəzur mahalı 11-ci əsrdə Səlcuqların, 12-13-cü əsrlərdə Azərbaycan Atabəylər dövlətinin, Hülakilərin, 15-17-ci əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövlətlərinin tərkibində idi.

Nadir xan Əfşar bu məmləkəti İrana birləşdirmişdi. 1747-ci ildə İrəvan və Qarabağ xanlıqlarının tabeliyində olan Zəngəzur Rusiya-İran müharibəsindən sonra (1804-1813, 1826-1828) Türkmənçay müqaviləsinə görə Rusiyanın pəncəsinə keçdi.

1861-ci ildə Zəngəzur qəzası yaradılandan sonra bu torpaqlarda ermənilərin məskunlaşmasına şərait yarandı. Sonralar daşnakların, Andronik, Njde, Dro kimi quldurların basqınları nəticəsində yalnız 1918-ci ilin yanvar və payızında Zəngəzurun 115 kəndi dağıdılmış və yandırılmış, sərvətləri talan edilmişdi. Basqınlar zamanı 7729 nəfər azərbaycanlı, o cümlədən, 3257 kişi, 2276 qadın, 2196 uşaq işgəncə verilərək öldürülmüş, 2339 insan yaralanmış, şikəst olmuşdu.

1919-cu ilin sonunda 40 min adam yurd-yuvasından didərgin düşmüş, əvəzində Zəngəzura 30 min erməni yerləşdirilmişdi. Bu nəinki erməni qəsbkarlığı, eyni zamanda Böyük Oktyabr Sosialist İnqilabının Azərbaycan xalqına qarşı illər sonra da davam edəcək zor siyasətinin başlanğıcı idi... 1921-ci ildə Zəngəzur və Mehri qəzaları yaradıldı, bədbəxtlikdən Ermənistan Respublikasının tərkibində...

Zəngəzur və Qarabağın qovşağında yerləşən, 22 ildən bəri erməni işğalçıları tərəfindən qəsb edilən Qubadlı tarixin gedişatında bu sayaq çoxlu zülmləri ayaqlayıb. İndiki Qubadlı rayonu 1933-cü ildə yaradılıb, 800 kv.km ərazisi, 40 minə yaxın əhalisi olub. Bir şəhəri, 95 kəndi var idi (var!).

Qubadlı rayonu Azərbaycan SSRİ-in inzibati ərazi vahidi olaraq yaradılandan bir il sonra 1934-cü ildə kənd-kənd gəzib neft sahəsində işləmək üçün fəhlə qüvvəsi yığılanda uca boylu, iri sümüklü, qara telli, qalın çatmaqaşlı Kamranın 20 yaşı tamam olub 21-ə keçmişdi. O, gələcək həyatı üçün mühüm qərarı verəndə həmin yaşda idi.

**Salnamə**

"Mən Qubadlı rayonunun Çərəli kəndində anadan olsam da, çox gənc yaşlarımdan oradan çıxmışam. 75 ilə qədər uzaqlaşmışam. Ancaq o kənd mənim üçün ən əziz diyardır..."

"Kəndin orduda xidmətlərini başa vurub qayıdan, Bakı mədənlərində işləyən gənclərinə baxıb onlara həsəd aparırdım. 30-cu illər idi. Bakıdan nümayəndə gəlmişdi. Gəncləri neft sənayesində işləmək üçün Bakıya dəvət edirdilər. Çox fikirləşəndən sonra bir gün qərara gəldim ki, mən də onlarla Bakıya işləməyə gedəcəyəm. 1934-cü ilin may ayı idi..."

Bu qərar əslində gənc Kamranın, indi bütün ölkənin tanıyıb xatirəsini yad etdiyi Kamran Hüseynovu yaratmaq haqqında qərarı idi; "taleyimdən razıyam, onu özüm yaratdım..."

Görüb gözünə, duyub könlünə yığdıqları, eşidib yaddaşına həkk etdikləri, el-oba, ata-ana, qardaş-bacı təəssübü çəkmək hissi, mərdlik, cəsarət, insansevərlik keyfiyyətləri, yetim-yesirə əl tutub mərhəmət göstərmək adəti, bir sözlə, əsl kişi xasiyyəti...

Bir insanın bəxtiyar olması üçün bunlardan artıq daha nə lazımdır ki?

**Deyilmişdir**

"Dünyaya sahib olmaq istəyiriksə, xoşxasiyyətli, iradəli və dözümlü olmalıyıq". Bunu Ç.Dikkens deyib (Kamran Hüseynovdan 100 il öncə 1812-ci ildə doğulmuş ingilis yazıçısı, romanlar, hekayələr müəllifi).

**Deyilmişdir**

"Çox yaşamaq istəyirsənsə, cavanlıqdan qocal".

İtalyanların sevərək tez-tez işlətdikləri bu atalar sözündə müstəqim məna axtarmaq gülünc olardı. Söhbət saçın-saqqalın ağarmağından, dişin tökülüb, belin bükülməyindən getmir. Söhbət insanın dünyanı tez dərk etməyindən, qəlbin, ruhun ucalığından gedir.

İbrətli sözlərin mənbəyi həyatdır. Həm Ç.Dikkensin dediyini, həm də italyan məsəlini heç düşünmədən onun obrazına aid etmək olar. Amma bir şərtlə ki, Kamran Hüseynovun ömür yolundan bax elə bunlara bənzər minlərlə ibrətamiz söz, aforizm yaratmaq mümkündür.

Özünün yazdığı kimi, çox fikirləşəndən sonra verdiyi qəti qərarı bir az da ədalətsiz saymaq olardı. Cünki o dağı, bulağı, meşəsi, otu, çiyələyi, havası, göz bülluru kimi təmiz göy üzü bir insanı, yalan olmasın, min il yaşada bilən, dərdsiz, qəmsiz, xoşbəxt edən bir yuvanı qoyub gedirdi. Nə çatmırdı ki orda? Üstəlik, Kamranın həm ata, həm ana tərəfi varlı-hallı, el-obanın sayılıb-seçilən adamları olublar... Əlbəttə, indiki zənginlikdən söhbət gedə bilməz. Bununla belə insanların qafasını

alaq-ulaq basmamışdı. Adəmin qovulduğu yerdəki kimi olmasa da, bəndələr gözü-könlü tox idilər. Bir təndir çörəyi, bir xışma motal pendiri böyük bir ailənin qarnını doydururdu. Allah adamların böyründə idi. Ağsaqqal sözü Allah sözü kimiydi. Ən xırda töhfələr möhtəşəm sevinc, bəxtiyarlıq törədirdi. Miflərdə deyildiyi kimi göy yerdən aralanmamışdı.

Kamran müəllim burnunun ucuna düşən eynəyi gözünə yaxın eləyib qələmi varağa söykədi və bir qədər ləng, amma aydın, səliqəli xətlə yazdı:

"Təqribən 1929-cu il idi. Naxçıvana gedənlərə mən də qoşuldum. Həyatimda Naxçıvan ilk şəhər idi ki, görürdüm.

Demək olar ki, ətrafda olan bütün azərbaycanlılar bura alverə-duza gəlirdilər... Satışa gətirilən kök heyvanları yerli camaat alıb, kəsib, yayda qovurub qış yeygisi üçün basdırma edərdilər.

Şəhər çox şenlik idi. Alver qaynayırdı. Uzun, örtülü bazarda hər şey satılırdı. Mən də oradan bir cüt aşa qoyulmuş üçburun çarıx aldım. Tay-tuşlarım o çarığın tamaşasına gələrdilər. Sonralar dünyanın harasında səfərdə oldumsa, ordan aldığım tuflilər məni o çarıx kimi sevindirmirdi..."

Yüz adamdan birindəki çarığın bütün kəndi sevindirdiyi vaxt doğma yurdu tərk edib gedirdi Kamran...

Hərtiz dağını qoyub gedirdi...

Sonralar ürəyi qövr eləyəcək, o dağın şəninə elə bir şeir yazacaqdı ki, həmin şeirin misralarını uc-uca düysən, yalan olmasın, o dağın belində qurşaq olmağa çatacaqdı.

O şeirdə, o şeirə yazdığı izahda obraz sadəlik və doğallıqdır. Hərtiz, həm Hərtizdir, həm də ona şeir qoşan adamın özü... Hələ bir oxuyaq...

**Salnamə**

Doğma diyar, doğulduğum Çərəli kəndi, onun mehriban, böyüyə, kiçiyə hörmət edən zəhmətkeş adamları, yamyaşıl dağları, bar-bəhərli, bərəkətli torpağı bir an belə gözlərim önündən getmirdi. Xeyli vaxtdı doğma el-obadan ayrı düşmüşdüm. Örpəyi sis dumanlı, başı bəyaz qardan çalmalı Hərtiz dağı yadıma düşəndə ilhama gəlirdim. Gündüzlər başım işə qarışdığından, gecələr daha tez-tez yadıma düşərdi Hərtiz dağı. Çərəli kəndinin çiyələkli yal-yamacları gecələr yuxuma girərdi. Hər daşına, torpağına bələd olduğum, hər gülünün, çiçəyininin ətri hələ də yaddaşımda olan doğma el-obanın həsrəti güc gələndə əlimə qələm aldım, başladım yavaş-yavaş gözəl dağa şeir yazmağa. Yoldaşlarıma duyğularımı oxuyanda çoxunun xoşuna gəldi. (Ümumiyyətlə, mənim şeirə həvəsim olub):

**Şeir**

Yaz gələndə yaşıl atlaz geyirsən,
Ucalıb göylərə nazla deyirsən:
Dürlü bahar, qönçə güllər məndədir,
Tərlanın oylağı göy sinəmdədir.

Sənin yaşın bəlli deyil kimsəyə,
Öz vətən oğluna demirsən niyə
Hansı əsrlərin yadigarısan?
Sən elə əzəldən şux yaranmısan!

Ucasan, yüksəksən, şəfalısan sən
Əzizsən, doğmasan, vəfalısan sən.

Səndədir kəndimin meşəsi, bağı,
Şanlı diyarımsan, ey Hərtiz dağı!

Kollarında kəklik, xoruz səslənir,
Arxaclarda qoyun-quzu bəslənir.
Yadıma düşdükcə Güney yatağı,
Xəyala dalıram, ey Hərtiz dağı!

Buludlar laylanıb naz ilə gedir,
Əliklər otlayıb hərdən səs edir.
Bəzənirsən tovuz quşu sayağı,
İlin yaz-yay vaxtı, ey Hərtiz dağı!

Yaz gələndə bülbüllərin oxuyur,
Gül-çiçəyin minbir ətir qoxuyur.
Bir tutursan həm dostu, həm qonağı,
Laləzar vaxtında, ey Hərtiz dağı!

Qara buludların hey oynaşdığı,
Göyün guruldayıb, şimşək çaxdığı.
Sellərin coşaraq ağac yığdığı,
Yaxşı yadımdadır, ey Hərtiz dağı!

Atamın, babamın məskənisən sən,
Onlar səni seçib eyləmiş vətən.
Yazın oğlan çağı, mayın qabağı,
Tamam al geyirsən, ey Hərtiz dağı!

Kəklikotu, qan bənövşə, qızıl gül,
Maralotu, xəzəz, bir də ki sünbül.

Səndə bitir bunlar, vətən torpağı,
Nə qədər zənginsən, ey Hərtiz dağı!

Günəşlə üzbəüz duranda sinən,
Olduqca mənalı, şən görünürsən.
Adamın sinəndə çax-çax uçmağı,
Nə qədər şirindir, ey Hərtiz dağı!

Yay çıxanda saralırsan, solursan,
Dəyişib donunu yalçın olursan.
Anırsan vüqarla yaxın-uzağı,
O mavi göylərdən, ey Hərtiz dağı!

Payız səndə özgə büsat qurulur,
Saralır otların, güllərin solur.
Eşidilir cütçülərin hodağı
Sənin ətəyindən, ey Hərtiz dağı!

Qayadibi sənin səfalı yerin,
Yay günləri orda keçir çox sərin.
Ağacların meyvə dolu budağı
Bəzəyir sinəni, ey Hərtiz dağı!
Xəzan vurur ormanını saraldır,
Bunu duyan qəlbim çox intizardır.
Bu vaxtı gülməyir ömrün növrağı
Sənin o halına, ey Hərtiz dağı!

Rüzgarın hökmündən güllərin solur,
Duyan ürəklərə qəm-qüssə dolur.

Buz bağlayıb axmır Göyyal bulağı,
Sənin firqətindən, ey Hərtiz dağı!

Qəhər gəlir göy otların çürüyür,
Top meşəni duman, çiskin bürüyür.
Kəsilir quşların səsi, sorağı,
Sükuta dalırsan, ey Hərtiz dağı!

İlk dəfə ayrılıb səndən gələndə,
Qəlbim hicran çəkdi, könlüm ağladı.
Ayrılıq şərabın içib gələndə,
Buludlar çaxnaşıb, sellər ağladı.

Çünki tərk eyləyib səni gedirəm,
Ürəyimdə sanki üsyan edirəm.
İllərin arxasında qaldı o günlər,
İndi çiçək açıb arzu, əməllər.

İşgə güney, Quzu-küzü, Top meşə,
Xəyalımdan silinməzdir həmişə.
Kavır yolu, Hamar, bir də Su yeri,
Mənə xatırladır keçən günləri.
Səndən ayrıldığım xeyli müddətdir,
Vətən ayrılığı nə böyük dərddir!
Hər an, hər dəqiqə səni anıram,
Səndən ilham alıb qanadlanıram.

O vaxtdan keçsə də, ulduz sanı il,
Qəlbim ayrılmamış səndən, bunu bil.

Yüz illər, min illər keçsə də belə,
Yenə də qəlbimdə cavansan hələ.

Səndəki büsata vurğun olmuşam,
Qırqovul ovlayıb, kəklik vurmuşam.
Səndə keçmiş ömrün uşaqlıq çağı,
Odur ki, əzizsən, ey Hərtiz dağı!

Sən anasan bizə, doğmasan bizə,
Daim yaraşıqsan o kəndimizə.
Sənsən el-obanın arxa, dayağı,
Müqəddəs yurdumsan, ey Hərtiz dağı!

Gölün, Çevirmənin müqəddəs yeri,
Bəladan qurtarmış çox xəstələri.
Səndə yanmış dərdlilərin çırağı,
Qalın, sıx ormanlı, ey Hərtiz dağı!
Kamran da, Gürşad da, Osman da
Səndən alıb ilhamı,
Odur ki, əzizsən, ey Hərtiz dağı!"

**Nisgil**

...Hərtiz dağıyla birgə o yerlərdə onun dərin xəyalları, ürəyinin ən təmiz və doğma hissləri qalırdı. Uşaqkən itirdiyi, siması zorla xatirinə gələn atası Əsədin məzarı qalırdı...

**Hekayət**

Sübh tezdən həyətə çıxıb şehə batan otların üstüylə addımlayanda başında dolaşan bircə fikir vardısa, o da Qubadlıya getmək idi. Əsəd bu qərarı axşamdan vermişdi, üstəlik qarşılaşdığı düyünü aça bilməməkdən yana demək olar ki, səhəri dirigözlü açmışdı...Bir az irəli yəhərləyib tapqırı ki, tezliklə bu çətin işi yoluna qoya biləcək...

Çərəlinin Hərtiz yamaclarının qaymaqlı otlarından yeyib gücə dolan, sübhün yaxasından qopub yortumla irəli şığıyan at isə onu saatbasaat Qubadlıya, Şahsənəm nənənin yurduna yaxınlaşdırırdı. Fikirlər isə Əsədin daxilində elə hey başı buraxılmış at kimi çarpırdı:

"Nə olar, indi bir az əlimiz aşağıdı, həyatın o üzü də var, bu üzü də. Bir yandan qaldırdığını o biri yandan endirir... İndi mən ailənin bu vəziyyətində o qədər düyünü, taxılı, qəndi, çayı, parça-paltarı, qoyunu, dananı hardan, nə təhər əldə edim? Bir böyük külfətin varını-yoxunu yığışdırıb aparım ki, nədi-nədi evlənirəm..."

Əsəd Qubadlıya çatanda gün günortadan keçmişdi. Ay sənə canım qurban, Şahsənəm nənə. Bir dənəsən ey, bir dənə...

Əsədin üzündən, gözündən öpdü. Onun gəlişindən elə bil qıvraqlaşdı arvad.

- Bəs niyə xəbər etməmisən gəldiyini, Əsəd...

- Nə bilim, nənə, iş-gücdən baş açılmır, əlləşməsən də, olmur... Bir də ki, xəbər vermək niyə, ən gəşəng xəbər elə mən özüməm, kəsdirmişəm ətəyinin dibini, mənim dərdimə cəmi Qarabağda bircə çarə edə bilən adam varsa, o da sənsən.

- Elə niyə deyirsən, bala, sənin nə dərdin var ki? Lay divar oğlansan maşallah.. De görüm səni tərpədən nədi?

- Yadındadı, nənə, ötən səfər sənə Hüseynqulu bəyin bacısı qızı barədə demişdim?

- Hə, demişdin...

- Bax o qızı, Laləni mənə vermək istəmirlər, min bəhanə gətirirlər.

- Kim vermir?

- Hüseynqulu bəy, Nəcəf bəy.

- Başıma xeyir, qız razı, oğlan razı, bunlar niyə düşüb ortalığa? Bəydilər deyin başımıza çıxacaqlar? Nə deyib vermillər?

- Düyü, paltar, qır-qızıl, qoyun, dana... nə bilim daha nələr istəyirlər.

- Elə bu?

- Bunlar azdı? Axı bizim olanımız özümüzə bir təhər yetir, biz böyük külfətik.

- Burda nə var ki, hamısı xırda şeydi, düzəldərik.

...Şahsənəm nənənin Çərəliyə gəlmək gününü vədələşəndən dərhal sonra Əsəd geri, kəndə qayıtmaq fikri ilə minbir naxışlı xalçanın üstünə sərilmiş döşəkçədən qalxdı. Arvad nə illah elədi, oğlan qalmadı.

Bu epitetlər Kamran əmiyə məxsusdur:

Bir müddətdən sonra "ağbirçək, dünyagörmüş, alicənab Şahsənəm nənənin" hünərinə tələb olunan başlıq qız evinə aparıldı, razılıq alındı. Şahsənəm nənə təzə qohumların qapısından çıxanda elə bir baməzə şeir qoşdu ki, indi də bütün Zəngəzur, Qarabağ camaatı evlənmək məsələsi çətinliklə başa gələn məqamlarda bu bayatını çağırıb gülür, xoş müjdəni ifadə edirlər. O şeir belədir:

**Şeir**

Sizə verdik bir dana
Sizlərdən aldıq sona
Di qalın yana-yana!

Əhvalatın sonu belə tamamlanır:

**Salnamə**

"İndi bəy qızını gətirmək üçün gərək ona layiq ev ola, şərait ola. Atam toydan qabaq iki qardaş və iki bacısı iləköməkləşib ağac gövdələrinin düyünündən təkər qayırıb araba düzəldiblər. Kəndin güneyindən araba ilə daş daşıyıb, əhəng quyusu yandırıb yaraşıqlı bir ev tikiblər. Atam həm də yaxşı sənətkar olub. Əfsuslar olsun ki, həmin evdə çox yaşaya bilməyiblər. Atamın iki övladı – mən və qardaşım Gürşad dünyaya gələndən sonra erməni-müsəlman davası düşüb. Vəziyyət elə gətirib ki, adamlar o kənddən köçməli olublar. Kəndə girən ermənilər atamın tikdiyi evi yandırıblar.

Nə isə, camaat qayıdıb gələndən sonra, kənddə bərpa işləri zamanı atam həlak olub. O mənim yadıma güclə gəlir, qardaşım da lap balaca olub. Ailənin ağırlığı, dərdi-səri anamın çiyninə düşüb. Anam bizi çox çətinliklə böyüdüb, necə deyərlər, kirpiyi ilə od götürüb.

Mən bir az böyüyəndən sonra, 8-9 yaşımdan işləməyə başlamışam. Ona-buna gah çəpər çəkər, gah da ot biçib, satıb əvəzində heyvan alardım. Təsərrüfatda çalışmağa elə o vaxtdan həvəs göstərmişəm, sonralar da ürəklə təsərrüfatla məşğul olmuşam.

Qardaşım böyüyəndə onu məktəbə qoyduq. Gündüzlər onun məktəbdə öyrəndiyini axşamlar mən ondan öyrənirdim. Məktəbdə verilən tapşırıqları demək olar ki, ikimiz də eyni səviyyədə yerinə yetirərdik. Günlərimiz beləcə ötür, illər keçirdi."

**Şeir**

Yollar  üstə naxış salan-
İzinizə qurban olum
Yaxşınızın dadı baldı,
Pisinizə qurban olum-
Kəndimizin adamları.

**Deyilmişdir**

"Xalq ancaq sevdiyi insanı yaddaşında saxlayır".

*F.Dostoyevski*

**Salnamə**

Yaz açılanda kənd əhlinin yediyi quzuqulaq, böyürtkən, yarpız, gicitkən, əməköməci, yemlik, kəklikotu, qırxbuğum, şahpencəri, mərövcə və s. olardı. O vədələr adamlarda ətə qarşı o qədər də həvəs yox idi. Süd, qatıq, yağ, pendir, bir də təbii pencərlər... İlahi bu yerlərdən mərhəmətini əsirgəməmişdi.

Meşələrin armudunu, almasını, zoğalını, əzgilini, qaragiləsini, dağdağanını, daha nə bilim nələrini yığıb-yığışdırmaq

olmazdı, ağacların başında qalıb quruyardı. Qonşu dağlardakı kəndlərdən ermənilər gəlib bu nemətləri daşıyıb aparardılar.

Kəndimiz o ətrafda ən böyük və ən varlı kəndlərdən hesab olunurdu. Kəndimizdə bir neçə məhlə vardı: Bəylik, Sofulu, Qorçubəyli, Əsədli, Şahverənli. Bunların içərisində ən sakiti, rahatı Bəylik və Sofulu məhlələri idi. Hər məhlənin öz ahılları-ağsaqqalları vardı. Bütün məhlələrin adamları əkin-biçinlə, maldarlıqla məşğul idilər. Bəziləri başqa yerdən köçüb gəlmişdilər. Məsələn, deyilənə görə Sofulular məhləsi Sisian mahalından köçüb gəlibmişlər. Kənd özünün ağsaqqal, işgüzar adamları ilə fəxr edərdi. Nəcəf bəy, Hüseynqulu bəy, Tumas, Məmmədxan, Bəxtiyar, İsakov Xızır, Bayram, İxtiyar, Heydərqulu bəy, Paşa, Hüseyn, Əbil, Əsəd, Temir, Şirin, Səhiyyəddin, Aslan, Əmir, Adışirin, Həmzə, İsrafil, Şəmil, Abutalıb, Cavad, İslam, Balaca, Zaman və başqaları kəndin say-seçmə adamları idilər.

Onlardan biri olan Kərim haqqında danışmağı lazım bilirəm. Anadan yetim olan Kərim günlərin bir günündə heç kəsə bildirmədən kənddən çıxır, çox çətinliklərlə üzləşərək pay-piyada Laçın, Şuşa, Ağdam, Yevlax yolu ilə Bakıya gəlir. Bakıda o, Murtuza Muxtarovun kontorunda ən kiçik işlərdən başlayaraq tədricən qazma sənətini öyrənir, sonra görkəmli qazmaçı, neftçi kimi ad çıxarır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan bir qədər sonra, 1927-37-ci illərdə "Kirovneft" neftçıxarma trestinin müdiri vəzifəsinə qədər yüksəlir. Onun qardaşı Balabəy gəlib buruq ustası olub. Üçüncü qardaş Şahsuvar isə təbiət aşiqiymiş. Kəndimizdə "Qayadibi" deyilən yerdə, çox qalın ormanlıqda müxtəlif ağaclara calaq vuraraq gözəl meyvə bağı yaradıb. Elə indi də ora "Şahsuvar bağı" deyirlər.

## Sözlük

Murtuza Muxtarov

*Milli burjuaziyanın və neft sənayesinin məşhur nümayəndələrindən biri olub. 1857-ci ildə Bakının Əmircan kəndində arabaçı ailəsində dünyaya göz açan Murtuza ağlı, fərasəti ilə milyonlara sahib olan xeyirxah, mehriban insan, ciddi sahibkar idi. Təsadüfi deyil ki, adı Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyevlə bir sırada çəkilirdi.*

*Təhsil almamışdı, amma yaratdığı qurğular, neft quyularının qazılması sahəsində tətbiq etdiyi üsullar məhsuldarlığın artmasına ciddi təsir göstərirdi. O, Qərbi Avropa mədəniyyətinin pərəstişkarı idi. Xürafata qarşıydı. "Tərəqqi" qəzetini nəşr edir, məktəb açdırır, 40 tələbəyə təqaüd verirdi. Podrat qazma kontoru yaratmışdı. Əvvəlki dəzgahdan xeyli üstün "Bakı qazma" sistemini ixtira etmişdi. Muxtarovun özünün çoxlu mədənləri vardı. Buzovna istiqamətində Sabunçudan sonra gələn stansiya Muxtarovka adlanırdı, ətrafdakı buruqların hamısı ona məxsus idi. Qeyri-adi memarlıq təntənəsinə malik Səadət sarayını, Əmircan məscidini, Kislovodskda, İtaliyada, Florensiyada bir çox memarlıq binalarını tikdirmişdi.*

*1920-ci ildə təbiətcə yenilməz olan Murtuza Muxtarovun mənzilinin qapısını iki silahlı hərbçi döydü. O, qapını açdı. Əlində hazır saxladığı silahın tətiyini çəkdi. Hərbçi yerindəcə canını tapşırdı. Milyonçu ikinci atəşi öz gicgahına sıxdı. Sovet hakimiyyəti artıq dəhlizdə idi.*

## Salnamə

"Hər il yay fəslində kənd əhli zəmiləri biçib bərdək qurandan sonra əlavə olaraq bir də Qafan dağlarına, Dərəyurd deyilən yaylağa çıxardılar. Oradakı kəndlərin əksəriyyəti azərbaycanlı kəndləri idi.

Bizim Çərəli və Hərtiz kəndindən olan elat Sarımsaxlı yaylağından, Qazangöl ətrafından dağları aşıb Ordubad tərəfdən Naxçıvana alverə, duz almağa gedərdilər. Buralar Qafan rayonunun Hacıbac kəndinin yaylağıydı. Çox səfalı yerlər idi. Ancaq qaçaqlar elata daim korluq verirdilər. Gecələr qaçaq atlıları obaya basqın edirdilər. Sağlam atları, çoxlu qoyunları yığıb aparırdılar. Elat düşən alaçıqlar yüksək düzdə olduğundan, aydınlıq gecədə qaçaqların gəlişi görünürdü. Camaat onları görən kimi itləri buraxırdılar. Qadınlar lazım olan şeyləri götürüb qayalarda gizlənirdilər. Atlarını da çox uzağa aparırdılar. Elat bu basqınlara dözməyib tez köcüb geri qayıdardı."

**Novxanı. Qızılqaya**

O, üstünə dəftər-qələm, qollu-möhürlü sənəd, fotoşəkil, yazılı-yazısız vərəqlər yığılmış masanın arxasına keçdiyi, indi sizə də məlum olan həmin o payız günündə də səksən ildən bəri öyrəşdiyi adətinə xilaf çıxmadı. Səhərin gözü açılar-açılmaz yatağından qalxdı. Əl-üzünə su vurdu, yuyundu, öz zövgü, zəhmətiylə başa gətirdiyi bağ evinin tamaşasına durdu. Novxanının Qızılqaya məhləsində həmişə ruhuna cavanlıq verən gözəl bağda gəzinərək ötüb keçən vaxtın şirin çağlarını yada saldı. Gül-çiçək, yaşıllıq ləklərinin arasını, ağaclığı dörd dolandı, barlı budaqlara nəzər yetirdi. Hərəkətindən fələk də baş açmayan Bakı küləyinin hiyləsi ilə yaprıxan güllərin budaqlarına əl yetirdi, əyilən buğumları şax duran buğumlara tay elədi.

İndi o, payız bağçasındakı ağaclar kimi idi, necə ki, ağaclar barla-bəhərlə yüklənmişdi, bax eləcə onun da sinəsində söz aşıb-daşırdı. Söz onu artırmaya, hələ dünən axşamdan yığışdırıb, arayıb-axtarıb cəm elədiyi sənəd-sünədin, dəftər-qələmin yanına çəkirdi.

Ora döndü, ordan indicə gəzib-dolaşdığı bağçaya tərəf bir də baxdı. Sağlığına qismət, bağça geniş idi, gur idi. Bağça belə böyüklüyündə, belə gözəlliyində dayanıb qalmırdı. Baxdıqca böyüyür, böyüyür, Abşeron boyda, Bakı boyda, Azərbaycan boyda olurdu.

Həmin o Azərbaycanın içində isə...

Biri vardı, biri yoxdu, bir Bərgüşad vardı, həm də bir Həkəri vardı. O iki çay arasında elə bu kişinin özünə bənzəyən Hərtiz dağı qabarıb dörd bir yana meydan oxuyurdu. Hərtizin ətəyində idi Çərəli kəndi. Kamran əmi o kənddə dünya işığına göz açmışdı.

Oxutmamışdılar, oxumuşdu, evləndirməmişdilər, evlənmişdi, böyütməmişdilər, böyümüşdü. Dayağa söykənməmişdi, dayaq olmuşdu, öyrətməmişdilər, öyrənmişdi...

Burdan, artırmadan baxanda ona elə gəlirdi ki, nəinki əli ilə saldığı bağça, Abşeron incisi Novxanı, Bakı, Azərbaycan... bütün dünya ovcunun içindədi.

O, bu dünyanı qazanmışdı.

Və bütün bunlara baxmayaraq qəribə idi ki, yarpaqları saralan, barı-bəhəri aşıb-daşan payızın içində yaz fəsli ilə üzbəüz idi. Ayağındakı yumşaq çəkələklərə baxdı (türklər "tərlik" deyir), qəfil ona elə gəldi ki, 1929-cu ildi, o da Naxçıvana gedənlərə qoşulub bazara düşüb, quş südü, can dərmanı satılan o bazardan özünə bir cüt aşıya qoyulmuş

üçburun çarıq alıb, ayağındakı çəkələrlər də heç Avropa malı deyil, həmin o aşıya qoyulmuş üçburun bir cüt çarıqdır. Canı çox rahat idi. Çarığa görə yox, çünki ömrünü Allah bəndəsi kimi yaşamışdı.

**Deyilmişdir**

"Oğlağı anasının südündə bişirməyin!"

**Novxanı. Qızılqaya**

Xudaya, o nə qədər günahları bağışlamış nə qədər zəhmətləri halal etmişdi...

Eynəyi gözünə taxıb, qələmin ucunu kağıza söykədi:

Hər şey nağıllardakı kimi oldu. Xeyirxah zümrüd quşu indi onu bizim mövcud olduğumuz gündən çox illər geri, gözəl Çərəliyə, gözəllikdə ondan geri qalmayan, bəlkə bir qədər də irəli gedən Dərəyurd yaylağına aparmışdı.

**Salnamə**

"Dərəyurd yaylağı kəndimizin birinci yaylağıydı. Mən ona ikinci deməzdim. Çünki o, Qafan dağlarına nisbətən həm kəndə yaxın idi, həm də gözəl mənzərəsi, otlağı-ormanı vardı. Qafan yaylaqları kənddən çox uzaq idi. Elat ta Hacıbac kəndinə qədər, dağların orasından dar yol ilə, heç bir düşərgə yeri olmayan yollarla dağlara gedirdi. Bu uzaq yolda heyvanlar çox korluq çəkirdi, arıqlayırdı. Ancaq yaylağın özü çox baxarlıydı. Onun gözəl bulaqları vardı. Oxçu çayının

başlanğıcı olan Qazan gölü burada yerləşirdi. Dağların arxası isə Naxçıvan vilayəti idi.

...Alp dağlarına bənzəyən Dərəyurd yaylaqları göz oxşayırdı. Lakin bu uzaq yolu elə belə, dayanmadan getməzdilər. Dincələ-dincələ gedərdilər...

...Heyvanlar bu gözəl çəmənliklərdə otlayardılar...

...Yaz ağzında dağlardan ermənilər gəlib azərbaycanlıların zəmilərinin biçilməsində iştirak edərdilər. Dağlarda tayfa-tayfa, məhlə-məhlə öz yurdlarını qurardılar. Xudaya, onların günləri nə xoş, nə şən keçərdi...

...Torpaq inzibati cəhətdən Ermənistanın olmasına baxmayaraq, erməni gözə dəyməzdi...

...Erməni bişirdiyi xörəyi bizimkilər yeməzdilər. Yeməyi özləri bişirərdilər...

Dərəyurd yaylağının... quzeyi gedir üçtəpə dağlarına, Bərgüşad çayına, Tatıf yaylağına, Ağa çayına, güneyi Qafan dağlarına...

...Heç yadımdan çıxmaz orada yetişən meyvə növləri. Ən xoşa gələni isə Eyvazlı armud növü idi. İlahi, ağac nə qədər bar gətirər və yetişdirər... Təbiət öz gözəlliyini bu yerlərdən əsirgəməyib. O yerlər Zəngəzurun ürəkaçan bir guşəsidir. Kəndlərin əksəriyyəti azərbaycanlı kəndləri olub. Çox əfsuslar olsun ki, onların indi yalnız adı var.

Vaxt gələr hər şey öz yerini tapar. Hakim dövlətlər və xaricdə yaşayan erməni diasporu daim erməni-Azərbaycan millətləri arasında ədavət tumu səpiblər. Nəticədə isə heç biri qazanmayıb. Əksinə, ermənilər ölkəni tərk ediblər. Yiyəsiz torpaqlar yaranıb. Bu iki millətin arasındakı gediş-gəliş səngiyib. Bölgəmiz ziddiyyət zonasına çevrilib. Qoy fikirləşsinlər o

xaricdəki ağalar. Onlar öz zəhərli nəfəsləri ilə adi erməni xalqına nə verdilər. Əksinə, erməni torpaqlarını xarabalığa çevirdilər.

Dərəyurd dağlarının cah-calalı pozulub. Vaxtilə sellər-sular hakim olanda camaat dağdan enib dərzlərini döyərdilər. Alt tərəfinə iti çaxmaq daşları vurulmuş taxta vələ iki öküz qoşardılar. Öküzlər samanın güləşi üstündə çox dolandığından bəzilərinin ayaqlarının altı yara olardı. Bu səbəbdən ya öküzü dəyişdirər, ya da onları nallayardılar. Xırmanın samanı mal-qara üçün yem, taxılı isə evlərin bərəkətiydi. Bu qayda kolxoz təsərrüfatı yaradılana qədər davam etdi, sonralarsa unuduldu. Kənddə kollektiv təsərrüfat quruldu. Zamanın gərdişindən pis-yaxşı baş çıxardanların çoxu kolxoza girmək istəmirdi. Kolxozun yaranmasına barmaq qaldıranların əksəriyyəti işdə təcrübəsi, səriştəsi olmayanlar idi. Kolxoza girmək istəməyənlərin bəziləri kənddən çıxıb getdilər. Əvvəllər firavan yaşayan kənd camaatının vəziyyəti ağırlaşmağa başladı.

Kollektiv təsərrüfat ideyası bəlkə də mahiyyətcə yaxşı idi. Lakin bacarıqsız adamların qohumbazlıqla anbara, fermaya, gəlirli yerlərə, vəzifələrə təyin olunmaları əsl iş adamlarının əlini işdən soyutdu. Biz də çətinliklə qazandığımız iki baş inək, bir baş öküz, beş baş keçi, üç baş qoyunla kolxoza yazıldıq. Mənə kolxoz heyvanını otarmağı tapşırdılar. Həmin il kəndin yan-yörəsində gəzişən canavar sürülərinin əlindən göz açmaq mümkün deyildi. Hökümət nümayəndələri kənddən silahları zorla yığdığından bir kimsədə tüfəng-tapança qalmamışdı. Silahı gizlədib saxlayanlar isə atəş açmağa qorxurdular, onları xalq düşməni damğası vurub

Sibirə sürgün ediləcəkləri ilə hədələyirdilər. Bəlkə də bu səbəbdəndir ki, güllə səsi, tüfəng-tapança səsi eşitməyən canavarlar daha da azğınlaşmışdı, gecələr kəndə soxulmaqdan çəkinmirdilər. Evimiz kəndin kənarında olduğundan gecələr tez-tez damda gəzişən canavarların ayaq səslərinə qulaq asırdım.

Kənd camaatı çox mehriban yaşayırdılar. Yazağzı, bir də payız vaxtı çoxları evlərinin böyründə çardaq qurardı. Axşamlar bir də görərdin çardaqlardan səsi olanlar segah oxumaq qabiliyyəti nümayiş etdirir, bəziləri qamışdan qayırılmış tütək çalardılar. Ən yaxşı oxuyanlardan biri mənim malotaran yoldaşım Abdullayev Ağabala idi. Qara oğlu Səmədin də yaxşı səsi vardı. Ağabala atası ilə köçdülər Füzuliyə. Özü və uşaqları respublikada məşhur muğam ustası oldular. Gözəl səsi vardı. Xələf oğlu Paşa, Məmmədhəsən, Qorçuyev Məhəmməd də elə. O vaxtı hələ radio, televiziya yox idi. Həvəskarlar axşam yeməyindən sonra hazırlaşırdılar çardaqlarda oxuyanlara qulaq asmağa. Balaca uşaqlar da onları yamsılayıb oxuyardılar. Bu hadisələr öz-özlüyündə bir özfəaliyyət dərnəyinə bənzərdi.

Kənddə ət dükanı yox idi. Qısır inəklər, cütə getməyən cöngələr hər kəsdə vardısa, kəsib pay qoyardılar. Bu işin mahir ustası Əmir kişiydi. Heç kəs onun böldüyü paydan inciməzdi. Kəsilən malların gönünə kül səpib qurudub çarıx tikərdilər. Korluqları yalnız sudan olardı. Onu da mən illər ötdükdən sonra, ixtriyar sahibi olduğum vaxtı həll etdim. Sonralar kolxoz quruluşu yüz illərlə yaşayıb, inkişaf etmiş qaydanın kökünü kəsdi. Bədnam, xəyanətkar erməni daşnakları tamam o binaları, abidələri viran qoydular...”

## Sözün qüvvəti

Əlbəttə, Çərəli, Qubadlı yurdu, Hərtiz, Dərəyurd, Həkəri, Bərgüşad... Nə qədər könüloxşayan, ecazkar olsalar da, bu yerlərin ən qiymətli sərvəti insanlar idi. Kamran əminin bu qənaəti yer üzünə və bu yer üzünün bütün adamlarına aid idi və belə geniş miqyasa şamil edildikdə də dəyişməz qalırdı.

İnsan dünyanın əşrəfidir! Təbiət bənzərsizdir, gözəldir, verimlidir, ən əsası ilkin başlanğıc və təməldir. Amma bununla belə hər hansı bir varlığa insan əli, insan nəfəsi toxunmayanda o, filosoflar demiş, özündəşey olaraq qalır. İnsan həyatının müstəvisi onun öz əlləri ilə yaradılır, yaşayış minimumlarını insan əlləri müəyyənləşdirir.

Kamran əmi o insanları yaşının tumurcuq vaxtından görmüşdü, tanıyıb sevmişdi. Ümumiyyətlə, insanlara ehtiram onun təbiətinin tərkibini müəyyən edən əsas əlamətlərdən biri idi.

İndi güclü yaddaş o insanları bircə-bircə gözünün önünə gətirir.

## Çərəlinin adamları

Çərəlidə məhəllələr, tirələr varmış: Bəylik, Sofulu, Qorçubəyli, Əsədli, Şahverənli. Heç demə, bunların da hərəsinin öz xasiyyəti, ayrıca davranış qaydaları. Bəylik və Sofulu ən sakit məhlələr imiş. İşgüzar, xeyirxah insanlar yaşayırmış o gözəl yurdlarda.

Həyat qəribədir, milyardlarla insan yaranıb, əlləşib, çalışıblar, sevib-seviliblər. İndi isə yoxdular onlar, qeyb olublar. Adlar, əməllər unudulub. Bəlkə də Tumas, Məmmədxan, Bəxtiyar, İsakov Xızır, Bayram, İxtiyar, Heydərqulu bəy, Paşa,

Hüseyn, Əbil, Əsəd, Temir, Şirin, Səfiyyəddin, Aslan, Əmir, Adışirin, Həmzə, İsrafil, Şəmil, Abutalıb, Cavad, İslam, Balaca və Zamanın – Çərəli kənd sakinlərinin adları Kamran əminin, 20 yaşından o yerlərdən qopub Bakıya gələn, gözəl bir həyat yaşayıb 93 yaşında dünya ilə vidalaşan, indi bu payızın qızıl çağında ömrün yazı ilə üzbəsurət olan el ağsaqqalının yaratdığı "Salnamə"dən savayı heç bir yerdə xatırlanmır...

Kamran əminin həmkəndlilərində ən çox bəyəndiyi keyfiyyət zəhmətkeşlik və həyatda özünü təsdiq etmək cəhdidir. Onun özü də bütün yaşam boyu dizini qatlamadan gecə-gündüz çalışmış və yekun olaraq Kamran Əsəd oğlu Hüseynov ucalığına qalxa bilmişdi. Bu ad elə bir məna yükünə malikdi ki, ona digər titullar artırmağa ehtiyac qalmır.

O nəinki həmkəndlilərinin, bütün Qubadlının, Naxçıvanın, Zəngəzurun, Qarabağın ləyaqətli oğulları ilə fəxr edir, onlara lazım olanda əlindən gələn köməyi əsirgəmirdi.

Həqiqətən də, Zəngəzurun, Qubadlının haqqı var özünün say-seçmə övladları ilə öyünsün. Sarı Aşıq, Qaçaq Nəbi, Nəbinin Həcəri, Əhliman Axundov, Əli Vəliyev, Əli İldırımoğlu, Ağabala Abdullayev, Cəlal Bərgüşad, Gürşad Hüseynov, Məşədi Ağa, Məmməd İsgəndərov, Elbrus Şahmar, Kamran Hüseynov, Məsud Əlioğlu, Qasım Qasımzadə, Qara İlyasov, Rafiq Yusifoğlu, Eldar Baxış, Şamo Arif, Əsgər Abdullayev... daha kimlər, kimlər...

Kəndin adamları Kamran əmiyə həmişə böyük sevgi, hörmət bəsləmişlər, uşaqdan böyüyə kimi hamı. Məhz o əzəli yurdun yazılmamış qanununa görə hörmət hörmətə bağlı olub, xalq demiş qananın quluyam, qanmayanın ağası.

Yerinə düşər, müxtəlif münasibətlə görkəmli insanın ünvanına, onun adına söylənmiş seçimlərə az da olsa, yer

verək və qəsdən elə seçdik ki, bu sözlərin hamısı Qubadlı camaatının dilindən olsun.

Ürəkdən gələn söz ürəyə yatar...

Kamran dadaş!

Səni – doğma qardaşımı, görkəmli dövlət və ictimai xadimi, xalqımızın fədakar oğlunu 60 illiyin günündə təbrik edirəm! Sənə 100 ildən yuxarı sağlam ömür, xöşbəxtlik, Zeynəb xanımla, balalarınla birlikdə fərəhli səadət arzu edirəm!

Səni öpürəm, bağrıma basıram! Sən Azərbaycan xalqının sevimli oğlusan! Sağ ol, var ol, həmişə alnıaçıq, başıuca ol!

**Süleyman Rəhimov,**
Xalq yazıçısı

**Sözlük**

Süleyman Rəhimov

*1900-cü ildə Qubadlı rayonunun Əyin kəndində anadan olub. 1938-ci ildən Yazıçılar İttifaqının üzvü, Azərbaycan Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı idi. Yaradıcılıqla bərabər mühüm dövlət vəzifələrində çalışıb. "Şamo", "Saçlı", "Mehman", "Mahteban", "Aynalı", "Ana abidəsi", "Qafqaz qartalı" və sairə məşhur əsərlərin müəllifidir. 1983-cü ildə vəfat edib. Kamran Hüseynov onunla ailəvi dost idi, haqqında məqalə yazıb.*

Kamran Hüseynov yoldaşa!

Qırmızı Əmək Bayrağı ordeni almağınız münasibətilə bərk-bərk öpürəm, Sizə uzun ömür, möhkəm cansağlığı arzu-

layıram. Xalqımızın daha xoş güzəranı naminə yeni-yeni nailiyyət qazanmağınızı səmimi qəlbdən diləyirəm.

**Əli Vəliyev,**
Xalq yazıçısı

Böyük insan deyəndə onun mənəvi, əxlaqi, əməli, elmi böyüklüyündən söhbət gedir. Haqqında söz açdığım bu şəxs böyük dünyagörüşünə malik, zəngin iş təcrübəsi olan, həyatı və insanları duymaq bacarığı ilə seçilən el ağsaqqalı Kamran Əsəd oğlu Hüseynovdur.

Mübaliğəsiz demək olar ki, Kamran Hüseynov bir ensiklopediyadır. Hər bir şəxs onu vərəqlədikcə orada xeyirxahlıqla dolu hər şeyi tapa bilər, bəhələnə bilər. Vətənə, torpağa bağlılıq onun ən ali məqsədədir. Qarışıq dünyamızın çalxalandığı vaxtlarında mən bunun canlı şahidi olmuşam.

Yaxşı yadımdadır, 1992-ci ilin may ayı idi. Mən Qubadlı rayonunda icra hakimiyyətinin başçısı işləyirdim. Vəziyyət o vaxtlar çox ağır idi. Şuşa ermənilər tərəfindən işğal olunmuş, Laçın əhalisi rayonu tərk etməyə başlamışdı. Qubadlı da təhlükədə idi. Bu ərazilərə güllə yağdığı bir vaxtda Kamran Hüseynov, Tofiq Mehdiyev və başqa bir qrup adamla Qubadlıya gəldi. Səhər saat on radələrində mənim iş otağıma daxil olan Kamran Hüseynovun salamdan sonra mənə ilk sualı bu oldu ki, rayonun xəritəsi varındımı? Danış görək rayonda və ətraflarda – Zəngilanda, Laçında vəziyyət necədir?

Mən mövcud vəziyyəti olduğu kimi danışdım və Şuşanın tamamilə ermənilərin əlində olmasını, Laçının isə Qubadlı ilə

həmsərhəd olan bir neçə kəndlərinin işğal olunduğunu bildirdim. Qeyd etdim ki, Zəngilan rayonunda hələlik təhlükə hiss olunmur.

Qubadlının müdafiəsi üçün xeyli götür-qoy edildi. Kamran Hüseynovun təklifləri ilə razılaşaraq rayon fəalları ilə birlikdə Laçının Güləbird kəndinə getdik.

Körpünün yanında toplaşdıq. O vaxt batalyon komandiri Vaqif Cabbarov da öz hərbçiləri ilə orada yerləşmişdi.

Kamran kişi burada da xeyli söhbətlər etdi və son təklifini verdi. O məsləhət bildi ki, Qubadlıdan da bir batalyon köməyə gəlsin. Sonra Qubadlının Muradxanlı kəndindən həmin əraziyə işıq çəkildi. Ömrünün ixtiyar çağında olan bu müdrik ağsaqqal yorulmaq bilmədən bütün günü bizimlə o yerləri gəzdi, nəhayət Başarat kəndinə gəldik. Orada da əhali ilə görüşdü, onlara dəyərli məsləhətlər verdi. Heç yadımdan çıxmır ki, bir cavan oğlana Kamran kişi dedi ki, Bakıda, Sumqayıtda gedib gəzmək, bir müddət qalmaq o vaxt gözəl olar ki, Qubadlıda yaşayasan. Qubadlısız onlar heç vaxt sizin yurd yeriniz ola bilməz! Bunu gərək unutmayasınız.

Həmin gün axşam rayonun mərkəzində - İcra hakimiyyəti binasının qarşısında içəri keçmədən, açıq havada, ayaq üstə öz həmyerliləri ilə xeyli söhbətləşdi, dar gündə hamını bir-birinə dayaq olmağa çağırdı.

Qubadlı camaatının böyük-kiçik yerini bilməsi, mərdliyi, torpağa bağlılığı, ağsaqqal sözünə qulaq asması təbii haldır. Bəlkə elə buna görə idi ki, ağır vaxtlarda Qubadlı təxribata uymadı, işğaldan yaxasını qurtara bildi.

Yaxşılıq adətən şərdən, xəyanətdən, şeytan əməlindən xilas ola bilmir. İnsan bu pisliklərlə rastlaşanda şeytana lənət

oxuyur. Mən də yaxşılıq, qeyrət, mərdlik mücəssəməsi olan Qubadlıya xəyanət edənlərə lənət olsun deyirəm.

Mənim Kamran Hüseynovla bağlı digər bir xatirəm rayon işğal olunduqdan sonra qaçqın düşmüş əhalinin məskunlaşmasına onun göstərdiyi qayğı ilə bağlıdır.

Həmişə təkidlə dediyi söz bu olardı. Birinci, əhali yerləşdirilməli, ikincisi, onlar imkan daxilində işlə təmin olunmalıdırlar. Əgər hər bir ailənin kiçik də olsa, yaşayış yeri və o ailənin çörəyini ödəyən qazancı olsa, onda ailələr məhv olmaz. Yardıma ümid bəsləmək insanı kölə edir, onu mütiləşdirir.

Yaxşı yadımdadır, rayonun işğal günü ilə bağlı keçirilən tədbirdə Kamran Hüseynov da iştirak edirdi. Həmişə obyektivliyi, düzlüyü üstün tutan bu şəxs yenə də öz ağsaqqal sözünü dedi:

- Erməni çox azğın millətdir, zorla aldığı torpağı asanlıqla qaytarmaz. Gərək onlara təzyiq göstərilsin.

- Kəndlinin sərçəsi də süd verməlidir. Torpağını, iş yerini itirmiş kəndli işlə təmin olunmalıdır. Bunun üçün zavodlar, fabriklər işə salınmalıdır.

- Belə bir ağır vaxtda torpaqların azad olunmasından başqa məsələlərə vaxt ayrılmamalıdır.

Kamran kişinin bir böyüklüyü də onun dövlətə, dövlətçiliyimizə sədaqətli olması, xalqımızı təmənnasız sevməsidir.”

**Hüseyn Əsədov,**<br>
Qubadlı sakini

Mən özümü çox xoşbəxt sanıram ki, Sizin kimi gözəl bir insanla çağdaşam və Sizin fəaliyyətinizi çox yaxşı öyrənməyə çalışmışam. Az da olsa, mən də əlimdən gələni edirəm ki, təkcə Qubadlı bölgəsi deyil, qədim Zəngəzur mahalı düşməndən təmizlənsin! Ellərimiz doğma yurdlarına qayıtsınlar.

Siz bizim Qulu Əsədovlar nəslimizə bələdsiniz. Qulu Əsədov 1918-1920-ci illərdə elimizin qəhrəman oğlu Sultan bəyin rəhbərliyi altında daşnak Andranik paşanın qoşunlarının Zabux çayı ətrafında darmadağın edilməsində və 1919-cu ildə daşnak qoşunlarının Əsgəran qalasında məhv edilməsində iştirakına görə, Qarabağın general qubernatoru Xosrov bəyin təşəkkürünə layiq görülmüşdü. Qulu Əsədovun həyatı sonralar heç də rəvan getməmişdi. O, böyük ədiblər S.Rəhimov, Ə.Vəliyev və Mirağa Əliyevin köməyi nəticəsində M.C.Bağırov tərəfindən qəbul edilmiş, 1945-46-cı illərdə İrana göndərilmişdir.

Mən yaxşı bilirəm ki, Siz yurdumuzun hər bir uğuruna sevinirsiniz. Bu mənim gücümü və imkanlarımı artırır və məni gələcək işlərə ruhlandırır. Mən Sizə cansağlığı və uğur dolu yaradıcılıq arzulayıram. Kamran müəllim, arzu edirəm ki, Sizin bir əsrlik yubileyinizi axar-baxarlı Qubadlının gözəl guşələrində keçirək!

Xalqımızın müdrik ağsaqqalı barədə nələr deyilməyib!

Əgər adamsansa, sev adamları,
Demə bu dostumdur, o düşmənimdir.
Demə əzizimdir ev adamları,
De ki, mən xalqınam, xalq da mənimdir.

**Elbrus Quliyev,**
Qubadlı sakini, iqtisadçı

Biz Qubadlı rayonunun Çərəli kəndində böyüyüb boya-başa çatmışıq. Kəndimiz Hərtiz dağının ətəyində yerləşir.

Hərtiz dağına sığınmış Çərəli kəndi gör necə insanlar yetişdirib! Adına layiq el ağsaqqalı, böyük insan, yüksək şəxsiyyət sahibi olan, həm dövlət, həm də el adamı kimi tanınıb sevilən Kamran Hüseynov təkcə kəndimizin yox, bütün Azərbaycanımızın fəxridir. O, çox təvazökar, həqiqəti sevən, yüksək mədəniyyət sahibi kimi tanınıb. Hərtiz dağı, Çərəli kəndi belə bir şəxsiyyət yetişdirib. Belə bir alicənab insan yer üzündə tək-tək yaranar. Mən də onu bu alicənablığına, yüksək insani keyfiyyətlərinə, qabiliyyətinə, təvazökarlığına görə tanıyıb sevdim.

Mən 1940-cı ildə Çərəli kəndində müəllim işləyirdim.

Kənddə ibtidai məktəb vardı. Onun nə stulu, nə stolu, nə də yazı taxtası vardı. Özü də uçuq bir binada yerləşirdi. Kəndin böyük olmasına baxmayaraq oraya maşın yolu yox idi.

Kəndimiz içməli sudan korluq çəkirdi. Altı artizian quyusu vurdurdu, onun dördündən su çıxdı. Çərəli öz halını dəyişib gözəl, böyük bir kənd oldu. Kəndin on illik məktəb binasına xarici inventarlar yığıldı. Stol, stul, yazı taxtası, soyuducu, televizor, radio, əl və ayaq tikiş maşınları, idman zalı, idman avadanlıqları, telefonlara qədər...

Kamran Hüseynov özü gəlib həmin işləri öz gözü ilə görüb yerinə yetirilməsinə nəzarət eliyirdi. Çərəlilər belə yüksək şəxsiyyətli həmyerliləriylə fəxr edir, onunla haqlı olaraq öyünürlər. Həm də ki, Kamran müəllim rayonun bütün başqa kəndlərinə də köməyini əsirgəməyib. Məsələn, Dondarlı, Fərcan, Muradxanlı kəndlərində böyük on illik məktəb

binaları tikdirib. Bütün kəndlərə yol çəkdirib, rayon mərkəzinin özündə belə çox böyük işlər görüb. Oraya asfalt yol çəkdirib. Həkəri və Bərgüşad çayları üzərində böyük körpülər saldırıb. Rayon mərkəzində iki böyük on illik məktəb binası, habelə böyük xəstəxana, binaları tikdirib. "Bütün rayon öz vəziyyətini dəyişib yaxşılaşıb" deyəndə hamı Hüseynov Kamranın zəhmətidir deyib fəxr edir. Qurmaq, yaratmaq, bərpa işləri aparmaq sanki onun taleyinə yazılıbmış.

**Xızır İsaqov,**
Qubadlı sakini

**Şeir**

El-oba dəstə-dəstə
Gələr ziyarətinə.
Göylər də heyran qalar
Bu el məhəbbətinə.
Bu əvəzsiz hörmətə,
Bu dünyəvi şöhrətə.
Alqış deyir bu hörmətə,
Alqış deyir doğma məkan
Alqış deyir Azərbaycan-
Hörmət sənin hörmətindir.

Tikdirdiyin evlərin,
Çəkdirdiyin yolların.
Suların, budaqların,
Saldırdığın bəndlərin,

Şəhərlərin, kəndlərin
Varmı sayı-hesabı?!
Yağla bala bənzətdin
El yolunda çəkdiyin
Əziyyəti, əzabı.
Alqış deyir zəhmətə
Alqış deyir doğma məkan.
Alqış deyir Azərbaycan-
Zəhmət sənin zəhmətindir.

Etdiyin yaxşılıqlar
Sığmaz neçə cahana.
Ömrünü həsr etmisən
Doğma Azərbaycana.
Yaxşılıq var-dövlətin!
Xeyirxahlıq sərvətin!
Sən hamıdan varlısan,
Hamıdan başı uca,
Hamıdan vüqarlısan
Alqış deyir bu sərvətə,
Alqış deyir bu dövlətə
Alqış deyir doğma məkan,
Alqış deyir Azərbaycan

Sərvət sənin sərvətindir!
Dövlət sənin dövlətindir!

Dünyanın hər yerində,
Sənin adın-sanın var.
Tarixlərə düşəcək,

Şöhrətin var, şanın var.
Sən xalqımın dühası,
Zəkasısan, ağlısan.
Qüdrətli bir millətin
Qüdrətli bir oğlusan.
Qeyrətli bir oğlusan.
Alqış deyir bu qüdrətə,
Alqış deyir doğma məkan,
Alqış deyir Azərbaycan
Qüdrət sənin qüdrətindir!
Qeyrət sənin qeyrətindir!

Müqəddəs torpağından,
Yurdundan güc almısan.
İnsanlıq zirvəsindən
Sən təxti-tac almısan,
Göylərə ucalmısan
Yenilməyən Vətənin,
Qədirbilən elin var.
Xalqımın ürəyində
Əbədi heykəlin var.
Bundan böyük qiymət varmı?
Bundan böyük şöhrət varmı?
Alqış deyir bu şöhrətə,
Alqış deyir doğma məkan,
Alqış deyir Azərbaycan
Şöhrət sənin şöhrətindir!

**Tariyel Cahangirov,**
Şair, Qubadlı sakini

**Sözün qüvvəti**

Çərəlinin, Dərəyurdun tərifi o gözəl yerdə yaşayan adamların adlarını çəkməklə bitən deyil. Çünki Kamran əmi məhz o yerin dünyaya göz açıb böyüyən, şüura dolan, daim hərəkətli, artıb çoxalan bir parçası olub. Qubadlını canına, qanına hopdurub, həmin yerləri, o doğma adamları canında, qanında Bakıya, Sumqayıta, Mingəçevirə, Naftalana, Neftçalaya... oradan da Afrikaya, Amerikaya, Avropaya, kəsəsi, dünyanın beş qitəsinə daşıyıb. Hara gedibsə, harda yaşayıbsa, bununla bahəm bircə an belə Qubadlının, Çərəlinin hüdudlarından çıxmayıb. Bu gün onun məzarı xalqın seçilmiş övladlarının uyuduğu Fəxri Xiyabandadır və eyni zamanda onun əbədi beşiyi - siz ruh deyin, xəyal deyin, nə deyirsizsə, deyin, həm də Qubadlıda, Çərəlidədir... O yerdə ki, Kamran əmi bütün eniş-yoxuşlarına, kəndli güzəranından irəli gələn çətinliklərə baxmayaraq, məlum sıxıntılar, həmin kasıbkarlıq çevrəsində belə ömrün ən dadlı çağlarını yaşamağa fürsət tapmışdı. Təbiəti öz içindən keçirmişdi, insanları tanıyıb sevmişdi...

Qəribədir, bütün bunlarla bərabər o, yırtıcı canavarlarla da həmin dinc, güvənli baba yurdunda qarşılaşmalı olmuşdu. Daha doğrusu, canavarlar bir qarlı, sazaqlı gündə onun izinə düşmüşdülər. Əldə olan yazı-pozuya görə bəlkə də həftə boyu ac qalıb bir kisə dəni üyütmək üçün dəyirman yolunu yağır eləyən Kamran, Allah bilir, neçə vaxtdan bəri yem axtaran ac yalquzaqlara ücrah olmuşdu. Həyat sirri-xudadır...

Sonralar, çoxlu canavarlar, sürü-sürü itlər indi qızıl payızın tən ortasında, ötüb keçmiş vaxtları şəkil-şəkil göz önündə canlandırmağa cəhd eləyən müdrik kişinin üstünə diş qıcırdacaqdı. Amma o, hər dəfə həmin yalquzaqların pəncə-

sindən salamat qurtaracaqdı. Çünki on beş yaşı olar-olmaz gerçəkli canavarlardan öz fəhmi və Allahın köməyi ilə xilas ola bilmişdi...

**Hekayət**

Kamran, Çərəlinin on beş-on altı yaşda uşağı sonuncu dəfə Dondarlı dəyirmanına yetişəndə çıxmağıyla batmağı bilinməyən, cüzi istisi olan qış günəşi Zəngəzur dağlarının o biri üzünə sarı əyilməkdəydi. Ona görə sonuncu dəfə ki, oğlan bununla üçüncü yol keçi dərisindən olan iki dağarcıq dəni çataxlayıb eşşəyin belinə yükləmiş, sırıqlı şalvarı, sırıqlı qalınçası kimi qulağının bir tayı sallaq basma papağı da, saqqalı, hətta qaşı, kirpiyi də ard ununa batan, üzünün zəhmətindən savayı demək olar, bütün vücudunu ağ toz gizlədən dəyirmançıya yalvarmışdı. Demişdi, ehtiyac var, vəziyyət çətindir, bizim bu iki dağarcıq dəni də üyüt. Dəyirmançı hər dəfəsində oğlanın diləyini qulaq ardına vurmuşdu. Demişdi:

- Gözlə, nobatın yetişsin. Qorxmayın, acından ölməzsiniz. Çərəlilərin canı bərk olur, odu ey, o dəyirman daşı kimi. Quzuqulağı, böyürtkən, yarpız, gicitkən, əməköməci, yemlik, kəklikotu, qırxbuğum, şahpencəri, mərövcənin hesabına yüz il yaşayırlar sizinkilər. – (dəyirmançı bunu düz deyirdi), - Baxma ki, yiyələri burda yoxdu, gör nə qədər kisə, çuval tığlanıb qalıb orda. Get, üç gündən sonra gələrsən... Bəlkə mümkünat oldu.

Kamran uşaq, dəyirmançı namərd. Dəyirman bildiyini eliyir, çax-çax baş ağrıdır. Söz güləşdirməyin nə adı? Düz

deyirlər ki, daha bu zəhərə dönmüşü dördüncü səfər darta-darta Çərəliyə aparan deyil. Qalar burda. Xəbərləşər, dəyirmançı demiş, nobatı çatanda üyünər. Gələr, götürüb aparar.

Dəyirmançı axır sözünü deyib qazmanın o başındakı balaca kafına çəkilmişdi. Bununla belə, dən daşlarından qopan nərilti-gurultu içindən lap zəifcə qazan-qaşıq səsi də eşidilirdi. Bəlkə də dəyirmançı tuluğunu doldurmaq üçün axşam tədarükü görürdü, çay qaynadacaqdı, kartofdan-zaddan soyutmalayacaqdı. Şam eləyəcəkdi Allah qoymasa, boğazında qalsın görüm. Nainsaf oğlu, nainsaf. Guya bundan çörək istəyirəm, əl borcuna gəlmişəm. Səkkiz kilometr yolu qışın çovğununda neçə kərə ölçərlər? Halal malımdı, üyüt ver, çıxım gedim də. Niyə canın çıxır axı?

Dağarcıqları çuvallara tay eləyib qəddini düzəldən heyndə belə bir əhvalat baş verdi. Kəraminə şükür, Xudaya, böyüksən, ixtiyar sahibisən, sənə şəkk gətirən kafirdi, baxdı ki, qənşərində nurani bir qoca dayanıb. Özü də ona baxır. Bu da ona baxıb döyükdü.

- Bu dəfə də ağzını boza verdi, hə? – kişi soruşdu.

Oğlan çiynini çəkdi. Sanki demək istəyirdi, nə bilim, ay baba, heç özüm də baş açmıram. Deyəsən, yazacan nobatım çatmayacaq...

Qoca dilləndi:

- Dəyirmanın işi, oğul, hər yerdə zülümdü. Çömçə tutanın mində biri cənnətə gedər, ya getməz. Fikir eləmə, Allah özü bir yol açar, inşallah, – Qoca oğlana təskinlik verən kəlmələrini bitirib bir də soruşdu: – Kimlərdənsən, oğul?

- Çərəlidən Əsədin oğluyam...

- Olmaya Məmmədağanın nəvəsisən?

- Hə...

-Tanıyırdım atanı. Baban da yaxşı kişiydi, farsı, ərəbi bilirdi. Yaxşı da Quran oxumağı vardı. Allah hər ikisinə rəhmət eləsin. Adın nədi, oğul?

- Kamran...

- Hə, Kamran, bu dəyirmançının fikri ayrıdı, nobatı qabağa salmaq üçün gərək sən buna motaldan, cəmdəkdən bir şey gətirəsən... Öyrəncəlidi. Amma sən heç fikir eləmə. Mənim nobatım çataçatdadı. Düz fikirləşmisən, qoy dağarcıqlar qalsın burda. Özümüzünkinin gözünə qatıb tökərəm dənliyə, daşdan keçirdərəm. Üzümüzə gələn həftə gəlib apararsan...

Vallah hə, kasıbın da Allahı var. Bəxti, taleyi açar, açmaz, özü bilər, ən azı dar macalda dəyirmanın qapısını aralayır. Buna da şükür.

- Sağ ol, baba, ömrün uzun olsun, Allah əvəzini yetirsin.

- Nə əvəz, oğul, əl tutmaq Əlidən qalıb. İndi bu dəyirmançı hardan anlasın ki, sən əsilli, nəcabətli nəsildənsən. Dəyirmançının gözündə o taxta qapıdan girən hər kəs quş kimi bir şeydi, gəlibsə, demək ki, yemə gəlib... Əlacı olsa, toyuq-cücə kimi kişdəyib qovar bizi burdan. Bir azdan gün batacaq, şaxta indidən hökmünü göstərir, di tərpən, gör Çərəli hardadı... Burdan aralansam, dəyirmançı nobatımızı dəbbələyəcək, səninki də qalacaq, mənimki də, yoxsa özüm aparıb ötürərdim səni.

- Narahat olma, baba, özüm gedərəm. Sən elə bu dağarcıqları sal araya, bəs eləyər...

Kamran qocaya bir də dil-ağız eləyib üz tutdu Çərəli deyin bir. Çöl dəyirmanın içindən bir az işıqlıydı. Amma gün batmışdı, Zəngəzur dağlarının kəlləsində qış günəşinin sonuncu soyuq ziyası baxanın gözünü üşüdürdü.

Asta qaçan namərddi. Nə qədər mümkündü kəndə tez çatmaq istəyirdi.

Dünən möhkəm yağmış, qar oturmuşdu. Bütün günü qara-boz buludların içində gah görünən, gah qaralıb boğulan günəşin işarmağına baxmayaraq yenə də havadan qar qoxusu gəlirdi. Hərdən əlinin üstünə, alnına, boyun-boğazına qar dənələri iynə ucu kimi toxunur, tezcə də əriyib, bax elə o iynənin ucu boyda su zərrələri olurdu.

Dəyirmandan aralanmağından yarım saat keçərdi. Yəqin ki, Çərəlidə sobalara odun doldurub odlamış, qara çıraqların piltəsinin neft yaşardan başını hamarlayıb yandırmışdılar, amma burdan baxanda heç bir işıq-filan görünmürdü. Havaya zülmət çökmüşdü. Qar güclənib oyun çıxardırdı. Lopa-lopa yağırdı. İşıq olsaydı, Kamran özünə aralıdan baxa bilsəydi, gülməyi tutardı, şiddətlə yağan qar onu başından ayağınacan ağa bürüyüb, yarım saat irəli için-için qarasınca söyüb-söyləndiyi üstü unlu dəyirmançıya döndərmişdi.

Kaş gecə aylı olaydı. Aylı gecələrdə hər tərəf qara bürünəndə ətraf gündüz kimi işıqlanır. Ayın ağımtıl-sarımtıl şüaları qarın üstünə düşən kimi işıq azı iki dəfə güclənir. Elə bil qara çırağın dabanını burub piltəsini qaldırır, işığı çoxaldırlar. İri, lopa qar dənələri havada dinc böcəklər, ağ qanadlı kəpənəklər kimi ləngərlənib uçuşurlar, nəfəsdən ayrılan buxar adam boyda qalxana qədər görünür, sonra bir az da yuxarı çəkilib gözdən itir. Belə hallarda həssas insana elə gəlir ki, canından ayrılan, ağızdan çölə çıxan kimi havanın soyuqluğundan buğa-buxra dönüb ehmal-ehmal göy üzünə dartınan o insan həniri heç nəfəs deyil, qışın ortasında, gecənin bir aləmi hardasa yuxarılarda sirli bir qüvvə Ay çırağını alışdırıb ki, ilahi nur insana hayan olsun, yol göstərsin.

**Deyilmişdir**

...Budur, Mən yolda sizi qorumaq, hazırladığım yerə gətirmək üçün qarşınızca gedən bir mələk göndərirəm. Onun hüzurunda ehtiyatlı olun və səsinə qulaq asın. Ona qarşı üsyan qaldırmayın. O, itaətsizliyinizi bağışlamaz, çünki mənim adım onun üzərindədir. Əgər onun səsinə qulaq asıb, dediyinə əməl etsəniz, onda mən sizin düşmənlərinizə düşmən, yağılarınıza yağı olacağam. Mələyim sizin qarşınızda gedəcək... ("Tövrat"dan).

**Hekayətin sonu**

Qar qalın idi, bəzi yerlərdə yarıb keçmək lazım gəlirdi. Bununla belə, qışın soyuğunda günorta evdən çıxan idi, yarım saatdan bəri də yol gəlirdi, qar qalaqlarını yara-yara yeriyirdi, di gəl yorğunluq-zad hiss eləmirdi.

Mələk qalsın o yana, Allahın bir közərtisi də yox idi ki, getdiyi səmti əməlli seçə bilsin. Zülmət qatran kimi qatıydı. Açığı, lap yaxınlaşanda zorla seçilən ağac, kol qaraltılarının varlığını hiss eləyəndə bir balaca üşənən kimi olurdu. Çünki buralarda ac yalquzaqların gəzib dolaşdığını, şikar axtardıqlarını eşitmişdi, bilirdi. Danışırlar ki, guya canavar iy-qoxu bilmir, amma ovunun izinə düşməkdə ustadır. Elə ki izi tutdu, harada olsa, qarabaqara gəlib qənimətini qoparacaq. Nəsə hiss elədi Kamran. Allahın tərs işinə bax sən. Canavar haqqında deyilənlər qəfil beyninə düşdüyü anda bir sürü ac canavar peyda olmuşdu. Qulaq hesabı təqribən yüz metr aralıdan zəif şıqqıltılar gəlirdi, kimsə kibrit çöplərini sındırırdı elə bil. Adətən təzə qar üstünə ayaq basanda eşidilən səs xırıltıdan daha çox sınan çöp xırçıltısı çıxarır...

Qışın ortası, gecə zülmətə bürünmüş qarlı cığır, on beş yaşında yeniyetmə insan balası, bir sürü ac canavar. Lap yaxında qarşı yamacda zorla seçilən ağac qaraltılarına tərəf qaçmaqdan ayrı bir çıxış yolu düşünə bilmədi. Ürəyi vəhşi quş kimi çırpınırdı, deyirdin bəs indicə sinəsini parçalayıb düşəcək ayağının altına. Kamran ömrü boyu, yay olsun, yazın qanqaynayan, payızın ruhu qanadlandıran duyğulu çağları olsun, heç zaman, heç yerdə belə yelli, belə sürətlə yüyürməmişdi. Bəlkə də qaçış üzrə dünya rekordu təzələnib o zülmət gecədə, sadəcə dəyərləndirən olmayıb.

Yəqin aradakı məsafə on arşın da olmazdı, çünki quduzların hənirti - mırıltıları da dəyirdi qulağına. Xudaya, özün kömək ol, bircə ayağı qar örtmüş çala-çulaya düşməsin, bircə nəfəsi kəsilməsin...

**Salnamə**

"Mən kəndə qayıdanda qaranlıq ətrafı bürümüşdü, quşbaşı qar yağırdı. Yollar xatalı olduğundan kəndə qaça-qaça qayıdırdım. Yaşlı adamlardan eşitmişdim ki, canavarlar iy bilmədiyindən izə düşürlər. Tez-tez geri dönüb qar üstə qalan izlərimə baxırdım. "Qoçaşan" deyilən yerə yaxınlaşarkən canavarların ayaq izimə düşdüyünü görəndə ürəyim qopdu. Can şirin, qorxu yaman şeymiş. Yolun kənarındakı saqqız ağacına nə vaxt, necə dırmaşdığım yadımda deyil. Görünür, canavarlar hazır tikəni əldən vermək istəmirdilər. Səhərə qədər bir sürü canavar ağacın dibində, mən isə ağacın başında qaldım. Eşitmişdim ki, qışda, soyuq havada adamı tez yuxu tutur. Ona görə də hər ehtimala qarşı qarlı

ağacın budaqlarını qoltuğumun altından bədənimə sarıdım. Lakin necə deyərlər, səhəri diri gözlü açdım. Səhər canavarlar dağılışıb gedəndən sonra ağacdan düşüb kəndə necə qaçdığımı kaş təsəvvür edə biləydiniz! Bu əhvalatı kənddə hamı bilirdi. Ağacı da həmin gecədən bir xatirə kimi saxlayırdılar. Hamı ona qayğı ilə yanaşırdı. Bu yaxın vaxtlaradək həmin ağac yerində dururdu. Bütün gecəni əynində nazik paltar şaxtalı havada ağacın başında qalan uşağın nə vəziyyətə düşməsini təsəvvür etmək yəqin ki, çətin deyil.

Zaman keçdi, vaxt ötdü, vəzifəm böyüdü, bir qədər ixtiyar yiyəsi oldum. Fikirləşdim ki, ay Dundarlı camaatı, ay məni dəyirmandan gələndə az qala canavarlara yedirdən dəyirmançılar, mən sizin "yaxşılığınızdan" necə çıxım? Belə qərara gəldim ki, həmin o dəyirmanın yerində (dəyirman uçmuşdu) bu kəndə yaxşı bir məktəb tikdirəcəyəm. O kəndə 480 yerlik bir orta məktəb binası tikdirdim.

**Novxanı. Qızılqaya**

Misal var, deyir, bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır. Görünür, Kamran əminin dolu sifətinə adama ləzzət eləyən payız günəşinin ziyasından başqa da bir işıq düşürdü. Onun üzündə açıqca bir təbəssüm yuva qurmuşdu. O işıqlı təbəssümü yaradan nə idi görəsən? Xarakterindən asılı olmayaraq insan uzun illər keçəndən sonra, nəinki xoş anları, günləri, hətta həyatın baş verdiyi anda fəlakət kimi yaşanan hadisələrini də təbəssümlə qarşılayır. Və hətta düşünür ki, buna bax ey, o zaman gör mən nədən ötrü o sayaq iztirablar keçirmişəm. Doğrudan, anadan nikbin təbiətli doğulmaq və

yaxud belə bir davranışı özünə təlqin etmək az qala xoşbəxtlikdir. Nikbin insanlar ayağının altında torpağı, yer şarının bir parçasını hiss edən insanlardır. Onlar hər əsən yelə əyilməzlər. Həyatın acısını da şirini qədər sevərlər. Səbr, təmkin bu insanların əbədi yol yoldaşı olduğuna, dünyanın mahiyyətini dərk edərək yaşadıqlarına görə ruhdan düşməz, yollarını azmaz, sınmazlar. Kamran əmi elə adamlardandır. Payızın bu gözəl vədəsində ılıq günəş ziyası ilə bahəm üzünü bürüyən o işıq da ayrı bir işıq deyil, nikbinliyin işığı idi. Yadına altmış-altmış beş il bundan irəli başına gələn bir əhvalat düşmüşdü.

**Bir neçə il sonra**

1934-cü ilin may ayı idi. Həkəri, Araz vadilərini gül-çiçək bürümüşdü. Qarlı qışdan çıxıb Novruz bayramına yetişən, aprel yağışlarında arınıb təmizlənən, may havasının təravətinə bürünən insanların qırışığı açılmışdı, damarlarda qan qaynayırdı. Belə vaxtlarda adam nəsə eləmək, baş alıb harasa getmək istəyir.

Onlar isə həqiqətən gedirdilər. Bakının neft sənayesində işləməyə qərar verən bığ yeri təzəcə tərləmiş oğlanlar Akara dəmir yol stansiyasına cəm olmuşdular. ("Akara" "Həkəri" sözünün rusca ifadəsidir).

**Hekayət**

Onlar 200 nəfər idilər. Qatarın gəlməyini gözləyirdilər. Bu gənclərin hərəsi iki çay boyunca – Həkəri, Bərgüşad

sahillərindən, dağ yamaclarına, hətta dağların ən hündür qayalıqlarına sığınmış obalardan sübh tezdən çıxıb, hərəsi bir nəqliyyatla (atla, eşşəklə, arabayla, yük maşınıyla) eyni arzunun cazibəsiylə bir yerə yığışmışdılar. Qatarın gəlməyini gözləyirdilər. Qatar Naxçıvan tərəfdən gəlib, Mahmudlu, Horadiz, Bəhmənli, Daşburun, Qaradonlu, Saatlı, Əlibayramlı stansiyalarından adlayıb Xocasən – Biləciyə yetişəcək, uşaqları neft şəhəri Bakıya çatdıracaqdı. Qatar hər gün gəlib keçirdi. Amma bu o demək deyildi ki, Akaraya toplaşan uşaqların elliyi eyni gündə, eyni saatda, eyni qatarla gedəcəkdi. Xəyal və arzular gerçək olunca günlər ötürdü.

Məsələn, Kamranın Akaradan Bakıya yola düşməyi üç gün çəkdi. Bu, səbəbsiz deyildi.

O, evdən çıxanda anası Lalə xanım yaşaran gözləriylə oğluna baxdı, ona bir bağlama uzatdı; balaca, yumşaq dəsmalın arasında çörək vardı. Kamranın, qəddi-qamətli, gur telləri arxaya daramış oğlanın cibinin dərinliyində isə 50 qəpik pul neçə gündən bəri xərclənmədən dururdu...

O, Bakıya bu "varidatla" gedəcəkdi. Təskinliyi burasındaydı ki, fevraldan bəri ata yurdunu qaydaya salmış, şumladığını şumlamış, ləkə, bostana tum səpib, şitil basdırmışdı. Ötən ilin dəni, unu yeni məhsula qədər çatardı yəqin. Ayrılmaq məqamı yetişəndə anasının boynunu qucaqlayıb saçlarından öpdü, dedi:

- Darıxıb eləmə, özündən muğayat ol, Allaha şükür, Gürşad da, qızlar da (bacılarını nəzərdə tuturdu) böyüyüblər. Əlindən tuta bilirlər...

- Sən, Kamran, bizim fikrimizi çəkmə. Get, Allah kürəyində dursun!

Bazarlığa gedənlərə qoşulub Naxçıvana səfər eləməyi, Dərəyurd yaylaqlarını gəzib-dolaşmağı, rayon mərkəzi və Qubadlıda olmağı nəzərə alınmazsa, demək olar ki, o, doğma kənddən çıxmayıb. Heç buna macal da olmayıb. Elə - belə gəlməsin, doqquz-on yaşından ailənin bütün ağırlığı onun üzərinə düşüb. Səhərdən axşama iş-güc, mal-heyvan, yem-taxıl. Ötən əsrin 10-20-ci illəri, insan piyada - bir tikə qismət ceyran belində, tut görüm necə tutursan...

Bir azdan ayrılacağı bu doğma, əziz dünya – kənd, çaylar, bulaqlar, dağlar, xətirli insanlar, qohum-əqraba, dost-tanış... öz yerində, bütün bunlardan qəfil qopub ayrılmaq çətindir, çox çətindir. Amma bununla belə bir yerdə oturub qala bilməzdi ki. Gələcəyi vardi onun. Sürətlə boy atıb böyüyən, dolğunlaşan gənc oğlan bu gələcəyi bütün varlığında hiss edirdi. Əlbəttə, ilk növbədə özünü, qardaş-bacılarını bir tərəfə çıxarmaq məsələsi vardı. Zaman ağır zaman idi. İnsanın hər mənada özünü müdafiəsi üçün maddi, intellektual əsaslar gərək idi... Biz desək ki, 1934-cü ilin o gözəl may ayında Kamran Akara qatar stansiyasında məhz bu sayaq mükəmməl fikir dəryasına qərq olub gələcəyin nəzəriyyəsini yaradırdı – yalan olar. Ümumiyyətlə, o nəzəriyyəni hesaba alsa da, naturaca həyat adamı idi, fikirlərdən daha çox baş verənlərə, hadisələrə və o hadisələrdən yaranan yekunlara inanır, həyatı belə dəyərləndirirdi.

İndi isə, əsas məqsəd sağ-salamat Bakıya çatmaq idi.

Məlumdur ki, evdən çıxıb yüz kilometrlərlə aralanmış kəndli oğlan üçün dörd büküm çörək və 50 qəpik pul nəinki azdır, heç nədir, bir günə çatar, ya çatmaz.

Nə etməli? O, bax elə bu sual üstündə baş sındırdığı məqamda stansiyanın rəisi hamının eşidəcəyi bir səslə bəyan elədi:

- Baxıram, hamınız bazburutlu, cavan adamlarsınız. Bakıya, böyük şəhərə gedirsiniz. Yəqin ki, cibinizdə də siçanlar oynaşır. Baxın ora, görün nə qədər çəltik tığlanıb dəmiryolunun qırağında. Yükləmək lazımdı. Hər vaqona qırx manat verəcəyik.

"İlahi, kəramınə şükür, yox yerdən qapı açır", – Kamran düşündü. Ona elə gəldi ki, bir az ləng tərpənsə, stansiya rəisi fikrindən daşınıb sözünü geri götürəcək. Bu səbəbdən məxsusi bir tərzdə ona sarı dartınıb dedi:

- Kişi, mən razıyam yükləməyə. Hanı vaqon?

- Odu, bax orda, - rəis vaqonlar dayanan səmti göstərdi.

**Salnamə**

...Vaqona baxdım. Uzunluğu on-on beş metr olardı, yerdən də xeyli hündür idi. Taxtaları vaqonun qapısına düzdüm. Çəltik kisələri bir tərəfdə tığ vurub qalanmışdı. Mollu kəndindən olan, məndən yaşca böyük, amma fiziki cəhətdən zəif Məhərrəm adlı bir oğlan mənə yaxınlaşıb dedi:

- Qağa, məni də götür, sənlə vaqonu dolduraq.

Kisəni onun çiyninə qoyanda kisə ilə bərabər tir-tap yıxıldı. Dedim qoy mənim çiynimə.

Üç gün gecə-gündüz çalışıb vaqonu doldurduq. İşimizi qurtarmışdıq ki, qatar gəldi, biz getməliydik. Stansiyanın rəisi isə aradan çıxmışdı, tapılmırdı. Bizi işlədib, pulumuzu verməkdən yayınmışdı.

Fəhlələr onun evini bizə nişan verdilər. Rəis kəndin qırağında olurdu. Yüyürüb ora getdik. Əlimə bir daş alıb onu səslədim:

- Ay kişi, mənim çiyinlərim yaradır işləməkdən, indi sən bizim haqqımızı vermirsən?

Qatarın da yola düşməyinə az qalırdı. Pəncərədən 20 manatı tulapayı kimi üstümüzə atıb dedi:

- Rədd olun gedin!

Özü də qaçıb gizləndi. Çarəsizlikdən pulu götürüb Məhərrəmə verdim. Adama on manat da qənimətdi... Yoxsa hərəmizin 50 qəpik pulu vardı: indi oldu heç olmazsa 10 manat 50 qəpik. Cibimizdəki 10 manat 50 qəpiklə Bakıya yola düşdük.

Bakıya kimin yanına gedirdik? Kimimiz var orada? Harada qalacağıq? Nə işə baxacağıq? Heç kəs bu sualların cavabını bilmirdi. Bizə bərk-bərk tapşırmışdılar ki, heybənizdən göz-qulaq olun, oğurlamasınlar. Hamı öz heybəsinin üstündə oturmuşdu.

Bakıya çatdıq. Bizi gətirib "Azərneft"in həyətinə doldurdular. Həyətdə heybəni başımızın altına qoyub bir gecə asfaltın üstündə yatdıq. Bir-iki büküm çörəyimizdən xırda-xırda yeyib səhəri acdıq. Səhər hamımızı "Azərneft"in qabağında cərgə ilə düzdülər. Bir rəis gəlib bizə baxdı, birinci mənim qolumdan tutub cərgədən çıxardı. O, ikinci cavanın qolundan tutub cərgədən çıxaranacan mən qaçıb təzədən cərgəyə qoşuldum. O, rusca nəsə dedi, deyəsən söyüş də söydü ki, qayıt yerinə. Dəstədən üç-dörd nəfər də seçib "poltruqa" deyilən üstüaçıq yük maşınına mindirdi. Bizi Binə kəndinin stansiyasına apardılar."

## Novxanı. Qızılqaya

Kamran əminin üzü ciddiləşdi. Çünki, "Bizi Binə kəndinin stansiyasına apardılar" cümləsi onun həyatının keçid xəbəridir.

Bu cümlədən sonra yaşının azlığına (cəmi 21 yaş) baxmayaraq onun bioqrafiyasının tamamilə yeni mərhələsi başlanır. Məhz bu mərhələ onu hər daşını-kərpicini əliylə düzdüyü, hər gülünü-kolunu, ağacını öz zəhmətiylə əkib becərdiyi bu bağda, bu bağın payız işığıyla isinən artırmasında əyləşib xatirələrini qələmə aldığı günə qədər gətirmişdi.

**Hekayət**

Deyir, nağıl dili yüyrək olar. Publisistikanın dili nağıldan da yüyrəkdir. İndi oxuyacağınız beş-on cümlə və əgər yeri gələrsə, bir-iki qısa hekayət onun yaşının üstünə daha on il artıracaq və o, otuz yaşına dolacaq...

Amma biz indi gənc Kamranı Bakıya gətirən o qatarın Xocasəndə dayandığı, onun Binədə inşaatda çalışmağa başladığı 34-cü ilin mayından 1950-ci illərin lap sonuna qayıtmağa ehtiyac duyuruq. ...Kamran Hüseynov 50 yaşın astanasındadır. Azərbaycan Respublikası Həmkarlar İttifaqları Şurasının sədridir. Möhtəşəm kabinet, telefonlar, dövlət atributları, portret, hər iki tərəfinə meşin dərili stullar düzülmüş qabaq stolu...

Qapı ehmalca döyülür. Köməkçidir. Xəbər verir ki, Kamran Əsədoviç, Mərdəkanan Dadaşbala sizi görmək istəyir.

- Qoy gəlsin, - dərhal dillənir, ağır cüssəsini iş masasından bir quş yüngüllüyü ilə qaldırıb giriş qapısına tələsir.

Dadaşbala kabinetə girəndə demək olar ki, Kamran müəllimlə üzbəüz dayanır. Kamran müəllim:

- Gün hardan doğub, ay qardaş, sən də bizi yada salarmışsan...

- Sən heç yadımdan çıxırsan ki, qədeş, mən də tazadan

durub səni yada salım?.. Kamran müəllim, bizim Bakı camaatına, sənin bir quru nəfəsin var a, bax o bəsdü... Ətağa, alayı bir ehtiyacım yoxdu, gəldim hal-əhval tutum, səni görmək mənə bax belənçik bəsdi, - Dadaşbala əlini qılınçına tutub başının üstündən bir az da yuxarıda qovzadı.

Onlar bir-birini 1934-cü ildən tanıyırdılar. Gözəl bir may günü Qubadlının Çərəli kəndindən tərpənib dörd büküm çörək, 50 qəpik və üç gün vaqona çəltik yükləyib qazandığı 10 manat pulla Akaradan qatara minib Bakıya gəldiyi ildən...

Qatar məlum, çəltik məlum, cibdəki pul məlum, Qubadlıdan onunla birgə Bakıya gələn, çapqınlardan qorunmaq üçün heybəsinin üstündə bərk-bərk oturan iki yüz Qubadlı uşağı bəlli, bəs bu Dadaşbala hardan çıxdı? Dadaşbalanın onun Bakı həyatının siftəsi ilə nə əlaqəsi?

**Sözün qüvvəti**

Həyatın min bir adı var. O adlardan biri, bəlkə də birincisi, heç şübhəsiz ki, heyrətdir. Doğulmaq – heyrət, ölmək – heyrət, sevmək – heyrət, ayrılıqlar – heyrət, qovuşmalar – heyrət...

**Şeir**

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti halın görən surət xəyal eylər məni!

*M.Füzuli*

## Sözün qüvvəti

Heyrətin mayasının əsas cövhəri reallıqdır. Reallıqdan doğulmayan heyrət yoxdur, ortada buna əks iddia varsa, o iddia yalandır!

Kamran müəllim fəlsəfədən güc alan, onunla yaraqlanan, amma quru fəlsəfəni sevməyən adam olduğuna görə dərhal 1950-ci illərin lap sonuna, mərdəkanlı Dadaşbalanın onun möhtəşəm kabinetinə daxil olduğu o təsirli vaxt aralığına qayıtmaq borcumuzdur.

Kamran müəllim, başını qaşımağa macal tapmadığı bir vaxtda Dadaşbalaya, qubadlılar demiş, xeyləm zaman ayırdı. Ona və özünə çay gətirtdi. Bu ehtiram səbəbsiz deyildi...

## Salnamə

....İnşaatda işləyəcəyimizi bildik. İlk günlər kəndimiz üçün çox darıxırdım. Bir gün Bakıda işləyən istəkli xalam oğlu Paşa məni və Kərimov Xudabaxışı inşaatda tapdı. O, təklif etdi ki, gəlin, hamımız gedib məşhur neft ustası Kərim Baxşəliyevin yanında işləyək. Biz işdən icazə almadan özbaşına Paşanın yanına düşüb Binəqədiyə gəldik.

Neçə gün gəlib getsək də, usta Kərimin qəbuluna düşə bilmədik. Nəhayət, istirahət günü onu evində tapdıq. Xalam oğlu çəkinə-çəkinə, ehtiyatla bizi tanış elədi. "Duda" zavodunda işlədiyimizi söylədi. Usta Kərim Paşaya baxıb acıqla "Apar bunları Xocahəsəndən mindir qatara, getsinlər kəndə", dedi. Mən qəti dedim ki, öz iş yerimə - Binəyə qayıdacağam. Xudabaxış mənimlə razılaşdı. Kor-peşman Xudabaxışla Binəyə qayıtdıq. On gün işə çıxmadığımıza görə usta bizi möhkəm danladı. Təzədən öz işimizə başladıq. Aradan bir az keçmiş

Xudabaxış qarın yatalağından ağır xəstələndi. Onu Mərdəkandakı xəstəxanaya apardım. İşdən sonra hər gün bir banka qatıq, meyvə alıb piyada Binədən Mərdəkana gedib onu yoluxurdum. Növbəti dəfə gələndə öyrəndim ki, Xudabaxış dünyasını dəyişib. Dedilər onun cənazəsini Mərdəkandan Dadaşbala adlı bir kişi apardı ki, qərib bir insan kimi basdırsın, yas məclisi qurub, ehsan verir. Qaça-qaça gəlib o mərasimə çatdım. Dedim ki, əmi, o mərhum yiyəsiz deyil, onun atası, əmiləri, qardaşı var. Dedi "Bala, heç narahat olma! Allah hamısını salamat eləsin. O, burada ölüb, qəribdi. Nə lazımdısa, hamısını edəcəyəm".

Mən vəzifə yiyəsi olandan sonra hər dəfə iş yerimi dəyişəndə yeni ünvanımı ona vermişəm. AHİŞ-in sədri olarkən katibəm Mərdəkandan Dadaşbala adlı bir nəfərin gəldiyini xəbər verəndə tez çıxıb onu çöldə qarşılamışam. O məndən heç bir şey istəməzdi. Hər dəfəki kimi bu dəfə də heç bir xahişi yox idi. Bu dəfə dedi ki, gəlmişəm öyrənim görüm, sizin valideynləriniz kim olub? Dadaşbala çox dərindən mənim valideynlərimlə maraqlandı. Bir balaca qulluqdan sonra sürücüm onu Mərdəkana aparardı. Bir neçə ay sonra onun ölüm xəbərini eşidəndə çox kədərləndim, onun həyat yoldaşını, oğlunu götürüb gül-çiçək dəstəsi ilə qəbrini ziyarət etdik. Allah ona rəhmət eləsin. Çox alicənab adam idi. Azərbaycan xalqının gözəl adətlərini özündə möhkəm saxlamışdı."

**Və sonra Lorka**

Gənc Kamran Bakının havasına tez öyrəşdi. Halbuki onunla Qubadlıdan iş dalınca gələn 200 uşaqdan sonda cəmi dördcə nəfər qalmışdı Bakıda...

Faciəli həyat yaşayan, bütöv ömrü faşizmə qarşı barışmaz çarpışmada keçən, cavan yaşında güllələnsə də, ölümsüz poeziya əsərləri yaradan ispan şairi Qabriel Qarsia Lorka deyirdi ki, istedad "duenda"dır. Duenda ispan dilində zəlzələ deməkdir. Zəlzələnin özünü ifadə etməsi ilə yer səthində tamamilə fərqli bir vəziyyət yaranır. O varsa, harada, nə təhər olsa, tərpənir, tərpədir.

Ən azı gözəl şair Lorkanın bu misraları qədər heyrət yaradır:

Nə zaman ölsəm...
Çayların dibinə basdırın məni –
Gitaramla təkbətək.

Nə zaman ölsəm...
Ruhuma yiyə dursun
Naringi bağlarında
Ən istəkli bir çiçək.

Nə zaman ölsəm...
Qaldırın ev damına –
Havalı qollarımı
Tərpətsin dəli külək.

Susun...
Nə zaman ölsəm!

Kim deyirsə, istedad yalnız şairlərə məxsusdur, səhvə yol verir. İstedad ilkin başlanğıcdır. İnsan həyatının bütün sonrakı şəkillərini istedad çəkir.

Əgər belə olmasaydı, sinəsindən körüklənən "duenda" Bakıya gəldiyi ilk vaxtlardan Kamranın dincliyini əlindən almazdı. O, nə yolla olur-olsun düşdüyü yerdə bərkimək, kök atıb bitmək, ələlxüsus, hər şeyi öyrənmək... öyrətmək istəyirdi.

**Sözlük**

Bakı

*Azərbaycan Respublikasının paytaxtıdır. Qafqaz bölgəsində ən böyük ticarət, mədəniyyət və elm mərkəzidir. Abşeron yarımadasının Xəzər dənizi sahilində yerləşir. Xəzər dənizinin ən böyük limanı Bakıdır. Ərazisi 2.130 kvadrat kilometrdir. Ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin ən iri şəhərlərindəndir. 1918-ci ildən respublika tabelidir. 12 inzibati rayonu, 48 kənd və qəsəbəsi var. Şirvanşahlar Saray Kompleksi, İçəri Şəhər, Qız Qalası, Qobustan yazılı abidələri YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmişdir. Dünya üzrə neftçıxarmanın ən iri məntəqələrindən biridir. Kamran Hüseynovun həyatının böyük hissəsi Bakı ilə bağlıdır.*

**Zəruri bilgi**

Onu Hövsan yaxınlığında inşa edilən Duda zavodunun tikintisinə göndəriblər, adi fəhlədir, yataqxanada qalır, yorğan-döşək, astarsız yastıq dəniz otundan, qara parçadan. O isə heç bir sıxıntıya baxmadan xoşuna gəldi-gəlmədi, peşələrə yiyələnir. Əvvəl dəmirçi köməkçisi, dəmirçi, sonra çilingər, tornaçı, qaynaqçı olur.

Rus dilini alababat öyrənir, savad almaq istəyir, axşam məktəbinə gedir. Hövsandan Binəyə dərs almaq üçün beş

kilometr yol ayaqlayır. Bir ildə dördüncü sinfə qədər proqramı mənimsəyir. Belə həvəslə və uğurlu savad almağının bir səbəbi də o idi ki, Kamran neçə il qabaq balaca qardaşı Gürşadın gündüzlər məktəbdə öyrəndiyini axşamlar evdə öyrənmişdi.

Tezliklə zərbəçi oldu. Belə işçilərə o zaman ərzaq talonu verirdilər - bu çoxlu ət, yağ, düyü, qənd, çay... demək idi.

## Talon əhvalatı

Qəribədir, talonun, yalan olmasın, xəzəl kimi üstünə yağdığı o günlərdə heç özü də anışdıra bilmədi, nə təhər, hardan hərtizli Cəbrayıl kişi gəldi durdu gözünün qənşərində, qəddarın biri idi rəhmətlik. Amma arvadı Məstan qarı xoşsifət, mehriban, qayğıkeş anaydı. Deyəsən, Allah onları qovuşduranda bir balaca tələsmişdi, yaxud tərəzinin yaman gözü əyilməsin deyə qəsdən o biri gözə də Məstan qarını qoymuşdu.

Kimdənsə eşitmişdi ki, vaxtilə Qubadlıda varlı-hallı sayılan ailə hazırda Bakıdadır, həm də çox ağır vəziyyətdə yaşayırlar. Əlində tutduğu kağızları çinləyib, tərəddüd etmədən qərar verdi: bu talonları onlara aparacaq. Qubadlıda, onun ata yurdunda bu misalı çox sevirlər: yaxşılığa yaxşılıq – hər kişinin işidir, yamanlığa yaxşılıq – nər kişinin işidir. Cəbrayıl kişinin Kamrana, yaxud onun ailəsinə nə yamanlığı keçmişdi?

Əslinə qalanda o zamanın kənd həyatında baş verən, fərqinə varılmayan adi əhvalatlardan biridir bu. Amma indi Kamran əminin xarakterinə məxsus cəhətləri tam təsəvvür etmək üçün həmin əhvalat kara gəlir...

**Salnamə**

...Kişi qonağın süfrəsindən qalanı yığıb itə atanda, Məstan qarı xəlvəti yığıb nökərlərə, kimsəsizlərə verərdi. Onları yaxşı tanıyırdım, çünki yaylaqda onlarla qonşu olardıq. Onları çox çətinliklə axtarıb Bakıda tapdım. O təmtəraqlı ailə nə vəziyyətə düşmüşdü! Əvvəllər var-dövlətləri, mal-qaraları, bağları, arı pətəkləri var idi. Hamısını əlindən alıb "qolçomaq" damğası vuraraq, onları Qubadlıdan sürgün eləmişdilər...

**Müəllif**

Hələ bizim "qolçomaq", yəni Cəbrayıl bəy yaxşı qurtarmışdı. Çünki Stalinin hakimiyyətdə olduğu 30 il ərzində saysız-hesabsız günahsız insan repressiyaya məruz qalmış, var-dövləti, malı-mülkü əlindən alınaraq qarlı-şaxtalı Sibir meşələrinin dərin qaranlığına göndərilmiş, yer üzündən izsiz-tozsuz silinib getmişdilər. Cəbrayıl bəy isə Hərtizdən didərgin düşsə də, pis-yaxşı Bakıda sığınacaq tapmışdı, hələ ki canı sağdı, arvadı Məstan qarı böyründədi, bu yandan da vaxtıyla zülüm verdiyi Çərəli Kamran indən sonra payına düşən talonları onlara vermək qərarına gəlmişdi. Ey gidi dünya...

Kamran əmi ağlı kəsəndən, daha dəqiqi, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra - 1922-ci ildən 1953-cü ilə qədər milyonlarla Sovet insanı ilə bir sırada eşidəndə adamın içindən qılınc sıyrıntısı keçən Stalinin, "dahi rəhbərin" varlığından yaxşı xəbərdar idi, onun milyonların qanı bahasına başa gələn "həyat və yaradıcılığını" yaxşı bilirdi.

## Sözlük

### İ.Stalin

*Yer üzünün tayı-bərabəri olmayan cəlladı İosif Stalin 1879-cu ildə Gürcüstanda (Qori) anadan olmuş, 1953-cü ildə ölmüşdü (Sovet xalqı isə bunu dərk etmək iqtidarında deyildi, Sovet xalqına elə gəlirdi ki, Stalin ölə bilməz). Ölənə qədər isə o çox fırtınalar qoparmışdı. 1922-ci ildə RKP (b) MK-nın birinci katibi seçilməklə faktiki olaraq, Leninin də yarımcan halı nəzərə alınsa, ölkənin bir nömrəli rəhbəri olmuşdu. Siyasi proseslərin yekunu bunu təsdiq etdi. Ölkənin kollektivləşməsi, sənayeləşdirilmə, savadsızlığın ləğvi... əslində inkişafı nəzərdə tutan bu qlobal tədbirlərin icrasının bircə üsulu vardı, inzibati-amirlik, zor, populizm. Hərtizli Cəbrayıl bəy də kollektivləşmənin zibilinə düşənlərdən idi.*

*İkinci dünya müharibəsi öncəsi 1930-cu illərin sonlarına yaxın Stalinin cəllad baltası bir az da ovxarlanmış, minlərlə insan sorğusuz-sualsız güllələnmiş, sürgün edilmiş, zindanlara atılmışdı. Qardaşın qardaşa etibarı qalmamışdı. Gecə-gündüz bilmədən çalışan, dəridən-qabıqdan çıxıb tər tökən, lakin günlərlə bir qarın yemək üzünə, bir tikə çörəyə möhtac qalan Sovet xalqı İkinci dünya müharibəsinin davam etdiyi beş il ərzində "Stalin uğrunda" deyib güllənin, tankın üstünə yeridi. Bunu yalnız qorxu ilə bağlamaq düzgün olmazdı, çünki Stalinin tətbiq etdiyi idarəetmə metodunun sonunda xoşbəxt kommunizmin üfüqləri açılırdı. Elə bir üfüq ki, orada hər kəsdən qabiliyyətinə görə, hər kəsə tələbatına görə çağırışı bərq vururdu.*

*Kamran Hüseynovun heç də hər kəsə qismət olmayan həyatından danışılan bir zamanda XX əsrdə nəinki bir məkanda, keçilməz sərhəd məftilləri arasında 15 dövləti, bu dövlətlər içərisində yaşayan xalqları, etnosları gözündən dustaq eləyən, hətta adı çəkiləndə dünyanın dörd bir yanını sarsıdıb qorxuya salan bir şəxsdən – Stalindən bəhs etmək bəlkə də yerinə düşmür. Lap on ili bir qırağa qoyaq, məsələ burasındadır ki, 1922-ci ildən 1953-cü ilə qədərki vaxt aralığını götürsək, bu o deməkdir ki, az qala cəhənnəm kimi qaynar həyatın dərininə baş vuran yeniyetmənin, gənc Kamranın 30 illik şüurlu (məhz şüurlu) həyatı, Stalin erasına düşür. Xronologiyadan belə məlum olur ki, onun bioqrafiyası, demək, onun həyatının əhəmiyyətli bir hissəsi Stalin taununun əmələ gələn, artan və dəhşətli dərəcədə şiddətlənən dövrlərini günbəgün yaşayan və bütün bu zülmün, qorxunun, qan-qadanın içində tablayıb*

*dözərək, dünyanı dərk edərək özünü yaratmaq, özünü axtarmaq və tapmaq istəyən nadir bir şəxsiyyətin bioqrafiyasının bir hissəsidir. Stalinin ölümünə hələ çox var; adamları sarsıdan inanılmaz xəbərin Sovet İttifaqının hər evinə, hər adamına qədər yayılacağı günə hələ qalır. Stalinin ölüm xəbərini eşidib vidalaşmağa gələrək tünlüyə düşən, ayaqlar altında, basabasda yüzlərlə insanın (təqribən 2000 nəfər) tələf olduğu gün irəlidədir...*

*Allahın əmri ilə Allahı qadağan edən Stalin 1953-cü ildə öldü... Belə çıxır ki, Stalinin yas mərasiminin ən ləziz ehsanı da insan tələfatı imiş...*

*Başqa cür necə ola bilərdi ki? Axı "Ellər atası" İosif Stalinin sayəsində SSRİ Marks, Engels, Lenin ideyaları ilə silahlanaraq dünyada analoqu olmayan 150 milyonluq əhaliyə malik nəhəng bir məmləkət yaratmışdı. Sovet xalqları kollektivləşməni, sənayeləşməni həyata keçirmiş, savadsızlığı ləğv etmiş, hər cür dini nihilizmi aradan qaldırmış, bir beşillikdə iki beşilliyin planını yerinə yetirmiş (bunlar həqiqətən olub, fəqət, ən yaxşı halda dərisinə qədər soyulmuş fanatik insanların sarsılmaz inamı sayəsində), 37-40-cı illərdə sosializm "düşmənlərindən", "casuslardan", "satqınlardan" təmizlənmiş, aydan arı, sudan duru nəhəng bir dövlət olmuşdu.*

*Məhz Stalin 1941-45-ci illərdə dişinə qədər silahlanmış faşist ordugahını darmadağın edərək, bütün yer kürəsini fəlakətdən xilas etmişdi. Yüz minlərlə dünya insanı o mudhiş savaşda tələf olmuşdu. Amma bunun nə fərqi? Əgər qarşıda, on ildən, iyirmi, otuz ildən sonra bütün insanların xoşbəxt ola biləcəyi bir cəmiyyət – kommunizm varsa, böyük vətənin sonuncu nəfərinə qədər ölümü faciə deyil, qəhrəmanlıqdır!*

*Vaxt gələcək, şəxsiyyətə pərəstiş erası başa çatacaq. Bir rus ədibi deyəcək ki, hə, "həqiqətən də pərəstiş var idi... amma şəxsiyyət də var idi". Çörçill deyəcəkdi: "Stalin Rusiyanı xışla qəbul edib atom silahı ilə yola saldı."*

**Müəllif**

Kamran əminin doğulub boya-başa çatdığı, yetkinləşib özünü və çevrəsini tanıdığı illər yalnız Azərbaycan yox,

ümumən dünya tarixinin ən çətin, ziqzaqlı dövrü olmuşdu. İki dünya müharibəsi baş vermiş, dünyanın əhəmiyyətli hissəsini sosialist inqilabı bürümüş, SSRİ yaranmışdı. Mən indi bu kitabı – "İlin beş inci fəsli"ni yazarkən böyük bir həyəcanla "Bir ömrün salnaməsi", "Quruculuğa həsr olnumuş ömür" kitablarını dönə-dönə nəzərdən keçirir, hər sözü, cümləni ayrıca oxuyub, qəhrəmanımı dərindən tanımaq istəyirəm. Sizə deyim, adı çəkilən kitabların sözlüyünü yaratsaq, orada haqqında danışılan insan, yer adlarını, baş verən hadisələri sıralasaq, (mən qismən də olsan buna cəhd göstərməyə qərar vermişəm) tam bir əsrin – XX yüzilliyin yol xəritəsinə malik olarıq. Və görərik ki, Kamran Hüseynov o dövrü yaşamış sıra nəfəri deyil, tarixi şəxsiyyətdir...

Nəsə, söz-sözü çəkdi. Xronoloji ardıcıllıqdan çox aralanmayıb dönək ora, ondan da hələ bir az irəli vaxtlar idi. Kamranın on dörd-on beş yaşı olardı. Yay idi. Hərtizin, Çərəlinin küllü-camaatı karvan çəkib yaylaqlarda binələnmişdi...

**Hekayət**

Kamran qərara aldı ki, getsin Hərtizə, ordan da "Sarımsaqlı" yaylağına... O cür də elədi. Yaylaqda gərək olası azdan-küşdən nəyi vardısa bir torbaya doldurub, qapıdan çıxdı. Hadisə çoxdan baş verdiyi üçün indi yaxşı xatırlamır, el yaylağa köçəndə hansı səbəbdən o ilişib qalmışdı Çərəlidə. Onunçün deyirlər ey, palaza bürün, elnən sürün. Gərək vədəsində el-obaya, ailənin o biri üzvlərinə qoşulub gedəydi. Zərər etməz, ziyanın yarısından qayıtmaq da xeyirdi. Yaxşı ki, dünən günortadan sonra Hərtizli Cəbrayıl bəyin yaylağa

getmək üçün yığışdığını eşitdi. Hər il yaylaqda onların yurd yerləri qonşu düşərdi. Kamran məlum, yaxşı bəs Cəbrayıl bəy hansı səbəbdən həmin il yaylağa yubanmışdı? Bunu da xatırlamır. Gör üstündən neçə illər keçib... Bircə onu xatırlayır ki, Çərəlidən yola çıxıb Hərtizli Cəbrayıl kişinin qapısına çatanda balaca köç üzü yaylağa tərpənməyə hazır idi.

Cəbrayıl bəy "ya Allah" deyib atın birinə mindi. Kamran bir-birinə bağlanmış dörd atdan ən irəlidəkinin yüyənindən yapışmışdı. Cəbrayıl ayaqlarını üzəngidə rahatlayıb haylandı:

- Atları çək gedək, a bala, yolçu yolda gərək...

Kamran Cəbrayıl bəyin dabbaqda gönünə bələd idi. İndi də dəqiq bilirdi ki, kişinin fikri nədi? Nə olacaq, nə vecinədi onun, atın bərkgedənini basıb altına, ta "Sarımsaqlı" yaylağına qədər onlar belə gedəcəkdilər. O, atlı, bu piyada, yüyəndən yapışıb dart ki, dartasan və amma dörd kəhərdən birinin belinə aşırılmağa ixtiyarın olmaya...

**Salnamə**

"Cəbrayıl bəy bir atı mindi, qalanları isə bir-birinə bağlayıb yüyənini mənə verdi. Qoymadı ki, atın birini də mən minim. Hacıbac kəndi ilə Qafan arasında "Şəhərcik" deyilən yerə çatdıq. Gecə soyuq idi. Göy guruldayıb dalınca da şıdırğı yağış yağdı. Kişi mənzildə, mən isə çöldə, atların yanında titrəyə-titrəyə qaldım. Səhəri yiğişib ordan dağa getdik. O gecənin soyuq yağışından soyuqlayıb xeyli xəstə yatdım. Mənim ana nənəm, Tükəzban əhvalatı biləndə kişiyə ağzından çıxanı dedi. Dedi ki, uşağı ata minməyə qoymayıb, gecə yağışın altında çöldə saxlayıb xəstələndirən sən olmusan...

Cəbrayıl kişinin qəddarlığı yadımdan çıxmamışdı. Amma Məstan arvadın insanlığı, yoxsula əl tutmağı da xatirimdə idi. Ona görə hər ay zavoddan talonu alıb Məstan arvada verirdim. Talon ləğv edilənədək bu cür etdim."

**Novxanı. Qızılqaya**

Uzun illər bundan öncə, hələ onda Kamran çox cavan idi, heç evlənməmişdi də, onları axtarıb-axtarıb Əbilov klubunun yanında dəhşətli görüntüsü olan uçuq-sökük daxmada tapanda, atın üstündən onu hərəkət eləməyə çağıran hökmlü Cəbrayıl bəydən arıq can, quru nəfəs qalmışdı. Başqalarının üzləşdiyi çətinliklərin bəlkə elə o adamların sayı qədər səbəbi vardı, amma Cəbrayıl bəyi məhz Sovet höküməti bu kökə salmışdı.

İndi ömrün və təbiətin qızıl payızında, günəşli bir günün günortasında Novxanıdakı Qızılqaya məhləsində əyləşib həyat romanını qələmə alan Kamran, o zamanlar Cəbrayıl kişinin onun elədiyi bütün bu yaxşılıqlardan mütəəssir olub verdiyi bir sualı təzədən xatırladı.

**Salnamə**

Bir gün Cəbrayıl kişi qayıtdı ki:

- Ay bala, bizim sənə nə yaxşılığımız keçibdir ki, sən hər ay bu qədər qiymətli talonunu bizə verirsən? Qıtlıqdır, kimə istəsən, sata bilərsən. Niyə belə edirsən...

## Cavabsız sual

İndi nə dəsin Kamran? Desin, a bəy, yadındadı, "Sarımsaqlı"ya getməyimiz? Özün mindin ata, məni də o boyda yolu dörd at yedəyimdə, piyada apardın? Yatdın isti mənzildə, mən də şıdırğı yağışın altında, atların yanında sabahı dirigözlü açdım. Yadından çıxıb Tükəzban nənəmin üzünə dedikləri?

Kamran - nə olsun ki, gənc idi, nə olsun ki, Cəbrayıl atdan düşmüşdü, o isə yel qanadlı zaman köhləninin belinə qalxmışdı. Bununla belə, kişi oğlu, kişi idi. O əhvalatı dilinə gətirməz! Onsuz da cəmiyyətin pis günə qoyduğu insanın qəlbini bir daha yaralamazdı. Eləcə, susmuşdu Kamran. Kişinin sualını cavabsız qoymuş, sağollaşıb getmişdi...

## Şeir

Könül vermə lap çətinə,
Qadan-bəlan alım, qardaş.
Heç güvənmə sərvətinə
Nəyin var ki qalan, qardaş? –
Yarı ahsan, yarı ufsan
Bir gün varsan, bir gün yoxsan!

Ya çoxu, ya azı yoxdu,
Can şirindi, dünya əziz.
Pozulmayan yazı yoxdu...
Kaş biləsən könlü təmiz,
Kaş biləsən gözü toxsan
Bir gün varsan, bir gün yoxsan...

**Hər gün irəli**

Ötən əsrin 30-cu illəri. Nəhəng bir imperiya tikanlı məftillər arasında oturuşub. Onun sərhədlərindən quş da səkə bilməz. Hər nə var, dövlətə məxsusdur. İnsan da dövlətə məxsusdur - zavod kimi, kolxoz kimi, mal-heyvan kimi... Rejim kimi, hara qədər istəsə, yüksəldir, kimi haradan istəsə, təpəsiaşağı uçurumlara itələyir. Bizim qəhrəmanımızın da, artıq siz bunu bilirsiniz, ilk əmək fəaliyyəti, böyük dünya ilə ciddi təmasları, başqa sözlə, özünü ifadə etmək cəhdi bu zaman parçasına aiddir.

Əvvəla uzaq kənddə anası Lalənin gözü yollarda qalıb, bacıları Saraya, Sonaya, qardaşı Gürşada həyan olmalıdı, bütün bunlara qadir olmaq üçün özü bərkiməli, bir tərəfə çıxmalıdır.

Şükür Allahın kəraminə! Əli işə yatıb. İmkan taparaq müəyyən peşələrə yiyələnib. Zərbəçi adını qazanıb. Nail olduqları, sadəcə, ilk addımlardır.

Hələ bu günə; xatirələrini qələmə aldığı zamana, ondan da sonra altı il davam edən son vida gününə 70 il qalır. Sovetlər birliyinin ömrü qədər...

Hə, Duda zavodunun tikintisi zamanı briqadir İvan Semyonoviç Çernosov onu gözaltı eləmişdi, işgüzarlığına, fərasətinə heyran idi. Yanında işləməyə çağırdı. Duda zavodu neft ayrıntılarından rezin istehsal edəcəkdi. O dövrün səlahiyyət sahibləri L.Beriya, S.Orcanikidze, Q.Musabəyov, M.C.Bağırov sahənin perspektivlərini nəzərə alaraq tikintiyə şəxsən təşrif buyurmuşdular.

Orta məktəbə yazılmışdı. Bu cantaraq oğlanın işdən sonra gedib balaca uşaqlarla dərs höccələməyi tay-tuşlarına gülməli görünürdü, onu yolundan döndərmək üçün dəftə-

rinin üstünə mürəkkəb tökür, lampanı sındırdılar ki, gecələr oxuya bilməsin. O isə oxumaq, öyrənmək istəyirdi.

**Salnamə**

...Başladım yaxşı-yaxşı oxumağa. Montin qəsəbəsində də bir ustalıq məktəbi açılmışdı. Fikirləşdim, necə edim, hər iki məktəbdə oxuyum. Binə ilə Montin bir-birindən uzaq, nəqliyyat yox. O arada bir kukuşka tramvayı işləyirdi. Amma bütün bunlara baxmayaraq mən Montindəki "Metalların soyuq işlənməsi üzrə sosialist ustaları" kursuna yazıldım.

Burada tornaçılıq sənətini öyrəndim. Zavodun tikintisində həm çilingər, həm tornaçı işləyir, həm də qaynaqçı peşəsini öyrənirdim. Bu bacarığıma görə ustanın məndən xoşu gəlirdi.

**Henrix Maynsın sirri**

Məktəbi bitirdi. Sərbəst şəkildə briqadirliyə başladı. Henrix Mayns əhvalatı da elə o zaman baş verdi.

Adından da göründüyü kimi, o alman idi. Qonşudakı briqadaya başçılıq eliyirdi. Onun briqadasında dörd, Kamranda isə iyirmi nəfər çalışırdı. Məsələ burasında idi ki, ayın sonunda o dörd nəfərin istehsal etdiyi məhsul, Kamrangilin hasilə gətirdiyindən həm çox, həm də keyfiyyətli olurdu.

"Ay qardaş, – Kamran fikir eliyirdi, - bizim sayımız onlardan çox, səhərdən axşamacan dəmir döyəcləyirik, bəs nə təhər olur, ayın başında əziyyətimiz özümüzə qalır, bəhrə vermir."

Üstəlik almanlar bir işi qəbul edəndən sonra aradan yekə bir hasar çəkib arada qar-qur eləyir, nəsə bir tədbir tökürdülər.

Kamran çətinliklərlə də olsa, yaxınlaşıb onları sorğu-suala tutdu. Məlum oldu ki, almanlar bir işi başlamazdan öncə, o işə uyğun alətlər düzəldirlər.

Əslində sadə təcrübə idi. Onların qol gücünə ora-bura əydikləri, "skac" deyilən avara bir alətlə kəsdikləri dəmir-dümürü almanlar asanlıqla istədikləri şəklə salırdılar.

Kamran alət məsələsini mənimsəyən kimi, dərhal tətbiq elədi. Bir neçə vaxtdan sonra briqadada işçinin sayı yarı-bayarı azaldı, əksinə, məhsuldarlıq və keyfiyyət yüksəldi. Sonra, sonra isə Henrix Maynsın briqadası rəqabətə döz-məyib müəssisəni tərk etdi.

1937-ci ildə Kamrana, özü dediyi kimi vəzifə verdilər. İş icraçısı təyin edildi. Vəzifəsinin yüksəlməsinə baxmayaraq oxuyub təhsil almaq fikri bir an belə başından çıxmırdı. İnşaat mühəndisliyi ixtisası almaq üçün Xarkova getdi. Bir müddət təhsil alıb Bakıya qayıtdı. Bu o zaman idi ki, Duda zavodunu Hövsandan Qaradağa köçürürdülər. Tikinti başa çatdı. "Azərneftzavodtikinti" tresti 30-cu qəsəbədə 4 və 9 nömrəli zavodların inşaasına başlayanda Kamranı inşaat rəisi təyin etdilər.

Oxuyub təhsil almaq fikri isə başından çıxmırdı. Sənaye Akademiyasında təhsil almaq üçün Moskvaya göndərildi. Bir az sonra dedilər ki, Bakıda Ümumittifaq Neft-Sənaye Akade-miyasının filialı açılıb, Azərbaycandan gələnlər ora qayta-rılacaq. Qayıtdı və orada təhsilini davam etdirdi.

İş çox, arzular bitib tükənməz... Altı-yeddi il idi ki, Çərelidən ayrılmışdı, hələ bir dəfə də olsun ayağı doğma

yerlərə, Hərtizin laləzar ətəklərinə dəyməmişdi. Vaxt ötüb keçirdi. Yaş 27-yə çatmışdı. Yataqxanada yaşayırdı, nə ev vardı, nə ailə...

**Hekayət**

Kamran "Bakı-Moskva" qatarından düşüb evə gedəndə də elə bu barədə düşünürdü. Özü də "ev" yox, yataqxana... nə qədər olar ey yataqxana, yaş ki 25-dən o yana ötdü, gərək insanın rahatlığı ola, hər axşam işdən dönəndə üz tutmağa, döyməyə bir qapı ola gərək. Yoxsa səhərdən tozun-torpağın, daşın-qumun içində eşələn, sement tozu ud, qurumla nəfəs al, axşam da dön hərəsi bir dərədən gəlmiş yüzlərlə müxtəlif xasiyyətli oğlanın doluşduğu ümumi evə. Biri tez yatır, biri gecənin yarısı taqqıldadır qapını. Yataqxana dərslərini davam etdirmək, oxuyub savadlanmaq imkanını da heçə yendirdi.

Düzdü, hər oğulun hünəri deyil, Ümumittifaq Həmkarlar Təşkilatının qurultayına nümayəndə seçilsin və kənddən gəlmiş, əməlli-başlı orta məktəb təhsili almağa da macal tapmayan bir oğlanın o qurultayda rus dilində elə parlaq çıxış eləməyinə yalnız afərin düşür.

Orada, rəyasət heyətində əyləşən məsul şəxslərdən biri səlis nitqi dinləyəndən sonra Kamranı yanına çağırıb kimliyi ilə maraqlanıb. O özü barəsində qısaca bilgi verib. Məsul şəxs soruşub:

- Hə, sizinkilər tez evlənirlər. Neçədi uşaqların sayı?
- Evli deyiləm, uşağım da yoxdu.
- Niyə?

Ona görə ki, bizdə belə bir adət var, subay oğlan ev

almayınca, müstəqil yaşamağa şəraiti olmayınca evlənməyə ixtiyarı yoxdu. Mən də ki bu yaşda hələ yataqxanada qalıram.

Söz məsul şəxsin çox xoşuna gədi, ürəkdən güldü.

**Salnamə**

"Qurultaydan sonra Bakıya qayıtdım. Trest müdirinin müavini məni çağırıb dedi:

- Kamran, Moskvadan bir teleqram almışıq. Səni evlə təcili təmin edib nəticəsi barədə Moskvaya xəbər verilməlidir. Harda ev almaq istəyirsən, deyə bilərsən.

Aradan bir ay keçməmişdi ki, trest müdiri Aleksey Antonoviç Kozlov gəlib məni Qaraçuxurda tapdı. Orada neft kombaynı tikirdim.

- Kamran, - dedi – sənə ev vermək istəyirik.

Qayıtdım ki:

- Ay yoldaş Kozlov, bəs mən saatlatla qapınızda durub gözləyəndə nə istəyirdim?"

**Sözün qüvvəti**

Sovetlər zamanı, xüsusən, şəhərlərdə vətəndaşın ev almaq problemi həmişə kəskin dayanıb. Ya uçastkovuya, domkoma, əlli cür itə-qurda puldan-paradan verib hardasa ətraflarda bir gecəqondu qaraltmalı, ya da hökumət binasında bir-iki otaq almaq üçün illərlə növbə gözləməliydin. Heç illərlə gözləyəndən sonra da iş "şirinliksiz" başa gəlmirdi.

Kamranın ev almağı isə, demək olar, xoş bir alın yazısı, tale qisməti sayıla bilər. Kimin ağlına gələrdi ki, Moskvada

onun çıxışı rəyasət heyətində oturan bir rəhbər işçinin xoşuna gələcək, o da insaflı adam çıxacaq və bu işgüzar, fərasətli oğlanın mənzil məsələsinin həlli üçün Bakıya tapşırıq verəcəkdi.

**Salnamə**

"Mənə işlədiyim yerdə - Montin qəsəbəsində üç otaqlı mənzil verdilər. Anam, qardaşım, bacılarım da mənimlə qaldılar."

**Şeir**

Aradım göylərdə levhi, qələmi,
Sordum həm cənnəti, həm cəhənnəmi.
Düzgün bir elm ilə dedi ustadım:
Bunlar özündədir, gəzmə aləmi.

*Ömər Xəyyam*

**Ünvana çatmayan məktub**

"Taleyimdən razıyam. Onu özüm yaratdım..."

Nə ağıllı demisiniz, Kamran əmi. Əslində bu cümlə dünyaya gələn, dünyadan gedən milyardlarla insanın həyat açarıdır. Mən sizin 30 yaşınıza qədərki yolunuzda qarış-qarış gəzib dolaşıram, bir ləpirçi inadı ilə hər izinizə diqqət edirəm, yerinə düşməyən bircə iz, bircə səhv atılmış addım tapmıram. Və düşünürəm, bu dünyaya gələn, bu dünyadan

gedən (millətindən, dilindən, dinindən asılı olmayaraq) o milyardlarla insanın hamısı yox ey, mində biri həyatını sizin kimi yaşasaydı, nə müharibə olardı, nə aclıq, nə xəyanət olardı, nə satqınlıq, nə zülm olardı, nə zalım. Əstağfürullah, yağış da qədərində yağardı, quraqlıq olmazdı...

Özün özünü yaratmaq!.. Biri dəmirçi olur, biri kosmonavt, biri şair olur, biri həkim, biri dövlət başçısı olur, biri çoban... Amma Kamran əmi, mən sizi tanıdıqca az qala bağırmaq və hər kəsi agah etmək istəyirəm ki, insan olmaq özü-özünü yaratmaq sənətidir. Bundan böyük səlahiyyət yoxdur!

Siz bunu bacardınız! Oxutmadılar, oxudunuz...

Evləndirmədilər, evləndiniz...

**Hekayət**

Biri var idi, biri yox idi. Qubadlının Çərəli kəndində Əsəd adında işli-güclü bir kişi var idi. O, Məmmədağanın oğluydu. Əsəd çox çətinliklə də olsa, Səfər bəyin nəslindən Lalə xanımla evləndi. Onların ailəsində iki oğul, iki qız dünyaya gəldi. Əsədin böyük övladı Kamran idi.

Əsədin qardaşı vardı; Paşa. Qarabağdan, Zəngəzurdan, xüsusən, Qubadlıdan çıxan çoxlu simsarlar kimi Kamran, əmisini də qanadının altına çəkmişdi. Yanında işə götürmüşdü. Amma əmi əmidi də... Əvvələn, ondan doğma yurdun ətrini alırdı. Bu yandan da hər nəsihətinə diqqətlə qulaq asıb sözsüz-sovsuz əməl eləyirdi.

Azərbaycan ailəsində böyüyə hörmət ənənəsi diqqətlə araşdırılmağa layiqdir. Qəribədir, bu diyarda böyüklərin sözü heç zaman səhv çıxmır. Onların göstərdiyi yol həqiqəti az

qala yüzdə yüz ifadə edir. Azərbaycanlılar deyirlər: Allahsız yerdə otur, böyüksüz yerdə yox. Böyük sözünə baxmayan böyürə-böyürə qalar. Və çoxlu bu sayaq deyimlər...

Çox güman ki, 40-cı illərdə Bakıda ulduz falları indiki dərəcədə nəzərə alınmırdı. Ya Ay onun bürcünə yaxınlaşmışdı, ya uzaqlaşmışdı, bunu demək həm çətindir, həm mənasız. Amma iş burasında idi ki, həmin gün Kamranın içini xoş ovqat bürümüşdü. İnsanın kefikök çağına şahidi Allah özü yetirir. O, bir topa adamla durub hal-əhval soruşur, zarafatlaşır, iki daşın arasında da işdəki vəziyyətlə maraqlanırdı.

Birdən Paşa əmisi gözünə dəydi. Özünə xas addımlarla adamların toplaşdığı yerə doğru gəlirdi. Gəlib yetişdi, salamlaşdı. Bir qədər söhbətdən sonra hərə öz işinin başına getmək üçün dağılışanda Kamranın qolundan tutub dedi:

- Kamran, bala, bir dəqiqəliyə ayağını bəri qoy...

Bir qədər yanaşı yeridilər. Paşa əmisi Kamranın o zamankı qüzəranı üçün həddən ziyadə vacib olan sözü də qoşa addımladıqları həmin o anda dedi:

- Allaha şükür, Kamran, ocağımızı sönməyə qoymadın. Böyümüsən, hamımıza əl yetirirsən. Amma olmaz, nə qədər belə gedəcək?

- Nə olub ki, əmi?

- Nə olacaq, sənin taylarının üç-dörd uşağı var. Tərpənmək lazımdı.

Kamran həm bir qədər sıxıldı, həm də əmisinin sözləri ona xoş gəldi.

- Heç dayanıb dururam ki, əmi, səhərdən axşama kimi hərəkətdəyəm, bir saniyə boş vaxtım yoxdu.

- Ə, məni güldürmə, mən o tərpənməkdən danışmıram. Vaxtdı ta, sənə evlənmək lazımdı...

- Hə?..

- Hə! Bax bu həftə minirsən poyuza. Gedirsən Hal kəndinə, orda bizim qohumlarımız yaşayır. Tanıyırsan. Sadiq kişi, arvadı Məstan. Bilirsən dana, Məstan bizim dayımız qızıdı. Ora gəlin köçüb. Birbaş gedirsən onlara. Bir gəşəng, ağıllı, işli-güclü qızları var, Zeynəb. Onunla ailə qur, Əsədin qəbrinə and olsun, uduzmazsan...

Gör kişi hara and verir ey...

- Əmi, sən heç məndən nayran olma, özünə fikir ver, mən bu məsələ barədə düşünərəm...

- Hə, əmin gözünə qurban, düşün. Amma yadında saxla ki, mən də boş-boş danışan adam deyiləm.

Aralandılar. Kamran düşündü. Və o qədər də uzun müddət yox...

**Salnamə**

...Paşa əminin bu məsləhəti ağlıma batdı. Biz Bakıya gələndə bir gün Hal kəndində Məstan arvadgildə qalmalı olmuşduq. O gün Məstan arvad bizi boş oturmağa qoymamış, möhkəmcə işlətmişdi. Zeynəbi də o vaxt gördüyüydü, balaca bir qız idi, xoşuma gəlmişdi.

Bakıya gələndən sonra aradan neçə il keçsə də rayona gedə bilməmişdim. Bir bəhanə tapıb rayona getdim. Hal kəndinə də baş çəkib çox çətinliklə Zeynəbi gördüm. Evlənmək söhbəti isə olmadı. Dedilər qızın atası eşitsə, səni öldürər. Bu hədə-qorxuya baxmayaraq özüm-özümə elçilik etdim. Həmin il – 1940-cı ildə evləndik.

## Ərəfə

Alman faşistlərinin SSRİ üzərinə hücuma keçməyinə hələ bir il qalırdı. Əslində bəşər tarixinin ən qanlı müharibələrindən biri – İkinci Dünya müharibəsi 1939-cu il sentyabr ayının 1-də Almaniyanın Polşa üzərinə yeriməsi ilə başlamışdı. Müharibənin ilk savaş açımına 57 diviziya (1,5 milyon insan), 2500 tank, 2000 təyyarə qatılmışdı. Sentyabrın 3-də İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. Avstraliya, Yeni Zelandiya, Hindistan, Kanada, eləcə də ABŞ bitərəf qaldı. Yaponiya Avropa savaşına qoşulmadı. Polşa viran qoyuldu. Rusiya fürsətdən istifadə edib Estoniya, Latviya, Litvanı işğal etdi. 1939-40-da Rusiya-Finlandiya müharibəsi oldu.

Almanlar tərəfindən Norveç, Danimarka, Niderland üstünə hücum başladı. Paris tutuldu. İngiltərəyə qaçan general de Qoll Azad Fransa hərəkatını yaratdı. Britaniya da diplomatiyası və hərbi sursatları ilə müharibənin içində idi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum etdi. Böyük vətən müharibəsi başladı. Leninqrad, Kiyev, Smolensk işğal olundu. 1941-ci il dekabrin 5-də Sovet qoşunlarının əks hücumu başladı. Almanlar 100-250 km geri oturduldu.

Və Azərbaycan, Bakı Böyük vətən müharibəsində döyüşən cəbhənin əsas cəbhəxanalarından birinə çevrildi. Arasıkəsilməz həcm və sürətlə insan qüvvəsi, ərzaq, pal-paltar, yanacaq vətənin azadlığı naminə cəbhəyə göndərilirdi. Fasiləsiz iş rejimi adi həyat norması idi. Cəbhədə yaralananlar Azərbaycanda, xüsusən, Bakıda müalicə olunub yenidən döyüşə atılırdılar.

***

Kamran Hüseynovun da içindən keçdiyi dəhşətli müharibəyə hələ bir il qalır. Təzəcə ev alıb, təzəcə evlənib. O, həyat yoldaşı – Zeynəb xanımla uzun, dadlı, mənalı ömür yaşayacaq. Zeynəb xanım ona xanım, yeri gələndə ana olacaq, övladlarına tərbiyə verəcək. Evin kişisi harda işləməsindən, hansı uzaq səfərə yollanmasından asılı olmayaraq evdən arxayın çıxacaq. Çünki halallıqla, alın təri və idrakla qurduğu o yuvada Zeynəb xanım var; ürəkdən sevib bağlandığı bir insan, balalarının anası...

Artıq respublika ictimaiyyətinin tanıdığı 29 yaşlı Kamranın adı adlar içində idi. Sayılıb seçilirdi.

9-cu zavodda (indiki Yeni Bakı Neftqayırma zavodu) işləyirdi. Onu Mərkəzi Komitəyə çağırırdılar. Mərkəzi Komitəyə hər adamı çağırmırdılar. Getdi. Sumqayıtda zavodlar tikmək üçün yeni trest yaratmaq barədə tapşırıq aldı.

**Sözlük**

Sumqayıt

*Bu ərazi və təbii ki, bu şəhər haqqında Kamran müəllimin versiyalarını qabaqlamaq istərdik. Baxaq görək 1940-cı ildə ilk özül daşları Kamran əminin əli ilə düzülən Sumqayıt barəsində indiki informasiya mənbələri nəyi anladır.*

*Sumqayıt Bakıdan sonra Xəzər sahilində yerləşən ən böyük şəhərdi. Vaxtilə adına gənclik şəhəri deyiblər. Çünki onun özül daşlarını düzənlər, ilk sakinləri gənclər idi. Sonralar Sumqayıt yeni adlar qazandı: sənaye şəhəri, kimyaçılar şəhəri, inşaatçılar şəhəri. İndi isə Sumqayıt azad iqtisadi zona olmaq axtarışındadır.*

*Abşeron yarımadasının şimalında, Bakıdan 25 kilometr məsafədə yerləşir. Ərazisi 83 kvadrat kilometrdir. Tərkibinə Sumqayıt şəhəri, Hacı Zeynalabdin Tağıyev və Corat qəsəbələri daxildir. Sumqayıtı şəhərinin ölkənin digər rayon və şəhərləri, eləcə də xarici dövlətlərlə avtomobil və dəmir yolları qovuşdurur.*

*Ərazisindən Sumqayıt çay çayı axır. Samur-Abşeron kanalı şəhərin cənubundan keçərək Ceyranbatan su anbarına tökülür.*

*Sumqayıt şəhərində və qəsəbələrində 357 minə yaxın əhali, 63 min qaçqın və məcburi köçkün yaşayır.*

*1949-cu ildən respublika tabeli şəhərdir.*

*"Sumqayıt" sözünün yaranması barədə üç fərqli yozum var.*

*Bir əfsanəyə görə, günlərin bir günü uzaq ellərdən gələn dəvə karvanı bu yerdən keçir. Onların su ehtiyatı qurtarır, susuzluğa davam gətirə bilməyən karvan sahibləri arasında bir-birini dərin məhəbbətlə sevən Sum və Ceyran adlı iki gənc olur. Bir tərəfdən susuzluq, bir tərəfdən isə qızmar günəş və qumlu səhra Ceyranı taqətdən salır. Sevgilisinin susuzluğa dözə bilmədiyini görən Sum Ceyrana deyir:*

*- Sən burada məni gözlə, ya ölərəm, ya da sənə su taparam!*

*Sum karvandan aralanıb gedir. Lakin sevgilisinin fəlakətlə qarşılaşacağını hiss edən Ceyran onu geri çağırır:*

*- Sum, qayıt! Sum, qayıt!*

*Şəhərin adını qədim türk tayfası "suqa" və ya "sunqa"larla əlaqələndirənlər də var. "-it" şəkilçisi isə qədim türk dillərində cəm şəkilçisi olub. "Sumqait" – "Sunqalar", yəni "sunqaların yerləşdiyi ərazi" mənasını daşıyır.*

*Şəhərin adının mənşəyi ilə bağlı başqa bir fikir, şimaldan axan Sumqayıtçayla əlaqədardır. Yarımsəhra şəraitində axan çayın mənsəbi yoxdur və çay quraqlıqda tamamilə quruyur. Xəzər dənizinə axmayıb geri qayıtdığına görə ona qədim türkdilli tayfalar "su qayıdan çay" demişlər.*

*Sumqayıt Azərbaycan şəhərləri arasında ən fəlakətli ətraf mühitə malikdir. Orta hesabla hər il havaya 96,5 min ton zərərli maddələr atılır. Burada atmosferi ən çox Alüminium zavodu korlayır. Bundan başqa Sumqayıt şəhərinin ekologiyasının pozulmasında "Kimyasənaye" İstehsal Birliyinin böyük "əməyi" var. Sumqayıt yeganə şəhərdir ki, üç müəssisəsi xlor buraxır.*

*Tarixçilərin fikrincə müasir Sumqayıtın yerləşdiyi ərazidə qədim dövrlərdə midiyalılar məskunlaşıb. Şəhərin tikintisi zamanı, torpaq altında qazıntı işləri görülərkən qədim yaşayış məntəqəsinin və karvansarayın qalıqlarına rast gəlinirdi. Sovet İttifaqı Abşeron yarımadasını ağır sənaye mərkəzinə çevirmək qərarına gəldi. Məqsəd Abşeronda ikinci sənaye mərkəzi tikmək idi. İlk layihələndirmə və tikinti işləri 1938-ci ilə aiddir. İkinci Dünya Müharibəsinin başlanması ilə şəhərin tikintisi dayandırıldı. Tikinti işləri 1944-cü ildə yenidən bərpa olundu.*

**"Salnamə"nin versiyasına baxaq...**

Adətən büyük yaşayış məntəqələri, şəhərlər ya çay qırağında, ya dəniz, ya da ki, böyük göllərin yaxınlığında salınır. Xüsusən, şəhərlərin tikilməsi və inkişafı su hövzəsi amili ilə sıx bağlıdır.

Bizim respublikada Sumqayıt, Mingəçevir, Neftçala, Naftalan şəhərləri də yeni, müasir sənaye mərkəzləri kimi tikilirdi. Bunlar da bu deyilən qaydadan kənar, plansız tikilə bilməzdilər. Misal üçün, 30-cu illərdə planlaşdırılan metallurgiya, kimya sənayesinin harda yerləşdirilməsi çox mühüm məsələ idi. Kimya sənayesi Bakıdan uzaqda ola bilməzdi. Ona görə ki, Bakının neftayıran zavodları kimya üçün xammal qaynağı idi. Tikilən qara metallurgiya və əlvan metallurgiya zavodlarının da Bakıdan uzaqda olması iqtisadi cəhətdən məqsədəuyğun deyildi.

Bu zavodların harda yerləşməsi, onların əsasında meydana gələn yaşayış məntəqəsi, şəhər hissəsi elə qurulmalı idi ki, zavodların təchizat məsələsi, su, kanalizasiya, elektrik xətləri, rabitə, dəmiryol nəqliyyatı bir-birinə maneəçilik eləməsin. Onun üçün də ən əlverişli yer nəzərdə tutulan

Sumqayıt kimi boş ərazi idi. Bu ərazinin üstünlüyü çox idi. Birincisi, o, Bakıya yaxın idi. Onların inkişafına Bakının köməyi çox vacib idi. İkincisi, onlar Samur-Dəvəçi kanalından gələn sudan istifadə edə bilərdilər. Üçüncüsü, bu ərazi magistral yollara yaxın idi. Bu faktlar nəzərə alınaraq, geoloji cəhətdən Sumqayıtda elmi axtarış işlərinin aparılması, yer quruluşunun forması, torpağın geoloji cəhətdən möhkəmliyi, şoranlığı, yeraltı suların səviyyəsi öyrənilməyə başlandı. Ən vacibi kimya zavodlarının tikilməsi məsələsi idi. Onların tüstüsünün istiqaməti elə təyin edilməli idi ki, o, Sumqayıtın yaşayış məntəqələrində və Bakıda havanı korlamasın.

Kimya zavodları elə bir cərgədə qurulmalıydı ki, onların bir-birinə, eləcə də metallurgiya zavodlarına, yaşayış məntəqələrinə mənfi təsiri olmasın. Bu işlər mükəmməl surətdə təcrübədən keçirildi, küləyin (xəzri, gilavar) ən çox əsmə yönləri çoxillik həyati müşahidələr üzrə nəzərə alındı.

Bu elmi tədqiqat işləri gedəndən sonra Sumqayıt elektrik stansiyası, Sintetik kauçuk – SK zavodunun tikilməsi, qara metallurgiya, boruyayma, alüminium zavodlarının hansı qaydada tikilməsi üçün layihələr hazırlandı. Ən birinci SK zavodunun məsələsi 1938-ci ildə Partiyanın XVIII qurultayının qərarı ilə həll olundu.

Sumqayıtda tikilən SK zavodu Bakıdan oraya neftayırma zavodları resurslarının verilməsi sayəsində nəinki SSRİ-də, eyni zamanda Avropada birinci zavod oldu.

Sumqayıt Corat kəndinin torpağında idi. Söz düşmüşkən deyim ki, mən coratlıların danışığına fikir vermişəm. Onlar bir çox sözləri özlərinə məxsus bir qaydada işlədirlər. Məsələn, "gəldi, getdi, qayıtdı" sözləri coratlılar tərəfindən başqa cür tələffüz olunur: gələdi, gedədi, qayıdadı və i.a.

"Sumqayıt" sözü də oradan axan çayın adı ilə bağlıdır. O çay Şamaxı zonasından başlayaraq Ağdərə, Xılmıllı ərazisindən keçir. Gəldiyi zonalarda ona "Sumqayıt çayı" demirlər; onun adı "Qozlu çay"dır.

Pirəkəşkül tərəfindən Sumqayıta doğru gəldikdə isə ona "Sumqayıt çayı" deyirlər. Bu çay o qədər sulu deyil. Bəzən yaz ağzı dağlardan əriyən qarların, payız yağışlarının nəticəsində onun suyu bir qədər çox olur, bəzən də demək olar ki, tamam quruyur. Xəzərin möhkəm küləkli vaxtında elə olur ki, dənizin suyu Sumqayıt çayının yatağı ilə geri qayıdır. Coratlılar buna "su qayıtdı" deyirlər. Mənim zənnimcə, çayın adı bu sözlərdəndir.

Son zamanlar isə "Sumqayıt" sozunun etimologiyası haqqında o qədər də ağla batmayan bir rəvayət yayılıb. Guya Sum adlı bir oğlan, Ceyran adlı bir qız olub. Onların görüşməsi və sevişməsi əsasında Sumqayıt adı meydana gəlib. Sonra dəyişikliyə uğrayaraq "Sumqayıt" şəklinə düşüb. Mən isə özlüyümdə coratlıların işlətdiyi sözə inanıram. Çünki Sumqayıt çayının dənizdən geri axdığını gözümlə görmüşəm.

O "Sum", "Ceyran" fikrini yaradan hörmətli müəlliflər məndən inciməsinlər. Bu məsələ ilə bir də kökündən maraqlansınlar.

Bu çayla bağlı başqa bir mülahizəm də var. Bir çayın iki adı olmaz. Nə qədər çox qol-qanadı olmasına baxmayaraq, hər bir çay başlanğıcından axırına qədər öz adını saxlayır. Volqa çayı Novqorod vilayətindən, Pskovdan başlayaraq, bir neçə vilayətin ərazisindən axır, onun çoxlu qolları var. Ancaq Xəzərə tökülənədək öz adını saxlayır.

Dünyada nə qədər şirin su varsa, onun 15 faizini Amazon çayı verir. Onun da çoxlu qolları olmasına baxmayaraq,

Amazon çayı olaraq dünya coğrafiyasında özünün bircə adı ilə məşhurdur.

Kür və Araz çayları Türkiyənin Qars, Ərzurum, Bayburt, Ağrıdağ vilayətlərindən başlanır. Axdıqları yerlərdə onlara çoxlu qol-qanad qoşulmasına baxmayaraq Kür, Araz adı ilə yaşayırlar. Neftçalada Kür Xəzərə tökülür. Neftçalalılar öz xeyriyyə cəmiyyətinin adını "Kür-Xəzər" qoyublar. Yuxarıda, başlanğıcda və əsas hissədə "Qozlu" adlanan çayın aşağıda qısa bir hissəsinin heç bir əsas olmadan (ona burada heç bir qol qarışmır, xırda çay tökülmür, qovuşmur) başqa bir adla ("Sumqayıt") adlanmasını düzgün saymıram. Qozlu çayın Sumqayıt ərazisinə düşən hissəsinin uzunluğu heç 60 km də deyil.

Ancaq bunlara baxmayaraq qeyd etməliyəm ki, "Sumqayıt" adı da pis səslənmir. Qeyd etdiyim kimi, şəhərlər ya dəniz, ya göl, ya da çay kənarında yerləşirdi. Azərbaycan hökuməti Layihə-Arxitektura İnstitutuna, bir neçə layihə işləri ilə məşğul olan başqa institutlara Sumqayıt şəhərinin layihəsini hazırlamağı tapşırdı.

Layihənin birinci hissəsi 1938-ci ildə hazır oldu. 1940-cı ildən bu zavodların və şəhərin tikilib qurulmasına başlandı.

**Sözlük**

Corat

*Sumqayıtın Xəzər sahilində yerləşən qəsəbəsidir. Tarixi qədimdir, ərazisində çox sayda maddi-mədəniyyət örnəkləri müşahidə edilib.*

*Hazırda qəsəbədə səliqə-sahman, infrastruktur yaradılmışdır. Əhalisi 10 minə yaxındır. Bakıdan 35 kilometr məsafədə yerləşir.*

**Hekayət**

Sumqayıt eyforiyasının ömrü uzun olmadı. İkinci Dünya müharibəsi başlayan kimi qol-qanad açan geniş tikinti, quruculuq işləri dayandı. Sovet İttifaqında tamamilə fərqli rüzgarlar əsdi. Hələ buna qədər MK-da Kamran Hüseynovun həyatında qəribə bir hadisə baş verdi. O, ilk dəfə qılıncının dalı da, qabağı da kəsən, Stalinin şinelindən çıxmış respublika miqyaslı tiranla üzbəüz dayanmalı oldu.

Rəhbərin yanına, yığıncağa çağırılmışdı. O, icrası məcbur monoloqunu söylədi. Dedi; Sumqayıtda mühüm sənaye obyekti tikiləcək. Təcili işə başlayın, trestin müdiri Moskvadan birbaşa Sumqayıta gələcək. Mühəndis Amerikada səfərdədir. O da gələcək. Bu zavodlar bizə indiyə qədər özümüzdə olmayan metal, alüminium, kauçuk verəcək. Ona görə də bütün qüvvələri cəm edin, tresti yaradıb tikintiyə başlayın.

Necə oldusa, Bağırov adətən özünü gözə soxmayan, çox vaxt arxa sıralarda oturan Kamranı gördü. Deyəsən, adamın özündən daha əvvəl onun yaxasındakı "Əmək rəşadəti" medalı və neft sənayesi qabaqcıllarına verilən nişan rəhbərin diqqətini çəkmişdi.

Bağırov soruşdu:

- Sən hardansan?
- Qubadlıdan.
- Çingiz İldırımı tanıyırsan?
- Yox, tanımıram.

Kamran düz deyirdi. O, Çingiz İldırımın adını eşitməmişdi. Çünki həmin vaxtlar xalq düşmənlərinə dair məlumatlar əhalidən gizli saxlanırdı.

**Sözlük**

Çingiz İldırım

*Çingiz İldırım 1890-cı ildə Qubadlı rayonunda, bəy ailəsində anadan olub, ilk təhsilini Şuşa realnı məktəbində, Vladiqafqaz orta məktəbində alıb. 1910-1916-cı illərdə Peterburq Politexnik İnstitutunda oxuyub. Əmək fəaliyyətinə Peterburqda məşhur Ayvaz zavodunda başlayıb. Yüksək səviyyəli mühəndis-metallurq idi. 1918-ci ildə "Qızıl Şimal" və "Hürriyyət" adlı qəzetlər nəşr edib. Azərbaycan Demokratik Respublikasının Hərbi Dəniz Donanmasının rəhbəri, Hərbi Dəniz İşləri üzrə Komissar olub, azərbaycanlılar arasında ilk dəfə "Qızmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib, Xalq Yollar Komissarı təyin edilib. Bütün bu dövrdə daşnaklara qarşı mübarizə aparıb. Respublika Xalq Komissarları Sovetinin və MİK-in ərzaq vergisi üzrə fövqəladə müvəkkili, Naxçıvanda və Qubadlıda partiya-sovet işləri üzrə məsul təhkimçi, Dövlət Plan Komissiyası sədrinin müavini, SSRİ Sindikatlar Şurası Azərbaycan bürosunun sədri, Azərbaycan Yükvurma Cəmiyyətinin sədri, Azərbaycan xüsusi aviakimya idarəsinin sədri vəzifələrini daşıyıb. Moqnitaqorsk Metallurgiya Kombinatının özülünü qoyub, uzun müddət kombinatın rəisi olub. 1936-cı ildə ona "Lenin ordeni" verilib. Bir neçə il sonra haqqında ölüm hökmü çıxarılıb və güllələnib.*

**Salnamə**

Çingiz İldırım Qubadlı İldırım bəyin oğlu idi. O, Peterburqda mühəndis metallurgiya institutunu bitirib, elə oradan da inqilabi hərəkata başlayıb. Azərbaycanda Hərbi Dəniz Naziri təyin edilib. 1920-ci ildə yaranan N.Nərimanov hökumətinin tərkibində olub. O, təklif edib ki, Gəncə şəhəri ilə Şamxorun arasında "Alabaşlı" deyilən yerdə çox güclü, bütün

elementlərilə bir metallurgiya kombinatı tikilsin. Daşkəsəndən də asma-kanat yolları ilə ora filiz gətirilsin. Neft sənayesinin bütün tələbatını ödəsin. Deyilənə görə, gürcü hökuməti bu təklifi qəbul etməmişdi.

Sereteli, Lomidze, Orconikidze, Beriya demişdilər ki, guya Azərbaycanda Gürcüstana nisbətən sənaye artıq dərəcədə inkişaf edib. Ona görə də kombinat Gürcüstanda tikilməlidi. Nəticədə Çingiz İldırım öz təklifinin qurbanı oldu. Onu Azərbaycandan qoparıb Uralda, Çelyabinskdə tikilən metallurgiya kombinatına göndərdilər. Bu görkəmli şəxsiyyəti sonra yox elədilər.

**Sözün qüvvəti**

Hakimiyyətin yuxarı dairələrində etibar qazanıb tanınandan, mühüm dövlət tapşırıqları verilməyə başlandığı vaxtdan Kamran Hüseynovun həyatının müdrik dövrü başlayır. O, çox erkən yaşa dolmuş, həyatın eniş-yoxuşlarını dərk etmişdi. O, içində yaşadığı siyasi quruluşun "günahsız qurbanları" sevdiyini də anlayırdı.

Hərdən ülgüc üstündə yalın ayaqla yerimək lazım gəlirdi.

Bağırovla işləmək, istedadlı və işgüzar olmaq, el-oba tərəfindən sevilmək və bununla belə çiyinlər üstündə başı salamat saxlamaq indi bizim ərköyüncəsinə düşündüyümüz qədər asan deyildi, çətin idi, hətta çox çətin idi.

**Sözlük**

Mircəfər Bağırov

*1896-cı il sentyabrın 17-də Bakı quberniyasının Quba şəhərində anadan olub. Atası Mirabbas, anası Yaxşı xanımdır. Mircəfər ailədə ən kiçik uşaqdır, iki bacısı varmış.*

*İki övladı olub. Həştərxanda işləyərkən Mariya adlı zadəgan qızıyla ailə qurub. 1919-cu ildə Cahangir adlı oğlu doğulub. 1926-cı ildə Mariya vəfat edib. Dörd ildən sonra İçərişəhərdə yaşayan Yevgeniya Mixaylovna ilə evlənib. Bu nigahdan 1932-ci ildə ikinci oğlu Cen dünyaya gəlib. Böyük oğlu Cahangir aviasiya məktəbində oxuyub. İkinci Dünya müharibəsi başlayanda artıq o, təyyarəçi idi. Müharibədə iştirak edib və bir il sonra yaralı halda ordudan tərxis edilib. Cahangir muharibəyə yararsız olmasına baxmayaraq, yenidən cəbhəyə dönüb. 1943-cü ilin iyun ayında qeyri-bərabər döyüşdə 7-8 alman təyyarəsini vurub, sonra yanacağı qurtardığı üçün tarana gedib və təyyarəsini alman təyyarəsinə çırpıb. Cahangirə vəfatından sonra "Lenin" ordeni veriblər.*

*Cen isə Bakıda 10-cu sinfə qədər 6 saylı məktəbdə təhsil alıb. Tiflisdə hərbi məktəbdə, 1951-ci ildə Moskvada Jukov adına Aviasiya Akademiyasında oxuyub. Mircəfər Bağırov işdən azad ediləndə Cenə Akademiyadan çıxmaq, başqa instituta getmək təklif olunub. Cen də Kənd Təsərrüfatı İnstitutunu seçib.*

*M.Bağırov ilk təhsilini mollaxanada alıb. Sonra təhsilini Quba ali-ibtidai məktəbində davam etdirib. 1913-cü ildə oranı bitirib, Quba ziyalılarının topladığı pulla Mahaçqala şəhərinə gedərək ikiillik pedaqoji kursa (rus dili müəllimliyi) daxil olub. M.Bağırov əmək fəaliyyətinə gənc müəllim kimi Xudat stansiyasındakı məktəbdə başlayıb. Nəcəfkənd, Quba şəhər məktəblərində müəllimlik edib.*

*Fevral inqilabı dövründə açıq və gərgin inqilabi fəaliyyətə başlayıb.*

*M.Bağırovun və başqa inqilabçıların rəhbərliyi altında əksəriyyəti yoxsul kəndlilərdən və əsgərlərdən ibarət olan İnqilabi Şura Qubada hakimiyyəti ələ alıb.*

*1918-ci ilin mart-may aylarında gizli fəaliyyətə keçib, Sonra isə gizli yolla Bakıya gəlib. Döyüş drujinasının tərkibinə daxil olub Bakının müdafiəsində iştirak edib.*

*1918-ci ildə Bakıda bolşeviklər süqut edir. M.Bağırov bu zaman Petrovun dəstəsinin qalıqları ilə birlikdə Həştərxana gedir. Həştərxanda, Dağlıq Qarabağda, XI ordunun Hərbi İnqilabi Şurasında fəaliyyət göstərir.*

*1921-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi siyasi bürosunun iclasında iştirak edən M.Bağırova Azərbaycanda ali idarəedici orqan olacaq Azərbaycan Fövqəladə Komissiyasının təşkil edilməsi*

*tapşırılır. 1921-ci il aprelin 2-də Az FK sədri təsdiq edilir.O, bu vəzifədə 1927-ci il setyabrın ortalarına kimi çalışıb. M.Bağırov ağır və çətin olan mühüm vəzifələrdə ilk gündən antisovet qüvvələrə qarşı amansız mübarizə aparmış, üsyanları qəddarlıqla yatırmış, Azərbaycanda kəşfiyyat işinin təşkilində və möhkəmlənməsində, bu şəbəkəyə azərbaycanlıların cəlbi sahəsində xeyli iş görmüşdür.*

*M.Bağırov 1929-cu ilin sentyabrında Azərbaycan Dövlət Siyası İdarəsinin sədri təyin edilib.*

*1933-cü il dekabrın 10-da Azərbaycan KP MK və Bakı Komitəsinin birləşmiş büro iclası olub. Büroda başqa məsələlərlə yanaşı təşkilat məsələsinə də baxılıb. Təşkilat məsələsi haqqında qərarda göstərilir:*

*Mircəfər Bağırov yoldaş Azərbaycan K(b)P MK və BK birinci katibi təsdiq edilsin.*

*1937-ci il avqustun 5-də SSRİ NKVD-si qərarı çıxarır. Həmin qərara 3 nəfər – SSRİ daxili işlər nazırı Yejov, Mikoyan və Stalin qol çəkib. Qərarda yazılıb ki, müsavatçılar, ittihadçılar, sosial-demokratlar, hümmətçilər, eyni zamanda menşeviklər və daşnaklar güllələnməlidir. M.Bağırovun fəaliyyətində 1937-1938-ci illər qara ləkə kimi iz buraxmışdır. Çünki bu illərdə Azərbaycanın minlərlə millətsevər alimi, şair və yazıçısı, partiya, dövlət xadimi həbs edilmiş və güllələnmişdir.*

*1933-1953-cü illərdə M.Bağırov Azərbaycan Kommunist Partiyası MK və BK-nın birinci katibi vəzifəsini daşımışdır.*

*Sənaye sahəsində M.Bağırovun bu dövrdəki fəaliyyəti nəticəsində Bakı neft sənayesinin hərtərəfli inkişafı ilə yanaşı, başqa sənaye sahələri də inkişaf etmiş, yeni-yeni fabrik və zavodların (Bakı Neftayırma zavodu, Bakı Elektrik maşınqayırma zavodu, Bakı Soyuducu kombinatı, Bakı biskvit fabriki, Qaradağ sement zavodu, Gəncə toxuculuq kombinatı, yağ-piy zavodu, Sumqayıt istilik elektrik stansiyası, Boru prokat zavodu, Sintetik kauçuk zavodu, Mingəçevir su elektrik stansiyası) tikilib istifadəyə verilmiş, bir sıra yeni neft yataqları və mədənləri (Lökbatan, Neft daşları, Zığ) kəşf olunmuşdu.*

*M.Bağırovun bilavasitə rəhbərliyi altında tikinti işləri sürətlə aparılmış, Bakıda Nazirlər Kabinetinin binası, hökumət evi, Nizami adına kinoteatr, Şəhriyar adına mədəniyyət evi, xalça muzeyi, Respublika stadionu və s. tikilib istifadəyə verilmişdir.*

*M.Bağırovun başçılığı ilə Sumqayıt, Mingəçevir, Əli Bayramlı, Daşkəsən kimi yeni sənaye mərkəzləri salınmış, onlarla yeni-yeni fabrik və zavodlar, maşınqayırma müəssisələri yaradılmışdır.*

*1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı M.Bağırov alman-faşist işğalçılarına qarşı mübarizəyə və qələbəyə Azərbaycan fəhlələrini, kəndlilərini və ziyalılarını var qüvvəsi ilə səfərbər etmişdir.*

*M.Bağırovun Cənubi Azərbaycan məsələsinə münasibəti müsbət baxımdan maraq doğurub.*

*1953-cü il aprelin 18-də Azərbaycan KP MK-nın plenumu olmuş və plenumda bir sıra məsələlərlə yanaşı təşkilati məsləyə də baxılmışdır. Plenum M.Bağırovu Aəzrbaycan KP MK birinci katibi vəzifəsindən azad etmiş və Azərbaycan SSR Nazirlər Sovetinin sədri təsdiq etmişdir. Lakin dövlətə xain çıxmış L.Beriya ilə əlaqədar olaraq bir neçə aydan sonra M.Bağırova da münasibət dəyişmişdir.*

*1953-cü ildə Azərbaycan KP MK və Bakı Komitəsinin birləşmiş VI plenumu olmuşdur. Həmin plenumda 989 nəfər, demək olar ki, respublikanın əksər rəhbər işçiləri iştirak etmişlər. VI plenumda L.Beriya və M.Bağırovun məsələsi geniş müzakirə olunmuşdur. Plenumun M.Bağırov haqqında qərarında yazılır:*

*"Beriya ilə əlaqədar yoldaş M.C.Bağırovun partiyaçıya yaraşmayan hərəkətlərini qəbul etmək və pisləmək. Beriya işi ilə əlaqədar partiyaçıya yaraşmayan hərəkətlərinə, partiya qarşısında qeyri-səmimiliyinə, öz işlərində böyük siyasi səhvlər buraxdığına görə M.Bağırovu Azərbaycan SSR Nazirlər Soveti sədri vəzifəsindən götürmək və onu Azərbaycan KP MK bürosunun tərkibindən çıxartmaq".*

*Mircəfər Bağırov 1955-ci ildə həbsə alınıb istintaqa cəlb olunmuş, 1956-cı ildə məhkəmənin hökmü ilə ən ağır cəzaya – güllələnməyə məhkum edilmiş və rəsmi məlumata görə hökm yerinə yetirilmişdir. M.Bağırovun məhkəməsi indiki "Şəhriyar" klubunda keçirilmişdir. Nürnberqdə SSRİ-nin nümayəndəsi olmuş prokuror Rudenko onun məhkəməsini aparmışdır. M.Bağırovun bağışlanmaq haqqında Sovet rəhbərliyinə müraciətləri rədd edilmişdir.*

*Bağırov mühakimə olunduğu zaman cəmi 5-10 cümlə söyləyib ki, bu cümlələrdən biri belə olmuşdur: "Mənim ən böyük səhvim Stalinə inanmağım olub".*

*Bəzi mənbələrə görə 17 may 1976-cı ildə Dalnoreçenskidəki ölümə məhkumların düşərgəsində vəfat etmişdir. Elə orada da dəfn olunan M.Bağırovun məzarının nömrəsi 1684-dür. Həmin həbsxananın rəisi belə deyirmiş:*

*"Ölümünə iki ay qalana qədər türmədə aşpaz işləyirdi. Çox da xəstə olmadı. Sakit-səssiz qoca idi. Eləcə də dünyadan köçdü. Srağagün, elə öldüyü gün də dəfn elədik..."*

**Müəllif**

Sonralar Kamran müəllim M.Bağırovla bir neçə dəfə görüşəcək. Ondan, onun adından tapşırıqlar alacaq. Roman boyu digər sözlüklər də verilib və veriləcək. Çalışırıq ki, qəhrəmanımızın əsərlərində (həm "Bir ömrün sanlaməsi", həm də "Quruculuğa həsr olunmuş ömür"də) hər kəs haqqında ən azı internetin verdiyi imkan daxilində üzərində işlənmiş məlumatlar yer alsın. Savad nümayiş etdiririk, yaxud "Tarixi-Nadir" açmaq niyyətimiz yoxdur. Sadəcə, Kamran müəllimin xatirində yuva quran yer, adam adları, əhvalat və hadisələr, bir sözlə, mükəmməl xronika bir yerə toplandıqca onun bütöv həyatı canlanır. O adların, o adamların arasından dəyərli bir şəxsiyyətin, istəkli vətən oğlunun mövcud olduğu məkanı dəyişməyə qadir obrazı canlanır.

Şəxsiyyətlərə istinad edərək öyrənəndə tarix daha yaddaqalan, daha inandırıcı olur. Çünki tarixin əsasında insan dayanır. Yerdə qalanlar yekunlardır, ibrətlərdir.

Kamran ən azı on yaşından Stalinin varlığından xəbərdar idi. Başqa cür ola bilməzdi, insanların içdiyi suda, udduğu havada Stalin var idi. Bu nəhəng şəxsin arxasında Marks,

Engels və Leninin yumşaq deyilsə, suyu dağılmasın deyə ehtiyatla çəkilmiş portretləri fon rolunu oynayırdı. M.Bağırov onun Azərbaycandakı kölgəsi sayıla bilərdi. Əlbəttə, tiranların kölgəsi də təhlükəlidir. Çünki o kölgə Kamranın gözləri qarşısında çox başlar yemişdi.

Stalinin bütün diplomatik cəhdlərinə baxmayaraq SSRİ Birinci Cahan Savaşından yayına bilmədi. Nəinki yayına bilmədi, hətta heç iki il keçməmiş alman faşizminin əsas zərbə hədəfinə çevrildi.

Müharibə işinə, fəaliyyətinə uyğun olaraq hər bir ərazinin, hər bir insanın həyatına bir cür daxil oldu. Məsələn, Dövlət Müdafiə Komitəsinin qərarına əsasən altı min adamın çalışdığı Sumqayıtda tikinti dayandı. XVIII partiya qurultayının qərarı ilə tikintisi sürətlə aparılan sintetik kauçuk, boruyayma, alüminium zavodlarının inşaatı suyu sovrulmuş dəyirmana döndü.

**Novxanı, Qızılqaya.**

İndi Novxanıda, Qızılqayadakı payız artırmasında "dyadya Paşa" adlı qaynaqçının dediyi hardasa bir qədər əfsunlu kəlmələr qulaqlarında təkrar, elə o zamankı mübhəmliklə səslənir:

- Bu müharibə ölüm-dirim müharibəsi olacaq. Bəlkə də biz Urala qədər çəkilməyə məcbur olduq. Lakin təslim olmayacağıq...

...Hər halda onun söylədikləri düz çıxdı.

**Hekayət**

Kamran Hüseynov tapşırıq aldı. Sumqayıtda çalışanlar iş alətləri və texnikası ilə birlikdə Quzey Urala, Novotagelsk metallurgiya kombinatının tikintisinə aparılmalıdır.

Adamların üstündə o gedəcəkdi. Əsas vəzifə uzun yolda insan tələfatına yol verməmək, işçi qüvvəsini mənzil başına sağ-salamat çatdırmaq idi.

Müharibələrin öz qanunları var; təsəvvür edin salamat qalmaq da qəhrəmanlıqdır, öldürmək də... Halbuki, həyatda salamat qalmaq ən adi normadır, öldürmək ən qatı cinayət...

Müharibələrdə peşəkar icraçıları əmr hökmündə tapşırıqlar yönləndirir.

Kamran Hüseynov 30 yaşın astanasında əla icraçı idi. O, verilən tapşırığın məğzini dərindən anlayır, ən çıxılmaz vəziyyətlərdə belə özünü itirmir, yol tapır, dil tapır və təbii ki, sonda tapşırığı yerinə yetirir. Belə anlarda o, mahir bir oyunçuya bənzəyir. Çünki istedadla biliyi, Allah vergisi ilə reallığı əlaqələndirməyi və bu qovuşmada ən doğru yolu seçməyi bacarırdı.

Minlərlə insan eşelonlara doldurulub, onlar müharibənin törətdiyi aclıq, səfalət günlərində əziyyət çəkən ailələrinə bir parça çörək qazanmaq üçün deyil, vətəni qorumaq üçün yola düşürlər.

İnsanın taleyi öz əlində deyil, eşelona qoşulub.

Nə az, nə çox, Bakıdan ayrılan eşelon düz bir ay Urala doğru süründü. Çətin idi Kamran üçün, minlərlə insanı sınıb ruhdan düşmək nədi, acından ölməyə imkan verməmək, tək-tək kiminsə nazını çəkmək olmasa da, onları elliklə şaxtadan, çovğundan qorumaq heç asan deyildi.

Əzablı yolun yorğunluğunu sonda Ural meşələrinin sərt şaxtası qarşıladı. Hələ nəzərdə tutulan zavodların tikintisi başlamamışdı. Orda-burda atılmış dəzgahlar gözə dəyirdi. Bir ucdan isə SSRİ-nin sonsuz bucaqlarından eşelon-eşelon insanı, əmrdən çıxmağa ixtiyarı olmayan Sovet adamlarını daşıyıb tökürdülər bura...

**Salnamə**

"Güneydən gəlmiş, soyuğa dözümsüz, əynində isti paltarı olmayan nə qədər adam xəstələndi. Mənim də ayaqlarımı Uralda don vurdu. Hələ indi də onun altını çəkirəm."

**Müəllif**

Hərənin bir xasiyyəti var, mənim də belə bir kompleksim var ki, ağır təbiətli, cəmiyyət tərəfindən həqiqətən də sayılıb-seçildiyinə inandığım insanlara çətin yaxınlaşıram. Bu, məncə, şəxsiyyətə ifrat ehtiramın təzahürüdür. Haqlıyammı? Çox guman ki, hə.

Çünki seçilmiş insanlar içinə itaətlə girilən məbəd kimidir.

Sən malik olduğun sir-sifətlə, vid-fasonunla o seçilmiş insana yaxınlaşarkən ağzından çıxan hansısa bir bişməmiş sözlə günaha bata bilərsən. Seçilmiş insanlar ətrafa nur saçan çıraq kimidir, onun nurundan ehmal-ehmal hərarət al, görmək imkanı qazan, toxunsan ya əlin yanacaq, ya da çırağın şüşəsi çatlayacaq...

Kamran əmini ağlım kəsəndən tanıyıram. Onun adı bizim evimizdə elimizin-obamızın əziz adamı kimi çəkilirdi. Ən çox

da babam – öz zamanında briqadir, kolxoz sədri, dəyirmançı olmuş babam Həsənqulu oğlu Qabil deyirdi ki, bala, Kamran Hüseynov yaşda məndən uşaqdı, amma qənimət adamdı...

Sonra da mənə, 70-ci illərdə oxumaq üçün Bakıda yerbəyer elədiyi nəvəsinə deyirdi ki, heç nədən qorxub eləmə, vaxt tap, get Kamran Hüseynovun yanına, ona bizim ehtiramımızı bildir, atan İttifaqın dükanda kəmi çıxanda, yol tapıb getdim üstünə, kara gəldi (bizim Bəhmənli kəndinin ən sadəlöv, ən ürəyiyumşaq adamı, atam İttifaq balaca kənd mağazasının bütün mallarını çətin yaşayan kənd adamlarına nisyə verib ilişmişdi. Kamran Hüseynovun bu işin yoluna qoyulmasında hansı dərəcədəsə rolunun olduğunu güman etmirəm. Amma qapımızda, gömgöy çəmənliyin üstündə tərəzi ilə qızıl, zinyət əşyalarının çəkilib dəyər-dəyməzinə satıldığını xatırlayıram. Çox güman ki, nənəm, Maşad Səfəralının qızı Dilbər xanımın qoca sandığı qağamı (atamı) türmədən xilas elədi.

Dünyadan 37 yaşında köçən atamın nə zamansa bir dəftərçəsi əlimə düşmüşdü. O dəftərçə bəlkə də dünyanın ən yığcam dəftərçəsidir, çünki içində yazısı azdır, necə olmuşdusa, yazılı vərəqləri qopub tökülmüşdü. Dəftərçədə belə bir mətn vardı, kiril əlifbası ilə:

*Bismillahirrəhmanirrəhim! Əşhədü ənla, ilahə illəllah, əşhədü ənla Muhəmmədən rəsulillah. Əşhədü ənnə əliyyən vəliyullah. Ya haqq Allah, ya haqq Allah.*

*Sonra bu mətn gəlirdi.*

*Bismillahirrəhmanirrəhim. Ələhəmdu lillahi rabbil aləmin. Ərrəhmanirrəhim. Maliki yevmiddin. İyyəkə nabudu və iyyaka nəstəin ihdinəssıratəl müstəqım. Siratəlləzinə ən amte aleyhim qayrulmağdubi aleyhim və lad dalin. Qulfu Allahın əhəd, Al-*

*lahusamed. Ləm yəlid və ləm yuləd. Və ləm yekun ləhü küfü əhəd.*

*Allahın məsəlli əla Muhəmmədin və ali Muhəmməd...*

Bu duadan sonrakı səhifədə telefon nömrələri yazılmışdı: Qaçay Ələkbərov – filan nömrə, Zeynal Babayev – filan nömrə, Əmirov, Mamed Cuvarlı, Kamran Hüseynov – filan nömrə...

Görünür, saralmış, dama-dama xətli bu dəftərçə 50-60-cı illərə aiddir. Atamın alı təhsili olmasa da, o, savadlı idi. Dövrünün dəyərli ziyalılarına can atırdı, dostlarıyla səhər kənddən qatara minib Bakıya gəlir, Opera və Balet Teatrında, Muzkomediyada, Dram Teatrında hansısa bir tamaşaya baxıb, gecə qatarıyla kəndə qayıdırdı. Düzdür, mən atamın bütöv bir sutka ərzində itməyinin səbəbini bilmirdim, amma elə ki, gecənin bir yarısı o, ikimərtəbəli kərpic evimizin qapısını cırıldadıb içəri girəndə babam gün boyu oğlunun yolunu gözləyəndən sonra şahmar ilan kimi yataqdan sıyrılıb onu danlayanda, anlayırdım ki, məsələ nə yerdə imiş...

Söz uzandı... Mən andıra qalmış utancaqlıq səbəbindən heç vaxt Kamran əmiyə yaxınlaşmadım, hətta imkanım olduğu halda qapısını döyüb onu narahat etmədim.

Sonralar hardasa il yarım-iki il civarında bu böyük insanı müşahidə etmək imkanı yarandı. Azərbaycanın ən qarışıq zamanda hər ikimiz Mərkəzi Seçki Komissiyasının üzvü olduq. Biz indiki komissiya üzvlərindən fərqli olaraq orada maaş-filan almadan çalışırdıq, ictimai əsaslarla... Bu barədə lap sonda danışacağam.

Hələlik onu deməliyəm ki, 2000-ci illərin əvvəllərində onu görüb yaxınlaşdım, salamlaşdım, artıq o, məni tanıyırdı. Və gördüm ki, əlində əsa var. Yenə də laydivar kimiydi, əzəmətli, üzü nurlu...

- Əmi, - dedim, - bu əsa hardan çıxdı, maşallah, gümrahsınız...

- Uralın yadigarıdı, bala, 50 il qabaq orada ayağımı don vurmuşdu...

O vaxt Kamran Hüseynovun "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür" kitablarını oxumamışdım və donvurma əhvalatından xəbərsiz idim.

***

Ona fəhlə qüvvəsini Uralda yerbəyer edəndən sonra dərhal Bakıya dönmək tapşırığı verilmişdi. Don vuran ayağını ovuşdura-ovuşdura, necə ki gedəndə zülüm çəkmişdi, elə o zülümlə də geri - Bakıya qayıtdı. O Bakıya ki, döyüşən əsgərlərin süd verən inəyi misalına gəlmişdi. Cəbhə Bakını aşıq-aşkar sağırdı... Ancaq durduğu yerdə Ana Azərbaycanın sağmal inək olmağı beş-altı milyon insandan heç kimin ağlına gəlmirdi. Çünki Böyük Vətən ölümlə üzləşmişdi. Onun boğazına qaşıq-qaşıq da olsa, süd tökmək lazım idi. Mənfur düşmənin qabağında duruş gətirə bilmək naminə...

**Hekayət**

Tapşırıq tapşırıq dalınca gəlirdi. Uraldan çıxandan qarma-qarışıq yollar keçəndən sonra Bakıya düşüb Montindəki evinə təzəcə yetişmişdi. Boynuna sarılıb üzündən rahat öpsünlər deyə anası Lalə xanımın, bacılarının, tək qardaşı Gürşadın, bir az irəli ailə qurduğu Zeynəb xanımın önündə heç vaxt əyilməyən qəddini əymişdi, ana əliynən bişən xörəyin dadına baxıb azca dincəlmişdi ki, yeni tapşırıq gəldi.

İndi böyük yaradanın özü də tapşırığa müntəzir əsgər idi.

Ev kədərə büründü.

Necə ki əzablı yollar keçəndən sonra onun bu evdə olmağı rahatlıq gətirirdi, eləcə də onun bu evdən çıxıb tapşırığı yerinə yetirməsi əsgər ailəsinin həyatının nizama düşməsi üçün yeganə səbəb ola bilərdi.

...Verilən tapşırığa görə Kamran briqadaları götürüb Quzey Qafqaza yollanmalı, orada zavodların avadanlıqlarını söküb Bakıya gətirməli idi. Avadanlıqlar Bakıdan Orta Asiyaya aparılacaqdı. Həmin dəzgahların bir qismi burada qalacaq, onun hesabına müəyyən qədər hərbi sursat, ləvazimat istehsal olunacaqdı.

Kamranın yeni təyinatı da belə idi. O, "1 May" maşınqayırma zavodunda işləyəcəkdi. "Katyuşalar"- aviasiya bombası düzəldəcəkdi. Amma necə? Zavodun adı var, özü yox. Üstəlik, yeni tapşırıq üçün əlavə vasitələr lazımdı. Ən pisi o idi ki, fəhlələr yarımcan idilər. Onlara günorta tənək yarpağı, axşamlar turp qaynadıb verirdilər. Hitler isə dişindən-dırnağınacan silahlanıb isti paltarlı, isti xörəkli əsgərlərini ruhlandıraraq şığıyıb gəlirdi...

İndi adını xatırlamadığı köməkçilərindən kimisə yanına çağırıb dedi:

- Belə getməz. Tədbir görməliyik!

- Necə, Kamran Əsədoviç?

- Fəhlənin qarnını doyurmalıyıq. İş cəhənnəm, onlar acından qırılacaqlar.

- Neyləyək, Kamran Əsədoviç?

O, məsələni az-çox ağlı kəsən adamlarla müzakirə eləyib araşdırdı. Xoşbəxtlikdən (ən qatı fəlakətin də içində işartısı

olur) əkin vaxtıydı. Neftli sisternlər yuyulandan sonra boşuna axıdılan Şollar suyunun mazutdan təmizlənməsi hesabına bostan salmaq barədə tapşırıq verdi.

Bir dəstrə adam Xəzərdən balıq tutmaq üçün ayrıldı.

Bir dəstə adam Dəvəçi tərəflərə ov ovlamağa göndərildi.

Üç-dörd aydan sonra Kamran Əsədoviçin fərasəti sayəsində "1 May" zavodunun yeməkxanasında 30 min fəhlə üçün xörək bişirilirdi. İstehsal artırdı. Zavodun adı dillərdə dolaşırdı. Yerli camaat bir qırağa, partiya tərəfindən bu müəssisəyə səlahiyyətli şəxs təyin edilən Kamranın gördüyü tədbirlər hesabına burada SSRİ-nin müxtəlif regionlarından göndərilən uşaqlar da bəslənirdi.

**Salnamə**

"Alman faşizmi SSRİ-yə basqın edəndə, onların ilk arzusu Ukrayna torpağını zəbt etmək , onun münbit-bərəkətli torpağına, təbii sərvətlərinə sahib olmaq idi. Ancaq faşistlər vəhşicəsinə qarətdən başqa, millətin genofonduna da zərbə vurmağa çalışırdılar. Odur ki, Sover hökuməti oradan körpə uşaqları Şərq rayonlarına köçürürdü. Azərbaycana da bir qədər uşaq gətirmişdilər. Mənim işlədiyim "1 May" zavoduna (indiki Bünyad Sərdarov adına maşınqayırma zavoduna) (qeyd: deyəsən indi ümumiyyətlə belə bir müəssisə yoxdur və ya yox kimidir. V.B.) bir qrup oğlan uşağı gətirilmişdi. Onlar zavodun yataqxanasında, zavod hesabına yaşayırdılar. Onların qayğısı ilə mən məşğul olurdum. Hələ Xarkovda oxuduğum zaman ukraynalı yoldaşlarla Zaparojyenin Sumi vilayətində olmuşdum. Görürdüm ki, onlar uşaqlara çoxlu süd içirirlər. Biz zavodda bu qədər südü haradan alacaqdıq?

Bir inək aldıq. O inəyin südü uşaqlara yetirdi. Onlar gözümün qabağında böyüyüb boy atırdılar. Bir az böyüyəndən sonra yeniyetmələr yaşlı ustaların yanında sənət öyrənməyə başladılar. Onları meyvə, yemiş, qarpızla da təmin edirdik. Mənə doğma övlad kimi isnişmişdilər... Çox sağlam uşaqlar idi... Ukrayna azad olan kimi əyin-başlarını düzəldib evlərinə yola saldıq."

**Hekəyət**

Tapşırıq tapşırıq dalınca gəlirdi...

Və daha bir tapşırıq...

1943-cü il oktyabrın 20-si. Otuz yaşının tamamına ay yarım qalan Kamran Mərkəzi Komitənin ikinci katibi P.F.Çeplakovun kabinetinə MK-nın katibi Qəzənfər Məmmədov, Bakı şəhər partiya komitəsinin katibi Ələşrəf Əlizadə, MK-nın şöbə müdiri Səfi Heydərli, ədiblərdən Səməd Vurğun, Mehdi Hüseyn, Əhməd Cəmil və rəssam Kazım Kazımzadə ilə eyni vaxtda daxil oldu. Kabinetin yiyəsi və kabinetə təşrif buyuranların kimlər olduqlarını bilirsiniz artıq. Kamran o vaxt "1 May" zavodunda Ümumittifaq Kommunist Partiyasının nümayəndəsi idi. Və o vaxtlar azərbaycanlılardan ibarət bir neçə diviziya almanlara qarşı döyüşürdü. Nümayəndələr tapşırığa əsasən həmin döyüşən hissələrə getməli, əsgərlərdə ruh yüksəkliyi yaratmalıydılar.

1943-cü ilin sonlarında Bakıdan vaqonlarda dövlət adamlarının, ədiblərin olduğu bir qatar yola çıxacaq. Paravozu sürən öz yerində, içinə insanlar, ərzaq, müharibə qaydalarına uyğun hər cür gərəkcə yığılmış qatarın rəhbəri o olacaq;

Kamran Hüseynov. Bəlkə də o özünün otuz yaşını, deyəsən, ölümün üstünə gedən bu qatarda qarşılayacaqdı. Bəlkə də həmin vaxtlarda Bakıdan cəbhəyə uzanan qan damarını parçalamaq üçün almanların yağdırdığı bombalardan bircəciyi bu eşelonun üstünə düşəcəkdi. Bəlkə də onların adı amansız müharibə yollarında şəhid olan milyonlarla insanların ölüm statistikasını tamamlayanların sırasına yazılacaqdı ...tələsməyək. Eşelon hələ Bakı (bəlkə də Biləcəri, Xocasən) duracağında gözləyir.

Buna qədər başqa bir vacib görüş olmuşdu. Qələmə aldığı salnaməyə görə Kamran əmi, İosif Stalini çıxmaq şərtilə, Azərbaycanın şəriksiz sahibi Mircəfər Bağırovla ikinci dəfə görüşmüşdü.

İkinci katib P.Ş.Çeplakov Krım döyüşündə təzəcə ağır yaralanıb qayıtmış Məzahir Abbasovun da nümayəndə heyətinə qoşulub əsgərlərin görüşünə gedəcəyini, eşelona vaxtı ilə 6 min nəfəri Sumqayıtdan Urala sağ-salamat aparan Kamran Hüseynovun rəis təyin olunduğunu bildirəndən sonra, elə onların yanındaca M.Bağırova zəng edib cəbhəyə gedən yoldaşların yanında olduğunu bildirdi. Telefonun o başından cavab gəldi:

- Durun gəlin yanıma.

Getdilər.

Müzakirə bir saata qədər çəkdi.

Bağırov arada Kamranı ayağa qaldırdı.

- Yoldaş Hüseynov, - dedi – bu çox vacib səfərdi. Əsgərlərə ruh yüksəkliyi ərzaq, silah qədər vacibdi, anlayırsan bunu?

- Bəli, yoldaş  Bağırov.

Bağırov:

- Mahaçqalada bizim eşelona daha iki vaqon qoşulacaq. Vaqonları 416-cı diviziyanın tərkibində kavaleriya eskadronunun komandiri Əbilova təhvil verərsiniz. Başa düşdün?

- Bəli.

...1943-cü il oktyabrın sonlarında Bakıdan bir eşelon üzü cəbhəyə doğru hərəkət eləməyə başladı. Keçən dəfə Urala gedəndə eşelonun yükü güc idi, indi isə o eşelonda ağıl və intellekti aparırdı ön cəbhəyə, 416-cı diviziyada Azərbaycan oğullarının döyüşdüyü yerə.

Və bu qatarın təyin olunmuş məntəqəyə çatmağı əməllibaşlı məzhəkə, əsəbləri tarıma çəkən oyun oldu. Hər dəqiqə bombalanmaq qorxusu, stansiyalarda aclıq və səfalət!

Kamran əmi o hadisənin üstündən 60 il keçəndən sonra başına gələn müsibəti qələmə alacaq və yazacaq ki, "ümumiyyətlə gedib gəlməyimiz haqqında bir əsər yazmaq olar". Əslində isə "Quruculuğa həsr olunmuş ömür" kitabında o bu əhvalatı əsl yazıçı dili ilə qələmə ala bilib. Bəlkə də biz o qeydləri peşəkar nəsr fəndləri ilə daha da genişləndirə, ədəbi baxımdan qüvvətləndirə bilərdik. Və bu zaman Kamran əminin təhkiyyəsinə məxsus koloriti, şirinliyi saxlamaq mümkün olacaqdımı? Yox, bir də yox... Elə bu səbəbdən həmin hissəni yazıldığı şəkildə buraya əlavə etmək ən doğru seçimdir.

### Salnamə

MK-dakı danışıqlarda adımın çəkilməsi və məsul işin tapşırılması məni çox böyük təşvişə salmışdı. Bu qədər görkəmli adamları müharibə yolları ilə aparıb-gətirmək çox

xatalı iş idi. Çox böyük çətinliklə, yollarda günlərlə dayana-dayana gəldik, Batayski stansiyasına çatdıq. Orada manevr paravozu bizim eşelonu darta-darta aparıb bir dalana atdı. Sonra dəmiryol fəhlələri məni başa saldılar ki, Taman adasından diviziyaları çıxarıb Zaporojyeyə, Krım boğazına aparırlar ki, almanları Krımdan çıxmağa qoymasınlar. O ki qaldı sizin burdan getməyinizə, heç bir imkan olmayacaq. Bir də fəhlələr dedilər ki, bütün cəbhələr üçün daşınan yanacaq buradan keçir. Bu gecə bura çox böyük basqın olacaq. Başınıza çarə qılın.

Fəhlələrlə danışmaq mümkün deyildi. Onlar ac idilər, yuxusuzdular, adamı sözlə zəhərləyirdilər. Heç biri böyük-kiçiyin də adını eşitmək istəmirdi. Mən özümlə bir neçə qutu "Kazbek" siqareti götürmüşdüm. Gördüm ki, onların papirosa, yeməyə çox ehtiyacı var. Bir fəhlə dedi: - Mən dünəndən acam.

Bir "Kazbek" paçkasını briqadirə verəndə qalanları quzğun kimi onun üstünə töküldülər.

Fəhlələrə dedim ki, briqadirə dəyməyin. Mən sizin hamınıza həm papiros, həm də yemək verəcəyəm. Bu söz fəhlələrin mənə münasibətini yumşaltdı. Onlara bir neçə ət və balıq konservi, bir-iki şüşə də içki verdim. Briqadir dedi ki, sizdə qardaşlıq, dostluq görürəm. Sən fəhlə adamına oxşayırsan. Biz indi çalışacağıq ki, sizin eşelonu dalandan çıxarıb general Sevestyanovun gecə gedən eşelonun quyruğuna bağlayaq, ancaq bunu stansiyanın rəisi bilməlidir. Briqadir dedi ki, mən ona deyəcəyəm səni qəbul etsin.

Ancaq rəisin də nə yeməyi vardı, nə papirosu. Briqadir məni çox çətinliklə onun yanına saldı. Mən də yemək, papiros barədə hazırlıqlı getmişdim.

Mən bu stansiya rəisinin otağında nə müsibətlərin şahidi oldum! Marşal Jukovun nümayəndəsi Malinovski, Talbuxin,

Konev əllərində tapança yapışmışdılar stansiya rəisinin boğazından. Biri deyirdi, bizim yanacaq eşelonunu tez burax, ordu hücuma keçir; o biri nümayəndə də özununkünü tələb edirdi. Bu gərgin şəraitdə rəisə hansı hissəyə, hansı eşelonu, nə vaxt, hansı ardıcıllıqla yola salacağını deyən briqadir fürsət tapıb qulağıma pıçıldadı: "Rəis deyir ki, o biri otaqda məni gözləsin". Orada rəis mənə dedi:

- Görürsünüz, cəbhələrin nümayəndələri hərəsi bir yandan mənimlə tapança ilə danışırlar.

Dedim:

- Görürəm, çətinliyiniz çoxdur! Bizim eşelonda respublikanın ən görkəmli adamları gəliblər. Özünüz də deyirsiniz, stansiyanın müdafiəsi zəifdir. Gecə bura basqın olacaq. Bizi buradan çıxarın.

Rəis briqadirin üstünə qışqırdı:

-Nə bacarırsan kömək elə!

Briqadir də elə bu sözü gözləyirdi. Dedi ki, yanacaq eşelonlarına yox, ancaq general Sevestyanovun eşelonuna qoşmaq olar.

Rəis ucadan qışqırdı:

-Mən bilmirəm, nə bacarırsan elə!

Rəis üçün apardığımız xırda-para şeyləri qoyduq qapıdakı stolun üstünə, getdik. Briqadir dedi:

-Siz nə alicənab adamsınız! Gördünüz ki, o cəbhə nümayəndələri cənablar maraqlanmadılar ki, bu gecə-gündüz işləyən adam öz ailəsini necə dolandırır. Onların vəziyyətləri çox ağırdı. Heç bir təchizat yoxdu.

N.K.Baybakov Kubada olanda Fidel Kastro xəbər alır ki, necə oldu, siz İkinci Böyük dünya müharibəsində qələbə çaldınız? O, cürbəcür səbəblər gətirir. Fidel razılaşmayıb

deyir: “Sizin qələbənizin əsas səbəblərindən birincisi – Bakıdan gələn yanacaq və sursat oldu”.

Bakıdan gələn eşelonun tərkibində iki Dağıstan vaqonu da var idi. Onlar sağ-salamat süvari eskadronu rəisi Əbilova çatdırıldı.

Dağıstanlılar konserv, meyvələr, cürbəcür içkilərdən başqa, çoxlu cəmdək də göndərmişdilər. Onlar qoyunu payızda, onun kök vaxtında kəsib duzlayıb, gündə qurudur, yaza qədər ondan istifadə edirlər. Elə cəbhəyə də o cür ət göndərmişdilər.

Mən briqadirə öz minnətdarlığımı bildirdim. O bizim eşelonu dalandan çox çətinliklə çıxardı. Hazır qoydu ki, o gecə gələn hərbi eşelonun quyruğuna bağlasınlar. Eyni zamanda dedim ki, bizim eşelonda kerosin, yanacaq, su qurtarıb. Bizə onları verməkdə kömək edin. O da öz işçilərinə həll olunmasını tapşırdı.

Biz Batayskda gecə eşelona qoşulanda Danil Piri oğlu Quliyevin qardaşlarını gördük. Onlar mütləq Səməd Vurğunla görüşmək arzusunda idilər. Gecədən çox keçmişdi. Mən vaqonun konduktoru üçün ayrılan kupedə qalırdım. Qapı bərk döyüldü. Gördüm ki, Səməd Vurğundur.

Dedim:

-Ay lələ, nə olub bu gecə vaxtı?

Dedi:

-Burada qalacağam.

Tez yer düzəltdim. Dedim ki, bura sizə qurbandı, buyurun. – Termosdan çay süzdüm. Bir az sakitləşəndən sonra xəbər aldım:

-Nə olub, qanın qaradır?

Vaqon yoldaşlarından gileyləndi:

-Mən onlarnan yol getmək istəmirəm.

S.Vurğun işığı yandırıb vaqonda kitab oxuyanda Qəzənfər Məmmədov xəbər alıbmış ki, o nədir ki, oxuyursunuz? Səməd deyir ki, S.Rəhimovun "Şamo" romanıdır. Qəzənfər: "O nə əsərdir ki, onu oxuyursan!" S.Vurğun kitabı silkələyə-silkələyə ona qəti cavab verir: "Sən heç nə bilmirsən! "Şamo" Azərbaycan ədəbiyyatının ən görkəmli əsərlərindən biridir". Səhər tezdən Ələşrəf Əlizadə və Heydərli Səfi gəldilər, şairin könlünü alıb, xahiş-minnətlə yenidən öz kupesinə qaytardılar.

Belə bir müsibətlə gecə Rostov vilayətindən Ukrayna ərazisinə çatdıq. Çistiyakovo stansiyasında general Sevestyanov xəbər tutdu ki, onun eşelonunun quyruğunda başqa bir eşelon da var. Qatarı tezcə dayandırıb bizim eşelonu açdırdı. Ancaq buraya qədər gəlməyimiz də qənimətdir. Ölüm-dirim zonasından çıxmışdıq. Öz-özümə deyirdim: Bu nə yük idi mənim boynuma qoydular?! Bizim "ağalar" da vaqondan düşmürlər. Heç bir çətin hadisədən də xəbərləri yoxdur. Yeyib-içib, domino oynayırlar. Mənim vəziyyətimlə yalnız Məzahir Abbasovla Əhəd Cəmil maraqlanırdı. Çistiyakovo stansiyasından Zaporojye vilayətinə bir neçə yüz kilometr yol vardı. Hamısı da təhlükəli. Faşist təyyarələri Krımdan qalxıb o yolları, şəhərləri bombalayırdı. Cəbhəyə Bakıdan gələn yanacaq eşelonlarını da dağıltmaq istəyirdilər...

Bərk narahat idim ki, indi biz buradan necə çıxacağıq. Bu stansiyada xoşbəxtlikdən bir vaqonda ailəsi ilə Melitopola dəmiryol idarəsinin rəisi təyin olunmuş adam ilə tanış olmuşduq. Ancaq onun elə bir səlahiyyəti yox idi. Nisbətən adı, hüququ var idi. Çox çətinliklə Veliki Tokmağa gedən bir

yığıntı qatara qoşulduq. Ora çatmamış, axşam saat 8 radələrində yenə də bizi qatardan açdılar. Gördüm, hamı bu stansiyadan qaçışır. Səbəbini soruşdum:

-İki gündür ki, faşistlər biliblər ki, bu yollarla Bakıdan cəbhələrə sursat, yanacaq daşınır. Buraları dağıtmaq istəyirlər.

Yenə də Batayski metodundan istifadə etməyə başladım.

Üzümü fəhlələrə tutdum: "Bəs sizin insafınız hardadır ki, bizi odun içində atıb qaçırsınız?!" Fəhlələr isə dedilər ki, parovozun maşinistini görün. O, heç olmasa, sizin eşelonu sürüyüb buradan 50-60 km uzaqlaşdırar.

Çox sağ olsun maşinist. O, parovozu qoşub bizi xatalı stansiyadan 100 km-ə qədər kənara, Valna-Vaxaya tərəf çıxardı. Elə özü də stansiyadan qaçmalı idi.

Həmin gecə faşistlər biz çıxan stansiyanı atəşə tutub darmadağın etdilər.

Sonra çox çətinliklə də olsa, 416-cı Taqanrok diviziyasının qərargahına gəlib çatdıq. Diviziyanın komandiri general-mayor Sızranov, siyasi şöbənin rəisi Rəşid Məcidov bizi sevinclə qarşıladılar. Diviziya Bolşaya Beloazorskaya deyilən məntəqədə yerləşirdi. Burada nümayəndə heyətini bölüşdürdülər diviziyanın müxtəlif hissələrinə. Səməd Vurğun, Əhməd Cəmil, Kazım Kazımov və mən bir yerdə getdik 868-ci polka. Gecə idi. Polkun siyasi şöbəsinin rəisi Mirağa Əliyev bizi səmimi salamladı. Gecə hərbi hissələrlə bizi tanış eləyən məşhur artilleriya divizyonunun qərargah rəisi Əbdülrəhim bəyin qız nəvəsi idi. Bu əhvalat Səməd Vurğunu coşdurdu. O dedi:

-Ayə, düşmənlərə bir atəş aç görüm!

Zabit dedi ki, Səməd qağa, biz xəlvəti ümumi hücuma hazırlaşırıq. Mənim bir atəşimə düşmən minanı başımıza yağdırar. Elə bilər ki, biz hücuma keçirik. Həm də mənim buna ixtiyarım çatmır.

Bu polka getməyimiz təsadüfi deyildi. Orada Cəfərov Ağaşirin adlı sıravi bir əsgər Melitopol döyüşündə Sovet İttifaqı Qəhrəmanı adını almışdı. Mirağa Əliyev çox çalışdı ki, ona təzə hərbi paltar alsın, Ağaşirinin bizimlə qısamüddətli də olsa, məzuniyyətə göndərilməsinə nail olsun.

Mirağa Əliyev diviziyada çox hörmət qazanmışdı. Onların polkundan Sovet İttifaqı Qəhrəmanı adını birinci dəfə Cəfərov Ağaşirin almışdı. Müharibədən sonra Mirağa çox görkəmli dövlət, partiya işçisi kimi ad qazandı.

Yazıçıların, incəsənət işçilərinin çıxışları, xüsusən Səməd Vurğunla görüşlər həddən ziyadə mehribanlıqla qarşılanırdı. Hərbi hissələrdə əsgər və zabitlər Səmədlə görüşmək istəyirdilər. Nümayəndə rəhbərləri marşal Talbuxinin görüşündə və başqa hissələrdə oldular. Talbuxin demişdi ki, siz gələn yollarda gecə bərk hava hücumu olub. Xeyli tələfat baş verib. Çox şükür olsun ki, oradan sağ-salamat çıxmısınız.

Elə orada Səməd Vurğun deyib ki, bizim bir əzabkeş yoldaşımız həmin gecə bizi o dağıdılan stansiyadan hava hücumundan bir az qabaq çıxara bilmişdi. Onun bütün yol boyu zəhməti nəticəsində gəlib çıxa bilmişik. Marşal Talbuxin Məmmədov Qəzənfərə deyib ki, Stalinin əmri var. Biz gecə-gündüz hücuma hazırlaşırdıq ki, Dnepr çayını keçək. Mən də Zaporojye vilayətinin Dunyovka kəndində idim. Marşal Talbuxin deyir ki, mənim bir dəqiqə də vaxtım yoxdur başqaları ilə görüşməyə. Marşal deyirdi ki, sizi sağ-salamat gətirən

yoldaşa mənim təşəkkürümü çatdırın. Yəni mənə. Lakin Qəzənfər tapşırığı ağzının ucu ilə könülsüz dedi. Deyəsən, bir az da təbli idi. Özümüz ilə təzəcə qəhrəman adı almış Ağaşirin Cəfərovu da gətirməliydik.

Döyüşçülər Səməd Vurğunun gəlməsini eşidib çox xahiş edirdilər ki, mütləq onunla görüşsünlər. Səməd Vurğun da ayağında çəkmə, əynində şinel gecə-gündüz döyüşçülər arasında idi.

Məzahir Abbasovun da döyüşçülərlə görüşlərini təşkil edirdik, əsgərlər onu da hərarətlə qarşılayırdılar.

Mirağa Əliyev oraya çatan hədiyyələrin iki qutusunu qaytarıb verdi mənə və xahiş etdi ki, Bakıda verək onun uşaqlarına. Mən də məmnuniyyətlə hədiyyələri Bakıda onun ailəsinə çatdırdım. Uşaqları indi də məni gördükcə minnətdarlıqlarını bildirirlər...

Geriyə qayıtmaq da nümayəndə heyətimizin qarşısında çətin bir vəzifə kimi dururdu. Təchizatımız qutarmaq üzrə idi. Heç bir baza yoxdu ki, oradan azuqə götürək. Əlimizdə olanı çox qənaətlə işlətməkdən başqa çarə yox idi. Oradan yalnız çoxlu kartof əldə edə bildik. Yolda onun bizə köməyi çox oldu. Böyük çətinliklə Bakıya gəlib çatdıq. Hərə öz evinə getdi. Bizimlə gələn cəbhə qəhrəmanı Ağaşirin Cəfərov mənim evimdə iki gün qalmalı oldu.

***

Müharibə gedirdi. Zavod və fabriklərdə qocalar və yeniyetmələr işləməli olurdular.

Mən Binəqədidə qırıcı batalyonun komandiri idim. Bakı-Sumqayıt-Siyəzən həndəvərində cəbhə xətti çəkilirdi. Külli miqdarda adamı ora aparıb, səngər qazdırırdıq ki, işdir, almanlar Bakıya hücum etsələr, tankların qabağı kəsilsin.

Beləcə gəlib 1944-cü ilə yetişdik. Vəziyyət tamam dəyişdi. Dövlət Müdafiə Komitəsi qərar qəbul etdi ki, Sumqayıtda inşası dayandırılmış zavodların tikintisinə yenidən başlanılsın. Müharibədən əvvəl Sumqayıtla məşğul olanları axtarıb arayırdılar ki, kim ölüb, kim qalıb, kim haraya gedib... Məni "1 May" maşınqayırma zavodunda tapdılar. Mərkəzi Komitəyə çağırıb dedilər ki, yenə Sumqayıta qayıtmalısan. Gedin, yenidən kollektivi yığıb işə başlayın, zavodların tikinisini davam etdirin.



Tribunada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev,
ikinci sırada soldan üçüncü Kamran Hüseynov



Heydər Əliyev Kamran Hüseynova
Qırmızı Əmək Bayrağı ordeni təqdim edir. 1975



Kamran Hüseynov



Kamran Hüseynov həmkarları ilə əməkçilər arasında



Kamran Hüseynov



Neftçalada ovda. Sağdan: V.Yakovleviç, K.Hüseynov,
tanınmış ovçu Melniçenko. 1953



Kamran Hüseynov görkəmli alim,
ictimai xadim İmam Mustafayevlə. 23 may 1955



Sov.İKP XXII qurultayının nümayəndələri arasında





Soldan: Kamran Hüseynov, akademik Yusif Məmmədəliyev,
Nazim Hacıyev, Oleynik (Xəzər donanmasının komandiri)



K.Hüseynov əsgərlər arasında



Tarixə ehtiram mənəvi borcdur



Kamran Hüseynov məşhur ədəbiyyat və
incəsənət xadimləri arasında



Əli Vəliyev, Kamran Hüseynov, Süleyman Rəhimov



Kamran Hüseynov





Ömrün şəkillərə köçən anları



ÜHİMŞ sədrinin katibi Kamran
Hüseynovun həyatından anlar...









Sov.İKP MK-nın Baş katibi Leonid İliç Brejnev
Kamran Hüseynovu təltif edir



ÜHİMŞ-in katibi Kamran Hüseynov rəyasət heyətində



Kamran Hüseynov iş zamanı



Kəlbəcər. İstisuyun tikintisi



Kamran Hüseynov

## AHİMŞ-nın sədri Kamran Hüseynov






# İsmayıllı rayonunda









Kamran Hüseynov



Mingəçevir. Sarvan Salmanov, Əliş Ləmbəranski,
Kamran Hüseynov və başqaları



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
Kamran Hüseynovu təltif edir



Şərəfli ömrün şərəfli anları -
Heydər Əliyev və Kamran Hüseynov





Novxanı. Qızılqaya. Ömrün ahıl çağları

# İkinci fəsil. Yay.

Həyatın hərarəti yüksəlir. Bərkimə. Böyük dünya ilə təmas. Əlvida, Moskva. Salam, Bakı. Yay fəsli təqribən 25 il çəkdi...

**Yeri gəlmişkən**

Onun bürcü oxatandır. Aradan keçən 30 il göstərir ki, bacarıqlı insan öz bürcünü doğruldur. Oxatan bürcü od ünsürüdür. Bu bürc altında doğulan kişilər mərd, özünə inanan, impulsiv, ağıllı, filosof, optimist, həmişə udmağa can atan, idealist, həyatda düzgünlüyün qalib gəlməsinə inanan adamlardır. Onlar doğru danışar, yalanlara nifrət edərlər.

Oxatanlar arzulamağı, plan qurmağı, gəzib dolaşmağı, səyahəti sevərlər. Çox istedadlı olduqları üçün hansı işə əl atsalar, o işin ustası olarlar.

Onlar səmimi, qəlbiaçıq, cürətli, cəsurdurlar. Həyatda uduzsalar belə, təbiətcə optimist olmaları onların gələcəyə inamını hifz edir. Uşaqlarını çox sevərlər, ünsiyyətcil və istiqanlı olarlar...

**Deyilmişdir**

"Yaşamaq mübarizə aparmaq, mübarizə aparmaqsa, yaşamaqdır."

*P.Bomarşe*

"İnsanda üç ən şərəfli cəhət – cəsarət, ağıl və düzlükdür."

*Konfutsi*

"İnsan kərpic kimidir,bişdikcə möhkəmlənir."

*B.Şou*

"Hətta tanrılar da keçmişi dəyişə bilmir."

*Aqafon*

**Şeir**
Dünyada gör necə kişilər vardı
Dünyadan gör kimlər
köç etdi, qardaş?
Bu dünya nədir ki? –
dünənin ardı,
Kişidən kişiyə keçiddi, qardaş!

**Şeir**
Üstünə şığıyan vaxt –
qaynar ütü,
Baxmır ki, uşaqsan,
gəlmisən kənddən.

Halal xoşun olsun ananın südü
Səni sağ çıxartdı hər fəlakətdən...

**Novxanı. Qızılqaya**

Payız Novxanı bağlarının həqiqətən də qızıl dövrüdür. Hər tərəfdən əl-ayaq çəkilir. İnsanları dənizə, oradakı əyləncə yerlərinə, çimməyə... daşıyan maşınların nəriltisi-gurultusu eşidilməz olur. Adətən oktyabrdan sonra, bəlkə də noyabrın ortalarından yağışlar başlayır, əvvəl saralan, sonra qaralıb mixək rənginə çalan yarpaqlara ayaq toxunduqca xışıltının səsi, yalan olmasın, üç-dörd bağ o yana yayılır. Yəqin, ideal sakitliyə görə belə olur. Elə ki, xəzri, gilavar növbələşməyə başladı, adamlar doluşur evlərin ən dibdəki yel tutmayan küncünə. Ya odun, ya qaz sobaları alışır. İndi heç buna ehtiyac yoxdu. Çox adam "kombi" deyilən istilik sistemi

quraşdırıb. İl payıza dönəndə düyməni basıb yandırır, bir də yaz girib, gün işığı dörd bir yanı isidəndə söndürürlər. Nə hisi var, nə pası...

Kamran əmi küləyi bir o qədər də xoşlamır. Çünki 20 yaşına qədər böyüdüyü Çərəli təbiətində külək nadir hallarda əsirdi. Eləcə gah Həkəri, gah Bərgüşad, gah da Araz tərəfdən təmiz su ətri verən meh insanların üzünə-gözünə ehmalca sığal çəkir, boyun-boğazları tumarlayardı. Bəzən, üç ildən, beş ildən bir qara tufanların baş qaldırmağı da var dağ kəndlərində. Külək elə şiddətlə hücum çəkir ki, deyirsən bəs indicə dünya məhvərindən çıxacaq. Çox olub ki, elə qorxunc tufanlarda əsrlərlə yaşı olan palıd, tut ağacları kökündən qopub, tirlənib torpağın üstünə.

Hər yerin öz təbiəti var... Hamısı da sirli, möcüzəli...

Mən bir dəfə gözəl şairimiz Məmməd Aslanla Naxçıvana uçdum, orda mərhum jurnalist dostum Məmməd Məmmədov bizi qarşılardı, Sədərək keçidindən Türkiyəyə adladıq. Orada bizi türkiyəli dostlar gözləyirdilər. Ağrı dağının (Ararat) ətəklərindən ötüb keçirdik. Ağrı dağı dumana bürünmüşdü. Məmməd Aslan fotoaparatı hazır tutub dumana, Ağrı dağına yalvarırdı ki, örpəyini o yana eləsin, şair də beş-on şəkil çəksin. Boynuma alıram, o zamana qədər mənə elə gəlirdi ki, Ararat Ermənistanın ərazisindədir. Amma indi görürdüm ki, Araratın – Ağrı dağının Ermənistana qətiyyən dəxli yoxdur, Türkiyənin içərilərindədir. Ağrı dağı Ermənistandan Naxçıvana daha yaxındır. Sadəcə ermənilər olduqları yerdən durub baxanda Ağrı dağı görünür. Həyasızlığın dərəcəsinə bax, özünün olmayan dağı özününkü kimi bütün dünyaya tanıdanlara daha nə ad verəsən? Özü də ağlı başdan çıxaran "Ararat" konyakının gücünə.

Məmməd müəllim dağa yalvarmağında olsun, Ağrı dağı bir qədər arxada qalandan sonra yanımda əyləşən türk arkadaş dedi ki, indi biz Doğu Bayazidi keçəcəyik, bir azdan "sınıra" çatırıq. Mən bilirdim ki, "sınır" türk ləhcəsində sərhəd deməkdir. Təəccüblə soruşdum:

- Əfəndim, biz ki sınırı çoxdan keçmişik, Sədərəkdə.

- Bu sınır o sınırdan deyil, abi, bu doğal bir sınırdır.

Ağrı dağının başını bürüyən duman-sisi nəzərə almasaq, biz yazın əvvəlində günlü-günəvərli yazın ortasından keçib gəlmişdik. Kərəminə şükür, İlahi, sınır deyilən o dikə qalxanda həqiqətən də möcüzə baş verdi. Düz sınır xəttində, Allaha and olsun, bircə metr o yan bu yan olmadan elə bir qara düşdük ki, göz gözü görmədi... Geri dönəndə də həmin möcüzə olduğu kimi qalırdı, bu dəfə əksinə, oranı keçən kimi yenidən günəvərli, isti havaya düşdük...

Bakının havası isə demək olar ki, sınırsızdı, başqa sözlə, qatışıqdı; bəzən bir günün içində dörd fəsil yaşanır...

Amma adam hər havaya öyrəşir.

Bir türk şərqisində deyilir: öyrəşmək sevgidən daha zor...

Kamran əmi bax bu bağda əyləşib xatirələrinin o yerinə dalmışdı ki, ömrünün tək bircə fəslini – yaz fəslini yaşamaq üçün otuz illik vaxtın içindən ötüb keçmişdi.

Sıxıntılı kənd həyatı, uzun yolçuluqlar, ağır fəhləlik, dəmir-dümür, daş, qum, sement, dəzgahlar, eşelonlar... qan-qadalı müharibə illəri. Bu otuz ildə qonşu Rusiyada (halbuki Azərbaycanın həyatı bu ölkədə baş verən hadisələrlə sıx bağlı idi) "dünya qomuşdu" milyonlarla insanın qanı su yerinə axmışdı (sonuncu müharibədə 27 milyon döyüşən, 25 milyon dinc insan öldürülmüşdü).

Azərbaycanda iki illiyinə də olsa, Şərqdə ilk parlamentli, müstəqil dövlət qurulmuş və süquta uğramışdı, ermənilər

Bakıda, Zəngəzurda, Qubada, Qarabağda, Şamaxıda, Gəncədə türklərə qarşı soyqırım törətmişdilər.

Azərbaycan digər bir imperiya tərəfindən (Rusiya) 1920-ci ildə işğal edilmişdi. Sonra kollektivləşmə, savadsızlığın ləğvi, Allahsızlıq, sənayeləşmə... Sonra 1937-38-ci illərin düşmən-casus axtarışlarının repressiya taunu...

Kamranın gəncliyi sanki dünyanın sonuymuş! Kəråminə şükür, Xudaya, qırdığını qırır, qoruduğunu qoruyursan!..

**Şeir**

Yer qalxır, göy düşür, aləm laxlayır...
Məhvərdə nə qaldı... yoxlayır Allah!
Allah saxlayanda, vallah saxlayır –
Məxluqu mələktək saxlayır Allah.

Mənə Allah qənim ayrı hal varsa –
Sevər axirəti pürkamal varsa...
Xəlbirdən keçirir nə əməl varsa,
Hökmünü ələktək saxlayır Allah.

Möcüzə ondurmu hesaba çəkim?
Mən kiməm,
hesabı çəkirsə hakim?
Qəzəbi tutanda süpürgə çəkir;
Tufanı kürəktək saxlayır Allah!

Qurbanlıq quzutək soyur dünyanı,
Didir, didimləyir, oyur dünyanı...
Sonda göz üstünə qoyur dünyanı,
Müqəddəs çörəktək saxlayır Allah.

Sayır birər-birər hər günahları,
Öpür dərgahına qalxan ahları –
Daşını daş üstə qoymur şahların,
Fəqiri dirəktək saxlayır Allah.

İlmüdam açıqdı bir pəncərəsi,
Bağlı mənzildə də rüzgarlar əsir...
Xilqətin canında axır nəfəsi
Bir topa küləktək saxlayır Allah.

Tanrım, kaş sözlərim dillərdə qala;
Arı istəməzmi güllərdə qala?!
Öləndə də qıymır çöllərdə qalaq

Məzarı mərəktək saxlayır Allah.
Batırır zəhərə, bala qaşığı;
Zülmət bəbəklərə verir işığı...
Başına min oyun gələn aşiqi
Döyünən ürəktək saxlayır Allah.

Baxma qayçılayır il ömürləri,
Niqab ömürləri, tül ömürləri...
Kitab arasında gül ömürləri
Qurumuş çiçəktək saxlayır Allah.

İndi bu Allah adamı qələmə aldığı xatirələrinin daha bir səhifəsinə nöqtə qoyub, dolu vərəqi o biri dolu vərəqlərin üstünə çevirəndə insan taleyinin heyrətamiz bir dövrü başlayacaqdı: qaynar yay fəsli. Qaynar sözü burada mütləqcəsinə yerinə düşür...

1944-cü ildə onu Sumqayıt Rayon Partiya komitəsinə sənaye və kadr sahəsinə baxan katib vəzifəsinə göndərdilər.

Bu elə bir vaxt idi ki...

**Müəllif**

Beş-altı il bundan öncə qızılqumlu Xəzər sahilinin bu yerlərində özgə büsat vardı. Kamran da daxil olmaqla minlərlə gəncin başladığı iş amansız küləklərin daşıyıb gətiriyi qum topalarının altında batıb yoxa çıxmışdı. Köhnə izləri, beş-altı il bundan irəli atılmış özülləri tapıb üzə çıxarmaq üçün, az qala, arxeoloji qazıntı aparmaq lazım gəlirdi. Elə bil alnına yazılmışdı onun. Hər işi, özü də hər işi yox, ən çətin işi başlamaq, qaldırmaq, qaynar həyat yaratmaq hər oğulun işi deyil, əlbəttə. Kamranın bacarığı, qətiyyəti, insanlarla dil tapıb qüvvələri birləşdirmək səriştəsi dövlətə, yuxarılarda oturanlara agah idi. Elə buna görə də harada iş bir balaca əyildi, o yada düşürdü.

İnşaatın canı daşa bağlıdır. Bakı həndvərində daşın yatağı, karxanalar Qaradağda yerləşirdi. "Azneft"ə bağlı "Qızılqaya" yatağından başqa bütün karxanalar Sumqayıt tikintilərinə təhkim olunmuşdu.

Avropaya, Sovet İttifaqına vurulan sarsıdıcı zərbələr və qələbələrin gedişatında faşistlər tam bir metallurgiya zavodunu çalışdıra bilən zəruri dəzgahları Rumıniyanın Qolitsiya şəhərinə daşımışdılar. Sovet ordusu Rumıniyanı azad edəndən sonra həmin o dəzgahlar, zəruri hissələr, necə olmuşdusa, gəlib Sumqayıta çıxmışdı.

Kamran, quma batmış Sumqayıtın tör-töküntüsünü yığışdırandan dərhal sonra həmin dəzgahların Sumqayıtda, metallurgiya zavodunun bazası olaraq qurulmasının vacibliyini yuxarı dairəyə bildirmişdi.

Elə bu arada Moskvadan, yoldaş Beriyadan tapşırıq gəldi, o dəzgahları başınızdan çıxarın. Nə vaxta Sumqayıt abıra minər, haçana zavod tikilər. O sayaq qiymətli avadanlığın Sumqayıtda paslanmasına yol vermək olmaz. Məsələyə Bağırov yoldaş qarışdı. Telefonu qaldırıb dönə-dönə Moskvayla danışdı. Amma yalvarışlar nəticə vermədi.

**Salnamə**

Səhv etmirəmsə, onun bir hissəsi Ukraynaya, Taqanroqa və bir hissəsi Stalinqrada aparıldı. Qısası, zavodun bütün avadanlığı Sumqayıtdan daşındı.

**Sözlük**

Lavrenti Beriya

*Tarixdə Lavrenti Beriya və Stalinin əhatəsində olan digər məmurların adları ölkə rəhbərini repressiyalar törətməyə təkid edən şəxslər kimi xatırlanıb.*

*Onun daxili işlər və təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrlərdə SSRİ Daxili İşlər üzrə Xalq Komissarlığının səlahiyyətləri genişləndirilmiş, ona məhkəmənin iştirakı olmadan ağır cəza qərarları çıxarmaq, Krım tatarları, məshəti türkləri, çeçen, inquş və digər millətləri köçürmək kimi amansız hüquqlar verilmişdi.*

*Smolensk ətrafında, Xatında əsir düşmüş polşalı zabitlərin güllələnməsi də bu orqanın əmri ilə həyata keçirilib.*

*Beriyanın fəaliyyəti yalnız kütləvi repressiyalarla məhdudlaşmır. Stalinin ölümündən sonra amnistiya aktının həyata keçirilməsi, bir sıra qaranlıq işlərin bağlanması, SSRİ-nin xarici siyasətinin yumşaldılması, İttifaq respublikalarında milli kadrların irəliyə çəkilməsi kimi işlərin təşəbbüskarı bu şəxs olub. L.Beriyanın həyat və*

*fəaliyyətinin müəyyən hissəsi Bakının adı ilə bağlıdır. 1915-ci ildə Bakıda Alekseyevski adına Texniki Peşə Məktəbinə daxil olduğu illərdə o, həm də Nobel Neft Şirkətinin baş kantorunda işə başlayıb. 1917-ci ildə bolşeviklərə qoşulduğu üçün Bakını tərk etmək məcburiyyətində qalıb. Çünki o zaman şəhərə türk ordusu daxil olmuşdu. 1919-cu ildə Beriya Azərbaycan Xalq Respublikasının Dövlət Mühafizə Komitəsi yanında kəşfiyyat xidmətinə işə götürülüb. 1920-ci ilin aprelində ADR süqut etdikdən sonra hökumət dairələrində çalışanların vəziyyəti pisləşib. Nədənsə bolşevik Beriya fəaliyyətinə görə cəzalandırılmayıb. Onu xilas edən səmimi etirafları olub: "Müsavatçıların arasında kəşfiyyat aparmaq məqsədilə partiya tərəfindən göndərilmişəm". Beriyanın tərcümeyi-halında bu cür qaranlıq məqamlar çoxdur.*

***

Kamranın ikinci dönüşü – acı qumları göz göynədən Sumqayıt həyatı uzun sürmür. Bir il keçər-keçməz o başqa bir vəzifəyə təyinat aldı. 1945-ci ilin fevralında Kirov Rayon Partiya Komitəsinin birinci katibi seçiləndə 31 yaşı vardı.

**Sözlük**

S.M.Kirov

*1988-ci ildə Rusiyanın Vyatsk quberniyasında doğulub. İlk təhsilini orada alıb. Kazan sənaye məktəbində oxuyub. Bolşevik hərəkatlarına qoşulub. 1918-ci ildə Ümumrusiya Sovetlər Qurultayının nümayəndəsi, 1921-ci ildə Azərbaycan KP MK-nın birinci katibi seçilib (təyin olunub-V.B).1926-cı ildə Leninqrada göndərilib. 1934-cü ildə 48 yaşında Leninqradda alnından güllələnərək qətlə yetirilib. Kirovun ölümündən dərhal sonra onun qatilləri xalq düşməni elan edilmiş, faciənin təşkilinə görə çox sayda insan repressiya qurbanına çevrilmişdi. 1934-cü ildən 1990-cı*

*illərə qədər S.M.Kirovun ismi Azərbaycanda, Qafqazda, ümumən SSRİ-də ən möhtərəm adlardan birinə çevrilmiş, adına saysız-hesabsız məktəblər, küçələr, şəhərlər (Kirovabad, Kirovqrad, Kirovokan ...), qəsəbələr, kolxozlar, sovxozlar, vağzallar, müxtəlif müəssisə və təşkilatlar, universitetlər, muzeylər, mədəniyyət evləri verilmişdir. Onun külü Qızıl meydanda, Kreml divarlarına dəfn edilib. Uzun illər Kirovun heykəli Bakının ən uca nöqtəsində, indiki Şəhidlər Xiyabanında kök salmış, müstəqillik mübarizəsinin ilk illərində demontaj edilmişdir.*

*Sovet vaxtının dərs kitablarını onun haqqında yazılmış bu sayaq şeirlər bəzəyirdi:*

*Oyan Mironiç, oyan, oyan, şanlı qəhrəman,*
*Bax başın üstündəki dalğalanan bayrağa.*

**Müəllif**

Əlbəttə, Kamran Sumqayıtda qalıb başladığı işləri davam etdirmək, ən əsası sona çatdırmaq istəyirdi. Sən saydığını say, gör fələk nə sayır. Kim idi onun istəyinə baxan. Müharibədən çıxan ac ölkənin mədəsi yanacaq tələb edir, məhz həmin yanacağın çatmamağı səbəbindən göyür-göyür göynəyirdi. Abşeronun neft yataqlarının məhsuldarlığını artırmaq tədbirləri öz yerində, Kamran Hüseynovun "Salnamə"dəki yozumuna görə sözügedən dövrdə Moskvanın neft Bakısına yönəlik başqa bir məkrli niyyəti də olub:

Bakının təcrübəli neft kadrlarından istifadə edib, Volqaboyunda "İkinci Bakı" yaratmaqla qədim neft şəhərinin əhəmiyyətini azaltmaq;

Əgər vəziyyət qəlizləşərsə, Bakını müharibə zonasına çevirib xaraba qoymaq.

Həqiqətən də Kamran müəllimin versiyalarının tarixdə izləri var.

**Salnamə**

1941-45-ci illərdə Bakı neftçilərinin çoxunu Volqaboyuna, Quzey Urala göndərmişdilər ki, "İkinci Bakı" deyilən neft yatağını işə salıb, cəbhəni yanacaqla təmni etsinlər.

Bakıdasa neftin istehsalı zəifləmişdi. Yenidən məsələ qalxdı ki, Bakının neft sənayesini qaldırmaq lazımdır. Bizim qohumlarımızdan Binəqədidə işləyənlər çox olub. Əmim usta Kərim çox məşhur neftçi idi. Vaxtilə Muxtarovun mədənlərində bacarıqlı ustalardan sayılırdı. 1927-37-ci illərdə "Kirovneft"də (oxu: Binəqədineft-V.B.) müdir işləmişdi. Onu da Başqırdıstana işləmək üçün göndərmişdilər.

**Sözlük**

Binəqədi

*Binəqədi Bakının ən qədim və böyük kəndlərindən biridir. Adının mənası haqqında konkret fikir olmasa da, arxeoloji qazıntılar zamanı əldə edilən nadir tapıntılar əsasında bu kəndin binədən qədim olduğu sübuta yetmişdir. Hələ ötən əsrin 40-cı illərində Binəqədi yaxınlığında qədim kərgədanın elm aləminə məlum olmayan skeleti tapılmışdı. Əldə edilən nadir tapıntılar əsasında Azərbaycan tarixşünaslığı və arxeologiyası dünyada ilk dəfə olaraq IV dövr faunasını müəyyənləşdirə bilmişdilər. Elm aləmində nəsli kəsilmiş heyvan qalıqlarının çoxluğuna və növ müxtəlifliyinə görə Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə Azərbaycan dayanır. "Binəqədi faunası" dünya təbiətşünasları arasında çox məşhur bir terminə çevrilib. Binəqədi neft yataqları ilə zəngindir. Sovet hakimiyyəti illərində rayon Kirov rayonu adlandırılmışdı. Kamran Hüseynov 1945-47-ci illərdə bu rayonun birinci katibi olmuşdu.*

**Salnamə**

Orda mən güclü erməni kadrosu ilə üz-üzə gəldim...

Mən bu mühitdə işləməli, neft hasilatını artırmalı, millətə xidmət etməliydim!..

Rayon milis şöbəsinin rəisi erməni idi – Çuştuzov Yervand; TK-nin rəisi – Quqasyan, komsomol komitəsinin katibi – Qriqoryan, ORS rəisi – Alevsanyan Lazımski, Həmkarlar İttifaqının sədri Tefistyan, böyük və çox müfuzlu bir trest vardı, onun müdiri – Terminasov Aram idi.

**Hekayət**

Onu qəbul otağında köməkçisi qarşıladı. Ayaq üstəcə salamlaşdılar. Kabinetin qapısı açıq idi. İçəri keçib qapını arxasınca örtdü. Kabinet kifayət qədər böyük və işıqlı idi. Lap başda iş stolu yerləşmişdi. Başının üstündəki divardan V.İ.Leninin portreti asılmışdı. Dahi rəhbərin qıyıq gözləri qapıdan kabinetə daxil olan adamın üzünə zillənirdi. Və içəri girən şəxsə elə gəlirdi ki, dahi rəhbər bir başqasına deyil, məhz ona baxır. Yan tumbada telefonlar vardı. İş stolunun qarşısında həmin o yazı masasından üç-dörd dəfə uzun başqa bir stol dayanırdı. Hər iki tərəfdən düzülən stullar digər mebellərə uyğun olaraq tutqun xına rəngindəydi. O, bayaq kabinetə girəndən əlində tutduğu şlyapasını kitab rəflərinin sonunda dayanan taxta asılqanın lap yuxarıdakı ilişgəsinə asdı. Gur, qara saçlarını hər iki əlinin şana kimi açılmış barmaqlarıyla geri daradı. Pencəyinin düymələrinin bağlı ya açıq olduğunu yoxlayırmış kimi yaxasına əl gəzdirdi. Əyləşdi. Dünəndən qalan qovluqları özünə münasib qaydada yerbəyer elədi.

Onun Kirov rayonuna birinci katib seçilməyindən (təyin olunmağından) hələ bir ay da ötməmişdi. Yoluna düşməyən bir çox məsələlər vardi ki, vaxt istəyirdi. Bununla belə, vaxtın sahibsiz arx kimi boş-boşuna axmağına da imkan vermək olmazdı. Düzdür, 1945-ci il başlamışdı, may ayının 9-na isə hələ qalırdı. Almaniyadan, Reyxstaqdan alovlanan müharibə ocağı böyür-başını qarsa-qarsa öləziyir, içinə çəkilirdi. Ölkəyə çoxlu neft lazım idi. Daşdan, qumdan, sudan, qurudan... yerin hansı deşiyindən olur olsun, əllə, dişlə, dırnaqla, baltayla, verdəylə - nə üsul yarayarsa, nə sayaq mümkündürsə, neftin hasilatını artırmaq lazım idi. Arxa cəbhə də batalyonlarla idarə olunurdu. Əslində burda, müharibənin getdiyi döyüş meydanından min kilometrlərlə uzaqda işçi qüvvəsini cəm edən, istehsala cavabdeh olan rəhbər şəxslər idarəetmə dairəsinə uyğun diviziya, polk, rota, batalyon komandirləri idilər. Burada da əsgər intizamı hədəfə qətiyyətli hücum cəhdləri qədər əhəmiyyət daşıyırdı.

...Adamların vaxtını almamaq üçün o cari iclasları, toplantı və müşavirələri kabinetdə keçirirdi. Çox vaxt məsələlərin böyük əksəriyyətinin müzakirəsi də, icrası da elə iş başında həllini tapırdı.

Qəbul otağına aid zəngin düyməsini basdı. Köməkçi qeyd dəftərçəsi əlində qapıda göründü.

- Deyilən adamların hamısı cağrılıbmı?

- Bəli, Kamran Əsədoviç.

- İclasın gündəliyi hazırdırmı?

- Bəli, buyurun. – O, əl xətti ilə, səliqəylə yazılmış vərəqi stolun üstünə qoydu.

- Yaxşı, işinlə məşğul ol.

Köməkçi qapıdan çıxmaq istədi. Katib işarə elədi ki, dayansın.

- Dünən axşam, işin sonunda milis rəisi gəlmişdi yanıma, Yervand Çuştuzov...

- Bəli, nəsə çox qanıqara çıxıb getdi.

- O dığa köpək oğlunda qan var ki, ya qara ola, ya ağ... yadında qalsın, əgər mən dəvət eləməsəm, onu mənim yanıma buraxmazsan...

- Baş üstə, yoldaş katib.

Köməkçi çıxdı. Dünəndən bəri artıq neçənci dəfə milis rəisinin idbar sifəti gəlib durdu gözünün qabağında. Birinci katib səbri heç zaman əldən verən adam deyildi. Heç vaxt kobud söz danışmazdı, həm də işçiyə fərq qoymazdı ki, bu rusdu, bu xaxoldu, erməndi, yaxud azərbaycanlı. Demək olmazdı ki, onun təbiətindəki gerçəkli beynəlmiləlçilik Sovet rejiminin prinsiplərindən irəli gəlir. Onun nəzərində yer üzündə iki xislətli insan var; cəmiyyətə xeyir verən və cəmiyyətə ziyan vuran insan. Nadan iblislər...

Gəldiyi bir ay deyil, bir topa ziyankar adam, parazitlər görülən hər işə pəl vurur. Öz yanlış mövqeyini qorumaq, şəxsi ambisialarını əvvəlki qaydada yeritmək üçün min cür hiyləyə əl atırlar.

Birinci katib dünən axşam Çuştuzovla olan əhvalatı xatırlayıb içindən alovlanır.

"Köpəkoğlu şəkil göstərir mənə. Baxıram, şəkildə cəlladsifət Yervand şəstnən dayanıb, ayağını qoyub meyitlərin başının üstünə. Qəhrəmanlıq eliyib guya. Soruşuram, Çuştuzov, bu nə şəkildi belə? Qayıdıb nə desə yaxşıdı; Fatmayı, Kürdəxanı kəndinin adamlarıdı. Banditlik eləyirdilər. Öz əlimlə gəbərtdim. Bax bu da sübut!

Kamran dəhşətli şəkil əhvalatını eşidəndə özündən asılı olmayaraq əllərinin hər ikisi dəmir kimi bərkiyib, bükülüb yumruğa döndü. Allahın altında rayonun rəhbəri olmayaydı,

bura da kabinet yox, Zəngəzurun qalın bir meşəsi olaydı və Kamran onda bu cəlladın başını tula başı kimi əzərdi. Ürəyi bərk döyünür, qan sürətlə başına vururdu.

Birinci katib milis rəisini əməlli-başlı vahimələndirən bir səslə dedi:

- Çuştuzov, sən ağlını başına topla və çaşma. Qana batmış əli cəhənnəmdə də yumurlar. Elə bu dəqiqə şəkilləri də götür, rədd ol burdan...

Hələ dünən Yervand Çuştuzov – milis rəisi, Kamran yoldaşın – birinci katibin qapısından hiyləgər su kimi sürünə-sürünə çıxanda köməkçi "təhlükəli sürüdü, neçə illərdi rayonu sökürlər, heç elə bil müharibənin bunlara dəxli yoxdu. Gözünə dönüm, yoldaş Hüseynov, bunların öhtəsindən bəlkə siz gələsiniz".

İclas saat on birə təyin olunmuşdu. Vaxta on dəqiqə qalanda dəvət edilənlərin hamısı qəbul otağında idilər. Gözləyirdilər birinci katib onları içəri çağırsın. On birə iki dəqiqə qalmış köməkçi yarı bükülmüş orta barmağıyla kabinetin qapısını yavaşca taqqıldadıb açdı, toplaşanları içəri ötürüb ən sonda əlində bayaqkı qeyd dəftəriylə içəri keçdi.

- Xoş gördük, keçin, əyləşin, - katib gələnləri salamlayıb əyləşmək üçün yer göstərdi.

Adamlar yerbəyer olandan sonra köməkçidən soruşdu:

- Hamı burdadı?

- Yoldaş katib, təkcə Aram Terminasov yoldaş yubanır.

- Niyə, ciddi bir səbəb var?

- Yox, yoldaş katib...

- Axı mənim ona tapşırıqlarım olacaq.

Rayonun dövlət təhlükəsizlik şöbəsinin rəisi Quqasyan özündən razı halda, bir az da səlahiyyətindən irəli gələn ərklə birinci katibin masasına lap yaxın oturmuşdu.

- Yoldaş katib, ara elə, o böyük adamdı, həmişə elə belə...

Bəlkə də birinci katib belə xırdalığa fikir verməz, kiminsə iclasa gecikmək məsələsini müzakirəyə çıxarıb, işinin-gücünün başdan aşdığı bir məqamda camaatın vaxtını almazdı.

Amma birinci katib, burada çalışmağa başladığı ilk həftələrdə rayonda kadrlarla bağlı vəziyyəti tamam-kamal öyrənmiş, bir qrup erməni əsilli vəzifə adamının at oynatdığını müəyyən etmişdi. Əgər onların iç üzünü açıb göstərməsə, baş aparan bu qarğa-quzğun dəstəsini kişləyib qovmasa, əməyi zaya gedəcək, onların əl buyruqçusuna çevriləcək.

Amma buna yol vermək olardımı? O, əyləşdiyi kürsünün məsuliyyətini yaxşı dərk edirdi. Bəs dostbazlıq, qohumbazlıq, yerlibazlıq xaltaları ilə bir-birinə bağlanan, yeri gəlsə, arvadlarını səlahiyyətli kişilərin yataqlarına itələyən bu qurumsaqların qabağından qorxub qaçsa, daşıdığı vəzifənin şərəfini kim gəlib qoruyacaq?

- Yoldaş Quqasyan, sən dövlətin təhlükəsizliyinə cavabdeh bir şəxssən. Müharibənin belə vaxtında dövlətin təhlükəsizliyinin şərti onu-bunu şərləmək deyil, intizamdır. Avaranın biri bu boyda insanı saya salmır, boş yerə vaxtımızı alır, sən də onu müdafiə edirsən... Ayıb olsun.

Təhlükəsizlik Komitəsinin rəisi suya-buza döndü. Bir kəlmə də çevirməyib susdu. Elə bu vaxt illərdən bəri Kirov rayonunda at oynadan məkrli dəstəyə həddini qandıran, onları birdəfəlik yerində oturdan hadisə baş verdi.

Adamların kabinetə daxil olmağından 7-8 dəqiqə ötmüşdü, Terminasovun ərköyünlüyü hesabına hələ də əsas məsələlərin müzakirəsi nədi, heç adı da bəlli olmamışdı.

Elə bu vaxt Terminosov Aram yoldaş – rayondakı ən böyük trestlərdən birinin rəisi, pulunu balta kəsməyən büro üzvü, müharibə dövrünün erməni qoçusu... qapını döymədən və zərblə açıb içəri girdi.

Birinci katibdən başqa hamı dik qalxdı ayağa. Yoldaş Hüseynov ömründə belə şey görməmişdi. Deməli, mənim rəhbər işçilərim bu harın trest müdirindən dızıdırlar. Birinci katib məsələnin mahiyyətini anlayırdı. Amma bununla belə, nadanı yerində oturtmaq üçün Allahın özü tərəfindən yaradılmış fürsəti boş buraxmadı.

-Yoldaşlar, sizə kim dedi ki, ayağa qalxın, xahiş edirəm, əyləşin yerinizdə.

Birinci katibə zillənən baxışlar sanki yalvarışırdı ki, siz Allah, dərin getməyin, indiyə qədər nə təhər olub, qoyun o qaydada da davam eləsin. Balaca adam deyil ki Terminosov, trest müdiridi, o həmişə gecikib iclaslara, elə olub heç sayıb gəlməyib.

"O gələndə ayağa qalxmasaq, sonra dərimizə saman təpər, kütümüzü kəsər... İcazə verin, birinci o otursun, sonra biz əyləşərik."

"Gör bu bədbəxtlər nə yaman günə qalıblar, xudaya, - Kamran Hüseynov içindən qovrulub özü-özünə deyirdi – insanlar orada cəbhələrin cəhənnəm odları içində vətən uğrunda can qoyur, ölür, öldürür, xalq acından qırılır. Bu macalda dərənin ermənisi bu qədər səlahiyyət sahibini qula çevirib. Yox, bu işi boş buraxmaq olmaz, qətiyyən olmaz. Sovet İttifaqı belə gədə-güdələrin umuduna qalacaqsa, daha onda niyə vuruşub qan tökürük? Belələrindən faşist yaxşıdı, dinməzcə çəkilək bir qırağa, qoy gəlib idarə eləsinlər..."

Terminosov yoldaş dilinin ucunda guya salam verirmiş kimi içəri girdiyi sürətlə də şığıyıb, ona ən yaxın yerə, qabaq

stolunun lap birinci masasına təpiləndə birinci katib bu stolun bayaqdan bəri niyə boş qaldığının fərqinə vardı. Heç demə, o bu rayona təyin olunana qədər Terminosov beləcə qudurğanlıq eləyir, iclaslara gecikir, gələndə də gəlib cərgədəki bu birinci stola çökür, hamı ayağa qalxırmış, birinci katib qarışıq hamı o əyləşəndən sonra əyləşirmiş...

-Yoldaş Terminasov, sənə xəbərdarlıq edirəm, bir də iclasa gecikmə, - Kamran Hüseynov tam bir kəskinliklə xəbərdarlıq elədi.

-Yoldaş Mircəfər zəng vurmuşdu mənə, mühüm tapşırığı vardı...

- Mircəfər Bağırov yoldaş sənə, hansısa bir trest müdirinə zəng vurmuşdu? Mən icazə vermirəm ki, hər yerindən duran ağzını Allah yoluna qoyub respublika rəhbərinin adını çəksin. Axırıncı dəfə deyirəm, iclaslara vaxtında gəl. Özün də hazırlaş, burdan qalxan kimi gələcəyəm trestə, görüm sən orda nə işlə məşğulsan...

Hüseynov yoldaşın gözlənilməz zərbəsindən sonra burnunun ucuna qədər qızaran Aram Terminasov bir kəlmə kəsmədən iclasın sonuna qədər kirimişcə oturdu.

***

Birinci katib rayon aktivinin qulağı eşidə-eşidə etdiyi ciddi xəbərdarlığın arxasını boş buraxmadı. O, həmin gün biləlrəkdən iş vaxtından xeyli keçmiş trestə gələndə Aram yoldaşın dalağı sancmış, qaxılıb oturmuşdu kabinetində. Bununla belə, o sınmaq istəmir, görünür, ən yaxşı müdafiənin hücum olduğuna hələ də inanırdı.

- Yoldaş katib, -  ilk dəfəydi ki, rayonun rəhbərinə tələb olunduğu şəkildə müraciət edirdi, - amma gərək siz elə danışmayaydınız...

- Necə, elə?

- O qədər adamın qabağında...

- Bəs yaxşı, sən o qədər adamı ələ salanda yaxşıdı? Mən orda sənə sadəcə xəbərdarlıq etdim. Yəgin ki, tədbir də görəcəyəm.

- Bilirsiniz nə var, yoldaş, əlinizdən gələni iki boşqaba çəkin, özünüz də gedin oynayın...

- Baxarıq kim gedib oynayacaq, Terminasov. Amma mən rayonun rəhbəri olaraq sizə lap sonuncu dəfə xəbərdarlıq edirəm: əgər yoldaş Bağırovun sözü olsa, trest müdirinə yox, özü təyin etdiyi rayon rəhbərinə deyər. Əvvələn, bu fırıldağı qatlayıb qoyun bir qırağa...

**Salnamə**

"Gördüm ki, necə deyərlər, adı qulağına dəymiş bu adam titrəyir. İndi baltanı ağacın kökünə vurmaq olardı. "Sonra, siz burada öz dəstənizi yığıb şəxsi təminatla məşğulsunuz. Sizin heç bir tədbiriniz yoxdur ki, neftin çıxarılmasının artmasına kömək etsin. Mən gecə-gündüz mədənlərdəyəm. Sizi və dəstənizi mədənlərdə görməmişəm." Qoçağım bundan sonra büroya vaxtında gəlirdi. Qalanları da həmçinin, müharibənin çətin vaxtında ORS-un rəisi Aleksanyan Lazınski dəfələrlə qəbula gəlmək istəyib, gəbul etməmişəm. Çox narahat idilər. Vaxt göstərdi ki, bu adamlar dost, qohum, yerlibazlıq, xəbərçilik hesabına vəzifəyə gəliblər, şəxsi işi dövlət işindən üstün tuturlar.

Bir ildən sonra onların hamısının yerlərini dəyişdirdik, bir-biriylə əlaqələri öləzidi.

**Hekayət**

Kamran müəllim aradan bir neçə il keçəndən sonra, Moskvada işləyərkən Krasnodar vilayətinə ezamiyyətə gedəcək və həmin Terminasovla bir də görüşəcəkdi. N.K.Baybakovla görüşüb işlə bağlı məsələləri həll edəndən sonra birbaşa yollanacaqdı Terminasovgilə. Çünki Baybakov söhbət əsnasında ona bildirmişdi ki, bir vaxt Bakıda, Kirov rayonunda birinci katib işləyəndə "başına oyun açan" Terminasov Krasnodara köçüb. Novorossiyski dənizkənarı Qlinçik qəsəbəsində yaşayır. Vəziyyəti çox ağırdır, xəstədir. Baybakov demiş, vaxtilə "başına oyun açdığına" baxmayaraq, köhnə işçisinin xəstəliyini bilmək bəs edəcəkdi ki, Kamran Qlinçikə yollansın.

...Qapını bir qadın açdı.

-Eşidirəm sizi, kimsiniz?

-Bakıdanam, adım Kamrandı...

-Nə istəyirsiniz?

-Heç, eşitdim Aram naxoşlayıb, ona baş çəkməyə gəldim.

Kamranın izahatını dəhlizdən eşidən Aram xəstə olmağına baxmayaraq köhnə tanışın üstünə qırğı kimi süzdü.

-Boy, Kamran. Sənə qurban olum. Bu xarabadan apar məni, Binəqədidə basdır.

Sonra, Baybakov bu hərəkəti eşidəcək və Kamrana zəng çalacaqdı ki, sağ ol, qardaş, mərd kişilər ancaq bu cür addım atar. Hala olsun Bakıya, onun beynəlmiləlçiliyinə, yetişdirdiyi insanpərvər kardlara.

**Sözlük**

N.K. Baybakov

*1911-ci ildə Bakıda doğulub. 1932-ci ildə Azərbaycan Neft İnstitutunu bitirib. Dağ mühəndisliyi fakultəsini. Texnika elmləri doktoru, Rusiya*

*Federasiyası Akademiyasının fəxri üzvüdür. Elmlər doktorudur. 1935-36-cı illərdə əsgərlik çəkib. Bakıda və Volqaboyunda neft sahəsində çalşıb. 1944-55-ci illərdə SSRİ neft sənayesi naziri olub. 1965-85-ci illərdə Nazirlər Soveti Sədrinin müavini, Plan Komitəsinin sədri vəzifəsinə yüksəlib. Bakıya, Azərbaycana həmişə yaxşı münasibəti ilə seçilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzunmüddətli və yaxın dostu olunub. Kamran Hüseynov Azərbaycanın inkişafı ilə bağlı planların gerçəkləşməsində Baybakovun köməyindən istifadə etmişdi.*

**Müəllif**

...Və Binəqədi hərəkətə gəldi. Əsas vəzifə neft hasilatını artırmaq olsa da, sosial, mədəni baxımdan görüləsi çox işlər vardı. Həm də bu işləri hələ ki ordunun döyüşdüyü vaxtda başlamaq lazım idi. Sulutəpə, Çaxmaqlıda yeni neft quyuları qazıldı. İş sahələri, qəsəbələr arasında abad yollar çəkildi. Neft hasilatı gündə 1800 tona çatdı. Binəqədi qəsəbəsi başdan-başa yaşıllaşdı.

Bəzən rayon miqyası onun qol-qanad açmaq həvəsini məhdudlaşdırsa da, Kamran Hüseynov ən yuxarı səviyyədə təşəbbüs qaldırmaqdan, təklif verməkdən çəkinmirdi. Halbuki, Bağırov erasında bir çoxları üçün "az aşım, ağrımaz başım" prinsipi özünü əla doğruldurdu.... Amma Kamranın qətiyyətli addımları da bəhrəsiz qalmırdı.

**Hekayət**

Deyəsən bu, Bağırovla üçüncü, yaxud dördüncü dəfə görüşündə baş verdi.

Bakı Şəhər Partiya Komitəsinin plenumu gedirdi. O zaman AKP MK-nın birinci katibi Bağırov, həm də BK-nın başçısı idi.

Tədbir Filarmoniyada keçirilirdi. Fasilə zamanı ondan bir az aralıda Mircəfər Bağırovun da gəzişdiyini gördü. Yaxınlaşdı.

- Yoldaş Bağırov, mənim sizə sözüm var, icazə versəydiniz, deyərdim.

- Buyur.

- Yoldaş Bağırov, müttəfiqlərimiz Amerika və İngiltərə Stalinə, Sovet qoşunlarına icazə veriblər ki, Qərbi Almaniyadan zavod-fabrikləri söküb aparaq. İndi orada söküntü gedir, daşıhadaşıdı. Bizimkilərdən Mehbalı Əmiraslanov, Əfrasiyab Adıgözəlov da o işlərdə fəal iştirak eləyirlər. Dünyada ən möhkəm sement istehsal eləyən zavodlar Almaniyadadır, bizim isə sementimiz yoxdur, görun, nə qədər iş aparırsınız, hələ nə qədər tikintilər olacaq. Məsləhət bilsəniz, Əmiraslanova tapşırmaq olar, zavodun bir dəstini Bakıya göndərsin.

Bağırov qılınc kimi kəsən zəhmli gözləri ilə bu qədər adamın içində cəsarət göstərib ona yaxınlaşan və təklif irəli sürən oğlana baxdı. Kamrana elə gəldi ki, bayaqdan heç kimə, heç nəyə fikir vermədən Filarmoniyanın foyesində gəzişən Bağırovu tok vurdu, yerində mıxlanıb qaldı. Necə ki, ani olaraq rayon rəhbərinin dediyi sözdən sonra sanki onu tok vurmuşdu, necə ki, mıxlanıb yerində qalmışdı, elə o aniliklə də Mircəfər yoldaş özünü ələ aldı, eynəyin altından baxan gözlərini Kamrandan çəkmədən onun böyrünə yüngülcə bir dürtmə vurub dedi:

- Ax sukin sın. Bunu nə Qosplanım deyib, nə Nazirlər Soveti. Halbuki, belə məsələləri onlar qaldırmalıdı...

Təklif yerinə düşdü. Almaniyadan həmin zavod dəsti Bakıya gətirildi. Və həmin zavodun quraşdırılması, qəribədir ki, Mingəçevirə tapşırıldı. O zaman Kamran Hüseynov Mingəçevirə göndərilmişdi. Onun da yaxından iştirakıyla Qaradağda hər il bir milyon tondan artıq sement verən zavod yaradıldı...

**Salnamə**

Respublikanın köhnə neft yataqlarının Azərbaycanın, ölkənin inkişafında əvəzsiz xidmətləri olmuşdur. O cümlədən Binəqədi neftçilərinin. Bir qədər Binəqədi neft mədənləri haqqında qeyd etmək istəyirəm. Çünki bu mədənlərlə biz ailəvi çox bağlı olmuşuq. Azərbaycanın sərvəti onun başına bəla oldu. Daim yadelli işğalçılar, xarici kapital zəli kimi Azərbaycanın sərvətini boğazından yapışıb, sümürüb aparmağa çalışıblar. Bakının başqa rayonları kimi, Binəqədi neft yataqlarını da zəbt edənlər az olmayıb:

1. Nobel qardaşları
2. Lionozov
3. Kaspiyskoye tovarişestvo
4. Mantaşev
5. Qukasov

Bir qədər də təzə ayrılıb meydana gələn sahibkarlar:

1. Səlimov
2. Musa Nağıyev
3. Şəmsi Əsədullayev

Bunlar əsas güclərini 1, 2, 3-cü mədənlərin sahəsinə cəmləyirdilər.

XX əsrin əvvəllərində bu rayonlarda nisbətən aktiv fəaliyyət göstərən milli sahibkar Şəmsi Əsədullayev bu ətrafda neft istehsalı ilə məşğul olurdu. Çox çətin vəziyyətdə quyuları əl ilə qazmağa başladılar. Əl ilə, iri verdələr ilə quyudan neft çıxarıblar. Tədricən texnikadan istifadə etməyə başlayıblar. İndiki B.Sərdarov adına zavodun bazasında dəmirçi sexində qazma balıq quyruğu baltası buraxmağa başlayıblar. Bu işdə deyilənə görə alman sahibkarı Bekintorqun fəaliyyəti də

olub. Quyruqlu baltalarla quyular qazılması o vaxt üçün inqilab sayılırdı. Lakin bu baltalarla mədənlərdə çox dərin quyular qazmaq, bərk laylardan istifadə etmək çətin idi. Qalın neft layları çox dərində yerləşdiyindən mürəkkəb qruntları deşib açmaq lazım gəlirdi. O laylarda quyular qazmaq üçün 30-cu illərdən sonra texniki cəhətdən faydalı daha yeni qazma baltaları – fırlanan çoxdişli şaroşkalar yaranır. Ancaq yenə də neft quyuları qazılan vaxt, yerin 1500-3000 m dərinliyində çox bərk daşa və başqa suxurlara çatanda balta qırılır, qəzalar baş verirdi. Xəbər tutduq ki, almanlar yeni metod ixtira ediblər və onu neft sənayesində qazma işində tətbiq edirlər. Yeni üsul baltaların qırılıb quyularda qalmasının qarşısını alır.

Bizə məlumat verdilər ki, o yeni texnikanın istehsalını Taqanrok metallurgiya zavoduna veriblər. Moskvadan tələb etdik ki, bu baltalardan bizə də göndərilsin. Bizdə xüsusi boruyayma zavodu tikilir. Yeni texnikanın istehsalı mənimsənilə bilərdi. Çox çətinliklə, Moskva metallurgiya nazirinin qarşısında məsələ qaldırıb, həmin zavodu Taqanrokdan qopardıb, Sumqayıt boruyayma zavodunun tərkibinə saldıq. Bunun adı sex, özü isə bir zavodun tikinti-istehsal sahəsi qədər idi.

Bu zavod məhsul verməyə başlayandan sonra qazma quyularında olan qəzaların sayı yox dərəcəsinə endi.

Göstərdiyimiz kimi, 1944-cü ildə Rumıniyadan Sumqayıta gətirilən təzə alman metallurgiya kompleksi avadanlığının hamısını Rusiya və Ukraynaya apardılar. O vaxt Sumqayıtda boruyayma zavodu hazır deyildi. Zavod tikilib qurtarandan sonra yoxlama zamanı aydın oldu ki, Qərbi Almaniyadan

gətirilən qənimət metallurgiya kompleksi köhnə, 1914-cü ildən Almaniyada istismarda olan avadanlıqdır. Şəhər Partiya Komitəsi Moskvaya, MK-ya SSRİ metallurgiya naziri Şeremitova qəti etirazını bildirdi. Biz təzə tikilmiş müasir zavoda çoxdan köhnəlmiş avadanlığın qoyulması ilə razılaşa bilməzdik. Çox böyük mübahisədən sonra Metallurgiya Sənaye Nazirliyi Uralmaşdan Sumqayıta tamam yeni, müasir avadanlıq göndərdi. Nazirin özü də zavodun açılışına gəlmişdi. Ona bir misal da çəkdim: "Bizdə deyirlər, tatı tamarzı görüb, əlinə qarpızın qabığını verirlər. Siz nə üçün çölə atılası avadanlığı təzə tikilmiş boruyayma zavoduna göndərirdiniz?"

Sumqayıt zavodlarının sürətlə tikilməsini, şəhərin inkişafını təmin edən işgüzar adamları yüksək mükafata layiq görürdülər. O cümlədən mən də "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olundum. Respublikanın 4-cü çağırış Ali Sovetinə deputat seçildim.

Binəqədi Neft Trestinin verdiyi məlumata görə neft yataqlarının bütün istismar müddətində orada 48 milyon 805 min ton neft, 3 milyard 879 milyon kub.m qaz çıxarılmışdır. Bu böyük rəqəmdir və onun əksər hissəsi keçmiş SSRİ dövründə hasil edilmişdir.

Yalnız Binəqədi neft yataqlarından alınanları axtarıb görsək, bunun əvəzinə bu zonada nə tikilib, nə qurulub – təəssüflənməli olarıq! Əfsuslar olsun ki, o hesaba burada gözə çarpan, əhəmiyyətli bir istehsal sahəsi yaradılmayıb.

Elə bir vaxt olub ki, bəzi neft yataqlarından gündə 9-10 min ton neft istehal olunub. Heç vaxt qazma işləri, neft-qaz istehsalı belə sürətlə inkişaf edə bilməzdi. Maşınqayırma avadanlığı hazırlayan zavodlar olmasaydı, yeni dərin quyuları qazmaq üçün güclü yeraltı təzyiqə dözən fontan armaturları yaranmazdı.

Binəqədi mədənlərində həyata vəsiqə qazanan yeniliklər respublikanın bütün neft sənayesində yayılırdı.

Bizim yaxın qohumlar görkəmli neft ustaları Baxşəliyev Kərim, Baxşəliyev Balabəy və başqaları neft sənayesinin inkişafında fədakarlıqla çalışanlardan olublar. O vaxt neft istehsalında çətinlik olsa da, qazılan quyuların çoxları fontanla – kompressorla işləyirdi. İndi isə iqtisadiyyatın bu geriləmə dövründə neft sənayesində təchizat işinin olmaması müasir dövrün neftçi kadrosunu çətin duruma salır. Çoxlu quyuları işlədib, onlardan götürülən gəlir hesabına respublikanın iqtisadiyyatını qaldırmaq böyük zəhmət tələb edir. O dövrdə çoxlu talantlı buruq ustaları yetişmişdi. Rusiyadan, Ukraynadan, Tatarıstandan, Dağıstandan Bakıya - Azərbaycana çoxlu fəhlə gəlirdi. Böyük Vətən müharibəsində min nəfərdən çox neftçi mütəxəssis Volqaboyu, Ural ətrafına, yeni "2-ci – 3-cü Bakı" yaratmaq üçün oraya getdilər. Çox qısa bir müddətdə böyük iş gördülər. Bunlara baxmayaraq, müharibənin qızğın vaxtında yanacaq, sursat materialı məhsullarının 80 faizə qədərini cəbhə üçün Azərbaycan neftçiləri verirdilər. İftixar hissi ilə deyə bilərəm ki, 41-50-ci illərdə çoxlu məhsuldar quyular qazıldı, yeni-yeni neft yataqları açıldı. İldə 1 milyon 963 min 911 ton neft istehsal olundu.

Kirovneftin həyatında yeni bir canlanma dövrü başlandı. Mədəni-sosial obyektlərin tikilməsi, abadlıq işləri böyük işimizin bir qanadı idi. Əsas fikrimiz neft çıxarılmasını qaldırmaq, dayanmış quyuları işə salmaq, yeni neft yataqları kəşf etməkdən ibarətdi. Sulutəpədə bir neçə quyu qazdırdıq. Lökbatan tərəfdən Qaradağneftin müdiri Qrobşteyn Solomon bizim əraziyə girmək istəyirdi. Ancaq onun yolu yox idi. Biz

tez yol çəkməyə başladıq. Quyuları onların sərhədinə çatmamışdan qazmağa başladıq. Bizim davamıza "Azneft"in rəisi Süleyman Azad oğlu Vəzirov qarışdı. O dedi ki, mənə neft lazımdır. Kim bacarır, tez qazmağı, qoy qazsın.

Mən onu həm yol çəkməkdə qabaqladım, həm də o dağın döşündə fəhlələr üçün bir bina tikdirdim. Birinci, ikinci və üçüncü mədənlərdə qazma işləri sürətlə gedirdi. Çox gözəl, işgüzar milli neftçi kadrları toplanmışdı.

Qaz tələbatımız da ödənilirdi. Çoxlu yeni məhsuldar quyular qazıldı. O mehriban kollektivdən ayrıldığım vaxtdan çox illər keçsə də, onlar mənim üçün əziz bir xatirə kimi həmişə qəlbimdədir. O kollektiv gələcək çoxşaxəli işlərim üçün böyük ilham mənbəyim oldu.

**Sözlük**

Nobel qardaşları

*İşveç vətəndaşı olan Robert Nobel Bakı neft sənayesinin yatırımında iştirak edən ilk əcnəbidir. Əvvəlcə 1875-ci ildə kiçik bir ərazini satın alaraq öz şirkətini quran Nobel daha sonra maddi sıxıntılardan dolayı bu şirkəti Nobel Qardaşları Neft İstehsal Cəmiyyətinə çevirir.*

*Nobel qardaşları Rusiya neft sənayesinə tam sahib olmaq istəyirdilər.*

*Onlar Bakıda neft sənayesi sahəsində hər cür işdə birincilik əldə etmişdilər. Həştərxan, Çarçın, Saratov, Babruysk, Nijni Novqorod və Perm şəhərlərində ticarət nöqtələri və depoları ilə birlikdə minlərcə işçisi vardı. Bununla yanaşı, Avropada - Cenevrə, Hamburq, London, Mançestr və digər şəhərlərdə təmsilçilərə və depolara sahib idi.*

*Uzun illər Rusiyada yaşayan Nobel qardaşları bütün sərvətlərini də ölkədə qazandılar. Nobellər İsveç vətəndaşı olmalarına baxmayaraq, özlərini rus yatırımçıları qismində görür və varidatlarını yerli sərmayə kimi göstərirdilər.*

*Ata Emmanuel Nobel 1801-ci ildə İsveçdə doğulub. Memarlıq təhsili alıb. Stokholm Texnoloji İnstitutunun yaradıcısıdır. Rus hökumətinin dəvəti ilə 1837-ci ildə Rusiyaya gəlib.*

*Sankt Peterburqda inşa etdirdiyi fabrikdə mina və bunun kimi texniki alətlərin istehsalına başlayıb. 1853-56-cı illərdə, yəni Krım döyüşü zamanı hökumətin əmrilə böyük bir sifariş alan Nobel rus ordusunu silah və minalarla təchiz edib.*

*Onun Emil, Ludviq, Robert və Alfred Nobel adında 4 oğlu olub. Ən cavanları Emil 28 yaşında ölüb. Alfred mühəndis-ixtiraçı idi. Robert Bakıdakı ticarət sahəsinə ailənin diqqətini çəkən ilk insan olub. Ludviq isə Rusiya neft sənayesinin ən önəmli adları arasında idi.*

*Alfred Sankt Peterburqda təhsil alıb. Kimyadan xüsusilə xoşu gəlirmiş. O, ölümündən bir il qabaq Parisdə hazırladığı vəsiyyətnamədə fizika, kimya, tibb, ədəbiyyat və sülh sahələrində millətlərarası mükafatların təsis edilməsi ideyasını irəli sürüb.*

*İlk mükafatlar 1901-ci ildə Nobelin arzusu ilə İsveçdə Stokholm və Norveçdə Osloda təqdim edilib. Mükafat sisteminin qurulmasına Alfred Nobel 30 milyon kron ayırmışdı. Bu pulun 5 milyon 200 mini Bakı neftlərindən qazanılmışdı.*

## Sözlük

Ağa Musa Nağıyev (1848-1919)

*Bakı quberniyasının Biləcəri kəndində anadan olub. Atası saman satmaqla məşğul idi. İbtidai təhsilini kənd mollaxanasında aldıqdan sonra 25 yaşınadək orada atasına kömək edib. Bu arada atası ölür. Öləndə adamlara 300 manat borcu qalır. Ruhdan düşməyən Musa 200 manat da borc eləyib, özünə kiçik dükan açır. Beləliklə, cibində bir qəpik olmadan 500 manat borcla müstəqil fəaliyyətə başlayır. İki ildən sonra borcunu qaytarır və parça alveriylə məşğul olur. 5 ildən sonra 2000 manata qənaət edir. Topladığı pulla Qara şəhərdə əl ilə işləyən kiçik bir kerosin zavodu alır. Sonra neftli torpaq sahələri götürüb istehsala başlayır.*

*1914-cü ilin maliyyə hesabına görə Ağa Musa Nağıyevin qızılla yetmiş milyon manata yaxın tanxası varmış.*

*Ağa Musa Nağıyev "Cəmiyyəti - xeyriyyə" üçün şəhərin mərkəzində əzəmətli "İsmailiyyə" binası ucaltmasına, Realnı məktəbinin inşasını öhdəsinə alıb yarımçıq qalmış üçüncü mərtəbəsinin xərcini ödəməsinə,*

*şəhər kənarında (indiki Semaşko) xəstəxana tikdirməyinə və Bakı su kəməri üçün xeyli pul verməsinə baxmayaraq camaat onu xəsis sayırdı.*

*28 may küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera teatrının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya", "Yeni Avropa" mexmanxanaları və sair gözə gəlimli binalar Ağa Musa Nağıyevin pulu ilə tikilmişdir.*

## Sözlük

### Şəmsi Əsədullayev

*XX əsrin əvvəllərində Azərbaycanın neft maqnatlarından olmuşdur. Onun adı Nobel qardaşlarının adı ilə qoşa çəkilirdi. Neftin Rusiyaya daşınmasında buxar gəmisindən birinci istifadə edən neftxudadır.*

*O da bir çox Bakı milyonçuları kimi yoxsul ailədən çıxmışdı. 1840-cı ildə Bakının Əmircan kəndində anadan olmuşdur. Cavanlıqda atasının əkin-biçininə əl yetirirdi. Bu illərdə əmirhacıyanlıların əsas taxıl yerləri Suraxana torpaqlarında idi. 19-cu əsrin əvvəllərində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, bu torpaq sahələrinin mühüm bir hissəsi Suraxanada neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirlərindən Kokorev və Qubonin tərəfindən ucuz qiymətə alınmışdı. Onlar Suraxanada Atəşgahın yanında kerosin emal edən zavod tikdirmişdilər. Torpaqsız qalan Suraxana və Əmirhacıyan kəndliləri neft mədənlərində işləməyə məcbur idilər. Şəmsi Əsədullayev də əkinçiliyi buraxaraq neft işinə qurşanır. O, 1860-cı ildə Kokorevin yanında işlər müdiri vəzifəsinə yüksələ bilir. Bir müddətdən sonra neft və duz podratçılığı ilə məşğul olur. 15 il müddətində xeyli qazanc əldə etdikdən sonra podratçılığı buraxaraq kerosin zavodu açır. 1890-cı illərdə neft işi ilə məşğul olan bir neçə nəfər ilə birlikdə şirkət təşkil edir. Əldə edilən neftin Rusiya bazarlarına çıxarılması onu daha çox düşündürürdü. Nəhayət, 1891-ci ildə neftin Xəzər vasitəsi ilə daşınması sahəsində Bakı neft kapitalistləri içərisində ilk dəfə olaraq, buxar şxunu (iki və üç dorlu yelkəli gəmi) sifariş verir. 1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində böyük fontan*

*vurur. Fontan 56 gün davam edən quyu hər gün bir milyon altı yüz min pud neft verirdi. Bu Bakı neft sənayesi tarixində ən məşhur fontanlardan biri idi.*

*Əsədullayevin neft hasilatı artdıqca onun Volqaboyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı artırdı. Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə öz gəmilərində neft daşıtdırıb satdırardı. Camaat arasında Şəmsi Əsədullayevə Nobellərin qənimi deyirdilər. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontorları ilə üzbəüz, ya da yanaşı kontor və dükan açıb onlardan ucuz qiymətə neft satardı.*

*Şəmsi Əsədullayevin Mərdəkanda əzəmətli bir bağı vardı. Bu bağ özünün böyük sahəsi və arka qapısı ilə fərqlənirdi. Bağ 19-cu əsrin axırlarında salınmışdı.*

*Sovet hökuməti onu müsadirə edib sanatoriyaya çevirmişdi. Əsədullayev 1913-cü il 21 apreldə Yaltada günvurmadan 72 yaşında vəfat etmişdir.*

*Bu yaxın zamanda Paris şəhərində vəfat etmiş azərbaycanlı yazıçı Ümmülbənin Mirzə Əsədullayevin qızıdır. Əsərlərini fransız dilində yazırdı. O, iki milyonçu babanın – Şəmsi Əsədullayevlə Musa Nağıyevin nəvəsidir.*

**Deyilmişdir**

"İnsan fövqəladə varlıqdır."

Aristotel

"Yalnız bir tanrı var – bilik,
yalnız bir şeytan var – nadanlıq."

Sokrat

**Müəllif**

Oxucu bilir ki, qəhərmanımız 1940-41-ci illərdə Bakıda Kirov adına Neft Sənaye Akademiyasında təhsil alıb. Hələ bundan əvvəl yaşının çoxluğuna, ətrafdakı tay-tuşlarının tənələrinə baxmayaraq orta məktəb oxuyub. Vaxt tapıb hərəsi indiki səviyyə ilə müqayisədə texnikuma bərabər sənət məktəblərinə gedib, kurslar bitirib.

Əslində o, həyatın bağrından gələn adamdır; həyat, ona görə ən mükəmməl məktəbdir. Lakin buna baxmayaraq daxilindəki hansı bir qüvvəsə onu elə hey nəzəri bilikləri mənimsəməyə, dünyanın gedişatini elmi mülahizələr əsasında öyrənməyə çəkirdi. Bu məqsədinə 1947-ci ildə qovuşa bildi. Dörd il ərzində iki ali məktəbin auditoriyalarından yığışmadı. 1949-cu ilin axırlarında Kamran Hüseynov təhsilini başa vurub iki ali məktəbin – Respublika Ali Partiya məktəbinin və Bakı Dövlət Universitetinin (tarix ixtisası üzrə) diplomlarını qazandı.

XX əsrin tən ortasına çatmağına bir il qalanda, başqa sözlə, 1949-cu ildə Montin qəsəbəsindəki evdə ərlə onun ömür-gün yoldaşı arasında belə bir söhbət oldu. Kamran müəllim Zeynəb xanıma dedi:

- Zeynəb, səkkiz ildi ailə qurmuşuq, harda bir axsayan yer var, məni aparıb qoyurlar ora. Sən də mənnən əsgər həyatı yaşayırsan. İndi də Mingəçevirə təyin elədilər. Əslində bunu gözləyirdim. Gərək yığışaq.

**Salnamə**

...Bakıda rahat yaşamağa yenicə alışmışdıq ki, indi də gedib daxmada daldalanacaqdıq. Rəhmətlik heç etiraz etmədi. Təkcə onu dedi ki, bu, dövlətin göstərişidir. Madam ki, səni oraya məsləhət görüblər, deməli getməliyik.

**Şeir**

Sahilində qaldım Kürün
Verdim Kürlə baş-başa mən,
Səhərə tək göz yummadım
Etdim ona tamaşa mən.

Qucaqlaşıb Kürüm ilə
Öpdüm onu neçə kərə
Gör biz necə qovuşduq ki,
Axır mən də döndüm Kürə-
Kürə döndüm!
Kürə!
Kürə!

Artdı gücüm milyon kərə
Şirvan, Qarabağ kanalı-
Mənim iki güclü qolum;
Qucaqladım ana yurdu,
Əbədiyyət oldu yolum.

Sinəm üstə ulduzlar, Ay,
Könlümdə xalq məhəbbəti.
Eldən-elə axıb getdim
Dalğamda dağ əzəməti.

Bircə kəs də bilmədi ki,
Kür bu gecə o Kür deyil,
O, canlıdır, görür, duyur
Şeir yazır, şeir deyir.

Oldum işıq, zəmi, dəniz
Yuxlamadım səhərəcən
Gecələdim bir gecədə
Min-min evdə, mahalda mən.

Kür özü də bilmişdi ki,
Səsi güclü gur olmuşam.
Xoşbəxtəm ki, heç olmasa,
Bir gecəlik Kür olmuşam.

**Müəllif**

Azərbaycan poeziyasının həmişəcavan və təravətli şairi ölkənin şah damarı Kürə, Kürdən yaranmış Mingəçevir dənizinə, nur, işıq dəryaçasına bu şeiri həsr edən il şəxsiyyətə pərəstiş etapı sona yetmiş, Stalin ölmüş, Mircəfər Bağırov işdən götürülmüş, Kamran Hüseynov isə Mingəçevirdə möhtəşəm təşkilatçılıq fəaliyyətinə nöqtə qoyaraq Neftçala rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyinat almışdı.

Əli Kərimin nəğməsində nəticə barədə danışılır. Şair səhərə qədər gözünü yumub çimir almadan sahildə dayanaraq evlərə işıq daşıyan Kürə tamaşa eləyir.

Prosesin özü isə əməlli-başlı romandır. Üsluba uyğun olaraq biz onu hekayət adlandırdıq.

**Hekayət**

Nağıl dili sirli olar, bəzən o, uzun illər sırası irəli getdiyi kimi, uzun illər sürəsi geri də qayıda bilir!...

Biri var idi, biri yox idi, Hərtiz dağının ətəklərində bir kənd vardı. O kənddə Məmmədağa adında ərəbi, farsı bilən, Quran oxuyub, namaz qılan bir kişi vardı. Onun oğlunun adı Əsəd idi. Əsədin iki oğlu, iki qızı vardı. Oğlanlardan böyüyü Kamran idi ki, günlərin bir günü ilk olaraq dolanışıq dalınca, axtarıb özünü tapmaq fikri ilə Akara stansiyasında üç gün qan-tərə batıb yekə bir vaqona çəltik yükləyib iyirmi manat qazanmışdı, dubarə cibində əlli qəpik, qoltuğunda bir bağlama yavan çörək vardı.

O, üç gün, üç gecə vaqona çəltik yükləyib qazandığı iyirmi manatı əl dəyəndə canı çıxan həmyerlisi Məhərrəmlə qardaş malı kimi yarı bölmüş, kənddə gərək olar deyə, pencəyini də əynindən soyunub gedən birisiylə kəndə göndərmişdi. Və qatara minib Bakıya gəlmişdi.

Duda zavodu, peşə öyrənmək, təhsil almaq cəhdləri, neft çalışmaları, Sumqayıtın özül daşlarının düzülməsi, rayon rəhbəri, müharibə, yenidən Sumqayıt və ayağı altında getdikcə bərkiyib möhkəmlənən vəzifə, səlahiyyət pillələri... Siz artıq bunları bilirsiniz...

Müharibədəki möhtəşəm qələbə SSRİ dövlətini hər şeyi yenidən düzəltmək qənaətinə gətirdi. Nəhayət, köhnə dünya ilə üzülüşmək, insanların həyatını toparlaya bilən əsasları nəzərə almaq lazım idi.

Repressiyalar müalicə etmir, şüarlar mənzil və çörək deyil. Dünyanın böyük bir ərazisində milyon kvadrat kilometrlərlə hesablanan bir müstəvi, böyük torpaq insanın ayaqları altında olduğu halda, o torpaqların üstü də, təki də xəzinə olduğu halda insanın qazanında daş qaynaya bilməz. Belə bir quruluş ən qısa zamanda özünü ifşa edib darmadağın ola bilərdi.

İndi insanların taleyini proses müəyyən edirdi. Ötən əsrin 40-cı illərinin sonu, 50-ci illərdən başlayaraq tərkibində Azərbaycan da olan Sovet dövləti tarixi bir missiyanın reallaşmasını, ağır keçid dövrünü (iqtisadi, siyasi, sosial, mənəvi sahələrin hamısında) təşkil edə bilmişdi.

Azərbaycanda, digərləri ilə yanaşı o zamanın bütün cizgilərini özündə cəmləyən insan, vətəndaş, rəhbər obrazlarından biri, heç şübhəsiz ki, Kamran Hüseynovdur. Onun obrazı hay-küydən, demoqoqiyadan uzaqdır. Orada çətinliklər, həyəcanlar, geniş miqyaslı zəhmət var, amma ziddiyyətlər, dirənişlər yoxdur. Bu, Sovet dövlətinin sevdiyi insan tipidir. Amma deyildiyi kimi, insan da fövqəladə varlıqdır. Vəziyyətin içində fərdi intellekt və təcrübəni tətbiq etmək yeganə çıxış yolu kimi görünür. Bəlkə də başqalarında ictimai mühitə bu sayaq yanaşma olmayıb. Amma Kamran Hüseynov bütün həyatı boyu real vəziyyətdən çıxış edərək, hər dəfə cəmiyyətin inkişafında və şəxsi karyerasında elə nəticələr ortaya qoyub ki, indi həmin yekunlar tarixi mahiyyət daşıyır...

1945-ci il. Möhtəşəm Qələbə günündən iki ay keçib. Azərbaycan Kommunist (b) Partiyası MK-nın az qala həmin o qələbə təntənəsinə bərabər toplantısı çağırılıb. Respublikanın bütün aktivi dəvətlidir. Ən azı buna görə, təbii ki, Binəqədi rayon partiya Komitəsinin birinci katibi Kamran Hüseynov da oradadır. O, adəti üzrə arxa sıradadır. Böyründə şair Səməd Vurğun əyləşib (onlar çox zaman belə toplantılarda yanaşı oturarmış).

Barmaqlarının onu da sarıqlı (nədənsə) Mircəfər Bağırov salona daxil olur və həmişəki qaydada rəyasət heyətinin "taxtına" yox, birbaşa kürsüyə qalxır, aram-aram, get-gedə artan səslə danışmağa başlayır.

Zal səsini içinə çəkib. İstidir. Yalnız ona görə yox ki, iyulun sonudur, hamıya çörək verən qırlı Bakının cəhənnəm fəsli hələ təzə başlayıb, ona görə ki, Mircəfər Bağırov kürsüdədir və bu an elə gözlənilməz hadisələr baş verə bilər ki, bizim bu hekayətimiz onun yanında heç nə olar...

O (Mircəfər Bağırov) deyir...

**Salnamə**

...O əvvəlcə alçaqdan danışmağa başlayır, sonrasa səsini yavaş-yavaş lap radio dalğası kimi ucaldırdı. Yenə də sözə yavaşdan başlayıb, sonra ucadan danışmağa keçdi. Axırda var səsiylə dedi: "Yoldaş Stalin Mingəçevir hidrotexnika qurğusunun tikintisinə qol çəkib."

**Müəllif**

Kamran əminin yaddaşına, onun gerçəkli yazıçı məharətinə heyrət və ehtiram əlaməti olaraq "Salnamə"dəki sətirləri bir kompüter yazısı kimi ən sonda kompüterlə üzə çıxacaq bu romanın yaddaşına yükləməyə məcburam.

**Salnamə**

Xudaya, bu xəbər sanki salondakı adamların hamısının ürəyindən imiş. Hamı həyəcanla, sevinclə əl çalırdı, alqışların ardı-arası kəsilmirdi. Gördüm ki, Bağırov üzünü yana tutub gözünün yaşını silir. Camaat sakitləşəndən sonra üzünü salona tutub dedi:

- Yoldaşlar, mən Stalin yoldaşa söz vermişəm ki, biz bu

qurğunu tikəcəyik! Mingəçevirlə Bakının arası 300 kilometrdir. İnşaat gedən yerin şəraiti olduqca pisdir. Ağcaqanad dolu, malyariya xəstəliyi baş alıb gedir. Yatmağa yer də yoxdur. Hələ kartoçka sistemidir. Biz onu necə tikəcəyik? Azərbaycanda belə bir obyektin tikilməsi inqilabdır. Xalqın ürəyindən olan bir tikintidir. Bu bizim gələcək müqəddəratımızı həll edən bir məsələdir. Mən bütün gecəni yatmamışam. Fikirləşmişəm ki, Mərkəzi Komitənin büro üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini, Dövlət Plan Komitəsinin Sədri İslam Məmməd oğlu İsmayılzadənin bütün hüquqlarını (yəqin ki, səlahiyyətlərini – V.B.) saxlamaq şərti ilə tikintiyə rəhbər təyin edək. Mərkəzi Komitə katiblərindən birini də oraya MK-nın nümayəndəsi kimi təyin edək.

**Müəllif**

Fəhm var, ona inanmayana Allah qənim. Fəhm bir çox həyat əhəmiyyətli məsələlərin həllində şüurlulara kömək eləyir. Neçə illər qabaq iki yüz həmyerlisi ilə birlikdə Bakıya gəlib duda zavodunda işə duranda xalası oğlu Paşa Kamranı məşhur neft ustası Kərim Baxşəliyevin yanına aparmışdı. On gün məşhur ustanın qapısının ağzını kəsdirsələr də, görüşmək mümkün olmamışdı. Nəhayət, gedib məşhur ustanı evində yaxalamışdılar. Usta Kərim isə Paşaya acıqla baxıb "Apar bunları Xocahəsəndən mindir qatara, getsinlər kəndə" - demişdi. Bəlkə də məşhur Usta Kərim o zaman gözü işığa düşüb çaşmış bu uşaqlara bu sayaq bəyanat verməyində haqlı imiş. Amma, ancaq və lakin... o ağır bəyanatı eşidəndə Kamran tam qətiyyətlə mövqeyini elan etmişdi; mənə başqa adamın düzəltdiyi iş lazım deyil, öz iş yerimə - Binəyə qayıdacağam...

Necə düşünək, onun başabaş bütün həyatı bu fəhmdən, bu seçimdən başlamırmı? Sual işarəsi yersizdir. Ağıllı insanların fəhmi mütləq özünü doğruldur.

Dedik axı, həmin o iclasda Kamran arxa sırada şair Səməd Vurğunla (gərək şairlər Allaha şükür etdinlər ki, indi onları tikintiyə həsr olunmuş iclaslara çağırmırlar) yanaşı əyləşmişdi. İndi məlum olur ki, Bağırovun toplantısında da kimsə əyilib kiminsə qulağına nəsə deyə bilirmiş.

**Salnamə**

...Ona tərəf dönüb dedim:

- Lələ, oraya mən gedəcəyəm.

- Ayə, haraya gedəcəksən? Görmürsən, haradan, kimlərdən başlayıb?

- Bəs siz görmədiniz ki, Bağırov "Mərkəzi Komitə katiblərindən biri" deyəndə katiblərin rəngi limon kimi saraldı? Onların nəfəsi güclə gedib-gəlir. Heç birinin Mingəçevirə gedəsi halı yoxdu. Ora mən gedəcəyəm!

**Sözün qüvvəti**

Kamran bu sözləri iyirminci yüzilin şairlik simvolu Səməd Vurğuna bir az ciddi, bir az da zarafatla demişdi.

Sözün düzünü zarafatla deyərlər. Hər zarafatın içində nəsə bir gerçək var...

**Sözlük**

Səməd Vurğun (1906-1956)

*Azərbaycanın ilk xalq şairi (1956), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1943), iki dəfə Stalin mükafatı laureatı (1941, 1942)*

*və iki dəfə Lenin Ordenı kavaleri, Azərbaycan Yazıçılar İttifaqının sədri (1941-1948), Azərbaycanın Xarici Ölkələrlə Mədəni əlaqə Cəmiyyətinin sədri, Azərbaycan SSR EA-nın akademiki (1945) və vitse-prezidenti (1954-1956).*

*Xalq yazıçısı Yusif Səmədoğlunun, Əməkdar incəsənət işçisi Aybəniz Vəkilovanın və Xalq şairi Vaqif Səmədoğlunun atasıdır*

*Səməd Vurğun Qazax qəzasının Yuxarı Salahlı kəndində bəy nəslinə mənsub ailədə anadan olub. Vəkilovlar adlanan nəslin azı 400 illik tarixi var. Şair ibtidai təhsilini kənddəki rus-tatar məktəbində alıb.*

*6 yaşı olarkən anası Məhbub xanım 28 yaşında vəfat edib. Səməd atası Yusif ağanın və ana nənəsi Aişə xanımın himayəsində böyüyüb.*

*Səməd Vurğun seminariyanı bitirdikdən sonra (1924) Qazax, Quba və Gəncədə Azərbaycan dili və ədəbiyyatını tədris etməyə başlayır. 1920-1930 illərdə şairin səsi ciddi surətdə ədəbi mühitin və geniş oxucu kütlələrinin nəzərini cəlb edir. "Şairin andı" (1930) S.Vurğunun ilk kitabıdır.*

*1930-1940-cı illər Vurğun istedadının çiçəklənməsi və yüksəlişi dövrüdür. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunmuşdur. Bu dövrdə şair, Azərbaycan poeziyasının dilini bir çox əcnəbi sözlərdən təmizləyərək, Azərbaycan ədəbiyyatını və dramaturgiyasını yeni əsərlər hesabına zənginləşdirmişdir. Yalnız 1935-ci ildə Səməd Vurğun 7 poema və 100-ə yaxın şeir yazmışdı. 1934-cü ildə yazılmış "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir.*

*1937-ci ilin ikinci yarısında Səməd Vurğun "Vaqif"i, 1941-ci ildə Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" mənzum dramını yazır.*

*Şairin yaradıcılığında Bövük Vətən müharibəsi dövrü xüsusi yer tutur. Onun müharibədən sonrakı dövr yaradıcılığı da çox məhsuldar olmuşdur. Şair bir-birinin ardınca "Muğan" (1948), "Aygün" (1950-1951) və "Zamanın bayraqdarı" (1952) poemalarını qələmə almışdır.*

*Həyatının son illərində yazdığı şeirləri onun yaradıcılığının yeni mərhələsini təşkil edir. Onlar rəngarəngliyi və poetikliyi ilə seçilən şeirlərdir. Bu şeirlər həyata bağlılıq, insanların dostluq və xeyirxahlıq kimi keyfiyyətlərini əks etdirməklə yanaşı, şairin vətən və xalq qarşısındakı müqəddəs borcunun ifadəsi idi.*

*Səməd Vurğun yaradıcılıq uğurlarına baxmayaraq 1953-cü ildə haqsız hücumlara, təzyiqlərə məruz qalır. Lakin həmin il Stalinin ölümündən*

*sonra SSRİ və respublika rəhbərliyində baş verən dəyişikliklər nəticəsində ondan əl çəkirlər.*

*1955-ci il oktyabr ayında Səməd Vurğun SSRİ nümayəndə heyəti tərkibində Vyetnama gedərkən yolda xəstələnir və səfərini yarımçıq saxlamalı olur.*

*1956-ci ilin martında 50 yaşı tamam olur. Yubiley təntəsindən iki həftə sonra, may ayının 27-də vəfat edir. Məzarı Fəxri Xiyabandadır.*

**Sözün qüvvəti**

Yoldaş Bağırovun Mingəçevir toplantısı 1945-ci ilin iyul ayında olmuşdu. Kamran yarızarafat, yarıciddi "Ora mən gedəcəyəm" sözlərini də şairin qulağına həmin vaxt, elə iclasdaca pıçıldamışdı.

Onun pıçıltısının gerçəyə çevrilməsi üçün təqribən üç il ötdü.

Əslinə qalanda Kürün Mingəçevir hissəsində su bəndi yaratmaq, oradan başlayaraq Kür-Araz ovalığının su ehtiyacını ödəmək çoxdanın söhbəti idi. Kamran Hüseynovun yazdığına görə (bax: "Quruculuğa həsr olunmuş ömür" – V.B.) Şəki hakimi Hacı Çələbi xan, Gəncə hakimi Cavad xan, sonralar Müsavat hökuməti Kürün qabağını kəsib su anbarı tikmək istəyiblər. Müsavat hökuməti xaricdən bilikli mühəndislər çağırıb. Nəticə olmayıb. Çünki dəli Kürü cilovlamaq üçün böyük maliyyə lazım idi. Sovet hakimiyyəti qurulandan dərhal sonra istəyiblər ki, 20 metr hündürlüyündə bənd atıb Kürü istənilən məqsəd üçün ram etsinlər. Hesaba vuranda məlum olub ki, astarı üzündən baha başa gəlir. Həqiqətdə isə burada elə bir qurğu yaratmaq lazımdı ki, həm elektrik enerisi hasil etmək mümkün olsun, həm də Azərbaycanın

aran bölgələrinin su deyib mələşən tarlaları suvarılsın. Əgər Mingəçevidə 90 metr hündürlüyündə bənd atmaq mümkün olsaydı, onda saatda 372 kilovat enerji alına bilər, Yuxarı Qarabağ kanalını çəkməklə saniyədə 110 kubmetr su axıdılardı. Üstəlik Şirvan kanalı işə düşərsə, bu rəqəmin üstünə saniyədə 70 kubmetr su axınını gəlmək lazım olacaqdı.

Mingəçevir dənizinin yaradılması indiki dillə desək, həqiqətən də Azərbaycan yurdu üçün taleyüklü məsələ idi. Hətta Mircəfər Bağırov o yığıncaqda çıxış edərkən, sanki hər addımda Kürün mərhəmətindən yararlanan bugünkü Azərbaycanı görmüş və hökmünün qüdrətinə uyğun bir mübhəmliklə üzünü adamlardan gizlədib gözündən axan yaşı xəlvətcə silməyə çalışmışdı.

Sonra tikinti başladı. Ora 20 min dustaq gətirilmişdi. Üstəgəl 20 min hərbi əsir və qıraqdan-bucaqdan tökülüşüb gələnlər. Orada 50 min insan toplaşmışdı. Məcburən, bir qarın çörək üçün, könüllü. Vətən naminə nəsə eləmək istəyənlər də az deyildi. Di gəl iş sürünürdü. İllər keçir, Mingəçevir hansısa qəribə varlıqlar tərəfindən eşənək atılmış bir məskən olaraq mürgü döyürdü. Hətta Mərkəzi Komitənin büro üzvü, Nazirlər Soveti sədrinin birinci müavini, Dövlət Plan Komitəsinin sədri İsmayılzadənin Mingəçevir layihəsinə rəhbərlik etməsinə baxmayaraq ağır daş yerindən tərpənmirdi...

Sıra nəfəri deyildi İsmayılzadə.

### Salnamə

...Bu adam bədəncə çox sağlam, rusca savadlı mütəxəssis idi. Təhsilini Leninqradda almışdı... Bakıda tütün fabrikində

işləyəndə M.Bağırov işgüzarlığını görüb onu daim yuxarı mərtəbələrə, ta Dövlət Plan Komitəsinin sədri, Nazirlər Sovetinin sədr müavini, büro üzvü, Ali Sovetin deputatlığı vəzifələrinə qədər yüksəltmişdi... O, Mingəçevirə lazımlı adamdı. Tükənməz iş qabiliyyəti vardı, çox gözəl təchizatçıydı. Lakin yuxarıdakılar M.Bağırovun yanında onu gözdən saldılar. Elə oldu ki, onun arvadını həbs etdilər.

...İsmayılzadənin Mingəçevir tikintisində çox böyük xidmətləri olub...

**Müəllif**

Söz var, deyir: Allah adamı böyüklərin qəzəbindən saxlasın. İndi bu gündən baxanda açıq-aşkar görünür ki, keçmişdə ağıllı əşrəfi-əyandan, Sovet vaxtında gözəgəlimli, işgüzar, xalq içində hörmət qazanan rəhbər kadrlardan ehtiyatlanmaq, müəyyən xətdən sonra onların inkişafını əngəlləmək tədbirləri mövcud olmuşdur. Stalin on minlərlə insanı perspektivinə görə qətlə yetirmişdi. Çünki o özünə bənzəyən neçə-neçə Stalini aradan götürərək hakimiyyəti qəsb etmişdi. O, tarixin zülmlərini ayaqlayan milyonlarla insanın arzusunu, marksist fəlsəfəni, sosial ədalət anlayışını özünün şəxsi kolxozuna çevirmişdi. Belə bir mühitdə qarşısındakı hər hansi bir insana inanmaqdan söhbət gedə bilməz. Stalinin hakimiyyətdə olduğu müddətdə ondan daha ağıllı, daha qabiliyyətli, daha intellektual insanlar olub. Hansı səbəbə görə insan mukafatlandırılmalıdırsa, o səbəbdən cəzalanıb. Belə biyabırçılıq mifologiyada da yoxdur. Mifologiyanın münasibətləri qələmlə, sözlə nizamlamaq, həqiqəti hikmətlə an-

latmaq imkanı hüdudsuzdur. Əli qılınclı həyat isə amansızdır. Bəzən həyatın qələmi, nizamlayıcısı, başqa sözlə, qanunları qeybə çəkilir. Sadəcə hökmün icra edildiyi məqam mövcud olur.

Həyata bu imkanı yaradan kütlədir, xalqın səviyyəsidir.

Dəhşət burasındadır ki, bu səviyyənin meyarlarını, miqyasını hakimlər müəyyən edirlər.

Kamran Hüseynovun "Salnamə"sində İsmayılzadənin məhz işgüzar, savadlı, Allahın işinə bax ki, həm də bədəncə möhkəm və sağlam olmağına görə təzyiqlərə məruz qaldığına açıq işarə var. Özü isə hər addımda ehtiyatla tərpənir, axı o da yaradıcı başlanğıca malikdir, onun da canında duenda var, düşünə bilir, mahir icraçıdır.Qısqanclıq onsuz da var, amma nə olsun, ən ali insanı keyfiyyətlərinə görə (məhz buna görə) bircə anda böyüklərin qəzəbinə gələ bilər, aradan götürülər.

Görünür, onun taleyində, alın yazısında qəza yox imiş. Deyir, itlə dostluq elə, amma çomağı əldən yerə qoyma. Məsələ itdə və çomaqda deyil, bu atalar sözündə daim ehtiyyatlı olmaq buyurulur. Bəzən başı salamat saxlamaq qəhrəmanlıq sayıla bilər.

**Şeir**

Ötərgi yellərə vermə ki, yaşı
Adama qocalmaq, qarımaq qalır.
Böyük iş görülüb, yaradılmışıq,
Bizə özümüzü qorumaq qalır.

Gözündən süzülən yaş arasında
Gərək saxlayasan quru özünü.
Qış-bahar, göz ilə qaş arasında
Gizlənən ölümdən qoru özünü.

İndi ki, əkmisən, durginən hazır-
Adam var oğurlar dağı kökündən.
Bir də görərsən ki, bostan nə gəzir,
Görəsən çıxıbdı tağı kökündən.

Çöldə kəpənəyi, yamacda gülü,
Çaydakı daşı da qorumaq gərək.
Ananı, vətəni, qardaşı, eli,
Əlbəttə başı da qorumaq gərək...

***

Sovet təbliğat maşını Mingəçevirin adını bütün dünyaya yaymağa başladı, Moskva radiosu, demək olar, hər gün Mingəçevir mövzusunda reportajlar verir, Sovet adamlarını bu zərbəçi tikintidə iştiraka dəvət edirdi. Bəs necə, 1945-ci ilin iyulun 6-da Azərbaycan K(b)P MK-nın təşəbbüsü ilə hazırlanmış tədbirlər planına "ellər atası" – Stalin özü qol çəkmişdi.

Aradan üç il keçib, müəyyən əsaslar yaradılıb, amma iş axsayır. İnsanları, azdan-çoxdan texnikanı yığıb ora tökməklə Kürün qabağını kəsib dəniz yaratmaq, elektrik enerjisi almaq mümkün deyil. Halva-halva deməklə ağız şirin olmur. Elə bu səbəbdən respublikanın rəhbəri Mircəfər Bağırov əfi ilana dönüb İsmayılzadəyə qan uddurur.

“Salnamə”dən məlum olur ki, Stalin Mingəçevir məsələsində buraxılan səhvlərə görə Bağırovu əməllicə danlayıbmış. Bu yandan da Millətlər Təşkilatı Mingəçevirdəki hərbi əsirlərin vəziyyətinin dözülməz olduğu barədə etirazını bildirib.

Bağırov İsmayılzadəni asıb-kəsib, dişinin dibindən çıxanı deyəndən bir neçə saat əvvəl, Kamranı çağırmış, onu Mingəçevirin inşasına dair tədbirlər planı ilə tanış etmişdilər. İndi isə salonu qorxu və həyəcan bürüyüb. Allah bilir, kimin boynu vurulacaq, çanaq hansı bədbəxtin başında çatlayacaq?

- Sən, yoldaş İsmayılzadə, partiyanın böyük təşəbbüsünü öz maymaq davranışınla heçə-puşa çıxarmısan! Sovet xalqı gözünü Mingəçevirə dikib, oraya o qədər insan qüvvəsi göndərilib. Sən isə oturmusan Bakıda, yerin istidir. Niyə anlamırsan ki, burda, rahat kabinetdə əyləşib, yumşaq yorğan-döşəkdə yatıb Mingəçevir hidroqurğusunu tikmək olmaz?

**Salnamə**

Bunu (İsmayılzadəni-V.B.) tamam şil-küt edəndən sonra məni ayağa qaldırıb (Bağırov-V.B.) dedi: “İndi oraya Hüseynov gedəcək. Mən inanıram ki, biz indi Mingəçeviri tikib başa gətirə biləcəyik.”

Bayaqdan qorxudan baş qaldıra bilməyən katiblər yerdən xorla dilləndilər: “Düzdür, yoldaş Bağırov. Tamamilə doğrudur. O, işin öhdəsindən gələ bilər.

**Sözün qüvvəti**

...1948-ci ilin axırında Kirov rayon Partiya Komitəsinin birinci katibi Kamran Hüseynovun həyatının Mingəçevir mərhələsi başladı.

İndi onu dəli Kürlə böyük çarpışma gözləyirdi...

**Sözlük**

Kür çayı

*Qafqazdan axır, uzunluğu 1515 kilometrdir. Üç ölkənin – Azərbaycan, Türkiyə və Gürcüstan ərazisindən adlayır, iki qonşu ölkədən keçən Kür Azərbaycan ərazisində ən böyük qolu Araz çayı ilə birləşib Xəzər dənizinə tökülür. Çay boyunca insanlar qədimlərdən məskən salmışlar, təxminən 4500 il əvvəlllər burada əkin-tikin işləri aparılıb. Ötən yüzillikdə Kür daşqınları artıb. Üzərində təsərrüfat məqsədi ilə su anbarları yaradılıb. Çay Azərbaycan ərazisində 906 kilometr uzunluqdadır. Mənbəyi Türkiyədə Qızıl Gədik dağının 2740 metr yüksəkliyindədir. Kürün ən böyük qolu Araz çayı da Türkiyənin Bingöl deyilən yerindən qaynaqlanır. Tarixi ədalətsizlik nəticəsində ikiyə bölünmüş Azərbaycanı bu çay ayırır.*

**Sözlük**

Mingəçevir

*"Mingəçevir" toponimin yaranması barədə müxtəlif ehtimallar var. Burada e.ə. I əsrdə məşhur Roma sərkərdəsi Pompey və alban çarı Oris arasında döyüş olmuşdur. Tarixçilərin təsvirinə görə albanlar indiki su bəndinin ərazisində Pompey qoşunlarının qarşısına çıxmışlar. Oris ordusunun bir hissəsini ayrı-ayrı manqalara bölüb ehtiyatda saxlamış və lazım gəldikdə "Manqaça vur" sözləri ilə əmr etmişdir. Başqa bir versiyaya görə Elxanilər hərəkatının yatırılması üçün Azərbaycana göndərilmiş ərəb sərkərdəsi Məniçöhrün qızı döyüşlərin birində həlak olur. Atası onu yadigar qılıncı və atı ilə birlikdə Kürün sahilində dəfn edir. Ehtimal olunur ki, "Mingəçevir" sözü Məniçöhrün adı ilə bağlıdır.*

*Mərhum akademik Ziya Bünyadov "Mingəçevir" adını 839-cu ildə xilafətə qarşı çıxmış Babək üsyanını yatırmaq üçün Azərbaycana göndərilmiş ərəb sərkərdəsi Mingəçevir Əl-Fərqaninin adı ilə bağlayır.*

*Professor T.Hacıyev Azərbaycanın qədim dövləti Midiyanın Mannanın xarabalıqları üzərində, məhz onun əsasında yarandığını qeyd edir. T.Hacıyevin fikrincə albanların "mik" tayfası qədim mak (manq-manna) tayfa birliyinin davamıdır. "Mik" sözü "mak" sözünün fonetik variantıdır və bu sözün əsli ehtimal ki, "minq" şəklində olmuşdur. Ona görə də T.Hacıyev "manna" sözünün mənbələrdə göstərilən "minni" variantını "minqi" (minqe) şəklində görməyi doğru sayır və "Mingəçevir" adının "minki" və "savir" tayfa adlarının birləşməsindən yarandığını bildirir. Minkisavir, Minkicavir, Mingəçevir. Savirlər tarixən Qafqazda yaşamış və Azərbaycan xalqının soykökündə iştirak etmiş qədim türk tayfasıdır. Tanınmış alim Əjdər Fərzəli Qorqud "bu yerlərin qədim yaşayış məskəni Sevit torpağı" Mingəsi adını daşıdığını bildirir. Mingə qədim türk qəbiləsinin adı olub.*

*Beləliklə, Sevit Mingə, Mingə Sevit adı zaman keçdikcə Mingə Sevit, nəhayət, bu günkü Mingəçevir şəklinə düşmüşdür.*

*Mingəçevir ərazisi yaşayış məntəqəsi kimi çox qədimdir. 5 min il bundan əvvəl burada kiçik şəhərin qaynar həyatı mövcud olmuşdur. Yerli əhali əkinçilik, sənətkarlıq, balıqçılıq, atçılıq və s. məşğul olaraq özlərinin maddi və mənəvi aləmini yaratmışlar. Sonra gələn minilliklərdə, xüsusilə antik dövrdə də ulularımız özlərinin alban tarixi və mədəniyyətini, ədəbiyyatını yaratmışlar. Bu baxımdan Mingəçevirdə tapılan maddi-mədəniyyət qalıqlarından alban yazıları və kitabə böyük əhəmiyyət daşıyır. Bu ərazidə yaşayış hələ e.ə. III minillikdə mövcud olmuşdur. Arxeoloji qazıntılar sübut edir ki, burada yaşayan insanlar böyük şəhər mədəniyyətinə malik olublar. Tapılan yunan, Roma və arşap pulları sübut edir ki, şəhərdə ticarət inkişaf edibmiş.*

*Aparılan arxeoloji qazıntılar zamanı çox maraqlı qədim əşyalar tapılmışdır. Məsələn, Azərbaycanda tapılmış ən qədim sırğa Mingəçevirdən, Tunc dövrünə aid edilən kurqandan tapılmışdır. İlk dəfə burada 1871-ci ildə həvəskar arxeoloq F.S.Bayer tərəfindən səthi tədqiqat işləri aparılmış, o, Mingəçeviri dirəklər üzərində qurulmuş şəhər kimi təsvir etmişdir. Arxeoloji qazıntılar zamanı eneolit dövründən başlayaraq (b.e.ə.*

*III minillikdən XVII əsrədək) ayrı-ayrı tarixi dövrləri özündə ardıcıl əks etdirən 20 mindən artıq (bəzi mənbələrdə 40 min) maddi – mədəniyyət nümunələri tapılmışdır.*

**Hekayət**

Mingəçevir inşaatınada Ümumittifaq Kommunist Partiyasının səlahiyyətli münayəndəsi təyin olunmuş Kamran Hüseynov səhər erkən, elə evdəncə iki şəxsə zəng elədi.

Birinci zəng. Telefonun o başında İsmayılzadənin səsi:

- Eşidirəm.
- Sabahınız xeyir, yoldaş İsmayılzadə.
- Sabahınız xeyir, Kamran müəllim.
- Saat neçədə cıxırıq Mingəçevirə?
- İşə dəyim, bir-iki sənəd imzalamalıyam, sonra, ya Allah, tərpənək. Uzağı bir saat vaxt çəkər.
- Danışdıq...
- Danışdıq. Sağ olun.

İkinci zəng. O, səhiyyə naziri Ağayevə telefon açır.

- Sabahınız xeyir, yoldaş Ağayev, sizi Kamran Hüseynov narahat edir.
- Buyurun, yoldaş Hüseynov.
- Bilirsiniz ki, Mingəçeviri tikən kontor Azneft meydanında, sizin binanızda yerləşir. Bu gündən biz oradan köçürük... Binanı təmir etdirmək bizlikdir. Təhvil ala bilərsiniz.
- Ay sizi xeyirxəbər olasınız, bilirsiniz necə ehtiyac var o binaya? Sahə böyük, yerimiz az. Təşəkkür edirəm sizə...

Onları gətirən "QAZ-64" Mingəçevirə günortadan bir qədər ötmüş çatdı. Nəhəng inşaat sahəsi... ucu-bucağı

görünmür. Oranı bir az eşiblər, buranı bir az oyublar, hər tərəf daş, qum, texnika, baş girləyib bir təhər gününü sovuşduran insanlar. Bozdağın gün işığında az qala əhəng qədər ağaran girinti-çıxıntıları açıq ağızdakı ağappaq dişlər kimi görünür.

Kamran o dağlara baxdı. Bir anlıq ona elə gəldi ki, Bozdağ it gününə salınmış bu inşaat meydanına, bu meydanda tör-töküntü arasında Hindistan kütləsi kimi qaynaşıb avaralanan bu cındır adamlara baxıb hirslənir və hirsindən gülür.

Bir topa adam, əgər adam demək olardısa, təşrif buyuran rəhbər işçiləri, yəni yoldaş İsmayılzadəni və yoldaş Hüseynovu əhatəyə aldı.

Neyləsin Kamran? Danlasınmı, tənəli sözlər desinmi? Bu Mingəçevir ki, var ha, bax bu Mingəçevir Azərbaycanın xoş gələcəyi deməkdir, siz niyə gələcəyinizə xor baxırsınız? Beləmi söyləsin?.. Əsla, onsuz da Allah vuran, dəhşətli müharibədən ayaqlar altında tapdanmış boş konserv qutusu kimi əzik-üzük çıxan bu adamları danlayıb, üzünə itin sözünü demək yox, onlara kömək etmək lazımdır. Kürün qabağını kəsib tarlalara su, evlərə nur verməzdən irəli, sınmağa, qəhr olmağa girəvə gəzən bu insanların içinə, qəlbinə işıq çəkmək gərəkdi. Kürü ram etmək üçün onların vücudundakı güc oyanmalıdır.

36 yaşlı Kamran (indiki zamanda bu yaşda cavanlar, lap elə qızlı-oğlanlı, parazit kimi valideynlərinin qanını soraraq barlarda, restoranlarda gecələyir, yaxud hava alanlarından, uçaqlardan ayrılmayıb, o şəhər sənin, bu şəhər mənim, o ölkə sənin, bu ölkə mənim deyib, mənasiz yerə aləmi dolaşırlar) salam-kalamdan sonra bir az susub demək olar ki, bircə-bircə dövrəsinə yığılmış insanların gözünün içinə baxdı. Dedi:

- Hə, qardaşlar,nədi dərdiniz? Neyləyək indi?

Səlahiyyətli nümayəndə işin adını tutmadı, ümumi danışdı. Zatən, nəyisə konkretləşdirməyə ehtiyac da yox idi. Vəziyyət Bozdağı açıq ağızdakı dişlər kimi ağardan gün işığı qədər aydın idi.

Başında günlüklü papaq olan, uzun boğazında hulqumu qabarmış arıq bir kişi (burda heç kök adam yox idi, hamı arıqdı, hərəsi bir formada) ehtiyatla dilləndi:

- Müəllim, əvvələn, xoş gəlmisiniz. İndi bizim halımız budur, burda vəziyyət belədir...

- Niyə belədir vəziyyət?

- Çünki, müəllim, bizim yiyəmiz yoxdur. Deyirlər, kontorumuzun böyüyü şəxsiyyətli bir kişidir, oturur Bakıda. Üç ildi bizi yığıb töküblər ilanmələməz çölə. Biz o şəxsiyyətli adamın üzünü bircə kərə də görməmişik. – O çəkincəkli nitqinə ara verib böyründəki yoldaşlarından sözünə dəstək istədi: - Bəlkə səhv danışıram, ay camaat?

Hər tərəfdən dəstək gəldi:

- Düzdü, qardaş, lap düz deyirsən...

Uzunboğaz, hulqumlu kişi bir qədər ürəkləndi:

- İşləmirik, düzdü, boynumuza alırıq. Amma soruşun ki, niyə işləmirik? Çünki bir köpək oğlu evindən arxayın deyil, yeməyə çörək yox, içməyə su yox, gün, yağış başımıza döyür, daldalanmağa Allahın bir xarabasını tapmırıq. Hörmətli yoldaş, indi biz nə edək, bizim bir günahımız var bu məsələdə?

Araya sükut çökdü...

Düz sözə nə deyəsən? Fəhlənin söylədiklərini təftiş eləməyin yeri deyildi.

- Sənin söylədiklərini, qardaş, bu gün öz gözümüzlə gördük. Vəziyyət həqiqətən də ağırdır. Bunu yuxarıda da

bilirlər. Ona görə də dövlət bizi göndərib. Bax, bu yoldaş İslam İsmayılzadədir. Bütün bu tikintinin rəhbəri. İnnən sonra o da, mən də burda sizinlə bir yerdə işləyib, bir yerdə də yaşayacağıq. Gərək biz dövlətimizin bu mühüm tapşırığını yerinə yetirək.

**Salnamə**

İslamzadə yanımdaydı, hamısını eşidirdi. Dedim ki, narahat olmayın, həmin rəis Mingəçevirə köçüb. İndən belə işimizi başqa cür quracağıq.

...Kürün qırağında gəzirdim. Kürün sağ sahilində iki ekskavatorçu işləyirdi. Dedim ki, Kürdən bir 10-15 metr aralını qazın, görək burda nə var. Ekskavator yeri qazanda gördük ki, göz yaşı kimi dumduru soyuq su çıxdı. Bəs niyə bu su ilə camaatı təmin etməyək? Birinci növbədə nasos qoyub su vurmağa başladıq. Bu qədər adamı yedirtmək-içirtmək üçün təcili sağ sahildə bir sovxoz da təşkil edildi. Çörək Şəkidən gətirilirdi. Təcili çörək zavodu tikildi.

Mingəçevir demək olar ki, təkcə Azərbaycan xalqının yox, Sovet dövlətinin tarixində görünməmiş sürətlə tikilən inşaat meydanına çevrildi. Dəfələrlə İttifaqın keçici Qırmızı bayrağını aldı, mükafatlarla təltif edildi.

Beləcə gəlib 50-ci ilə yetişdik. Moskvada Mərkəzi Komitədə məruzə etməli idim. Bütün hidrostansiyaların partiya işçiləri Moskvaya yığışmışdılar. Energetika naziri Jmerinlə telefonla danışmışdım, demişdim ki, çoxlu problemim var. İstəyirəm, sizə çatdırım. O mənə dedi: "İndi yox, Moskvada Mərkəzi Komitədə sizin məruzəniz dinlənilsin. Sonra sizi qəbul edib, dediyiniz məsələlərə baxıb həll edərik." Belə də oldu.

Məndən əvvəl danışanlar düşdülər nazirin üstünə ki, bu bizə yaxşı baxmır, işimiz getmir. Fikirləşdim ki, məsələ Mərkəzi Komitədə həll olumayacaq. Molotov: "Siz niyə danışmırsınız?" – deyə məni qaldıranda dedim: "Jmerin yoldaşla danışmışıq, sabah onun qəbulunda olacağam və bütün məsələləri birgə həll edəcəyik. Mingəçevirin bütün istehsal göstəriciləri ölkədə birincidir. Mənim nazirə qarşı heç bir tələbim-filanım yoxdur".

Dediklərim çox xoşlarına gəldi, mənimlə razılaşdılar. İclasdan çıxıb mehmanxanadakı nömrəmə gəldim. Gecə ilə Jmerinin adından məni axtarıb tapdılar. Soruşdular ki, yoldaş nazirin tapşırığıdır: sən nə məsələ qaldıracaqsan, de. Onlar saat 10-da nazirlikdə olacaqlar. Mən də fürsətdən istifadə edərək Mingəçevirin müqəddəratı ilə bağlı vacib bildiyim məsələlərin hamısını ortaya çıxarmaq qərarına gəldim. Jmerinin kabinetinə yığışdıq. Vəziyyəti ətraflı danışıb dedim ki, biz Mingəçeviri bir il tez təhvil vermək istəyirik. Buna görə də sizdən bir neçə xahişim var. Əgər siz gələn ilin birinci kvartalı üçün avtomaşın fondumuzu indi, 50-ci ilin 4-cü kvartalında versəniz, Kür daşmamış biz onun qabağını kəsə bilərik və yeni istiqamətə çevirərik. Bu fikir onların xoşuna gəldi. Soruşdular ki, daha nə lazımdır? Dedim: "Bazalarımız çox zəifdir. Bizim işimiz təkcə Mingəçevirlə qurtarmayacaq. Sonra biz Qarasaqqalda, Şamxorda, Poyluda, Alazanda, Tərtərdə, Arazda stansiya tikmək istəyirik. Ona görə də Mingəçevirdə böyük bir texniki baza yaradılmalıdır. Xahiş edirəm ki bizim Mingəçevirdəki inşaat bazasını xeyli genişləndirəsiniz. Bu bir. İkincisi, çayın üstündən daha bir körpü salınmasına kömək edəsiniz. İş artıb, körpü azlıq edir. Üçüncüsü, bu boyda iş

görülüb, buna görə xahiş edirəm, Mingəçevirdə yeni bir mədəniyyət evi tikilsin". Buna da söz verib smetaya saldılar. "Ondan başqa, xahiş edirəm ki, nəzərə alasınız: bizim təşkilatların yerləşməsi üçün binamız yoxdur. İcazə verin, yataqxanaların hesabına iki böyük bina tikək". İcazə verildi, tikdik də. Sonralar həmin binaların biri şəhər partiya komitəsinin, o biri icraiyyə komitəsinin binası oldu.

Həmin iclasda mən Jmerindən çox şey xahiş etdim, o da bütün şərtlərimi qəbul etdi. Əgər bunları Mərkəzi Komitədə desəydim, istədiklərimin yarısını da ala bilməyəcəydim. Axırda o özü məndən soruşdu: "Minik maşının var, ya yox?" Cavab verdim ki, yox, yük maşınında gəzirəm. Göstəriş verdi ki, mənimçün Qorki zavodundan bir "Pobeda" maşını göndərilsin. İclasdan çıxan kimi tez Mingəçevirə, rəis İslamzadəyə teleqram vurdum ki, mədəniyyət sarayının, körpünün, bazaların layihəsini tez hazırlayın, smetaya saldırmışam.

Bir məsələni qeyd etmək istəyirəm: Mingəçevirdə baş mühəndisin müavini Ter-Arakelyan adlı bir mühəndis idi. O təklif verdi ki, bəndin smetasında nəzərdə tutulmuş "qəza həddi" ("katastrofiçeskiy sbros") deyilən bir səddi smetadan çıxaraq. Bu qəza həddi nə demək idi? Bəndin lap yuxarısına üç metr qalmış qurulan bu hədd güclü daşqın zamanı suyu avtomatik olaraq özü axıdırdı. Onun qurulması 250 milyon manata başa gəlirdi. Ölkənin çətin vaxtı idi. Vəsaitə böyük ehtiyac vardı... Arakelyanın təklifi çoxlarının ağlına batdı. Çalışdılar ki, onu smetadan çıxarsınlar. Mən əl-ayağa düşüb bu işin mütəxəssislərini yığıb onlarla məsləhətləşdim. Akademiklər – Vedeneyev, Qrafdiyev və öz mütəxəssislərimiz dedilər ki, ay bala, bir yox, iki "qəza həddi" qurmaq lazımdır.

Sən heç bilirsən ki, sabah nə daşqınlar baş verə bilər? Bu, torpaqdan tikilən bənddir, su onun üstünə qalxarsa, bir neçə saatdan sonra bənd uçub dağılar, göldəki 17 milyard kubmetr su hər yanı ağzına alıb Xəzər dənizinə tökə bilər. Həddi mütləq tikmək lazımdır.

Bu məsələ böyüyərək, gedib mərkəzə çıxdı. M.Bağırov məsələyə qarışdı. Dəfələrlə Moskvaya getməli olduq. Mərhum SSRİ Nazirlər Sovetinin sədr müavini Pervuxinin bizə bu işlərdə köməyi dəydi. Arakelyanın bu mərkli təklifi rədd edildi.

1959-cu ildə yolumu Mingəçevirdən saldım. May ayı idi. Nə görsəm, yaxşıdır? Həmin qəza həddindən saniyədə 750 kubmetr su gedirdi. Bənd elə tərpənirdi ki, onun gurultusu adamı vahiməyə salırdı. Bəndə yaxın düşmək mümkün deyildi. Fikirləşdim ki, ilahi, həmin hədd olmasaydı, indi nə baş verərdi?!

Mingəçevir həm də Azərbaycan üçün hidrotexniki qurğular tikmək məktəbi oldu. Orada ixtisaslı fəhlə məktəbləri yaradıldı. Respublikanın ayrı-ayrı yerlərindən gələn çoxlu gənc burada sənətlərə yiyələndi. Öz mühəndislərimiz böyük işlər gördülər. Mingəçevirdə xeyli kadr yetişdi.

Mingəçevir başa çatandan sonra Şamxorda, Qarasaqqalda, Poyluda, Tərtərdə, Alazanda, Arazda yeni HES-lər tikilməli idi... Xeyli baza yaradılmışdı. Amma sonra Mingəçevirə lazımi qayğı göstərilmədi. SES başlı-başına buraxıldı. Qərar çıxdı ki, Mingəçevirin təcrübəli kollektivi Yenisey üzərində tikilən su-elektrik stansiyasının tikilməsinə cəlb edilsin. İslamzadə oraya rəis təyin olundu.

Bizim Mingəçevirdə yaratdığımız bazalarsa toxuculuq kombinatına, kənd təsərrüfatı maşınları zavoduna, elektro-

texnika zavoduna, şüşə zavoduna çevrildi. Bazalarda yeni mütəxəssislər yetişdi. Heç olmasa, bu da qazancdı.

Eyni zamanda qeyd etmək lazımdır ki, Mingəçevirdə qazıntılar zamanı Azərbaycan xalqının tarixini zənginləşdirən mühüm tapıntılar meydana çıxdı. Bizim orada təşkil etdiyimiz muzey sonradan Azərbaycan Tarix Muzeyinə köçürüldü. Muzeylərimiz Mingəçevir ərazisində aparılan qazıntılar hesabına zənginləşdi.

Mingəçevir Azərbaycana nə verdi? Ən birincisi, əvvəllər ilin iki fəslində - yazda və payızda 80-100 min adam Kürün qabağına daşqının qarşısını almağa çıxırdı. Buna birdəfəlik son qoyuldu. Kürün hər iki sahilində xeyli torpaq sahəsi istifadəsiz qalmışdı – çayın sahili basacağı qorxusundan heç kəs o münbit torpaq sahələrinə yaxın getmirdi. Həmin yerlər əkin sahəsinə çevrildi. Ağcaqanad yuvası olan axmazlar quruduldu. Bu yerlərdə qızdırmaya son qoyuldu.

Bir milyon hektaradək torpağı mütəmadi suvarmaq imkanı yarandı. Arazın suyu azalanda Yuxarı Qarabağ kanalının suyu bəzən Bəhramtəpə bəndinə tökülür, oradan iki böyük suvarma kanalı su ilə təmin edilir.

Başlıcası isə Mingəçevirdə 377 min kilovat-saat ən ucuz elektrik enerjisi istehsal olunur. SES dörd il işləyəndən sonra bütün qoyulan xərclər ödənildi. Hazırda isə bu obyekt ildə 1 milyard 500 mln. kilovat ucuz elektrik enerjisi verir.

Mingəçevirin Azərbaycan üçün əhəmiyyətindən danışmaqla qurtaran deyil. Bundan sonra mənim sevimli Sumqayıtım da yenidən canlanmalı idi. Bunun üçün enerji mənbəyi yaranmışdı. Bir sözlə, Mingəçevir tikintilərini Azərbaycan xalqının tarixində inqilab adlandırmaq mümkündür.

Bir gün qərar çıxdı ki, hərbi əsirlər Mingəçeviri tərk etməlidirlər. Onların bəziləri gəlib dedilər ki, yola çıxmazdan qabaq icazə verin, bir az hazırlıq görək. Biz də onlara şərait yaratdıq. Kür sahilində cır nar bol olurdu. Əsirlər nar yığıb gətirir, iri çənlərdə qaynadırdılar. Sonra nahar vaxtı öz adamlarına nar şirəsi paylayırdılar. İcazə istədilər ki, tısbağaların ətini bişirib konserv eləsinlər, çanağını da özləri ilə aparsınlar.

Bunların getmək vaxtı yetişdi. Zaqataladan, Şəkidən, Qaxdan, Balakəndən, Vartaşendən (Oğuzdan) azərbaycanlılar hər əsirə iki qutu meyvə, fındıq, qoz, şabalıd da təklif etdilər, onlarsa qabaqca yaxın düşmədilər ki, pulumuz yoxdur. Onların böyüyünə yaxınlaşdıq ki, meyvəni sizə havayı verirlər, götürün, yolda yeyərsiniz. Kəl arabası ilə gələn kəndlilərin əliaçıqlığı, səxavəti əsirləri valeh etmişdi. Bu söhbətləri ona görə xatırlamıram ki, Mingəçevirdə hər iş yaxşı qurulmuşdu...

DTK-nın əməkdaşı Mityukov adlı kiçik leytenant "xüsusilə mühüm obyekt" sayılan Mingəçevirə təhkim edilmişdi. İşin qızğın vaxtı bir də gördüm ki, bacarıqlı mütəxəssislər bir-bir yoxa çıxır. Onlar xalq düşməni adı ilə 15-20 il türmədə yatıb çıxmış sənətkarlar idilər. Bir də görürük ki, hidrotexnikaya baxan Vaskin yoxdur, elektrik işlərinə baxan Yeryomin yoxdur, torpaq işlərinə baxan Zaqryajski gözə dəymir. İvanov, Əmiri... yoxdur. Maraqlandım ki, bu adamlar hanı? Dedilər ki, Mityukovun sözü ilə onları tutub Azərbaycan SSR DTK sədri Yemelyanovun zirzəmisinə salıblar.

Məsələ ondaydı ki, o dövrdə Stalinqrad HES, Kuybışev HES tikilməyə başlamışdı. Onlarsa böyük mütəxəssislərdi. İndi də istəyirlər ki, onları həbs edib dustaq kimi Rusiyaya

göndərsinlər. Hamısını o məqsədlə Bakıda Yemelyanovun həbsxanasına salmışdılar.

Bağırov mənə tapşırmışdı ki, Mingəçevirdə nə çətinliyin olsa, mənə de. Bu haqsızlığın qarşısını almaq istəyirdim. Bir-iki ay çalışdım, Bağırovun qəbuluna düşə bilmirdim. Onun bir köməkçisi var idi – Novikova. Sanki cəhənnəmin alovlarından çıxmış acıdil qadın idi. Heç kəs onun əlindən yaxasını qurtara bilməzdi. Yalvardım ki, "ay anam, ay bacım, mənim bu kişiyə sözüm var. Tikintinin qızğın vaxtı bacarıqlı, işbilən mütəxəssisləri inşaatdan ayırıb aparırlar, bu işə yol vermək olmaz!" Axır ki, çox acı-sərt söhbətimizdən sonra mənimçün vaxt ayırdı: iyulun 15-də saat 9-da gələrsən. 1951-ci ildi. Tezdən durub getdim. 9 tamamdan gözləyirdim. 10 oldu, 11 oldu. Məni çağıran yoxdu. Qəbul otağında da bir cavan oğlan əyləşmişdi telefonların yanında. Saat 12-də İslamzadə tövşüyə-tövşüyə qan-tərin içində oraya gəlib çıxdı.

- Ay Kamran, nə məsələdir? Nə olub?

- Necə yəni nə məsələdir?! Sənə demişəm ki! Bu qədər adamı tutub aparırlar! İşin belə qızğın vaxtında elə sənətkarları tutmaq olar?! Mingəçeviri nə mən tikirəm, nə də sən. Xəbərin var bu işlərdən?!

İslamzadə:

- Adə, mən sənə yüz yol demişəm ki, bunların işinə qarışma! Bu, xatalı işdir. Cəhənnəmə olsun hamısı, qarışma onların işinə! – deyə cavab verdi mənə.

- Yox! Qarışmalıyam. Mən heç nə itirmirəm. Mən deməliyəm ki, o cür mütəxəssislərin qarşısında baş əyirəm. Onlar niyə tutulsun? Onlar Azərbaycanda canla-başla böyük işlər görürlər! Mənimlə qonşudurlar. Görürəm necə işləyirlər!

İslamzadə çox dedi ki, mən DTK-nın işinə qarışmayım, başımı xataya salmayım. Dedim ki, nə olur olsun – sözümü deməliyəm.

Demə mənim bu qədər gec qəbul olunmağımın məqsədi varmış. DTK sədri Yemelyanovun aparatı hər yeri ələk-vələk edib İslamzadəni tapıb gətiriblər ki, mənimlə qəbulda olsun. Nə isə, keçdik içəri.

Yayın isti günləri idi. Bağırov əynində tor köynək, ayaqüstə dayanmışdı. Sumbat Topuridze, Teymur Quliyev, Teymur Yaqubov, Mərkəzi Komitənin katibi, inşaata baxan Qafarzadə, Padarov, daxili işlər naziri Atakişiyev, DTK-nın sədri Yemelyanov da içəridə idilər. İslamzadə gedib onların böyründə oturdu. Mən tək geridə qaldığımdan aşağı başda əyləşdim. Gördüm ki, Bağırov əlində demi, gözündə gözlük diqqətlə mənə baxır. Birdən yanındakı əsabələrinə dönüb dedi:

- Papiros çəkməyin, ancaq sümürün.

Stolun arxasından düz mənim qabağıma gəlib dedi:

- Nə üçün oturmusan?

Tez ayağa qalxdım. Üstümə qışqırdı:

- Otur!

Mən əyləşən kimi bir də qışqırdı:

- Niyə oturdun?

Daha ayağa qalxmadım. Yenidən stolunun arxasına keçib dedi:

- Eşidirəm səni.

Dedim:

- Yoldaş Bağırov, Mingəçeviri nə mən tikirəm, nə də İslamzadə. Mingəçevir Azərbaycan xalqının, ölkənin köməyilə buraya gələn mütəxəssislərin sayəsində tikilir. Mingəçevir tikintiləri Azərbaycan xalqına nə qədər mənfəət verəcəksə,

indi o qədər də ziddiyyətli, çətin işlərlə qarşılaşırıq. Biz belə hallara yol verə bilmərik. Çünki elə bir fəlakət baş verir ki, gördüyümüz işlər məhv olar.

- Nə deyirsən?!

Yuxarıda adını çəkdiyim adamların adlarını, onların başlarına gətiriləni dedim. Dedim ki, bir aydan çoxdur, onlar Bakıda həbsxanada yatırlar.

Üzünün ifadəsindən anladım ki, Bağırov bütün bunlardan xəbərsizmiş.

Vəziyyətin dəyişdiyini görüb daha da ürəkləndim. Gəlib yaxında dayandım. Qafarzadə aşağıdan əlini uzadıb baldırımı çimdikədi, şalvarımı dartdı ki, belə danışmayım. Bağırov döndü, Yemelyanova baxdı:

- İndi həmin adamlar orada yatırlar?

Yemelyanovu tər basdı, rəngi sapsarı saraldı.

- Yoldaş Bağırov, siz bilirsiz ki... – deyə kəkələdi. Bağırov onun üstünə qışqırdı, ən pis sözlərlə onu söyə-söyə dedi:

- Bu gecə bütün o adamları yığırsan bir yük vaqonuna, parovozu qoşub göndərirsən inşaat meydanına. Onların əvəzinəsə bunu basarsan dama! – deyib əli ilə məni göstərdi. Mən də dodaqucu gülümsəyib dedim:

- Nə olar? Böyük mühəndislər getsin tikintiyə. Eybi yox, məni basın türməyə. Onların yerinə.

Bağırov qayıdıb kinayə ilə mənə belə dedi:

- Sultan bəy! Sən məni hələ pis tanıyırsan! (tı menya eşe ploxo znaeş).

Əvvəlcə başa düşmədim ki, bu "Sultan bəy" kimdir, bu kimi nəzərdə tutur. Sonralar bilmişəm ki, məni əsrin əvvəllərində Azərbaycana basqın edən ermənilərin yolunu kəsmiş məşhur laçınlı Sultan bəyə bənzədirmiş. Bağırov dedi:

- Qurtardın sözünü?

Cavab verdim:

- Yox, yoldaş Bağırov! Mingəçevirdə vaxtı qurtarmış dustaqlar hər gün yola salınmalıdır. Lakin rəis onların sənədlərini vaxtında hazırlayıb vermir. Onların nə yataqxanası, nə də yemək-içməyi var. Rəis onların sənədlərini vaxtında vermədiyindən çıxıb oğurluq etməli olurlar, adam öldürürlər. Vəziyyət çox mürəkkəbdir.

Bağırov üzünü tutdu Daxili İşlər naziri Atakişiyevə:

- Atakişiyev, sən bəs mənə dedin ki, Zaqataladan gələndə yolda Mingəçevirə dönüb bütün bu məsələləri həll eləmisən? Sən bu işi belə həll eləmisən?!

Adama nə qədər pis, murdar söz demək mümkündürsə, hamısını dedi. Bağırov mənə tərəf dönüb yenə soruşdu:

- Qurtardın?!

- Yox! İcazə verin, arxasını davam etdirim. (Qafarzadə də bu yandan mənim qıçımı çimdikləməkdəydi...)

- Yoldaş Bağırov! Biz Mingəçeviri bir il qabaq təhvil vermək istəyirik. Mən Moskvada enerji naziri Jmerinə demişəm. Amma sizin də işə qarışmağınız bu məsələni sürətləndirər. Bizə 60 yük maşını lazımdır, gələn ilin birinci kvartalının hesabına. Gələn il maşınlardan istifadə edə bilməyəcəyik. Çünki o vaxt Kür daşacaq, iş ya yaya qalacaq, ya da qışa. Bizə maşınları indi versinlər, bizim gələn ilki payımızı başqasına...

Bu sözdən sonra Bağırov tamam sakitləşdi. Fikrim xoşuna gəlmişdi. Qayıdıb İslamzadəyə bir divan tutdu ki... "Sən orada kimsən? Bəs məsələləri sən niyə qaldırmırsan? De görüm, axı sən kimsən? Sənin atanın balıq dükanları var. Qardaşın da balıq sənayesi naziridir. Onun gətirdiyi balıqları atan dükanda satır. Sən kimsən orda?" Daha nə sözlər demədi ona!

Öz-özümə deyirdim: "Xudaya, nə bəla idi, mən düşdüm?!"

Bağırov oradakılara dedi:

- Siz hamınız sabah gedirsiniz Mingəçevirə. Hüseynovun qaldırdığı məsələləri həll edirsiniz! Bax sən də, - bunu deyərkən mənə tərəf döndü, – telefonla zəng vurub hamısını deyirsən, məlumat çatdırırsan mənə.

Fikrimi saxlaya bilmədim:

- Baş üstə, yoldaş Bağırov! Mən sizin dediklərinizi eşidirəm. Amma sizin köməkçiniz Novikovanın bizi calaşdırması mümkün deyil. İndi nə əziyyətlə sizin qəbulunuza düşdüyümü danışmadım.

Qapıdan çıxanda Qafarzadə mənə dedi ki, mənim kabinetimə gəl. Getdim. Mənə nələr demədi:

- Ay yetim! Ay evin tikilsin! Sən bilirsən, bunlar sənin dərini necə didəcəklər?! Xəbərin var ki, sən bunlara ittihamnamələr oxudun?! Gör onlara nələr dedin!...

Mənim cavabım:

- Niyə günahsız adamları tutublar?! Böyük mütəxəssislər niyə həbsxanada yatsınlar!

Qafarzadə də mənə eyni qızğınlıqla deyirdi:

- Bu işi görən təkcə DTK-dır? Xəbərin varmı ki, bu işi görənlər kimlərdir? Bu bir zəncirvari reaksiyadır! Sən bunun altından necə çıxacaqsan?

Fikirləşib gördüm ki, doğrudan da, o məni istədiyindən belə deyir. Cavab verdim:

- Yoldaş Qafarzadə, mən fikrimi gizləyən adam deyiləm. İnsanlar can-başla işlədikləri üçün həbsə düşsünlər, sonra da Kuybışevə köçürülsünlər? Bu, insan ləyaqətinə yaraşmaz! Mən bunu gizlədə bilmərəm. Kimdir Mityukov? Kiçik leytenant! Bir avaranın sözü ilə bu qədər adam həbs olunsun?!

- Bu dəfə sovuşdu. Allah eləsin, elə olsun ki, sən bu işdən yaxanı qurtarasan.

Səhər yığışıb Mingəçevirə gəldilər. Sumbatzadə ilə Teymur Quliyevdən başqa hamı Bağırovun göstərişlərini yerinə yetirmək üçün mənim Mingəçevirdəki torpaq kabinetimə yığışmışdı. Yemelyanovun birinci sözü bu oldu: "Nədi, bizdən xoşun gəlmir?" Mən də elə hamının yanındaca cavab verdim: "Bəsdir, yoldaş Yemelyanov! Təxribatla məşğul olmayın. Bizə tapşırıq veriblər. Gəlin hamımız tapşırıqları yerinə yetirək". Bununla da söhbət qurtardı.

Şübhəsiz, bu gəlişlə Mingəçevirin həyatında bir dönüş yarandı. Hər işə yeni münasibət göstərildi. Bakıda həbsxanada yatan mütəxəssislərimizlə inşaatda görüşdüm. Yayın istisində xeyli müddət zirzəmidə qaldıqlarından rəngləri kağız kimi avazımışdı. Hamısı Mingəçevirə necə qaytarıldığını bilirdi. Bir-bir yanıma gəlib deyirdilər ki, bizdən ötrü böyük cəza çəkəcəksən. Bunlar səni sakit buraxmayacaqlar. Mən də hamıya eyni sözü deyirdim: "Siz narahat olmayın, işinizdən də qalmayın. Mingəçevirin tikintisini nöqsansız başa vurmalıyıq. Bizim əsas vəzifəmiz budur. Sizdən xahiş edirəm, əvvəlki təki cani-dildən işləyin, çalışın".

Obyektivlik naminə qeyd etməliyəm ki, Mircəfər Bağırovun hökmü, işə can yandırması, inşaatla maraqlanması olmasaydı, bu tikinti çətin başa gələrdi. Heç bu işə başlamaq mümkün olmazdı. Ölkə müharibədən yenicə çıxmışdı, vurulan yaralar sağalmamışdı. Başqa "daha mühüm" regionlar ola-ola böyük tikintinin məhz Azərbaycanda başlanması şəxsən onun xidməti idi. İşin gedişinə uşaq kimi sevinirdi. Hətta ailəsi ilə Yesentukidə istirahət edəndə belə arada gəlib Mingəçevirə baş çəkirdi. Demək olar, Mingəçevirlə nəfəs alırdı.

Bağırov inanırdı ki, onun ömründə iki hadisə: Mingəçevir və Sumqayıt yaddaqalan iş olacaq. Hətta bir dəfə yana-yana demişdi: "Biz böyük səhvə yol vermişik. Heç bir nailiyyətimiz yoxdur. Müharibə vaxtı quyuları az qala sorub bütün neftini çıxarmışıq. Ölkənin tələbatı qarşısında neft sənayesini tamam korlayıb bərbad etmişik. İndi biz həmin itkinin əvəzini Sumqayıtla, Mingəçevirlə, Daşkəsənlə çıxarmalıyıq.

Mingəçevir SES-də dib borularının dörd ədədinin hər birinin diametri təqribən 11 metrə çatırdı. Kürün yatağını dəyişəcək dib borularını çəkib qurtarmışdıq. Bu vaxt Bakıdan zəng oldu. Dedilər ki, M.Bağırov Gürcüstan KP MK-nın birinci katibi Çekviani, Azərbaycan və Gürcüstan Dəmiryolu İdarələrinin rəisləri, Ermənistan KP Mərkəzi Komitəsindən Arutyunov bu münasibətlə keçiriləcək təntənəli yığıncaqda iştirak etmək üçün Mingəçevirə gələcəklər.

Beş-altı gün hazırlıq gördük. Arutyunovdan başqa hamı gəldi. Kürün dəyişdirilmiş yatağına baxdılar. Həmin yerdə qısa çıxışlar edib dedilər ki, bundan sonra Mingəçevir tikintilərinin başa çatacağına inanmaq olar.

İnşaat qurtarmamış bir də gördük, Gürcüstandan Mingəçevirə doğru məftillər çəkilir – enerji aparmaq üçün! Bu yandan da Ermənistan bir xəttin ucundan yapışıb üstümüzə gəlirdi...

Bir dəfə də Özbəkistandan Mərkəzi Komitə katibinin başçılığı ilə böyük bir nümayəndə heyəti gəlmişdi. Onları inşaat meydanında gəzdirdik, sonra hörmətlə yola saldıq. Qonaqlarımız gedəndə etiraf etdilər ki, Mingəçevir Azərbaycan xalqı üçün inqilabi bir hadisədir. Bakıya qayıdandan sonra nümayəndə heyətinin başçısı iclasda Mircəfər Bağırovdan xahiş edir, Mingəçevirdə işləyən Kamran Hüseynovu verin bizə,

Özbəkistana aparaq: "Onu Mərkəzi Komitəyə katib qoyarıq, ya da Daşkənd Vilayət Partiya Komitəsinə birinci katib".

Bağırov ona heç bir cavab vermir. Ertəsi gün tapşırır ki, Hüseynovun şəxsi işini mənə verin. O özümüzə burada lazımdır. Gecə mənə zəng vurdular ki, tez ol, şəxsi işini göndər. Mən də cavab verdim ki, sizdə mənim sənədlərim çoxdur, birini götürüb verin. Amma özüm arxayın idim: nə qədər ki o çürük əyanlar Mərkəzi Komitədədir, mənim oraya getməyim mümkün deyil.

**Novxanı. Qızılqaya**

O, ömrün qışındadı, Novxanıda Qızılqayadakı bağ evinin artırmasında (1998-ci ilin payızı) əyləşib, yaşının yay fəslini düşünür, daha nə qaldı ki, qırx yaşa, indi onu yetkin insan saymaq olar. Həyat qaynar qazan kimi yaşanır. O illər çox uzaqdadı, üstündən az qala əlli il keçib. Onda 40 yaşın astanasındaydı, bu payız ötüb keçəcək, dekabrın 15-də 85 yaşı tamam olacaq.

Ara-sıra sarılı-qırmızılı yarpaqlar arasından pırıldayıb başqa bir ağacın sarılı-qırmızılı yarpaqları arasında yox olan sərçə tərpənişlərinin səsini hesaba almasaq, ideal sakitlikdir. Alaparça buludlar, hərdən gün işığını boğur, bu an adama elə gəlir ki, yer kürəsinin üstünə nəhəng bir ağacdan qalın kölgə düşür...

Eynəyini gözündən ayırıb başı üzərinə qaldırdı, işığa tutdu, baxdı, üfürdü, qəhvəyi ipək parçayla sürtüb parıldatdı, yenə gözünə taxdı.

Bəlkə də insanın yaddaşı onun ən etibarlı qardaşı, ən vəfalı yoldaşıdır. Maşallah, hafizəsi cilalanmış şüşə kimi bərq vurur. Yadda saxlamaq, ötüb keçən həyatı, mənzərələri, hadisələri xatırlaya bilmək xeyirədi.

Amma hələ bu azdı, gərək ömür də bir yönlü ömür ola, insanın həyat tarixçəsi fərdi epizodlardan xilas olduqca, şəxsiyyətin keçib gəldiyi və yaxud keçib getdiyi yol dünyanın başqa yollarıyla, cəmiyyətlə, insan taleləri ilə nə dərəcədə qaynayıb qovuşursa, onda bir nəfərə məxsus yaddaş çoxluğun sərvətinə çevrilir.

Adam özü-özünə dəyər verə bilməz. Xüsusilə, bütün həyatını sadəcə vətənə xidmət borcu sayan, təvazökar, ağayana, hər əsən küləyə əyilməyən Kamran Hüseynov ola... Şübhəsiz ki, şəxsiyyət özünü tanıyır, nə etdiyini, nəyə nail olduğunu bilir. Amma meyar kənar baxışdır, çoxlarının verdiyi dəyərdir. Mənalı ömürlər haqqında həm şəxsiyyətin özünün özünə, həm də çoxluğun şəxsiyyətə verdiyi qiymət adətən üst-üstə düşür.

**Deyirlər**

Bir dəfə 40-50-ci illərdə Kamran Hüseynovun birgə çalışdığı, indiki dillə desək, komandasına daxil olduğu Mircəfər Bağırov oğlu ilə eyvanda dayanıb Bakıya baxır, birdən oğlu soruşur:

- Ata, görünən bu gözəl şəhər, bu evlər, küçələr, hamısı bizimdir? Axı onların bir çoxunu sən yaratmısan...

- Yox, oğlum, - Mircəfər Bağırov verir, - gördüyün heç nə bizim deyil, dövran bizimdir...

***

Nə olsun ki, 85 yaşının tamamına bir-iki ay qalıb. Hələ ki dövran onundu, 85 il yaşayıb, yaxşı yaşayıb, kişi kimi ya-

şayıb, hətta Allah imkan verib ki, indi bu eyvanda oturub dərin düşüncəyə daldığı dəqiqədə ömrünün 40 ilini sənədləşdirə bilib, "Salnamə"nin yaz və yay fəsilləri demək olar ki, yazıya alınıb, əlinin altındadır.

...Bu məqamda ağlıma bir fikir gəldi, xəyalən qoca qartalın yuva qurduğu Qızılqayadan, bağ evinin artırmasından, yəni Kamran əmidən ayrıldım.

Kompyuterin düyməsini basıb Vikipediyada iki tarixə nəzər saldım. Dedim, görəsən, 1913-cü ildə Azərbaycanda və qeyri-yerlərdə kimlər doğulub? Kamran əmi xatirələrini qələmə aldığı həmin o gözəl payız günündən sonra nə az, nə çox, səkkiz il yaşayıb 93 yaşına çatanda yolunda min əziyyət çəkdiyi doğma diyarından ayrılacaq. Bu kədərli günün tarixini o bilmir. Mən bilirəm, amma indi bilirəm...

Bu da 1913-cü ildə doğulanlar səhifəsi.

Alber Kamyu – Əlcəzairdə doğulmuş dünya şöhrətli fransız yazıçısı, Nobel mükafatı laureatı "Yad", "Taun", "Çöküş", "Süqut" kimi bənzərsiz nəsr əsərlərinin, "Anlaşılmazlıq", "Mühasirə vəziyyəti", "Ədalətlilər" pyeslərinin müəllifi... 1960-cı ildə avtomobil qəzasında həlak olub.

Cerald Ford (1913) ABŞ-ın 38-ci prezidenti, Kamran Hüseynovla eyni ildə anadan olduğu məlumdur, qəribədir ki, həm də onunla eyni ildə vəfat edib (2006).

Hökümə Qurbanova, Azərbaycan səhnəsinin sönməyən ulduzu, "ögey ana"... Kazım Kazımzadə, Azərbaycanın xalq rəssamı, əgər xatırlayırsınızsa, Kamran Hüseynovun 416-cı Taqanroq diviziyasının döyüşən əsgərləri ilə görüşə apardığı ziyalı qrupuna o da daxil idi, Mirzə Babayev, xalq artisti, bənzərsiz səs tembrinə malik müğənni, onun oxuduğu

mahnı da var:

Kimlər gəldi, kimlər getdi bu dünyadan...

Sergey Mixalkov, məşhur rus şairi, Nigar Rəfibəyli - xalq şairi, Rəsul Rzanın həyat yoldaşı, Anarın anası, Çingiz Cuvarlı - böyük alim, elm xadimi və bu sətrlərin müəllifinin qan qoyumu, Əhməd Cəmil-şair, Əli Zeynalov - xalq artisti, Ənvər Məmmədxanlı - xalq yazıçısı.

2006-cı ildə vəfat edənlər... Əlbəttə bu siyahını nəzərdən keçirmək çox ağırdır. Həmin il Azərbaycanın yaradıcı ziyalıları tut kimi tökülüb.

Mikayıl Mirzə, Mobil Əhmədov, Əfsər Cavanşirov, Əliabbas Qədirov, Oqtay Ağayev, Azad Mirzəcanzadə, Baba Mahmudoğlu, Gülbəniz Əzimzadə, Gülşən Qurbanova, Hüseynağa Atakişiyev, Hacıbaba Bağırov, Kamal Talıbzadə, İsmayıl Hacıyev, İslam Rzayev, Vasif Adıgözəlov, Rasim Ocaqov, Qəmər Almaszadə, Türkiyənin sabiq Cumhur başqanı Bülənd Ecevid, Azərbaycanda da çox sevilən rus müğənnisi Lyudmila Zıkina...

İraq prezidenti Səddam Hüseyin 2006-cı ildə edam olunub...

**Şeir**

Bu qoca dünyadan gedincə sən, mən
Kərpiclə örtülür qəbrimiz həmən
Başqa qəbrlərçün torpağımızdan
Kərpic düzələcək, bünü düşün sən.

Ömər Xəyyam

Görürəm çox canlar çəkmişdir torpaq,
Çoxu yer altını eyləmiş yataq.
Heçlik səhrasına baxıb görürəm,
Gedən çox, qayıdıb gələn yox ancaq.

Ömər Xəyyam

Və burda yenidən Kamran əminin gen alnı, təravətini ahıl yaşında da itirməyən üzü gözümün qabağına gəlir. Yaxın-uzaq tarixin illərini beləcə incələsək, nə qədər qüdrətli insanların bitib tükənməyən siyahısı alınar. Xudaya, bizim bu balaca Azərbaycanın canında nələr var? Xudaya, bu torpaq yalnız təbii sərvətlər deyil, həm də kamil insanların məskənidir, bu yurd xəzinədir, dəfinədir.

Seçilmiş insanların doğum və ölüm tarixlərinin statistikaya daxil edilməsi ədalətsizlikdir.

Bəzən bir fərdlə bütün bir dünya ölür. Milyonların ölümü statistika, fərdlərin ölümü faciədir...

**Yeri gəlmişkən**

Kamran Hüseynov harda, hansı vəzifələrdə işləyibsə, yaradıcı insanların əhatəsində olub, onlarla fəxr edib, onlarla nəfəs alıb. Onlar Mingəçevirə də çox gəlirdilər. Bir dəfə böyük müğənni Bülbül gəlmişdi. Dedi ki, səhnə təşkil elə, konsert verim. Kamran güldü:

- Ay qardaş, - dedi, - bu çölün irəməsində hardan tapım səhnəni?

Gördü ki, Bülbül küsən kimi olur. Dərhal sözünün ardını gətirdi:

- Sən darıxma, axşama səhnə məndən.

Adamı tökdü Kürün qırağında boş bir düzəngaha. Taxta, balta, mişar. Axşamüstü bir orkestrin yerləşəcəyi səhnə hazır idi. Səhnənin önündə kubik daşların üstünə uzun-uzun taxtalar atıldı. Bu da tamaşa salonu.

**Salnamə**

...Beləcə səhnə düzələndən sonra bir köhnə piano tapıb səhnəyə çıxardıq. Polad Bülbüloğlunun o vaxt 5-6 yaşı olardı. Onu özüm qucağıma alıb səhnəyə çıxardım. Polad pianonu dınqıldatdı. Bülbül də oxudu...

**Salnamə**

S.Vurğun

**1.**

Ziyalılar həmişə vaxt tapıb Mingəçevirə gələrdilər. 1951-ci il idi. Bir dəfə Səməd Vurğun dedi ki, yanvarda gəlsəm, gündüzlər Vartaşenə (indiki Oğuz) ova gedib, axşam sənin yanına qayıtsam, qalmağa yerin olacaqmı? Mənim də Kürün qırağında evim var idi. "Hamısı sənə qurbandı" dedim. Səməd xahiş etdi ki, bir saz, bir tar da tapım, o da gecələr gəlib burada qalsın. Bir neçə gündən sonra onu çox böyük ehtiramla Yevlaxda qarşıladım. Birinci dəfə onu ova özüm apardım, sonra sürücü ilə göndərirdim. Sürücüyə tapşırırdım ki, şairi tək buraxmasın, uzaqdan-uzağa ona göz qoysun. Sürücü deyirdi ki, şair meşədə, elə xəzəlin üstündə o başa,

bu başa fikirli-fikirli gəzişir. Bir dəfə də olsun nəinki bir quşa, heç havaya da güllə atmır.

Mənim yenicə bir oğlum olmuşdu. Axşam evdə uşaq səsi eşidiləndə Səməd dedi ki, adı nədir? Dedim ki, hələ ad qoymamışıq. "Oğlandı, qızdı?" Dedim "Oğlandı". Dedi: "Onun adı Eldardı". Bu əhvalatı bir Süleyman Rəhimov, bir də Xavər xanım bilirdilər.

Səmədin "Muğan" poemasını bitirdiyi vaxtlar idi. Axşam Kür qırağındakı həmin evdə oturmuşduq. Birdən dedi ki, məqalə hazırlayıram. Soruşdum ki, məqalə nə barədədir? Dedi:

- Məni bir şey çox düşündürür. Necə olur ki, fransiz kommunist olsa da, yenə fransızdır. İtalyan da kommunist ola-ola yenə italyanlığını saxlayır; elə alman da öz dilində danışır, əqidəsini də dəyişmir. Bəs mən niyə dilimi, əqidəmi kommunist olduğuma görə itirməliyəm?

Bir az fikirləşəndən sonra ondan soruşdum:

- Siz məqaləni bu barədə yazmaq istəyirsiniz?

Cavab verdi ki, hə. Onda dedim:

- Ay lələ, bu məqalə sizə çox baha oturar. Bu saat, indiki vəziyyətdə belə məqalə lazımdırmı? Özünüz bilirsiniz ki, indi Mircəfər Bağırovun Sizə münasibəti necədir? Hər addımınıza qəzəbi tutur!

O da başladı Bağırovdan danışmağa. Dedim: "Niyə Bağırovdan çox qəzəblisən? Sən ondan qəzəblə danışırsan, halbuki ona borclusan". Bu yerdə Səməd özündən çıxdı:

- Ayə, nəyə görə ona borcluyam?!

- Necə yəni nəyə görə? Sizə o cür Qacar obrazı verib! Haradan tapacaqdın Qacarı?!

Səməd gülüb dedi:
- Ayə, sən məni lap dərinə apardın a!...

**2.**

...Bir dəfə Mərkəzi Komitənin böyük salonunda iclas çağırılmışdı. Mircəfər Bağırov da hirsli-hirsli salona göz gəzdirirdi. Birdən xəbər aldı: "Əvəz Sadıq buradadır?"

Əvəz Sadıq o zaman "Kirpi" jurnalının redaktoru idi. Tez yerindən qalxıb dedi:

- Buradayam, yoldaş Bağırov.

Bağırov dedi:

- O nədir "Kirpi"də çap etmisən? O nə anonim əsərdir jurnalda çıxıb?!

Bağırov, Əvəz Sadığın üstünə düşdü, nə düşdü! Səmədlə mən yenə yanaşı oturmuşduq. Lap axırıncı cərgədə. Həmin əsər də Səmədin "Belələri də var" şeiri idi.

Səməd hökmdarın ağır sözü qarşısında özünü saxlaya bilməyib ayağa qalxdı. Barmaqları ilə saçını geriyə daraqlayıb dedi:

- O şeir anonim deyil. Satiradır.

Xudaya, Bağırov Əvəz Sadıqdan əl çəkib Səmədin üstünə düşdü, nə düşdü! Nə qədər onunla toqquşdu, ona nə qədər tənəli sözlər dedi. Nəhayət, sakitləşdi.

Sonra Səmədin həmin Mingəçevirdə dediyi məqaləsi Moskvada, dəqiq yadımda deyil, ya "Komsomolskaya pravda"da, ya da "İzvestiya"da çıxdı. Bu dəfə Mircəfər Səməddən əl çəkmədi. Onun əmri ilə Səmədin bütün əsərlərini yığışdırdılar. O da Xavər xanımı götürüb bir müddət Bakıdan çıxmağa məcbur oldu.

## 3.

1953-cü ildə Mircəfər Bağırov vəzifədən götürüləndən sonra mən Kislovodskda idim. Gördüm ki, Səməd Kislovodskın parkında bir skamyada oturub, Xavər xanım da yanında. Bir hala düşmüşdü, qanlı görsə, qan ağlardı! Yaxınlaşıb hal-əhval tutanda tələsik məndən soruşdu:

- Bakıda nə var, nə olub?

Dedim:

- Plenum olub. Bağırovu çıxarıblar.

Səməd qayıdıb nə desə, yaxşıdır?

- Nahaq yerə, çox heyif!..

Bağırov onu respublikadan didərgin salıb, bu da onun vəzifədən çıxarılmağına heyfsilənir! Əhvalını soruşdum: "Özün necəsən?" O, ötəri cavab verdi: "Babatam, istirahət vərəqəm, göndərişim yoxdur. Mehmanxanada qalıram". Xavər xanım da dedi ki, Səməd də, mən də vanna qəbul etməliyik, amma sanatoriyaya göndərişsiz necə gedək? Onlara dedim ki, burada oturun, tərpənməyin. Özümsə az qala qaça-qaça Mərkəzi Komitənin "10 Oktyabr" sanatoriyasına getdim. Baş həkimə dedim ki, bəs ölkənin o boyda şairi gəlib, göndərişi yoxdur. Necə eləmək olar ki, gəlib burada vanna qəbul eləsinlər? Baş həkim soruşdu ki, şair haradadır? Cavab verdim ki, yoldaşı ilə parkda oturub. Sanatoriya parkın yanında idi. O dedi ki, Səməd Vurğuna mənim böyük hörmətim var. O, böyük şairdir. Baş həkim çox yaxşı adam idi. Mənim xahişimə belə cavab verdi ki, günün hansı vədəsində istəsə, onu yoldaşı ilə qəbul edib yemək və vanna götürməsinə şərait yaradaram. Qayıtdım Səmədin yanına, əhvalatı danışdım. Onlara kömək olundu.

**4.**

... Vurğunla bağlı xatirələrim çoxdur. Bir dəfə filarmoniyada XIX partiya qurultayının iclası gedirdi. Teymur Yaqubov da Mərkəzi Komitənin məruzəçisi idi. Birdən məruzə vaxtı qayıdıb dedi ki, tələbələr Səməd Vurğunun, Mirzə İbrahimovun əsərlərindən istifadə edib elmi iş yazırlar. Salonda guruıltu qopdu. Bağırov tez soruşdu:

- Hardadır Vurğun? Hanı Mirzə?

Hər ikisini tapıb çıxardılar səhnəyə. İkisi də nümayəndələrin qabağında yanaşı durdu. Bağırov onlardan soruşdu:

- Nə üçün sizin əsərlərinizdən dissertasiya yazırlar?

Mirzə dinmədi. Səməd qayıtdı ki, heç kəsdən mənim əsərlərimdən dissertasiya yazmağı xahiş etməmişəm. Kim yazırsa, bu, onun öz işidir. Bunun mənə nə dəxli? Mənim buna nə ehtiyacım? Nə isə iki görkəmli sənətçi bu qədər camaatın gözü qabağında məcburən bu yersiz təhqirə izahat verməli oldu. İlyas Əfəndiyev astadan dilləndi:

- Bu, amansız hərəkətdi, iki ədibi təhqir etmək deməkdi.

**Sözün qüvvəti**

Kamran Hüseynov "Quruculuğa həsr olunmuş ömür" kitabının Mingəçevir bölümündə Səməd Vurğunla yanaşı Stalin dövrünün nəhəng ədibləri sayılan Aleksandr Fadeyevin, Vasili Ajoyevin, Konstantin Simonovun bizim yazıçılarla (S.Vurğun, Ə.Vəliyev, M.İbrahimov, S.Rəhimov, İ.Əfəndiyev) onun qurduğu şəhərə gəldiklərini xatırlayır. Yeri gəldikcə həm "Salnamə"də, həm də "Quruculuğa həsr olunmuş ömür"də

Əli Vəliyev, Mirzə İbrahimov, İlyas Əfəndiyev haqqında ürək sözlərini deyir, onlara dair hadisələri təsvir edir. Hətta o, sonuncu kitabını nikbin ovqatda qurtarmaq naminə Süleyman Rəhimov haqqında məqalə ilə tamamlayır.

**Müəllif**

Adlar çəkildi; Vasili Ajoyev, Aleksandr Fadeyev, Konstantin Simonov... Sonra bu sıraya çoxlu adlar daxil olacaq; Nazim Hikmət, Çingiz Aytmatov. Dövrünün möhtəşəm qələm sahiblərinin bəziləri ilə Kamran – çox zaman da SSRİ nümayəndə heyətinin başçısı qismində - dünyanı dolaşacaqdı.

Xatirələrdən belə görünür ki, Kamran Hüseynov harada işləməyindən asılı olmayaraq iki zümrəyə - öz əlinin əməyi ilə halal çörək qazanan sadə insanlara və bir də yaradıcı ziyalılara xüsusi rəğbət bəsləyir. Onun nəzərinə görə həm fiziki, həm də zehni iş sadə əməkdi, bu ilkin başlanğıclar, həyatın mənasını təşkil edir, hələ ki bəşəriyyət şüurlu cəmiyyətdə var olmağın bu iki üsulundan başqasını yarada bilməyib.

Kamran Hüseynova görə yaradıcı şəxsiyyətlər ümumən xalqın nailiyyətidir, onların hər biri ayrıca fərd olmaqla bərabər, həm də ümumən xalqın dünyagörüşünü ifadə edir, xalq təfəkkürünün hansı dərinliyə malik olduğunu göstərirlər.

Görünür, bu səbəbdən cəmiyyətlərdə baş verən dəyişmələri yaradıcı insanlar daha həssaslıqla qarşılayırlar, bəzən onlar təqib olunur, söyülür, zərbələr alırlar. Bəzən hamı kimi onlar da həqiqətə göz yumur, ictimai formasiyanın, mexanizmin hansısa bir işlək hissəsinə çevrilirlər. Mürəkkəb situ-

asiyalarda baş vermiş fəlakət və yaxud ictimai-əxlaqi naqislik bütün fəal kütləni əhatə etsə də, tarixdə yalnız yaradıcı şəxsiyyətlərin adı xatırlanır, onları necə bir məhəbbətlə göyə qaldırılmışdılarsa, o boyda qəzəblə də yerə çırpırlar... Yenə də təkrar edək, bu təsadüfi deyil, çünki ziyalı, xalqın sevdiyi şəxsiyyət o toplumun sifətidir, baş verən dəyişikliklər üzdə əks olunur, doğrudan, axı insanların taleyi də alına yazılır.

Belə görünür ki, kitabımız get-gedə lokal məziyyətini qeyb edərək ensiklopedik xarakter almağa başlayır. Daha doğrusu, Kamran Hüseynovun xatırladığı və təbii ki, zamanında təmaslarda olduğu yerlər, insanlar və hadisələrin sözlüyü yaranır. Biz sadəcə "sözlük" yarımbaşlığı ilə yolumuza davam etsək də, fikrin tam ifadəsi üçün deməyə borcluyuq ki, bu elə-belə sözlük deyil, "Kamran Hüseynov sözlüyü"dür.

Mətləbdən uzaq düşməyək; bir az irəlidə adı çəkilən Aleksandr Fadeyev də, Konstantin Simonov da... möhtəşəm XX yüzilliyin möhtəşəm şəxsiyyətləri olublar; kişi hərəkəti etdiklərinə və yaxud etmədiklərinə, döyüldüklərinə və yaxud xan həyatı yaşamalarına baxmayaraq, Sovet dövrünün nəhəng şəxsiyyətləri ayrıca bir dövlət kimi idilər, elələri vardı ideal dövlət idi, elələri vardı naqis, törtöküntülü...

İndi ola bilər ki, bizim gənclər desinlər, adı çəkilən ədəbiyyat generallarının Azərbaycana yaxud Kamran Hüseynova nə dəxli var? Amma belə deyil, aradan o qədər vaxt keçməyib ki, Sovet həyat tərzi deyilən ictimai mühitin havası tamamən sovuşub keçmiş olsun. Bəlkə bir neçə nəsill dəyişməlidir. Unutmaq üçün yox, ibrət almaq üçün. Elə bir ibrət ki, insan öz azadlığı, cəmiyyətin ən üstün nailiyyəti olan demoktarik yaşam tərzini qorumaq naminə mübarizəni bir

an belə özündən kənarda saxlaya bilməz. Dəhşətli insan mənzərələri ilə bir daha üzləşməmək üçün hər kəsin daxili varlığı polad kimi bərkiməli, davamlı olmalıdır.

**Deyilmişdir**

Yalnız bir tanrı var – bilik, yalnız bir şeytan var nadanlıq.

*Sokrat*

Bütün hallarda tarixin hansı bir dönəmindəsə bizim vətənimiz, bizim insanımızla bağlı nələr baş veribsə, Azərbaycana hansı bir seçilmiş insanın ayağı dəyibsə, keçmişimizin və indimizin içində kimlər varsa, onları qəsdən təcrid etmək yolverilməzdir. Bunlar yoxsa, tarix mükəmməl olmur.

Beləliklə...

**Sözlük**

Aleksandr Fadeyev

*Aleksandr Fadeyev 1901-ci ildə Tver əyalətinin Kirmi kəndində doğulub. Dörd yaşında bacısının əlifba kitabından hərfləri öyrənib. Sevimli yazarları - Cek London, Fenimor Kuper.*

*1918-ci ildə məktəbi yarımçıq buraxaraq inqilabçılara qoşulub. Kommunist Partiyasının sıralarına daxil olub. Partiyada Bulıqa ləqəbi ilə tanınıb. 1920-ci illərdə Moskvaya gəlib. 1926-cı ildə "Darmadağın" romanı çap olunub. Romanın çapından sonra Fadeyev şöhrət qazanıb. Gənc yazıçı tezliklə Rusiya Proletar Yazıçıları İttifaqının rəhbəri təyin edilib.*

*Fadeyev sosialist realizminin nəzəriyyəçilərindən biri idi. Onu "ədəbiyyat naziri" də adlandırırdılar. Fadeyev demək olar ki, 30 il müddətində Sovet ədəbiyyatının yol göstərənlərindən biri olmuşdu. O, Platonov, Axmatova, Pasternak, Zoşşenko kimi yazıçıları sosialist realizmindən sapmaqda günahlandırır, onları "rus ədəbiyyatının törtöküntüləri" adlandırırdı.*

*Dövrün tələblərinə cavab verməyən bir qrup yazarların təqib olunmasında onun rolu az deyildi. Ali kürsüdən onları tənqid edənlərin başında, əlbəttə, Fadeyev dururdu. Onun 1949-cu ildə "Pravda" qəzetində yazdığı "Bir qrup antivətənpərvər teatr tənqidçiləri haqqında" məqalə ilə "Kosmopolitlərlə mübarizə" kampaniyasının əsası qoyuldu. Məqaləni Stalin şəxsən redaktə etmiş, başlığı da özü qoymuşdu.*

*Fadeyev təzadlı həyat sürürdü. Əgər Yazıçılar İttifaqının qurultayında Andrey Platonovu, Bulqakovu, Pasternakı tənqid edirdisə, əvəzində Platonov xəstə olanda tez-tez ona baş çəkir, mülicəsi üçün maddi yardım edirdi.*

*Fadeyev Anna Axmatova yaradıcılığını topa tutmaqla, onu burjuaziya maraqlarından çıxış etməkdə günahlandırmaqla bərabər Stalin mükafatına da təqdim etmişdi. Oğlu N.Qumilyovun azad edilməsi üçün yuxarılara minnətçi düşmüşdü.*

*Bulqakov ölüm yatağında olanda Fadeyev onunla son dəfə görüşür. Kim deyə bilər ki, onun Platonovla, Bulqakovla söhbətləri hansı xarakterdə idi, onlardan əfv diləmişdimi? Nə bilmək olar?*

*Fadeyevin romanı gözlənildiyi kimi rəğbətlə qarşılanmır. Hətta Stalin belə Don gənclərinin müqavimət hərəkatında partiyanın rolunun göstərilmədiyi üçün Fadeyevi möhkəm danlayır. "Ellər atası" Fadeyevi qəbuluna çağırtdırır. Qapını döyüb kabinetə daxil olan yazıçı Stalini qanıqara görür. Stalinin soyuqluğunu həmin dəqiqə duyan yazıçı irəli gəlməyə cəsarət etmir. Stalin başını qaldırıb: - Siz kimsiz, yoldaş Fadeyev? – Rəng alıb, rəng verən Fadeyev cavab verməkdə çətinlik çəkir, Stalinin bu cür köntöy sual verməsinin bir səbəbi olduğunu anlayır. Amma səssiz dayanmağın da ona bir faydası olmayacağını dərk edir:*

*- Mən yazıçıyam, yoldaş Stalin.*

*Stalin elə bu cavabı gözləyirmiş kimi:*

*- Siz psixsiz, yoldaş Fadeyev, yazıçı deyilsiz!*

*Sonra əlini masanın üstündə açıq duran kitaba vuraraq:*

*- Yazıçı bax budur, Anton Pavloviç Çexov, – deyir, - siz ideoloji*

*cəhətdən zərərli kitab yazmısınız. Siz gənc qvardiyaçıları cinayətkar dəstə kimi təqdim etmisiniz. Məgər partiyanın rəhbərliyi olmadan faşizmə qarşı effektiv mübarizə aparmaq mümkündürmü? Sizin kitabınıza görə mümkündür.*

*Fadeyev dinməzcə dayanır, heç nə deyə bilmir. Stalin onu qapıdanca qaytarır.*

*- Gedin və düşünün, yoldaş Fadeyev.*

*Fadeyev əsəri yenidən yazmağa məcbur olur. O, zarafatla dostlarına deyirdi: "Gənc qvardiyanı qocasına dəyişməklə məşğulam".*

*Fadeyev deyirdi: "Mən bir Stalindən, bir də anamdan qorxuram". Fadeyev Stalinə dərindən bağlı adam idi. Əgər bütün ölkədə bir Stalin xofu var idisə, Fadeyevdə qorxudan ziyadə sevgi vardı. Stalinin vəfatından sonra Fadeyevin ağır günləri başlandı. Bir zamanlar Stalinin sadiq tərəfdaşlarından biri olan yazıçı Xruşşovun diqqətindən kənarda idi. 20-ci qurultayda Şoloxov onu kəskin tənqid elədi. O, Sovet ədiblərinin repressiyaya məruz qalmasında başlıca günahkarlardan biri hesab olunurdu.*

*Ömrünü müxtəlif tədbirlərdə, rəsmi mərasimlərdə, ictimaiyyət arasında keçirmiş bir adam artıq əvvəlki nüfuza malik deyildi. O özü də bir zamanlar etdiyi səhvlərə görə vicdan əzabı çəkirdi. Ömrünün sonuna iki ay qalmış içkini də tərgitmişdi. Daha əvvəlki kimi sərxoş olub küçədə, kanal qırağında yıxılıb qalmırdı. Oğlu Mixailin xatirələrinə görə, ölümündən bir gün əvvəl Peredelkinodakı bağ evindən Moskvaya gedib bir neçə nəfərlə görüşür, bundan sonra bağa qayıdır.*

*Mayın 13-də isə çox sevdiyi dostu Səməd Vurğunun 50 illik yubileyinin səhəri günü iş otağında tapança ilə sinəsindən nişan alır. Fadeyev ölümündən qabaq Mərkəzi Komitəyə məktub yollamışdı. Məktub o zaman ictimaiyyətə açıqlanmadı, gizli saxlanıldı. 44 il gizli arxivdə saxlanılan məktub yalnız 1990-cı ildə dərc olundu: "Mənim həyatım bir yazıçı kimi bütün mənasını itirir və mən*

*alçaqlıq, yalan və böhtan kimi üzərimə düşən bu murdar mövcudluqdan böyük sevinclə xilas olaraq, həyatdan gedirəm".*

**Sözlük**

Konstantin Simonov

*O, rus yazıçısıdır, ictimai xadimdir, Sosialist Əməyi Qəhrəmanı olub, Lenin mükafatı və 6 dəfə SSRİ Dövlət mükafatına layiq görülüb. Pyeslərin, ssenarilərin, publisistik oçerk və yol qeydlərinin, ədəbi-tənqidi məqalələrin müəllifidir.*

*Simonova müharibə (1941-1945) dövrü lirikası daha çox şöhrət qazandırmışdı. "Azərbaycan xalqı şair xalqdır" sözləri də deyilənə görə ona məxsusdur.*

*"Jdi menya" ("Gözlə məni") şeirinin müəllifi Konstantin Simonov, İosif Stalinin göstərişi ilə Fransa, Yaponiya, hətta ABŞ-a gedir, bu ölkələrdə siyasi təbliğatla məşğul olurdu.*

*1976-cı il fevralın 13-də SSRİ Elmlər Akademiyası Sov. İKP MK-nın baş ideoloqu M.Suslovun tələbi ilə böyük bir müzakirə keçirilir. Qırmızı imperiyanın hakim elitası: akademiklər, siyasi xadimlər, yazıçılar Oljas Süleymanovu "Az-Ya" kitabına görə mühakimə edirlər. Akademik B.A.Rıbakov özü ilə birlikdə 45 şovinisti ayağa qaldırır. Hamıdan çox qəzəblənən, Oljas Süleymanovu məşum "37-ci il" terminləri ilə hədələyənlərdən biri də Konstantin Simonov idi.*

*K. Simonov Azərbaycana çoxsaylı səfərlər edib, Azərbaycanın tanınmış yazıçı və şairləri ilə dostluq münasibətləri saxlayırdı. Onun "Gözlə məni" adlı məşhur şeirinin Azərbaycan dilinə 10-dan çox müxtəlif müəllif tərəfindən tərcümə olunmuş variantları var. 1979-cu ildə vəfat edib.*

**Müəllif**

...Olanlar oldu, görülən işlər görüldü, vaxt keçdi, vədə yetişdi. Min illərdən bəri qocaman dağlardan qaynaq alıb, keçib gəldiyi yollar boyunca çox qanlar, qırğınlar görən, xoş

günlərə şahid duran Dəli Kürün üstündə Mingəçevir su anbarı, bu gün Azərbaycanın həyatında əhəmiyyətli rol oynayan hidroqurğu meydandadır. Verilən məlumatlardan göründüyü kimi bütün Sovet xalqının dəstəyi, Stalinin, Bağırovun iradəsi, İttifaq nazirliklərinin təminat və təchizatı, Sovet yaradıcı ziyalılarının (Simonov, Fadeyev...) ruhlandıran çağırışları və nəhayət, Kamran Hüseynovun şəriksiz təşkilatçılığı və faktiki rəhbərliyi ilə Mingəçevir yaradıldı.

İndi Mingəçevir yalnız su anbarının, Bozdağın ərazisində cilvələnən dənizin adı deyil, böyük bir şəhərdir. Kamran əmi xatirələrini tamamlayıb başa vuran il şəhərin əhalisi 100 min nəfərə çatırdı. 1954-cü ildən respublika tabeli Mingəçevir əhali sayı etibarı ilə Azərbaycanın dördüncü şəhəridir.

Həqiqətən də Mingəçevirin salınması dünya şəhərsalma tarixində yer tutmağa layıq bir hadisədir. Bu ideya Kamran müəllimin göstərdiyi kimi zaman-zaman ortada olmuş, xüsusilə Kür-Araz ovalığının ucsuz-bucaqsız tarlalarını sulamaq, bol məhsul almaq arzusu məsələnin aktuallığını həmişə hifz etmişdi.

1945-ci ildə müharibədən dərhal sonra tikinti planlaşdırılarkən ilkin variantda burada suyun qabağı 20 metr hündürlükdə olan bəndlə kəsilməli və göl, su anbarı yaradılmalı idi.

Lakin sonra məsələ bir qədər də şaxələndi. Mütəxəssislər bəndin üstündə su elektrik stansiyasının tikintisini təklif edib mövqelərini bildirdilər. SSRİ hökuməti təklifi bəyəndi.

1948-ci ilə qədər burada müəyyən hazırlıq işləri görülmüşdü, amma bir qədər irəlidəki təsvirlərdən də bilinir ki, Mingəçevirdə üç il papağı günə veriblər. Tamamən belə olmasa da, bu fikir həqiqətdən də uzaq deyil. Vaxt itirilmişdi,

bu sözsüz. Digər tərəfdən tikintinin miqyası o qədər geniş idi ki, onu idarə etmək, icranı ümumi ansamblda birləşdirmək az qala mümkün deyildi. Mingəçevirin tikintisində istifadə olunmuş texnika, iş üsulu, insan potensialı, sürət və digər komponentləri indiki ilə müqayisə etmək olmaz. O zaman işin böyük bir qismi əl əməyinə, insan qolunun gücünə əsaslanırdı. İndi çox rahatlaşıb. Elə bir tikinti materialı yoxdur ki, onu Azərbaycanda tapmaq mümkün olmasın. Bütün bunlarla bərabər bu yaxın tarixdə hər kəsin bildiyi faktdır: həqiqətən də 1945-48-ci illərdə Mingəçevir tikintisində acınacaqlı vəziyyət yaranmış və bu dözülməz şəraiti aradan qaldırmaq üçün MK-nın birinci katibi Mircəfər Bağırov Kamran Hüseynovu bu işin icrasını təmin etməyə yollamışdı.

"Salnamə" onun necə qaynar, narahat, çətin, amma bununla belə ürəyə qürur verən bir missiyanı yerinə yetirməsinə tutarlı dəlildir.

Kamran Hüseynov kitablarında Mingəçevirin tikintisinə kimin köməyi dəyibsə, hər birini bircə-bircə yada salır.

O zaman MK katibi işləyən akademik Həsən Əliyev (xalqımızın ümumilli lideri Heydər Əliyevin böyük qardaşı), Səhiyyə Nazirliyindən Vəli Axundov Mingəçevirə gəlib elə məqamda vacib yardımlar göstərmişlər ki, bunu heç bir vəchlə unutmaq olmaz. Səməd Vurğun, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev – onlara qoşulub gələn Aleksandr Fadeyev, Vasili Ajoyev, Konstantin Simonovun öz söhbətləri ilə insanlara verdikləri yüksək ruh da unudulmamalıdır. Lakin bu o demək deyil ki, 1952-53-cü illərdə bəndin yaradılması Mingəçevir əfsanəsinə nöqtə qoydu. Xeyr. Şəhər olaraq mövcudluğunun 70 ilinin bütün

dövrlərində burada nələrinsə dəyişdiyini izləmək mümkündür. Mingəçevir bəlkə coğrafi yerləşməsinə, bəlkə şəhər quruluşuna, bəlkə insanlarına görə sivilizasiyaya, inkişafa açıq şəhərdir. Burada insanlar estetik dəyərlərə, təmizliyə, yaşıllığa böyük ehtiram bəsləyirlər. Şəhər nə qədər istəsən, bəzək götürə bilir...

Mingəçevirin indiki hala gəlməsində Heydər Əliyevin də böyük zəhməti var. Respublikaya rəhbərlik etdiyi bütün illərdə onun əli Mingəçevirin üstündə olmuşdu. Heydər Əliyev Mingəçevir tikintilərinin aparılmasında Kamran Hüseynovun fövqəladə fəaliyyət göstərməsindən xəbərdar idi.

Tarixin sonrakı gedişatı göstərdi ki, ulu öndər vətənin hər bir dəyanətli oğlu kimi Kamran Hüseynovun əməlinə və şəxsiyyətinə dəyər verdi. Bu barədə danışılacaq, təkcə onu deyək ki, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi olduğu 1969-82-ci illərdə Kamran Hüseynov onun komandasının ən yuxarı mərtəbəsinə daxil idi; o Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsini tuturdu (1967-1980). Sonra Heydər Əliyev onu Ticarət-Sənaye Palatasının rəhbərliyinə məsləhət gördü. Bu sahə də, ulu öndərin qənaətinə görə, geri qalırdı, onu təcrübəli təşkilatçı, dünya düzənindən baş çıxardan kadr nizama sala bilərdi. Belə də oldu. Bu barədə də danışılacaq.

## Novxanı. Qızılqaya

Gün axşama doğru axır. Kamran əmi arada yemək otağına keçib onun üçün əvvəlcədən hazırlanmış isti xörəklə nahar eləmişdi, çay içmişdi. Həyətə düşüb bir qədər də gəzinmiş,

hava udmuşdu. Ümumiyyətlə, o rejimini gözləyən adam olub. Amma işinin ən gərgin vaxtlarında da yorulduğunu, deyək ki, lap fiziki mənada taqətdən düşdüyünü xatırlamır. Daxilindəki hansısa bir güc, içdən gələn bir qüdrət onu təhrik edib ki, ən qısa zamanda əlindəki işi başa vurub yenisini başlasın. Dayanmadan, addım-addım irəli... Bu, onun həyat tərzi, şəxsi keyfiyyətidir. 85 yaş zarafat gəlməsin... Düzdü, indi idarə-idarə, rayon-rayon, ölkə-ölkə gəzmək, adı bilinən və bilinməyən, bəzən elə olduğu yerdə meydana çıxan saysız-hesabsız məsələləri həll etmək məsuliyyəti yoxdur.

İtib-batmasın, gələcək insanlara görk olsun deyə yaddaşındakıları ağ kağızların vəfalı səthinə köçürmək öz yerində, onun bu payız günü, bağ evinin artırmasına çəkilib həyat romanını sənədləşdirməsinin bir səbəbi də xarakterindəki daimi hərəkət çağırışıdır.

İndi o, bu günə doğru 40 il irəliləmişdi. Bir ömür yolunun 45 illik möcüzələrlə dolu dövrü də bu qocaman el ağsaqqalının öz əlləri ilə qeydiyyata alınmalı idi ki, illər və insan taleyi biri-birinə etibarlı şəkildə bağlanıb düyünlənsin...

Yol onu Neftçalaya aparırdı

**Sözlük**

Neftçala

*Neftçala rayonu Azərbaycan SSR-də inzibati rayon kimi 1940-cı ildə yaradılıb. 1939-cu ildə bir il müddətinə Xıllı rayonunun, o vaxta kimi Salyan rayonunun tərkibində olub. Neftçala rayonu sırf sənaye rayonu kimi təşkil olunmuş, kənd inzibati əraziləri isə Xıllı*

*rayonuna tabe edilmişdi. Xıllı 1959-cu ildə ləğv edilərək Neftçala rayonunun ərazisinə qatılmışdı. 1959-cu ilin dekabrında isə Neftçala rayonu ləğv edilərək ərazisi Salyan rayonu ilə birləşdirilmişdi. 1963-cü ildə Salyan rayonundan ayrılaraq Neftçala sənaye zonası təşkil edilmiş, lakin belə qarışıq idarəetmə sistemi özünü doğrultmadığından 1965-ci ildə ləğv edilərək yenidən Salyan rayonunun tərkibinə daxil edilmişdi. 1973-cü ilin aprelin 27-də edilən növbəti dəyişiklikdən sonra bir daha müstəqil rayon statusu almışdı. Rayonda 18 inzibati-ərazi nümayəndəliyi ilə bərabər, 27 bələdiyyə fəaliyyət göstərir. İnzibati mərkəzi – Neftçala şəhəri Kür çayının dənizə töküldüyü yerin yaxınlığında yerləşir.*

**Müəllif**

Yol Azneft meydanı dairəsindən qopub üzü Bayıla tərəf tədricən qalxıb diklənir. O qədər də geniş olmayan yolun sağında və solunda ötən əsrin əvvəllərində salınmış tək-tük də olsa, memarlıq dəyəri daşıyan binalar sıralanır, di gəl sonradan, tələm-tələsik yapılan gecəqondular həmin o tək-tük tikililəri hörümçək toru kimi böyüyərək pinti bir görüntü yaradır. Salxaq-sulxaq divarlar, damlar sağda Bayıl dağının yuxarılarına, solda Xəzər sahilinə qədər yayılıb gedir. Əgər dənizin lap kənarında salınmış buruq meşəsi, neftçıxarmaya, gəmiqayırmaya aid zavodlar, tərsanələr olmasaydı, bu gecəqondular Xəzərin lap sulu sahilinə qədər gedib çıxardı.

Onlar, Kamran və ailəsi Mingəçevirdən Bakıya bazar günü dönmüşdülər. O, daha orada işləməyəcəkdi. Tapşırıq yerinə yetirilmişdi, Kür gözəli Mingəçevir ayaq üstə durmuşdu. Xudaya, orada keçən üç ildə Kamran nə boyda çətinliklərə dözmüş, ən müxtəlif səbəblərdən əsəbləri sim kimi tarım

çəkilmişdi. Amma o taleyindən yenə də razıydı, bəlkə elə buna görə qarşılaşdığı mürəkkəb vəziyyətlər onu sarsıda bilməmiş, çox mühüm, hətta yoldaş Stalinin nəzarətində olan bir vəzifəni yerinə yetirə bilmişdi. O, orada qalıb işini davam etdirə bilərdi. Üstəlik, ortada üç illik Mingəçevir təcrübəsi vardı, adamları, ərazini mükəmməl tanıyırdı, ona ehtiram bəsləyirdilər, tapşırıqlarını can-başla yerinə yetirirdilər. İndi Mingəçevirin təkcə su-elektrik stansiyası yox, yaşamaq üçün hər bir şəraiti vardı və ildən-ilə imkanlar daha da genişlənəcəkdi.

Amma onun arzusu ilə deyil ki. Görünür, başqa bir yerdə ona daha çox ehtiyac var. Bu o deməkdi ki, Kamrana bu dəfə də elə yeri tuşudacaqlar, yenə hər şeyi sıfırdan başlamaq lazım gələcək.

Dünən, həftənin birinci günü MK-ya çağırdılar. Hər şey həll olunmuşdu, o, Neftçalada çalışacaqdı. Orada, KP yaranandan üzübəri adətən olduğu kimi, yerdə seçki keçiriləcək və Kamran Əsəd oğlu Hüseynov Rayon Partiya Komitəsinin büro üzvü və birinci katibi seçiləcək.

İndi bu birinci katiblik neçə il davam edəcək, növbəti səfər o hansı təşkilata təyinat alcaq, bütün bunları bəribaşdan demək mümkün deyildi.

Bu gün, həftənin ikinci günü Kamran Neftçalaya yollanmaq üçün evdən çıxıb həyətdə onu gözləyən maşına minəndə səhər saat səkkiz idi. Yol Bayıl dikinin belinə dolanıb sağ enişə düşəndə onun gözləri qarşısında qeyri-adi dərədə heyrətamiz Xəzər mənzərəsi açıldı.

Dənizin lap o başından suyun içindən çıxıb hər saniyə yüksələn günəşin işığı quzu balası kimi sakit-sakit xumarlanan dənizi qızıl suyuna çəkmişdi. Kamran işi-gücü artandan

sonra, on beş ildən bəri az qala yüz dəfə gah şəhərdən çölə, gah çöldən şəhər istiqamətində Bayıl dikindən keçmişdi, amma heç zaman Xəzəri bu sayaq əsrarəngiz görməmişdi. Bəlkə bu qocaman dəniz heç zaman belə olmayıb, bəlkə bundan da baxımlı olub, o fikir verməyib?

Gör neçə illərdir onun dincliyi yoxdur. İş başdan aşır, qayğılar insan çiyinlərindən elə basır ki, adam başını qaldırıb ətrafa baxmağı yadından çıxarır, yadırğayır...

Kürə Azərbaycanın şah damarı demişdilər nə zamansa. Xəzər Vətənin dalğa-dalğa, ləpə-ləpə döyünən ürəyidir. O ürəyə Kür, Araz... qan daşıyır, Xəzər cana gəlir. İndi onun Xəzərlə təmasından, bu həyat mənbəyi ilə ilk görüşdən nə az, nə çox, iyirmi il ötür. Lap birinci dəfə Akaradan Bakıya gələndə görmüşdü dənizi. 1934-cü ilin may ayında. Qatar onu doğma yurddan qopararaq Qumlaqda qədim Xudafərin körpülərinin böyründən adlatmış, Mahmudlu, Horadiz, Bəhmənli, Daşburunda dayana-dayana ta Qaradonluya qədər az qala tikanlı sərhəd məftillərinə sürtünə-sürtünə gedib, həsrətli Arazla ötüşmüşdü.

Onun tay-tuşlarının, iki yüz Qubadlı cavanının da Akaradan bir tikə çörək qazanmaq xatirinə vaqonlarına doluşduğu qatar təkərlərin parıldatdığı polad relsləri döyəcləyə-döyəcləyə Əli Bayramlıya yetişmiş, Kürün üstündən adlayıb saat yarımdan sonra, səhər üzü Qobustan qayalarına çatmışdı. Bax elə bu zaman Kamran Duvannı deyilən yerdə ömründə ilk dəfə dəniz görmüşdü. Bu, Xəzər dənizi idi. Abşeron yarımadası getgedə genişlənən qızılı qumlarla ov-xarlanmış nəhəng bir qılınc kimi suyun yaşılca-göyümtül si-nəsinə sancılıb bu yerlərdə. Kamran heç bilmirdi sürətlə şütüyən qatarın pəncərəsinin hansı istiqamətə baxsın – bir

tərəfdə qocaman Qobustanın üstüyazılı daşlarla dolu mifik görüntüsü, Qədim, Ana Yer, bu biri yanda mavi sinəsinin ucu-bucağı görünməyən, elə hey genişlənən Xəzər – Ana Su...

Həmin an Kamranın hardan ağlına gələrdi ki, indən belə onun özünün yetmiş beş ili bu yerlərə elə bağlanacaq ki, həyatını bu qumlu, küləkli, dənizli, asfaltlı şəhərdən ayrı təsəvvür eləyə bilməyəcək. Hardan ağlına gələrdi ki, onu Sumqayıt deyilən yerdə Xəzərin qumlu sahilləri ilə əməlli-başlı çarpışma gözləyir. O hardan biləәrdi ki, vaqon pəncərəsindən baxaraq ömründə ilk dəfə gördüyü Xəzərə, Qobustan qayalarına heyrətlənən iyirmi yaşlı, möhkəm bədənli, ucaboy, yaraşıqlı oğlan – Kamran vaxt gələcək Novxanının, Coratın, Sarayın, Sumqayıtın qumlu dəniz sahillərində bostan əkdirəcək, inək saxladacaq, Xəzərdən çoxlu balıq tutduracaq ki, müharibənin şiddətli vaxtı ağır neft cəbhəsində çalışan fəhlələrin gözünə işıq gəlsin, acından ölməsinlər...

Kamran Akara qatarı, Xəzər, Qobustan düşüncələrindən ayrılanda maşın Ələt yoluna burulub Salyana doğru şütüyürdü, xəyalən iyirmi il geri dönərək bu dəfə dəmiryolla yox, quru yolla ortasından keçdiyi o mənzərələr; Xəzərin zümrüd ləpəli sinəsi, qırılmış qoşun kimi torpaq üstünə tökülüb döşəli qalan Qobustan qayalıqları geridə qalıb görünməz olmuşdu.

**Sözlük**

Xəzər dənizi

*Mavi Xəzər 955 kilometrdə Azərbaycanın su sərhəddini təşkil edir. Bu dəniz tarixin ən qədim çağlarından insanlara məlum olub, onların həyatının bir parçasını təşkil edib. Qədim tarixçilər və coğrafiyaçılar Xəzər*

*haqqında yazıblar. Azərbaycan, İran, Rusiya, Türkmənistan, Qazaxstan Xəzəryanı dövlətlərdir. Bu dövlətlərin hər birində o, fərqli adlarla tanınır. Ruslar, qazaxlar və türkmənlər bu dənizə Kaspi, iranlılar Mazandaran deyirlər. Bizdə Xəzər adlanır. Xəzər adının etmologiyası V-X əsrlərdə dənizin şimal-qərb sahillərində yaşamış türk tayfalarının adıyla bağlıdır. Dünyada ən böyük göl hesab olunur. Dənizin sahəsi dünyadakı bütün göllərin 44%-ni təşkil edir. Xəzərə tökülən çayların ən böyükləri Volqa, Kür, Ural, Terek, Sulaq, Samur çaylarıdır. Dəniz suyun 80%-ni Volqa çayından alır. Xəzər dənizi bütün sahilləri boyunca çoxlu tarixi hadisələrin şahidi olub. Lakin bütün hallarda ona üz tutan insanları naümid qoymayıb. Onun sərvətləri bitib tükənməzdir, təsərrüfat əlaqələrinin qurulması, yüklərin daşınması üçün əvəzsiz vasitədir. İlk dəfə olaraq sənaye üsulu ilə neft istehsalına Xəzər dənizində başlanmışdır. Vaxtilə Rusiyanın istismarında olan neft müstəqillik illərində Xəzəryanı dövlətlərin inkişafına xidmət göstərir.*

**Müəllif**

Maşın onu Neftçalaya aparır. Kürün o başına göndərdilər, nur şəhəri tikdi, dəniz yaratdı, indi bu qüdrətli axarın mənsəbinə daşınır...

Bəs onu Neftçalada hansı gün-güzəran, hansı töküntünü yığışdırmaq, kimə əl tutmaq, mədəni formada kimin ağzının üstündən vurub yerində oturtmaq gözləyir?

Özünə arxayındı, Sumqayıtda, Binəqədidə, Mingəçevirdə çalışanda canavar kimi yırtıcı adamlarla üzləşib, heç tabe olduğu, ən yuxarı mərtəbədəki rəhbərlər də mələk deyillər, onların Bakı küləyi kimi tez-tez dəyişən ovqatı bəzən başa turp əkdirir, gözə mil çəkdirir, şirin kefə acı soğan doğrayır. Amma Kürün yuxarı başından, aşağı başına, balaca Mingəçevir dənizindən Böyük Xəzər dənizinə, bütün hallarda cəbhədən cəbhəyə, bütün hallarda iş üstünə, bütün hallarda adam yanına...

İşi təhvil almağından bir həftə keçmişdi. O, Neftçalanı qarış-qarış gəzib saysız-hesabsız insanlarla görüşmüşdü, əlinin altındakıları – raykomda işləyən yoldaşları toplayıb məsləhətləşmələr aparmışdı.

Görmüşdü ki, belə gözəl, sadə, ürəyitəmiz, işgüzar insanlar it ilxısı, köpək sürüsünün girinə keçib.

Düz deyirlər ki, ən yaxşı tərbiyəçi əmək və iş nümunəsidir. Kamran Hüseynov, sözün həqiqi mənasında, qolunu çirmələyib işə başladı. İş isə çox idi, neçə ildən bəri bu yerlərdə balıqdan, kürüdən yeyib (əlbəttə hamı yox!), çöpü çöp üstünə qoymamışdılar. Adamlar vərəqələrdə suyun içinə tikilmiş taxta evlərdə zülüm çəkirdilər, daldalanmağa bir ağac yox, yay isti, qış soyuq...

Neft sənayesi nazirliyinin köməyi ilə evlər salındı, "fəhlələr o xaraba yerlərdən çıxarıldı". Bankadan gələn yolda, Kürün qırağında keçid məntəqəsi tikildi. Kürdə gəmiçilik bərpa olundu, Ələtdən daş, Bərdə və Tərtərdən çınqıl daşındı, planlı qaydada çoxmərtəbəli evlərin tikintisinə başlandı. Çörək kombinatı, mədəniyyət sarayı, stadion, yeni tipli məktəb, xəstəxana, demək olar, eyni vaxtda, elliyi birdən inşa edildi.

Yeni birinci katibin başladığı işlər adamlara ruh verir, onlar heç olmasa, bir işin qulpundan yapışmaq, el işinə kömək göstərmək üçün can qoymağa hazır idilər...

Tikmək, yaratmaq, əlbəttə, yaxşıdır. Buna baxmayaraq insan münasibətləri, hər işdə düzlük, ədalət prinsipi, hamının qanunlara əməl eləməsi əvəzedilməz hərəkətverici qüvvədir. Elə buna görə də birinci katib başqa tədbirlər görməyə məcbur oldu.

Od yanmasa, tüstü çıxmaz...

**Salnamə**

Bir gün Kür daşına gedirdik. Yolda "Haxverdilər" deyilən kənddə bir evə döndüm. Gördüm ki, bir qoca kişi quru yerdə başı aşağı, əsə-əsə oturub. Salam verdim, dinmədi. Elə bu halda bir qız vətəgədən qaça-qaça gəldi. Gəlib çatmağıyla bizi "top-tüfəngə tutmağı" bir oldu: "Nə gəlmisiniz? Tay nə qalıb aparmayasınız!" Onu sakitləşdirdim. Xəbər aldım ki, nə olub? Dedi: "Mənim qardaşım rayon mərkəzindəki Çapayev adına kolxozun çobanıydı. Təsərrüfatı özləri talan edib hamısını mənim qardaşımın üstünə atıblar. Onu həbs ediblər, gəlib evimizdə qədimdən qalma nəyimiz vardısa, hamısını aparıblar. Atamın da 50 qoyununu Xıllı rayonunda əlinən alıb onların kolxozlarına veriblər. Qardaşım indi Sibirdə yatır".

Balıq kombinatının direktoru Təvəggül də həbs olunmuşdu. Ümumiyyətlə, 100-ə qədər adamın barəsində iş qaldırılmışdı. Mən bu işə qarışdım. Mənim rayonda olan haqsızlıqlara baxmağım Respublika Məhkəməsinin sədri Hüseynov Məhərrəm və Respublika Prokuroru Rəhimovu rayona dəvət etməyim çox haqsızlıqların aradan götürülməsinə kömək olmuşdu. Məsələ burasındadır ki, mənə dedilər, rayonun həbsxanasında heç bir suçu olmayan çoxlu adam cəza çəkir. Rayonun Mədəniyyət şöbəsinin müdiri İmamverdi Əbilovla həbsxanaya gedib Respublikanın deputatı kimi həbsxananın qapısını açdırıb onları bir-bir sual edəndən sonra müəyyən oldu ki, çoxunun tutulmasına prokurorun sanksiyası yoxdur. Tutulmalarından bir on gün keçibsə də, heç kim onları danışdırmır. Elə belə də həbsxanada yatırlar. Ona görə də Respublika Prokuroru və Respublika Ali Məhkəməsi sədrinin rayona dəvət olunması hiss olundu ki, yerinə düşüb. Onlar

o ədalətsiz işləri yoxlayıb, çoxunu ləğv etdilər. Qocanın oğlunu Sibirdən azad edib, qarət olunmuş şeylərini özünə qaytardılar. Bir çox başqalarının haqqında qaldırılmış haqsız cinayət işlərinə də son qoyuldu.

Acı bir əhvalat da heç vaxt yadımdan çıxmır.

Bir gün bir qadın, yanında bir körpə uşağı, çox utana-utana, pörtə-pörtə gəlmişdi Rayon Partiya Komitəsinə şikayətə. Dedi: "Qardaş, mən Bankə balıq kombinatının keçmiş direktorunun külfətiyəm. Həyat yoldaşımı heç bir günahı olmadan tutub salıblar dustaqlığa. Neçə vaxtdı yatır. İndiyə qədər deyən yoxdur ki, niyə tutulub. Bir dəfə mənim özümü gecə saat 11-də çağırdılar. Bankədən qaranlıq gecədə Kürü gəmi ilə adlayıb gəldim. Heç nədən xəbərim olmadığı halda mənə suallar verdilər. Hədələdilər, qorxuzdular. Deyirdilər ki, fikirləş, bir də səni çağıracağıq. Bir yandan kişi dustaq, uşaqlar körpə! Başımıza müsibət oyun açırlar".

Mən o qadını dinləyəndən sonra dedim: "Bacı, gedin evinizə. Prokurorun çağırışına da gəlməyin. Biz yoxlayıb öyrənərik sizin dediklərinizi".

Sonra maraqlandım rayon prokurorundan, kombinatın direktorunu niyə və hansı əsasla tutmusunuz. Prokuror, şübhəsiz, öz suçları qarşısında özünü yaxşı hiss etmirdi. Bu işlərin hamısı ilə Ali Məhkəmənin sədri Məhərrəm Hüseynov və Respublika prokuroru Rəhimov dərindən məşğul oldular. Qeyd etdiyim kimi çoxlarının istintaq işi dayandırıldı, çoxları azad olundu.

Qəribə burasında idi ki, işi bacarmadığına, nöqsanlara yol verdiyinə görə yox (bu barədə söhbət gedə bilməzdi), əksinə, işi bacardığına və nöqsanlara yol vermədiyinə görə

onun getdiyi yola əngəl tikanları düzülür, ciddi ittihamlarla hesabat tələb olunurdu. Birgə çalışdığı ən etibarlı adamların mənfi obrazını yaradıb Bağırovun qulağını doldurmuşdular.

Hesabat? Nə hesabat? İndi yoldaş Hüseynov desin ki, bağışlayın, təqsirimdən keçin, qısa bir zamanda rayonda inanılmaz dəyişiklik olub. Balığı, kürünü silib-süpürüb aparanların qarşısı alınıb. Yoldaş Bağırov ildə bir-iki dəfə öz pulu ilə az miqdarda ağ balıq alıb apardığı halda, başqalarının tamahı Əli qılıncından itidir. Allaha and olsun, imkan versən, dənizi yerli-dibli qantarar, Kürü içib qurudarlar. Desin ki, balaca bir rayonda bu qədər ağa, bəy, bu qədər parazit vəzifələr kimə gərəkdi? Milis, DTK, prokuror, məhkəmə, hərbi komissarlıq, xalq nəzarəti komitəsi, rayon partiya komitəsi, rayon icraiyyə komitəsi, onun müxtəlif şöbələri var. Bu qədər təşkilatı bu balaca, kasıb, yeni qurulmağa başlayan rayon necə dolandıra bilər? Kim bir balaca haqqını tələb edir, azmaz şəxsiyyəti var, tutub basırlar içəri. Belə olarmı hörmətli yoldaşlar? Bunu Allah götürərmi?

Əvvəl-əvvəl onu başqa adla rayondan uzaqlaşdırmaq istədilər. Nə veclərinədi, Kamran həmişə olduğu kimi vəzifə borcuna sadiq qalaraq çürümüş bir bölgəni sağaldıb ayaq üstünə qoymuşdu, adamlarda özünə inam yaranmışdı, iş qaynayırdı, iki-üç ilə bu rayonun bir kimsənin yardımına ehtiyacı olmayacaq. Hə, onlara da elə bu lazım idi, qoyarlar öz adamlarını, müti birisini, əvvəlki qaydada balıqdan, kürüdən dartıb apararlar...

Xəbər verdilər ki, onu Moskvaya – Ali Partiya məktəbində oxumağa göndərirlər. Təqdimat verildi. Moskvadakılar uşaq deyil ki, başını aldadasan. Tezliklə cavab gəldi. Hüseynov yoldaş respublika partiya məktəbini, universitetin tarix fakultəsini bitirib. Təkrar Moskvada oxumağına ehtiyac yoxdur.

Bütün bunlara baxmayaraq o, az müddətdə çox iş gördüyü, həm də insanlarına ürəkdən bağlandığı Neftçaladan ayrıldı.

**Hekayət**

Qəribədir, o, Stalinin ölüm xəbərini də burada rayon partiya komitəsinin birinci katibi olarkən eşitdi.

İş dalınca Bakıya getmişdi. Mingəçevirdən tanıdığı Vaskinə rast gəldi, köhnə dostunu evinə dəvət etdi. Bir az oturdular, gördü ki, Vaskin ağlayır. O boyda kişinin gözündən yaş leysan kimi tökülürdü.

- Aleksandr Aleksandroviç, nə olub, niyə ağlayırsan?

- Stalin ölüb... Kobud adam idi... Amma çox da böyük hökmdar idi. İndən sonra dəhşət qarışıqlıqlar olacaq, Kamran, sən çox şeyi bilmirsən...

O, "ellər atasının" itkisindən sarsılan insanların göz yaşı axıtdığını Vaskinlə görüşdüyünün səhəri rəhbərlik elədiyi rayona qayıdanda da gördü. Kamran həyətə girəndə neftçalalı bağban Əbdürrəhman bir ağacın altına çöküb ağlayırdı.

Kişi ağlamağını demək olar, nadir hallarda görən görəndə də fikir verməyən Kamran sual elədi:

- Sənə nə olub, əşi, niyə ağlayırsan?

Bağban ovuclarını qoşalayıb gözünü silə-silə dilləndi:

- Bala, padşah öləndə rəiyyətin beli qırılır. Allah bilir, indən sonra başımıza nə müsibətlər gələcək...

**Müəllif**

Vaskinin və bağban Əbdürrəhmanın 1953-cü ildə göz yaşı tökərək söylədikləri Stalinin cəlladlığına haqq qazandıra bilməz, amma nə az, nə çox, düz qırx ilin anlatdığı həqiqət

həmin o sadə insanların göz yaşı ilə üst-üstə düşdü. Çünki kommunist rejiminin başına havalı Xruşşov, Sülh mükafatı laureatı Brejnev, Nobel mükafatı laureatı Qorboçov gəldi. Onlar beynəlxalq güclərin qəzəbindən ehtiyatlanaraq günahsız sinələrə güllə sıxmaqdan, sürgünə göndərməkdən çəkinsələr də, nəhəng bir imperiyanı səfeh yerinə qoydular (Xruşşov), pambıqla baş kəsdilər (Brejnev), satqınçılıq eləyib xalqları, demokratiya adıyla siyasi baxışları kəllə-kəlləyə gətirdilər (Qorboçov). Çağdaş Rusiya demokratiyasının atası Yeltsinin içməkdən keyimiş halsız bədənini Qızıl meydan boyunca sürüyə-sürüyə neoimperiya taxtına qaldırdılar. Görünür, bəxtimizdəndi, Rusiyanın normal hökmdarı Putin hakimiyyətə gələndən sonra orada, Rusiyada, qardaş ölkədə, möhtəşəm qonşu məmkələtdə alicənab rus həyatının qələbə çaldığına hamının inandığı bir məqamda isə dolanışıq üçün orta Asiyadan gələnləri küçə süpürüb tualet yumağa, erməni fahişələrini mehmanxanalarda ştatdankənar çalışdırmağa, azərbaycanlıları bazarlarda tərəzinin düz çəkib-çəkmədiyini yoxlayarkən harasından gəldi güllələməyə başladılar.

Hesabla sadə insanların – Vaskin və bağban Əbdürrəhmanın göz yaşı içində agah etdikləri düz çıxır. Bu məsələdə Kamran Hüseynovun mövqeyinin nədən ibarət olduğunu müəyyən etmək üçün bir qədər ehtiyatlı yanaşma tələb olunur. O, ömrünün sonunda qələmə aldığı əsərlərinin heç birində hər hansı məsələyə qiymət verərkən hakim rolunu oynamır və yekun sözü demir. Sadəcə görüb duyduqlarını olduğu kimi, o zamanlar keçirdiyi hisslərə sadiq qalaraq və bir yazıçı ustalığı ilə təsvir edir. O, danışdığı (qələmə aldığı) çoxsaylı əhvalatın sonunu açıq qoyur, başqa sözlə, dinləyənin (oxu-

cunun) nəticə çıxarmağına imkan yaradır. Sadə bir misal; Sumqayıt toponiminin anlamını, ən optimal dərəcədə izah edəndən sonra da deyir ki, qoy bilicilər bu məsələnin izahına bir daha qayıtsınlar; qoy onlar desinlər – sevimli bir gözəlin "Sum, qayıt" nidası həqiqətdi, yoxsa hərdən bir Xəzər sularının aşıb-daşıb boş çay yataqlarıyla üzü geri qayıtması daha ağlabatandı? Amma o irəli sürdüyü mühakiməni də tək qoymur, deyir ki, dalğalar şahə qalxıb qupquru çay yatağıyla geri qayıtdığını öz gözləri ilə görüb...

Əgər bu sayaq incələmələr aparsaq, həqiqətə daha çox yaxınlaşa bilərik. Amma geri qayıtmağa macal yoxdur. Biz 1953-cü ildəyik. Stalin ölüb. Bağırovu işdən götürüblər. Kamran Hüseynov rejimin daha bir ütüsündən zədəsiz çıxsa da, daha Neftçalada işləməyəcək. Orda qəhrəmanımızın qısa müddətli yaradıcılıq dövrü və unudulmaz insanların xatirəsi qalacaq; Əliyev Həsənağa, həkim Hüseynağa, qəhrəman neftçilər, balıq ovçuları, tarla zəhmətkeşləri, mehriban müəllimlər, Mirzəyev Cavad və Əbilov İmamverdinin insaniyyəti...

Və o, bir qədər MK-da işləyəndən sonra üçüncü dəfə Sumqayıta göndərildi.

Moskvada Xruşşov "buzları əritməyə" başlayanda İmam Mustafayev Bakıda Azərbaycan KP MK-nın birinci katibi seçildi. O, Kamran Hüseynovu yanına çağırdı...

**Sözlük**

İmam Mustafayev

*1910-cu ildə Qax rayonunda anadan olub. Zaqatalada Kənd Təsərrüfatı texnikumunu, Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirib. Orada dekan, kafedra müdiri, direktor müavini vəzifəsində çalışıb. 1940-*

*54-cü illərdə Dövlət Nəzarəti Komissiyasında, Xalq Torpaq Komissarlığında yüksək vəzifələr tutub, Kənd Təsərrüfatı naziri, Gəncə Vilayət Partiya Komitəsinin birinci katibi, Mərkəzi Komitənin katibi olub. 1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi seçilib. Yüksək dövlət ordenlərinə layiq görülüb. Azərbaycan dilinin rus dilindən üstün status qazanması üçün qərarlar qəbul edib. Elə buna görə də başı ağrıyıb. 1959-cu ildə o, "bacarıqsız olduğuna görə" işdən çıxarılıb.*

*Genetika və Seleksiya İnstitutunda şöbə müdiri işləmiş, 1971-ci ildə ona həmin institutun direktoru olmuşdu. Bir sıra məhsuldar buğda sortlarının yaradılması və yetişdirilməsi akademik İmam Mustafayevin adıyla bağlıdır. Kadrların hazırlanmasında, seçilməsində xidmətlər göstərib. Kamran Hüseynovun xeyirxahlıqla xatırladığı, dəyər verdiyi ağsaqqal, ziyalı, alim İmam Mustafayev 1997-ci ildə vəfat edib.*

**Hekayət**

Azərbaycan KP MK-nın birinci katibinin iş otağında İmam Mustafayev ayağa qalxıb bir neçə addım ataraq Kamran Hüseynova sarı yeridi, əl sıxıb görüşdülər, o, əyləşmək üçün yer göstərəndən sonra iş stolunun arxasına keçdi:

- Necədir işləriniz?
- Çox sağ olun, yoldaş Mustafayev, çalışırıq, sız yaxşısınızmı?
- Yaxşıyam, amma iş çoxdu, Kamran, iş çoxdu...

Bir qədər ümumi danışıqdan sonra birinci katib mətləbə keçdi.

- Sənin, Kamran, həyat yolun, demək olar ki, gözümün qabağında keçib, Binəqədi, Mingəçevir, Neftçala... bu yerlərdə əməyin çox olub. Dəvət etməkdə məqsədim budur ki, Sumqayıtla yenidən məşğul olasan. Himi qoyulandan Sumqayıtla bağlı adamsan. İndi orada vəziyyət çox ağırdı.

Əslində belə məsələlər müzakirə olunmur. Partiya-sovet inzibatçılığında qərarlar təyinat anına qədər məxfi saxlanılır.

Elə Kamran müəllimin özü ilə bağlı da belə hallar baş vermişdi. İmam Mustafayevin bu dəvətinin iki sadə səbəbi vardı. Birinci səbəb Sumqayıtın ölkə həyatı üçün çox vacib bir region olmasıydı. Şəhərin iqtisadi, sosial həyata təsiri ildən-ilə güclənir və Moskva da Sumqayıtla davamlı olaraq maraqlanırdı. Dəvətin ikinci səbəbi birinci katibin yoldaş Hüseynovun şəxsiyyətinə xüsusi dəyər verməsindən irəli gəlirdi. Kamran müəllim məsələyə münasibət bildirdi:

- Yoldaş Mustafayev, Sumqayıtın böyük əhəmiyyətini çox düzgün qeyd edirsiniz. Etimadınıza və məni qəbul etdiyinizə görə çox sağ olun. Biz dövlətimizin əsgəriyik, necə məsləhət bilsəniz, elə də olsun...

Yenidən – artıq üçüncü dəfə Sumqayıta, özül daşlarını öz əlləri ilə düzdüyü sənaye şəhərinə dönmək onun ürəyindən idi. Bununla belə, tezliklə Neftçaladan ayrılmaq da istəmirdi. Çünki orada çoxlu işlər başlamışdı, rayonun inkişafı ilə bağlı arzuları, planları vardı. Amma neyləmək olar, Sumqayıtda ona ehtiyac var və bunu ölkə rəhbərinin dilindən eşidir...

**Müəllif**

Kamran Hüseynov 1954-cü ildən 1958-ci ilə qədər Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışdı. Adamı heyrət bürüyür, dörd ildə bu qədər işləri necə başlamaq, davam etdirmək, başa çatdırmaq olar. İşin həm müsbət, həm də mənfi cəhəti bu idi ki, Sumqayıtdakı bir çox müəssisələrin tikintisi ümumittifaq tabeli idi. Müsbət cəhət o idi ki, mərkəzdən əsaslı tədbirlər görməyə yetə bilən həcmdə vəsait almağa imkan vardı. Yoxsa Azərbaycanın büdcəsində o qədər pul harada idi. Pis cəhət də bu idi ki, gərək hər işdən ötrü Moskvanı "tərpədə" biləydin. Başqa cür nəyəsə nail olmaq mümkün deyildi.

Kamranın həyatının məsuliyyətli, qaynar və çətin bir dövrü – Sumqayıt beşilliyi başlandı.

**Salnamə**

Şəhərin salınması, zavodların tikilməsi problemi həllini gözləyirdi. Sumqayıtda tikiləcək zavodların hamısı Moskvaya tabe idi. Ümumittifaq nazirliklərinin heç biri Sumqayıtda şəhər salınmasına razı deyildi. Hamısı bir ağızdan deyirdilər ki, zavodun yanındakı boş yerdə kazarma kimi üç-dörd yataqxana tikilsin, fəhlələr orada yaşasınlar...

"Əgər Azərbaycana şəhər lazımdırsa, qoy kommunal təsərrüfatı naziri gedib şəhərini tiksin!"

Rusca işlənən "posyolka" sözü keçmiş zamanlardan qalma atributdur, hər bir sahibkar istəyirdi ki, öz zavodunun böyründə kazarmalar tikdirsin, orada öz dükanını açsın. Fəhləyə heç məvacib verməzdilər. Fəhlə gedib həmin dükandan mal alardı. Ayın axırında onun aldığı malın haqqı məvacibindən tutulardı.

Elə bil sosialist nazirlikləri Sumqayıt barədə bu qədim üsuldan istifadə etmək, orada hər zavodun öz kazarmasını tikmək, öz dükanını açmaq istəyirdilər. Şəhərin kommunal təsərrüfatı, mədəniyyət ocaqları, məktəbləri, xəstəxanaları ilə heç kəs maraqlanmaq istəmirdi. Ancaq bu dəfə qərara gəldik ki, Sumqayıt çağdaş tipli yeni şəhər kimi salınmalıdır. Məhlələri zavodlar arasında bölməyi fikirləşmişdik. Kənardan gələn heç bilməyəcəkdi ki, burada hansı zavodun fəhləsi yaşayır. Kimin imkanı vardısa, ev tikmək üçün ona yer ayrılacaqdı. Şəhər baş plan əsasında tikilməli, müasir tələblərə cavab verməli idi. Bu minvalla Sumqayıtın söz-söhbəti

fırlanıb Moskvaya, adına "Dövləttikinti və arxitektura" deyilən, bütün ölkədə inşaat işlərinə nəzarət və rəhbərlik edən Komitəyə gedib çıxdı...

...Bizim təklif Moskvada müzakirə olundu. Paytaxtda dedilər ki, Sumqayıt Şəhər Partya Komitəsinin təklifı tamamilə məqsədəuyğundur, şəhər başdan-başa plan əsasında salınmalıdır.

Sumqayıtda yenidən işə bü cür başladıq. Nəyə görə bu qədər zavodu Sumqayıtda tikmək barədə qərar verilmişdi? Birincisi, o zaman sintetik kauçuk zavodunun əhəmiyyəti çox idi. Çünki ölkədə müasir tələblərə uyğun avtomobil, aviasiya sənayesi sahələrini inkişaf etdirmək gərək idi. Nəqliyyat sənayesi rezinsiz inkişaf edə bilməz. Rezinsə sintetik kauçukdan alınmalı idi. Ölkədə təbii kauçuk yox idi, Kartofdan, buğdadan alınan spirtdən istehsal edilən rezin tələbatın çox cüzi hissəsini ödəyirdi. Nə yolla olursa-olsun, kauçuk sənayesi inkişaf etdirilməliydı.

...Burada əsas mövzudan bir qədər kənara çıxıb bir məsələni qeyd etmək istəyirəm.

1955-ci il idi. Mərkəzi Komitədə tez-tez Lənkərandan gələn şikayətlərə baxılırdı. Müzakirələrdə əsas məsələ ondan ibarət olurdu ki, o zonada əhalinin sayı artır. İşsizlik baş alıb gedir. Bəziləri "demaqoq" adı qazanırdı. Biz isə Sumqayıtda yeni zavodlar tikirdik. Ancaq o zonadan Sumqayıtda işləyənlərin sayı yox dərəcəsindəydi. Halbuki Sumqayıta axın ölkənin çox yerindən vardı.

Bir gün büroda Mərkəzi Komitənin birinci katibi I.D. Mustafayevə dedim ki, icazə verin mən Lənkəran zonasına gedim. İşsiz adamları Sumqayıtda işləməyə dəvət edim. Mənim bu təklifim bəyənildi.

Lənkəran Rayon Partiya Komitəsinin birinci katibi Əbilovdan xahiş etdim ki, mənim harada işləməyimi camaata deməsin. Məni yalnız MK üzvü kimi təqdim etsin. Özüm çıxışımda dedim: "Bakının yaxınlığında, Sumqayıtda yeni sənaye mərkəzi yaranır. Orada işləməyə ölkənin hər yerindən gəlmək istəyən var. Bizim Lənkəran, Masallı, Yardımlı, Lerik, Astara rayonlarımızdan isə orada işləyənləri barmaqla saymaq olar. Oranın birinci katibi mənim yaxın tanışımdı. Gedin orada işləməyə. Orada hamıya iş tapılacaq. Mən ona deyəcəyəm, sizə kömək etsin.

Aradan 10-15 gün keçmişdi. Bir də gördüm ki, Sumqayıt Şəhər Partiya Komitəsinin qapısını bir dəstə adam açdı. Məni birinci katib yerində görəndə təəccüblərini gizlədə bilmədilər: "Bıy, Siz burada işlə- yirsiniz?!"

Aradan 5-6 ay keçmiş o zonadan Sumqayıta axın başladı.

...Belə qərara gəldilər ki, Sumqayıtda tikiləcək ikinci zavod boru-prokat (boru-yayma) zavodu olsun.

Üçüncü vacib zavod alüminium zavodu idi.

Sumqayıtda tikiləcək zavodların çox böyük strateji əhəmiyyəti var idi. Alüminiuma, əlvan metallara ehtiyac çox idi. Boru-prokat zavodu ildə 1 milyon ton polad, alüminium zavodu birinci növbəsində təxminən 70 min ton alüminium, sintetik kauçuk zavodu isə 120 min ton spirt və bir o qədər də kauçuk verməli idi.

...Alüminium zavodunun tikintisinə başlanıldı.

Tikinti çox sürətlə gedirdi. Ən çox sintetik kauçuk zavodunun məhsullarına ehtiyac var idi. Zavodun hər gün istehsal etdiyi məhsulu təyyarə ilə Moskvaya göndərirdilər. Mərkəzdə narahat idilər  ki, görən, istədiyimiz məhsulları bu zavoddan

ala biləcəyikmi? Sumqayıt sintetik kauçuk zavodu o vaxt nəinki SSRİ-də, hətta Avropada birinci belə zavod idi. Zavod işə salındıqdan sonra istehsal texnologiyasına neçə dəfə dəyişiklik edildi, tamam yeni texnoloji üsullar tapıldı. Zavodun verdiyi sintetik spirt Kremldən tutmuş üzü aşağı bütün ölkənin diqqətini Sumqayıta yönəltdi. Fikirləşirdim ki, bu diqqətdən, bu qayğıdan, bu məqamdan istifadə etmək lazımdır.

Cavan kimyaçıları ətrafıma toplamışdım. Bir dəstənin başında akademik Yusif Məmmədəliyev, o birisinin də başında akademik Aleksandr Dalin durmuşdu. Kimyaya böyük həvəs göstərən yerli cavanları da onlara qoşmuşduq. Maraqlanırdım ki, daha nələr edə bilərik. Hansı işləri görə bilərik? Bir gün öyrəndim ki, Azərbaycanda 3 milyon ton mazut var. Onu belə bölüşdürüblər: 500 min tonunu Ermənistan yanacaq kimi aparır, bu qədərini Gürcüstana, qalanını Quzey Qafqaza daşıyırlar. Ümumiyyətlə, Azərbaycanda mazutu dağıdırlar. Bunu eşidən kimi gənc kimyaçı texnoloqlardan xəbər aldım ki, bu mazutdan necə istifadə edə bilərik? Dedilər ki, mazutdan çox şey almaq mümkündür. Bir yeni kimya kombinatı tikilsə, mazutdan lavsan, polietilen, etilbenzol, kimyəvi aseton və başqa məhsullar istehsal edə bilərik. Bu təklifi hərtərəfli işləyib mükəmməl hazırlayandan sonra başladıq SSRİ Nazirlər Soveti sədrinin müavini M.G. Pervuxinin gəlişini gözləməyə. Nəhayət, o, gəlib çıxdı. Dövlət Plan Komitəsinin sədri N.K. Baybakov, onun birinci müavini V.A. Kalamkarov, kimya sənayesi naziri S.M. Tixomirovu da özü ilə gətirmişdi. Onlarla birgə böyük mütəxəssis dəstəsi də gəlmişdi. Qabaqcadan İmam Mustafayevi, Sadıq Rəhimovu xəbərdar etmişdim ki, bizim bir təklifimiz var.

Sintetik kauçuk zavoduna baxıb fıkir mübadiləsindən sonra zavodun yeməkxanasında çörək yedilər. Təklifı hazırlayan cavan mütəxəssisləri də saxlamışdım ki, bəlkə, lazım oldular. Sintetik kauçuk zavodunun işə düşməsi onların kefini açmışdı. Deyib gülür, sevinirdilər. Yaxşı işlədiyimizə, camaatı bacarıqla işlətdiyimizə görə mənə minnətdarlıq etdilər. Bu yerdə İmam Mustafayev dedi: "Mixail Georgiyeviç, şəhər partiya komitəsi katibinin yeni bir təklifı var. Vaxtınız varsa, onu da dinləyək". M.G. Pervuxin böyük məmnuniyyətlə razılaşdı. Dedim ki, bizdə 3 milyon ton mazut var. Amma bu cür mühüm xammalı kimya sənayesi üçün yox, yanacaq kimi istifadə edirlər. Sintetik kauçuk zavodunun şimal-qərbində Nasoslu (indiki H.Z. Tağıyev adına qəsəbə) stansiyasına yaxın ”Təkəqum” deyilən boş bir yer var. Olarmı biz həmin yerdə kimya kombinatı tikək? Kauçuk zavodu ilə də onun əlaqəsi olar. Mən də söz verirəm ki, biz bu kombinatı qısa müddətdə tikib istifadəyə verərik.

Soruşdular ki, həmin zavodda nə istehsal etmək fikriniz var? Mən də bayaq adını çəkdiklərimi sadaladım. Sonra dedim ki, icazə verin, bu layihəni hazırlayan mütəxəssisləri çağırım, özləri sizə ətraflı məlumat versinlər. Mütəxəssislər gəlib kimya kombinatında hansı məhsulları almağın mümkünlüyündən, sonra ayrı-ayrı istehsalatların müstəqil zavoda çevrilə biləcəyindən həvəslə danışdılar. O vaxt lavsan çox dəbdə idi. Həm də toxuculuq sənayesi üçün ən yararlı, sərfəli xammal sayılırdı. Kombinatda Azərbaycanın yetişdirdiyi pambığın təqribən 30 faizi qədər lavsan məhsulu almaq mümkün idi. M.G. Pervuxin həvəslə biz deyənlərə qulaq asandan sonra kimya sənayesi naziri Sergey Tixomirova dönüb dedi

ki, ağlabatan təklifdir. Baybakov da dilləndi ki, mən bu təklifə tərəfdaram. Respublika Nazirlər Sovetinin sədri Sadıq Rəhimov da dedi ki, çox yaxşı, hamımız burada kimya kombinatının tikilməsinə razıyıq. Pervuxin məndən soruşdu ki, bilirsən, kombinat neçəyə başa gələcək? Cavab verdim ki, təqribən hesablamışıq, 3 milyard manat xərc çəkilməlidir. Ona qoyulan xərci 4 il içərisində yüz faiz çıxaracaq. N.K. Baybakovun müavini Vartan Kalamkarov yerindən qalxıb dedi ki, bizdə sərbəst mazut yoxdur. Mazut çoxdan bölüşdürülüb: 500 min tonu Ermənistan, 500 min tonu Gürcüstan, qalanı da Quzey Qafqaz üçün ayrılıb. Sadıq Rəhimov yerindən bomba kimi partladı ki, mən Ermənistäna mazut verməyəcəyəm! Niyə bizim mazut Ermənistana getməlidir?! Nə isə, mənim çoxdan hazırladığım təklif burada bir partlayış törətdi. Gördüm ki, ixtilaf yaranacaq, dönüb Sadığa dedim ki, ay kişi, sən məsələni niyə bu cür qoyursan? Bunu sülh yolu ilə sakit həll edə bildiyimiz halda, bu qədər qışqırıq, acı sözlər kimə lazımdır?

Nəhayət, Pervuxin qərara gəlib N.K. Baybakova dedi ki, bu təklifi qəbul edirik. Sən Dövlət Plan Komitəsinin sədri, mən Nazirlər Soveti sədrinin müavini, kimya sənayesi naziri Tixomirovla bu məsələni hələlik, ilkin qaydada həll etmiş oluruq.

...Kimya zavodu sintetik kauçuk zavodunun davamı kimi tikilməyə başladı.

**Sözlük**

Yusif Məmədəliyev

*Tanınmış kimyaçı alim, akademik, 1947-1951, 1958-1961-ci illərdə Azərbaycan SSR EA-nın prezidenti olan Yusif Məmmədəliyev 1905-ci ildə*

*Naxçıvanın Ordubad şəhərində doğulub, əsas elmi sahəsi neftin və neft qazlarının emalı sahəsidir. Azərbaycanda neft kimyasının əsasını qoyub.*

*200-dən çox elmi məqalənin və 6 monoqrafiyanın müəllifidir. Kimyaçı alimin adı bütün dünyada tanınır.*

*O, 1961-ci ildə vəfat edib.*

**Müəllif**

Bunun ardınca Kamran Hüseynov və onun komandası Sumqayıtda superfosfat zavodunun tikintisi məsələsinin həllinə nail oldu. Yerli xammal hesabına şin zavodunun yaradılması ideyası meydana çıxdı.

**Salnamə**

Təklifimiz bu idi: gərək böyük sin zavodu tikək ki, öz rezinimizi özümüz istehsal edək. Bu zavodda təkrar istehsal təşkil etmək də mümkün olardı. Respublikanın ehtiyacı ödənər, kənara da hazır məhsul satarıq. Sözüm xoşlarına gəldi, "yaxşı təklifdir" dedilər.

Yenə Moskvadan nümayəndələr gəldi. Sumqayıtdakı zavodlara baxdılar. Şəhər də bir tərəfdən çox səliqə ilə tikilirdi, abadlıq işləri görülürdü.

Şəhərin inkişafındakı sürət hamının xoşuna gəlirdi, mənzil tikintisi də planauyğun gedirdi. Otaqların hündürlüyü 3,20 metrə çatan, geniş mətbəxi olan müasir evlər tikilirdi.

Şəhərin mərkəzindəsə sintetik kauçuk zavodunun hesabına iri mədəniyyət evi tikməliydik. O vaxt Xruşşovun "təşəbbüsü" ilə bir cərəyan başlamışdı: binalar alçaq olmalıdır, klublar balaca!..

Xudaya, axı mən bu sözə qulaq assaydım, şəhərin görkəmi korlanacaqdı! Nə təhər edək ki, bu tapşırıqdan, bu "göstərişdən" ötüşək, öz planımızı yerinə yetirək? Bakıdan ən yaxşı memarları çağırdım ki, şəhərin ən gözəl yerində, şəhər partiya komitəsi binasının qabağında mədəniyyət evi tikəcəyik. Memar Mütəllim Əliyev balaca kənd klubu boyda bir klubun layihəsini gətirib göstərdi ki, bunu tikək. Onu dilə tutub dedim ki, yoldaş Əliyev, sən Xruşşovun adını yaman çox çəkirsən, deyirsən ki, iri, hündür binaların tikilməsinə icazə vermir. Amma mən bu şəhərin mərkəzində kənd klubu tikə bilmərəm axı! Burada bir mədəniyyət ocağı tikilməlidir! Mütəllim Əliyev də cavab verdi ki, "olmaz, vəssəlam!" Gördüm ki, onu yola gətirmək mümkün olmayacaq. Xahiş etdim ki, onda siz qayıdın Bakıya, sizin klubunuzu tikməyə razıyam. Onu yola salandan sonra şəhərin memarlarını yığıb dedim ki, bu layihə təzədən işlənməlidir. Biz şəhərin mərkəzinə yaraşan layiqli mədəniyyət evi tikməliyik. Çox qısa müddətdə Mütəllimin layihəsini darmadağın edib yeni layihə hazırladılar. Texnikanı yığıb bina tikiləcək yerə tökdürdüm. Binanın özülü qazılıb qurtarmışdı ki, Mütəllim gəlib çıxdı Sumqayıta, özülü görəndən sonra mənə nə desə yaxşıdır:

- Ay yoldaş Hüseynov, sən elə deyirdin ki, balacadır, balacadır. ... Gör nə boyda əzəmətli bina olacaq?!

Dedim:

- Düz deyirsən, Mütəllim, elə sənin layihəni qəbul etdik, indi də tikirik...

Mütəllimin daha xəbəri yox idi ki, onun layihəsinin heç izi-tozu qalmayıb. Həmin mədəniyyət evi on bir ayın içində sintetik-kauçuk zavodunun hesabına tikildi. Binanın ətrafının abadlaşdırılması, bağın salınması, arxasında bir yay klubunun

tikilməsi də başqa zavodların boynunda idi. Mədəniyyət evi ilə üzbəüz Şəhər Partiya Komitəsinin binasını tikməyə başladıq. Bu tikinti də elə həmin müddətdə başa çatdı.

Mütəllim gəlib gördü ki, onun klubundan əsər-əlamət yoxdur. Ancaq çox görkəmli gözəl bina tikilib. Fasadı möhtəşəm, sütunları da var. Xruşşov da ki, sütunların qəti əleyhinə idi.

Növbəti dəfə Sumqayıta gələndə M.G. Pervuxin şəhəri gəzən zaman mədəniyyət sarayını görüb mənə belə dedi:

- Yoldaş Hüseynov, sənin bu mədəniyyət evin lap Böyük Teatra oxşayır. Bircə üstündəki at heykəlləri çatışmır.

Qəti cavabdan yayınmaq istədim:

- Nə bilim, tikdik də. Belə çıxdı! Daha sökməyəcəyik ki!..

- Yaxşı eləmisiniz. Tikilən qalacaq,- dedi.

Hamıya məlumdur ki, Sumqayıtda tikinti trestinin bünövrəsini qoyan Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər camaatı olub. Sonra bir az Şəkidən, Yardımlıdan, bir qədər də Tovuz tərəfdən gəliblər. Gələnləri texniki peşə məktəblərində oxudurduq, müxtəlif inşaatçı peşələrinə yiyələnirdilər. Lakin artıq Sumqayıtda sənaye sahələri yaranır, sənaye üçün kadr yetişdirmək lazım gəlirdi. İnşaatçılardan dəstə-dəstə gah Volqoqrada, gah da Zaporejyeyə göndərirdik ki, metallurgiyanı öyrənsinlər. Kimyaçıları da, Tula yaxınlığında "Yefremovo" deyilən bir kimya kombinatı kompleksi vardı, oraya göndərirdik. Bir sözlə, keçmiş inşaatçıları sənayenin inkişaf etdiyi respublikalara səpələyərdik ki, oxuyub ixtisas qazansınlar. Tikilən zavodlar hazır olanda göndərdiyimiz cavanlar yeni-yeni sənətlərə yiyələnib gəlirdilər. Bu gedişlə zavodlarda fəhlə sinfı yarandı.

Bir gün getdim Bakıya, Az.NKİ-nin (indiki Az.ANA) rektoru Saleh Qocayevin yanına. Xahiş etdim ki, bu ilki məzunlardan

xeyli texnoloqu, energetiki, kimyaçı texniki Sumqayıta göndərsin. Sonra özümü saldım N. Nərimanov adına ATİ-nin rektoru Bahadur Eyvazovun yanına. Ona dedim ki, bəs Bahadur Ələsgəroviç, bu ilki buraxılışda bütün həkim ixtisasları üzrə müəyyən faizi Sumqayıta verməlisiniz. Sonra müəllim kadrları məsələsini həll etmək üçün universitetə, APİ-yə baş çəkdim. Bir sözlə, xeyli ali təhsilli mütəxəssisin Sumqayıta göndərilməsinə nail olduq. Onları bölüşdürüb zavodlara payladıq. Hamısı cavan, institutu təzə bitirmiş kadr, işə elə bir həvəslə girişdilər ki, gəl görəsən!

Ancaq fikir verib görürdüm ki, onlar çox çətinliklə üzləşirlər. Hər gün Bakıya gedib gəlirlər. Aralarında da xeyli qız uşaqları var idi. Fikirləşirdim ki, belə olmaz. Şəraitsizlik üzündən cavanları itirə bilərik.

Bir gün Şəhər Partiya Komitəsinin üçüncü katibi, təbliğat məsələlərinə baxan Axundov Kamalı çağırıb dedim ki, get institutlardan təyinatla Sumqayıta çağırdığımız cavanların hamısının siyahısını tut. Hamısını boru-yayma zavodunun klubuna yığ. Onlara sözüm var.

...Gənc kadrları kluba yığdım. Gördüm ki, onların heç biri o birisini tanımır. Oğlanlardan başladım. Bir-bir qaldırıb səhnəyə çıxardım. Hamısını sorğu-suala tutdum: adın nədir, harada işləyirsən, maaşm nə qədərdir, ailəlisən - subaysan, bacı-qardaşın, atan-anan varmı, sənətləri nədir? Sonra keçdim qızlara. Neçə yüz adamı bir-bir beləcə dindirdim. Məqsədim o idi ki, çavanlar bir-birilərini tanısınlar. Axırda üzümü salona tutub dedim:

- Niyə ailə qurmursunuz? Hər gün Bakı-Sumqayıt yolunda niyə qalmısınız? Bilmirsiniz ki, əsas yeriniz elə Sumqayıtdır?

Bu sözləri o vaxt dedim ki, daha salondakılar bir-birlərinə fıkir verirdilər. Daha bilirdilər ki, kim subaydır, kim evli. Elə

buradaca neçəsi bir-birini bəyənib gözaltı etdi. Bu işin təşkilatçısı Axundov Kamal da həmin iclasda qız bəyəndi. Kimya zavodunda işləyən Firəngiz Dadaşova ilə sonradan sevişib evləndilər. Mənim sözümdən sonra qızlardan biri cəsarətlə qayıtdı ki, tutalım, ailə qurduq, harada yaşayacağıq. Dedim ki, bax, indi gəldiniz mən deyənə. Aranızdan kim birinci ailə qurdu ertəsi gün ona ikiotaqlı mənzil verəcəyik. Harada işləməyinizin fərqi yoxdur. Kəbin kağızınızı mənə göstərin, mənzil sizindir.

Bu minvalla Sumqayıtın ali təhsilli kadrlarını bu şəhərə bir növ bağladıq. Sumqayıtın özünün texniki ziyalısı yarandı.

**Müəllif**

İllər illəri əzəv edir, Sumqayıt həm sənaye mərkəzi, həm də on minlərlə insanın məskunlaşdığı yaşayış məntəqəsi kimi böyüyür, yaraşığa minirdi. İşin həcmi elə böyük, çoxşaxəli idi, bəzən qafada bir neçə plan qurmaq lazım gəlirdi.

Sumqayıt möhtəşəm bir sınaq idi onun həyatında. Yenə də bəzən "sağ ol"u qıscanclıq olur, gördüyü iş gözügötürməyənlərin bağrını partladırdı. Üzə gülüb ayağının altını qazanlar da, vəzifə səlahiyyətinə arxalanıb qaş-qabaq sallayanlar, yersiz tənəli ifadələr işlədənlər də tapılırdı.

Amma Kamran müəllim bu gəldi-gedərlərin göstərdikləri təzyiqin ən şiddətli anında öz əqidəsindən, tutduğu yoldan iynənin ucu boyda kənarlaşmır, inamını və nikbinliyini qoruyub saxlayırdı, hərdən əlini yelləyib içində deyirdi, "it hürər, karvan keçər", hərdən də belə; "yel qayadan heç nə apara bilməz" – özünə ürək-dirək verirdi. Zarafat deyil, artıq iyirmi ildən çoxdur çalışır, iş görür, idarə eləyir, ötüb keçən

vaxtın əksər hissəsisində səlahiyyət sahibidir. Səbr, təmkin də öz yerində.

Rəhbər işçi gərək vəziyyəti düzgün dəyərləndirməyi, yaranmış imkandan işin irəli getməyi naminə istifadə etməyi bacarsın. Uğurlar bir çox hallarda düzgün dəyərləndirmənin yekunu olur...

Kiçik bir misal. Bəlkə də, kiçik deyil, Kamran Hüseynov o zamanlar SSRİ-yə rəhbərlik edən Nikita Xruşşovun "kimya, kimya" deyə ölkədə bu sahənin inkişafına meydan verməsindən dönə-dönə yararlanmış, Sumqayıtda bu istiqamətli müəssisələri Moskvanın əli ilə plana saldırmış, maliyyə almış, dərhal da işə başlamışdı.

N.Xruşşov kənd təsərrüfatının qaldırılmasına dair çoxlu qərarlar qəbul edirdi. Kamran müəllim şəhadət verir ki, Xruşşovun dərin savadı olmasa da, böyük təcrübəsi vardı, narahat adam idi. Gah heyvandarlığın inkişafı, gah çoxlu qarğıdalı ideyasını, gah kəndlərin yenidən qurulması məsələsini ortaya atır, gah da "kimya, kimya" deyib dad döyürdü. Təklifləri bitib tükənmir, aydın məqsədi olmadığına görə yüz işi bir-birinə qatırdı ki, bəlkə, içindən nəsə çıxa...

**Sözlük**

Nikita Sergeyeviç Xruşşov

*1894-cü ildə Kurskda doğulub, 1971-ci ildə Moskvada vəfat edib. 1953-dən 1964-cü ilə qədər Sov İKP MK-nın Baş katibi, bir neçə il sonra SSRİ Nazirlər Sovetinin sədri olub. Sovet İttifaqı Qəhrəmanı, üç dəfə Sosialist Əməyi Qəhrəmanı adları ilə təltif edilib. Stalinin şəxsiyyətə pərəstişinə son qoyub. İdarəetmədə bir sıra islahatlar aparıb. SSRİ ilə kapitalist ölkələri arasında münasibətləri nisbətən yumşaldıb. Ölkəni*

*Çinlə az qala müharibə həddinə gətirib. Siyasi məhbusların böyük əksəriyyətini azadlığa buraxdırıb. Kamran Hüseynovun fəaliyyətinin ən parlaq dövründə Azərbaycanın da daxil olduğu möhtəşəm bir ölkənin rəhbəri o idi.*

**Müəllif**

Dövlət başçısının kəndin inkişafına rəğbəti Kamran müəllimi cəlb etdi. Onda bir yəqinlik vardı ki, bax bu damardan yapışıb nəsə eləmək olar. Bu fikrin onun ağlına gəlməsində Saray kəndinin mövcudluğu və bu kəndin Sumqayıtın tabeliyində olması müstəsna rol oynamışdı.

Qəti qərar qəbul edəndən sonra, o, səlahiyyətli qapıları döyüb əsaslandırılmış fikirlərini ən yüksək səviyyədə çatdırmağı bacarırdı, hətta risklərdən də çəkinmirdi.

Bu dəfə də fikrini aydın izah etdi:

- Yoldaş Mustafayev, mən istəyirəm ki, Saray kəndini dirçəldək, əslində bu kəndin yalnız adı qalıb, belə getsə, xəritədən silinəcək. Azərbaycanın başqa kəndlərinin də görkəmi, yaşayışı ürəkaçan deyil. Əgər biz Sumqayıtın imkanları hesabına Sarayı düzəltsək, digər kəndlərə də görk olar, hamı başlayar səliqə-sahman yaratmağa.

Kamranın təklifi İmam Mustafayevin çox xoşuna gəldi.

Tikintiləri başlamaq üçün xarabazarlığa dönmüş kəndin yaxınlığında məkan seçildi. Formal da olsa, qərar almaq üçün məsələ qalxanda Nazirlər Sovetinin sədri Sadiq Rəhimov daş atıb başını tutdu. Dedi, olmaz...

**Hekayət**

Kamran Hüseynov "Quruculuğa həsr olunmuş ömür"də belə yazır:

Bir gün yalvarıb-yaxarıb Sadıq Rəhimovu, onun müavini Nikolay Vartanoğlu İsaakovu (inşaat işinə baxan) mindirib maşına gətirdim xarabaya dönmüş əski Saray kəndinə, oradan apardım yeni yerə. Sonra da maşını göndərib onları Sarayın üzüm bağlarına apardım. Üzümün yaxşı vaxtı idi. Şirəyə dolub çillənmiş ağ şanıdan bir salxım üzüm verdilər Sadıq bəyə. Salxımı əlində oynatdı, o yan bu yana baxıb dedi: "Bunu heç eşşək də yeməz". Sarayda hamının "Kosa İsgəndər" çağırdığı bir kişi vardı, o qayıtdı ki: "Ay kişi, nə üçün elə deyirsən? Biz də səni tanıyırıq, sən də balaxanılısan!" Bu sözü necə yozdusa, o boyda cüssəli kişi meyvələri tapdaq-tapdaq edib, dedi ki, mənim meyidimin üstündən keçib Saray kəndi salarsız! Maşına minib getdi. Dönüb İsgəndərə dedim:

- Allah sənə qəzəb eləməsin! Mən onu zorla götürüb gətirmişdim. Sən niyə mənim işimə pəl vurdun?!

Nə isə bu iş yarımçıq qaldı. Amma mən əl çəkmədim. Bir gün İmam Mustafayev mənə zəng vurdu ki, Sadıq Rəhimov Bakıda yoxdur. Pakistana gedib. Mənim təklifimi çıxartdılar Nazirlər Kabinetində müzakirəyə. Kəndin necə olacağı barədə məruzə etdik. Rəhmətlik müavin Cəmaləddin Maqomayev sual verdi ki, bu kənd bizə nə verəcək? Cavab verdim ki, Cəmaləddin Müslümoğlu, sizə heç nə verməyəcək, kəndlilərin özləri isə yaxşı dolanacaqlar. Yaxşı yerdir, bir gedin, görün, nə gündədirlər? Heç biriniz orada olmamısınız, xəbəriniz yoxdur vəziyyətlərindən.

Rəhmətlik maliyyə naziri Rəzi Sadıqov da bu tərəfdən başladı: "Sən bu gül kimi Saray kəndini hara köçürürsən?" Dedim ki, a kişi, uzaq yer deyil, get kəndə bir tamaşa elə, sonra danış! Ora kənddir məgər?! Başdan-başa daxmalardır. Nəhayət, Hökumə Sultanova ayağa qalxdı. O da müavin idi. Dedi:

- Yoldaş Hüseynov, sən nə istəyirsən? Bizim sədrimiz orada kənd salınmasının əleyhinədir. Biz də razı deyilik.

Axırda qərar çıxardılar ki, mənim təklifim qəbul edilməsin. Sarayın ağsaqqalları da məni kənddə gözləyirdilər: kor-peşiman geri qayıtmalı oldum. Sumqayıta gedə bilməyib maşını düz Saraya sürdürdüm. Məni görən kimi soruşdular:

- Nə oldu, nə dedilər, yoldaş Hüseynov?

Dedim:

- Nə olacaq? Şura hökuməti qərar çıxardı ki, bu kənd salınsın.

Bir kişi köhnə, cırıq papağını sevindiyindən göyə atdı ki, sağ olsun Şura hökuməti!

Daha camaata heç nə deməyib maşına əyləşdim. Sürücüyə dedim:

- Sür Güzdək daş karxanasına...

**Novxanı. Qızılqaya**

Kamran əmi qələmi yarısına qədər yazılmış vərəqin üstünə, indicə çıxardığı eynəyi həmin o üstündə qələm olan vərəqin baş tərəfinə qoydu. Ehmalca ovcunu ovcuna sürtüb əllərini ovuşdurdu, üzünü, alnını, eynəyin altında azca nəmlənmiş göz qapaqlarını sığalladı.

Səhərdən düşünür, səksən beş ildən bəri içində olduğu həyatı gün-gün, ay-ay, il-il və məkan-məkan və insan-insan

xatırlamağa, başına gələnləri, görüb bildiklərini sözə çevirməyə çalışır. Yenə də düşündü: yaddaş insanın xoşbəxtliyidir. Sonda hər şey ötüb keçir, baş verən hadisələrə, ömürdən kərpic-kərpic qopub düşən zaman parçalarına təkrarən qayıtmaq olmur. "Bir dəfə girilən axar suya ikinci dəfə girmək mümkün deyil".

Üzünü təbəssüm bürüyür, içində xoş bir təəssürat var...

**Hekayət**

"Amma yaman günlər idi ha... Əgər o vaxt mən elə qərar qəbul edib, maşınımı Güzdəyə, daş karxanasına sürdürməsəydim, yəqin ki, indi belə abadlığa çıxan Saray kəndinin tamam başqa taleyi olardı..."

Güzdəyə çatan kimi keçmiş işçisi, həmin vaxtlarda karxananın rəisi olan Ələkbəri tapdı. Dedi:

- Ələkbər, səndən xahişim var, bu həftə kəsilən daşı heç kəsə vermə. Bazar günü gəlib hamısını səndən alacağam.

Ələkbər cavab verdi:

- Baş üstə.

Daşı behləməklə iş bitmir. Oradan birbaş Nasoslu stansiyasına gəlib yükü karxanadan Saraya daşıtmaq üçün avtomobil təsərrüfatından maşın istədi. Az qala bir diviziyanın avtomaşını toplanmış meydançanın tən ortasında dayanmışdılar, komandir Smirnov əlini çiyni bərabəri qulağının dibində şax tutub hərbi qaydada təzim etdi:

- Maşınların hamısı deyilən vaxt sizin sərəncamınızda olacaq, yoldaş Hüseynov!

Bu məsələ belə. Yaxşı bəs maşınları kim yükləyəcək?

Yenə yadına Smirnov düşdü. Amma bu Smirnov o Smirnov

deyildi, başqa Smirnov idi. Hərbi hissənin böyüklərindən biri. Qayda-qanunu pozan hərbi qulluqçuların işinə o baxırdı. Acıdil olduğuna görə işdən çıxarmaq istəyirdilər. Amma bacarıqlıydı, pisdən-yaxşıdan intizam yarada bilirdi. Bu səbəbdən Kamran müəllim onu müdafiə edirdi. Yol vermirdi ki, işdən çıxarsınlar. İndi onun üstünə gəlib kömək üçün adam istəyirdi. Smirnov dedi ki, nə qədər lazımdı, adam verəcəm. O qədər şuluq əsgər var ki, basıb işlətməyə yer gəzirəm. Hələ istəsən, üstlərinə də bir avtomatçı qoyaram, cınqırları çıxmaz.

Kamran müəllim:

- Yox, yoldaş Smirnov, - dedi, - avtomatçı lazım deyil, sən o şuluq əsgərləri ver, mən dil tapib işlədərəm.

Smirnov güldü:

- Hər halda, yoldaş Hüseynov, onlara bir nəzarət edən lazımdı...

- Lazımdı, qoy olsun...

Sonra...

Sonra yeni Saray görmədiyi günü gördü. Daş daşıyan maşınların arası kəsilmədi. Eyni vaxtda bir məktəb binasının, altmış yaşayış evinin bünövrəsi töküldü.

Burada bir məqam var; əvvəl deyilib, yeni Saray tökülüb-itən qədim Saraydan bir qədər aralıda salınırdı. Kamran müəllim qabaqcadan xeyli düşünüb-daşınmış, bu yeri özü seçmişdi, gələcəyi, camaatın rahatlığını nəzərə almışdı. Yuxarıların törətdiyi əngəl cəhənnəm, saraylılar da öz köhnə yurdlarını tərk etmək istəmirdilər. Yurd şirin şeydi. Adam ölür, yenə də gözü yurdda qalır. Bəlkə, doğma ocaqların başı üzərində əbədi dövrə vuran, insanların yuxusuna girən ruh

elə o yurddan ayrılmaq nisgilidi? Və ayrılmamaq inadıdı. Nə bilmək olar...

Bəlkə, yaranan gündən insanlara qan udduran sovet-partiya rəhbərliyinin qəfil insafa gəlib onları ağ günə çıxarmağına inanmırdılar? Bəlkə onlar düşünürdülər; nə təhər ola bilər ki, Sumqayıtın ildən bir dəyişən başçılarından hansısa ədalətli çıxsın, məktəb, klub, ev tiksin? Həmin insanların yalanlardan, vədlərdən bezdiyini indi demək çətindi. Amma dövrün gedişatı, tarixin təhlili bu mülahizəni də qüvvədə saxlayır...

Kamran müəllim isə indiyə qədər qazandığı karyerasının qəhr olacağından qorxmadan qəbul etdiyi qərarı həyata keçirməkdəydi. Gerçəkdə isə tikintinin qərarı yox idi. Bir az özbaşınalığa bənzəyirdi. Çünki yuxarıdan heç kim balaca bir kağızın qırağına qol çəkməmişdi.

Ortanın aşağıyla işləməsi, əgər icraçının fəhmi, ağlı imkan verirsə, asandır. Aşağının yuxarıya əli çatmır, deməli, problem yoxdur.

Amma ortanın yuxarıyla işləməsi bəzən müsibətə dönür.

Gör hələ, Kamran müəllim belə bir addım atıb, Nazirlər Sovetinin sədrini birtəhər dilə tutaraq Saraya gətirib, kənd əhli hörmət əlaməti olaraq ona bir salxım, əslində, bal kimi şirin üzüm dərib. O isə üzüm salxımına baxıb saraylıların gözü qarşısında deyib ki, bunu heç eşşək də yeməz. Camaat öxünəməxsus bir iltifatla onu yerinə oturtmaq istəyəndə rəhbər qəzəblənib, salxımı ayağı altında tapdalayıb əzərək deyib ki, siz mənim meyitimin üstündən keçib Saray kəndi salarsız...

İndi dur bunun üstündən tövlələr tik, Ukrayna ilə danışıq apar,sərfəli şərtlərlə (boğaz ilgəyə keçəndən sonra yuxarılar

baxmır ki, şərt sərfəli imiş, yaxud sərfəsiz, kəndiri çəkir) oradan beş yüz baş inək, neçə min qoyunu gətir tök Sarayın ortasına...

Nə olsun ki, yoldaş Hüseynov dədə-baba adətlərinə bələdliyin gücünə mal-heyvanı nə təhər salamat saxlamağın qaydasını bilir. İndi buna görə kənddən çıxan bir dövlət məmuru Akademiyanın işinə qarışmalıdı?

Pah, Akademiya bütün elmi arsenalını səfərbər edib ideya müəllifinin (elmin işinə qarışanın) üstünə hücum çəkdi. Çiki-biki olmadan dedilər: "Sən bu malları nahaq gətirmisən. Hamısı qırılacaq, xəstəlik tapacaq, yazda heç nə qaytara bilməyib xərcə batacağıq". Yox əşşi, oturmuşuq, qoyun otu-raq... Yox bir, Ukrayna Azərbaycana müharibə elan edəcək...

Amma Saray məsələsində, "Salnamə" dəlillər ortaya qoyur, həqiqətən də, o zaman Kamran müəllimə müharibə elan olunub. Ukrayna tərəfindən yox, İmam Mustafayevı çıxmaq şərti ilə, Azərbaycan hökuməti tərəfindən.

Respublikanın birinci katibinin (belə deyək) hələ bu işlər layihə halında ikən Nazirlər Sovetinin sədri Sadiq Rəhimov Pakistan səfərində olanda Sarayın salınması barədə qərarı almaq fürsətinə işarə vurmağını oxucu bilir. "Salnamə"də "özbaşınalığa" hökumət üzvlərinin münasibəti barədə də ətraflı yazılıb. Yenə də dəyirman bildiyini eləyir, çax-çax baş ağrıdır.

...Ukraynadan gələn inəklərin, şərtə görə südü və doğar qarnı Azərbaycanın olmalı idi. Qəhrəmanımız işi elə qurdu ki, sonda o südlü inəklərin hamısı, bala qarışıq, Azərbaycana qaldı. Nə bilmək olar, indi bizim kəndlərdə südlü inəklərin

dölündə bir az da Ukraynadan gətirilmiş həmin o inəklərin mayası var?

Sonra Kamran Hüseynovun bu hərəkətinin axırına çıxmaq üçün Moskvadan komissiya komissiya ardınca gəldi. O, çağırılmış (əslində çağırılmamış) qonaqlara gördüyü işin mahiyyətini anlada bildi, onları ayrı bir şeylə yox, Saray bostanından kəsdiyi qarpız, kənd əhlinin süfrəyə qoyduğu lavaş-pendirlə razı yola saldı.

Kamran müəllim yoxa çıxmaqda olan Sarayın əvəzinə yeni Sarayın bünövrəsini qoydu, Abşeronun qədim kəndi Coratı isə üstünə yeriyən nəhəng binaların, sürətlə genələn Sumqayıt şəhərinin ayaqları altında qalmaqdan xilas edə bildi.

Sumqayıt tikintiləri bu yerlərin öyrəşmədiyi möhtəşəmlik və hündürlüklə (başqa söz tapa bilmədik) boş əraziləri altına ala-ala Bakı istiqamətində irəliləyir. Əslində Sumqayıtın salındığı bütün məkan coratlıların dədə-baba yurdudu, ərazi onların olub, tikib-qurmağa imkan yoxdu deyə, camaatı qınamağa dəyərmi? Amma Allahın haqqı Allaha, qeysərin haqqı qeysərə düşür. Sənayeləşmə iri addımlarla qabağa gedərkən nəsə etmək lazımdır ki, tarix itməsin, izlər qalsın...

Kamran müəllim yenə də qanundan kənar tədbirə əl atdı. Yeni tikilən, addım-addım irəliləyib sinəsini qabardan Sumqayıtla, qədim, çarəsiz Coratın arasındakı boş qumlu çölləri coratlılara nişan verdi, onlara məhlələr ayırdı və dedi ki, nə qədər sizin sığındığınız dənizkənarı daxmaları da buldozerin ağzına verməyiblər, bax mən deyən yerlərdə müasir evlər tikin...

Və beləcə... Qədim Sarayın yerində yeni Saray yarandı, köhnə Corat cavanlaşıb yaşadı...

Bütün bu olayların yekunu olaraq....

**Deyilmişdir**

"Həyatı arzuladığımız kimigörəndə
xoşbəxt oluruq".

*E. Bakler*

"Ən böyük ümid ümidsizlik üzərində qələbədir".

*J.Bernanos*

"Həyatın daim hərəkətdə olması üçün
istək hava, su kimi gərəkdi".

*S.Sonson*

Kim olursan ol,
istəyinə çatmaq üçün fədakarlıq etməlisən.

**Şeir**

Ayaq basdım dəri-ümmidə, sərgərdanlıq əl verdi,
Hünər sərriştəsin tutdum, əlimdə əjdaha gördüm.

*M.Füzuli*

**Müəllif**

Bu aforizmlərin hər biri Kamran Hüseynovun Sumqayıt dövrünə, Saray, Corat yaşantılarına uyğun gəlir. Bəlkə də, onun bu deyimlərdən xəbəri olmayıb, onu deyən mütəfəkkirlərlə fərqli zamanlarda yaşayıb. Aforizmlər isə dəhşətli ümumiləşdirmə qüdrətinə malikdir. Onlar həm keçmişi, həm indini, həm də gələcəyi içinə ala bilir.

Bu aforizmlər məlum bir vaxt aralığına tətbiq olunduğu halda, anladır ki, Kamran Hüseynov ömrünün qırx beş ilini düzgün yaşayıb...

Əsas budur.

Sovet hakimiyyətinin insanı sındırmaq, onu özü istədiyi kimi idarə etmək planı isə yaşa baxmır.

Bütün hallarda adamı bəlaya salan da, onu bəladan xilas edən də insanın özüdür!

**Şeir**

İtki ağırsa da, heç batma, yasa
Axı nə faydası, Tanrını çağır,
Əgər haray çatan bir quyu varsa
O quyu içindi, içinə bağır!

**Deyilmişdir**

Loğmandan soruşdular ki, elmi kimdən öyrəndin? Dedi: korlardan, onlar ayaqlarının altını yoxlamadan bircə addım atmazlar.

**Atalar sözü**

Bir yerə girməzdən əvvəl oradan necə çıxacağını düşün.

**Salnamə**

Amma... məlum olanda ki, şəhər böyüyür, zavodlar tikilir, planlar artıqlaması ilə yerinə yetirilir, eyni zamanda Sumqayıtın müştərisi də artırdı. Mərkəzi Komitədə, Nazirlər

Sovetində işləyənlərin də bəziləri çalışdılar ki, öz adamlarını Sumqayıta göndərsinlər. Ancaq Hüseynovu da yerindən tərpətməyə əsasları yox idi. Görürdülər ki, mənim əhali arasında nüfuzum var. Moskvada – Mərkəzi Komitədə mənimlə hesablaşırlar. Mənim heç bir şəxsi marağım yoxdur. Var qüvvəmi Sumqayıtın inkişafına sərf edirəm.

**Müəllif**

İndiki nəslin nümayəndələri kimi mən də bilmirəm ki, o zaman Nazirlər Sovetinin sədri kim imiş, necə idarə edirmiş. Əsərin ilk cümləsindən ta bura qədəq olduğu kimi "Salnamə"yə əsaslanıram. Görünür, Nazirlər Sovetinin sədrinin də öz prinsipləri olub.

Ümumiyyətlə, Sovet dövründə qərarlar həmişə yuxarıdan verilib. Təşəbbüslər qısqanclıqla qarşılanıb. Qərar orda qəbul olunurdu – Moskvada. İcra məcburi idi. Elə ki Moskva qərar verdi, hər iş yağ kimi gedirdi. Bir şərtlə, bacarana baş qurban. Elə bu səbəbdən Nazirlər Soveti sədrinin Kamran Hüseynovun, necə deyərlər, aşıb-daşan yaradıcılıq əzminə qarşı çıxmağını başa düşmək olar. Axı Moskvadan tapşırıq gəlməyib ki, yeni Saray kəndi yaradılsın. Sənə deyirlər, kauçuk zavodu tik, tik, sənə deyirlər alüminium zavodu tik, tik, sənə deyirlər superfosfat zavodu yarat, yarat, axı sənə demirlər Saray camaatını ağ günə çıxart. Sumqayıt inkişaf edir, böyüyür, indi sənin nəyinə lazımdır, köhnə-kürüş Corat kəndi böyüyən Sumqayıtın ayaqları altında qalsın ya qalmasın?

**Atalar sözü**

Qorxulu baş salamat olar.

**Müəllif**

Nazirlər Sovetinin sədri öz prinsipində haqlı idi.

Palaza bürün, elnən sürün...

Nazirlər Soveti sədrinin başqa yolu yox idi.

Az aşım, ağrımaz başım, üstəgəl, yüz ölç, bir biç...

Az qala belə çıxır ki, Sovet hökumətinin ideoloji əsaslarını bizim atalarımız hazırlayıb.

Burada "iki qoçun başı bir qazanda qaynamaz" misalı da yerinə düşür.

Öz aramızdı, Sumqayıtın birinci katibinin Nazirlər Soveti sədrinin sözündən çıxmağı, özünün bildiyini eləməyi, Sumqayıtın inkişafından başqa ayrı bir fikri olmayan bir adamın, bəlkə, hansısa digər oyun qaydalarını pozmağı ən yaxşı halda yolverilməzdir. Əgər o vaxtlarda Kamran Hüseynov Nazirlər Soveti sədrinin, neçə-neçə digərlərinin haqlı-haqsız tələblərinə boyun əyib sussaydı, ən azı "Bir ömrün salnaməsi"ni qələmə ala bilməzdi və bizim qələmə aldığımız bu roman da olmazdı.

Amma Kamran da Kamran idi.

**Əhvalat**

Mənim dostlarımın bir dostu vardı; Əliyev Əli, adına sadəcə "Qaz Əli" deyirdilər. O, bir qədər qəribə səslənən bu ayamadan incimirdi. Bəlkə, cavanlıqda forslu olmuşdu? Bəlkə, emosional imiş? Mən bilən, bir müddət İmişlidə qaz idarəsinin müdiri olub, ona görə belə deyiblər... Nəsə...

Bir dəfə Bakıdan Qubadlıya gedən (məhz Qubadlıya) iki nəfərin maşını İmişlidə qəzaya düşür, özü də qubadlıların təqsiri ucbatından. Maşın xurd-xəşil olur. Allah üzlərinə baxır, o iki nəfərin burnu da qanamır. Təsadüfdən hadisə "Qaz Əlinin" indiki dillə desək, ofisinin, köhnə dillə, qaz idarəsinin yanında baş verir. Qubadlılar əzilmiş maşını bir qırağa sürütləyib imdad axtara-axtara varid olurlar qaz idarəsinə. Soruşurlar, müdir harda oturur. Göstərirlər. Qubadlılar kabinetə daxil olanda Qaz Əli stolun başında əyləşib başqa bir nəfərlə söhbətləşirmiş. Görür ki, iki bikef adam girdi içəri, qalxır ayağa, onların qabağına yeriyib bərk-bərk görüşür, yer göstərib əyləşdirir. Düyməni basıb hərəsinə armudu stəkanda çay gətizdirir. Bir qədər də kef-haldan sonra deyir:

- Hə, qardaşlar, qalxın, gedək, bir qismət çörək yeyək.

Həmin iki nəfər deyir:

- Nə yemək, Əli qağa, maşını vurmuşuq, bizə yemək yox, kömək lazımdı.

Əli müəllim bunlardan daha heç nə soruşmur. Telefonu qaldırıb İmişlinin avtomobil müfəttişinə (QAİ-nin rəisi) məlumat verir ki, belə bir qəza baş verib. Sahibi yaxın adamdı, siz qarışmayın, mən hər şeyi yoluna qoyacağam.

Deyilənə görə, rəhmətlik Əli müəllim elə telefondaca digər tərəfi – zərərçəkmişi razı salır, əzilmiş maşınları düzəltdirir, qubadlıların da cibinə bir qədər pul qoyub yola salır. Axı demişdik, qəza törədənlər kabinetə girəndə Əli müəllim başqa bir nəfərlə söhbətləşirdi.

Həmin o bir nəfər soruşur:

- Ay Əli, bunlar yəqin sənin yaxın adamlarındı ki, bu qədər zəhmət çəkdin...

Əli müəllim qayıdıb nə desə, yaxşıdı:

- Qardaş, Allaha and olsun, onları heç tanımıram.

- Bəs niyə bu qədər hörmət elədin onlara?

- Belə eləməsəm, tay mən "Qaz Əli" olmaram ki... – deyə cavab verir Qaz Əli.

***

Yerinə düşsə də, düşməsə də, müqayisəni caiz sayaq. Kamran Hüseynov, həqiqətən, də ayrı kişi olub. Akara stansiyasından on minlərlə insan qatara minib eyni dəmiryol xətlərinin üstüylə Bakıya gəlsə də, o özünə tamamilə fərqli tale yolu açıb. Başqa halda o, Kamran Hüseynov olmazdı...

Təhkiyənin davamına qayıdaq...

Sadiq Rəhimov onu Nazirlər Sovetinə çağırıb dedi:

- Yoldaş Hüseynov, - sanki o bütün Sovet İttifaqının adından danışırdı, - respublikanın daxili işlər orqanlarında vəziyyət ağırdır, nizam-intizam öləzikdir. MK-da belə qərara gəlmişik ki, səni ora nazir təyin edək. Sənə 7-8 müavin verək, özünü də büro üzvü seçək, hamı inanır ki, sən Sumqayıtda, Mingəçevirdə yaratdığın qaydanı, nizam-intizamı nazirlikdə yarada bilərsən.

Təklif fövqəladə idi. Təbii ki, Kamran müəllim məəttəl qaldı. Çünki məəttəl qalmaqdan ayrı bir variant yox idi. Dörd ildi Sumqayıtda işləyir (bundan əvvəl də iki dəfə), bu dörd ildə imkan verməyib ki, Sumqayıtda türmə tikilsin, çünki o, insanların (fərqi yoxdu, haqlı, haqsız) ittiham olunmasına, tutulmasına və cəza çəkməsinə dözə bilmir. O, qurub yara-

dan adamdır. Ən qatı cinayətkar da yeri gələndə daşı daş üstünə qoymağa, altını süpürməyə, bəzən həqiqəti ifadə etməyə qadirdir.

**Şeir**

Bəlkə, günahkardı hamı dünyada
Bəlkə də, heç kimin günahı yoxdu.

***

Bu yandan da axı onun hüquq mühafizə sahəsində il, ay, gün nədi, heç bir saat da "stajı" yoxdu. İndi ona deyirlər ki, səni daxili işlər naziri təyin edirik. Məsələn, mən şairəm, amma bu təklifin müsbət həlli barədə fikirləşərdim, qazanmaq naminə yox, Yusif Sərrac qismində zühur etmək naminə. Şairlikdə həmişə naqislik var. Əməl adamlarının qəbul etdiyi qərarların isə mənbəyi həmişə mükəmməl həyatdır.

O, qəti etiraz etdi. Heç düşünmədən. Kamran Hüseynov hara, daxili işlər naziri hara. Əgər belə bir hal baş versəydi, o gərək ya hamını (özü qarışıq) turməyə basaydı, ya da türmənin qapısını açıb hamını (özü qarışıq) çölə buraxaydı. Bu isə absurddur. Yəni anlaşılmaz və mümkün olmayan bir iş!...

Əl çəkmirdilər; Kamran müəllimi irəli çəkmək üçün yox, onu canı-qanı qədər sevdiyi, böyük işlər başladığı Sumqayıtdan aralamaq üçün.

Ona təklif olunur.

Gəl, Bakı Şəhər Partiya komitəsində katib işlə. Yaxşı, bunu bəyənmirsən, onda Bakının İcraiyyə Komitəsinin sədri ol.

O isə təkliflərə sıra ardıcıllığı ilə etiraz edir.

İndi nə olsun? Bu boyda ölkə yoldaş Kamran Hüseynovun nazıyla oynamalıdı?

Bir dəfə Mərkəzi Komitənin katibi Abdulla Bayramov qızıl-qırmızı kişinin üzünə durdu "Ay yoldaş Hüseynov, siz nə vaxtadək Mərkəzi Komitənin təklifini rədd edəcəksiniz?"

O da qayıdıb deyəcək:

- Ay canım, mən vəzifə istəmirəm, Sumqayıtdan da getmək fikrim yoxdu. Amma madam, siz bu qərara gəlmisiniz ki, Sumqayıtı tikib qurtarandan sonra mən daha orada qalmayım, bu başqa məsələ!

**Salnamə**

Bununla da məsələ bitdi. İmam Mustafayev büroda dedi ki, Hüseynov vəzifə-zad istəmir, nəyə görə onu məcburən Daxili İşlər Nazirliyinə göndərməliyik? Elə həmin büroda MK-nın təhsil şö'bəsinin müdiri Əli Həbib oğlu Kərimovu Daxili İşlər naziri vəzifəsinə təyin etdilər. Mənim də canım qurtardı nazir söz- söhbətindən. Amma məndən əl çəkmədilər. Bir müddət keçəndən sonra mənə təklif etdilər ki, Bakıya gəlib Azərbaycan Həmkarlar İttifaqları şurasının sədri işləyim.

Həmkarlar İttifaqları Şurası da hələ, demək olar ki, yox idi. Moskvanın, ÜİHİMŞ-in bir nəfər səlahiyyətli nümayəndəsi var idi, vəssəlam.

Fikirləşdim ki, əgər Azərbaycanda müstəqil Həmkarlar İttifaqı şurası yardılacaqsa və bu işi mən görməliyəmsə, bu vəzifəyə razılaşmağa dəyər. Çünki bu iş də fəhlələrlə, zavod-fabriklə, qısası istehsalatla bağlıdır.

1958-ci ilin may ayında Sumqayıtdan Bakıya gəldim. Azərbaycan Həmkarlar İttifaqları Şurasına sədr seçildim. Həmin il aprel ayının 25-də Sumqayıt SK zavodunun mədəniyyət sarayında Hüseynov Kamranın Azərbaycan Həmkarlar İttifaqları Şurasına sədr getməsi ilə bağlı ayrılma toplanışı çağırılmışdı. Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi İmam Mustafayev orada dedi: "Siz bilirsiniz ki, Hüseynovun böyük işgüzarlığını, Sumqayıtda, Mingəçevirdə uzun illər topladığı təcrübəni nəzərə alaraq, biz onu respublikada çox mühüm vəzifələrə dəvət etdik. Ancaq o, Sumqayıta elə bağlanmışdır ki, həmin vəzifələrin hamısından imtina etdi. Biz də Mərkəzi Komitədə ona heç bir təzyiq göstərmədik. Lakin indi Həmkarlar Şurası yaranır. Biz ənıinik ki, yoldaş Hüseynov Kamran Sumqayıt, Mingəçevir, Neftçala şəhərlərindəki təcrübələrindən istifadə edib, o təşkilatın yaranıb möhkəmlənməsinə çalışacaq və onu ölkədə tanınmış bir ictimai təşkilata çevirəcək. Qaldı ki onun Sumqayıtdakı işlərinə, biz həmişə onun təkliflərinin tərəfdarı olmuşuq. Gördüyü işlərə yüksək qiymət vermişik. Onun burada gördüyü işlər böyük hörmətə layiqdir. O, burada nəinki zavodların ardıcıl tikilməsində əvəzsiz xidmətlər göstərmiş, eyni zamanda, onları müxtəlif sahələr üzrə fəhlə sinfı ilə, respublikanın ali məktəblərini qurtarmış ziyalılarla təmin etmişdir. Qarşıya çıxan problemləri o özü çox düşünülmüş şəkildə yubatmadan yoluna qoyurdu. İndi Sumqayıt şəhərinin zavod və fabriklərində işləyənlərin demək olar ki, hamısı öz respublikamızın müxtəlif rayonlarından gələn gənclərdir. Biz də hamımız Kamrana öz minnətdarlığımızı bildiririk və yeni işdə ona uğurlar diləyirik!

İmam Mustafayevin yekun çıxışından sonra mənə söz verildi. Aktivdə iştirak edənlərə və orada çıxış edənlərə öz minnətdarlığımı bildirdim. Sonra dedim ki, mehriban yoldaşlar, mən hardan biləydim ki, Azərbaycanın ən ucqar dağ rayonundan gələn bir kəndçi oğlu, Bakıda neftçi fəhlə işləyib öz zəhməti ilə ad qazanacaq, vaxtilə ona tapşırılacaqdır ki, Azərbaycanda yeni yaranan sənaye mərkəzinin inkışafında, qurulmasında iştirak edib, orada zavodlar tikilməsini başa çatdırsın. Əfsuslar olsun ki, bu inkişaf dövründə Sumqayıtın taleyi istənilən kimi olmadı.

Birinci dövr. 1940-41-ci illərdə ildırım sürəti ilə tikilən Sumqayıt obyektlərində tikinti faşist Almaniyasının müharibəyə başlaması nəticəsində dayandırıldı. Bütün zavodlar, texniki avadanlıqlar, kadrlar Quzey Urala, Nijni Tagil metallurgiya kombinatının tikintisinə göndərildi.

Sumayıtda ikinci inkişaf dövrü 1944-cü ildə başlandı. Sovet ordusunun cəbhədə dönüş yaratması hesabına Azərbaycan hökumətinin xahişi ilə Dövlət Müdafiə Komitəsi əmr etdi ki, Sumqayıtın tikintisinə yenidən başlanılsın. Lakin bu ikinci inkişaf dövrü birinci inkişaf dövründən fərqlənirdi. Təchizat olduqca zəif, kartoçka sistemi, enerji azlığı, əsas kadrlar cəbhədə olduğu üçün orduya yaramayan adamlardan fəhlə batalyonları təchiz olundu. Hərəsinin də kəmərində yemək qazançası asılmışdı. Əvvəlcə üstünu qum basmış binaların üzərini təmiizləyib onların tikiintisinə başladıq.

Sumqayıtın üçüncü inkişaf dövrü 1945-ci ildən başlayır. Bu əsas dövrdə müharibənin başa çatması, Mingəçevirin tikilib qurtarması Sumqayıta yeni bir qüvvə və işıq saldı.

Sumqayıtda demək olar ki, zavodların bir hissəsi tikilib istismara verildi. Mən Sumqayıta gələndə Sumqayıt boş çöllük idi. Bu müddətdə Sumqayıtda müxtəlif çətinliklər olmuşdur. Bunlara baxmayaraq, şükürlər olsun ilahiyə, Sumqayıtın istehsal etdikləri çox önəmli strateji əhəmiyyəti olan yeni sənaye məhsullarıdı. Ölkəyə, respublikaya lazım olan vacib sənaye məhsullarını: 120 min ton sintetik spirt, 120 min ton sintetik kauçuk, 450-500 min ton boru, 100 min tonlarla polad, 60-70 min ton alüminium, kauçuk, soda, xlor, paltar yumaq üçün yuyucu toz və bəzi yüngül sənaye məhsuiları, eyni zamanda ölkədə gedən kimyalaşdırma prosesindən istifadə edib, SK-nın quzeyində yeni, çox mühüm kimya kombinatının inşaatına başlanıldı. Qiyməti 3 milyard manat idı.

İftixar hissi ilə bunları görəndə ilahiyə şükür edirəm ki, mən Sumqayıta gələndə bunların heç izi, tozu da yox idi. Indi isə dövlətin köməyi ilə Sumqayıtda yetişmiş kadrların zəhməti nəticəsində yeni şəhər yaranıb. Onun işgüzar kadrları bu qədər mühüm sənaye məhsulları istehsal edir.

Hörmətli yoldaşlar, mən əminəm ki, Siz bu yeni başlanmış zavodları tez istismara verəcək, bundan başqa yeni-yeni zavodlar tikəcəksiniz. Çoxlu mədəniyyət obyektləri, məktəblər, uşaq bağçaları, məişət evlərinin tikintisini davam etdirəcəksiniz.

Sonrakı çıxış edən SK zavodunun direktoru D.Kalinin, boru-yayma zavodunun direktoru Emin Əfəndiyev, alüminium zavodunun direktoru Məmməd Şəfıyev və başqaları da Hüseynovun Sumqayıtdan getməsini istəmirdilər. Orada boru-yayma zavodunun baş mühəndisi A. Qrişkan çox duyğulu bir çıxış etdi. Üzünü MK-nın birinci katibinə tutub sözə başladı:

- Mustafayev yoldaş, mən nəinki ölkədəki metallurgiya zavodlarının əksəriyyətində işləmişəm, hətta Almaniyanın bir çox metallurgiya zavodlarında təcrübə keçmişəm, Ukraynada Dneprodzerjinski zavodunda işləyəndə mənim rəhbərlik etdiyim zavodda Nikolay Tixonov, Leonid Brejnev o zavodların sexlərində işləyiblər. Mən yerinə düşmüş hər bir kadrın istehsalat üçün nə demək olduğunu yaxşı bilirəm. İndi sız Sumqayıtdan Hüseynovu niyə aparırsınız? Axı siz ğörürsünuz ki, bu adam buraya nə qədər yeniliklər gətirib, müasir tipli sənaye ocağı yaradıb, ətrafına çoxlu yeni fıkirli mütəxəssislər toplayıb. Onun başqa işlərdə nə işi var?! Daxili İşlər Naziri vəzifəsi onun yeridirmi?!

İ.D.Mustafayev bunun cavabında dedi ki, biz Kamran Əsəd oğlunun iş bacarığını nəzərə alaraq, onu respublika miqyasında yeni işə dəvət edirik. Əminik ki, bu işin öhdəsindən lazımınca gələcək. Bir də əminik ki, Kamran zavodlarla, fəhlə sinfı ilə əlaqəsini heç vaxt kəsməyəcək. Sizinlə də daim əlaqə saxlayacaq. İndi gəlin birlikdə Azərbaycan Həmkarlar İttifaqları Şurasının yaranmasında, inkişafında Kamran Hüseynova uğurlar diləyək!

## Novxanı. Qızılqaya

O, qeydlər üçün ayırdığı vərəqə göz gəzdirdi. Orada sözlər nömrələnib alt-alta düzülmüşdü:

1. Valideyinlərim, uşaqlıq illərim
2. Çərəlidəki günlərim
3. Bakıya gəlməyim

4. Duda zavodu
5. Cəbrayıl bəy
6. Sumqayıt
7. Müharibə illəri
8. Eşalonla altı min insanı Urala aparmaq
9. Ziyalılarla cəbhəyə
10. Binəqədi
11. Yenə Sumqayıt
12. Mingəçevir
13. Neftçala
14. Üçüncü dəfə Sumqayıt
15. Saray əhvalatı
16. Coratın xilası
17. Sumqayıtdan ayrılmaq
18. Respublika Həmkarlar Komitəsi
19. İstisu əhvalatı
20. ÜHİMŞ – katib
21. Dünya boyunca səfərlər
22. Ticarət  və Sənaye Palatası
23. Zəngəzur cəmiyyəti

Qeyd vərəqində "Sumqayıtdan ayrılmaq" bəndinə qədər olan sözlərin qarşısına qırmızı qələmlə üstəgəl işarəsi qoyulub. Üfüqi-üfüqi xətlər... bir nöqtədən başlayıb uzandıqca uzanan yollar kimi görünür ona... "Salnamə"ni qələmə almasaydı, nabələd adam üçün alt-alta düzülən, böyrünə üstəgəl işarəsi qoyulan bu kəlmələr sadəcə söz yığınıdı,

anlaşılmaz sifətlərdi... Söz sırasına, hər sıranın qarşısında dayanan "üstəgəl" işarələrinə baxanda adama elə gəlir ki, orada daş-daş, kərpic-kərpic hörülən bina təsvir etmək istəyiblər; hər "üstəgəl" işarəsi bir mərtəbə deməkdi... Qurmaq, yaratmaq şifrəsi...

M**üəllif**

1958-ci il. Kamran müəllimin 46 yaşı var. Axır ki, təzyiqlərdən yaxa qurtarmaq üçün bir təklifə razılıq verib. Bundan sonra o, Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsində çalışacaq, 1961-cı ilə qədər.

İşə başlamağının elə birinci həftəsi nə qədər ağır bir yükün altına girdiyinin fərqinə vardı. Hər gün kabinetinin ağzını onlarla insan kəsdirib dururdu. Əksəriyyəti neft sahəsində çalışan fəhlələr idi. Dərd çox, həmdərd yox... Onlar şikayət edirdilər. Onlar deyirdilər; daş düşsün o başa ki, bir boğazı saxlaya bilmir, müəllim, biz sizdən çörək istəmirik, su istəmirik. Bunları özümüz qazanarıq, ailəmizi saxlayarıq. Amma dam verin, ailəmizi yığaq altına...

Neçə illər əvvəl Kamran müəllim hətta vəzifəsi olsa da, mənzil sarıdan çox əziyyət çəkmişdi. Moskvada bir parlaq nitqdən sonra, Bakıya demişdilər ki, bu kişi dövlətin yolunda can qoyur, evi yoxdu deyə ailə qura bilmir, nə edirsiniz edin, ona mənzil verin...

O, bir nəfər idi. Budur bax, indi ondan ev tələb edən çarəsizlərin sayı-hesabı yoxdur. "Başımızı soxmağa bir dam verin" deyib üstünə tökülüşənlərə baxanda ürəyi parçalanır...

**Hekayət**

8-ci kilometr qəsəbəsində yeri özü seçdi, layihə çəkdirdi, bünövrə tökülən gün yüz mənzili püşkatma yolu ilə böldü. Hələ bina yox idi, amma o yüz fəhlənin hamısı bilirdi ki, hansı girişdə, hansı mərtəbədə, neçə nömrəli evdə yaşayacaq. İnşaatçılar bir yana, ev gözləyən fəhlələr muradquşu kimi tökülüşüb gəldilər tikintiyə, daş daşıdılar, palçıq qarışdırdılar, inşaatçılara yemək gətirdilər, nə başınızı ağrıdaq, şəxsi maraq vardı deyə üç ayın içində bina hazır oldu...

Bu atalar sözünü yenə təkrar etməyə məcburuq; sən saydığını say, gör fələk nə sayır...

- Bu xarabanın bir yiyəsi var, ya yox? - Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Tofiq Allahverdiyev bu kəlmələri qışqıra-qışqıra deyəndə “Azneft” zavod inşaat trestinin müdiri Yusifzadənin bir ayağı qəbul otağında idi, o biri ayağı kabinetdə. - Soruşuram, yoldaş Yusifzadə, sən özbaşınasan?

- Nə olub ki, yoldaş katib?

- Canına azar olub... Siz bu Hüseynovun nəyindən hürkürsünüz? Gündə özündən bir hoqqa çıxaracaq, siz də onun tırkasına gedəcəksiniz?

- Başa düşmədim, yoldaş...

- Özünü tülkülüyə qoyma. Vosmoydakı binanı tikəndə kimdən icazə almısan?

- Hüseynov yoldaş dedi...fəhlələr...

- Nə Hüseynov, nə fəhlə, bu saat çıxart partbiletini, özün də elə get ki, bir daha gözüm səni görməsin!

Yusifzadə əməlli-başlı şoka düşmüşdü. Hücum o qədər gözlənilməz və qəddar idi ki, daha heç nə düşünə bilmirdi.

Əlini döş cibinə salıb titrəyən barmaqlarıyla partiya biletini çıxartdı, birinci katibin stolunun üstünə qoydu və suyu süzülə-süzülə kabinetdən çıxdı.

Aradan bir saat keçər, ya keçməz, birinci katibin telefonuna zəng gəldi. Respublika Həmkarlar İttifaqları Şurasının sədri Kamran Hüseynov idi. Dilucu salam və hücum:

- Yoldaş Allahverdiyev, o binanı fəhlələr özləri tikiblər. Siz hansı əsasla fəhlənin evini zəbt edirsiniz?

- Mən bu barədə sizə hesabat verməli deyiləm. Kim özbaşınalığa yol veribsə, o da cəzasını alacaq. – Allahverdiyev buz kimi soyuq səslə belə dedi və telefonu asdı.

O, telefonu, indiki dillə desək, qapatmağında olsun, görək yoldaş Hüseynov neylədi?

Müavinlərini yanına çağırıb dedi ki, siz mənzil alan fəhlələrin hamısına xəbər verin və kömək edin, onlar günü bu gün binaya köçsünlər.

Şəhər Partiya Komitəsi xəbər tutunca fəhlələr doluşub binanı tamam tutdular.

Əlbəttə, məsələ böyüdü.

Respublikanın rəhbəri İmam Mustafayev zəng çaldı.

- Mənə deyirlər ki, siz icazəsiz ev tikib fəhlələrə paylamısınız. Allahverdiyev büroya şikayət yazıb...

- Yoldaş Mustafayev, şikayət yazan o katibdən xəbər alın, trest müdirinin partiya bileti nə üçün onun seyfindədir. O, partiya nizamnaməsini pozub. Buna onun ixtiyarı yoxdur. Partiya məsələsi yalnız ilk təşkilatda həll olunur. Və bir də, o, hansı əsasla fəhlənin öz əli ilə tikdiyi binanın zəbt olunmasına göstəriş verib.

Büro lüzumsuz hərəkətlərinə görə Şəhər Partiya Komitəsinin birinci katibini ciddi tənqid etdi. İlk dəfə 60-cı illərdə o binadan mənzil alan fəhlələrin oğul-uşağı günü bu günə qədər burada yaşayır...

**Müəllif**

Sovet vaxtında yarış dostları vardı; bunlar həm fərdi adamlar, həm kollektiv təsərrüfatlar və fabrik-zavodlar, eləcə də şəhərlər ola bilirdi.

Hələ Kamran Hüseynov Sumqayıtda birinci katib işləyəndə şəhərin müəssisələri Daşkəsən və Rustavi ilə yarışırdılar. Yarış məhsul istehsalının keyfiyyət və kəmiyyətinə, planların vaxtında yerinə yetirilməsinə, şəhər və qəsəbələrin sosial infrastrukturunun inkişafına yönəlmiş stimul kimi düşünülmüşdü.

İldə bir, ya iki dəfə yarış dostları bir-birlərinə qonaq gedir, istehsalatla tanış olur, qabaqcıl təcrübələri öyrənib tətbiq edirdilər.

Hələ o zaman Sumqayıtda çalışırdı Kamran müəllim, Rustavidən qayıdırdı. Yevlaxa çatanda maşını İstisuya sürdürdü. Gecənin qaranlığında xəbər ala-ala Tərtərdən, Mardakertdən çətin yollar keçib səhərə yaxın İstisuya çatdı. Əslində Sumqayıtın birinci katibinin İstisuya, Kəlbəcərə heç bir aidiyyatı yox idi. Bu məlum. Oraya Mərkəzi Komitənin üzvü, deputat kimi getmişdi, fikirləri vardı. İşin bəd tərəfini də düşünmüşdü. Əgər soruşsalar, sənin İstisuda nə işin, deyəcəkdi ki, deputat, MK üzvü bütün ölkənin taleyinə cavabdehdir, el-obanın abadlığına, adamların güzaranının yaxşılaşmasına çalışmaq mənim borcumdur.

İstisuda nə görsə, yaxsıdı; yol yox, işıq yox, üç-dörd təşkilat özünü verib təbiətin qoynuna, bulaqların başında yeyib-içir, dümələnirlər özləri üçün...

Hər bir nüansla maraqlanırdı, nəyi, necə eləmək, elektrik enerjisini haradan almaq, daşı, qumu necə gətirmək, yolları nə təhər qaydaya salmaq üçün yüz ölçüb bir biçirdi.

İstisuda tikinti aparmağı Mingəçevirdə yerləşən trestin müdiri Rüstəm Aslanovun, Ağdamdan 150 kilometr məsafədə İstisuya elektrik xətti çəkməyi isə "Kəndtikinti" trestinin rəisi Səfərovun boynuna qoydu.

Təklifi MK-ya göndərdi və qaldırılan məsələ rəğbətlə qarşılandı.

...Bir il sonra Həmkarlar Şurasına sədr göndəriləndə artıq İstisuda sanatoriya tikintisi onun səlahiyyətinə aid idi. İşi ələ aldı. Paralel olaraq Naftalanda da sanatoriyanın bünövrəsi qoyuldu.

**Sözlük**

Kəlbəcər

*Azərbaycan Respublikası ərazisində rayon. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. Kəlbəcər 1930-cu ildə inzibati rayon statusu alıb. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.*

*Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq tarix deməkdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb.*

*Kəlbəcər ərazisində 30 min ildən çox tarixi yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib.*

*Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslam dininin yayıldığı dövrlərdə yaradılıb.*

*1936 kv. kilometr ərazisi, 60 min əhalisi, 128 kəndi olan Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Erməni vandalları buranı işğal etdikdən sonra tarixi abidələrin əksəriyyətini məhv ediblər. Tək burda yox, Qərbi Azərbaycanda Zəngəzurda, külli Qarabağda...*

## Salnamə

İstisu - Naftalan məsələsi qaldırılanda Moskvadan UİHİMŞ-in sədii V.Qrişin Bakıdan AKP Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundovla gəldilər ki, işlə yerində tanış olsunlar. Baxdılar, gördülər ki, doğrudan da, mən burada böyük iş aparıram. Naftalandan düz İstisuya, sonra Göy gölə getdilər.

Deyəsən, elə mənim iş proqramımla tanış olandan sonra V. Qrişinin ürəyində məni Moskvaya aparmaq istəyi baş qaldırmışdı.

## Sözlük

Vəli Axundov

*1916-cı ildə Bakı quberniyasının Saray kəndində anadan olub. İlk təhsilini Saray kənd məktəbində alıb. 1929-cu ildə Biləcəri stansiyasındakı fabrik-zavod məktəbinə daxil olub. 1931-ci ildə sənət məktəbini bitirib, Bakı Sənaye texnikumuna girib. 1935-ci ildə texnikumun kimya şöbəsini bitirib. İki il sonra Azərbaycan Tibb İnstitutuna daxil olub.*

*Böyük Vətən muharibəsində 20-ci atıcı diviziyanın tərkibində adi həkim-əsgərdən xüsusi tibbi-sanitar batalyonunun komandiri vəzifəsinə-*

*dək yüksəlib, Rusiya, Belorusiya, Almaniya, Çexoslovakiya ərazisində gedən döyüşlərdə iştirak edib.*

*1946-cı ildə ordudan tərxis olunan V.Axundov ATİ-yə qayıdıb, tibb tarixi kafedrasının assistenti, Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun elmi işçisi, direktoru olub. Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçilib.*

*1949-1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952-53-cü illərdə isə Bakı səhiyyə şöbəsinin müdiri olub.*

*1953-54-cü illərdə Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini vəzifəsində işləyib. 1954-1958-ci illərdə isə Azərbaycan SSR səhiyyə naziri olub.*

*O, 1958-ci ilin fevralında Azərbaycan KP MK katibi seçilmiş, bir qədərdən sonra – 1958-ci ilin iyulunda isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilmişdi.*

*1959-1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışmışdır.*

*1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. 1969-1972-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuş və səhiyyə sahəsinə rəhbərlik etmişdir. V.Axundov 1972-1986-cı illərdə Q.M.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olmuşdur.*

### Salnamə

...Nə isə, eyni vaxtda İstisuda, Naftalanda, Şuşada, Masallıda, Lənkəranda iş gedirdi. AHİŞ-də məsələ qaldırdım ki, mənə on il dəyməsinlər. Burada işləməyə imkan yaratsınlar. On ildə Gürcüstandakı sanatoriya-istirahət ocaqlarını ötüb keçməsək də, ona lap yaxınlaşacağımıza söz verdim. Çünki Azərbaycanın təbii müalicə imkanları genişdir. İstisu Karlovı

Varı səviyyəsində bir təbii müalicə ocağıdır. Oynaq ağrılarını sağaldan yeganə neft mənbəyi də Naftalandadır. Masallıda, Lənkəranda da kükürdlü sular axır. Şuşanın elə təkcə havası dərmana bərabərdir. Hələ Göy göl... Bu yerlərin hamısı dünya səviyyəli kurorta çevrilməyə layiq idi. Şəki - Zaqatala zonası öz növbəsini gözləyirdi. Bu işləri mən görəcəkdim. Ayrı bir planım da vardı. Xəzərin ətrafında müalicə ocaqları olacaqdı, Qalaaltı və s.

Eyni zamanda fıkirləşirdim ki, müəssisələrdən vəsait toplayıb onların öz qüvvəsindən istifadə etməklə, həmin kurortlarda müəssisələr üçün sanatoriyalar tikəcəyik.

Bir tərəfdən də iri müəssisələr üçün gecə profılaktoriyaları tikdirməyə başlamışdım. Məsələn, müalicəyə müəyyən qədər ehtiyacı olan fəhlələr gündüzlər işləyir, axşam da gedib profılaktoriyada dincəlir, işdən ayrılmadan müalicə olunurlar.

Bu üsulu İttifaqda ilk dəfə Bakıda biz tətbiq etdik. Bizdən sonra bütün ölkə başladı bu qaydadan istifadə etməyə. Gecə profılaktika sanatoriyalarının faydası böyük idi: fəhlə vaxtında dincələndə işə də böyük qüvvə ilə girişir, əmək məhsuldarlığı artırdı.

AHİŞ-in binasının tən ortasında üstü açıq bir toplantı yeri var idi. Baxımsızlıqdan zibilxanaya dönmüşdü. Qərar çıxarmışdılar ki, zibilxananı təmizləyib yerində restoran tiksinlər. Mərkəzi Komitədə məsələ qaldırdım ki, AHİŞ binasının ortasında restoran açmaq olmaz. Həmin yeri alıb AHİŞ-in binasına qatdım. Bundan sonra xüsusi layihə əsasmda salonun üstünü örtdürüb binanı da bir mərtəbə qaldırdıq. Həmin bina indi AHİŞ-in Əmək Sarayıdır.

Həmkarlar İttifaqının nümayəndəsi kimi Rumıniyada olarkən orada bir baza görmüşdüm. Həmin bazada Həmkarlar İttifaqları üçün kadr hazırlayırdılar. Onun iş prinsipi çox xoşuma gəlmişdi. Onların layihələrini götürüb Bakıya gətirdim. 8-ci mikrorayondan gedən yolun üstündə həmin bazanı tikdirdim.

Turizmə də çox fıkir verilirdi. Eyni zamanda Bakıda üç mehmanxananın - "Abşeron", "Azərbaycan", bir də "Turist" mehmanxanalarının tikintisinə başlanıldı. Sumqayıt, Mingəçevir miqyasında inşaat işlərinə başladıq. Respublikada böyük tikib-qurmaq həvəsi yaranmışdı. Turizm üçün göstərilən mehmanxanaların tikintisinə AHİŞ başladı.

**Müəllif**

1991-ci ildə Azərbaycan özünün müstəqilliyini ikinci dəfə elan etdi. Buna qədər ən qədim dövrlərdən başlamış, orta əsrlərə qədər Azərbaycan türkləri böyük dövlətlər qurmuşdular, böyük ərazilərdə xalqları idarə etmişdilər. Yeni tarixdə o taylı-bu taylı məmləkət möhtəşəm padşahlıq taxtından enmiş, xanlıqlara bölünmüşdü. XIX yüzillikdə indiki Azərbaycanın konturları demək olar ki, bilinirdi. 1917-ci ildə Rusiyada oktyabr inqilabı baş verdi. 1918-ci il may ayının 28-də Azərbaycanda bütün Şərqdə ilk dəfə olaraq parlamentli, demokratik respublika quruldu. 1920-ci il aprel ayının 28-də Azərbaycan Demokratik Cumhuriyyəti yıxıldı. Rusiya imperiyasının XI qırmızı ordusu Azərbaycanı tutdu. Azərbaycanda Sovet hakimiyyəti quruldu. 1922-ci ildə SSRİ təşkil olundu. SSRİ Sovet quruluşunu, kommunist ideyasını, sosializm

məqsədini guya könüllü seçən və bir ittifaqda birləşən dövlətlərin tarixdə görünməmiş alyansı idi.

Fikrimiz tarixin konspektini çıxarmaq deyil. Məsələ burasındadır ki, SSRİ yaranan kimi imperiya ilə (təbii ki, müstəmləkələr də daxil) böyük dünya arasında insanların gediş-gəlişi nədi, quş da səkə bilməyən sərhədlər çəkildi. Sərhədlərin hər qarışını silahlı əsgərlər qoruyurdu. Keçid zolağı pozucuların izləri bilinsin deyə hər gün dırmıqlanırdı. İmperiya sərhəd dirəkləri, tikanlı məftillərlə əhatələnmiş ucsuz-bucaqsız möhtəşəm bir ərazi idi.

Sonralar bu tikanlı məftillər, keçilməz sərhəd içində çoxlu olaylar baş verdi. Hər şey dövlətə məxsus oldu, heç kimin heç nəyi olmadı. Repressiya illərində yüz minlərlə insan həyatını itirdi, vətənindən iraq düşüb ağıla gəlməyən uzaq qürbətlərdə zillət çəkdi. Böyük Vətən müharibəsində adamlar qarışqa kimi qırıldılar.

Bütün bunlar SSRİ-nin sərhədləri daxilində oldu.

Nə diş bildi, nə dodaq. Ötən əsrin 80-ci illərinə qədər hansı bir yollasa xaricə gedib qayıdan adam (SSRİ ərazisinin, təbii ki, SSRİ ərazisi xaric sayılmırdı və sərhədlər daxilində kim hara istəsə, gedə bilərdi) iş yoldaşlarının, ailəsinin, az qala bütün Azərbaycanın ən hörmətli, əlçatmaz şəxsi sayılırdı, geri dönəndən sonra ayağının altında qurban kəsirdilər, bütün həftə, ay ərzində evdən qonaq-qaranın ayağı kəsilmirdi, gedib "o dünyanı" görən adamın görməsinə gəlirdilər.

"Salnamə"dən belə görünür ki, Kamran Hüseynov ötən əsrin 50-ci illərində də hansısa xarici səfərlərdə olub. Amma 1960-cı ildən başlayaraq o, bütün yer şarını dolanıb. Turist

olaraq yox, dövlət xadimi kimi, nümayəndə heyətinin tərkibində, çox hallarda nümayəndə heyətinin rəhbəri səlahiyyətində...

İndi məlum olur: o, dünya ilə dəhşətli dərəcədə maraqlanıb. Elə bir dünya ki, bir ucu – yəni etibarlı başlanğıcı öz içində idi, öncə ordan uzanıb Çərəliyə - ata yurduna gedirdi, ordan qayıdıb adamlara çatırdı, daha sonra sonsuz bir ehtirasla bütün dünyaya sarılırdı.

Azərbaycan Həmkarlar İttifaqları Şurasının sədri olarkən etdiyi səfərlərdən ikisini ayrıca seçdirməyə dəyər.

**Salnamə**

...Bir gün mənə zəng edib dedilər ki, 1961-ci ilin sentyabr ayında (əslində bu zəng 1961-ci ildə olub, 1963-cü ildə Kamran Hüseynovun həmin səfərə həsr olunmuş "Biz İtaliyada nələr gördük" kitabını yazmağı bunu deməyə sas verir) "İtaliyaya gedən nümayəndə heyətinin tərkibində siz də varsınız" dedilər. O vaxtlar xaricə getmək çox mürəkkəb bir hadisə idi...

Xudaya, biz Romanım qədim abidələrinə baxmaqdan doya bilmirdik.

**Sözlük**

İtaliya. Roma

*İtaliya Respublikası Avropanın cənubunda dövlətdir. Əhalisi təxminən 58 milyondur. Etnik tərkibi belədir: italyanlar – 98%, yerdə qalanlar, almanlar, slovenlər, albanlar, yunanlar, fransızlardır. Dövlət dili italyan dilidir.*

*Roma İmperiyası Qədim Dünya, o cümlədən Qədim Roma tarixində əhəmiyyətli yer tutmuşdur. Bu tarixi mərhələ qədim Roma dövlətində imperator Avqustun hakimiyyətini və ondan sonrakı dövrü əhatə edir. İmperiya dövründən əvvəl 500 il ərzində mövcud olmuş Roma Respublikası bir neçə vətəndaş müharibəsi nəticəsində zəifləmişdir.*

*Romanın ərazisi Respublika zamanında genişlənməyə başlamış və İmperator Trayanın hakimiyyəti vaxtı ən yüksək nöqtəsinə - 5 900 000 kvadrat kilometrə çatmışdır. İmperiyanın bir neçə əsr ərzində belə nəhəng əraziyə malik olması nəticəsində, indiyədək müxtəlif millətlərin dillərində, dinlərində, mədəniyyətlərində, memarlıq abidələrində, fəlsəfələrində və qanunlarında Romanın dərin tarixi müşahidə olunur.*

*İtaliyanın iqlimi subtropik və mülayim Aralıq dənizi iqlimidir. İqlimin müxtəlifliyi coğrafi uzunluqla izah edilir. İtaliyanın şimalında, Padan ovalığında subtropikdən mülayimə keçid iqlimi hökm sürür – isti yay (iyul +22C +24C) və soyuq qış (yanvar, təxminən 0 dərəcə).*

*İtaliya öz iqtisadi inkişafına görə dünyanın aparıcı sənaye dövlətlərinin "böyük yeddiliyini" qapayır. Avropada iqtisadi cəhətdən dördüncü, dünyada isə 7-ci ən böyük ölkə İtaliyadır. Dünyada ilk 10 ən böyük məhsul ixracatçısından biri İtaliyadır. Burada həyat səviyyəsi bəzi sahələrdə hətta ABŞ, Almaniya və s. ölkələrdən də üstündür. Ən çox şərab ixrac edən, ən böyük turizm regionlarından olan, dünyada 4-cü ən böyük qızıl-valyuta ehtiyatına malik İtaliya Avropada 5-ci böyük avtomobil istehsalçısıdır.*

*İtaliya 300 min kvadrat kilometr ərazidə yerləşən iri dövlətdir və bu göstəriciyə görə Qərbi Avropada yalnız Fransadan, İspaniyadan və Almaniyadan sonra gəlir.*

*İkinci Dünya müharibəsindən sonra İtaliya iqtisadiyyatı çox möhkəmləndi. Ölkə dünya bazarında bərqərar oldu. Kapitalın yığılma sürətinə görə İtaliya yalnız Yaponiyadan geri qalırdı.*

**"Biz İtaliyada nələr gördük" kitabından**

Kolizey, Yuli Sezarın, Oktavian Avqustun, Pompeyin adları ilə bağlı abidələr bizi, yalan olmasın, hayıl-mayıl eləmişdi.

Sonra marşrutumuz başladı Pompeyadan, Neapoldan, Visarentidən. Bizi vahiməyə salan başqa bir yer - Vezuvi dağı, orada baş verən vulkan püskürməsi idi. Pompeya böyük bir mədəni şəhər olub. Bir axşam alov püskürtüsü nəticəsində şəhər tamam məhv olub. Bütün şəhər əhalisi odlu külün altında qalıb. İndi oranın külünü təmizləyib, çox izdihamlı, insan taleyilə bağlı, vahiməli mənzərələr əks etdirən muzeyə çeviriblər. O mənzərələr Yaponiyanın Xirosima şəhərinə 1945-ci ildə atılan atom bombasının yaratdığından da dəhşətli görünür. İtaliyanın güneyindən Florensiya şəhərinə gəldik. Neapol Bakıya bənzəyirdisə, Florensiya Tbilisi şəhərinə oxşayır. İtaliyada Dirçəliş (İntibah) dövrünün ən talantlı nümayəndələrinin yaradıcılığı buradakı muzeydə öz əksini tapıb. Genuya şəhərilə tanışlıqdan sonra Turin şəhəri ilə tanış olduq. Dünyada məşhur avtomobil zavodu "Fiat" bu şəhərdə yerləşir.

Turindən yolumuz Milan şəhərinə düşdü. Türində məşhur Olivetti şirkəti öz inkişafına başlamışdı. Milan nəinki İtaliyanın məşhur böyük sənaye və mədəniyyət şəhəridir, eyni zamanda dünya miqyasında tanınan şəhərdir. Leonardo da Vinçi öz yaradıcılığına burada başlayıb. Bu şəhərdə adlı-sanlı La Skala teatrı fəaliyyət göstərir. Böyük arzu ilə teatra getmək istədik. Nümayəndə heyətimizin başçısı Aleksandr Bulqakov dedi ki, nəyin bahasına olursa olsun bizə bilet tapın. Məlum oldu ki, biletlər iki ay qabaq satılıb. Kral lojasına bilet var. Ora bileti ancaq jurnalistlər təşkil edə bilər. Jurnalistlər Sovet nümayəndələrinə çox hörmət göstərirdilər. İtaliyada bizim fəaliyyətimizi geniş işıqlandırırdılar. Onlar bizi qəti inandırdılar ki, Kral lojasına bilet düzəldəcəklər.

Sonra xəbər tutduq ki, lojanın yarısını Milan şəhərinin baş prokuroru götürüb. Jurnalist bizə bilet düzəldəndən sonra prokuror bizimlə - Sovet ölkəsindən gələn nümayəndələrlə bir lojada oturmaqdan çəkindi. Böyük bir lojanın hamısı bizim ixtiyarımızda qaldı.

Xristofor Kolumbun anadan olduğu ev muzeyi bizə göstərdilər. İtalyanlar onunla fəxr edirdilər. "Yeni dünyanı" – Amerika qitəsini kəşf edən italiyalı Xristofor Kolumb olub.

**Salnamə**

1961-ci ilin mart ayı idi. Moskvadan zəng vurdular ki, Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının nümayəndə heyəti Mali Respublikasının milli bayramında iştirak etmək üçün Afrikaya gedəcək. Nümayəndə heyətinə sən başçılıq etməlisən.

O vaxta qədər Afrikanın ancaq adını eşitmişdim. Nə isə, Moskvaya getdim. Böyük nümayəndə heyəti yığılmışdı. Moskvadan təyyarə ilə Parisə uçduq. Parisi birinci dəfə idi ki, görürdüm. Bir az şəhərdə gəzəndən sonra Parisdən Mərakeşə uçduq. Ordan Seneqala, oradan da nəhayət, Mali Respublikasına gəlib çatdıq. Ölkə müstəmləkəlikdən təzə azad olmuşdu. Mali lap keçmişdə ərəblərin basqısına uğramış, sonralar Fransanın müstəmləkəsi olmuşdu. İndisə azadlıqlarının ildönümünü qeyd edirdilər. Hamı azadlıq qazandıqlarından həyəcanlı idi, qurub yaratmaq eşqilə coşurdular. Bizi prezident qəbul etdi.

Ölkə ilə tanış olmağa başladıq. Şəhərlərarası yollar o qədər də abad deyildi. Hansı şəhərə ayağımız dəyirdisə, bizi böyük həyəcanla, həvəslə, mehriban qarşılayırdılar. Amma elə bil dünyanın bütün istisini bura yığmışdılar. Bürküdən nəfəs afmaq mümkun deyildi. Maşın dayananda bızım də ürəyimiz az qala dayanırdı. Elə deyirdik ki, təki yol gedək, bəlkə bir az yel əsə, nəfəs ala bilək.

Bura gələndə bizi qorxutmuşdular ki, Malidə adına "çiçi" deyilən bir cür milçək var, elə bircə dəfə adamı sancmağı bəsdir ki, o dünyalıq olasan. Burada cürbəcür ağulu həşərat var. İlan əlindən tərpənmək olmur. Bura gələn avropalılar bellərinə qurşaq bağlayırlar, qurşağın içindəsə əllərini yumaq üçün özlərilə spirt gəzdirirlər, ayrıca mehmanxanada qalırlar. Mənsə dedim ki, afrikalılardan ayrılmayacağam: onlar harada yatırlarsa, orada yatacağam, nə yeyirlərsə, ondan istifadə edəcəyik. Mənim münasibətim onların çox xoşuna gəldi. Afrikanın bir hissəsi Fransanın, bir hissəsi İngiltərənin, Belçikanın, Portuqaliyanın, bir azı da Almaniyanın, İtaliyanın müstəmləkəsi olub. Zaman-zaman Avropa ölkələri çalışıblar ki, faydalı qazıntılarla zəngin qitədən bacardıqca çox sərvətlər qoparıb aparsınlar.

Bir fıkir məni çox maraqlandırırdı. Deyirdilər ki, bu qitənin keçmişi olmayıb. Keçmiş yoxsa, deməli, gələcək də olmayacaq. Axı necə ola bilər ki, belə zəngin təbii sərvətə malik qitə haqqında bu cür fıkir söyləsinlər? Bu fıkir müstəmləkəçi imperiyaların nəzəriyyəçilərinin yaydığı yalan idi. Düzdür, bəzi Afrika ölkələri müstəmləkə boyunduruğundan azad olmuşdular. Amma onların imperiyalardan azadlığı nisbi idi. Səbəbi

iqtisadi baxımdan çox geridə qalmış olmalarıydı. Bu geriliyin səbəblərini öyrənmək istəyirdim. Çünki deyilənlər inandırıcı deyildi. Avropalılar çalışırdılar ki, Afrikada gözəçarpan irəliləyiş olmasın. Amma 480-500 milyon nəfər əhalisi olan, ərazisi 30 milyon kvadratkilometr olan Afrikada hələ avropalılar bura gəlməmişdən çox-çox öncə iri dövlətlər, imperiyalar olub. Afrikanın tarixi keçmişi heç Avropanınkından əksik olmayıb. Lakin sonralar avropalılar Afrikanı işğal edərkən çalışıblar ki, hər kəs ən yaxşı ərazilərə yiyələnsin, əhalisini də ya qul edib işlətsin, ya da gəmilərə yığıb təzə kəşf edilmiş Amerikaya satmağa aparsın. Bu məqsədlə heyvan, balıq, ya quş ovlayırmış kimi, zənciləri qovub tutub bir neçəsini bir-birinə sarıyırmışlar ki, qaçmasınlar. Damğa vurub, bir məntəqəyə toplayırmışlar, oradan da gəmilərə yığıb aparırmışlar. İndi Quzey Amerikada bu qayda ilə Afrikadan gələnlərin nəsillərinin təxmini sayı 40 milyon nəfərə qədərdir. Braziliyada da çoxlu afrikaköklülər var.

Qitədə XIX yüzildən başlayaraq, 400 il qul alveri getmişdir. Bu müddətdə Afrikadan avropalıların müstəmləkələrinə milyonlarca nəfər qul satılmışdır. Yalnız Amerika qitəsinə salamat gəlib çıxanların sayı 20 milyon nəfər olmuşdur. Onları qovub tutanda, yolda qırılanlar, bu rəqəmə daxil deyildir. Portuqaliya tarixçisi Uilyam Fastor və başqalarnın mülahizələrinə görə, qul alveri dövründə Afrikanın əhalisi 60 milyon nəfər azalmışdı. Yerli qəbilə başçıları da qul alverində öz iştahlarını çarəsiz adamların hesabına artırırdılar.

Portuqaliya tarixçisi Oliver Martini yazır: "Qulları çox köhnə, dar gəmilərdə aparırdılar. O gəmilərin nəfəs almaq

üçün pəncərəsi də olmurdu. Salamat gəlib çıxanları pambıq tarlalarında, şəkər qamışı plantasiyalarında döyə-döyə gündə 15-20 saat işlədirdilər. Ağır işdən, dözülməz vəziyyətdən bəziləri qaçırdılar, qaçanları tutub üstlərinə yırtıcı itləri buraxır, onları vəhşicəsinə öldürürdülər.

1815-ci ildə Vena konqresində üzdə bir çox Avropa dövlətləri quldarlığı ləğv emək haqqında danışsalar da, İngiltərə, Hollandiya, İspaniya və başqalarının nümayəndələri dedilər ki, konqresin quldarlığı qadağan etməyə səlahiyyəti çatmır. Bu, hər dövlətin öz daxili işidir. Bəşər tarixində qara ləkə olan bu üsullarla yalnız 1807—1847-ci illər arasında Afrikadan 5 milyon nəfərdən çox qul aparıldı, satıldı!..

XIX yüzil həm də quldarlığın ləğvi əsri oldu. Çox görkəmli dövlət xadimləri bu çirkin işdən əl çəkməyi tələb etdilər.

1863-cü ildə Quzey Amerikada quldarlıq ləğv olundu. Amerikanın 16-cı prezidenti Avraam Linkolnun bu işdə çox böyük xidməti olub. Onu elə bunun üstündə 1865-ci ildə Fordun teatrında, Vaşinqtonda öldürdülər. Linkolnun ölümü haqqında böyük rus yazıçısı L.N. Tolstoy demişdi: "Musiqidə Bethoven, şeriyyətdə Dante, rəssamlıqda Rafael, fəlsəfədə İsus Xristos kimdirsə, siyasətdə Avraam Linkoln odur."

Afrika məni çox maraqlandırırdı. Düşünürdüm ki, nə vaxtsa Afrika qeydlərimi ayrıca kitab şəklinə salacağam. Buna nail oldum, üç kitabım çıxdı. Rusiya imperiyasında həmişə deyiblər ki, Fransanın müstəmləkəçilik metodları bizim xoşumuza gəlir. Bu da səbəbsiz deyil. Müstəmləkə idarəçiliyində hərənin öz iş üslubu var idi. Məsələn, İngiltərə çalışırdı ki, onun müstəmləkələri tamam savadsız qalmasın.

Savadsızlara hər işi tapşırmaq, etibar etmək olmur. Eyni zamanda çalışırdı ki, onların bacarıqlılarını təhsil almaq üçün İngiltərəyə göndərsin. Həm də müstəmləkələrdən gələn tələbələri yataqxanalarda yerləşdirmirdi. Onları ailələrə paylayırdılar ki, həm ingilislərə kömək etsinlər, həm də onların adət-ənənələrini öyrənsinlər. İngilislər bu yolla öz həyat tərzlərini Afrikaya yaymaq istəyirdilər. (Bizim günlərdə ABŞ-a göndərilən - aparılan azərbaycanlı uşaqları amerikan ailələrinə də bu məqsədlə paylayırlar).

Fransızlarsa, əksinə, Parisdə Sarbonna Universitetində oxuyan xüsusi müstəmləkə inzibatçıları hazırlayırdılar. Bu ixtisasa yiyələnənlər də çox qəddar adam olurdular. Fransızlar qəbilələrdən qəddar, Fransaya kor-koranə xidmət etmək istəyən adamları seçirdilər ki, metropoliyaya sədaqətlə xidmət etsin, ölkələrində nə var, hamısını öz ağalarına daşısınlar. Həmin adamlara xalq çox nifrət edirdi. Beləliklə, ədavət qızışırdı. Fransızlar gördülər ki, belə davam edərsə, cəmiyyətdə böyük partlayış baş verə bilər. Odur ki, bir qəbiləyə başqa qəbilədən, bir tayfaya o birisindən inzibatçı-nəzarətçi təyin edirdilər. Lakin zavallı yerli camaat bu yandan fransızlara dua edirdi ki, nə yaxşı nəzarətçini dəyişirlər. Fransızların iş metodlarında yaxşı cəhətlər də var idi. Onlar çoxlu savadlı aktivlər yetirmişdilər. Həmkarlar təşkilatı çox aktiv işləyirdi. Amma əsasən xüsusi üsulla hərəkət edirdilər.

Təsadüfı deyil ki, müstəmləkədən qurtulandan sonra da qəbilələr arasında toqquşmalar baş verirdi. Avropa ölkələri də keçmiş müstəmləkələrinə köməyə gəlirdilər. Axı, müstəmləkələr nəhəng xammal mənbəyi idi, onları itirmək istə-

mirdilər. Fransızlar çalışırdılar ki, azadlıq yaratmaqla yanaşı, əsas xammal mənbələrini öz əllərində saxlasınlar. Rusiya və sonralar Sovet imperiyalarında bu üsulların hamısından bu və ya başqa dərəcədə istifadə edilmişdir.

Sovet İttifaqından Maliyə ilk nümayəndə heyəti bizimki idi. Afrikalılar bizə deyirdilər ki, bizi o qədər aciz bilməyin. Bizim də böyük sərkərdələrimiz olub. Hətta bizim qadınlarımız batalyon düzəldib işğalçılara qarşı vuruşublar. Biz onlara elə-belə müqavimətsiz təslim olmamışıq, daim vuruşmuşuq.

Qvineyada Samarra adlı bir sərkərdə olub. Afrikada çox məşhurdur. Samarra böyük qoşun toplayıb döyüşə-döyüşə yoluna çıxan hər şeyi dağıdıb məhv edib ki, müstəmləkəçilərə heç nə salamat çatmasın. Onun öz döyüş metodları olub.

Afrikaya gedəndə özümlə kinokamera aparmışdım. Gəzdiyim yerləri kamera ilə lentə alırdım. Afrikada xeyli fotoşəkil də çəkmişdik.

Çox maraqlı adamlardır afrikalılar. Xudaya, nə qədər oynamaq, atılıb-düşmək olar?! Elə bir musiqiləri də yoxdur. İri təbilləri döyəcləyib çalırlar, özləri oxuyub özləri oynayırlar. Qadınlar elə körpələri kürəklərinə şələyib oynayırlar. Qadın, kişi, uşaq - hamısının çox vaxtı iş-gücü rəqs etməkdir. Hərdən fıkirləşirdim ki, görəsən, bunlar nə vaxt işləyirlər?! Afrikada ağlayan uşaq görmədim.

Amerikanın, Latın Amerikasının ən cəsur idmançılarının zəncilərdən çıxması təsadüfı deyil. Amerika öz irqçilik siyasətinə son qoyandan sonra zəncilər idmanda öz ölkələrinin bayrağını həmişə yüksəyə qaldırıblar. Üzgüçülükdən başqa. Zəncilərin arasından nə qədər tanınmış futbolçu, basket-

bolçu, yüngül atlet, boksçu, güləşçi çıxıb. Denıəli, onların genetik kökü sağlam və zəngindir ki, inkişaf edib qabağa gedə bilirlər. Demək, bu qitənin möhkəm gələcəyinə şübhə olmamalıdır. Onlara kömək lazımdır.

Afrikaya səfərimiz başa çatdı. Gəldiyimiz yolla yenə də Seneqalın başkəndi Dakardan, Mərakeşdən keçib Parisə qaytıdıq. O vaxt bizə dollarla yaxşı ezamiyyət pulu vermişdilər.

Fransada de Qoll maraqlı bir siyasət yeridirdi. Ölkədə başqa pul vahidlərinə nisbətən ABŞ dollarına malı 40 faiz ucuz satırdılar. Ona görə də dünyanın hər yerindən gəlib gedən diplomatlar, nümayəndə heyətləri çalışırdılar ki, yollarını Fransadan salsınlar, ucuz və keyfıyyətli fransız malları alsınlar.

Bunun səbəbini sonralar bildik. Fransa bu minvalla yüz milyonlarla ABŞ dolları yığandan sonra Amerikaya müraciət etdi ki, pulunuzu gəlin aparın, amma gərək onun qızıl dəyərini bizə qaytarasınız. Fransa bu minvalla öz qızıl ehtiyatını xeyli artırdı və qarşısına qoyduğu məqsədə çatdı. İşi belə görəndə Amerika da belə bir qanun qəbul etdi ki, daha pullarını qızılla dəyişməyəcək, kim nə istəyir eləsin. Amma necə deyərlər, daldan atılan daş topuğa dəyər. Fransızlar daha öz işlərini görmüşdülər, xeyli qabağa düşmüşdülər.

Biz də pulumuzu Parisdə xərcləyib Moskvaya qayıtdıq. Afrikadan qayıdandan sonra Moskvada mənə dedilər ki, Mərkəzi Komitədə sənin hesabatını dinləmək istəyirlər. Mərkəzi Komitənin katibi A.M. Suslov məni qəbul etdi. Ona Afrika səfərimiz barədə hesabat verdim. M.A. Suslov məni dinləyib dedi ki, çox sağ olun. Orada çətin də olsa, yaxşı işləmisiniz.

ÜİHİMŞ-ə qayıdanda dedilər ki, sədr V.V. Qrişin sizi axtarır. Onun kabinetinə gəldim.

- Buyurun, eşidirəm sizi, yoldaş Qrişin. Nə lazımdır?

Qrişin nə desə yaxşıdır?

- Bilirsən nə var? Biz belə qərara gəlmişik ki, səni Moskvaya gətirək, ÜİHİMŞ-ə katib seçək, birlikdə işləyək...

O təklifı eşidəndə elə bil məni tok vurdu. Nə qədər yer dəyişmək olar?! Uşaqlarım da hələ körpəydilər. Təklifı rədd etdim. Afrikadan nə qədər həvəslə qayıtmışdımsa, o qədər də narahat Bakıya gəldim.

...Fikir məni götürmüşdü: Axı adam iş yerini nə qədər dəyişər?! Qabaqca Bakı, Sumqayıt, sonradan da Sumqayıta üç dəfə qayıtmışam, müharibə vaxtı Urala yüyür, nə qədər əziyyət çək, sonra Mingəçevir ilə məşğul ol, Neftçalada abadlığa başla. Bu yandan da uşaqlar körpə, özümün də bir o qədər imkanım yox. İndi yenidən arvad-uşağı yerindən eləyib, Moskvaya daşınım?

Zənn edirdim ki, etirazımdan sonra məndən əl çəkəcəklər. Amma məni necə ki, Sumqayıtdan Bakıya zorla gətirmişdilər, indi də təxminən elə həmin fıkirlər Moskvadakıların başında qaynaşırdı.

**Sözlük**

V.V.Qrişin

*V.V.Qrişin Sovet siyasətçisidir. Kamran Hüseynov Moskvada çalışdığı illərdə UİHİMŞ-in sədri olub. 1952-ci ildən 1986-cı ilə qədər Sov. İKP MK-nın üzvü idi. Xruşşovun istefaya getməsinə dair mətni hazırlamış və Baş*

*katibə imzalatmışdı. 1967-ci ildə V.V.Qrişin Moskva şəhər Komitəsinin katibi seçilmiş, 1971-1986-cı illərdə Siyasi büronun üzvü olmuşdu. K. U. Çernenko öləndə Baş katib postuna ən real namizəd o idi. Lakin bu vəzifəyə M. S. Qorbaçov gətirildi. V.V.Qrişin vəzifələrindən kənarlaşdırıldı. 1992-ci ildə acınacaqlı vəziyyətdə öləndə heç pensiyasını da sənədləşdirə bilməmişdi.*

*Ölümünə az qalmış yazdığı "Qəza" kitabında Kremldə, Sovet İttifaqında gedən prosesləri obyektiv işıqlandıra bildi.*

**Novxanı. Qızılqaya**

Elə bil dünən olub. "Qrişin nə desə, yaxşıdı? Bilirsən nə var? Biz belə qərara gəlmişik ki ..." Vəssalam, əgər Moskva qərara gəlibsə, daha bunun o yan-bu yanı yoxdu. Heç nə, dilxorçuluq. Bıcaq vursan, qanı çıxmaz. Elə bil Hərtiz dağını çən bürüyüb, Zəngəzur ucalıqları dumana batıb. İndi evdə nə desin, iyirmi ildi Zeynəb xanımla ailə qurublar, Bakı, Sumqayıt, Binəqədi, Mingəçevir, Neftçala, Bakı, yenə Sumqayıt... Nə qədər yer dəyişmək olar? Ailənin təqsiri nədi axı, ordan-ora daşınır, burdan-bura... Uşaqların biri Mingəçevirdə, biri Neftçalada, biri Sumqayıtda doğulub... İndi də Moskva məsələsi çıxdı böyürdən.

Dərdini qardaşına açdı, Gürşada. Dedi:

- Məni Moskvaya aparmaq istəyirlər, qardaş. Uşaqlar balaca, özümün də elə bir imkanım yox. Bilmirəm bu işin altından necə çıxım.

- Elədi, Kamran, uşaqların çətinliyi olmasa, gedərdin, nə fərqi var, Bakı, ya Moskva. Gələcəyin üçün də yaxşı olar. Amma yenə özün bax...

Beləcə günlər ötdü.

Sanatoriyaların (Kəlbəcərdə, Naftalanda) işləri qaydasına düşürdü. Onun isə başında başqa bir yerin, Masallı İstisuyunun sevdası dolaşırdı.

Gəldi Masallıya. Lənkəran, Astara, Lerik, Yardımlı bölgələrini Allah-taala könlünün xoş vədəsində yaradıb. Gur sulu çaylar axıb gedir, min dərdin dərmanı bulaqlar qaynayır. Abşerondan fərqli olaraq bu yerlərdə dəniz, dağ, meşə iç-içə yaşayır, tamaşaya duranların ağlını başından alır. Yerin dibindən qaynaqlanıb gələn isti suyu bir çalaya toplayıb lazım olan qədər soyutmasan, əlini-ayağını yandırar. Astarada Ərcivan kəndində kükürdlü su axır, kibriti çəkirsən, su alışıb yanır. Xudaya, sənə şəkk eliyən kafirdi...

**Hekayət**

Kamranın fikri necə olur olsun, gedib Masallıdakı İstisuyu görmək idi. İşin tərsliyindən Viləşin suyu artmış, isti su çıxan tərəfə keçmək üçün dayaz yer qalmamışdı. Başqa vaxtlar Viləşin suyu tamam az olur, adamlar çay yatağındakı yastı daşların üstünə ayaq basa-basa o tərəfə adlayırlar. Amma indi su çoxalıb. Buna baxmayaraq, Kamran müəllim fikrindən dönməmişdi. Bir qədər iti axan çaya baxdı, suların sirli şırıltısını dinlədi və üst paltarını soyunub vurdu qoltuğuna. Şəffaf, köpüklü axarın içərilərinə doğru üç-dörd addım atmışdı ki, bir yüngül maşın yoldan sürətlə çayın qırağına buruldu. Maşından iki nəfər düşdü, qapıları taqqıltıyla örtüb Kamran müəllimə sarı tələsdilər.

- Kamran müəllim, - gələnlərdən biri izahsız-filansız dedi, - Moskvadan zəng çalıblar, yoldaş Suslov sizinlə danışmaq istəyir.

- İndi mən bu çayın içində, əynim də yalın, nə edə bilərəm?

- Geyinin, qayıdaq Masallıya, biz sizi calaşdırarıq Moskva ilə.

- Yox, oğlum, mən Bakıdan bura İstisuyun sorağıyla gəlmişəm. Bir qədər səbr edin, keçim çayın o tərəfinə, İstisuya baxım, sonra gedərik.

Kamran müəllimin eləcə əyni yalın o sahilə keçməyi, İstisuya baxmağı və geri dönməyi bir saat çəkdi. O, geri qayıdanda sürücünün həmişə ehtiyat götürdüyü dəsmalı aldı, əlini-ayaqlarını qurulayıb geyindi, dedi:

- İstisu bu yerlərin xoşbəxtliyidir. Orada çox münasib sanatoriya yeri var. Plana salıb tikərik inşallah. Hə, di tərpənək, görək Moskva bu iki daşın arasında Hüsevnov yaldaşı nədən ötrü axtarır...

Rayon Partiya Komitəsi katibinin kabinetindən Moskvaya zəng vurdular. Suslovun köməkçisi cavab verib dedi ki, sabah Mixail Andreyeviç Suslovun qəbulunda olmalısınız.

- Axı mən Bakıdan üç yüz kilometr aralıdayam.

- Bilmirəm, mənə tapşırıblar ki, bu sözləri sizə deyim, mən də dedim...

Sonra elə Masallıdanca Bakıyla danışıb sabahkı günə Moskvaya bilet sifariş verdi.

***

Hava alanında onu yoldaş Qrişinin maşını gözləyirdi. Birbaşa Mərkəzi Həmkarlar Şurasına gəldi. Yuxarı, Qrişinin yanına qalxmağa qoymadılar.

- Necə yəni, bir aman verin, dərdimi danışım...

- Siz narahat olmayın, indi o, özü düşür.

Bu da yoldaş Qrişin, görüşdülər, qısa hal-əhvaldan sonra birlikdə yoldaş Suslovun yayına yollandılar.

Suslov onu ağzını açıb bir kəlmə deməyə qoymadı:

- Bilirəm, nə deyəcəksən; uşaqların körpədir, çox yerlərdə işləmisən, vəziyyətin ağırdır. İndi neyləyək, mən də öz tərcümeyi-halımı sənə danışım? Bəs mən nə qədər yerdə işləmişəm? Gəl Moskvaya, burada pis olmayacaq. Siz işgüzar adamsınız. Burada sizi tanıyanlar, haqqınızda müsbət danışırlar.

... Kor-peşman Bakıya döndü. Həmişə qətiyyətli addımlar atmışdı, xırdalığına, böyüklüyünə baxmayaraq hansı işə əl qoymuşdusa, o iş baş tutmuş, istəyinə nail olmuşdu. İndi, deyəsən, balta kötüyə dirənib, daş qayaya rast gəlib.

Respublikanın rəhbəri Vəli Axundova ağız açdı ki, bəlkə, o, bu məsələnin həllində kömək göstərər.

Axundov Vladimir Semiçasnını çağırıb Kamranın yanında ondan xahiş etdi ki, bir gör neynirsən.

Elə ki onlar birinci katibin kabinetindən çıxdılar, yoldaş Semiçasnı gedə-gedə Kamranın başlna ağıl qoydu: a kişi, aparırlarsa, get, mən Moskvaya getməkdən ötrü dəridən-qabıqdan çıxıram, aparan yoxdu. Ağlın olsun.

Bir qədər sonra Bakıda, Şəhriyar adına mədəniyyət sarayında (keçmiş Dzerjinsk adına) şəxsən Qrişin yoldaşın iştirakı ilə respublika fəallarının geniş yığıncağında Kamran Hüseynovun Moskvaya aparıldığı məlum olanda salona az qala ağlaşma düşdü. Vəziyyəti belə görən Qrişin rəyasət heyətində yanaşı əyləşdiyi Hüseynova dönüb dedi:

- Bu nədi, Kamran, bunlar sevinmək əvəzinə niyə ağlaşır?
- Nə bilim, vallah, heç mən özüm də getmək istəmirəm, çarəm yoxdu...

***

1961-ci il yayın ortalarında Kamran Hüseynovun həyatının yeni dövrü başlandı. Arxada qalan illər kifayət qədər dolu keçib. O, Azərbaycan insanının həyatının yaxşılaşması üçün əlindən gələni əsirgəməyib. Özünü, ailəsini unudaraq tikinti meydanlarında gecələyib, rayon-rayon gəzib dolaşıb. Hələ heç əlli yaşı tamam olmamış el-oba hörməti qazanıb.

Moskva dövrü yeddi il çəkəcək. Gör o, bu zaman aralığında Moskvaya yollanmasaydı, nə qədər işlər görəcəkdi, bəlkə də, ölkədə sanatoriya, kurort, mehmanxana kompleksinin böyük, işlək şəbəkəsini qura biləcəkdi. O, Azərbaycanı yaxşı tanıyırdı, hansı sahəni necə dirçəltməyin mümkün olduğunu bilirdi.

Bəlkə, bütün bunların hamısı qurğuydu? Bəlkə, onun artan nüfuzu kimlərinsə kürkünə birə salırdı? Bəlkə, ali hakimiyyətin bir addımlığında belə fəhmli, bacarıqlı, nüfuzlu bir şəxsiyyətin mövcudluğunu real təhlükə sayanlar vardı?

Heç şübhəsiz ki, onun varlığından xoflananlar, isti aşına soyuq su tökmək istəyənlər də olub. Onda hələ Kamran indikinə nisbətən aşağı vəzifələrdə çalışırdı. Onu bəzən başladığı işi yarımçıq qoymağa məcbur ediblər, sadəcə yerini dəyişiblər. Bütün bunlar barədə "Salnamə"də açıq yazıb, heç nəyi artırıb-azaltmadan...

Cəmiyyətlər, insanlar milyon illərdən bəri mövcud olsalar da, paxıllıq, qısqanclıq, kin, namərdlik kimi bəlalar təfəkkürdə, insan varlığında yer almaqdadır. Insan yaranandan xeyir və şər vuruşur, iblis və mələk qonşudur, bəlkə də, iç-içədir.Axı iblis də nə zamansa mələk olmuşdu.

**Deyilmişdir**

Adam olmayan yerdə nə mələk olur, nə iblis. Gərək adamlar bir yerə yığışsınlar ki, mələk və iblis zəhmət çəkib insanların yanında reyda olsunlar.

***

Amma xatirələrdə heç bir məqam tapa bilmərik ki, o nə zamansa respublikada birinci şəxs olmaq fikrinə düşsün. Bu barədə heç bir dəlil-sübut yoxdur. Əksinə, belə bir qüdrətli şəxsiyyət həm də çox ehtiyatlı, səbrlidir. O, respublikanın bütün səlahiyyət sahiblərinə çəkinmədən zəng edir, qapı döyür, problemi deyib, məsələni həll edirdi. Amma özü demiş, heç zaman cızığından çıxmırdı.

**Şeir**

Qismət şumda yazıdı-
Fırlan ki, fırlanasan,
insan cüt öküzdü,
təhkimdi xırmana can...

Haqdı əməlin sanı
gərəkdi kəm olmasın.
Elə səpələ canı
qurd-quşa yem olmasın.

Dən
torpaqda diridi-
bu sözü dəftərə yaz.
Dairəni irildib
Cızıqdan çıxmaq olmaz.

***

Cızıqlar, sədlər, olarlar, olmazlar öz yerində, onun bircə məqsədi vardı, Vətənə xidmət, cəmiyyətin inkişafına dəstək, xalq işi uğrunda can qoymaq!

Bir məqam da bundan ibarət ola bilərdi ki, Moskva müttəfiq respublikalardan yalnız milli sərvətləri deyil, bəzən milli kadrları da çəkib aparırdı. Orada ağıllı başlara, işdən yorulmayan insanlara ehtiyac vardı...

**Müəllif**

İllər onu yavaş-yavaş həyatın qaynar yay mövsümündən qoparıb üzü payıza çəkirdi. Əlbəttə, əlli yaşa payız demək olmaz. Amma adamlar var, onların ömrünü fəsillərə bölmək olmur. Hərçənd indi biz bu yolla gedirik. Sizinlə Kamran əminin xəyallarına, düşüncələrinə qoşulmuşuq, yaza qədərki böyük tarixə baş vurmuşuq, yazı, yayın bura qədərki müddətini onunla çiyin-çiyinə, nəfəs-nəfəsə addımlamışıq.

Bir azdan saat Moskva vaxtıyla işləyəcək. Nə deyəcək doğranıb tökülən zaman çıqqıltıları ona? Ömrün payızına, bol-bəhrəli çağına yetişən bu kişi qərib yerdə, qürbət eldə, dünyanın o nəhəng meqalopolisində necə baş çıxaracaq? Sanki fəsillər onun ömründə erkən dəyişir. Bəlkə, yay yaşantılarını bir az da davam etdirək? Hər halda payız qapının ağzını kəsdirib...

**Deyilmişdir:**

Salamatlıqla ötən hər gün yola saldığın əziz dost kimidir, açılan hər yeni sabah qapını qəfil döyən heç tanımadığın yolötənə bənzər...

Bəzən yer-yurd amili arxa plana keçir. Məkandan asılı olmayaraq müdrik insanın missiyası dəyişməz qalır; yaratmaq və yaratdığını yaşatmaq. Çətin vəzifədir... Əslində müdrik insanın əzablarının səbəbi də yaratmaq və yaşatmaqdır. Zəhmət çəkməyə dəyərmi? Müdrik insanın bu suala cavabı çox qədim və birmənalıdır – HƏ!

Dünyanın 50 ölkəsində 80 dəfədən çox olmuşam, səyyah kimi yox nümayəndə heyətində, nümayəndə heyətinin rəhbəri kimi:



İtaliyada,
Fransada,
Güney Afrikada,
Kubada,
Amerikada,
Böyük Britaniyada,
Vyetnamda,
Hindistanda,
Çində,
Yaponiyada,
Mərakeşdə...


AVEC LES
LE PEUPLE






HỘI NGHỊ ỦY BAN CÔNG ĐOÀN
ĐOÀN KẾT VỚI LAO ĐỘNG
VÀ NHÂN DÂN MIỀN NAM VIỆT NAM
FSM














BRAZOS FUERTES
¡VIVA




EL MUNDO










EY 5803
CE 8073


TURKEY
AZERBAIJAN
OMAN


ALL INDIA TRADE UNION CONGRESS
27th









## Üçüncü fəsil. Payız

İnsan qanadlanır. Beş qitə ovcun içinə, beş barmaq arasına sığır. Moskvadan havaya qalxan təyyarənin Bakıya nə zaman enəcəyi heç kəsə bəlli deyil...

**Şeir**

Naxış-naxış çağırır
göyə,
arzular çəkir.
Bir gün yağış çağırır,
bir gün onu qar çəkir.

Bilmir quru, bilmir yaş –
nə ki gücü var çəkir,
uçan ürəkdi, qardaş,
qanadlar avar çəkir...

**Müəllif**

Amasiyada insanların böyük ehtiramla yanaşdığı müqəddəs bir övliyanın məbədi var. Bu məzar ağır nəfəsli, ilahidən nurlanan şair, filosof, din xadimi Mirseyid Nigariyə

məxsusdur.Ziyarət üçün gələn insan axınının bitib tükənmədiyi səbəbindən indi o məzarın yanında məscid tikilir. Bax, həmin o müqəddəs insan Kamran Hüseynovun ana tərəfdən ulu babasıdır. Bəlkə də daim şəxsiyyət ucalığından yenməzliyin, həmişə göy üzünə qalxmaq, uçuşlar arzusunda olmağın bir səbəbi də bu imiş?

**Şeir:**
Bir ovuc darısı daşından çıxmır,
Gilası, badamı ola bilmirəm.
Göylərin xəyalı başımdan çıxmır,
Mən yerin adamı ola bilmirəm.

Yaxşı ki göylərdə yaşayıram mən
Cənnət adamı tək gözüm-könlüm tox.
Dünyaya can verdim heç düşünmədən
Dünyadan bir çöp də umacağım yox!

Göylərə dərd yükü daşıyıram ki,
Tanrı qara bağrım göynər yaradıb.
Yerdə ona görə yaşayıram ki,
Onu da bir zaman göylər yaradıb.

***

Moskva, həqiqətən, Kamran Hüseynova – Ümumittifaq Həmkarlar İttifaqları Şurasının yeni katibinə elə qucaq açacaq ki, sonralar o, "Salnamə"də etiraf edəcək: "İşə başla-

mışdım. Xudaya, hərdən mənə elə gəlirdi ki, Moskvada çoxdan yaşayıb işləyirəm".

Həyat yoldaşı, balaları da yenə dinməz-söyləməz ər, ata qanadlarından yapışaraq bu böyük şəhərə gəlmişdilər. Üzü payıza gedirdi. Onlar üçün ayrılmış dörd otaqlı mənzil təmirdən çıxdı. Köçdülər.

O, işgüzar, savadlı, nizam-intizam sevən, hər işdə bir-birinə əl tutan xeyirxah kollektivə düşmüşdü. Rəhbəri yoldaş Qrişin də yaxşı adam idi. Heç bir şeydən təmənnası olmazdı. Onun altı müavini vardı. Kamran müəllim yenicə gəlmişdi. Neft-kimya inşaat məsələlərinə baxırdı. Başqa digər ciddi sahələr - əməyin mühafizəsi, təhlükəsizlik xidməti işlərinin cavabdehliyi də onda idi.

Nazirlər Sovetinin iclaslarında təşkilat adından o, iştirak edir, zəruri məlumatları verirdi.

Hərdən düşünürdü, görəsən, səlahiyyət həddini aşmır ki, birdən ifrat fəallıq Qrişinin xətrinə dəydi, bəs onda nə olacaq?

Qısa müddətdə RSFSR Xalq Nəzarəti Komitəsinə, Dövlət Qiymət Komissiyasına üzv seçilmişdi.

**Hekayət**

Bir dəfə, xatırlayır, Xalq Nəzarəti Komitəsi Kuybışev Rabitə Qovşağının işini yoxlamış və müzakirəyə çıxarılmışdı. Üzv kimi o da iclasda iştirak edirdi.

Müzakirənin gedişində Sovet dövlətinin xalq nəzarətçiləri qovşağın rəisinə divan tutdular.

Rəis infarkt keçirmiş, yeddi ay xəstəxanalarda qalmışdı. Yerlərdən səslənən töhmətlər bir az da davam etsəydi,

bədbəxt elə bu salonda canını tapşıracaqdı. Burnunun ucuna kimi saralmışdı. Bilmirdi, özünü necə müdafiə etsin, kimə nə cavab versin. Hələ ki Allah üzünə baxırdı, dözürdü. Xalq Nəzarəti Komitəsinin sədri Yenutinin müavini V.M.Çurayev hənqamənin sonunda üzünü yoldaş Hüseynova tutdu:

- Yoldaş Hüseynov, bu məsələyə həmkarların münasibəti nədən ibarətdir?

Hüseynov dedi:

- Viktor Mixayloviç, mən insanlıq baxımından belə amansız müzakirənin qəti əleyhinəyəm. Bu adam yeddi ay xəstəxanada yatıb, indi də yarımcandı. Orada nə baş verdiyini indi bizdən eşidir. Yataqdan qalxandan sonra, burda deyildiyi kimi, bəzi nöqsanları başlayıb düzəltməyə. İndi bunun dərisini soymaq düzgün deyil. Məncə, ona şiddətli töhmət vermək, iki aylıq məvacibini tutmaq heç bir xeyir verməyəcək.

Çurayev:

- Bəs təklifiniz nədi? – soruşdu.

Hüseynov:

- Məvacibini tutmaq, töhmət verməkdənsə, vaxt verək ona, qoy əyər-əksiyi düzəltsin. Əgər bacarmasa, ağa durur, ağacan durur.

Beləcə, o, Moskvada təyin olunduğu yüksək vəzifədə hər gün bu sayaq əhvalatlarla qarşılaşırdı, ölkədə qiymət artımının əleyhinə çıxırdı.

Budur, Rostovdan pianinonun yeni qiymətini göndəriblər; bir ədəd pianino 1200 manat. Halbuki, Kubanda 600 manata başa gəlir. Qiymət niyə ikiqat qalxıb? Heç nə, daxili quruluşu, funksionallığı eyni olan alətlərdən birinin böyrünə şamdan qoymaq üçün qutu yapışdırıblar. Əgər Rostovun

təklifi qəbul olunsa, bazarda pianino 1200 manata görünən kimi, Kuban da qiyməti qaldıracaq. Nəticədə, yük əhalinin çiynınə düşəcək. Kamran Hüseynov deyir:

- Elə etməliyik ki, həm üstünə şamdan qoymaq üçün aksesuar olsun, həm də qiymət ikiqat yüksəlməsin.

Tez-tez belə məsələləri həll eləmək lazım gəlirdi.

O, Həmkarlar İttifaqları Şurasında birgə çalışdığı adamların hərəsinin adını "Salnamə"də ayrıca çəkir.

Birinci müavin Bulqakov. Ukraynadan, Vilayət Partiya Komitəsinin ikinci katibi vəzifəsindən gəlibmiş, sonralar SSRİ Peşə-Sənət Komitəsinə sədr təyin ediblərmiş. Mədəni, savadlı, zarafatcıl, yoldaşlıqda da çox mehriban, səmimi adam imiş.

O biri müavin Proxov idi. Moskva Şəhər Partiya Komitəsindən gəlibmiş. Az danışıb çox işləyirmiş.

Tatyana Nikolayevna, katiblərdən biri, o da mədəni, işgüzar bir qadınmış, mədəniyyət işlərinə məsulmuş. İdman sahəsindəki işlərə Nikolay Nikolayev, kənd təsərrüfatı məsələlərinə İvan Sukratov, kömür sənayesinə İvan Vladiçenko, dəniz, aviasiya, avtomobil sənayesi sahəsindəki həmkarlar şurasına aid tədbirlərə Boqatikov baxırmış...

Kamran müəllimin köməkçisi gözəl insan, cəfakeş Qudkov, katibəsi yetmiş yaşlı Valentina Andreyevna idi.

Yeri gəlmişkən, Kamran Əsədoviçin katib seçildiyi ilk günlərin birində Valentina Andreyevna sənədlərə qol çəkdirib qurtarandan sonra dedi:

- Kamran Əsədoviç, artıq yetmiş yaşım var, imkan düşsə, icazə verin təqaüdə gedim...

Kamran Əsədoviç onu dinlədi, amma heç yana buraxmadı.

Xudaya, savadlı, yüksək mədəniyyətə, iş bacarığına sahib olan bu qadın kimlərlə işləməyib; Litvinov, Lazovski, Komintern... Üstəlik, işi elə nizamlayır ki, Kamran Əsədoviç həll etməli olduğu məsələləri çətinlik çəkmədən anlamağa, öyrənib bilməyə və qərar qəbul etməyə imkan tapır.

Əslində işin mahiyyəti Bakıda, Sumqayıtda, Mingəçevirdə, Neftçalada, İstisuda, Naftalanda, Masallıda olduğu kimi burada, Moskvada da dəyişməz qalırdı, verilmiş səlahiyyətlər daxilində xalq təsərrüfatının inkişafına  kömək etmək, qurub-yaratmaq, insanların həyat tərzini yaxşılaşdıran tədbirlər görmək. Sadəcə burada masştab böyümüş, coğrafiya təsəvvür edilməyən dərəcədə genişlənmişdi.

**Salnamə**

Moskvada işlədiyim dövrdə Saxalindən tutmuş Murmanska qədər hər yerdə, Orta Asiya respublikalarında, Qazaxstanın bir çox vilayətlərində işgüzar səfərdə olmuşam.

**Müəllif**

Hətta Türkmənistana səfər zamanı bu qardaş xalqın necə ağır həyat sürdüyünü görəndə ürəyi ağrıdı. Moskvaya dönən kimi özünə aid fəaliyyət sahələrində Türkmənistanın simasının dəyişdirilməsinə dair məktub hazırladı. Məktub bir qədər emosional idi. Yoldaşlar xoflandılar, ona dedilər ki, bəlkə, sən bu məktubu göndərməyəsən, azərbaycanlısan, türkmənlə eyni kökdənsiniz, deyərlər, millətçilik edirsən.

Kamran müəllim dərhal cavab verdi:

- Nə deyirlər, desinlər. Mən razı ola bilmərəm ki, respublika ölkəyə bu qədər xeyir verdiyi halda, yuxarıdan lazımi dərəcədə kömək görməsin.

Qırğızıstanın İssık-kul gölü ətrafında, Kislovodskda "Xram vozduxa" deyilən yerdə Azərbaycanın İstisuyunda, Pitsundada, Anapada sanatoriyaların salınmasının təşəbbüskarı məhz o olmuş, işlərin uğurla aparılmasına var qüvvəsini sərf etmişdi...

**Salnamə**

...Bir gün ÜİHİMŞ-in rəyasət heyətində Qrişin məsələ qoydu ki, Kamran hansı Asiya, Afrika ölkəsinə gedirsə, onu böyük hörmətlə qarşılayırlar. Gəlin elə bundan sonra həmin ölkələrə göndərilən nümayəndə heyətlərinə kömək etməyi ona tapşıraq.

***

Onsuz da çox göndərirdilər. İndən sonra isə bir ayağı yerdə, o biri ayağı dünyanın ən müxtəlif məmləkətlərinə qanadlanan təyyarələrin traplarında olacaq. Belə də oldu.

**Salnamə**

Mən əlliyə qədər xarici ölkədə üst-üstə səksən dəfə işgüzar məzuniyyətdə olmuşam. Sovet respublikalarının hər

birinə dəfələrlə getmişəm. Həmişə çalışmışam ki, gedəcəyim ölkənin tarixi, mədəniyyəti ilə mümkün qədər tanış olum. Bu, həmin yerlərdə mənə qarşı münasibəti həmişə yaxşılaşdırıb. Ehtiramla, yüksək səviyyədə qarşılanmışam.

***

"Salnamə"də il qeyd olunmayıb, çox güman ki, bu 1961-ci ilə düşür, yaxud 1962-ci ilin əvvəlinə. O, Mərkəzi Həmkarlar İttifaqları Şurasında katib kimi ilk dəfə Mərakeşə - Kasablankaya gedən nümayəndə heyətinə rəhbərlik edib. Onlar azadlıq mübarizəsi aparan Əlcəzair xalqını inandırmalıydılar ki, düz yoldadırlar.

**Sözlük**

Kasablanka

*Paytaxtı Rabatdır, böyük şəhəri Kasablanka, rəsmi dili ərəb dili. Əhalisinin sayı 35 milyon nəfərdir.*

*Mərakeş ərəb dilində əl-Məğrib, "Qərb" deməkdir, tam rəsmi adı Mərakeş Krallığıdır, Afrika materikinin şimali-qərb hissəsində islam dövlətidir.*

*Ərəb müsəlmanlar Məğribə 638-ci ildə Aqba ibn Nafinin başçılığı altında gəlmişlər. Ölkə ərəb İdrisilər tərəfindən idarə olunmağa başlayandan Məğrib elm mərkəzinə çevrilmişdir. 1901-ci ildə Fransa tərəfindən işğal olunmuş, 1956-cı ildə müstəqillik qazanmışdır.*

*Mərakeş Krallığı geniş çay sisteminə malikdir. İqlimi ölkənin şərq və cənubunda isti və quru, Aralıq dənizi və Atlantik okeanı sahilləri isə mülayim və yağışlıdır.*

*Yağışın çox olması kənd təsərrüfatına şərait yaradır.*

*Mərakeş dünyada ən böyük fosfat turşusu ixracatçısıdır. Digər təbii sərvətləri kömür, qurğuşun, dəmir filizi, gümüş və misdir.*

*Misir və Sudan dövlətlərindən sonra üçüncü böyük ərəb dövlətidir.*

## Sözlük

*Orta əsrlərdə Kasablanka Anfa kimi tanınan varlı şəhər idi. 1907-ci ildə şəhəri fransızlar ələ keçirdi. Onların hakimiyyəti illərində şəhər sürətlə inkişaf etdi. 1943-cü ildə burada ABŞ prezidenti Franklin Ruzvelt və Böyük Britaniyanın baş naziri Uinston Çörçill arasında Kasablanka konfransı keçirildi. 1956-cı ildə Mərakeş müstəqilliyini elan etdi və fransızlar şəhəri tərk etdilər. Bundan sonra şəhər iqtisadi baxımdan ciddi problemlər yaşadı. Amma turizmin yüksək inkişafı və sənayenin artımı hər şeyi geri qaytardı. Həyat tərzi və xarici görünüşünə görə Kasablanka Cənubi Avropa şəhərlərinə bənzəyir.*

*Kasablanka ispan dilindən tərcümədə "casa" – ev, "blanka" – ağ deməkdir. Kasablanka əhalinin ən çox məskunlaşdığı şəhəridir. Kasablanka Mərakeş Krallığının işgüzar, maliyyə, sənaye paytaxtıdır.*

## Salnamə

Məsələ onda idi ki, Fransa qoşunları Vyetnamdaıı, Laosdan, Kamboçadan, Madaqaskardan çıxmağa məcbur olmuşdu. Həmin qoşunlar gedib yığışmışdı Əlcəzairə. Marşal Salan başda olmaqla, Fransa hərbçiləri deyirdilər ki, daha buradan o yana gedən deyilik. Əlcəzair Fransanın bir əyaləti olacaq, vəssəlam! Fransanın o vaxtkı prezidenti Şarl de Qoll bu fıkrin qəti əleyhinə idi. O, tələb edirdi ki, fransızlar oradan çıxsınlar; yerli fransızlarla əlcəzairlilər arasında elə ədavət, ziddiyyət yaranıb ki, biz orada qala bilmərik. Əlcəzairlilər sonradan Fransaya pənah gətirməyə məcbur olarsa, onda biz oraya yeni fransızlar göndərərik.

Marşal Salansa onun dediyini eşitmək istəmirdi. Əksinə, de Qollu hədələyirdi ki, Parisə desant çıxarıb de Qollu devirəcəyəm, Əlcəzairin də hökmdarı olacağam, Parisdə də ağalıq edəcəyəm. Parisin küçələrinə tanklar çıxarılmışdı. Şəhər həyəcan, narahatlıq içində idi

Əlcəzair şəhərində fransızlar yaşayırdılar, ərəblərsə şəhər kənarında, həbsxana kimi dar, havasız məhlələrə sığınmışdılar. Onların inqilabı elə buradan başlamışdı. Əlcəzairlilər xeyli itki versələr də, deyirdilər ki, sonuncu fransız Əlcəzairdən çıxmayınca son adamımıza qədər döyüşəcəyik. Onların başçılarından olan Əhməd Bembella tutulub Avropaya aparılmışdı, Eviyan həbsxanasında yatırdı.

Xarici işlər naziri Potafılika Əziz, Huari Bumediyen Əlcəzairdə milli azadlıq hərəkatına başçılıq edirdilər. Belə bir vaxtda Kasablankada onların tərəfdarlarının konfransı keçirilməliydi. Mərakeşdə yerli hakim dairələr dedilər ki, sizi mitinq keçirməyə qoymarıq. Oranın da həmkarlar ittifaqları çox qüvvətli təşkilat idi. Təşkilatın rəhbori Məcub ben-Sadıq Məhəmməd Feştali Abdul Rzakiydi. Biz həmin təşkilatın köməyi ilə Əlcəzairin azadlığına tərəfdarlıq mitinqi keçirməliydik.

Nəhayət, Mərakeş kralından mitinq keçirməyə icazə aldıq. Mitinqdə bizimlə yanaşı, başqa ölkələrdən gəlmiş nümayəndələr də iştirak edirdilər. Mən çıxışımı necə qurtaracağımı fıkirləşirdim.

İstəyirdim ki, çıxışımı şüarla qurtarım: "Yaşasın Əlcəzair!" Ancaq düşünürdüm: "Axı, hələ Əlcəzair yoxdur?" Nə isə fıkirləşib dedim: “Yaşasın Əlcəzair Xalq Demokratik Respublikası!" Sonradan azad olan Əlcəzair dövlətinin adı elə belə də oldu.

Kamran müəllim yeddi il ərzində səkkiz dəfə Afrikada səfərdə olub. Qara qitə haqqında kitablar yazıb. O, Afrikanı azad görmək istəyir, bu işə kömək edir, buradakı məmləkətlərin müstəqil olacağına inanırdı.

**Sözlük**

Afrika

*Böyüklüyünə görə Avrasiyadan sonra ikinci böyük materik Afrikadır. Sahəsi 29,2 mln. kvadrat kilometr , adalarla birlikdə 30,3 mln kvadrat kilometrdir. Ekvator onu iki hissəyə bölür.*

*"Afrika" sözü materikin şimal-şərqində yaşamış "afriqi" tayfasından götürülüb. Ən isti materikdir. Dünyanın ən uzun çayı, ən böyük şirinsulu gölü, şərq yarımkürəsinin ən bol sulu çayı, quruda yer qabığının ən uzun çayı, dünyanın ən isti nöqtəsi, dünyanın ən quraq nöqtələrindən biri, ən böyük quraq təbii kompleksi, ən geniş savanna bu materikdədir. Onu Avropadan Cəbəllütariq boğazı və Aralıq dənizi, Asiyadan Aralıq dənizi, Süveyş kanalı, Qırmızı dəniz, Bab-Əl-Məndəb boğazı, Ədən körfəzi ayırır. Ekvator xətti və sıfırıncı meridian bu maretikdən keçdiyinə görə o, dörd yarımkürədə yerləşir.*

*Afrika Atlantik və Hind okeanları ilə əhatə olunub. Materik qədim Qondvananın qalığıdır. Sahil xətləri az parçalanıb. Böyük yarımadası (Somali), böyük körfəzi (Qvineya) var. Ən böyük adası Madaqaskardır, bundan başqa Seyşel, Əmirlik, Zənzibar, Kanar, Komor, Yaşılburun, Vozneseniya, Müqəddəs Yelena adaları da buraya aiddir.*

*Materikin şimal hissəsi qədim sivilizasiyanın mərkəzlərindən olduğuna görə əvvəldən öyrənilmişdir. Afrika qitəsi insan cəmiyyətinin beşiyi hesab edilir. Burada ən qədim insanların qalıqları tapılıb.*

*Afrikanın Qırmızı dəniz sahili və bu sınma zolağı seysmik cəhətdən fəal ərazidir. Materikin şimal və qərb hissəsində çökmə suxurlar geniş yayıldığına görə neft və təbii qaz ehtiyatları vardır. Ən böyük neft ehtiyatları Şimali Afrikada (Misir, Əlcəzair, Liviya) və Qvineya körfəzinin sahilindədir (Qabon, Nigeriya). Cənub və şərq hissədə filiz çoxdur. Dünyanın "mis qurşağı" mərkəzi Afrikada Zair və Zambiya ərazisindədir. Burada zəngin sink, qalay, uran, boksit yataqları var. Cənubi Afrikada almaz, qızıl, daş-kömür ehtiyatları çoxdur.*

*Ekvator xətti Afrikanın təqribən mərkəzindən, şimal və cənub tropikləri onun üzərindən keçdiyinə görə ərazisinin çox hissəsi isti qurşağa düşür və buna görə də o, ən isti materikdir. Materikin çox böyük hissəsində günəş ildə 2 dəfə zenitdə olur.*

*Afrikanın əhalisi 720 milyon nəfərdən çoxdur. Şimal tərəfdə Avropoid irqinə aid olan ərəblər və bərbərlər, 10° şimal en boyunca neqroid irqinə aid olan zəncilər, Madaqaskar adasında isə monqoloid irqinə aid olan malaqasilər yaşayır. Afrikanın digər yerli xalqlarına bantular, ximilər, tutsilər, piqmeylər, nilotlar, buşmenlər, qotentotlar aiddir. Materikin şimalında fransızlar, cənubunda isə ingilis və hollandlar yaşayır ki, bunlara burlar deyilir. Afrika uzun illər müstəmləkə qitəsi olmuşdur. İkinci Dünya müharibəsi ərəfəsində burda Efiopiya, Misir, Liberiya, CAR olmaqla 4 müstəqil ölkə var idi. Hazırda materikdə 56 müstəqil dövlət var.*

## Novxanı. Qızılqaya

Kamran əmi Əlcəzair haqqında düşüncələrinə nöqtə qoyub Abşeron payızına dönəndə gün axşama əyilirdi. Pəncərədən get-gedə tutqunlaşmağa başlayan havaya baxıb qərara gəldi ki, bu günlük bəsdi, indi uşaqlar da gələr, bir yerdə şam edərlər, samovar çayı içərlər. Gör neçə ildi, o,

Zeynəb xanımı, dünyada hamıdan çox sevdiyi bir insanı itirib. İndi onun ətrini balalarından, ya gözü, ya sifəti, ya da hansısa hərəkətiylə Zeynəb nənəyə bənzəyən nəvələrindən alır.

Çox ailəcanlı olub, ümumən, ona insanpərvər demək olar, hamıya əl tutmaq, hamının karına gəlmək, tükənməz mərhəmət onu həmişə ətrafın ən istəkli adamına çevirib. Bu, onun təbiətidir.

Allah qəbrini nurla doldursun, amma Zeynəb xanım olmasaydı, o, həyatın bu qədər qarışıq, dolanbac yollarından qaydasınca çıxa bilməzdi, çətin olardı. Ailənin bütün yükü, ev işləri, dükan-bazar, hamısı bu mərd ananın üstündə idi.

Bu ailəni yaxşı insanların ailəsi də adlandırmaq olar. Heyif ki, Zeynəb xanım tələsdi, Kamran əmi neçə illərdən bəri həyatda yaranmış boşluğu, yerini heç nə, heç kim doldura bilməyəcək boşluğu hiss etdikcə qəlbi sıxılırdı.

**Şeir**

Hərə bir yolun quludu –
Biri qanmaz, biri səydi,
Dünya adamla doludu
Yaxşı adam ayrı şeydi.

Xətri xətirlərdən əziz;
El gözündə xandı, bəydi.
Sözü bütöv, andı təmiz –
Yaxşı adam ayrı şeydi.
Ovsar çəkən sarvan bilər
Hansı dəvə yükün əydi...

Bir xurmanı karvan bilər –
Yaxşı adam ayrı şeydi.

Çöldə quşa daş tullasan
Görəcəksən, ona dəydi!
Gedər, ölümə yollasan
Yaxşı adam ayrı şeydi.

Gücünü dağlar da bilir
Qibləgahı Gündü, Aydı.
Xırda qarışqalar da bilir
Yaxşı adam ayrı şeydi.

Dərd duyandı harda olsa,
Pak ürəyi zərif neydi.
İstəyir lap darda olsun
Yaxşı adam ayrı şeydi.
Ucaların ucasıdı -
Qəlbi səma, yurdu göydü.
Tanrının bir parçasıdır,
Yaxşı adam ayrı şeydi.

**Müəllif**

Hələlik, yaxşı adam, bir azdan yaxşı balalar, şirin mələklər gələcək, Qızılqayanın payız ömrünə yaz təravəti qarışdıracaqlar onlar... Xoş bir görüş... Sonra o, bu dəfə artırmada yox, gur işıqları yanan iş otağında qeydlərini bir qədər də nəzərdən keçirəcək, gəzdiyi ölkələrin tarixinə dair kitabları

vərəqləyəcək. Çox güman ki, bugünlük bəs edəcək çalışmağı, daha yazmayacaq. Səhər tezdən isə işə gedən işə gedəcək, dərsə gedən dərsə (əslində ailə bu mövsüm üçün bağdan köçmüşdü, hələ yayda, söhbət əsnasında Kamran əmi uşaqlara demişdi ki, Novxanının payızı yaxşı olur, siz də bu tərəfdən düşmüsünüz üstümə ki, başıma gələnləri yazım. Sözüm yoxdu, bir aya qədər qeydlərimi qaydaya salaram. Amma payızda şəhərə getməyəcəyəm, bağda qalıb xatirələrimi qələmə alacağam. Məndən də narahat olmayın, günortanı yola verərəm, axşamlar da yəqin məni tək qoymazsınız.

Kamran müəllimin yaratdığı bu "rejim" həqiqətən də nasiranə idi, az qala yazıçı şəraiti idi. Hərdən uşaqlar onun bu çalışmalarına eyham vurub, kişiylə zarafat da edirdilər...

Yaxşı, yorulub, dinc buraxaq onu. Bizim də əlimizə fürsət düşür ki, bəzi məqamlara nəzər yetirək.

O, göy üzünə qanadlanıb saysız-hesabsız səfərlərə yollandığı illərdə, daha doğrusu, 1963-cü ildə namizədlik dissertasiyası müdafiə etdi (50 yaş). Qəribədir, bu qədər işin-gücün içində bir an da olsun elmini dərinləşdirmək fürsətindən ayrılmamışdı. Elə buna görə də iş böyüdü, 1967-ci ildə müdafiə edib tarix elmləri doktoru oldu (54 yaş). Nəzərə alsanız ki, orta məktəbi 20 yaşından sonra oxuyub, onda elmi dərəcəni gec almasına görə onu  qınamazsınız.

Alimlik dərəcəsi almaq faktını yalnız ona görə xatırlamırıq ki, qəhrəmanımızın obrazı tamamlansın, yaxud bioqrafiyasında boşluqlar qalmasın. Bu da var. Amma bu da var ki, onun qələmə aldığı elmi əsərlər bu gün də aktualdır, ötən yüzilliyin tarixi proseslərini araşdırmaq üçün mənbələr sayıla bilər. Eyni zamanda o, "Salnamə"də həm Azərbaycanda, həm SSRİ miqyasında, həm də dünyada baş verən hadisə-

ləri, özünün də iştirakçısı olduğu olayları xatırlayıb yazıya alarkən əsl tarixçi-alim mövqeyindən çıxış edir. Onun xatirələrinin, xüsusən beynəlxalq münasibətlərə həsr olunmuş hissələri ötüb-keçən zamanı həm nəzəri, həm tarixi, həm də həyati baxımdan dəqiq ifadə etməkdədir. "Salnamə"nin Kuba inqilabına həsr olunmuş parçasını bir dəlil olaraq təqdim etmək yerinə düşərdi.

**Salnamə**

1959-cu ilin dekabrında Kubada Fidel Kastro çevriliş etdi. O, qiyamçı qoşunları ilə ölkənin başkəndi Havananı tutdu. Bunun da səbəbi var idi. Kubada Batistanın hakimiyyəti zəifləmişdi. Kuba adası dünyanm ən gözəl təbii mənzərəli guşələrindəndir. Fikrimcə, Kuba ilə Seylon adasına gözəllikdə çatan yerlər dünyada azdı. Kuba ABŞ-ın nəzarəti altında olsa da, amerikalılar burada geniş sənaye sahəsi yaratmamışdılar, adada şəkər qamışı əkilir. Burada ildə 10 milyon tona qədər şəkər istehsal edirdilər.

İnqilabın ilk günlərində Fidel Kastro əli yaraq tutana silah paylamışdı. Çünki bilirdi ki, Amerikanın qarşısında ancaq bütün xalqın qüvvəsi ilə dayanmaq olar. Adanın hərbi qüvvəsi yox idi. O vaxt Latın Amerikasının bir çox ölkəsində narazılıqlar baş qaldırırdı. Hər yerdə istəyirdilər ki, Kubadakı kimi şəxsiyyətlər yetişib hökmdarların, diktatorların zülmünü qırsın. Vaxtilə Latın Amerikasından Simon Bolivar kimi inqilabçı simalar çıxmışdı.

Latın Amerikası ölkələri Kubaya örnək kimi baxırdılar. Bu ölkələrin aydınları bacardıqları qədər Fidel Kastroya kömək

edirdilər. Hətta bəziləri öz pensiyasını aybaay yığıb Kubaya göndərirdilər. Pensiyaya çıxmış müəllimlər Kubada savadsızlığı ləğv etməyə gəlirdilər.

Lakin vaxt keçdikcə Kubaya olan rəğbət azalmağa başladı. Çünki Kubada sənaye inkişaf etdirilmirdi, əhalinin güzəranı əvvəlkindən də pis hala düşmüşdü. Ölkə durmadan yaraqlanırdı, bütün qüvvələr silahlanmaya gedirdi. Həmin dövrdə Kuba hərbi qüdrətinə görə Latın Amerikası ölkələri arasında irəlidə idi. Kuba ordusu Sovet silahından istifadə etməkdə ustalaşmışdı. Afrikanın, Amerikanın hansı ölkəsində ixtişaş baş qaldırırdısa, oraya Kuba qoşunları çağırılardı.

Anqolada, Efıopiya hadisələrində də Kuba qoşunları iştııak etmişdilər. Bır sözlə, Kuba ordusu sanki yanğınsöndürən komandaya dönmüşdü.

Latın Amerikasının Kubaya münasibəti get-gedə dəyişirdi. Kastro rejimi Amerikanın təzyiqi, daha doğrusu, iqtisadi blokadası nəticəsində gözdən düşməyə başladı. Kubanın ən yaxın dostu - Sovet İttifaqı onun arxasından çəkiləndə "Azadlıq adası" bu təklənməyə çətin tab gətirə bilərdi. Sovet İttifaqında hakimiyyətə gələn Qorbaçov Kastronu meydanda tək qoydu. Odur kı, hazırkı şəraıtdə Fidel Kastronunun hakimiyyətdə qalmağı böyük hünərdir.

Lakin qeyd etmək lazımdır ki, Kuba inqilabından sonra Latın Amerikasının zülmkar dövlət başçılarının əsarətində sıxılan ölkələrdə də xeyli dəyişikliklər getmişdi. Hökmdarlar öz xalqlarına qarşı istismarçı münasibətlərini bir qədər yumşaltmışdılar. O ölkələrdə yeriiçilik, tayfabazlıq azalmışdı.

Amma Kuba adasında inqilabın qalib gəlmə səbəblərinin araşdırılması da maraqlıdır. Doğrudan da, necə oldu ki, Fidel

Kastro Amerikanın qulağının dibində qələbə qazandı? Aralarında cəmi 90 mil məsafə ola-ola, Amerika şirkətləri Kubaya xeyli yatırım qoyduğu bir vaxtda? Məsələ ondadır ki, Kuba hökmdarı Batista çox zəif hakim idi. Amerika isə Kubada öz hakımiyyətini möhkəmləndirmək istəyirdi. Həm amerikalıların, həm də kubalıların dediyinə görə, Amerika hökuməti 200 milyon dollar vəsait xərcləmişdi ki, Kubada onun mənafeyini qoruyan cəsarətli bır adam hakimiyyətə gəlsin.

Fidel Kastro da həmin illərdə universitetdə təhsil alır, özü kimi cavanları başına toplayırdı. Onlar Kubada yaranmış vəziyyətlə barışa bilmirdilər. Məsələ bundadır ki, Kubanın gözəl, zəngin təbiətli Atlantik okeanı sahilləri amerikalıların istirahət zonasına çevrilmişdi. Hər cümə günü amerıkalılar gəmilərə minib dincəlmək üçün Kubaya gələrdilər. Havana, demək olar ki, amerikalıların iri xidmət obyekti idi. Kubada şəhərlər yüksək səvıyyədə inkişaf etdiyı halda, kənd rayonlarının vəziyyəti, kənd təsərrüfatı çox geridə qalmışdı. Kənd yerlərində yaşayan əhali çox pis güzəran keçirirdi.

Fidel Kastronun qurduğu plana görə, inqilab elə məhz kənd yerlərindən başlamalı idi. Çünki zəngin yaşayan şəhər camaatı heç vaxt inqilaba qoşulmaz, dəyişikliyə tərəfdar çıxmazdı.

Kastro adanın qərbində öz ətrafına tərəfdarlar toplamağa başlayır. Az sonra onu Kubadan sürgün edirlər. Fidel Amerikaya gedir. Orada bu ideyanın tərəfdarlarının razılığını alır. Ancaq fıkirləşir ki, Kubaya Aınerikadan inqilabçı kimi qayıda bilməz. Ona görə də əvvəlcə Meksikaya gedir. Burada istefada olan bir general onlara hərbi təlim keçir. Boliviyalı

həkim və inqilabçı Çe Gevaranın dəstəsindən bir xeyli adam da ona qoşulur. Aralarında ən cəsarətli olanlar "Qranma" gəmisinə nıinib Kubaya gələrək Syerra Mayestra dağlarından çıxıb fəal inqilabi hərəkata keçirlər. Amerika o vaxt Kubaya, orada başlanan hadisələrə elə bir əhəmiyyət vermirdi. Hətta belə bir fıkir oyanırdı ki, Kastro qalib gəlsə, Amerika ona kömək edəcək, orada hökmranlığını saxlayacaq. Fidel Kastro da əsasən kəndliləri başına yığıb yaraqlanır, inqilabi hərəkata başlayır.

1959-cu il yanvarın 1-də komandan Çe Gevaranın qoşunu keçmiş hökmdardan Havananı azad etdi. O gün Kubanın azadlıq günü elan olundu. Yalnız inqilabdan sonra Amerikada anladılar ki, F. Kastro onlar deyən adamlardan deyil. Kubalılar da başa düşdülər ki, amerikalılar özlərini adada çox cəhətdən heç yaxşı aparmayıblar. Hamıya yuxarıdan aşağı baxıb, pozğunluq edib, qadınlara sataşıblar; onların sənayesinin yüksəlişini əngəlləyiblər. Ada birtərəfli inkişaf edib: şəkər istehsalını inkişaf etdirib, incəsənətlə məşğul olub.

Amerika gördü ki, ipə-sapa yatmayan Fidel Kastronu ancaq adaya desant çıxarmaqla yıxmaq olar. Amerika adanın qərb tərəfinə 1961-ci ilin aprelində böyük desant çıxardı. Bu, o deməkdi ki, Kubanın məhvinə bir şey qalmayıb. Amma Kastro çox cəsarətlə qoşunun başında duraraq xalqı ayağa qaldırdı və 10-15 günün içində Amerikanın adadakı desantını qamışlar içində məhv etdilər.

Playya-Xironda Kuba inqilabının şərəfinə hərbi məktəblər təşkil edildi. ABŞ başa düşəndə ki, Kubanı silah gücünə tabe etdirmək çətindir, başladı onu iqtisadi blokadaya salmağa.

Kubada isə nə neft var, nə də kömür. Yanacağın hamısı Amerikadan gətirilirdi. Amerika hökuməti bundan istifadə etdi - Kubayla bütün iqtisadi-ticarət münasibətlərini kəsdi.

Belə bir vaxtda Sovet İttifaqı Kubaya kömək əlini uzatdı. Kubaya gəmi ilə hər cür ləvazimat göndərildi. 16 günlük yolun bu başından - SSRİ-dən Kubaya lazım olan hər şeyi gəmilərə yükləyib adaya göndərirdilər. Lakin geriyə qayıdan gəmilər yüksüz, boş olsaydı, dalğaların gücünə tab gətirməyib sına bilərdi. Ona görə də tankerlərə okeanın suyunu vururdular. Bəzən də gəmi ilə Odessaya Kubadan şəkər qamışı gətırılır, emal olunmaq üçün ölkənin şəkər zavodlarına paylanılırdı. O vaxt şəkərin dünyada qiymətləri çox ucuz idi. Sovet İttifaqı isə ondan bir az baha qiymətə şəkər qamışı alırdı ki, Kubanın iqtisadiyyatı batmasın. Amma Amerika və başqa ölkələr şəkərin dünya qiymətini o qədər qaldırırdılar ki, daha Kuba da qəndi ucuz satmaq istəmədi. Lakin bu narazılıqlara baxmayaraq, Sovet İttifaqı ilə Kubanın münasibətləri yaxşı inkişaf edirdi. SSRİ Kuba ərazisinə hətta raketəcən xeyli hərbi texnika gətirib quraşdırmışdı. Amerika öz yaxınlığında bu qədər hərbi texnikanın toplanmasından çox narahatdı. ABŞ-ın prezidenti C. Kennedi 1963-cii ildə bəyan etdi ki, Kubanın iqtisadi blokadasına hərbi blokada əlavə edəcək. İstər SSRİ-nin, istər başqa bir dövlətin hərbi gəmisi Kubaya yan alan kimi məhv edilib batırılacaq. Xruşşov da məcbur olub raketdaşıyan gəmilərin lap Kubanın yaxınlığından geri qayıtmasına göstəriş verdi.

Vəziyyət bir qədər sakitləşdi. Yoxsa müharibə başlaya bilərdi. Kuba yəqin ki, məğlub olacaqdı: Amerika kimi qüd-

rətli dövlətin qulağının dibində, 9 milyon əhali ilə ona neyləyə bilərdi?!

Kubada inqilab qələbə çalandan sonra heç olmasa inqilabdan əvvəlki inkişaf səviyyəsini saxlamaq, camaatı dolandırmaq məsələsi Fidel Kastronun ən vacib problemi idi. Bir tərəfdən də Kubanın ziyalıları, həkimlər, mühəndislər, texnoloqlar, mülki torpaq sahibləri, zavod-fabrik yiyələri adanı tərk edib gedirdilər. Evlərin çoxunun qapısı bağlı qalmışdı.

Kuba əhalisinin əksəriyyəti bir vaxtlar Afrikadan gətirilmiş zənçilərin nəslindəndir. Lakin F. Kastro camaatı "bu ispandır, bu zəncidir" deyə aralarında ayrı-seçkilik qoymadığından, bütün kəndlilər ona bir Allah kimi baxırdılar, ona dua edirdilər. Lakin F. Kastro onları ev-eşik yiyəsi etsə də, onların qüvvəsiylə ölkə iqtisadiyyatını qaldıra bilməzdi. Kubanı tərk edən ziyalıların yerini tezliklə verəcək qüvvə yox idi. Yazıb-oxumaq bilməyən, ac, yalavac əhalinin savadlanması, sənət sahibi olmasından ötrü illər keçməli idi. Bu tərəfdən də Amerika Kubaya təzyiq göstərirdi. O vaxt Sovet İttifaqı, başqa sosialist ölkələri Kubaya az-maz kömək edirdilər.

Xruşşov hərbi gəmiləri geri qaytarandan sonra Mərkəzi Komitənin plenumu çağırıldı. Əslində Amerika prezidentinin bircə kəlmə sözü ilə gəmiləri geri qaytarmaq təhqir olunmaq kimi bir şey idi.

Xruşşov da plenumda nitq soylədi (o danışanda, adətən, sağ əlinin bütün barmaqlarını yumub şəhadət barmağını yuxarı qaldırardı). Özü də bərk həyəcanlıydı. Qışqıra-qışqıra deyirdi: "Mən Peterburqda balda rəqs edən zaman bağırsağı sözünə baxmadığına görə özünü güllə ilə vurub öldürən zabitlərdən deyiləm!"

Plenumda mən marşal Verşininlə yanaşı oturmuşdum (onunla Bakıda işləyən vaxtdan tanışdıq). Marşal bu sözdən sonra qayıdıb nə desə yaxşıdır: “Əlbəttə, sən onlardan deyilsən! Səndə elə qeyrət haradan ki, özünü güllələyə biləsən?! Kennedinin təzyiqi ilə silahları qaytarmağına hələ bir bax!”

Kuba haqqında bu qədər danışandan sonra bir qədər əvvələ, Kubaya səfər etdiyim günlərə qayıtmaq istəyirəm.

1961-ci ilin iyul ayında Sovet İttifaqından Kubaya gedən ilk nümayəndə hey'ətinin başçısıydım. O vaxt Kubanın çox qüvvətli Həmkarlar Ittifaqları təşkilatı vardı. Biz oraya gedəndə ölkənin hər yerində həmkarların yığıncağı keçirilirdi. Məni hər gün 3-4 yerə aparırdılar ki, yığıncaqlarda çıxış edim. Bəs yığıncaqlarda nədən söhbət gedirdi? Məsələ onda idi ki, Kubada Batista hakimiyyətinin devrilməsindən bir qədər öncə əhalinin məvacibi beş dəfə qaldırılmışdı. Özü də Kuba pulu pesonun məzənnəsi o vaxt ABŞ dollarına bərabər idi. İşləmədiyi bir vaxtda əlinə xeyli pul düşən camaat da daraşır Amerikadan gətirilən mallara. Çünki daha mal gətirilməyəcək! Pul var, amma xərcləməyə yer yox, almağa mal yox. İndi də Fidel Kastro məsələ qaldırır ki, maaşlar xeyli aşağı salınsın. Heç kəs də onu başa düşmək istəmir. Elə hey deyirlər, sən necə sosializm qurursan ki, kapitalizm dövründə artırılmış məvacibi aşağı salırsan? Biz səninlə razı deyilik! İclaslar da çox böyük həyəcanla keçirdi.

Sovet nümayəndə heyəti adından çıxışlarda başa salmaq istəyirdim ki, niyə Batista maaşları əvvəllər yox, yıxıldığını görəndə qaldırıb? Ona görə ki, yeni hökumətlə əhali arasında

narazıhq baş qaldırsın! Özü də lap yaxşı bilirdi ki, bu cür davam edə bilməz! Nə isə, deyəsən, mənim dediklərim ağıllarına batırdı. Hətta xahiş etdilər, onların fəhlə jurnalı üçün iri bir məqalə də yazdım. Sonra həmin məqaləni ayrıca kitabça kimi çap etdilər.

Fidel Kastro ilə eyni yeməkxanada çörək yeyirdik. Onunla dəfələrlə şəkil çəkdirmişik. Bir gün qayıdıb dedi ki, sizi Playya-Xirona gəzməyə aparacağam.

Mən Kastro ilə bir maşına minmişdim. Bizi bir dəstə maşın müşayiət edirdi. Yolda gördüm ki, Fidel yuxulayır. Gözünü açanda dedim:

- Eybi yox! İnqilab qurtarar, dincələrsən!..

Dedi:

- İnqilabçı ancaq qəbirdə dincələr. Hələ yadıma gəlmir ki, inqilabçı başqa yerdə dincələ...

Playya - Xirona gəlib çatdıq. Heç kəs əvvəlcədən bilməzdi, Fidel Kastro harada yatır, harada dincəlir. Axşam qayıqlara minib qamışlığa getdik. F. Kastro düşüb bir başqa qayığa mindi, gölün lap ortasındakı evdə gecələməyə getdi. Üç nəfər idik. Bizi də lap başqa tərəfdəki evə apardılar. Səhər tezdən maşınlara minib Havanaya qayıtdıq. Playya - Xiron geniş vətənpərvərlik muzeyinə çevrilib, o zonada Amerikanın desantı məhv olmuşdu.

Fidel Kastronun şəxsiyyətindən danışmalı olsam, gərək deyəm ki, o cür adam tək-tək olar: nə qorxu bilir, nə də çəkinmək. Özü də iqtisadiyyatı yaxşı bilmədiyindən hamıya söz verirdi: orada bunu tikəcəyik, burada bunu quracağıq. Bir dəfə qardaşı Raul Kastro gəlib onun yaxasından yapışdı

ki, niyə hamıya vəd verirsən? Belə işləmək olmaz! Hiss etdim ki, əgər bu sözləri deyən qardaşı yox, başqası olsaydı, Fidel həmişə böyründən asdığı tapançanı çıxaıib onun kəlləsinə bir güllə çaxardı. Onları birtəhər ayırıb sakitləşdirdilər.

Kuba inqilabçılarının arasındakı ağıllı adamlardan biri də Çe Gevara idi. O, qayda-qanuna daha dərindən, sakit yanaşırdı. Hay-küylə, qara-qışqırıqla, boş vədlər verməklə iqtisadiyyatı yüksəltmək olmaz. Çe Gevara Çində bir müddət qalandan sonra onun həm Çin, həm də SSRİ haqqında fıkri tamam dəyişmişdi. Deyirdi ki, bu yolla iqtisadiyyatı dirçəltmək, inkişaf etdirmək olmaz.

O vaxtlar da Sovet İttifaqı ilə Çin arasında böyük ziddiyyət yaranmışdı. Bir qisim adam belə fıkirləşirdi ki, Kuba Çinin yolu ilə getsə yaxşıdır. Çünki Kuba inqilabını kəndlilər başlamışdı. Çe Gevara Çinə gedib qayıdandan sonrasa deyirdi ki, köhnə kommunistləri məhv etmək, köhnə qayda-qanunları pozmaq olmaz! Kəndli inqilabı əsasında fəaliyyət göstərmək heç vaxt bizi istədiyimiz məqsədə çatdırmayacaq. Bir sözlə, Çe Gevaranın fıkri tamam dəyişmişdi. Yığıncaqların birində Çe Gevara öz fıkirlərini açıqlayandan sonra aləm bir-birinə dəymişdi. Fidel Kastro özündən çıxıb onunla çox acı danışmışdı. Ancaq Çe Gevaranın Kubada indi də böyük hörməti var. Mənim Kuba Ümumi Həmkarlar İttifaqında çıxışımda Çe Gevara və məşhur Olisa-Balerina iştirak edirdilər.

Çe Gevara ya Fidelin bu münasibətinə görə, ya tamam başqa hansı bir səbəbdənsə, Kubadan baş götürüb getdi. Boliviyada partizan hərəkatının sıralarında döyüşüb həlak oldu. Ailəsi isə Kubada qalmışdı.

Kuba seçdiyi yolla çox çətinliklə irəliləyirdi. Xruşşov da bu yandan Kastroya deyirdi ki, bu qədər şəkər qamışını neyləyirsən, gəl müəyyən faizini qarğıdalı əkdir. Kastro Xruşşovun sözünə baxıb qamışlıqları şumlatdırdı, başladı qarğıdalı əkdirməyə.

Deməliyəm ki, kubalılar çox şən, səmimi adam olsalar da, torpaqda işləməyi bir o qədər bacarmırdılar. Qarğıdalı da çox zəhmət tələb edən bitkidir. Onu vaxtlı-vaxtında suvarmaq, alağını təmizləmək lazımdır. Onlarsa qarğıdalının əziyyətini çəkmədilər. Nəticədə həm şəkəri itiirdilər, həm də qarğıdalını. Şəkər istehsalı 10 milyon tondan azalıb 4,5 milyon tona düşdü. Ölkənin vəziyyəti xeyli ağırlaşdı. Yenidən qarğıdalı sahələrini şumlayıb şəkər qamışına keçdilər.

Zəif sənayesi olan ölkədə nə isə qurub başa çatdırmaq çox çətin işdir. Onlar nəysə istehsal edib, kiməsə satmalıdırlar ki, əvəzində özlərinə gərəkli məhsullar ala bilsinlər. Hələlik Sovet İttifaqına, Çexoslovakiyaya, Polşaya, bir qədər də Çinə arxalanıb birtəhər dolanırdılar.

...1966-cı il idi. Afrika, Asiya, Latın Amerikası ölkələrini bir cəbhədə birləşdirmək məqsədilə Mərkəzi Komitə katibi Ponomaryovun yanında bir iclas keçirilirdi. Hələ iclasdan öncə Kubaya bir neçə nəfər göndərmişdilər. Məqsəd nə idi? Afrika, Asiya ölkələrinin həmrəylik mərkəzi Misirin başkəndi Qahirə şəhərində yerləşirdi. İndi Latın Amerikası ölkələrini də bu təşkilata cəlb etmək istəyirdilər. Elə növbəti toplantını, Latın Amerikası ölkələrinin də iştirak edəcəyi məclisi Kubada, sosialist inqilabına qarşı durmadan mübarizə aparan Amerika Birləşmiş Ştatlarının böyründə keçirməyi düşünmüşdülər.

Gedənlərin hamısını Mərkəzi Komitəyə yığmışdılar. Şərəf Rəşidov Özbəkistandan məxsusi nümayəndə heyətinə başçılıq etmək üçün gəlmişdi. İclasda hər söz alan çox arxayın danışırdı. Hiss etdim ki, bunların nə Kubadakı vəziyyətdən xəbəri var, nə də Kastronun necə adam olduğuna bələddirlər. Elə danışırlar ki, guya Fidel Kastronu qatlayıb ciblərinə qoyublar. Söhbət gedirdi ki, Kubadan təzə gələnlər (Qırğızıstanın birinci katibi) orada hər şeyi danışıb həll ediblər...

Bütün Latın Amerikası, Afrika, Asiya ölkələrindən nümayəndə heyətləri Havanaya yığışacaqdı. Kastronu nisbətən yaxşı tanıdığım üçün Sovet İttifaqından gedən nümayəndə heyətinin tərkibində mən də vardım. Ponomaryovun yanındakı iclasda mən də söz alıb danışdım:

- Yoldaş Ponomaryov, burada deyilən fıkirlər səhvdir. Fidel Kastronu heç kəs ram edə bilməz. O, çox mürəkkəb adamdır. Asiya və Latın Amerikası ölkələrində düşünürlər ki, Fidel Kastroya teleqram vurmaqla, bir dənə məktub yazmaqla hamını Havanaya yığa biləcəyik. Amma belə deyil.

Yoldaş Ponomaryov Kastroya deyəcək ki, Qahirədə sakitlikdir. Nasirin heç bir problemi yoxdur. Mənim vəziyyətim ağırdır. Ona görə də həmrəylik mərkəzi elə Havanada yerləşməlidir. Mərkəzin Qahirədən köçürülməsi nəinki Sovet İttifaqı, həm də başqa dövlətlər üçün də əlverişli deyildi.

Hiss edirdim ki, çoxları mənim nə demək istədiyimi yaxşı anladılar. Nümayəndə heyəti yığışıb Kubaya yola düşdü, mən də onun tərkibində. Şərəf Rəşidov yolda mənə dedi ki, Kamran qardaş, gəl bir yerdə qalaq. Sən buralara bələdsən. Kastronu tanıyırsan. Böyük hörmətiə razılaşdım.

Bizim gəlişimizdən bir qədər öncə Çindən Kubaya gəmi ilə ərzaq gətirilmişdi. Çin də o vaxt adada öz nüfuzunu qaldırmağa çalışırdı. İzdihamlı mitinq keçirilirdi. Fidel Kastronun mitinqləri, adətən, belə bir gedişat üzrə keçirilirdi: öncə konsert verilir, sonra müxtəlif tərifli çıxışlar, ardınca Fidel Kastronun özünün çıxışı. Onun çıxışları bəzən üç-dörd saat uzanırdı. Camaat da gərək ona qulaq asaydı. Kastro, adətən, sinədən, özü də əl-qol ata-ata, həyəcanla danışırdı. İzdiham da onun çıxışı müqabilində guruldayır, yüz minlərlə adamın səsi bir-birinə qarışıb "Havana libra!", "Kuba libra!" (yəni Kuba azaddır) şüarları ucalırdı.

Biz - Sovet İttifaqından gəlmiş nümayəndə heyətinin rəhbəri və mühüm vəzifələrdə işləyən üzvləri 5-6 gündü çalışırdıq, Fidel Kastro ilə görüşə bilmirdik. Səfıri göndəririk yanına, deyir ki, nə konfrans, nə həmrəylik toplantısı? Mən belə şey eşitməmişəm, elə bir təşkilat da tanımıram. Bunu kim təyin edib, kim çağırıb? Əbdül Nasir kimdir? Mən belə adam tanımıram.

Sözün qısası, o, bizi yaxına buraxmırdı.

Bir gün axşam saat 12-də Şərəf Rəşidovun köməkçisi qapını döydü ki, bəs Kamran qardaş, hazırlaşın, gedirik! Kastro Sovet səfırliyinin bağ evində bizimlə görüşəcək. Şərəf Rəşidov, mən, Çingiz Aytmatov, Anatoli Safronov, Şovlyagin, Mirzo Tursunzadə və başqaları yığışıb getdık.

Kastro yel kimi gəlib stolun arxasında əyləşdi. Xudaya, insan nə qədər konfet xoşlayan olarmış?! Stolun üstündə vazalarda xeyli "Qaraqum", "Mişka" konfeti qoyulmuşdu. Gah bundan yeyir, gah o birindən yeyirdi. Bizimkilər də

yavaş-yavaş ona deyirlər ki, axı biz hər şeyi danışmışıq, siz də razılaşmışdınız. Kastro birdən konfet yeməyi saxlayıb dik üzümüzə baxdı:

- İndoneziyada kommunistləri kim qırdı? Onları kim satdı?

O illərdə, Suxartonun dövründə İndoneziya Kommunist Partiyası Asiyada Çindən sonra ikinci qüvvətli kommunist qurumuydu. Bu əhvalatı Kubaya çatdırmışdılar. Odur ki, Kastro bizim dediklərimizə qulaq asmır, iki ayağını bir başmağa dirəyib soruşur ki, İndoneziyanı kim satdı? Günah kimdədir? Arabir də köhnə tanış kimi mənə baxır. Gələndə də birinci mənimlə görüşmüşdü. Gördüm ki, mənim dillənməyimi gözləyir. Dedim ki, siz xarici kəşfiyyatların şayiələrinə inanmayın. Biz də bura ondan ötrü gəlməmişik. Üç qitənin nümayəndələri ona görə Havanaya dəvət edilib ki, bu yolla Kuba inqilabına bir qədər kömək dəysin. Bura gəlişimizin əsas səbəbi elə budur.

Kastro soruşdu ki, axı necə gəlmisiniz, kimlər gəliblər? Anatoli Safronov ayağa qalxdı ki, Əbdül Nasir məktub göndərib, Misirin prezidenti, amma məktub bizdə deyil, onun nümayəndəsi Sipahidədir. Kastro onun sözünü ağzında qoydu ki, mən nə Əbdülü tanıyıram, nə də Nasiri. Mən Qərbdə təkbaşına, inqilabın coşub daşdığı ölkədə çalışıram. Burada hər şey bizim himayəmizdə olmalıdır. Hiss olunurdu ki, o çox qəzəblidir, kimsə ona xoşa gəlməyən məlumatlar çatdırıb.

Biz Havanadakı keçmiş "Hilton", indisə "Havana libra" adlanan ən böyük mehmanxanaya düşmüşdük. Ertəsi gün səhər tezdən xəbər tutduq ki, Fidel Kastro Sovet nümayəndə heyətinin qaldığı mərtəbədə, pilləkənin o biri tərəfində

nömrə tutub orada qalır. Guya bizi gözdən qoymur ki, bizim yanımıza kimlərin gəlib getdiyini öz gözləri ilə görsün. Nə isə onun bizə münasibətini tamam dəyişmişdi. Çox çətinliklə onu sakit etdik. Nəhayət, birtəhər Kubada, Afrika, Asiya, Latın Amerikası ölkələri konfransının çağırılması barədə razılığını aldıq. Məclisi yola verdik. Konfrans qurtarandan sonra Şərəf Rəşidov mənə belə dedi:

- Kamran, sən fala baxmışdın, nədir? Moskvada, Ponomaryovun kabinetindəki iclasda indi burada başımıza gələnlərin hamısını qabaqcadan necə demişdin, o cür də oldu.

Rəşidov çox alicənab adam idi, öz ölkəsi olan Özbəkistanda, SSRİ- də böyük hörmətə malik siyasi xadim, yazıçı, tanınmış bir şəxsiyyət idi.

Dedim:

- Mən Fidel Kastronu tanıyıram, xasiyyətinə də bələdəm. Moskvadan gələnlərin hamısı Havanada çox az iş görüblər. Moskvaya gətirdikləri məsələnin kökündən xəbərləri olmayıb. Fidelin kəskin hərəkətindənmi, ya nədənsə rəhmətlik Rəşidov çox narahat idi.

Afrika, Asiya, Latın Amerikası ölkələrinin həmrəylik konfransı başa çatdı. Kuba Respublikasının Prezidenti Osvaldo Dortikos konfransı açdı. Heç kəs istəmirdi ki, mərkəz Qahirədən gətirilib Havanada yerləşdirilsin. Nə ərəblər buna razı idi, nə də Sovet Ittifaqı. Çin nümayəndəsi istəyirdi ki, mərkəz Qahirədən köçürülsün. Ancaq onun dediyi olmadı. Şərəf Rəşidovun çıxışını hamı alqışladı.

Madam ki, söhbət Kubadan gedir, bir-iki maraqlı hadisəni də yada salacağam.

Həmrəylik konfransından bir neçə il öncə, 1963-cü il idi. Bir gün sədrimiz Viktor Vasil oğlu Qrişin məni çağırıb dedi ki, Braziliyada böyük bir konfrans keçiriləcək. Onu dünya həmkarlar Şurası aparacaq. Sən də getməlisən. Başladım hazırlaşmağa, çıxışlarımı yazmağa, sənədləri düzəltdim. Hər şey hazırdı. İki gündən sonra yola çıxmalıydıq. Qrişin Mərkəzi Komitədəki iclasdan qayıdan kimi məni yanına çağırdı:

- Bilirsən, Kamran, sən Braziliyaya getməli olmadın.

Təəccüblə soruşdum:

- Niyə?

Ona dedim ki, mən hər hansı bir yeni ölkəyə gedəndə çalışıram, onu bacardıqca öyrənəm. Çox zəhmət çəkmişdim. Handan-hana V.Qrişin cavab verdi:

- Ona görə ki, Podqornının başçılığı ilə yüksək səviyyəli nümayəndə heyəti Kubaya gedir. Dekabrın 30-da özləri Mərkəzi Komitədə sənin adını çəkib məsləhət görüblər ki, Kuba rəhbərliyi səni tanıyır, orada kitabın çap olunub, sən bu nümayəndə heyətinə daxil olasan. Qazaxıstandan Mərkəzi Komitənin birinci katibi Ismayıl Yusubov, "Pravda" qəzetinin baş redaktoru N. İnozemsov, görkəmli şair Rəsul Həmzətov da bu tərkibdədir. Bir sözlə, xeyli adam gedir.

Havana aeroportunda bizi çox yaxşı qarşıladılar. Yerbəyer olduq. Biz gəlib Yeni il bayramına düşmüşdük. Yeni ilin ilk gününü Havana vaxtı ilə gündüz saat 12-də okean sahilində qarşıladıq. Xeyli adam sahilə yığışmışdı. Aralarında sovet zabitləri də çox idi. Məşhur xalq şairi Rəsul Həmzətov da buradaydı. Okeanda çimib çıxmışdıq. Camaatın əynində üst paltarı, bu isə lüt çimərlik paltarında gəlib oturmuşdu adam-

ların arasında. Daha baxmır ki, qadın var, kişi var, yarı zarafatla danışır. Ancaq çoxunun xoşuna gəlir. Podqornı dedi ki, Hüseynov, tamadalığı siz edin. Qəti etiraz edib dedim:

Yoldaş Podqornı, eşitmisiniz ki, qafqazlılardan yaxşı tamada çıxır, amma Azərbaycanda siz bilən kimi deyil. Özü də mənim tamadalıq etməkdən heç xoşum gəlmir. Heç bacarmıram da. Qazaxıstanın birinci katibi, "Pravda" qəzetindən baş redaktor buradadır. Elə onlardan birini tamada seçin.

Sonra Podqornı İsmayıl Yusubovun adını çəkdi. Qazaxıstan KP MK-nın birinci katibi Yusubov başladı tamadalığa. Deyəsən, bu bədbəxt oğlunun da bu işdə səriştəsi yox imiş. Elə qadınların arasında ağzına gələni danışırdı. Guya ki, Kubadan Qazaxıstana aparılan zebu öküzləri çox zəifdirlər,inəklərə yaxın düsə bılmirlər. Bu savaq söhbətlər gedirdi. Qadınlar da xısın-xısın gülürdülər.

Axşam isə Sovet səfirliyində yığışıb yeni 1964-cü ili Kuba vaxtı ilə qarşılayırdıq. Birdən Podqornı qayıdıb dedi:

- Yoldaş Yusubov, "Taras Bulba"nı oxumusan? Orada bir yer var, Taras oğluna belə deyir: "Ya tebya porodil, ya tebya ubyu". Yusubov, mən səni tamadalıqdan çıxarıram. Hüseynov, keç yuxarı başa".

Dedim:

- Bu nə cəncəl işdi mən düşdüm, ay yoldaş Podqornı, axı niyə məni çətin vəziyyətə salırsınız? Dedim axı mən bu işi bacarmıram. Heç xoşuma da gəlmir.

- Yox! Otur! - dedi.

Çarəm kəsildi, keçdim stolun başına. Özlüyümdə fıkirləşdim ki, mən də milli respublikadanam, Yusubov da.

Qayıdıb Podqornıya dedim:

- Yoldaş Podqornı, yoldaş Yusubov günorta çox əziyyət çəkdi. İcazə verin, onun sağlığına badə qaldıraq. Arzu edək ki, Qazaxıstanda heyvandarlığın heç olmasa, qoyunçuluğun səviyyəsini qaldırıb 20-ci illərdəkinə çatdırsınlar. 20-ci illərdə rəvayətə görə Qazaxıstanda 90 milyon baş qoyun olub, indisə düşüb 30 milyona. Elə qoyunların sayını əvvəlki səviyyəyə gətirib çıxarsalar, böyük qəhrəmanlıq olar. Gəlin, birinci onun sağlığına içək.

Bir növ Yusubovun vəziyyətini yüngülləşdirdim. Zarafatla tamadalıq edib məclisi yola verdim.

Səhər Podqornı məni çağırıb dedi ki, səninlə gedəcəyik parkda ağac əkməyə. O, mən, bir də Ukraynadan məşhur traktorçu A.V. Gitalov üçümüz getdik. Gitalov Kubaya gəlmişdi ki, yerli əhaliyə şəkər qamışını maşınla yığmağı öyrətsin. Siyasətdən uzaq adam olduğundan hər yerə bir gedirdik. Ölkədə tanınmış Sosialist Əməyi Qəhrəmanı kimi ad çıxarmış Gitalov çalışqan adam idi.

Xarici ticarət nazirinin birinci müavini O.M. Kuzmin də bizim nümayəndə heyətinin üzvü idi. Dazbaş, balacaboy bir kişi idi. Ancaq iqtisadiyyatı yaxşı bilən, savadlı mütəxəssis sayılırdı. Fidel Kastro ilə böyür-böyürə dayananda başı onun dirsəyinə güclə çatırdı.

...Neçə gün idi ki, Kubadaydıq. Amma Podqornı gəlişimizin məqsədini gizli saxlayırdı. Nə isə görüşlərlə, söhbətlərlə səfərin vaxtını başa vurduq. Artıq geri qayıtmaq vaxtı yetişmişdi. Kastro aeroporta bizi yola salmağa gəlmədi. Xarici jurnalistlər də oraya tökülüşmüşdülər. Hamı görür ki,

Kastro aeroportda yoxdur. Çox təəccüblü iş idi. Təyyarəyə mindik. Təyyarə yavaş-yavaş uçuş zolağı boyunca irəliləyirdi, birdən banan meşəsinə çatanda sürəti artırıb havaya qalxmaq əvəzinə dayandı. Fidel Kastro bir dəstə adamla meşədən çıxıb təyyarəyə tərəf yüyürdü. Elə trapsız-zadsız, ehtiyat qapıdan dırmaşıb təyyarəyə doluşdular. Kastro dedi ki, tapşırmışam ki, mən Murmanska çatana kimi Moskvaya getdiyimi heç kəsə deməsinlər. Demə, elə Podqornının əsas məqsədi Kastronu Moskvaya aparmaq imiş. Hamımızdan bu niyyəti gizlədirmiş. Kastro təyyarədə hamı ilə zarafatlaşır, Kuzminlə söhbət edirdi. Onu dilə tuturdu: .

- Mənim sənə xeyli borcum var,-deyirdi. Doğrudan da Kubanın Sovet İttifaqına borcu çox idi. - Ancaq arxayın olun, qaytaracağam. Yenə bizə filan-filan qədər kredit ayırın, filan-filan malları verin. Vaxtı gələndə sizə qaytararam.

Əfsuslar olsun ki, Fidelin nəzərdə tutduğu o "vaxt" heç gəlib çatmırdı.

Təyyarə Murmanska çatanda məlumat verildi ki, Kastro Podqornı ilə Moskvaya gedib. Bu xəbərin Kastro Moskvaya çatar-çatmazda yayılması ona ləzzət verirdi: İndi görün, xaricdə nə çaxnaşma düşəcək!

Gəlib Moskvaya çatdıq. Xruşşov başının dəstəsi ilə Vnukovo-2 aerodromunda Fidel Kastronu böyük təntənə ilə qarşıladı.

Səhərisi gün Lujinskidə izdihamlı mitinq keçirildi. Kastro hara gedirdisə, onu böyük rəğbətlə, sevinclə qarşılayırdılar. Belə bir əhvali-ruhiyyə hökm sürürdü ki, daha Kastro bizim

daimi həmfıkrimizdir. Bundan sonra Kuba sosializm yolu ilə inkişaf edəcək.

Kubanın ümumi həmkarlar təşkilatının başçısı, Kastronun həmkarı bir dəfə görüşümüzdə çəkinə-çəkinə məndən xəbər aldı ki, qomponeros Hüseynov, məni bağışlayın, siz türksünüz?

Dedim:

- Yoldaş Lasarpeniya, mən azərbaycanlıyam, ancaq kökümüz türkdür və biz bununla fəxr edirik. Biləsiniz ki, türk tayfaları, o cümlədən də Azərbaycan xalqı dünya mədəniyyətinə və onun inkişafına çoxlu şəxsiyyətlər bəxş edib.

Lasarpeniya mənim milliyyətimi yada salmağını belə izah etdi ki, Kuba ilə ABŞ-ın arasında vur-tut 90 mil məsafə var. Amerikalılar Sovet İttifaqının Kubaya yaxınlaşdığını görəndə ABŞ bu qərara gəldi ki, haradasa, Sovet İttifaqına yaxın yerdə güclü kapital qoyub, öz hərbi bazalarını yerləşdirməlidir. Bu məqamdan türklər çox ağılla istifadə etməyi bacardılar. Amerika öz hərbi bazalarını onların ərazilərində yerləşdirsə də, Türkiyə dövləti xeyli kapital aldı, ölkədə yol çəkilişi sürətləndi, sənayenin inkişafında dönüş yaratdı.

Dedim:

- Siz bilməlisiniz ki, ikinci dünya müharibəsindən sonra Türkiyə ilə Amerika dövlətləri arasında iqtisadi və lazımi hərbi əlaqələr yaranıb. Məncə, Amerika ilə Türkiyə dövləti arasında yaranmış münasibətlərin Kuba-Amerika münasibəti ilə heç bir əlaqəsi yoxdur. Siz bilmirsiniz ki, 2-ci dünya müharibəsi dövründə Türkiyə o ağır ölüm-dirim müharibəsinə qoşulmadı. Axıra qədər neytral qaldı. Çox çalışdılar, onu savaşa

qatsınlar. Baş tutmadı. Lakin müharibə qurtaran kimi 1945-ci ildə Stalin Türkiyə ilə SSRİ arasında olan müqaviləni pozdu. Bir tərəfdən Ermənistan, o biri tərəfdən Gürcüstan başladılar Türkiyəyə hücuma.

Türkiyə öz ölkəsini qorumaq və inkişaf etdirmək naminə qüdrətli Amerika dövləti ilə müqavilə bağlamağı zəruri bildi. Onun Kubaya dəxli yoxdu.

**Sözlük**

Fidel Kastro

*1926-cı ildə Kubada anadan olub. Bu ölkədə inqilabi hərəkat yaradıb və ona başçılıq edib. 1976-cı ildən 2008-ci ilə qədər Kubanın prezidenti olub.*

*Atası İspaniyadan gəlmiş mühacirdir. İri şəkər plantasiyasının sahibi olub. Fidel və Raul onun nikahdandan kənar oğullarıdır. Sonradan ataları onları rəsmən oğulluğa qəbul edib.*

*F. Kastro ilk təhsilini Çilinin Santyaqo şəhərində alıb. Havana Universitetində oxuyub, hüquqşünasdır.*

*1952-ci ildə Kubada general Batistanın başçılığı ilə hərbi çevriliş baş verib, diktatura qurulub. Bir il sonra Kastronun başçılıq etdiyi qrup onu devirmək məqsədi ilə hərbi kazarmaya hücum edib. Hücumun qarşısı qəddarlıqla alınıb, asilər öldürülüb. Kastro həbs edilərək tribunala verilib.*

*Məhkəmədə "Tarix mənə haqq qazandıracaq" adlı məşhur çıxışını edib. Ona 15 il iş kəsilib. 3 il yatandan sonra insanların tələbi ilə azadlığa buraxılıb. 1959-cu ildə Fidel Kastronun başçılıq etdiyi inqilabi qüvvə Batistanı devirib. O, hakimiyyəti ələ alıb.*

*47 illik hakimiyyəti dövründə onu devirmək üçün 600 dəfə cəhd göstərilib. Lakin o, bütün sui-qəsdlərdən salamat çıxıb. Kamran Hüseynov bir neçə dəfə Fidel Kastro ilə ən yaxın söhbətlərdə olub, bir süfrə arxasında oturublar, F.Kastronun Moskvaya məşhur gətirilmə zamanı onlar Moskvaya eyni təyyarədə uçublar.*

**Müəllif**

Misir, Tanzaniya, Tunis, Mərakeş, Güney Afrika Respublikası, Fransa, Yaponiya, İngiltərə, İtaliya, Hindistan, Macarıstan, Vyetnam, Çin, İordaniya, Seylon... Bir sözlə, özünün yazdığı kimi əlli ölkəyə səksən işgüzar səfər...

O, bu səfərlərdə Sovetlər Birliyini təmsil edirdi, tapşırıqlar aydın idi, soyuq müharibənin qaydalarına uyğun olaraq SSRİ-nin mövqeyini dünyada möhkəmlətmək, xüsusilə, sıralarında yüz milyonlarla insan birləşən həmkarlar təşkilatları prizmasından baxaraq sosializmin gələcəyinə yer kürəsini inandırmaq, xalqları bir-birinə tanıdaraq yaxınlaşdırmaq, dünya təcrübələrini mənimsəyib SSRİ-yə gətirmək... vəzifələr çox idi. Çətinliklər də olurdu, bəzən bir konfransın işi az qala dünya dövlətlərinin qarşıdurmasına gətirib çıxarırdı. Nümayəndə heyətinin rəhbəri olarkən göstərdiyi səbr və təmkin, vəziyyətdən çıxış etmək bacarığı, rus dilində səlis nitqi, bütün bu keyfiyyətlər onda bir siyasətçi səviyyəsində qərarlaşmışdı. Adətən, o, səfərlərə adı bütün dünyada bilinən məşhur şəxsiyyətlərlə (Çingiz Aytmatov, Nazim Hikmət, Rəsul Həmzətov, Mirzə İbrahimov, Şərəf Rəşidov) yollanırdı.

**Sözlük**

Nazim Hikmət

*1902-ci ildə zadəgan ailəsində anadan olub. "Sərvliklərdə" adlı ilk şeiri 1918-ci ildə çap edilib. 1922-1924-cü illərdə Moskvada təhsil alıb.*

*Moskvadan döndükdən sonra Sosial bərabərlik ideyalarını təbliğ edən əsərlər qələmə alıb.1925-ci ildə qiyabi olaraq 15 il həbsə məhkum edilən şair 1927-ci ildə gizli surətdə SSRİ-yə gəlib. İlk kitabı –"Günəşi içənlərin türküsü" 1928-ci ildə Bakıda çıxıb.*

*1938-ci ildə 28 il 8 ay həbs cəzasına məhkum edilib. 1950-ci ildə dünya ictimaiyyətinin tələbi ilə azadlığa çıxıb. 1951- ci ildən Sovet İttifaqında yaşayıb. O, dünya poeziyasının parlaq simalarından biri, məskənlərindən dönməyən mübariz şəxsiyyət idi. Azərbaycan ədibləri ilə sıx təmaslarda olmuş, onun şeirləri Azərbaycan ədəbiyyatına güclü təsir göstərmişdir.*

*N. Hikmət 1963-cü ildə Moskvada vəfat etmişdir. Kamran Hüseynovun yaxın dostu idi. Birlikdə Çinə səfər ediblər.*

**Sözlük**

Çingiz Aytmatov

*Dünyada məşhur qırğız yazıçısıdır. 1928-ci ildə anadan olub. Atası Terekul Aytmatov 1937-ci ildə həbs edilib. 1938-ci ildə güllələnib. 1948-1953-cü illərdə Bişkekdə Kənd Təsərrüfatı İnstitutunda təhsil alıb. İlk əsərləri 1952-ci ildə işıq üzü görüb. 1956-cı ildə Moskvada Ali Ədəbiyyat Kursuna daxil olub.*

*"Cəmilə", "Dəniz kənarıyla qaçan alabaş", "Əlvida,Gülsarı", "Ağ gəmi", "Gün var əsrə bərabər", "Qiyamət" kimi məşhur əsərlərin müəllifidir. Qırğızıstanın Xalq Yazıçısı, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı, SSRİ Dövlət mükafatı təltifləri var. Müxtəlif ölkələrdə SSRİ-nin və Qırğızıstanın səfiri olub. 2008-ci ildə Almaniyanın Nürnberq şəhərində vəfat edib. Kamran Hüseynovla SSRİ Nümayəndə heyətinin tərkibində çoxsaylı səfərlərdə olub.*

***

Bir daha deyirəm, elə şəxsiyyətlər var ki, onların həyatını yaşa uyğun olaraq fəsillərə bölmək olmur. Ümumiyyətlə, doğulmaq şansdır, elə ki dünyaya gəlirsən, bir ömrü başa vurursan, təəssüf, çox təəssüf ki, deyirsən: doğulmamaq da bir şansdır...

**Şeir**

Ah, nə böyük səadət –
doğulmamaq,
yaşamamaq,
ölməmək!
Ah, nə böyük səadət –
doğulmaq,
yaşamaq,
ölmək!

**Müəllif**

Bəs onu necə izah edə bilərik ki, dünya yaranandan hər gün yer üzündə milyonlarla insan xəstəlikdən, müharibədən, aclıqdan, qəzalardan qəhr olub gedir. Onların içində eləsi olur ki, gün işığını bircə gün görür, eləsi olur bir il, deyək, lap beş il, on beş-iyirmi il yaşayır. İndi gəl onların ömrünü fəsillərə böl, görüm, necə bölürsən! Mümkünmü bu?

Kamran əmi 93 il yaşayıb. El arasında bu qədər, bu məzmunda sanballı ömür sürən adamlara mübaliğə ilə min ilin kişisi deyirlər... Olsun, əgər Kamran əmi min il yaşasaydı belə, onun bioqrafik fəsil xəritəsini çızmaq mümkün olmazdı.

Təsəvvür edin, lap körpə yaşı olanda atası dünyasını dəyişib. Ailənin bütün ağırlıq yükü onun boynuna düşüb. Ananın, bacının qayğısına qal, qardaş oxut... Yüz fikir, yüz qayğı...

Tutalım, 35 yaşa qədər insanın gənclik yaşıdır; indi belə deyirik. Əgər bir insan 20 yaşına qədər fiziki işin bütün ağırlığını dartıbsa, 32 yaşında Rayon Partiya Komitəsinin birinci katibliyinə yüksəlibsə, onun ömrünün yaz fəslinin harada başlayıb, harada bitdiyini necə müəyyən eləmək olar?

Tutalım, 50-55 yaşa qədər ömrün yayıdır. Amma insan bu yaşda sərhədləri daxilində 200 milyon insan yaşayan bir məmləkətdə dövlətin idarəetmə strukturunun ən yuxarı pilləsində yer alıbsa, həm respublikada, həm Moskvada şəxsən birinci şəxslərlə, başqa sözlə, dövlət rəhbərləri ilə çiyin-çiyinə çalışıbsa, bu ömrün yay fəsli insan həyatının barbəhərli payız çağına bənzəmirmi?

Bizim qəhrəmanımız 1980-ci ildə, 67 yaşı olanda Azərbaycan xalqının ümummilli lideri, o zaman Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyev tərəfindən Ticarət və Sənaye Palatasına sədr təyin olunub, 13 il Heydər Əliyevlə çiyin-çiyinə çalışıb və sonrakı 13 il ərzində demək ki, olmayan bir təşkilatı yaradıb, onu yüksəldib. Həmin vəzifəylə bir qədər zor gücünə vidalaşanda Kamran əminini 80 yaşı vardı. 80 yaş – o yan-bu yanı yoxdu, ömrün qışıdır, amma onun timsalında bu yanaşma özünü doğrultmur. Sanki

burada fəsillər sürüşdürülüb, yaxud fəsillərdə miqyas genişliyi yaranıb. Tələsməyək, artıq siz görürsünüz ki, ötən əsrin 60-cı illərinin tən ortasından Kamran əmiyə məxsus mövsümü payız adlandırmışıq. Çünki onun həyatının bu dövrü elə məhsuldar, elə zəngindir, bu məzmun yalnız fəsillər gözəli payıza aid edilə bilər. Bəlkə də hökmü Allahın əlində olan məsələlər üzərində baş sındırıb vaxt itirməyə dəyməz.

**Deyilmişdir**
Vaxtını itirən baxtını itirər

*Türk atalar sözü*

**Şeir**
Qardaşım, özünə ömür yaz, gün yaz,
Xəyyam dünyasıdı, kimsəyə qalmaz.
Adını dəftərdən pozmamış fələk
Ömür dəftərinə adı özün yaz.

**Şeir**
Ey... canımdakı ağrı, dizimdəki duz,
Ey... gözümdəki pərdə, qəlbimdəki buz –
Dünyanı versələr, sizi vermərəm,
Siz çox bahasınız, dünya çox ucuz...

***

Yeni bir sabah, ikinci gün... Bu günün düşüncələri müəllifə də nələrisə xatırladır. Çünki Kamran Hüseynov 1963-cü ildə tarix elmi üzrə müdafiə edib namizədlik dərəcəsi alanda mən Böyük Bəhmənli kənd orta məktəbinin ikinci sinfinə gedirdim.

Məncə, yeddi yaşda insanın yaddaşı bərkiyir...

O zaman təbii ki, qəhrəmanımın adını da eşitməmişdim. Amma həmin dövrün hadisələri, "Salnamə"də Kamran Hüseynovun təsvir etdiyi ictimai, siyasi proseslər ibtidai formada olsa da, mənə nələrisə deyir... Nikita Sergeyeviç Xruşşov, qarğıdalı, kasıblıq, kəndimizin əksər evlərinə yol açan aclıq qorxusu, mənim və digər uşaqların ayaqyalın, dəmiryolunun qırov bağlamış şpallarının üstüylə məktəbə getməyimiz...

Deyirdilər yoldaş Xruşşov hardasa çıxış edəndə, yaxud qatardan düşəndə onun təpəsinə qırmızı pomidor çırpırlar...

Heç demə, o dövrdə Moskvada, böyük vəzifədə işləyən Kamran Hüseynovu yenidən Bakıya qaytarmaq üçün respublika rəhbərliyi dəridən-qabıqdan çıxırmış. Dörd-beş il əvvəl isə onlar cəhd edirdilər ki, nə yolla olur-olsun, yoldaş Hüseynov ölkədən getsin.

Bilirsiniz, o heç bir vəzifəyə yalvarıb gəlməyib, onu gətiriblər, heç bir vəzifədən könüllü getməyib, harasa yuxarı aparıblar. O, Moskvaya aparılanda çox çalışdı ki, qalsın, doğma vətəndə başladığı quruculuq işlərini davam etdirsin, getməsin. Mümkün olmadı. İndi də üstünə düşüblər ki, qayıt Bakıya, ürəyin hansı işi istəyirsə, onu verək sənə. Necə getsin? Kollektivə isnişib, əlində yarımçıq işlər var. Evi rahatdı, uşaqları böyüyür...

Beləcə, bakılı minnətçilərin birinin gedib o birinin gəlməyi beş il sürəcək. Bu beş ildə Kamran Hüseynov ittifaq miqyasında çoxlu quruculuq işlərinə imza atacaq.

Yenə də Şeremetyevodan, Vnukovodan... havaya qalxan təyyarələr nüfuzlu nümayəndə heyətlərinin tərkibində onu yaxın-uzaq ölkələrə aparacaq.

...Kamran müəllim yeni ideyalardan doymurdu. Orta Asiyada əkinçilərin sağlamlığına yönəlik SSRİ miqyasli sanatoriyaların salınmasına çalışırdı. O, qədim türk torpaqlarında yerli əhaliyə geniş təbii imkanlara malik elə nöqtələri nişan verirdi ki, sanki o yerlərin camaatı onilliklər boyu gözüyumulu gəzib dolaşıblar, heç belə cənnət guşələrin möcudluğundan xəbər tutmayıblar.

Plan plandı, göstəriş göstəriş... Bunlar öz yerində, o bir an da olsun Azərbaycanı unutmurdu, bir əli vətəndə yaradılan sosial tikintilərin üstündə idi. Həmvətənlər Moskvada da axtarıb tapırdılar onu. Birinin təhsil, birinin mənzil, yataqxana, birinin müalicə problemi vardı. Biri uça bilmir, bilet tap, birinin beqəfil pulu qurtarıb, yardım elə...

Hərdən moskvalı həmkarlar deyirdilər, hə, Kamran, biz heç bilmirik sən hansı adresdə yaşayırsan, kənddən-kəsəkdən gələn adamlar səni necə axtarıb tapırlar?

Kamran müəllimin cavabı qısa olurdu: "Kimi var o insanların, mən kömək etməsəm, kim əl tutar onlara?"

Moskva dövrünün 1963-64-cü illərini ən azı gərgin adlandırmaq olar. Bu yanaşma yalnız onun bioqrafiyasına aid deyil. Gərginlik Sovet İttifaqı miqyasındaydı. Həmkarların həyatında da dəyişiklik baş verdi. Qrişin Moskva Şəhər Komitəsinə

katib aparıldı, yerinə Şelepin gəldi. 1953-cü ildən başlayan Xruşşov hakimiyyəti 1963-cü ildə başa çatdı. İndi məlum olurdu ki, Sovet xalqlarını kommunizmə aparan on illik yol da iflasa uğrayıb. Nəhəng ölkə dilənçi kökünə düşüb. İnsanlar aclıq adlı ictimai fəlakətlə üzləşib.

Bizim 60-cı illərdəki uşaq təsəvvürümüzə görə SSRİ yer üzündə "ən bərk gedən" dövlət idi. Hesabla 1980-ci ildə (ili konkret göstərirdilər) kommunizmə çatacaqdıq, hər kəsdən qabiliyyətinə görə alınaraq hər kəsə tələbatına görə pay düşəcəkdi. Əgər kim istəsə ki, lap çox qazansın, onlara da məhdudiyyət qoyulmayacaq, qoy dövlət planını ikiqat-üçqat yerinə yetirsin, qazandığı halal xoşudu.

Gözəl kommunizm çox yaxında, həm də yaxın olduğu qədər uzaqda idi. Çünki ölkə aclıq çəkirdi, ac adamın da gözünün işığı sönür, nə yaxını görə bilir, nə uzağı.

Lətifə də qoşmuşdular: "Tutalım, biz sürətlə gedib Amerikanı ötdük, buna ehtiyac varmı? Əlbəttə, yox. Çünki sürətlə gedib Amerikanı ötsək, onlar arxadan bizə baxacaqlar və... şalvarımızın dalındakı yamağı görəcəklər. Yaxşısı budur, heç Amerikanı ötməyək..."

Biz ötən yüzilliyin ortalarının tarixini yazmırıq. SSRİ-nin o kökə düşməyinin çoxlu səbəbləri var. Əsas səbəblərdən biriən əsas səbəb bu birliyin başqa dövlətlərin müstəqil yaşamaq haqqı əlindən alınaraq zor gücünə yaradılması idi. Sonra ifrat kollektivləşməydi, fərdi təşəbbüslər, insani maraqlar cinayət dəyəri almışdı. Məsələn, zavodda, fabrikdə, kolxozda, sovxozda, məktəbdə, xəstəxanada çalışan heç bir Allah bəndəsinin ixtiyarı yox idi ki, ictimai təsərrüfatdan

qıraqda on kvadratmetrlik bir sahəyə şitil basdırsın, ağac əksin.

Bir dəfə Xruşşov yoldaşa dəhşətli xəbər çatdırmışdılar. Kimsə, hansı bazardasa istefada olan bir generalın alma satdığını görüb... Qətiyyən yolverilməzdir, Sovet generalı acından köpük qusar, alma sata bilməz. Halbuki, o general həyətinin almasını satırmış...

Xruşşov əmr verir ki, bütün fərdi təsərrüfatlar yığışdırılsın. O, bu qərara gələndə 1963-cü il idi. Əgər 1964-cü ildə bu ipləmə ali vəzifədən itqusdu qovulmasaydı, yəqin ki, post-sovet məkanında yaşayan əhalinin sayı indikindən xeyli az olardı. Çünki o, bir az da hakimiyyətdə qalsaydı, insanlar bir-birinin ətini yeyəcəkdi. Nədən ki, aclıq yanğın kimi, sel kimi, tufan kimi dəhşətli bir şeydi...

1964-cü ildə Xruşşovu L.İ.Brejnev əvəzlədi.

***

Elə həmin il Kamran Hüseynov Moskvada olduğu vaxt ərzində ilk dəfə Sov.İKP MK-nın Siyasi bürosuna çağırıldı.

Onun bu dəfəki ideyası həyətyanı sahələrin bərpası, fərdi evlərin tikintisinə ən yuxarı səviyyədə icazə verilməsi ilə bağlı idi.

Yeni baş katib onun məruzəsini dinlədi. Təklifi bəyəndi.

Büro iclasında Baş katiblə Hüseynov yoldaş arasında təqribən belə dialoq olmuşdu.

1964. Noyabr. Siyasi büronun iclası. Baş katib L.İ.Brejnev sədrlik edir.

Yoldaş Hüseynov:

-Çox hörmətli Leonid İliç, verdiyim məlumatın sonunda bildirmək istəyirəm ki, həmin istifadəsiz sahələrdə fəhlə və qulluqçular sovxozların münbit torpaqlarında götürdüyündən bir dəfə yarım çox məhsul əldə ediblər.

L.İ.Brejnev:

- Onların nə qədəri fəhlədi?

Yoldaş Hüseynov:

- Doxsan faizi.

- L.İ.Brejnev:

- Bəs qalan on faiz?

- Onlar ziyalılardı...

- Əgər həmin fərdi təsərrüfatlar olmasaydı, ölkədə Novoçerkaskdakı, Rostovdakı toqquşmalardan daha dəhşətli faciələrlə üzləşərdik. Yoldaş Hüseynovun təklifi gərəklidir. Bu istiqamətdə davam edin.

- Hörmətli Leonid İliç, bu işin qaydaya düşməsi üçün Dövlət Plan Komitəsinin köməyinə ehtiyac var.

L.İ.Brejnev:

- Onlar kömək edəcəklər. Açıq görünür ki, düşünülməmiş hərəkətlər hökumətlə fəhlənin arasını vurmağa yönəlib. Nə qədər ki, gec deyil, buna son qoyulmalıdır. Başqa sualınız var?

Yoldaş Hüseynov:

- İcazənizlə biz məsələ barədə də məruzə etmək istəyirəm.

L.İ.Brejnev:

- Buyurun.

Yoldaş Hüseynov:

- Leonid İliç, Şimal fəhlələri istəyirlər ki, bir müəssisədə on beş il işləyəndən sonra elə öz yerlərində, Tümendə, Krasnoyarskda şəxsi hesaba ev tiksinlər. Neçə ildi məsələ həllini tapmır. Bunu Rusiya hökuməti nizamlanmalıdı.

L.İ.Brejnev:

- Rusiya hökumətinə məsləhət görürəm ki, on beş il yox, beş il çalışan fəhlələrin öz vətənində ev tikməsinə şərait yaratsın. Bu məsələdə problem yoxdu, səhlənkarlıq var.

...Siyasi büronun iclası bitəndən az sonra Kremlin çıxış qapısında Qrişin ona dedi ki, Kamran Əsədoviç, sən illərlə böyrüüstə qalan məsələni on dəqiqəyə həll etdin, sağ ol.

Sonra hansı bir iclasdasa Leonid İliç bu məsələləri qaldırdığına görə ona razılığını bildirdi.

Sonra... Sonra o, həmin vaxtlarda "Afrika müstəmləkəçilikdən azadlığa doğru" adlı elmi əsəri üzərində işləyirdi. Halbuki, onun öz vətəni, tamamilə fərqli bir insan toplumunun yuvalandığı məmləkət, Rusiya imperiyasının təbəəliyi altında heç istəmədiyi tarixi proseslərdən keçirdi. Bəlkə, Kamran müəllimi Moskvada çalışdığı yeddi il ərzində səkkiz dəfə Afrikaya çəkib aparan oradakı xalqların azadlıq mücadiləsinin şüuraltı çağırışları imiş?

**Sözlük**

Moskva

*Rusiya Federasiyasının paytaxtı Moskva dünyanın ən nəhəng meqapolislərindən biridir. Onun 6 aeroportu var. Şəhərin yaranma tarixi 1147-ci ildən hesablanır. Əhalisi 10 milyondan artıq, ərazisi 1.081 kvadrat*

*kilometrdir. Ortasından Moskva çayı keçir. 1922-ci ildən 1991-ci ilə qədər SSRİ-nin paytaxtı olub. Kamran Hüseynovun həyatının bir neçə onilliyi bu şəhərə bağlıdır.*

**Şeir**

Mən aşıq, vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı...

**Ricət**

Görəsən, Türk qövmünə məxsus vətən sevgisi başqa xalqlarda necədi? Azərbaycanlıların yurda bağlılığının bircə adı var; möcüzə! Onlar doğma yurddan pərvazlanıb uçurlar, dünyanı dolaşıb ad-san, var-dövlət qazanırlar, amma həmişə baxar gözlər lap uzaqlarda işaran vətən nöqtəsini qeyb etmir... Çünki vətən azərbaycanlının göz bəbəyidir.

Hərdən adama elə gəlir ki, bu yurdun indi var olmağının, bu qədər xəyanətlərdən, tamahkar xislətlərdən xilas olub dünya səhnəsindən silinməməyinin səbəbi nə qılınc, nə qalxan, nə top, nə tüfəng, nə pambıq, nə neft imiş, sadəcə millətin vətənə bağlılığı, insanların yurd sevgisi imiş...

Götürək, elə Kamran əmini... Böyük həyat yaşayaraq ömrün qışında – 85 yaşında həyatını cümlə-cümlə sərf-nəzər edir. Və bu zaman onun gözlərinin qarşısında ən aydın canlanan, dipdiri bir lövhə varsa, o da Qubadlı mahalıdı, Hərtiz dağlarının ətəyinə sığınan Çərəli kəndidi.

O zaman Moskvada çalışdığı illərdə elə bir günü xatırlamır ki, Qubadlı, Çərəli qarışıq Azərbaycanı bircə anlığa unutsun. Moskvaya öz xoşu ilə gəlməmişdi, aparmışdılar. Kamran Hüseynovun belə yüksəlişi, əlbəttə, tanıyanların hamısına, bütün azərbaycanlılara fəxarət verirdi. O özü də bunun fərqində idi. Qoca Qafqazın hansısa bir ucqar kəndində dünyaya göz açasan, demək olar ki, lüt-üryan (axı iyirmi yaşında Akara stansiyasından qatara minib Bakıya gəlmək fürsəti yarananda əynindəki pencəyi də çıxarıb göndərmidi ki, bəlkə, evdəkilərə gərək olar), sonu bilinməyən (əslində bilinən) bir yola ayaq basan bir adamın möhtəşəm Sovet dövlətində mövqe qazanmağı, Siyasi büroda məruzə edib məsələ qaldırmağı hər kəsə qismət olan bir tale deyil axı...

Bununla belə, vətən sevgisi bir an xəyalından çıxmır. O, müstəmləkədən, azad olmaq üçün ingilis, fransız, amerika sümürgənlərinə qarşı mübarizə aparan Afrikada, Hindistanda, Kubada, Vyetnamda, Kambocada, Malaziyada xalqla, insanlarla elə təmasa girir ki, sanki onların dərdi, onların ağrı-acıları onun öz xalqına aiddir.

Əslində məkan ayrıydı. O, əsarətdə olan xalqına kömək etmək üçün tutduğu mövqeyi, səlahiyyəti dəyərləndirməyi bacarırdı.

Səfər etdiyi ölkələrdə qapılar döyüb sadə insanların həyatı, iş qayğıları ilə maraqlananda onun vətənində Moskvanın idarə etdiyi at, fil, şah, vəzir... fiqurları kəllə-kəlləyə gəlirdi.

Kamran müəllim, xalq dili ilə desək, yuxarıdaydı, bunları görürdü. Hər görüşündə respublika rəhbərlərinə düşmənçiliyin, vəzifə uğrunda çarpışmanın mənasız olduğunu anlat-

mağa, əldə yumruq kimi birləşməyə çağırırdı. Eşidən eşidirdi, eşitməyəm eşitmirdi. Kamran müəllim onlara deyirdi ki, sizi üz-üzə qoyanları tanıyın, ayıb deyilmi, o boyda yüksək dövlət vəzifəsi tutan hər rəhbər işçinin üç-dörd əl ermənisi var. Guya mərkəzdə onların sözünü deyir, iş aşırırlar. Uzaq olun onlardan, deyirdi Kamran Hüseynov...

**Salnamə**

Növbəti kitabımın üstündə işləyirdim. Adı da belə idi: "Afrika müstəmləkədən azadlığa doğru". Afrika məni çox maraqlandırırdı. Üstəlik, görürdüm ki, Afrikadakı müstəmləkə üsul-idarəsi Rusiya imperiyasındakı idarəetmə üsuluna çox oxşayır. İstəyirdim kitabı elə yazım ki, mənim xalqım da onu oxuyub bəhrələnə bilsin. Məsələ burasındadır ki, Bakıda ən vacib sahələrdə başqa millətlərin və "etniklərin" nümayəndələri işləyirdilər. Onların da hamısının Moskvada öz adamı vardı. Çalışırdılar ki, bir-birlərinin arasına narazılıq salsınlar, bundan öz xeyirlərinə istifadə etsinlər. Rəhbərləri öz aralarında bölüşdürürdülər: kim kimin tərəfindədir. Beləliklə, respublika rəhbərliyinə qarışıqlıq, narazılıq salırdılar. İxtilaflarsa respublikanın inkişafına mane olurdu. Bu üsul ta qədim zamanlardan böyük imperiyaların yerlərdə yeritdiyi siyasətin nəticəsində yaranmışdı.

İmam Daşdəmir oğlu Mustafayev çox hazırlıqlı ziyalı, sanballı, yeniliyə can atan alim, kənd təsərrtifatının bilicisi, eyni zamanda, sənayenin inkişafına ciddi fikir verən dövlət xadimi idi. Nazirlər Sovetinin başında duran Sadıq Hacıyaralı

oğlu Rəhimovsa, işgüzar, qoçaq, bacarıqlı adam olsa da, əgər belə demək mümkündürsə, Anastas İvan oğlu Mikoyanın himayə etdiyi bir adam idi. Xalq təsərrüfatı Şurasına sədr gəlmiş Sabit Ata oğlu Orucov isə çox istedadlı, bacarıqlı, qoçaq adam idi. Nazirlər Sovetinin sədri imkan düşən kimi onu sancır, təhqir edir, işləməyinə mane olurdu.

Mənim onlardan üçünə də — İmam Mustafayevə, Sabit Orucova və Sadıq Rəhimova böyük hörmətim vardı. Onların ətrafında dolaşan sələmçi kapital sahibi olan ermənilər onların arasını vurmağa, birinin yanında o birini gözdən salmağa çalışırdılar. Mən bu üç rəhbər işçi ilə hər dəfə qarşılaşanda deyirdim ki, amandır, qoymayın aranızı vursunlar, onlar sizi bir-birinizdən ayırmaqla respublikanı geri çəkirlər, başladığınız obyektlər yarımçıq qalır, bəzilərini isə hətta söküb başqa yerə aparır, orada quraşdırırlar. Aranızdakı ədavəti yığışdırın. Mən deyirdim - qulaq asan asırdı, qulaq asmayan da yox. Aralarmda elə ziddiyyət yaranmışdı ki, bəzən dediyimi eşitmək belə istəmirdilər."

***

Daha üç il keçdi. Məsələ qəti qoyulub. O, Azərbaycana qayıtmalıdır.

Ona vəzifə təklif olunur; Nazirlər Soveti sədrinin müavini, eyni zamanda, Xalq Nəzarəti Komitəsinin sədri. Mərdümazar vəzifədə işləmək istəmir.

Bir az geri qayıdıb bir az da irəli gedək.

Hələ Moskvaya getməmiş istəmişdilər ki, Kamran müəllimi

Daxili İşlər Naziri təyin etsinlər. Daş atıb başını tutmuşdu. 1980-ci ildə o, Nazirlər Soveti sədrinin müavini vəzifəsindən çıxanda (67 yaşı vardı) ona Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının sədri vəzifəsi təklif olunmuşdu. Niyə? Çünki təşkilatın adında "ticarət" sözü vardı. Aydın görünür ki, böyük kəndli balasının şərəşur işlərdən heç xoşu gəlmirmiş...

Çünki uzun illər bu sahələrdə işləyən insanlar üçün insafı əldən verməmək mümkün olmamışdı. İnsaflı olmaq isə Kamran Hüseynov şəxsiyyətinin təməllərindən biri idi.

**Deyilmişdir**

Yer üzünə gələn bütün vəhylərin bircə tələbi var: mərhəmət!

***

1968-ci il. Novruz bayramına iki gün qalmış, lap dəqiqi, mart ayının 18-də ÜİHİMŞ-in qurultayı olur. Kamran Hüseynov təşkilatın plenum üzvü seçilir. Daha sonra altı katibin adları edilir. Hüseynov yoldaşın adı çıxmayanda salon heyrət içində uğuldayır. Sədr Şelepin həmkarları sakitləşdirə bilmir. Yerdən səslər yüksəlir:

- Bəs yoldaş Hüseynov?
- Bu ədalətsizlikdir!
- Buna yol verməк olmaz.
- Ölkə dərəbəylik deyil ki; biz bu işi belə qoymarıq.

Kamran müəllim adamları sakitləşdirmək üçün kürsüyə qalxmaqdan ayrı bir yol qalmadığının fərqinə varır. Kürsüyə qalxır.

- Hörmətli yoldaşlar, hamınıza minnətdaram. Neçə il bir yerdə işləmişik. Sizdən ayrılmaq mənə də çətindir. Ancaq mən Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə Azərbaycan Nazirlər Sovetinin sədr müavini təyin olunmuşam. Qərarlara əməl etmək borcumuzdur. Bax məni plenum üzvü seçdiniz. Onsuz da amalımız eynidir. Yenə də birgə olacağıq.

O, Bakıya dönəndə RSFSR deputatı olaraq qaldı. Parlament iclaslarında iştirak etmək üçün ən azı ildə iki-üç dəfə Moskvaya getməli olacaqdı. Sonralar Bakıda işlədiyi illərdə məhz Moskvaya gedib-gəlmək fürsəti ona imkan verdi ki, respublika ilə bağlı bir çox məsələləri, necə deyərlər, yerindəcə həll eləsin.

***

Bakıda isə onu kifayət qədər soyuq qarşıladılar.

**Salnamə**

Mayın 3-də Moskvadan məni yüksək səviyyəli rəhbər işçilər çox böyük ehtiramla yola saldılar. Bakıda isə dəmiryolu vağzalında məni qarşılamağa ikicə nəfər gəlmişdi. Nazirlər Soveti İşlər İdarəsinin müdir müavini və xidməti maşınımın sürücüsü Rəhman. Bəs illərlə Moskvadan məni qoparıb gətirməyə çalışanlar necə olmuşdular?

Ailəmi Moskvada qoyub gəlmişdim. Bakıda evim yox idi. İlk günlər MK-nın həyətindəki qonaq evində qalırdım. Sonra anamın Novxanıdakı bağ evinə köçdüm.

**Novxanı. Qızılqaya**

Payızdır. İkinci gündür ki, o, bağ evinin artırmasının sehrinə düşüb. Ötən gün o, doğuluşa, ilkin gün işığına qədərki nəcabət rişələrinə toxunub. Əsli-nəsli kimdi, hardan gəlib, hara gedir, tarixçəsinə toxunub, baş əyərək möhtəşəm Azərbaycan məbədinin içinə girib, bənzərsiz romanını başlamaq üçün "nə etməli", "nədən başlamalı" suallarına cavablar arayıb. Çox gedib, az gedib, dərə-təpə düz gedib, dünya boyda yol gedib, Çərəlidən qopardığı əsrarəngiz yaz fəslini yaydan adladaraq barlı-bəhərli payıza çatdırıb.

Həyətdə payızdır. O da düşüncələrin payızındadır.

Xudaya, payızın da yaz kimi coşğunluğu olurmuş!

Bəzən payızda da tufanlar qopur. İl boyu alın təri axıdaraq can qoyduğun ağacı dəli rüzgar elə kökə salır ki, əlini göyə qaldırıb: "Xudaya, nəydi günahım?" - deyə vaysınmaqdan özgə çıxış yolu qalmır.

Hələ Moskvada ikən Kamran Hüseynov hansısa bir təşəbbüs irəli sürmüşdü. Qrişin onun təklifini çox bəyənmişdi. Bununla bərabər demişdi ki, bütün təşəbbüslər risklidir. Sonra səni ya təltif gözləyir, ya cəza. Neyləyək ki, həyat belədir. Amma, əzizim Kamran, hərəkətindən qalma. Əsas yekundur, sonrası müzakirə üçündür...

Əlli beş yaşlı Kamran 1968-ci ilin yazında Bakı dəmiryol vağzalında soyuq qarşılansa da, heç bir il keçməmiş tale

yenə də onun üzünə güldü. Sadəcə, yüz illər boyunca qarma-qarışıq yollara düşən, əllərdən əllərə keçən Azərbaycanın əsl sahibi gəldi. Qırx beş yaşlı, enerjili, qətiyyətli, yolu aydın bir Azərbaycan vətəndaşı Azərbaycan KP MK-nın birinci katibi seçildi.

Romanda ilk dəfə strukturu pozuruq. Üsluba görə "sözlük" yarımbaşlığı qoyub Heydər Əliyev haqqında məlumat verməliyik. Amma bu böyük şəxsiyyət Azərbaycan xalqının taleyində, eləcə də Kamran Hüseynovun həyatında elə izlər qoyub ki, onun haqqında ayrıca söz açmaq lazım gəlir. Elə buna görə də ulu öndərə həsr olunmuş "Heydər Əliyev adına" kitabımızdan seçilmiş parçaları örnək almağa ehtiyac duyuruq.

***

Heydər Əliyev ötən əsrin 40-50-ci illərindən, yəni çox erkən ictimai mövqeyə sahib olduğu gənclik yaşlarından tarix səhnəsindədir. Bu mənada onun, demək olar ki, bütün şüurlu həyatı xalqa xidmətdə keçmişdir.

Onun fərdi planda məxsusi yanaşdığı şəxsiyyətlərin bir çoxlarının adları cəmiyyətə məlumdur. Bunlar dövlət adamları, şöhrətli əməkçilər, elm, ədəbiyyat, incəsənət, mədəniyyət xadimləri, el-oba ağsaqqalları idilər. Əlbəttə, gərgin, dinamik iş qrafiki olan bir rəhbərin çiyin yoldaşları, silahdaşları, dəyərli insanlarla sıx-sıx görüşüb onlara saatlarla vaxt ayırması mümkün deyildi. Amma bununla belə ictimai fikirdə bir fikir formalaşmışdı: Heydər Əliyev sanki hər gün ölkənin qaymağı sayılan insanlarla bir yerdədir, onların əhatəsindədir. Çünki, bu ləyaqətli adların üstünə Heydər Əliyev özü işıq salırdı,onları ictimaiyyətə təqdim edirdi.

Niyə? Ona görə ki, xalqın icindən çıxmış ağıllı, işgüzar, müdrik insanları ümumən Azərbaycan xalqının kamil bir obrazı olaraq dəyərləndirirdi. Çünki xalqın ən xarakterik cizgiləri, milli qüdrəti bu insanlarda təcəssüm olunurdu.

Lap düzünə qalanda o, bütövlükdə xalqla işləmək, xalqı tərpətmək, arxasınca aparmaq işinin böyük ustası idi. O, xalqı ən möhtəşəm, ən etibarlı dayaq sayırdı. Heydər Əliyevin ziyalı, yaradıcı, əməksevər insanlara bəslədiyi məhəbbət Azərbaycan xalqına bəslənən sonsuz sevginin mükəmməl ifadəsi hesab oluna bilər.

Onun böyük istedadı, tükənməz zəhməti və dərin idrakı ehtiva edən parlaq obrazı nəinki əbədi olaraq xalqın yaddaşına yazılmış, həm də bu obraz xalqın yaddaşını zənginləşdirmişdir. Heydər Əliyev, 30-cu illərdə, ikinci dünya müharibəsinin qan-qadasında, müharibədən sonrakı dövrün aclıq və səfalətində şil-küt olmuş, yarıcan hala düşmüş Azərbaycan insanını sağaldıb böyük gələcəyə inandıran, daim inkişaf edən həyatın bünövrəsini qoymuş bir şəxsiyyətdir. O, tarixi davamiyyəti bərpa etmiş bir dövlət və xalq rəhbəridir. Qurub yaratmaq, böyük iqtisadi, sosial, mədəni proqramların reallaşdırılması konkret əməl göstəriciləri mənasında görünəndir, göz qabağındadır. Amma kim etiraz edə bilər ki, Heydər Əliyev 1969-cu ildən bu günə qədər (hətta müharibə şəraitinin doğurduğu əngəllərə baxmayaraq) Azərbaycanda davam edən dərin, genişşaxəli inkişaf prosesinə nail olmaq üçün məhz xalqın özünü özünə tanıtmışdır. Heydər Əliyev kasıb bir ölkənin fagır, müti insanlarını varlı məmləkətin işgüzar vətəndaşlarına çevirməyi bacarmışdır!

Azərbaycan xalqının ləyaqətli yaddaşının əhəmiyyətli hissəsi Heydər Əliyevlə bağlıdır. Bu yaddaşda onun yerini heç kim əvəz edə bilməz. Və heç kim Heydər Əliyevin böyük adını xalqın böyük ürəyindən qoparıb ata bilməz...

Tarixdə, həqiqətən də, bəxti olan günlər, bəlkə də, həftələr, aylar, illər var. Fərdi mənada, yəqin ki, hər kəs özünün dünyaya göz açdığı günü (bəlkə, aşiq olduğu gün, bəlkə də, həyatda ciddi bir uğura imza atdığı gün...) daha şanslı sayardı. Di gəl dövranın beşiyinə elə nəhəng insanlar doğulmuşlar ki, onların həyatı milyonların həyatında iz buraxmış, məhz ondan milyonlarla üzlərə işıq, nur zərrələri səpələnmişdir. Əlbəttə, belə bir bəxtəvər gün olaraq 1923-cü il may ayının 23-nü də götürmək olardı.

Amma tarix vaxtında yaranır, onu irəli aparmaq və yaxud geri çəkmək qeyri-mümkündür.İndiki məqamda 1969-cu il 15 iyul tarixini xüsusi qeyd etmək yerinə düşür. Müasir Azərbaycan tarixində bu günün xüsusi əhəmiyyəti var.

Bir oğlan uşağı, Azərbaycan torpağının Əshabi-kəf, Əcəmi, Əlincə yaddaşlı məkanında ötən əsrin ilk qərinəsində zəhmətsevər, daim ağıl, elm işığına can atan bir ailədə doğulur, hami kimi böyüyür... Buna qədər isə azərbaycanlılar tarixin növbəti dəhşətini yaşamışdılar. Onun  ailəsi də daxil olmaqla camaat, indi Ermənistan adlanan tarixi türk torpaqlarından didərgin salınmış, insanlar məhz türk olduqlarına görə olmazın zülmə məruz qalmışdılar. Ordan ayaq açan köçün bir qisminə qədim Naxçıvan qucaq açmışdı.

Heydər Əliyev ermənilər tərəfindən nəsli-nəcabətinin başına gətirilən müsibətlərdən sonra xəbər tutacaqdı. Çünki

bu zülm baş verəndə anadan olmamışdı. Bu barədə dönə-dönə yazılıb. Sonradan tutduğu əməllər müqabilində insanın adı hansı ləyaqət zirvəsinə yüksəlsə də, insan bütün uğurları ilə valideyninin adınadır...

15 iyul 1969-cu il... təkrar xatırlanan bu tarixə qədər 46 yaşlı Heydər Əliyev dövrünün düşüncəli, qarşısına məqsəd qoyan gənc, enerjili insanlarından biri olaraq diqqətəlayiq yol keçmişdi. 13 yaşında Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuş (1936-cı il), 15 yaşında bu məktəbi bitirərək orta ixtisas təhsilinə yiyələnmiş (1938-ci il), 1938-ci ildən 1941-ci ilə qədər Sənaye İnstitutunun (indiki Neft Akademiyasının) tələbəsi olmuşdu.1941-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarları Sovetində məxfi arxiv şöbəsinin müdiri təyin olunanda Heydər Əliyevin 18 yaşı vardı. 20 yaşında onu Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri təyin etdilər.

Sov.İKP sıralarına qəbul olunanda (1945-ci il) onun 22 yaşı vardı. Dövlət təhlükəsizliyi orqanlarında əməliyyat müvəkkili, Leninqradda təhsil, ADU-da tarix fakültəsində təhsil, Respublika DTK-da sahə rəisi, şöbə rəisi, sədr müavini, nəhayət, DTK-ya sədr təyin olundu. Bu ardıcıllıqla təhsil və vəzifə pillələrini aşmaq üçün Heydər Əliyevə 23 illik vaxt ərzində çalışmaq, adı sıralanan sahələrdə ən mürəkkəb tapşırıqları yerinə yetirmək lazım gəlmişdi. Şəxsi planda da yenilikər vardi; həqiqətən də, kişi fədakarlığından sonra görkəmli elm və dövlət xadimi Əziz Əliyevin qızı Zərifə Əliyeva ilə ailə qurmuş, 1955-ci ildə Sevil xanım, 1961-cı ildə isə Heydər Əliyev ideyalarının davamçısı, Azərbaycanın indiki prezidenti İlham Əliyev anadan olmuşdu.

Və nəhayət, 15 iyul 1969-cu il... Günün bəxti... Bu gün həm də Azərbaycanın bəxtidir. Bu günə gələn yol, Heydər Əliyevin böyüyüb boya-başa çatdığı mühit, onun yaxın ətrafı haqqında məlumat verirdi. Ən yüksək dövlət vəzifəsinə yetişəndə Heydər Əliyevin 46 yaşı var idi. Bu, bəlkə də, ömrün ən gur çağıdır... Heydər Əliyev şəxsiyyəti gəncliklə cavanlığın arasındakı yaşa məna verməyi bacardı. O sübut etdi ki, aydın məqsəd müəyyən edərək, xalqa xidmət amalına söykənərək hakimiyyətə yiyələnmək, ətini tikə-tikə, qanını damla-damla öz vətəninin boyartımına sərf etmək mümkündür. Belə bir amaldan insanı heç bir qüvvə saxlaya bilməz.

Heydər Əliyev şəxsiyyətinin ərsəyə gəlməsində ailə faktoru qeyd olundu. Amma bu yetərli deyil. Yəqin ki, dolu yaşantılar içərisində formalaşan bir şəxsiyyətin üzünü görmək, boynunu qucaqlayıb ona "xoş gəldin" demək ailə üçün də hər an ələdüşməyən fürsət olmuşdu. Avtobioqrafiyadan belə görünür ki, o lap gənc yaşlarından saysız-hesabsız insanlarla görüşmüş, onların problemlərini həll etmiş, ad qazanmışdı. "Dədə Qorqud" dastanında deyildiyi kimi 15 yaşına yetib, hünər göstərib ad almışdı. Sonralar Heydər Əliyev özü yaşa dolanda hansısa ahıl bir insana yaxınlaşıb: - "Mən səni tanıyıram, sən filankəssən, işin bu, övladın bu"... Heydər Əliyev keçmişinə dəyər verən, keçmişindən güc alan insan idi. O, keçmişi bu günə gətirməyin, eyni zamanda bu gündə dayanıb keçmişlə gələcək arasında körpü salmağın həyat davamiyyətinin ən mükəmməl modeli olduğunu bilir və bunu, özü demişkən, edirdi... Bir qədər irəlidə belə bir cümlə oxudunuz: "Sov.İKP sıralarına qəbul ol-

unanda (1945-ci il) onun 22 yaşı vardı"... İndiki nəsillər bilsin və düzgün yanaşsın deyə Azərbaycan vətəndaşı və yaxud SSRİ-yə daxil digər 15 ölkənin vətəndaşının "kommunist" olmağı, ölkələr azadlığa qovuşduqdan sonra "kommunist"lərin qınaq obyektinə çevrilməyi məsələsinə çoxdan baxılmalı, indiki nəsillərə aydın bir arayış təqdim edilməli idi.

Məlumdur ki, kommunizm ideyası XIX əsrdə ingilis siyasi iqtisadçıları, fransız utopik sosialistləri, alman dialektik materializmi formasında meydana çıxaraq, Rusiyada Leninin rəhbərliyi ilə baş verən inqilablar nəticəsində sosializmin qələbəsi ilə sonuclanmış, məhz kommunizm ideyasının ideoloji təpkisi ilə Rusiya dövləti müəyyən zaman fərqləri ilə digər 14 dövləti SSRİ-nin keçilməz çəpərləri arasına almış, Şərqi Avropanın Yuqoslaviya, Bolqarıstan,Çexoslovakiya, Şərqi Almaniya, Rumıniya, Macarıstanı təsir dairəsinə daxil etmişdi. Sistem 1917-ci ildən 1992-ci ilə qədər davam gətirə bildi. İnsanlara xoşbəxtlik, dünya proletariatına qardaşlıq vəd edən kommunizm əslində böyük imperialist marağı güdməklə təsiri altında olan ölkələri talamaq niyyətini heç gizlətmirdi də... Kommunistlər hakimiyyətdə idilər. Həqiqətənmi kommunistlər? Söhbət bu siyasi mənsubiyyətə aid olan milyonlarla insandan gedir.

Bəlkə də, 1920-50-ci illərə qədər ideyaya fanatikcəsinə inananlar olmuşdu. SSRİ-nin çökməsinə qədərki son qırx ildə isə böyük əksəriyyət partiya sıralarına ona görə daxil olurdular ki, karyera qura bilsinlər, yaşayış minimumunu təmin etsinlər, sosializm qazanından, heç olmasa, bir çömçə pay qoparsınlar. Həqiqət belə idi. Kommunist partiyasının üzvlük

bileti mütəxəssis diplomundan daha dəyərli və gərəkli idi. Belə bir imtiyaz partiya sıralarına daxil olmaq üçün dəridən-qabıqdan çıxmağa vadar edirdi. Kommunistlik kütləviləşirdi. Bu, ictimai siyasi mühitin anormallığından törəyirdi. Dövrün elmi, ədəbi-bədii əsərlərində kommunizm ideyasının təriflənib göylərə qaldırılması, saxtakarlıq və sünilik ironik dərəcədə üzdə idi.

İnsanların kommunizmə az qala dini inam qədər bağlılığını iddia edənlər yanılırlar. Sonralar iki dönəm Azərbaycan dövlətinə rəhbərlik edən Heydər Əliyev kommunizmin tarixi mahiyyətini hamıdan dəqiq anlayır, öz xalqını dünyanı dəhşətə gətirən bu fəlakətdən hifz etmək üçün mühüm bir bölgədə tarixi missiyasını ustalıqla yerinə yetirirdi. Belə bir fürsət Heydər Əliyevə ötən əsrin 60-cı illərində nəsib olmuşdu və bütün əsr boyunca davam elədi.

Öz xalqının başına açılan musibətlərdən yaxşı xəbərdar olan, millətin dircəlişini ən başlıca məqsəd secən Heydər Əliyev Sovet sisteminin hava keçirməyən sərt divarları arasında mövcud vəziyyəti dərindən və aydın şəkildə dəyərləndirən böyük siyasətin pillələrinə qədəm qoydu. Heydər Əliyevin rəhbər şəxsiyyətinin cəmiyyət tərəfindən qəbul olunması özünü çox gözlətmədi: məhz onun rəhbər şəxsiyyəti fonunda xalq başa düşdü ki, qədim Azərbaycan həyatının başqa bir dövrü başlayır. O, elə bundan başladı, məhz xalqı səfərbər edə bilən nöqtələrə işıq saldı. Bəlkə, bir qədər şüar kimi səslənir, amma, həqiqətən də, Heydər Əliyevin dövlət rəhbəri olaraq qəbul etdiyi qərarlar insanların ürəyindən xəbər verirdi. Həmin dövrdə kasıb Azərbaycanda

başlıca məsələ həyatın iqtisadi təminatı ilə bağlı idi. İqtisadiyyat olmadan başqa sahələrin inkişafından, şübhəsiz ki, söhbət gedə bilməzdi. Heydər Əliyev tərəfindən 70-ci illərdə başlanan geniş miqyaslı islahatlar 80-ci illərin ortalarına qədər və həmişə də artan templə həyata keçirildi. Başlıca təsərrüfat ukladları kollektiv birliklər, zavodlar və fabriklər iqtisadi qüdrəti artıran saysız-hesabsız uğurlara imza atdılar.

Heydər Əliyevin uğurlarını təmin edən olduqca həssas bir məqam da var, bu, mövcud imkan və şəraitdən xalq üçün istifadə etmək fəhmidir. O, sovet ideoloji metodunu xalqın xeyrinə dəyişə bildi. Zahirən belə görünürdü ki, rəhbər Moskvadan gələn qərar və göstərişləri, hətta Moskvanın tələb etdiyindən də artıq dərəcədə icra edir. Amma bu böyük şərin icində xalqın xeyrini əldə etmək Heydər Əliyevin kəşfidir. O, Azərbaycanı varlandırdı, iqtisadi imkanları təmin etdi, hər kəsin təknəsinə bir parça çörək verdi.

Və ən azı keçmiş Sovet postməkanına diqtə etdi ki, Azərbaycan xalqı böyük tarixə malik, istedadlı xalqdır. Azərbaycan bütün iqtisadi, mənəvi, mədəni varlığı ilə dünyanı zənginləşdirən bir məkandır.

Bu, asan iş deyil.

Heydər Əliyev Azərbaycanı dünyada tanıdana qədər xalqın özünü özünə tanıdan bir dahidir. Əlbəttə, Azərbaycan ərazi, əhali mənasında dünyanın balaca bir hissəsidir. Dünya Azərbaycansız da ötüşə bilər. Heydər Əliyev isə: "dünya Azərbaycansız natamamdır", dedi və balaca bir ərazidə böyük dövlətlərin maraq dairəsinə daxil olan sivil bir məmləkət yaratdı.

Çünki o, böyük həqiqəti bilirdi. O bilirdi ki, Azərbaycan ərazisi əcdadlarımızın yurdudur. Bu balaca torpaq bəşəriyyətin yaranışında rol oynayıb. O bilirdi ki, ən qədim insanların müəyyən bir qismi Azıx mağarasından çıxıb. Azərbaycandan bəşəriyyətə Qobustan yazıları, Quruçay mədəniyyəti ərməğandır. Qadın şərəfinə Möminə xatun, Qız Qalası türbələri bu məmləkətdədir. Bu torpaqda Yanardağın milyon illər boyu dilim-dilim qalxan alovlarının işığına Atəşgahın ruhani şölələri qovuşur. Bu xalq atalar sözləri, bayatılar, muğamat, xalçalar yaradıb. Dədə Qorqud, Əsli və Kərəm, Abbas və Gülgəz, Dirili Qurbani, Koroğlu, Qaçaq Nəbi adıyla dastanlar, eposlar yaradıb.

Bu xalq böyük Turanın, indiki anlamda qüdrətli türk dünyasının bir parçasıdır. Bu insanlar böyük Yaradanın ən doğru yolunda olan İslam düşüncəsinə məxsusdurlar.

Rəhbərin məhz bu şəkildə doğru yanaşması Azərbaycan və azərbaycanlı anlayışına özünütəsdiq imkanı verdi.

...Heydər Əliyev bütün bunları anlatmaq üçün gündəlik iş, təsərrufat məsələlərini yoluna qoymaqla yanaşı uzaq məqsədləri, prosesin daimiliyini təmin edən insan və xalq faktorunu üstqurum halına gətirdi. O, cəmiyyətə sərraf gözü ilə baxdı. Milli mənəvi şüurun səfərbərliyi sovet rejiminə tab gətirməyin, üstəlik bir toplum, millət, xalq olaraq boy atmağın yeganə yolu ola bilərdi. Belə də oldu.

Allah deyir: səndən hərəkət, məndən bərəkət. Heydər Əliyev zəhmətkeş ailədə böyümüş və özü də yeniyetməliyindən böyük zəhmətə qatlaşaraq vəzifə pilləsinin ən uca nöqtəsinə yetmişdi. O, yaxşı bilirdi ki, zəhmətkeşlik azərbaycanlı

ailəsinin üstün, bəlkə də, ən əsas milli xüsusiyyətidir. Bu, xalqa Allahın ən böyük lütfüdür. Eyni zamanda zəhmət çəkmək, halal əməklə gün-güzəran qurmaq millətə qan yaddaşı ilə əvvəlki nəsillərin ənənəsi kimi ötürülür.

Saysız-hesabsız müəssisələr, komplekslər, irili-xırdalı fabriklər, zavodlar yaradıldı, abadlıq işlərinə başlandı. Borc icində boğulan, illərlə bir manat əmək haqqı bölə bilməyən kolxozlar, sovxozlar cana gəldi, varlandı. Qazancı artan insanlar bütün ölkə boyu özlərinə ikimərtəbəli, yaraşıqlı evlər tikdilər. Dövlət şəhər, qəsəbə və kəndlərdə yeni məktəblər, mədəniyyət sarayları, xəstəxanalar inşa edirdi.

Əlbəttə, rəhbər 8 milyon insanın hamısı ilə fərdi qaydada görüşə bilməzdi. Azərbaycanın simasını dəyişən işlərin miqyası artdıqca Heydər Əliyev xalqla mətbuatda, iclas salonlarında, hər bir bölgəyə ayrıca təşkil olunan səfərlərdə sıx-sıx görüşməyə başladı. Bununla yanaşı, o, hər dövrdə olduğu kimi rəhbərliyinin ilk illərində də kadrlarının seçilib yerləşdirilməsinə xüsusi əhəmiyyət verirdi. O, yalnız kadrları seçməklə kifayətlənmir, onların yetişməsi üçün qayğı göstərir, müəssisə, təsərrüfat rəhbərlərinin, dövlət qulluqçularının bütün potensialını üzə çıxarmaqla cəmiyyətə işgüzar insanların böyük bir ordusunu təqdim edib tanıdırdı. Kadrların qazandıqları ali təhsil diplomu öz yerində, onlar həm də Heydər Əliyev məktəbindən keçib bərkiyirdilər. Bununla kifayətlənməyən Ulu öndər cəmiyyətə gələcəyin gəncliyə məxsus olduğunu anladır, hər il yüzlərlə yeni nəsil nümayəndəsini dünyanın nüfuzlu ali məktəblərinə göndərirdi, onları dövlət hesabına oxudurdu. Həmin ənənə bu gün

də dövlətin təhsil siyasətinin ən səmərəli qollarından biri kimi davam etdirilir.

Bir sözlə, Heydər Əliyev insanı cəmiyyətin gözündə ucaldan bütün keyfiyyətlərə malik idi. Ona görə də o, ağıllı, işgüzar, istedadlı insanları millətin ən dəyərli sərvəti, xalqın qızıl fondu sayırdı. İstər əmək adamı olsun, istər alim olsun, istər yazıçı-şair, istər incəsənət xadimi... Ümummilli lider ləyaqətli insanların hər birinə dərin ehtiram bəsləyir, onların əməyini vətənin ən şərəfli təltifləriylə qiymətləndirirdi.

Heydər Əliyev ana dilində çox rəvan danışırdı, bu, öz yerində, amma rusun dilini də yaxşi bilirdi. Başqa yol yox idi. Yarımmüstəqil Azərbaycanın bir çox məsələlərini həll etmək üçün bəzən günlərlə danışıqlar, yazışmalar aparmalı və ən adi məsələlərə görə Moskvanın razılığını almalı olurdu. Moskva Heydər Əliyevin ona qədər Azərbaycana rəhbərlik etmiş şəxslərə, hətta digər müttəfiq respublikaların birinci katiblərinə bənzəmədiyinin fərqində idi. Ümumi partiya prinsipləri Moskvanın istəyib-istəməməsindən asılı olmayaraq Heydər Əliyevin yolunu elə hey yüksəklərə çəkib aparırdı. Budur, Azərbaycana rəhbərlik elədiyinin ikinci ilində ilk dəfə Sov.İKP MK üzvü seçildi. Bu seçim partiyanın sonrakı üç qurultayında da təkrarlandı. 1976-cı ildə o, Sov.İKP MK siyasi bürosunun üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi büro üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Buna qədər görkəmli dövlət və siyasət xadimi Heydər Əliyev iki dəfə keçmiş SSRİ-nin ən yuksək mükafatına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

Və 1970-ci ildən başlayaraq 1987-ci ilə kimi, onlarla,

yüzlərlə, minlərlə azərbaycanlı istehsalat, elm, mədəniyyət sahələrində fərqləndiyinə görə, məhz Heydər Əliyevin şəxsi dəstəyi, təşkilatçılığı ilə Sosialist Əməyi Qəhrəmanı adına, dövlət mükafatlarına, orden və medallara layiq görulmüşdülər.

Heydər Əliyev ömrünün mərhələlərini təsnifləşdirmək məqsədini yalnız cəhd adlandırmaq olar. Niyə? Ən azı ona görə ki, Ulu öndər bütün mərhələləri - təhsil, iş, vəzifə irəliləyişləri, ailə məsələləri daxil olmaqla bütöv bir ömür yaşamışdır. Bu həyat şüurlu, dərrakəli, mərdanə, ən əsası xalqa bağlı bir ömürdür. Bu ömrün yeganə bir mənası var: ən çətin vəzifələrin öhdəsindən gələrək Azərbaycanı yüksəltmək, hər kəsin rahat yaşadığı hər cəhətdən zəngin bir dövlət qurmaq. Təsəvvür edin, bu adamın həyatının uşaqlıq, yeniyetməlik dövrü sanki şərtidir. 18 yaşında Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarları Sovetində arxiv şöbəsinin müdiri vəzifəsini tutan bir insanın azad, əyləncələrdə kecən yeniyetməliyindən danışmağa yer qalmır axı!

Bununla belə təsnifat aparmaq cəhdləri olub və bundan sonra da olacaq. 1923-cü ildən 1945-ci ilə qədər Heydər Əliyevin erkən yetkinlik dövrüdür. 1945-65-ci illərdə Ulu öndərin həyatı püxtələşməyə, təcrübələrə yiyələnməyə, insanlarla daimi təmaslara həsr olunmuşdur. Əmək kitabçasına yazılan vəzifə adları əsasən bir qurumu əhatə etsə də, yüksələn xətlə dəyişirdi... 1965-69-cu illərdə o, dövlət təmsilçisi olaraq ölkədə əsas söz sahiblərindən birinə çevrilir. Əvvəl DTK-da sədr müavini, bir qədər keçmiş sədr təyin olunur. 1969-1982-ci illərdə Azərbaycanda aparılan möhtəşəm quruculuq işləri siyasi, iqtisadi, sosial, mədəni, mənəvi, in-

tellektual sahələri tam əhatə edirdi və Ulu öndərin yorulmaz fəaliyyəti sayəsində reallığa çevrilirdi. 1982-87-ci illərdə o, dünyaya hökm eləyən Sovetlər İttifaqının rəhbərlərindən biri oldu. Ona qədər qeyri-rus millətindən bir kimsə bu məqama yüksələ bilməmişdi.

1987-90-cı illərdə SSRİ məkanında, o cümlədən Azərbaycanda qarışıq, anlaşılmaz bir zaman kəsiyi qabarır. Heydər Əliyev Sovet rəhbərliyindən istefa verib. Az sonra o, kommunist partiyasının xalqların öz varlıqlarını ifadə etmələrinə əngəl olduğunu deyəcək. Xalqlar azad olmaq, öz milli varlıqlarının içində yaşayıb boy atmaq üçün küçələrə, meydanlara axışır. Tarixi şərait SSRİ-nin ömrünün boşa çıxdığını diqtə edir. Heydər Əliyevin Azərbaycana yönəlik bütün yollarını bağlayıblar.

O, mübhəm, nəhəng Moskvadan canı qədər sevdiyi xalqının düçar olduğu çıxılmazlığı görürdü. Amma hadisələrə birbaşa müdaxilə imkanları Sovet rəhbərliyi tərəfindən amansızcasına məhdudlaşdırılmışdı. Heydər Əliyevi total bir şəkildə təkləmək üçün arsenaldakı bütün vasitələr səfərbər edilmişdi. On illər boyu qazandığı uğurlarda, həyata keçirdiyi iqtisadi islahatlarda, qurub yaratdıqlarında kriminal axtarırdılar.

Ötən əsrin 50-80-ci illərinin Heydər Əliyevə məxsus hissəsində, şəxsi planda qeydə alınması labüd hadisələr baş vermişdi ki, həmin hadisələr layiqli ömür yolu seçən insanın həyatını bütövləşdirir.

1954-cü ildə çoxdan sevdiyi, lakin siyasi mühitin təpkisi səbəbindən qovuşa bilmədiyi elitar bir qızla ailə həyatı qurdu. Ömür-gün yoldaşı o dövrün görkəmli dövlət və elm xadimi,

həkim Əziz Əliyevin qızı Zərifə xanım idi. Ulu öndər ailə qurana kimi çəkdiyi çətinlikləri şəxsən danışıb. Bu iki gəncin sevgisi, həqiqətən də, əsl məhəbbət haqqında dastandır. Təhlukəsizlik orqanı əməkdaşının dövlətin ən yuxarı pilləsində oturan şəxsin rəyi ilə arzuolunmaz sayılan adamın qızını sevməsi, onunla ailə qurmaq istəyi yolverilməz idi. Lakin böyük məhəbbətin qarşısında ən qorxunc maneələr də acizdir. Məhz 50-80-ci illərdə həyatı bir tavan altında davam edən ailənin ən böyük sevinci övladların doğulması ilə baglıdır. 1955-ci ildə Sevil xanım, 1961-ci ildə oğlanları İlham dünyaya gəldi.

Həyat yoldaşı və uşaqları xüsusi rejimli həyat yaşayan atanın evinin istiliyi, işığı, dincliyi, bəxtiyarlığı idi. Heydər Əliyev necə ki, xalqından, inandığı ətrafından, elindən, obasından güc alırdı, eləcə də ailəsi ona fərəh və enerji verirdi.

Sovet imperiyası öz xislətinə, xarakterinə, məkr və xəyanətinə sadiq qalaraq Heydər Əliyevin karyerasının üstündən xətt çəkəndən iki il qabaq daha bir ağır, kədərli hadisə də baş vermişdi. 1985-ci ildə istedadlı alim, göz həkimi, gözəl insan, ana Vətənin ləyaqətli övladı Zərifə Əliyeva dünyasını dəyişmişdi. Ən azı buna görə 1985-90-cı illər Ulu öndərin həyatının ən gərgin dövrü hesab olunmalıdır. Həyat yoldaşının ölümü, tutduğu yuksək vəzifələrdən istefa, SSRİ-nin çökməyə başlaması, kommunist platformasının darmadağın olması, üstəlik Azərbaycandan gələn xəbərlər, hətta fiziki baxımdan salamat qalmaq üçün insandan böyük dözüm istəyirdi.

Ən böyük ədalətsizlik Heydər Əliyevi doğma xalqından,

Vətənindən təcrid etmək, təkləmək və bu yolla onun fiziki yoxluğunu tezləşdirmək can verən imperiyanın planında yer almış və elə açıq şəkildə icra olunurdu ki, sanki, Heydər Əliyev aradan götürülsə, imperiya xilas ediləcək.

1987-ci ildə Ermənistan ərazisində yaşayan 200 mindən çox azərbaycanlı öldürülmüş, döyülmüş, yandırılmaqla ağıla gələn və gəlməyən hər sayaq zorakı üsullarla qədim ata-baba torpağından qovulanda,  Dağlıq Qarabağı seperatizm çağırışları bürüyəndə hər yerdən ümidi kəsilən insanlar - azərbaycanlılar dönə-dönə etiraf edirdilər ki, əgər Heydər Əliyev vəzifəsində qalıb öz hökmünə sahib olsaydı, ermənilər bu cəsarəti etməz, bir azərbaycanlı istər Ermənistandan, istər Dağlıq Qarabağdakı torpağından çıxmaz, erməni dığaları "müvafiq qaydada" cəzalarını alardılar.

Ümumxalq istəyini söndurmək mümkünsüz bir işdi. Lakin buna baxmayaraq SSRİ rəhbərliyi Azərbaycandakı maraqlı qüvvələri cəlb etməklə bir neçə il ərzində Heydər Əliyevi nüfuzdan salmaq kampaniyası apardı. O, sarsılmadı...

Dərin ağlını işə saldı...

Xalqın müdafiəsinə arxalandı.

1990-cı ilin yanvarında Azərbaycan xalqının başına müsibət gəldi.

Ağır texnika ilə silahlanmış imperiya qoşunları yüzlərlə insanı güllələdi, tankın tırtılları altına aldı və Bakını işğal etdi. Dəhşətli yanvar faciəsindən sonra şəhid olanların şəhid olduğu, sağ qalanların sanki yoxa çıxdığı qorxunc bir gündə Heydər Əliyev sağlıq durumundakı problemlərə baxmayaraq, Moskvada Azərbaycan nümayəndəliyinə gəldi və bütün

dünyaya müstəqillik istəyən bir xalqın başına gətirilənləri dünyanın hər qitəsinə yetişən bir harayla çatdırdı.

Həmin ilin iyun ayında fədakarlıq nəticəsində Bakıya qayıda bilən liderin həyatının heç Moskvadakından da asan olmayan, yeni, gərgin bir dövrü başladı. Bakıda soyuq vicdanlara hərarət vermək üçün çıxışlar etdi, nitqlər söylədi. Doğma Naxçıvan Ulu öndərə qucaq açdı. 90-cı ilin sentyabrında Azərbaycan və Naxçıvan Ali Sovetlərinə deputat seçildi. Naxçıvan MSSR Ali Məclisinin sədri oldu. Yeni Azərbaycan Partiyasını yaradıb ona rəhbərlik etməyə başladı. 1993- cü ilin iyun ayının 10-da Azərbaycanda yaranmış ağır durumu nizama salmaq üçün Bakıya dəvət olundu.

Ulu öndər ölkənin taleyüklü məsələsi ilə, demək olar ki, təkbətək qaldı. Lakin böyük siyasi iradə, zəngin təcrübə, insanlarla işləmək, onları səfərbər etmək bacarığı, qətiyyət öz sözünü dedi.

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyevə Respublika Prezidentinin səlahiyyətini icra etmək də tapşırıldı. Həmin il oktyabr ayının 3-də xalq onun prezidentliyinə yekdilliklə səs verdi.

Bu vaxt böyük həyat, mübarizələr yolu keçən Heydər Əliyev 70 yaşında idi. 70 ilin zirvəsinə yenə də qələbə ilə yetişmişdi. Onu bu qələbəyə qətiyyətlə atdığı bir neçə addım çatdırmışdı. Bu addımlar nəticəsində o;

1. Moskvanın məhz onun üçün illərdən bəri hörüb hazırladığı qorxunc qəfəsi parçaladı.

2. Xalqı əzilərkən heç nədən qorxub çəkinmədən Azərbaycan nümayəndəliyinə gələrək Qorbaçovun və onun

komandasının ədalətsiz siyasətini kəskin lənətləyərək, imperiyanın vəhşi niyyətini ittiham etdi.

3. Mövcud vəziyyətdə Azərbaycanı fəlakətlər gözlədiyini yəqinləşdirdi və təqaüdçü kimi qalmaq yox, hakimiyyətə gəlmək qərarı verdi. Xalq Heydər Əliyevin bu qərarını dəstəklədi, ona xilaskar kimi baxdı.

4. Mürəkkəb siyasi gedişlərdən, böyük dövlətlərin maraqlarından məharətlə baş çıxararaq "Əsrin Müqaviləsi"ni imzaladı.

5. Atəşkəsə nail oldu. Buna qədər isə hər gün cəbhə xəttindən yüzlərlə vətən oğlunun şəhid bədəni, yaralı gətirilir, insanlar əlli-ayaqlı itir, girov götürülürdü.

6. Ölkədə iki dəfə baş qaldıran vətəndaş qarşıdurmasının qarşısını aldı. İki-üç ilin içində baş verən bu düşünülmüş tədbirlərdən sonra Azərbaycanda dövlətçilik möhkəmləndi; müstəqillik daimi, dinamik bir prosesə çevrildi.

Heydər Əliyevin arzularının, planlaşdırdığı böyük inkişafın sonrakı illərdə yüksələn xətlə gedib bu gün dünyada Azərbaycan intihabına səbəb olması sözün tam mənasında Ulu öndərin düzgün seçimi ilə də bağlı olmuşdur. Heydər Əliyev millətin tərəqqisi üçün ideyalar düşünən və bu ideyaları millətin dəstəyi ilə icra edən siyasət ustadı, böyük dövlət xadimidir. Dahi rəhbərin ideyaları nə qədər yeni və irəliyə istiqamətlənmiş olsa da, onlar heç zaman ənənələrdən qopmamış, özündən əvvəlki səmərəli təcrübələri ehtiva etmişdir. Ulu öndərin ideyalarına fəlsəfi fikirlər toplusu olan nəzəriyyə kimi baxmaq düzgün deyil, onları aydın düşüncə və əməl, normativ iş, yorulmaz zəhmət birlikdə yaratmışdır.

Azərbaycan Respublikasının gənc prezidenti (artıq o üçüncü beşillikdir ki, ölkəyə rəhbərlik edir) İlham Əliyevin də uğurlarının leytmotivini, hərəkətverici amilini Əliyevçilik təşkil edir. Haqlı olaraq o, hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı seçiləndə bəyan etdi ki, bizim yolumuz Heydər Əliyevin yoludur.

Heydər Əliyev silahdaşlarına, Azərbaycan hakimiyyətinə və xalqına məxsus olan son müraciətlərində İlham Əliyevə özü qədər inandığını bildirir və onun yarımçıq qalan arzularının, işlərinin İlham Əliyev tərəfindən yerinə yetirilməsinə sonsuz inamını ifadə edirdi. İnsanlar bilirdi ki, Heydər Əliyev elə-belə söz deməz. Onun hər bir kəlməsinin etibarlı, dözümlü və sınanmış əsasları var.

Heydər Əliyevin başladığı və 30 ildən çox davam edən xalq mücadiləsi, siyasi, iqtisadi, sosial, mədəni-mənəvi istiqamətdə apardığı islahatlardan sonra yeni rəhbər hansı yeniliklərə imza ata bilərdi? Hansı məsələlərin həlli önə çıxarılmalı olacaq? Həyata keçirilən tədbirlərin tempi, yanaşma üsulları dəyişməz qalacaqmı? Etiraf etmək lazımdır ki, bir sıra gözləntilər var idi və mənzərə tam təsəvvür olunmurdu.

O isə dahi siyasətçi, azərbaycanlı adını bütün dünyaya tanıdan ata Əliyevin, eləcə də xalqın inamını doğruldaraq Azərbaycan məmləkətində intibah yaratdı. Heydər Əliyevdən sonra yalnız bir vəziyyət – intibah insanları razı sala bilərdi.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin özül daşlarını, müstəqilliyin vətəndaş və dövlət üçün sərvət olduğunu bəyan etdi.

İlham Əliyev isə kifayət qədər sabitləşən ictimai-siyasi, iqtisadi-sosial faktorlara arxalanaraq gəncləşən, boy atan, bütün dünya tərəfindən rəğbət bəslənən Azərbaycanı təqdim etdi.

***

Heydər Əliyevin Azərbaycanda apardığı qlobal yeniləşmənin iki dövrü var, buna uyğun olaraq Kamran Hüseynov da bütün xalqımızla bərabər bu iki mərhələdən keçmiş, ulu öndərin ideyalarının yanında olmuşdu.

Birinci mərhələdə o, 1969-cu ildən 1982-ci ilə kimi – 13 il Heydər Əliyevlə çiyin-çiyinə çalışdı. Bura qədər lokal məkanlarda – Sumqayıtda, Binəqədidə, Mingəçevirdə, Neftçalada quruculuq işlərinə rəhbərlik edən, Moskvada Ümumittifaq Həmkarlar təşkilatında tarixi missiyanı yerinə yetirən Kamran müəllim Heydər Əliyevin rəhbərliyinin yeni dövrdə də Azərbaycanın yüksəlişinə imza atan şəxsiyyətlərdən biri oldu...

O, Nazirlər Sovetində elm, mədəniyyət, maarif, səhiyyə sahələrinin inkişafına cavabdeh şəxs idi. Həmin dövrdə gördüyü hər bir işin tapşırığını respublikanın birinci katibindən alır, düşündüyü layihələrə Heydər Əliyev xeyir-dua verirdi.

Xidmətlərin ən alisi vətənə xidmətdir. O, vətənə xidmət edirdi. Kamran müəllim elə o vaxt da özünü xoşbəxt saya bilərdi. Nə qədər işlər görüldü, hamısı da xalq üçün, vətən üçün, insanlar üçün!

***

Telefon zəng çaldı. Dəstəyi qaldırdı. Şair Rəsul Rza idi. Görüş istəyirdi.

Kamran müəllim onu hərarətlə salamlayıb dedi:

- Rəsul müəllim, nə zaman vaxtınız varsa, gələ bilərsiniz, mən sizin qulluğunuzda hazır...

Şair qəbula gəldi. Həmin vaxt Rəsul Rza Azərbaycan

Ensiklopediyasının rəhbəri idi. İlk xahiş dünyadan vaxtsız köçmüş şair Əli Kərimin Göyçaydakı məzarının üstünün götürülməsi ilə bağlıydı.

Kamran Hüseynov Rəsul Rzanın yanındaca Göyçay rayon rəhbərliyinə telefon açdı. Məsələnin dövlət marağında olduğunu, hər hansı bir kömək lazım olarsa, göstəriləcəyini dedi.

- Kamran müəllim, - şair dedi, - mən sizi Ensiklopediyanın binasına baxmağa dəvət edirəm. Bu elmi təşkilat sivizlizasiya yolunu tutan hər bir xalqın həyatında çox vacib sahədir. Amma vəziyyətimiz heç yaxşı deyil. Nə zaman gələ bilərsiniz?

- Elə indi, gedək, baxaq.

...Həqiqətən də Ensiklopediyanın iş, bina şəraiti dözülməz idi. Orada heç bir yenidənqurmadan söhbət gedə bilməzdi. Daha geniş bina ayrılmalı, ya da yenisi tikilməli idi. İçəri şəhərdə yer seçildi. Heydər Əliyevin razılığı alındı. Bu razılıq o demək idi ki, binanın ərsəyə gəlməsi üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görüləcək.

O, bu dəfə "nədən başlamalı" sualı üzərində çox da baş sındırmadı. Nədənsə başlamağa vərdiş eləmişdi. Bircə bu aydın idi ki, işinə uyğun xırda-para tədbirlər keçirməklə, hərdən tamaşalara baxıb, sonra da Yazıçılar İttifaqında iclaslarda oturmaqla gününü sovmayacaq. Heydər Əliyevin böyük dəstəyi, ona bəslənilən inam sayəsində, özünün təşəbbüsləri ilə Bakıda indiki Heydər Əliyev adına İdman-konsert sarayının tikintisinin başlanmasına girişdi. Mərdəkanda Klinik Xəstəxana, Sumqayıtda Kimyaçıların Mədəniyyət evi, Üzeyir Hacıbəyovun, Səməd Vurğunun, Cəlil Məmmədquluzadənin, M.S.Ordubadinin ev muzeylərinin yaradılması o illərdəki səmərəli fəaliyyətin nəticəsi idi. Bütün ölkədə birtipli

layihə əsasında mədəniyyət saraylarının bünövrəsi atıldı. Məktəb tikintiləri vüsət aldı. Ümumiyyətlə, orta ümumtəhsil məktəbləri məzmunca yeni mərhələyə qədəm qoydu.

Yaxşı xatırlayır, o vaxtlar məktəbdə müəllimlərin 60 faizinin ali təhsili yox idi, yeni nəslin sayı ilə ali məktəblərdəki yerlərin sayı arasında fərq dözülməz dərəcədə fərqli idi, yəni yer çox az idi. Ali məktəbə, texnikumlara daxil olan olurdu, yerdə qalan məzun kütləsi qıraqda, yəni küçədə qalır, taleyin ümidinə buraxılırdı. Ona görə də həmin dövrdə tələbə yerlərinin sayı böyük fərqlə artırıldı.

Peşə təhsilinə diqqət yetirildi. Xankəndində, Naxçıvanda pedaqoji institutlar açıldı. İndiki Slavyan Universiteti (Rus dili və Ədəbiyyatı İnstitutu) yarandı. Ali təhsilli müəllimlərin sayı iki dəfə artdı. Həmin 13 il ərzində 1 milyon 100 min şagird yeni məktəblərdə oxumağa başladı. Rayonların, demək olar, hamısında xəstəxanalar inşa edildi. Nəsimi adına Dilçilik İnstitutunun, Aktyor evinin, Xoreoqrafiya məktəbinin meydana çıxmasında onun müstəsna əməyi, təşkilatçılığı böyük rol oynamışdı. Əlbəttə, bu işlərin ilhamvericisi, bu tədbirlərin reallaşmasında əsas söz sahibi Heydər Əliyev idi.

***

... Beləcə, ömrün üçüncü fəsli, bol bəhrəli payız heç bir kimsənin istəyindən asılı olmayaraq köçünü çəkib gedirdi. Qarşıda başıqarlı qocaman dağlar görünürdü. Təqaüd yaşı ötmüşdü artıq – 67 il... Bir anı da boşa verilməyən həftələr, aylar, illər, onilliklər. İndi çoxu haqqında söhbət açmağa imkan olmayan əməllər, işlər, təmasa girdiyi insanlar, əqidə, məslək yoldaşları.

Heç ömrün qış fəslini, orada nələrin baş verəcəyini gözləmədən, elə indi demək olar ki, onun həyatı, həqiqətən də örnəkdir, qanan, anlayan kəslər üçün məktəbdir. Kamran müəllim "Taleyimdən razıyam. Onu özüm yaratdım", – deyərkən nə qədər də haqlı imiş...

Bütün bunlarla yanaşı, Kamran Hüseynov "Salnamə"də də qeyd edir ki, 1980-ci ildə onun Nazirlər Sovetinin sədr müavini karyerası bitəcəkdi.

**Salnamə**

Açığını deyim ki, işə laqeyd yanaşan, heç bir dəyərli təşəbbüs irəli sürməyən Nazirlər Sovetinin sədrindən narazı idim. Dəfələrlə sədrin yanında məsələ qaldırdım ki, 13 il işlədiyim yetər, mən daha Nazirlər Sovetinin sədr müavini işləmək istəmirəm. Sədrin özü mənə və başqalarına deyirdi ki, sən təzə tikdiyiniz şəhər və zavodlar haqqında danışma. Bu mənə çox gülünc gəlirdi. Mənimsə qurub-yaratmaqdan başqa heç bir işə ehtiyacım yox idi ki, o mövzuda danışam. Daim düşünürdüm ki, daha nələr tikək, nələr quraq? Mən, deyəsən, təkrara yol verirəm. Bu barədə əvvəlki səhifələrdə bir qədər yazmışam. İndi onları bir az açıqlamaq, Nazirlər Sovetindən getməyimin səbəblərini göstərmək istəyirəm.

1980-ci ildə Respublikada parlament seçkisi keçirilməli idi. Mənsə 1979-cu ilin məzuniyyətində olmamışdım. Nazirlər Soveti sədrinə dedim ki, Barvixiyə sanatoriyasına Moskvadan mənə putyovka verilib. 1980-ci il yanvarın 1-də sanatoriyada olmalıyam. Etiraz olmadı, əmr verildi. Mənə çatan xərci, əmri

aldım. Getməyimə üç gün qalmış sədr Əli İbrahimov mənə zəng vurub amiranə bir tərzdə dedi: "Sən məzuniyyətə getməyəcəksən!" Bu hikkənin səbəbini təqribən bilirdim. Dedim: "Əli İsmayıloviç, sizin əmriniz əlimdədir, çətinliklə də müalicəyə göndəriş, putyovka düzəltmişəm. Məni heç kəs saxlaya bilməz. Özüm də sizə demişəm. Burada 13 il işləyəndən sonra həvəsim qalmayıb. 67 yaşım var. Çıxıram pensiyaya".

Getdim müalicəyə. Bir az vaxt keçəndən sonra Moskvadan, Azərbaycan səfirliyindən 22 yanvar 1980-ci ildə Əli İsmayıl oğlu Barvixiyə zəng vurdu. "Kamran, maşın göndərirəm, gəl görüşək". Dedim: "Barvixidə maşın var, saat 3-də oradayam". Anlayıram ki, onu göndəriblər mənim işdən çıxarılmağımı mənə desin. Başladı ki, sən harada işləmisən, orada dərin izlər qoymusan. Elə Moskvadan gələndən sonrakı bu 13 ildə elmdə, tədrisdə, səhiyyədə, ümumiyyətlə, mədəniyyətimizdə mühüm işlər görmüsən". Dedim: "Əli İsmayıl oğlu, bu sözlər haradan yadınıza düşdü? Mənə təkrar-təkrar deyirdiniz, yeni tikdiyiniz şəhərlərin adını çəkmə, indi onlara heç bir ehtiyac yoxdu. Mən istirahətə gələndə sizə dedim ki, artıq o vəzifədə işləməyəcəyəm.

Görüşümüzün sonunda dedim: "Mən gələndə sizə söylədim axı ki, pensiyaya çıxmaq istəyirəm. Məsələni həll edin". O, çox yazıq adamdı. Daim canında üşütmə hissi vardı. Mənim cavabımdan çox sevindi. Gedib başqa otaqdan Bakı ilə danışdı.

Moskvadan gələndən sonra mən iki dəfə Xilmillidən Ali Sovetə seçilmişəm. Orada çoxlu iş görmüşəm. Klub, xəstəxana tikdirmişəm, qəsəbəyə işıq çəkdirmişəm, yol saldırmışam. Yenə qayıtdım sanatoriyaya.

1980-ci il yanvar ayının 24-də axırıncı gün namizədlərin adlarını Ali Sovetə verirdilər. Barvixidə möhkəm qar olsa da, müalicədən sonra bağda, meşədə bir dəstə yoldaş gəzişirdik. Hava soyuq da olsa, günəşli gündü. Yanvarın 23-ü idi. Bir də gördüm ki, sanitar qız qaça-qaça gəlir. "Kamran Əsədoviç, sizi Heydər Əliyev telefona çağırır". Heydər Əliyev çox mehribanlıqla xəbər aldı ki, özün, Zeynəb xanım necə dincəlirsiniz. Minnətdarlığımı bildirdim. Dedi: "Biz büro üzvləri belə qarara gəldik ki, sabah axırıncı gündür. Sizin namizədliyinizi X çağırışa deputat verək". Dedim: "Qayğınıza görə çox minnətdaram. Ancaq Heydər Əliyeviç, mən Əli Ismayıloviçə pensiya məsələmi demişəm. İndi bu deputatlıq nə qədər məqsədəuyğundur?" Dedi ki, müalicədən sonra gəl işlə. Mən 3-cü dəfə Xilmillidən Ali Sovetə deputat seçildim.

Buna baxmayaraq, 1980-ci il martın 27-də SSRİ Nazirlər Sovetinin İttifaq təqaüd komissiyası mənə ən yüksək dərəcədə -250 manat pensiya kəsdi. Bizim respublikada bundan yüksək pensiya yox idi. Bu səviyyədə təqaüd alan şəxsə, həm də icazə verirdilər ki, işləyib 500 manata qədər məvacib alsın. Bu mənim zəhmətimə böyük hörmətin əlaməti idi. Lakin respublikada mənə təzə iş yeri axtarırdılar. Biri dedi, getsin arxivlər idarəsinə, o biriləri dedilər ki, respublika Ticarət və Sənaye Palatası çox bərbad vəziyyətdədi, getsə, oranı düzəldər. Heydər Əliyevin kabinetində mən Ticarət-Sənaye Palatasının adını birinci dəfə idi eşidirdim. Orada işləməyə etirazımı bildirdim, çünki adında "ticarət" sözü vardı. Mənsə heç vaxt ticarətlə məşğul olmamışam. Heydər Əliyev dedi ki, orada heç bir ticarət yoxdu. Özləri də çox pis, yarıtmaz işləyirlər. Siz ölkəni, respublikanı yaxşı tanıyırsınız,

orada o intriqa yuvasında qayda-qanun yarada bilərsiniz. Onun nüfuzunu qaldıra bilərsiniz, gedin ora.

O təşkilatın harada yerləşdiyini də bilmirdim. Bir gün öz keçmiş işçilərimdən Fikrət Vəzirovla birlikdə gedib oranı axtarıb tapdıq. Onda bu təşkilat keçmiş Kommunist (indiki İstiqlaliyyət) küçəsi 31-də birinci mərtəbədə balaca bir otaqda yerləşirdi. Uçub dağılmış qapını açanda bizi çox pis bir iy vurdu, elə qapıdanca qayıtdıq. Öz-özümə dedim ki, elə görünür, mənim taleyimə yazılıb daim xarabalıqdan başlamaq.

Üçüncü dəfə məni Mərkəzi Komitəyə 2-ci katib Y. Puqaçov çağırdı. Çox dedi ki, Heydər Əliyev deyir ki, siz orada qayda yarada bilərsiniz, oranı yüksək səviyyəyə qaldıra bilərsiniz. Xahiş edirik gedin ora. Ancaq saat 3-də uzağa getməyin, yenə Heydər Əliyevin yanına gedəcəyik. Hiss elədim ki, bunların təklifi qətidir. Onda dedim: "Xəbəriniz var ki, o təşkilat harada işləyir? Orada iydən içəri girmək mümkün deyil. Oturub akt yazmağa stolları da yoxdur. O Palataya öz adına layiq iş yeri vermək lazımdı". Y. Puqaçov dedi: "Bu başqa məsələ! Axtarın görün, harada o təşkilata layiq yer tapırsınız".

Bu söhbət mən hələ ora getməmişdən Y. Puqaçovun yanında olmuşdu. 3-cü dəfə may ayının 4-də Heydər Əliyevin yanında Puqaçovun, İbrahimovun iştirakı ilə mənim ora getməyim müzakirə olundu. Bu dəfə Y. Puqaçov onun yanında qaldırdığım iş yeri haqqındakı təklifin təxirə salınmadığını dedi. Heyder Əliyev soruşdu ki, yer varmı, haradadır? Dedim, var. Respublika Hərbi Komissarlığının binası. Onlar oradan köçüblər; xarabaxanadı, ancaq dü-

zəltmək olar. Buna razı olmadılar.

İkinci yer ensiklopediyanın köhnə binasıydı. 1848-ci ildə İçərişəhərdən kənarda tikilən ən birinci binalardan idi. Xüsusi ilə Ticarət və Sənaye Palatası üçün "Zakaspiya" adı ilə tikilmişdi. Təklifim xoşlarına gəldi. Ancaq ora tamam yararsız idi. Qaydaya salmaq üçün çoxlu vəsait gərəkdi və inşaat işi aparmaq lazım idi.

O vəzifəyə təsdiqlənəndən sonra böyük bir təkliflə getdim SSRİ Ticarət-Sənaye Palatasına. Məni çox yaxşı qarşıladılar. Görünürdü ki, respublikadakı bu təşkilat onları da bezdiribmiş. Vəsait ayrılması haqda xahişim qəbul olundu. 2,5 mln. rubl ayırdılar. Respublikanın ən görkəmli memarı Mikayıl Hüseynovdan xahiş eləyib apardım oraya. Gözünə inanmadı ki, bu binanı nə kökə salıblar. Dedi ki, bura şəhərin ən gözəl yeridir. Ona gözəl bir memarlıq naxışı verəcək. Belə də oldu. Oraya kran lazım idi. Lakin kranı oraya salmaq mümkün deyildi. Heç yerdən kran gəlməyə yol yox idi. Demək olar Abşeronda olan bütün kranları gözdən keçirtdik. Nəhayət, Biləcəridə biri rast gəldi. Nə zülümnən gecə saat 12-dən sonra DAM-ın köməyi ilə kranı oraya sala bildik. Binanı aldıq. Elə bil Sumqayıtda yenicə inşaata başladığım illərdi...

Ağ-qara, qırmızı qranit, mərmər axtarırdım. Bununçün Moskvaya, Urala, Özbəkistana da getdim, Kazkan mərməri almağa. Bakıya qayıdanda gördüm ki, binanın yerində bir çöp də yoxdu. Bakı Sovetinin məsul işçiləri o binanın yanında bir qərargah təşkil ediblər. Gecə- gündüz oranı söküb daşıyıblar, 4 gündə bu tarixi binadan bir əlamət qalmayıb.

Palatanın orada olan malları da, çəkdiyi xərclər də heçə çıxdı. Nazirlər Sovetinin sədr müavini Lənbəranski, Bakı Sovetinin sədri N. Əhmədov başladılar ki, Kamran,bizim burada heç bir günahımız yoxdu, Heydər Əliyevin göstərişiydi, təzə prezident binasının qabağındakı binaların hamısı - muzeydən Azərneftə və dənizə qədər sökülməlidir. Dedim, nə danışırsınız?! Onlar hamısı tarixi abidələrdi. Böyük bir məhləni sökmək istəyirsiniz? Bəs bizim orada olan avadanlığımız hara getdi? Cavab çıxmadı...

Əllərimi yana salıb çarəsiz oturmaq mənim xarakterim deyil. Mərkəzi Komitəyə H. Əliyevin adına məktub yazıb göstərdim ki, Bakının Memarlar cəmiyyətinin təlimatına uyğun olaraq və Mərkəzi Komitənin göstərişilə o bina Palataya verilmişdi. İndi o bina sökülüb, Palatanın orada nə qədər materialı itib, yoxa çıxıb. Eyni zamanda, xahiş edirəm hərbi komissarlığın keçmiş binasından Palataya yer verilsin. Bu sökülən bina Palatanın xüsusi mülküdü. Bizim xəbərimiz olmadan ora basqın edilib. Palataya çox ziyan dəyib.

MK işlər müdiri L.M. Kirsanov məktubu alandan sonra mənə zəng vurdu ki, gəl məktubu geri götür, o cür məktubu mən katibə verə bilmərəm. Bu söhbət neçə dəfə təkrar olunduqdan sonra məktub katibə çatdı. Həmin gün Kirsanov rəhmətlik zəng vurdu ki, çatdırdım. Dedim: "Nəticə nə oldu?" "Nə olacaq, - dedi, - tulladı qırağa". Dedim: "Geri qaytarmadı ki?" Dedi: yox. Elə bu da yaxşıydı. Dedim ki, özü bir də baxacaq o məktuba. Bir neçə gündən sonra Kirsanov yenə zəng vurdu ki, Kamran, sən prokurorsanmış! Heydər Əliyeviç sənin məktubunu tapşırıb Həsən Seyidova - Nazirlər Sovetinə, baxsın.

Çox ciddi çək-çevir bundan sonra başladı. Palatanın istədiyi yerə Təbiəti Mühafızə Cəmiyyəti özünü saldı. Həsən Seyidovun kabinetinə toplaşdıq. Palatanın sədri, yəni mən, Nazirlər Sovetinin sədr müavini Q.V. Şeqlov, o biri tərəfdən İbrahimov Hacıağa-keçmiş MK katibi, komitənin təzə sədri - onun tərəfdarı Ş.Ə.Rəsizadə, Nazirlər Sovetinin sədr müavini, MK-nın katibi Isa Məmmədov, Təbiəti Mühafizə Cəmiyyətinin sədri, akademik H.Ə. Əliyev. Göründüyü kimi, tərəflər bir-birindən çox fərqlənirdi. Onlar binanın çox və abad hissəsini istəyirdilər, özləriysə 25 adamdılar. Bizə binanın az bir hissəsini verirdilər. Güclü tərəfin qarşısını almaq üçün dedim: "Yoldaş Seyidov, yeri bölərlər işçinin sayına görə. Siz bu işi tapşırın Maliyyə Nazirliyinə, qoy sizə arayış versin. Kimin ştatda işçisi nə qədərdir, o əsasda da yeri bölün". Bizim ştatda 300 nəfər, onlarda isə 25 adam vardı. Onlar başladılar ki, bizim adamlarımız rayonlardadır. Onları da Bakıya getirəcəyik. Dedim: "Əksinə, buradakıları da rayonlara aparmaq lazımdır". Nəticədə çək-çevir Palatanın xeyrinə qurtardı.

***

Kamran Hüseynov Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının gerçəkli bir dövlət təşkilatı olaraq formalaşıb, ayağa qalxmağına düz 10 il əmək sərf elədi. Özü demişkən, əslində bu, adı olan, özü olmayan bir qurum idi. Dünya miqyasında belə qurumlar böyük təcrübələrə yiyələniblər. Onlar iqtisadi inteqrasiyada, beynəlxalq ticari əlaqələrin yaranmasında rol oynayır, insan tələbatını nəzərə

alaraq sənayenin, ticarətin mövcud potensialını nümayiş etdirir. Sənaye və Ticarət palatalarının təşkil etdiyi sərgilərdə yaranan birbaşa əlaqələr bu və ya digər sahədə tərəfdaşlığı stimullaşdırır.

Heydər Əliyev 67 yaşlı Kamran Hüseynovun yazı yayına, yayı payızına, payızı qışına qarışıq böyük bir həyat mərhələsini başa vurduğunu hiss edərkən yenə də onun varlığında ölkələrin inkişafına sərf edilə biləcək küllü miqdarda enerjinin qaldığını dəqiq bilirdi. Çünki onu tanıyırdı, gücünə, iş bacarığına bələd idi, hətta ora qədər ki, nəyisə yenidən başlamaq Kamran müəllimin zövq mənbələrindən biridir. Bütün çətinliklərə, hətta bəzən özünün də bu "ilklərdən" bezməsinə baxmayaraq.

Elə də oldu. 13 il ərzində Ticarət Sənaye Palatası dirçəlib ayağa qalxdı. Əlbəttə, bu özbaşına baş vermədi. Onun necə çıxılmazlıqla üzləşdiyini "Salnamə"dən oxuduq.

Qəribədir, elə bil onun tutduğu vəzifələr bir anda şirinləşib əlahiddə dəyər qazanır, öz aramızdı, görün Sumqayıtda, Binəqədidə, Neftçalada, Mingəçevirdə, ÜİHİMŞ-də, Nazirlər Sovetində, Sənaye Ticarət Palatasında Kamran müəllimə qədər, ondan sonra nə qədər insanlar çalışıblar, heç kimin əməyini inkar etmək olmaz, belə bir fikirdə olsaq, Kamran əminin ruhu da bizi bağışlamaz. Amma yenə də Kamran Hüseynovun bu təyinatlarda meydana qoyduğu yekunlar tarixi mahiyyət kəsb edir.

Əyləşdiyi kürsülər, qalxdığı mərtəbələr Kamran Hüseynova ağır zəhmət, gərgin əsəb, alın təri, yuxusuz gecələr, bitib-tükənməyən uzun yollardan keçmək, bəzən həyat şərai-

tindən boğaza yığılan insanların qınağı ilə (kimlərinsə yerinə) qarşılaşmaq hesabına başa gəlib...

Bütün hallarda o, əyləşdiyi kürsüyə, kabinetə yalnız özünəməxsus olan dəyər, hörmət qazandırıb. Ordan-burdan Kamran Hüseynovun hökmünə, səlahiyyətlərinə sahiblənmək istəyənlərin ağlına gəlməyib ki, Kamranı Kamrandan başqa bir kimsə əvəz edə bilməz; bəlkə, daha uğurlu alınar, bəlkə, iflas çıxar ortaya. Amma vəzifəni hörmətə mindirən şəxsiyyətdir...

Sənaye və Ticarət Palatası...ömrün qışı... Bu yandan da yoldaş Qorbaçov yoldaş Xruşşovdan betər ağlasığmaz hərəkətlərə yol verir. Kamran Hüseynov müdrik yaşdadır. O, baş verən hadisələri bircə-bircə sərf-nəzər edir. Bəzən heyifsilənir, axı ilk növbədə öz xalqının, öz ölkəsinin ağ günə çıxacağı gümanına söykənərək o, Sovet dövlətinin yolunda can qoymuşdu. Şüar səsləndirməmişdi, iş görmüşdü. İndi budur, Pribaltikada insanları öldürürlər, Tiflisi qana bələyirlər. Sovet rəhbərləri rüşvətxor erməniləri başa çıxarıb xalqları üz-üzə qoyurlar... Axırı necə olacaq bu işlərin sonu?

Azərbaycan da qaynayır. Qərbi Azərbaycan ərazisindən yüz minlərlə insan min illər boyunca yaşadığı torpaqlardan, ana yurddan qovulurlar. Zəngəzur yolları qan ağlayır. Fəlakət Azərbaycanın içinə doğru sürünür. Əlbəttə, o, imperializmin xislətinə bələddir. Öz ölkəsini azad, müstəqil görmək ən böyük arzusudur. Hətta o istəyir ki, kaş üstünü ot-alaq basan, lap çoxdan keçid vasitəsi yox, ayrılıq rəmzinə çevrilmiş qoca Xudafərin körpüləri cana gəlsin, dirilsin. Bütün bunlarla yanaşı, dünyadan təcrid olaraq yaşamağın

mümkünsüz olduğunun da fərqindədir. O, Ticarət və Sənaye Palatasının sədri kimi ilk dəfə Türkiyədə olarkən, Türkiyənin Ticarət Sənayesi Naziri Şükrü bəy, yəqin, SSRİ-nin dağılmasını nəzərdə tutub Kamran müəllimdən soruşmuşdu:

- Bəs yaxşı, indi siz bu kommunizmi neyləyəcəksiniz?

Bir qədər sonra Kamran müəllim digər suallarla yanaşı zarafatyana deyilmiş bu sorğunu da cavablandırdı. Dedi:

**Salnamə**

"Şükrü bəy, bəşəriyyət tarixində Asiya qitəsində çoxlu dinlər meydana gəlib. O dinlərdən ən cavanı İslamdır. Nisbətən cavan olmasına baxmayaraq, bu din ildırım sürəti ilə yayılıb. İnsanların şüurunda özünə yer tutub. İndi bir milyarddan çox insan ona etiqad edir. Bilirsiniz ki, dinlər arasında nə qədər ziddiyyətlər olub. Dörd dəfə Xaç yürüşü baş verib. Nə qədər insanlar qırılıb. Xaç yürüşlərinin arxasında dayanırdı işğalçı hakim dövlətlər. Bəşəriyyət heç vaxt sakit durmayıb. Heç inanmıram yenə sakit dursun. İnsanların içərisindən hər zaman alimlər, filosoflar, sosioloqlar, iqtisadçılar çıxıb. Fikirləşiblər ki, ədalətli bir ictimai quruluş yaratsınlar. Dinindən, dilindən, yerindən, millətindən asılı olmayaraq, hamının ürəyincə olsun. Qan tökülməsin. Birlik olsun. Sakitlik olsun. Bu da son dərəcə mürəkkəb, ağır başa gələn məsələ idi. Belə bir quruluş nisbətən Sovet dövlətində yarandı. Lakin göstərdiyimiz arzuları bu quruluş da tam təmin etmədi. Çox çətinliklərlə qarşılaşdı. Axırda özü çökdü. Lakin o quruluşun üstün cəhətlərindən kapitalizm çox ağılla

istifadə etdi. Onun plan sistemindən, ictimai təşkilat işlərindən bəhrələndi. İndi Avropa Birliyi yaranıb. 7-8 kapitalist dövləti birləşib istehsal etdikləri malların kimə, harada, nə vaxt satılacağını öz aralarında qabaqcadan müəyyənləşdirirlər. Bu da onların arasındakı rəqabəti iqtisadi böhranlara nisbətən yumşaldır. Sovet dövlətinin özü isə kapitalistlərin bacarığından istifadə edə bilmədi. Tarix də başa çatmayıb. Bəşəriyyət yaşayır, inkişaf edir. Ola bilməz ki, yeni perspektivli ictimai fikirlər yaranmasın. Bəşəriyyətin özünə, onun fikirlərinə yenilik gətirən iqtisadi, ictimai fikirlər daim inkişaf edəcək. Bəşəriyyəti cəlb edən yeni fikirlərə həmişə ehtiyac olacaq".

***

Heydər Əliyevin düzgün kadr seçimi və düzgün seçilmiş kadrları müdafiə etməsi, üstəgəl, Kamran Hüseynovun zəngin idarəçilik təcrübəsi, yeri gələndə qətiyyəti səbəbindən ölkədə dövlət xəttinə bağlı Ticarət və Sənaye Palatası yaradıldı. Amma lap əvvəl, bu vəzifə ona təklif olunanda necə ki, "Daxili işlər naziri", "Xalq Nəzarəti Komitəsinin sədri" adlanan vəzifələrdən qorxub üşənmişdi, eləcə təşkilatın adındakı "ticarət" kəlməsi ona birtəhər gəlmişdi, çünki bu çağa qədər o heç nə satmamışdı, nə adam, nə heyvan, nə qara çöp, nə də insaf...

Ümumiyyətlə, belə baxanda onun həyatı böyük, yorulmaz zəhmətlə bəzənmiş insaf, mərhəmət, dostluq, xeyirxahlıq örnəyidir.

Heydər Əliyev kimi o da hansı vəzifədə çalışıbsa, pillələrini qalxdığı binaya, qapısından girdiyi kabinetə, arxasında

əyləşdiyi kürsüyə hörmət qazandırıb. Özünüz mülahizə edin, 1991-ci ilə qədər Naxçıvan Muxtar Respublikası bəlkə də yalnız adına görə başqa bölgələrdən az-maz fərqlənirdi. Onun rəhbəri digər babat bir rayonumuzun rəhbəri nüfuzunda olardı, artıq yox. 1993-cü ilə qədər – Heydər Əliyev Naxçivan Ali Məclisinin sədri vəzifəsini daşıdığı müddətdə Naxçıvan istər daxili, istərsə də xarici təzyiqlərə diz çökməyən, müstəqil bir Respublika statusu qazandı deyilsə, bu fikri ağlı başında olan hər kəs ədalətli və düzgün sayar. Niyə? Çünki Heydər Əliyev Ali Məclisin sədri seçildiyi gündən, o andan Naxçıvan Respublikasının həqiqi sahibi oldu.

Əlbəttə, dünyanın öz qanunauyğunluqları mövcuddur, bununla belə, Nyutonun cazibə qanunu, Paskalın birləşmiş qablar qanunu, Eynşteynin nisbilik, bizim Lütfizadənin qeyri-səlis çoxluqlar nəzəriyyələri... Allaha şükür, insan beyni kəşflər sarıdan yarıyıb, bu intellektual siyahını xeyli uzatmaq olar, bizim yer kürəmiz, onun içindəkilər – su, od, hava, torpaq olmasaydı... insan elə indiki kimi, bəlkə, indikindən geri qalmış, amma indiki qədər çirklənməmiş halda var olacaqdı. Çünki kainat fəhm edə bildiyimizdən milyon qat (bu çox azdır, şərti məna daşıyır) möhtəşəm və başıbəlalı planetimiz Yer kürəsi (bəlkə də kainatda elə bədbəxt günə düşən planetlər var, ona baxanda Yer kürəsi şükürlüdür) o qədər balacadır, ilk (bəlkə də, son), türk şəhidi, dərisi soyulan İmadəddin Nəsimi özündə cəsarət tapıb yazır ki:

Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam.

Amma bütün bunlarla yanaşı, Yer kürəsində şəxsiyyət əlahiddə statusa malikdir. Bundan irəli deyirmişlər ki, iş

insanın cövhəridir, həm də deyirmişlər ki, gərək insan işə yaraşıq versin...

Söz sözü çəkdi. Tarixdə şəxsiyyətin rolunu milli və ən yeni tarixin misalında göstərmək istədik...

***

Ümumiyyətlə, Sovet zamanında Azərbaycanda tanıtma anlamı verən sərgi təcrübəsi yox idi. Sərgi missiyasını bazar yerinə yetirib. Buna pis baxmaq olmaz. Hər il dünyada ən müxtəlif sahələrə - iqtisadiyyata, mədəniyyətə, sosial sferaya aid möhtəşəm sərgilər keçirilir. O sərgilərin bir çoxuna işimlə əlaqədar olaraq mən də qatılıram (əsasən turizm və kitab sərgilərinə).

Tarixi faktlara, salnamələrə güvənib mübaliğəyə yol versəm, deyə bilərəm ki, qədim və orta əsr Şərq bazarlarındakı sərgi effektini indi ən gurultulu beynəlxalq sərgilərdə görmək olmur.

Hər halda sərgi sivilizasiyanın məhsuludur, indi onun kortəbii bazar mühitindən fərqli olaraq nəzəri və həm də ictimai-siyasi, sosial və mədəni əsasları var.

SSRİ zamanında daimi fəaliyyət göstərən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi vardı Moskvada. Bəzən mərkəzdə, Qafqazdan, xüsusən Orta Asiyadan gedən, rus dilini yaxşı bilməyən, sadəlövh insanlara "baran" deyirdilər. Bəlkə, bu bir az onunla da bağlıydı ki, şimallılar daha çox donuz əti yeyirdilər, ora şərqdən gələnlərsə qoyun. Hər halda mən o Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, Moskvanın orta göbəyində süd verən inək boyda qoyun görmüşəm. Bunu sözgəlişi deyirəm.

Moskvanın tədbirlər planına uyğun olaraq tam siyasiləşmiş sərgiləri çıxmaq şərti ilə Azərbaycanda, yəqin ki, digər müttəfiq ölkələrdə sərgi keçirmək dəbdə deyildi.

Azərbaycanda, məhz onun rəhbərliyi altında Ticarət və Sənaye Palatası bu işin yazın gəlişindən xəbər verən qaranquşu oldu.

1980-1993-cü illər. Bu, Kamran Hüseynovun Palataya rəhbərlik etdiyi illərdi. 13 il... O, nizamnaməyə uyğun olaraq təşkilatın üzərinə düşən başlıca vəzifələrin icrasını yüksək səviyyədə təmin etdi. Maddi-texniki bazanın möhkəmlənməsi üçün cəhd göstərdi, Moskvada qapılar döydü, çətinlik çəkəndə Heydər Əliyevə üz tutdu. Nəticədə Palata ölkədə sayılıb-seçilən, hardasa bir qədər də elitar quruma çevrildi.

Türkiyə və İranın iş adamlarının Azərbaycana gəlmələri, onların sərgi istəkləri nəzərə alınır, çətinliklə də olsa, Bakıda İran mallarının sərgisi açılır. Azərbaycan malları İrana – Təbrizə aparılır, Türkiyə ilə işgüzar əlaqələr qurulur.

Və ötən əsrin 90-cı illərinə qədər, demək olar ki, bütün dünyanı dolaşan Kamran Hüseynovun Türkiyəyə və İrana rəsmi səfərləri baş tutur. İlahi, hər iki səfər haqqında necə böyük məhəbbətlə söz açır. Sanki heç ömrü boyu nəinki Azərbaycandan, Bakıdan, hətta doğulub böyüdüyü Qubadlıdan ayağını qırağa qoymayıb...

...Ömrün yayı idi, o, dünya poezisiyasının əvəzsiz nümayəndəsi, köksü param-parça, vətənindən didərgin düçən dahi türk şairi Nazim Hikmətlə ya Afrikaya, ya da Çinə uçurdu. Hələ Moskvadaykən Kamran müəllim Nazim Hikmətlə maraqlanmışdı, onu tapıb tanış olmuşdu. Məlum olanda ki, bu dəfə onlar eyni heyətdə səfər edəcəklər, Kamran müəllim

böyük vəzifə sahibi, nümayəndə heyətinin rəhbəri olsa da, Nazimə bir qardaş istəyi ilə yaxınlaşıb xoş duyğularını bildirdi və əlbəttə, türk və azərbaycanlının qardaş olduğunu dilə gətirdi. Biletlər alınanda Nazim Hikmətə dedi ki, arkadaş, əgər məsləhət bilsəniz, uçaqda yanaşı yerlərdə oturarıq. Böyük şair Nazim, Kamran müəllimin bu təklifinə uşaq kimi sevindi. Bir müddət uçandan sonra, məlum olanda ki, onlar indi Türkiyənin üzərindən keçirlər, Nazim gözü dola-dola dedi:

- Kamran, sən bilirsənmi, mənim Türkiyənin səmasından uçmağa da izacəm yoxdur.

Halbuki, Nazim Hikmət yalnız Türkiyənin yox, cəmi türkün səmasını yaradan, türk insanına göy üzü və qanad verən bir dahidir.

Türkiyə Cümhuriyyəti qüdrətli bir məmləkətdir, həm də o, türk xalqlarının, xüsusilə, Azərbaycanın arxası, dayağı, atabir-anabir qardaşıdır. Türkiyə məmləkətinin heç bir naqisliyi yoxdur, əgər tarixdə belə bir qüsur olubsa, o da zaman-zaman dəyişən Türkiyə iqtidarının Nazim Hikmətə göstərdiyi ifrat təzyiq, ifrat qınaqdır. Allaha şükür, indi vəziyyət dəyişib, kommunizm artıq real kabus deyil, tarixdir.

Sonuncu dəfə Tuyab kitab sərgisində müşahidə etdim ki, Cümhuriyyətdə Nazim Hikmət irsini yayan cəmiyyət çalışır. Onlar bir il ərzində şairin poetik əsərlərindən ibarət 30-40 adda kitab buraxmışdılar...

***

Ömrün payızı sona yetir, tale ona yenə də gözəl səfərləri rəva görür. Qarşıda İstanbul, qarşıda Təbriz... O da vətən,

bu da vətən, qanadlandığı yer də vətən... Türkün ləyaqətli övladı ana yurdun dörd cəhətinə varır. Əlbəttə, bəxtiyardır; yaz kimi, yay kimi, payızı da ruhuna uyğun yaşanır. Üstəlik, uşaqlıqdan ömrün səksəninə qədər onun bütün həyatı payız kimi bərəkətlidir, hər günü verimlidir, barlı-bəhərlidir.

**Şeir**

Mən payız adamıyam
dadlı meyvələr bitirmişəm
fikrimin, ilhamımın
  budaqlarında,
Şipşirin,
şirəli
nəğmələr yetirmişəm
dodaqlarımda.
Deyilməmiş sözlərlə
   yüklənmişəm
təpədən dırnağımacan
Nəyim var,
adamlara verəcəyəm
Sonuncu yarpağımacan...
Mən payız adamıyam.

Bizim şərti bölgümüzə görə ömrün qışına, hardasa bir il qalıb; bundan bir az çox, ya da bir qədər az.Türkiyədə Kamran müəllimi qardaş məhəbbəti ilə qarşılamışdılar. İndi aydın olur ki, 20-30 il ərzində Hüseynov yoldaşı dünyanın dörd bucağına yollayan SSRİ rəhbərliyi onu bir dəfə də olsun

Türkiyəyə, İrana buraxmayıb. Çox işləri siyasət yoluna qoyur. Bununla belə, siyasətin dəhşətli dərəcədə amansız üzü də var. Ananı baladan, dırnağı ətdən ayıran siyasət heç vaxt, heç bir mülahizəyə əsasən halallıq ala bilməz.

"Salnamə"dən belə görünür ki, İran səfəri Kamran Hüseynovun həyatının az qala şah nöqtəsidir. Xudaya, əcdadlarının iki yüz ildən bəri həsrət qaldığı ana yurdun sinəsindən o necə də böyük nisgil, həsrət və məhəbbətə ötüb keçir. Elə bil müqəddəs babalarının məbədinə, ocağına ayaq basır.

**Salnamə**

Vaxt gəldi təbrizlilərin xahişi ilə biz də Təbrizdə Azərbaycan Respublikası sənaye mallarının sərgisini keçirdik.

1992-ci il may ayının 9-da Təbrizdə bizim sərgimiz açıldı.

İrana yolumuz Lənkəran-Astaradan, Ərdəbildən, çox gözəl mənzərəli yollar ilə, əzəmətli Savalan dağının ətrafı yaşıl otlaq, meşəlikdən keçirdi. Onlar bizdə çox gözəl əhvali-ruhiyyə oyadırdı. Bura da vətən torpağının bir parçasıydı.

Böyük həvəslə gəlib Ərdəbil şəhərinə çatdıq. Vaxtdan istifadə edib, onun tarixi abidələrini görmək istəyirdik. Ərdəbildə Şah İsmayıl Xətai ilə bağlı zəngin tarixi yerlər var. Vaxtımız az olsa da, mütləq onun məqbərəsini-movzoleyini görmək üçün oraya getdik. O vaxt məqbərədə təmir gedirdi. Orada dəfn edilənlərlə: atası Heydərin, əmisinin, bir də özünün məzarları ilə bizi tanış etdilər. Deyilənə görə, Ərdəbilin münbit, zəngin torpaqları var. Sonra gəlib çoxdan görmək arzusu ilə yaşadığımız Təbrizə çatdıq. Bizim Azərbaycandan gələnləri hörmət və ehtiramla qarşıladılar. Bizim nümayiş et-

dirdiyimiz mallar, müxtəlif və çox zəngin idi. Bu sərgiyə marağın əsas səbəblərindən ən vacibi odur ki, indi Azərbaycan, heç kəsdən asılı olmayaraq, müstəqil hərəkət edir. Sərgi bir elin ayrı-ayrı parçalarının bir-biri ilə mehriban, çox isti görüşünə çevrildi.

Çox maraqlı görüşlərdən biri ruhani başçı Mələqutinin qəbulunda oldu. Ora bizim müəssisə rəhbərləri dəvət olunmuşdular. Geniş qəbul otağında hamı cərgə ilə düzülmüşdü. Mən onun yanında oturmuşdum. Dedim, ağaye Mələquti, Sizə hədiyyə gətirmişik. O, tez cavab verdi ki, ağaye Kamran, mən indi hədiyyə götürmürəm. Dedim ağaye Məlequti, bu hədiyyə Azərbaycanın görkəmli rəssamı Səttar Bəhlulzadənin əsərlərindəndi. Dedi ki, onu çox məmnuniyyətlə qəbul edərəm, ağaye Kamran, mən Sizin alimlərinizin, sənət adamlarınızın zəkasına heyranam və onları alqışlayıram. Sizin adamlarınız bu sahədə çox irəliyə gediblər. Sərginin açılışından  qabaq çox çalışdıq ki, dahi Şəhriyarın təzə tikilən məqbərəsini ziyarət edək. Bakıdan özümüzlə M.Ə. Sabirin, S. Rüstəmin, S. Vurğunun, Mədinə Gülgünün məzarlarından apardığımız torpaqları da Şəhriyarın qəbrinin üstünə səpək. Ona da nail olduq. Bu iarixi hadisəni Təbriz televiziyasında geniş işıqlandırdılar.

Xudaya, Təbriz-Iran camaatı bizə qarşı nə qədər hörmət bəsləyirdilər! Çoxları evlərinə qonaq dəvət edirdilər. Apardığımız sənaye mallarından da xoşları gəlirdi.

Təbriz ostandarının müavini ağaye Bilal Xeyrəvər ilə birlikdə Urmiyəyə yola düşdük. Yolda ağaye Xeyrəvərdən xahiş etdim kəndlərin birində mənə bir yaşayış evini göstərsin.

Ağaye Xeyrəvər çox gözəl insandı. Mehriban ailə başçısıdı,

bizim bir-birimizə hörmətimiz var idi. Yolda bir kənd evinə döndük. Ev yiyəsi narahat olanda Xeyrəvər "özümüzünküdü" deyib onları sakitləşdirdi. Ev bizim qədim kənd evinə oxşayırdı. Hasarlı həyətdi. İçəridə həm yaşayış, həm də heyvanlar üçün (kənarda) tövləsi vardı. Çox çalışırdılar ki, bizə hörmət etsinlər. Lakin bizim vaxtımız yox idi.

Gəlib dağlar arasında yaranmış o möcüzəli Urmiyə gölünə çatdıq. Gölün hər tərəfi uca dağlardı, axan sular göldə qalır. Ancaq onun suyu qırduz olduğu üçün heç bir canlı yaşamır.

Deyilənə görə, möhtəşəm dağlar arasındakı bu böyük gölün ətrafdakı bitkilərə, meyvə bağlarına çox müsbət təsiri var. Bəlkə də ona görədi ki, meyvə ağacları götürdüyü yükü, barı tamam saxlayıb yetişdirir.

Biz gələn günü Urmiyə vilayət başçısının qəbul günü olduğu üçün orada çoxlu adam yığışmışdı. Heç inanmırdılar ki, biz onların çağırışını eşidib gəlmişik. Gedib qəbulda növbə gözləyənlərin yanlarında əyləşdik. Şəxsən mənim üçün çox maraqlı idi. Təmiz ana dilində onlarla danışıb dərdləşdik. Məndən xəbər aldılar, siz nədən ötrü xahişə gəlmisiniz. Dedim iş üçün. Ostandar gəlincə Xeyrəvər dedi ki, ev üçün. Şəhər bizim Lənkəran şəhərinə oxşayırdı. Zavod-fabrik də öz inkişafını gözləyirdi. Bildim ki, burada iş məsələsi çətindi. Növbətçilər buna işarə də vurdular. Bilal Xeyrəvər də ev barəsində dedi. Şəhər rəhbərləri bizim gəldiyimizi, şəhərlə gəzib tanış olduğumuzu bilib və növbədə gözlədiyimizi eşidib üzr istədilər. Təcili qəbulu dayandırıb bizimlə danışmağa başladılar. Sonra başladılar giley etməyə ki, nədir gəlib Tehran, Təbriz, Ərdəbil ilə görüşüb gedirsiniz, bizə fıkir vermirsiniz. Halbuki, biz demək olar ki, Naxçıvanın bütün

tələbatını ödəyirik. Bu sözləri çox təkrar edə-edə həyəcanla danışırdılar. Xəbər aldım ki, naxçıvanlılar siz verən malın məbləğini ödəmirlər? Biri təsdiqlədi ki, ödəyirlər. Lakin sizin mallarınızın keyfiyyəti çox aşağıdı. Sizin soyuducular kimə lazımdı?!

Dedim: "Ağaye ostandar, mən ağaye Bilalla Sizin dükanlarınızda Azərbaycandan gələn, ancaq satılmayan bir mal görmədim". Birisi yerdən cavab verdi ki, kürdlərə satırıq. Onu belə başa düşmək olardı ki, o malı hər kəs almazdı. Dedim: "Ağaye ostandar, mənim evimdə o siz deyən soyuducu neçə ildi ki, çox yaxşı işləyir. Qaldı ki, Naxçıvanın blokada vaxtında əl uzadırsınız. Baxmayaraq ki, onlar da borclu qalmırlar. Sizə minnətdarıq. Amma siz bu yardım sözünü çox təkrar edirsiniz. Mən öz aləmimdə hesab edirəm ki, biz bir kökdənik, yaxşı-yaman günlərdə bir-birimizə əl uzatmalıyıq. 1979-cu ildə Imam Xomeyni inqilabından sonra bütün Qərb dövlətləri Irana blokada elan etdilər. İran iqtisadi cəhətdən çətin vəziyyətə düşdü. Azərbaycan o dövrdə öz yüklərini qoydu kənara, İrana 3 istiqamətdə yol açmağa başladı:

1. Bakı-Culfa-İran, 2. Bakı-Astara-İran, 3. Bakı-dənizlə-Ənzəli.

Və o vaxtiar Iranın çox çətin vaxtı idi. Bir vaxtı Kanadadan Irana 200 min ton buğda Bakı portuna gəlmişdi. Biz xəbər tutduq ki, o buğdanı bit basıb. Karantin elan edib onu tamam bitdən təmizləyəndən sonra Irana göndərdik.

Biz bu mövzuda danışmazdıq. Onu özümüzə borc bilirik. Amma Siz az-çox gördüyünüz işləri tez-tez dilə gətirirsiniz. Erməni qəsbkarları Sizə də az zərbə vurmayıblar. Yerdən bir nəfər dedi ki, Urmiyədə erməni daşnakları 16-17-18-ci illərdə

azərbaycanlılara çox zülm ediblər. Dedim bəs nə tez o hadisələri yadınızdan çıxartmısınız?

Söhbət zamanı zal adam ilə dolu idi. Söhbət bir yandan ərkinən, qayğıkeşlik formasında keçirdi, o biri yandan onlar yada salmaq formasında xahiş edirdilər ki, tez-tez onları yad edək. Söhbət çox çəkdi. Qaranlıq düşmüşdü. Göldə külək başlamışdı. Gəmi işləmirdi. Deməli, biz çox uzaq, xatalı dağ yolları ilə Təbrizə qayıtmalıydıq. Çox istədilər ki, gecə orda qalaq. Ancaq biz təcili Təbrizə çatmalı idik. Axşam saat 10-da yol polisi bizi saxladı. Dedi ki, gecə o dağ yolları xatalıdır. Yolda kürdlər maşını yandırır, adamları öldürürlər. Mən dedim məsuliyyəti öz üzərimə götürürəm. Polis dedi: Siz İran vətəndaşı deyilsiniz. Onda Bilal Xeyrəvər işə qarışdı. Çox xahişdən sonra icazə aldıq. Təbrizə gəlmək əvəzinə nabələd sürücü bizi az qala Türkiyə sərhədinə çatdırmışdı. Gördük ki, Türkiyədən çoxlu iri yük maşınları Irana yük aparır. Yolun qalanını onlara qoşulub gəldik. Ancaq onların sürəti bizi təmin etmirdi. 50-60 km yol gedəndən sonra onlardan mehribancasına ayrılıb Təbrizə gəldik.

Təbrizli dostlarımız çox geniş bir zalda sərginin axırında Azərbaycandan gələnlərə yüksək səviyyədə qəbul düzəltdilər. Qəbulda onların bir adətinin şahidi oldum. Qəbula gecikənlər gələndə oturanlar hamısı yerindən qalxıb onu qarşılayırdılar. Bizdə belə deyil. Qəbulda əsasən vilayətin rəhbərləri, ticarət-sənaye işçiləri, ölkənin adlı-sanlı adamları iştirak edirdilər. İlk sözü böyük ehtiramla mənə verdilər.

Mənim çıxışım təxminən belə idi:

Əziz qardaş-bacılar!

Adını böyük hörmətlə eşidib üzünə həsrət qaldığımız sizin

istəkli şəhərləriniz Təbriz, Ərdəbil, Urmiyə ilə çox mehribancasına tanış olduq. Onların əhalisi nə gözəl, istəkli, mehriban insanlardı. Mən hələ balaca uşaq idim. Arazın kənarından Siz tərəfə həsrətlə baxardım. Mənim anadan olduğum yer Sizin Qaradağla qənşərdi. "Gülüstan" poemasında xalq şairi Bəxtiyar Vahabzadə xalqın taleyini boğan, onu parçalayan qəddar hakim dövlətləri ifşa edirdi. Şair çox cəsarətlə qəsbkarları lənət atəşinə tutmuşdu. Baxmayaraq ki, daxili xəyanətkarlar onu sakit buraxmırdılar, ancaq onlar Bəxtiyarı öz iradəsindən döndərə bilmədilər.

Əziz məclis iştirakçıları, azad Azərbaycan Respublikası bütün qonşuları ilə mehriban, heç kəsin daxili işlərinə qarışmadan hərtərəfli əhəmiyyətli əlaqə saxlamaq istəyir.

Xamuşi Əsgər Oladinin xahişi ilə İranda olanda onlar bizi Xorasan vilayəti ilə tanış etdilər. Ora çox gözəl və zəngin diyardı, İmam Rizanın sonevini (qəbrini) ziyarət etdik. Sevincimizin dərəcəsi yox idi. Ölməz Firdovsinin abidəsini gördük, onu çox dərin sayğıyla andıq. Araz kənarından bir vaxtlar həsrətlə tamaşa edərdim xoşbəxt quşlara; uçardılar Arazın o tayına, bu tayına, vizasız, pasportsuz. Ürəyimdə deyirdim, ilahi, bizə nə vaxt qismət olacaq o müqəddəs torpaqları, mədəniyyətimizin zəngin beşiyi olan şəhərləri — Təbrizi, Ərdəbili və başqa yerləri ziyarət etmək?! Burada dahi Şəhriyarın "Heydərbabaya salam" poemasından bir parça yadıma düşdü:

Heydər baba, göylər qara dumandı,
Günlərimiz bir-birindən yamandı.

Bir-birizdən ayrılmayın, amandı!
Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar.

Bir uçaydım bu çırpınan yelinən,
Qoşulaydım dağdan aşan selinən,
Ağlaşaydım ayrı düşən elinən,
Bir görəydim ayrılığı kim salıb,
Kəndimizdə kim qırılıb, kim qalıb.

Hakim dövlətlər millətimizi parçalayıb bir-birindən ayrı salsalar da, onların qəlbində həmişə döyünən ürəkləri eyni olub. Əziz təbrizlilər, gördünüz ki, Siz iranlıları Bakıda necə böyük məhəbbətlə qarşıladılar. Gülüstan-Türkmənçay müqaviləsi, o qara ləkə xalqın yadından çıxmayıb.

Hörmətli, mehriban təbrizlilər! Siz böyük zəhmət çəkmisiniz, bu məclisi təşkil etmisiniz. Çox sağ olun. Bu, daim yadda qalası bir görüş oldu.

Təbriz şəhərində hər gün küləklər əsirdi. Təbrizlilər bunun səbəbini mənə dedilər ki, Təbriz iki dağın arasındadır. Güneydəkı dağdan daim soyuq külək əsir, quzeyindeki Aynalı və ya Eynalı dağından onu daim günəş döyür. Soyuqnan istinin görüşməsi nəticəsində o küləklər əsir.

Yığıncaqda yarızarafat dedim: "Məni bələdiyyədə aqronom işinə götürün. Mən sizin Aynalı dağıınızı bir cənnət bağına çevirim. Milyon illərdi Aynalı dağını günəş döyür. Onun tərkibi azotla zəngindir. Dağın başında su anbarı tikmək, dağı dolayı-dolayı doğramaq, yol qıraqları meyvə ağacları əkmək, dağın başındakı su anbarından suvarmaq, müəyyən məsafələrdə qəhvəxanalar, istirahət ocaqları yarat-

maq olar. Bir də görərsiniz ki, Aynalı olub cənnət guşəsi, külək də normaya düşüb.

**Müəllif**

"Salnamə"nin bu parçasını oxuyanda eyni zamanda Kamran müəllimin Türkiyə görüşlərini nəzərdən keçirəndə istər-istəməz adamın fikrindən keçir; çox şükür ki, bütün davranışları, həyata münasibəti, işi, əməli, düşüncələri və təbii ki, ruhu yurd bətnindən doğulan bu adama Allah-təala Təbrizi, İstanbulu, Ərdəbili, Urmiyanı görməyi də qismət elədi. Ağsaqqal nəfəsi yaz havası kimidi, o gərək hər yerə yayıla ki, təravət yarana, mühit canlana...

**Şeir**

Bir də gördüm ki, Ay toxundu mənə,
ya qanım qaynadı gün işığından.
Uzaqlar nə qədər yaxındı mənə,
Nə qədər uzağam öz ətrafımdan!..

Öz ətrafına qovuşmaq İlahi bir qüdrətdir. Demişdik axı, Kamran sözünün bir mənası da qüdrətdir.

Təbii ki, bu fikri 80 il davam edən qaynar işin, alın tərinin, yorulmaz əməyin yekunu olaraq götürmək, elə buradaca payız fəslinin sonuna nöqtə yerinə gün işığının təsirindən saralmış bir yarpaq qoymaq yetər...

Çünki qış qapının ağzını kəsdirib. Qış köç etmək deyil hələ. Qış gecələri uzun, çox uzun olur. Elə insan ömrü var ki, gözlənilməz güllər kimi qışda açılır.

Kamran Hüseynov doxsan üç illik kişi ömrünü, az qala, fasiləsiz, aysız, həftəsiz, bəzən gecə-gündüzü bilinməyən vaxt aləmində yaşamış bir şəxsiyyət olduğuna görə zaman anlamında onun ömrünün heç bir mərhələsini konkret fəsillə məhdudlaşdırmaq olmur...

Bu, fərdi – mənəvi yanaşmadır. Həqiqət isə bundan ibarətdir ki, o, 80 yaşına çatıb. Lap formal da olsa, qəhrəmanımızın ömrünün bu hissəsini qış adlandırmağa məcburuq. Qoy olsun, fəsillər şəxsiyyətlərin təbiətini dəyişdirə bilmir. Əgər kiminsə bu həqiqəti dərk etməyə gücü çatmasa, Kamran Hüseynovun həyatına həsr olunmuş bu romanın bura qədərki hissəsini yenidən oxumağa məcbur olacaq...

***

Səksən beş ili onunla birlikdə dayanmadan addımladıq, üç fəsil və daha hansı ümumi təəssüratlarsa yaddaşlara həsr olundu. Hər dəfə gördük ki, o yaddaşını vərəqləyərkən şəxsi düşüncələrdən, yalnız özünə, ailəsinə, övladlarına bağlı məqamlardan uzaq durur. Amma qısa, ani eyhamlar dəqiq şahidlik edir ki, Kamran Hüseynov vəzifələri necə dolğunluqla icra edirsə, elə o dolğunluq, o enerji, o düşüncəylə də ailəsinə bağlı həyat yoldaşı, valideyn olmuşdur.

Bu səbəbdən qısa bir nəfəs dərməyə ehtiyac var; məqamdan yararlanaraq Hicran xanımın söhbəti əsasında bu

dəfə Kamran müəllimin ata, valideyn dünyasından az da olsa, xəbər tutaq...

**Müsahibəyə giriş**

İri həcmli bədii-publisistik əsər yaratmaq, həm də elə bir əsər ki, o, bütün yazı təcrübəsinin şərtləri baxımından tələbləri doğrultsun, bəhs etdiyi zaman, insan və hadisələri əsk etdirmək imkanına sahib olsun. Bu janrda çalışanlar məsələnin çətinliyindən xəbərdardırlar. Sənədli romanın ilk səhifələrində, mövzu ilə əlaqədar mənbələrə baxdığımızı, toplanmış çoxsaylı kitabların, məqalələrin, resenziyaların, həmin dövrün tarixinin, mükəmməllik xatirinə Azərbaycanın, hətta keçmiş SSRİ-nin hüdudlarından kənara çıxan mənbələrin nəzərdən keçirildiyini qeyd etmişdik.

Və sonda məlum olmuşdu ki, qəhrəmanımızı tanıya və tanıda bilmək üçün ən tutarlı yanaşma onun özünün qələmə aldığı əsərlərdir. Bunu qeyd edəndə biz onun əsasən 60-70-ci illərdə qələmə aldığı elmi kitabları, namizədlik, doktorluq monoqrafiyalarını, həm də xatirələrdən ibarət iki kitabı nəzərdə tuturuq – "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür". Dəqiqlik xatirinə son iki kitabın əslində eyni kitab olduğunu, lap sonuncunun daha mükəmməl işləndiyini demişdik.

Kamran Hüseynovun əsərləri və özü haqqında yazmış bütün müəlliflərə oxucular adından və eyni zamanda Kamran müəllimdən bəhs edən son araşdırmanın müəllifi olaraq dərin minnətdarlığımı bildirirəm.

Və dərhal heç kəsin qəlbini incitmədən dilə gətirməyi özümə borc bilirəm ki, əgər Kamran Hüseynovun qələmə

aldığı "Salnamə" və "Ömürnamə" olmasaydı, illərlə arxivlər küncündə eşələnsəm və yaxud onu tanıyan, onun tanıdığı güman olunan minlərlə adamın qapısını döysəm də, indiki yekun əldə edilə bilməzdi.

Əslində sona yetən bu kitab da onun kitabıdır. Bu yaşantılar da ona məxsusdur, burada təsvir edilən hadisələr onun başına gəlib, buradakı dövran onun dövranı olub. Və hər kəlmə sözün səhihliyinə özü şəhadət verib. Ona görə də ən yaxşı halda mən bu kitabın müəlliflərindən biriyəm, artıq heç nə...

Yekunları yoxlamaq həmişə işin xeyrinədir. Ən sonda düzəldilməyən qüsur tarixə ötürülür. Sonradan onu islah etmək mümkün olmur. Elə buna görə də bir ay müddətində Kamran Hüseynovla bağlı yazılı mənbələrlə baş-başa qaldıqdan, toplanmış bilgilərin, yaradıcı təxəyyülün və təbii ki, axtarılıb tapılmış üslubun köməyi ilə iki ay, əsasən işdən sonra və şənbə-bazar günləri hesabına bu əsəri başa çatdırandan sonra əlyazmanı Kamran Hüseynovu ən dərindən tanıyan və ona ən yaxın olan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya təqdim etdim, çoxlu dəqiqləşdirmə aparıldı.

Eyni zamanda qəhrəmanımı sadə insan, ata, ər, qardaş, dost olaraq dərk etmək üçün Kamran müəllimin qızı Hicran xanıma çoxlu suallar tərtib edib verdim.

İndi həmin müsahibənin kitaba əlavə olunmasına ehtiyac hiss edirəm. Ola bilsin ki, bu söhbət əsərin bədii planına başqa cizgilər gətirsin, üslubla uyuşmasın... Qoy olsun, bədiilik və seçilmiş üslub məqsəd deyil, vasitədir. Məqsədimiz Kamran müəllimin obrazının bütövlüyünə, doğruluğuna nail

olmaqdır. Dolğun həyat yaşamış bütöv kişinin surətini yaradarkən boşluqlar qoymağa, sadəcə ixtiyarımız yoxdur.

Budur, Hicran xanıma verilmiş suallar və onun cavabları:

- İnsan ictimai varlıqdır, amma bununla belə, onun şəxsi taleyi, fərdi qayğıları da olur, Kamran Hüseynov – atanız, Lalə xanım – ananız, kimlərdəndi?

- Yəqin hər kəs nəsil-nəcabətini məxsusi dəyərləndirmək istərdi, bu təbii, insani bir düşüncədir. Amma bu düşüncə onda pozitiv məzmun alır ki, həqiqətə yaxın olsun. Çox qədimləri deyə bilmərəm, amma iki əsr ərzində dövran sürmüş nənə-babalarım sıradan adamlar deyildilər. Həm ata, həm ana xətti ilə. Məsələn, ana babam ağır seyid nəslindəndir. Adı Mirsadiq imiş. Atamın babası, siz bunu "Salnamə"də oxumusunuz, ərəbi, farsı bilən, obanın xeyir-şərində məclisin başında oturan şəxs idi Məmmədağa. Əsəd babam dünyadan cavan gedib - atamın üç-dörd yaşı olanda. Lalə nənəm (atamın anası) çox ziyalı, bəy nəslindəndir. Lap dərin kökləri Türkiyənin Amasiya bölgəsinə gedib çıxır... Bir nənəmiz də Məstan nənədir. Lalə xanım da, Məstan nənə də xanım-xatın qadınlar olublar – gözəl, yaraşıqlı, adət-ənənələrə bağlı. Ən əsası isə onlar ailələrini qorumaq üçün cəfa çəkməkdən qorxmayıblar...

- Əsəd babanın uşaqları kimlər idi?

- Atam, əmim Gürşad, bibilərim Sona və Sara. Sara bibim yaşayır. Bibilərimin hər ikisi həkim idi. Əmim Gürşad da həkim olub, elmlər doktoru, professor rütbəsinə yüksələn bu ziyalı insan uzun illər Qanköçürmə İnstitutunun direktoru, Tibb İnstitutunda Fiziologiya kafedrasının müdiri vəzifələrində çalışıb. Amma təəssüf ki, tez rəhmətə gedib. Xalam

evdar qadın olub. Dayım İman Hüseynov energetika sahəsində tanınmış adam idi. Uzun müddət yüksək vəzifələrdə, partiya işində çalışıb.

- İndi gələk sizə, Kamran müəllimin, Zeynəb xanımın ailəsindən danışaq.

- Ailədə yeddi nəfər olmuşuq; atam, anam, üç bacıyıq, iki qardaşımız var. Böyük bacım Gülsurə həkimdir, Reyhan konservatoriya təhsillidir, futuroloq kimi çalışır, universitetlərdə dərs deyir. Qardaşım Eldar cərrahdır, Moskvada işləyir, yaşayır. Aydın isə şərqşünas idi, ərəb, ingilis, alman dillərini bilirdi. Heyif ki, tez rəhmətə getdi, 51 yaşında.

- Sizin təhsil seçimləriniz özünüzə məxsus olub, yoxsa istiqamət verilib?

- Əlbəttə, bizim nəinki təhsil, ümmiyyətlə, gələcəyimizlə bağlı valideyn arzuları olub, amma hər birimizə seçim sərbəstliyi verilib. Bir qəribə təsadüfi misal çəkim, qardaş-bacılarımdan yeganə adam mənəm ki, musiqiyə getməmişəm. Atam çox istəyirdi ki, onun övladları öz sənətləri ilə bərabər hansısa bir musiqi bacarığı qazansın. Böyük qardaşım tar, kiçik qardaşım qitara çalırdı. Bacılarım fortepianoya gedirdilər. Mən isə Moskva havasında nə üçünsə tez-tez soyuqladığıma görə musiqiyə getmirdim. Amma sonra məlum oldu ki, musiqi duyumum heç də onlarınkindən pis deyil. Sözümün canı odur ki, valideynlər uşaqlarının hərtərəfli böyüməsi üçün mümkün olan variantlardan istifadə etməlidir. Onda bekarçılıq aradan qalxır, həyat daha maraqlı olur.

- Çərəli kəndində olmusunuz? Yadınızda nələr qalıb?

- Uşaq vaxtı olmuşam, ona görə də təəssüratım bir o qədər dərin deyil. Lalələrlə örtülü çəmənlik qalıb yadımda,

həmin o laləli yerlərdə yediyim ətirli böyürtkənin və çiyələyin dadı indi də damağımdadır. Lalələr və çiyələk haqqında atam da yazıb kitabında...

- Ailə mühitiniz barədə bir qədər geniş bilgi verərdinizmi?

- Valideynlərimizə minnətdarıq. Onlar ailədə çox gözəl abı-hava yaratmışdılar. Bizim aramızda heç vaxt qısqanclıq olmurdu. Çünki hamıya eyni dərəcədə diqqət var idi. Zarafatlar da olurdu, kimsə yaxşı qiymət alanda, evə "Qramota" gətirəndə hamımız böyük masanın arxasına yığışardıq, atam deyərdi ki, bu məsələyə  hər kəs öz münasibətini bildirsin. Bir növ əməyimizə qiymət verilir, uğurumuzla fəxr edilir, bir-birimizə nümunə olurduq. Aramızda möhkəm həmrəylik var idi,  problem olanda bütün ailə birləşirdi. Bu bizə ata-anadan gəlir, biz onların bir-birinə, qohumlarına olan münasibətini görürdük axı. Ümumiyyətlə, evimizin qapısı heç vaxt bağlanmazdı, həmişə də adamla dolu olardı. Rayondan gələnlər bizim qapımızı açırdı. Baxmayaraq ki, atam yüksək vəzifədə çalışırdı – o vaxt Nazirlər Soveti sədrinin müavini idi, belə vəzifələrdə olan insanlar özlərini, adətən, qapalı saxlayırlar. Səhərlər oyananda görürdük ki, beş, bəzən on nəfər mətbəxdə oturub çay içir, nahar edir... Hərdən gileylənirdik ki, evdə özümüzü rahat hiss edə bilmirik, atam da həmişə deyirdi ki, palaza bürün, elnən sürün, çalışın həmişə sadə insanlarla yaxın olun.

Atamla mənim aramda fərqli münasibət var idi. Bir çox məsələləri anama deyə bilmirdim, ona deyirdim. Hesab edirdim ki, o məni daha yaxşı başa düşər. Taleyimin ən vacib məqamlarını ilk növbədə, atamla bölüşürdüm. Hərdən anam inciyirdi, amma bu məndən asılı deyildi, bizim ortaq dün-

yamız var idi. Ancaq indi başa düşürəm ki, anamı axıra qədər duya bilməmişəm. O, necə böyük şəxsiyyətmiş, necə hər şeyə ürəklə yanaşırmış. Baxmayaraq ki, çox çətin tale yaşayıblar, amma valideynlərim nikbin ruhlu insanlar olublar. Onların həyatı adamı heyrətləndirir. Bəlkə də, bu nümunə hamımıza anladıb ki, çətinliyə düşəndə sarsılmayaq, keçdikləri ağır həyat yolunu xatırlayaraq dərk edək ki, onların dərdinin yanında bizim qayğılar heç nədir.

Valideynlərimin biri-birinə çox böyük hörməti var idi. Onlar evlənəndə ilk beş uşaqları ayrı-ayrı səbəblərə görə dünyasını dəyişib. İki oğlan uşağı anadan olanda, bir uşaq pəncərədən düşüb, digər bir oğlan uşağı bir yaşında yoluxucu xəstəlikdən gedib, bir qız isə məndən əvvəl doğulub, yaşamayıb. Anam on uşaq dünyaya gətirmişdi, mən indi də xatırlayanda təəccüblənirəm ki, o, bu gücü hardan tapıb ki, beş uşaq tələf olandan sonra yenə beş uşaq dünyaya gətirsin. O, fenomen ana idi. Bu misal həm də atamın necə kişi olduğunu göstərir. Anamın atası maraqlı bir insan olub, Qubadlıda hamı ondan çəkinirmiş, vaxtilə quldurlarla çox döyüşüb, neçəsini həbs edib. Hamı onu tanıyırdı. Bir zaman bu kişi – babam Mirsadıq gəlir atamın yanına, deyir ki, ay Kamran, Allah-təala sizdən dörd uşaq alıb, bəlkə, istəmir siz bir yerdə olasız. Mən qızımı götürüm gedim. Sən cavan adamsan, uşaqların olmalıdır. Belə kişilər də olub. Atam baxır buna, deyir ki, bu sözü bir də mənim yanımda deməyəsən, mən bu qızı sevib almışam. Anamla atamın arasında on yaş fərq olub, anamın ailə quranda on yeddi yaşı vardı. Nə isə, bu sözdən sonra atam deyir ki, Allah-təala istəyər, uşaq verər, istəməz, mənim həyat yoldaşımdı, mənimlə yaşayacaq, ömürboyu bir yerdə

olacağıq. Ağır övlad itkiləri, elə bil ki, onların taleyinin sınaqları imiş. Ondan sonra beş uşaq doğuldu. Atam Azərbaycanın hansı bölgəsində işləyib, orada birimiz doğulmuşuq. Bakıda olarkən birinci bacım Gülsurə dünyaya gəlib. Mingəçevirdə qardaşım Eldar, Neftçalada Aydın anadan olub. Mən Bakıda doğulmuşam, amma atam o vaxt Sumqayıtda işləyirdi. Kiçik bacım Reyhan atamın Moskvada çalışdığı vaxtda anadan olub. Hər uşağın doğulmağı işlədiyi bir dövrlə bağlı idi.

- Valideynlərlə sizin münasibətiniz necə idi?

- Atam bizimlə fəxr eləyərdi. Orta məktəbdə təzə-təzə müəllim işləyəndə, yaxşı yadımdadır, mənim 21-22 yaşım var idi, ilk valideyn iclasını keçirəndə bir çox valideynə rişxənd elədim ki, sizin uşaq oxumur, nadincdi... Sonra evə qayıdanda bunu atama danışdım, baxdı mənə, dedi ki, qızım, çalış heç vaxt valideynə uşağı haqda ağır söz demə. Elə sözlər tap ki, onlar nəyisə dəyişə bilsin, kömək etsin, amma valideynə uşağı haqqında pis söz demə, hər bir valideyn üçün balası doğmadır, əzizdir. Bir çox nöqsanları valideynlər görmürlər. Sən çalış onlara kömək elə. Bu söz mənə çox təsir elədi. Rəhmətlik Gürşad əmim isə həmişə deyərdi ki, mən təəccüblənirəm, bu tələbələrə niyə "2" yazırlar, axı onlar da kiminsə uşağıdır, nədir, sən uşağı bir dənə "3"-ə də qaldıra bilmirsən? Sanki bu iki qardaşın fərqli fəlsəfəsi vardi. Görünür, onlar uşaqlıqdan ata itiriblər deyə başqalarına kömək etməklə, yaşamadıqları ata-oğul təmasındakı boşluğu doldururdular. Atam dəqiq yazıb, demək olar ki, onlar öz talelərini özləri yaradıblar.

Atamızın çox mürəkkəb işi var idi və həmişə başı qarışıq olurdu. Buna baxmayaraq, həmişə fikirləşərdi, necə edək ki,

bir yerdə ailəlikcə dincələk. Hər axşam biz süfrə arxasına yığışıb gözləyərdik ki, işdən qayıtsın. Gələrdi, ayağa qalxıb salamlaşardıq, anam yalnız ondan sonra bizə yemək verərdi. Bu vaxta qədər süfrədən heç kim heç nə götürə bilməzdi. Ailədə atanın öz yeri, ananın öz yeri vardı. Yemək zamanı başlayardı bizə sual verməyə; sən bu gün nə işlə məşğul olmusan, məktəbdə nə var, nə yox, təzə nə öyrənmisən... Mənzilimizin divarında həmişə dünyanın siyasi xəritəsi asılardı. Hər dəfə axşam o bizə deyirdi, bu Afrika ölkələrinin neçəsini tanıyırsan, onların paytaxtlarını bilirsənmi... Məcbur edirdi ki, nəsə yeni bir şey oxuyaq, öyrənək. Həmişə deyirdi ki, xaricə gedəndə həmin ölkə haqqında mütləq oxu, onların adətlərini, davranışlarını, ümumiyyətlə, tarixini öyrən, sən bir sivilizasiyadan tamam başqa bir sivilizasiyaya gedirsən. Sən getdiyin yerdə özünü düzgün aparmalısan. Xaricə gediş-gəliş təzə qızışanda son anda uşaqların çamadanını açdırırdı ki, uşaqdır, birdən nəsə götürər, sonra problem olmasın. Bu onu göstərir ki, ailəsinə qarşı tələbkardır. Ümumiyyətlə, mənim yadımdadır, o, çox ailələri birləşdirib, çox ailələrə ayrılmağa imkan verməyib. Əksinə, istəyirdi hər ailənin uşağı olsun, bilsinlər həyatda ən vacib şeylər nədir... Bu, doğrudan da, onun üçün böyük bir sərvət idi. Həmişə deyirdi ki, ailəm, həyat yoldaşım dayağımdır, onlara həmişə arxalana bilərəm.

- Övladlarından razı idi?

- Nəinki razı idi, hətta o, bizimlə fəxr edirdi. Əslində, hər bir ata övladının uğuru ilə nəfəs alır.

- Ən çox hansı hallarda kefi kök olurdu?

-Çox zarafatcıl insan idi. İnsanlarla ünsiyyətdə yumora üstünlük verərdi. O, yumor hissi olmayan adamlara yazığı

gəldiyini deyirdi. Özü zarafatcıl idi, çalışırdı ki, ətrafında elə bir vəziyyət yaratsın, hamının kefi kök olsun.

- Sizə həyatını danışırdı? Nələri danışırdı?

- Atam uşaqlarından yalnız mənimlə məktublaşardı. Hansısa bir pioner düşərgəsində, sanatoriyada olanda mənə məktublar yollayar, mən də cavab yazardım. Sonradan məktəbi bitirəndə  Cəvahirləl Nehrunun qızına həsr olunmuş "Dünya tarixi" adlı kitabı bağışlamışdı mənə, üstündə də yazmışdı ki, istəyərəm, sən də böyüyəndə İndira Qandi kimi mənalı ömür yaşayasan. Sonradan, doğrudan da onun arzusu gerçək oldu. Ən azı, buna görə xoşbəxtəm ki, o, mənim Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə gəlməyimi gördü. Heyif ki, sonra çox az, cəmi iki ay yaşadı.

O, həyatının maraqlı məqamlarını həmişə danışırdı. Heç zaman özünü tərifləməzdi. Sonradan başqa adamlardan eşidirdik ki, o, kimin həyatında hansı rolu oynayıb, kimə necə kömək edib. Bütün yaxşılıqlarını sadə bir borc sayırdı. Ailəmizin şüarı beləydi, çalışın yaxşılıq edin, yaxşılıq etmək üçün tələsin. Deyirdi ki, gözləməyin, sizdən nəsə xahiş etsinlər, çalışın, özünüz o adama kömək edin.

- Onun ən çox təmas saxladığı adamlar kimlər idi?

- Ümumiyyətlə, insanlarla ünsiyyətdə olmağı sevirdi. Fərqi yox idi ki, bu, sadə insandır. Ancaq incəsənət adamları, şairlər, yazıçıların çoxu onun dostu idi.

- O içirdi?

- Yox, içkidən xoşu gəlmirdi.

- Siqaret çəkirdi?

- Çəkmirdi.

- Ailənizdə hansısa söz-söhbət olmuşdu?

- Heç eşitmədik ki, atamız, ya anamız səsini qaldırsın, bu bizdə olmayıb. Olurdu, bəzən uşaqlar arasında pərtlik yaranırdı, bu zaman atam bizə bir söz deməzdi, amma oğlan uşaqlarını ciddi cəzalandırırdı. Daha doğrusu, həyətə çıxmağa, uşaqlarla oynamağa icazə vermirdi. Deyirdi ki, sən bir az otur evdə, düşün, bu hərəkəti düzgünmü etmisən, ya yox? Heç səsini qaldırmazdı, sonra "günahkar"ı yanında əyləşdirib onu xeyli danışdırardı.

Ondan bir təmənnamız olanda bacı-qardaşlarım məni irəli verirdilər, diplomat deyirdilər mənə, çünki o vaxtımıza görə bizə mümkünsüz görünən istəkləri də onun boynuna qoya bilirdim. Amma atamı ürəyi istəməyən, məsləhət bilmədiyi bir işə məcbur etmək mümkün deyildi. Gərək özü istəyəydi. Bunu bildiyimizə görə cızıqdan çıxmırdıq, həddimizi bilirdik...

- Nə zaman yuxudan dururdu?

- Səhər tezdən, saat 6-da ayaq üstə olardı.

- Nə zaman yatırdı?

- Saat 11-də çəkilərdi otağına. Həmişə deyərdi ki, gün çıxan kimi durmaq sağlamlıqdır, fəlsəfədir. Axşamlar da gərək özünü televizorun qarşısında çox yormayasan. Amma mütaliə dəlisiydi, kitablara, az qala, sitayiş edirdi. Televizorda təbiət və heyvanlar aləmi verilişlərini izləməyi xoşlayırdı.

- Ən çox sevdiyi yemək hansı idi?

- Bunu demək çətindir. Çünki anam çox dadlı xörəklər bişirirdi, o özü də pis bişirmirdi. Evdə bəzən tək qalanda ürəyi istəyəni hazırlayırdı. Bəlkə elə buna görə də qardaşlarım da xörək bişirməyi bacarırdılar. Kişi olsalar da, xörək bişirməkdən heç vaxt utanıb çəkinməzdilər. Anam dəmləyən şüyüdlü plovu isə hamımız iştahla yeyirdik. Atam da.

- Ən çox sevdiyi rəng hansı idi?

- İki rəngə vurğun idi: mavi və yaşıl. Təbiətlə bağlı olan rəngləri, daha dəqiq, yaşıllığı sevirdi, ağaclardan çox xoşu gəlirdi, özü də tez-tez ağac əkərdi, bundan həzz alırdı. Mavi rəngi bəyənməyi, mənə elə gəlir ki, göy üzünə görə idi, səmanın rəngi olduğu üçün sevirdi.

- Çox sevdiyi qoxu vardımı?

- Təzə biçilən ot iyi cənnət havası kimi gəlirdi ona.

- Bəs ən çox sevdiyi fəsil hansıydı?

- Dəqiq deyə bilmərəm, amma yağışı çox sevirdi. Həmişə deyirdi ki, yağış yağanda özünü çox yaxşı hiss edir. O, yağışı həm bərəkət, həm də təmizlik sayırdı.

- Dünyanı dolaşıb xaricdən qayıdanda hansı hədiyyələrlə dönürdü, kimə nə gətirirdi?

- Çalışırdı ki, hərəyə nəsə alsın. Hətta bazarlığı ilə bizi təəccübləndirir və sınayırdı. Görürdün, gətirdiyini gizlədir, deyir: bağışla, bu dəfə sənə heç nə ala bilmədim. Cavab verirdim: eybi yox, gələn dəfə alarsan. Boynumu qucaqlayıb, hədiyyəmi verirdi. Bir dəfə bacı-qardaşlarımla Moskva ətrafında yerləşən pioner düşərgəsində olanda bizi direktorun otağına çağırdılar. O, Afrikadan oraların ekzotik meyvələri ilə dolu səbətlər gətirmişdi. Meyvələri düşərgənin bütün uşaqları yedilər. Və o qəribə qonaqlıq mənim yadımda xoş xatirə kimi ömürlük qaldı. Ekzotik meyvələri, əlbəttə, bizim üçün gətirmişdi, amma hədiyyəni biz digər uşaqlarla böldük. Bundan dəyərli və yadda qalan nə ola bilər ki?..

- Sizin evinizə pay göndərirdilər?

- Əksinə, atam başqalarına həm maddi, həm də mənəvi köməklik edirdi.

- Üç bacı, iki qardaş... O, sizin ali məktəbə qəbul olmağınıza kömək edib? Axı bizim vaxtımızda tələbə adını qazanmaq çox çətin idi...

- Siz bilirsiniz ki, bu sahəyə atam baxırdı. O, Baş nazirin müavini idi. Ola bilməz ki, bilməsinlər filankəsin qızı, ya oğlu instituta imtahan verir. Bacım da, qardaşım da Moskva Tibb İnstitutunu, mən Bakı Dövlət Universitetini bitirmişəm. Çox maraqlıdır, o zaman evdə mənim hansı sənəti seçməyimlə bağlı müzakirə gedəndə, dedim, mən jurnalist olacağam. Atam qayıtdı ki, mən çox jurnalistlər görmüşəm, qadın üçün bu, çətin sənətdir. Sənin ailən, uşaqların olacaq. Bəlkə, filologiya fakültəsinə gedəsən. Mən sənədlərimi bu fakültəyə vermək üçün gələndə gördüm ki, o biri tərəfdə tarix fakültəsinə sənəd götürürlər. Tarixi də çox sevirdim. Üstəlik, atam tarixçidir, amma bizdən hələ heç kəs bu sənəti seçməyib. Tək getmişdim. Yazıldım ora. Qərarımdan xəbər tutanda atam məni qucaqladı, dedi ki, mənim də arzum elə bu idi, amma istəyirdim ki, öz qərarınla olsun. O, bizi heç vaxt nəyəsə məcbur etməzdi, sadəcə deyərdi ki, məsləhət belədir. Bu, uşaqlarla çox yaxşı bir davranış nümunəsidir. Mən öz həyatımda da gördüm ki, uşağı nəyəsə məcbur etmək olmaz, seçim onun özünün olmalıdır, sənin yalnız ona məsləhət verməyə hüququn çatır.

İxtisas seçimimdən heç vaxt peşman olmadım, öz arzuma çatdım, diplomatiya sahəsində çalışdım və beynəlxalq münasibətlər fakültəsində dərs deməyə başladım.

O, çox insana kömək edib ki, instituta daxil olsun, ev alsın. Maraqlı bir hadisəni xatırlayıram, aspiranturaya sənəd verəndə atama bildirməmişdim. Başqa bir qadının da sənəd-

ləri orda idi, bütün imtahanları eyni qaydada vermişdik. Bircə ingilis dilindən imtahan verəndə açıq dedim ki, ingilis dilini mən daha yaxşı bilirəm. Elə buna görə də ondan yüksək qiymət aldım. Evə gəldim, atama dedim, belə bir vəziyyət oldu, mən keçdim. Atam dedi ki, get sənədlərini götür, o qız keçsin. Mən dedim: əgər bunu sən mənim üçün etsəydin, razılaşardım, amma bu, mənim öz zəhmətimdir və bu yeri heç kimə verməyəcəm. O güldü. Sonradan bildim ki, atam çalışıb, o qız üçün bir yer açsın, o da keçsin, çünki heç vaxt istəməzdi ki, kiminsə qəlbi qırılsın.

- Hansısa bir xəstəliyi vardı?

- Heç bir ciddi xəstəliyi yox idi, yalnız onu Sumqayıtdan Sibirə göndərəndə ayağı donmuşdu, həmin ayağı həmişə narahat edirdi. Ümumilikdə, sağlam insan idi.

- Hansı kitabları oxuyurdu?

- Kitabları, xüsusilə tarix kitablarını çox sevirdi. Onunla bərabər yazıçı, şair dostları da ona kitablarını bağışlayardılar. O, poemaları başdan-başa əzbər söyləyirdi, yaddaşında çoxlu şeirlər vardı. Nizami Gəncəvinin yaradıcılığını dərindən oxumuşdu. Şeirləri əzbərdən deyəndə yaddaşına heyran qalırdıq.

- Musiqiyə münasibəti necə idi? Hansı havaları xoşlayırdı?

- Ümumiyyətlə, musiqiyə münasibəti yaxşı idi. Aşıq havalarını, sazı xoşlayırdı. Özü də hərdən saz çalırdı. Həmişə deyirdi ki, gözəl rəssamlıq qabiliyyəti olan insanları yaxşı mənada qısqanıram. Rəssam olmaq istəyib, ancaq uşaq olanda vaxtı olmayıb, hərdənbir şəkillər çəkirdi.

- Siz ondan qorxurdunuz?

- Qorxmurduq, amma çəkinirdik. Aramızda pərdə var idi.

- Neçə nəvəsi var Kamran müəllimin?

- On nəvəsi var.

- Neçə nəticəsi var?

- Doqquz .

- Ulu öndərimiz Heydər Əliyev haqqında nə deyirdi sizə?

- Atamın Heydər Əliyevə münasibəti xüsusi olub. Onu ictimai-siyasi xadim kimi həmişə yüksək qiymətləndirib. Hətta Milli Məclisdə ona qarşı əks çıxışlar olanda bir çox ləyaqətli insanlar kimi o da Heydər Əliyevdən üz döndərmədi. Orada Heydər Əliyev atama deyib ki, Kamran, görürsən də bunları. Mən onların hamısına kömək etmişəm, onları dəyərləndirmişəm, amma onlar mənə belə münasibət bəsləyirlər. Onda atam zarafatla qayıdıb ki, Heydər Əliyeviç, siz onlara fikir verməyin, Şarl de Qolla bağlı hər gün qəzetlərdə karikaturalar çap olunarmış. Bir gün çap olunmayanda, Şarl deyib ki, nədi, məgər mən ölmüşəm. Atam İlham Əliyevə böyük ümidlər bəsləyirdi.. Deyirdi ki, belə atanın oğlu mütləq yaxşı əməl sahibi olacaq. Atamın qənaəti özünü doğrultdu. Ot kökü üstündə bitər. Bir də atam qeyd edirdi ki, Mehriban Əliyeva müasir dövrdə Azərbaycan qadınının ictimai və siyasi imicini, Birinci Ledi İnstitutunu yarada bildi...

- Onun dinə münasibəti necə idi, axı əcdadlarının kökü müqəddəs övliyalara gedib çıxır...

- Atam dinə elmi mövqedən yanaşmağı doğru sayırdı. Xurafatdan uzaq idi. Deyirdi ki, din böyük Yaradanla insan arasında vasitədir. İnsan yalnız yaxşı və xeyirxah əməlləri ilə özünü və Yaradanı dərk edə bilər. Bir də deyirdi ki, əməli saleh olmağın özü də bir ibadətdir...

**Müəllif**

Hicran xanımla sadə suallar əsasında aparılmış söhbətdə çoxlu fərdi təəssüratlar var idi. Biz onların xeyli hissəsini azman vətən oğlunun həyatına həsr olunmuş kitaba daxil etmədik. Niyə? Alınan cavablar hansı məqamdasa fərdi ştrixləri önə çəkirdi. Amma bizim əlimizdə olan iki mənbədə "Bir ömrün salnaməsi" və "Quruculuğa həsr olunmuş ömür" kitablarında ictimai xarakter daşımayan bircə cümlə də yoxdur desək, yanılmarıq. O, ailəsini, uşaqlarını, öz xarakterindəki indi bizə də məlum olan kişiyana cəhətləri qətiyyən tərifləyib göyə qaldırmır. Müdrik insanlara təvazökarlıq çox yaraşır...

Və beləcə söhbət bitir.

...Ömür bitir, yol bitmir...

Əslində mən onun kitablarını başqa cümlələrlə, başqa üslubda, başqa sözlə, bir qədər peşəkarlıqla yenidən yozdum...

Sözün bütün mənalarında müəllif odur.

Ömür bitir, yol bitmir.

Yol məni Fəxri Xiyabana aparır...

O yerə ki, Kamran əmi orada müqəddəs vətən torpağına qovuşub və abidəsinin üzü də ulu Zəngəzura, gözəl Qubadlıya, indi işğal altında olan küllü-Qarabağa tərəf baxır...



“Tale qismət etdi.
Dünyanı qarış-qarış
dolaşdım, o sıradan
qardaş Türkiyəni,
qəlbimizin parası
Təbrizi də gördüm...”








WELCOME BIENVENUE WILLKOMMEN




















# Dördüncü fəsil. Qış

1993-dən 2006-cı ilin aprelinə qədər çəkir. Hərc-mərclik.
Qarabağ qopur. Yanvar qətliamı. 80 yaşlı əsgər.

**Şeir**

Soldu bütün çiçəklər –
Şaxı da, bəstəsi də.
Soldu dəli küləklər,
Soldu suyun səsi də...

**Deyilmişdir**

Dünyaya öz istəyimlə gəlmədim, heyrət içində yaşadım, indi diksinərək gedirəm.Platon

**Novxanı. Qızılqaya**

Adın nədi? Daşdəmir! Yumşalisan yumşalı... yaza qədər, yaz, yay, payız onu bitirib, böyüdüb, qaynadıb, bərkidib... səksən beş ilin tamamında su qədər yumşaldıb! O bu dəfə tarix dəryasına baş vurmur. Əlçatan qədər yaxın zamanı düşünür. Bizim zamanımızda çatmayan elə budur. Çünki bu dəyərli insanın irəliki tanrı möhlətinə az-çox bələdik.

Yaza qədər, yaz, yay... və payız, yazılıb.

Allah yol verib.

Nə bilmək olar, bəlkə əcdadı Mirseyid Nigarinin bu dərəcədə ziqzaqlı ömürdə ona dayaq olduğu, 93 ilin kürəyini yerə vurmağa qüdrət verdiyi kimi bizə də yardımçı olub ki, müqəddəs gözdən, ilahi nəfəsdən qaynaqlanan ad romana çevrilsin, itib batmasın...

Başqası olsaydı (bəlkə!), ömrün qışı, eləcə qış kimi bitər, ya da heç yetişməyə fürsət tapmazdı. O isə qışın oğlan çağında hələ də həyat eşqi və diri düşüncələrlə doludur. Və

fərqinə varmır ki, çovğun qapını kəsib. Ola bilməz ki, bilmir, bilir, di gəl varlığında fəsil dəyişkənliyinə sığmayan canlı həyat çırpınır.

Deyildiyi kimi, Kamran əmi ötüb keçənləri qələmə almağa başlayanda isə şərti olaraq müəyyən etdiyimiz qış fəslinin bir neçə ili geridə qalmışdı.

Toxunmayaq, qoy fəsillər milyon illər olduğu kimi yenə də bir-birini əvəz etməyində olsun.

O isə artıq ikinci gün idi ki, öz-özlüylə, başqa sözlə, şərəfli bioqrafiya ilə üzbəüz idi. Bəlkə bütövlükdə götürülsə, insan həyatı tək bircə gündən ibarətdir? Bəlkə il, ay, həftə uydurmadır, sadəcə həmin o bircə günü nizamlamaq üçün insanın düşünüb tapdığı cədvəldir.

Kamran əmi ilə bir neçə dəfə dünyanın ən ucqar guşələrinə (bizim mövcud olduğumuz məkanı nəzərə aldıqda. Bəlkə onlara görə dünyanın ən ucqar nöqtəsi elə bizim məmləkətdir) səfər edən möhtəşəm türk yazarı Çingiz Aytmatov sonralar bir roman qələmə alıb. Əsər bütün dünyaya, o cümlədən, türk qövmünə yaxşı məlumdur. Adı beləydi: "Gün var əsrə bərabər".

Səhər günəşin çıxmağı, günorta göy üzünün tən ortasına yüksəlməyi, axşamlar azman dağların, nəhayətsiz üfüqlərin arxasında itib-batmağı – yəni dünyanın, bir günü daha real və həqiqətpərəstdir. İl, ay, həftə isə o bir günün toplumu, ardıcıl təkrarlanmasıdır.

**Şeir**

Aşıq min ayə dəyər,
Üzün min ayə dəyər.

İl var bir günə dəyməz
Gün var min ayə dəyər!

**Deyilmişdir**

Mənə demə ki, tarix yaz. Mən özüm tarixəm. Tarix necə tarix yaza bilər?!

***

1988-ci ildə Azərbaycanda Qarabağ məsələsi qalxdı. Tarixçə məlumdur. Hələ bundan üç il əvvəl Moskvada Mixail Sergeyeviç Qorbaçov SOV. İKP MK-nın baş katibi seçilərək hakimiyyət başına gəlmiş, sonralar SSRİ-nin çöküşünün əsasını qoyan yenidənqurmaya başlamışdı. Bu, yenidənqurma olmadı, yenidən yaranış oldu. Sovet xalqları, ittifaqın içinə alınmış dövlətlər 70 il ərzində milli tutalqalardan yapışaraq salamat qalmışdılar və nə zamansa müstəqil yaşayacaqlarına ümidi itirmişdilər.

Tarix bu xalqları sürətlə yenidənqurmaya yox, yenidən doğuluşa, müstəqilliyə doğru aparırdı. Bu zaman aralığında bizim qəhrəmanımızın 75 yaşı vardı. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının sədriydi. Biz SSRİ-nin dövlət xadimlərinin Kamran Hüseynova bəslənən birgə işləmək, onun təcrübəsindən yararlanmaq, nəinki yararlanmaq, onu dinamik inkişaf edən fərqli proseslərə qoşmaq marağını qeyd etdik. Əslində o dövrdə Ticarət və Sənaye Palatası digər əsas dövlət strukturları ilə müqayisədə arxa

plana aid ola bilərdi. Məhz onun, Kamran Hüseynovun orada rəhbər olması bu təşkilatın adının həmin qarışıq zamanda da itib batmasına imkan vermirdi. Çünki o, zamanın sınaqlarından keçib bərkimiş, özünü təsdiq etmiş bir şəxsiyyətin rəhbərliyi altında fəaliyyət göstərirdi.

Qəribədir, bəlkə də tarixi şəraitin qanunauyğunluğu – bəhs olunan dövrlərdə işinin həcmindən, miqyasından asılı olmayaraq ən müxtəlif vəzifə və səlahiyyətlər arasında elə bir fərq də qalmamışdı.

Çünki xalq meydana çıxmışdı. Xalq, konkret yanaşılsa, Moskva tərəfindən qızışdırılan, tarixin erməni xislətindən gələn bir yanğın bəlası ilə üzləşmişdi. Düşmən ocaq başındaydı. Xalqın guya hər şeyi var, bununla belə, real həyatda o, heç nəyə sahib deyil. Guya sağaldacaqlar deyə damarlarından o qədər qan çəkiblər ki, millət yarımcan hala gəlib. Guya bütün Sovetlər birliyinin varlığı onundur, guya hər yerə əl çatır. Əsl həqiqət isə başqadır: canın-qanın bahasına yaratdığın on beş sarayın olsa da, gərəkli vaxtda əlin yetməyən evin bir kərpici də sənin deyil. Heyflər olsun, Sovet dövlətinin xoş gələcəyinə inanaraq ömrünü şam kimi əridən insanların zəhmətinə. Bəlkə də bu zəhmət, bəlkə də bu amal uğrunda axıdılan alın təri, şəhidlərin qanı qədər qiymətlidir, əzizdir!..

Tarixin belə bir mürəkkəb aşırımında 75 yaşlı Kamran Hüseynov yaranmış şəraitdən tərpənərək indi bu dəfə müstəqilliyə can atan Azərbaycanın yaradıcı gücünü dünyaya təqdim etmək istəyir, böyük dünyadan vətəninə elə dəyərlərin yol açmasına çalışır ki, onlar vacibdir, gərəklidir. Əslində bu təşkilat Kamran Hüseynovun dövründə Azərbaycan Xarici

İqtisadi Əlaqələr Nazirliyi rolunu oynayıb. Özü demişkən, bu məsələyə, indiyə qalanda isə dünyanın dörd bir tərəfi ilə dolğun əlaqələr quran Azərbaycanda nə üçün xarici iqtisadi əlaqələri nizamlayan mərkəzi icra orqanının olmamasına nəzər salınması heç də pis olmazdı. Çünki bir gün prezident İlham Əliyevin apardığı bəlkə də qlobal xarici siyasət, ölkənin dünya birliyinə sürətli inteqrasiyası məsələsini aktuallaşdırır.

Ticarət və Sənaye Palatasının üstqurum, tanıtma xarakterinə baxmayaraq Qarabağın ruslar və ermənilər tərəfindən od vurulmuş qanlı ocağı qızışmağa başlayanda xalq hərəkatı ölkənin müstəqilliyi yolunda cəsur addımlar atanda yaranmış vəziyyətin nizamlanmasına hansısa bir kömək göstərmək istəyən təcrübəli insanların, ağsaqqalların sırasında 75 yaşlı Kamran müəllimin də adı yada düşürdü. Onu iqtidarın və xalq hərəkatının sözçüləri ölkənin ağsaqqalı adlandırır, onun məsləhətlərinin çıxılmaz vəziyyətə düşən xalqa yardım edə biləcəyini düşünürdülər.

Əlbəttə, müxtəlif qütblərə məxsus mənbələrin üst-üstə düşən mülahizəsi həqiqətə daha yaxın ola bilərdi.

Müstəqillik uğrunda mücadilə, Qarabağ münaqişəsinin meydana çıxması dünənə qədər elitar təşkilat sayılan, öz işi olan, bir qədər qapalı idarənin qapılarını camaatın üzünə taybatay açdı. Atalar demiş, əl yananda adam barmağını ağzına təpir. Ən çətin məqamda ümid yeri həndəvərdən çıxır... Digər tərəfdən, başqa cür necə ola bilərdi, ordan Kamran əminin dabbaqda gönünə bələd olduğu erməni qudura, əsrlər boyu qapısında yallandığı ləyaqətli bir xalqın üstünə cuma, bundan milyon qat əhəmiyyətli olan azadlıq mübarizəsi Bakının küçə və meydanlarını Kür çayı kimi bürüyə... Belə bir vaxtda Kam-

ran Hüseynov düşünə bilərdimi ki, onun rəhbərlik etdiyi təşkilatın konkret nizamnaməsi var, heç bu işlərə qarışmasalar, yaxşıdır...

Bu yanaşma ona yaddır. Palaza bürün, elnən sürün. Xalq hardadır, Kamran ordadır. 75 il belə olub, indən sonra da 75 il yaşasa, belə olacaq. Əbədiyyətə qədər belə olacaq.

Ağır məqamlarda o qapısını döyən hər kəsə, istər qapını döyən meydandan gəlsin, istər iqtidar sarayından – real vəziyyətdə necə hərəkət etmək barədə nə düşündüyünü, çıxış yolunu – onun mülahizəsinə görə - nədən ibarət olduğunu deyirdi. Bər-bəzəksiz heç bir şəxsi ambisiya görmədən deyirdi. Onun, 75 yaşlı azman kişinin düşüncə və arqumentləri aktual səslənirdi.

Bu romanın müəllifi xatırlayır ki, 1988-1992-ci illər ərzində müxtəlif mətbuat təşkilatlarından Kamran Hüseynovun üstünə "əjdaha" müxbirlər göndərilmişdi ki, onlar "cəridələrinə" Heydər Əliyevi "ifşa" edən sözlər toplasınlar. Həmişə onun sözü bir olmuşdu: Heydər Əliyev Azərbaycan xalqının böyük oğludu. Hər bir millət fəxr edə bilər ki, onun arasından belə parlaq şəxsiyyət yetişib. Gedin, işinizlə məşğul olun. Biz kimik ki, Heydər Əliyevə qiymət verək, onun qiymətini xalq və zaman verib". Bununla yanaşı, o, erməni təzyiqi altında səksəkəyə düşüb, yerindən qopmaqdan başqa ayrı bir çarəsi qalmayan həmyerlilərinin – Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam, Şuşa, Kəlbəcər, Xocalı, Ağdərə, Xocavənd, Xankəndi camaatının halına biganə qala bilmirdi. Sonradan meydana çıxan xatirələrdən də görünür ki, ömrün ən yetkin yaşına çatan 80 yaşlı Kamran Hüseynov başqa qocalardan fərqli olaraq, məsələn, Qubadlının ən ağır çağlarında el

obasının içinə gedib. Həmin xatirələrdən belə çıxır ki, sanki erməni basqınları davam etdiyi anda o sadəcə olaraq el ağsaqqalı, nə zamansa bu torpaqlarda doğulmuş siravi vətəndaş deyil, sənədli-sübutlu komandandır və baş verən hər bir hadisənin məsuliyyəti onun üzərinə düşür.

Eyni zamanda, 1988-90-ci illərdə bu ahıl insanın ürəyi hünər və qəzəblə qaynayan Bakının meydanlarında döyünürdü". Əbülfəz Elçibəyin, Bəxtiyar Vahabzadənin, Aydın Məmmədovun, Sirus Təbrizlinin, Sabir Rüstəmxanlının xalq kütlələri qarşısında səsləndirdikləri çıxışları eşidir, özünün də mənsub olduğu xalqın dönməz iradəsindən fərəhlənirdi... Bununla yanaşı, o, həmin o dəhşətli qarmaqarışıqlıqda çox illər qabaq "Beləlөri də var" deyən şair qardaşı Səməd Vurğunun da yanğısına şərik çıxırdı...

**Şeir**

Ürəyi buz, nəfəsi qar
az işləyib çox qazanar
İşləyənə ağız burar
ev də yıxar asta-asta...

Eh, buqələmunlar, buqələmunlar... Kim deyir ki, onların kökü kəsilib, sadəcə rənglər dəyişib, rənglər...

**Salnamə**

"Xəzərdənizneftqaz" sərgisinin açılışına baxmağa getdim. Yeni rəhbərlər mənə dəvətnamə verməyi unutmuşdular. İçəri

buraxmadılar. Çıxdım çölə, gördüm uşaqlar sərginin dəvətnaməsini 1000 manata satırlar. Bir az fırlandım. Öz-özümə düşündüm: Kimə nə var axı bu 50 milyonluq binanı plana saldıran mən olmuşam. Niyə heç bir konkret işdə fəaliyyəti olmayan adamlar, hazırın nazirləri belə xidmətləri tez unudurlar?

Azərdənizneft idarəsinin baş rəisi Qurban Abbasovu haqsız olaraq tutduğu vəzifədən cəbhə rəhbərləri kənara atanda müraciət etdim ki, çox lazımlı adamdı. Qurban Abbasov bütün sağlam həyatımı Azərbaycan neft sənayesinin inkişafına sərf etmiş adamdı. Prezident Elçibəy dedi ki, bu işdən xəbəri yoxdur

Qurban Abbasovu mən çox yaxşı bir insan, neftçi, neftin inkişafı yolunda bacarıqla çalışan adam kimi tanıyırdım. O, bərk xəstələndi. Böyrəklərinin ikisi də funksiyasını itirdi. Eşitdik ki, SSRİ Səhiyyə naziri V.V. Petrovski xaricdən hər biri 750 min dollara iki qan təmizləyən aparat alıb. Getdim onun yanına. Moskvada işləyəndə onunla ailəvi tanış idik. Çox böyük mübahisədən sonra dedim ki, Qurbanın vəziyyəti çox gərgindi. O, neft yolunda daim vicdanla çalışıb, bu xəstəliyi dənizdə tapıb, indi ona kömək lazımdı. Çox minnətdaram. Ölkəyə aldığı 2 aparatın birini bizə verdi. Qurban Abbasov həftədə bir-iki dəfə gedib xəstəxanada qanını azotdan təmizləyirdi. O aparat çoxlarının dadına çatdı. Eşitdim kı, evdə çox ağır xəstədi. Bacısı oğlu ilə getdim evlərinə. Gördüm ki, həyat yoldaşı qaşıqnan ağzına süd tökür. "Bıy, Kamran qardaş, gəlib məni burada da tapdın?" Mən başladım ona süd içirməyə. Halı bir az yaxşılaşdı. Sonra mənə dedi ki, məni apar yataq yerinə. Aldım qucağıma, apardım

qoydum yerinə. Bizim bir-birimizə çox dərin məhəbbətimiz vardı. Əfsuslar olsun ki, bu, Qurbanla son görüşümüz oldu.

1993-cü il idi. Bir gün həmişəki kimi fıkrimi cəmləyib keçmiş taleyim barədə qeydlərimi qaydaya salırdım. Axşam saat 11-də Nazirlər Kabinetindən məni söhbətə çağırdılar. Görürdüm ki, nədənsə sıxılırlar, çəkinirlər. Nəhayət, Ticarət-Sənaye Palatasını indiki səviyyəsinə çatdırmağımdan, Palatanı dünyada tanıtmağımdan, mənə olan hörmətlərindən uzun-uzadı danışdılar. Onlar danışır, mən dinləyirdim. Başa düşürdüm ki, dəstəbazlar mənim yerimə kimisə hazırlayıblar. Bu sonu görünməyən tərifnamələr boş şeydir. Sözlərini yarımçıq kəsdim:

- Deyin görüm, niyə çagirmısınız? Hər halda, əsas məqsədiniz məni üzümə qarşı tərifləmək, fəaliyyətim barədə söhbət etmək deyil. Nə demək istəyirsiniz? Nazirlər Kabinetinin sədr müavini Əsgər Məmmədov çəkinə-çəkinə basladı: "Vallah. Kamran müəllim, mən sizi çox istəyirəm, respublikada da hörmətiniz böyükdür. Bu mənim təklifim deyil, amma tapşırıblar ki, sizə mən deyim: Siz o vəzifədən getməlisiniz.

Dedim:

- Yoldaş Məmmədov, bilirsiniz, nə var? Məni bu təşkilata məcburi göndəriblər. Nazirlər Sovetində on üç il işləyəndən sonra özüm dedim ki, daha işləmək istəmirəm. Çünki bəzi cəhətlər xoşuma gəlmirdi. Bir kisə sementdən ötrü adama 5 il iş kəsirdilər. Fərdi təsərrüfatların, inşaatın qarşısı tamam kəsilmişdi. İşdən çıxandan sonra H. Əliyevin təklifi ilə məni respublika Ali Sovetinə deputat seçdilər.

O vaxt Azərbaycan Ticarət və Sənaye Palatasının planı o biri respulikalardakı palataların planlarından 5-6 dəfə aşağı idi. Özü də intriqa, çəkişmə yuvası idi. Bircə də sınıq-salxaq maşını vardı. Ümumi planın həcmi 280 min rubl idi. Bir dollar da valyutası yoxdu. İndisə Palatanın 6 ədəd maşını var. Planının həcmi 280 min rubldan 32 milyon rubla çatıb. Hesabında 200 minə qədər ABŞ dolları var. Bir çox ölkələrin Ticarət-Sənaye Palataları ilə əlaqə yaratmışıq. Azərbaycan Ticarət və Sənaye Palatası Ərəb ölkələri Birləşmiş Palatalarınm üzvüdü. İslam ölkələri Ticarət və Sənaye Palatalarının üzvü, "Qızıl Merkuri" mükafatına layiq görülüb. İndi mən nə adla buradan getməliyəm? Elə məqam da yetişib ki, respublikanın iqtisadiyyatı faciəvi surətdə tənəzzülə doğru gedir, amma biz Palatanı qoruyub saxlamışıq. Bu təklifı verməkdə məqsədiniz nədir? Məgər o vəkilə iş tapılmır? Nə iş görüb o? Guya ki, seçki zamanı böyük fəaliyyət göstərib! Yalandır. O sizin yaxanızdan əl çəkmir, vəzifə istəyir. Mən bu məsələdə sizə xəyanətkar kimi baxıram. Mən sizin bu qayda-qanununuza lənət oxuyuram!

Sizin nəzərinizə çatdırım ki, Prezident Elçibəyin yanındakı iclasda məndən söhbət düşəndə o deyib ki, Kamran Hüseynov çox sanballı, mötəbər adamdır. Onun respublikada böyük zəhməti, hörməti var. Kamran Hüseynov hamımızm ağsaqqalıdır. Bəs elə isə, bu məsələ haradan pırtlayıb çıxıb?

Bütün bunlara baxmayaraq, Nazirlər Kabineti, Prezident Aparatı  özlərini oda-gözə vurub iclas çağırdılar, bu qərarı səsə qoydular. Cəmi 3-4 nəfər səs verdi. Qərar qəbul olundu ki, Kamran Hüseynov vəzifədən azad edilir; məvacibi, telefonu, maşını saxlanılmaqla müşavir təyin edilir. Halbuki mən o vaxt məzuniyyətdə olmuşam.

**Müəllif**

Özünün dediyi kimi, yeni hökumətin digər sahələrdə də baş verən belə "demokratik kadr dəyişikliyinə" qədər, daha dəqiqi, 1987-1993-cü illər arasında Kamran Hüseynov ahıl yaşda olmasına baxmayaraq qeyrətli (başqa sözlə ifadə etmək olmur) bir həyat yaşadı. Bəlkə də buna həyat demək olmaz, hər nəfəs dərimi ilə el dərdi çəkdi, Qarabağ münaqişəsi nəticəsində çöllərə tökülən insanların halına yandı. Bəzi gecələr hamı dağılışıb gedəndən sonra dağ boyda kişi evinin bir küncünə çəkilib gözlərindən yaş axıtdı. Əli hara çatırdı ki, "düşmən qəvi, tale zəbun"...

Qərarı verənlər çox təəssüf ki, Kamran Hüseynovun işdən çıxarılmağının mümkün olmadığını, bu adamın bələyə vəzifəli doğulduğunu, məzara vəzifəli gedəcəyini dərk etmək imkanına malik deyildilər.

**Şeir**

Divara darı misal yeridirəm canımı,
Fərq eləməz qocayam, ya cavan yaşındayam.
İl-müdam oda tutub, əridirəm canımı,
Bəlkə də, milyon ildi vəzifə başındayam.

Fikrimi dağıtmağa can dolusu ah verib;
İçimdən külək qalxır ələm, qüssə boğanda.
Ərizəsiz, filansız əmrimi Allah verib,
Vəzifəli doğubdu anam məni doğanda.
Xoş bir xəbər canına qüvvət verir zəifin –
Xeyirə yazmaq gərək ən xatalı yuxunu,
Gecə-gündüz yatmayıb qorumaqdı vəzifəm
Günəşin paklığını, Ayın bəyaz ruhunu.

Fərman bu, düşüncənin südünü sağmalıyam
Nə ki baş var kasası ağız-buğuz dolunca,
Susuz çöllər görüncə kükrəyib yağmalıyam,
Halına yanmalıyam şah palıddan otacan.

Kabinetim, stolum...
heç dünəndən olmasın;
vəzifəm günah sayır xəlvətə çəkilməyi.
Barmaqlarım tökülsün, telefonum çalmasın
nə qədər ki, hər cana telefon çəkilməyib,
nə qədər ki, vicdana telefon çəkilməyib.

Vəzifəm çətin peşə, həm də şərəfli əmək,
Vəzifəm düzəltməkdi nə əməl var tərsinə.
Sinəmlə daxmaları rüzgarlardan gizlətmək,
bir az nəşə qatmaqdı suyun dərdli səsinə.

Möhtaca öküz kəsib, dəvəmi doğrayaram,
nə oğula, nə qıza dəyişərəm adımı.
Vəzifəmə xor baxsa nəvəmi doğrayaram,
alçaltsa vəzifəmi boğaram arvadımı.

Şaham,
divanım gülər sözlər üzümə gülsə,
Haqq kəlməni satmaram...
Yana-yana çəkib dad
anam gordan dikəlsə,
durub qapıma gəlsə,

desə ki, haqq sözü sat –
deyərəm, kiri, arvad!

Canımı boğazımdan dartıb qoparda biiər
Zalım odlar yandırar,
basıb keçər su məni.
 Bəli, Allah cənnətdən qovub çıxarda biiər
 Çıxarda bilməz amma vəzifəmdən O məni!

Gözə də soxmuram heç işimin çoxluğunu,
İşimi sahmaniayan yaradanın əlidi.
Vəzifəsi var əlbət əbədi yoxluğumun –
 Çünki qərib qəbrim də böyük vəzifəlidi.

Seçkim ali seçkidi, taleyimdi öhdəlik,
Əhdimdən dönər olsam, vücudumu sarar ox!
Vəzifəmə səs verib qoca cəddim,
                                         üstəlik
Tanrının qərarıdı, ondan uca qərar yox!

Onsuz kim sayar məni,
odur iman-pənahım;
vəzifəmin quluyam,
vəzifəm var, mən varam.
Şərləyərəm Günəşi, Yeri, Göyü, Allahı,
Canı rüşvət verərəm,
vəzifəmdən çıxmaram!

İndi siz deyin görüm, mən tək iqtidar hanı,
Vəzifə pilləsinin neçənci qatındayam?
Sərvətim təmiz dəri, müdaram ürək qanı...
Adam məmləkətində,
insan ştatındayam!

**Salnamə**

Erməni millətçilər 1988-ci ildə azərbaycanlıları Ermənistandakı öz dədə-baba yurdlarından zorla çıxardığı, az sonra Azərbaycanın Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və başqa rayonlarını işğal etdiyi zaman o, yerlərin bir qədər alimi, ziyalıları toplaşıb, fıkirləşdik ki, "əlımizdəki imkanlardan istifadə edib, bu qaçqınlara yardımçı olmaq üçün bir cəmiyyət yaradaq. Onun nizamnaməsi olsun. Uzun müddət belə bir cəmiyyət barədə söhbət ve çıxışlar olub. Lakin Ticarət ve Sənaye Palatasında sədr işləyəndə bir neçə nümayəndə geldi, xahiş etdilər ki, bu iclasa qatılım, cəmiyyətin təşkil olunmasına rəhbərlik edim. Qabaqca bu təklifi qəbul etmədim. Ona görə ki, cəmiyyətin imkanları, maliyyə vəziyyəti aydın deyildi. Razılığa gələ bilmədik. Ikinci dəfə köməyim istənilədə 1992-ci ıl martın 20-də iclasa getdim. Çox izdihamlı iclas idi. Düşmənə qarşı hamının nifrəti var ıdı. Xahiş etdiler ki, mən də bu işe qoşulum. Dedim ki, bu məsələni dərindən işləyib hazırlamağa vaxt lazımdır.

Düşmən hər tərəfdən respublikaya hücum edir. Öz ərazilərində etnik təmizlik aparır. Boğazınadək başqa hakim dövlətlərin köməyi ilə silahlanıb, qan tökməyə hazır vəziyyətdədir. O vaxt bacarıqsız Azərbaycan hökuməti təcili ordu

yaratmaq, onu lazımi silahla tə'min etmək əvəzinə sərhəd rayonlarının əhalisindən ov tüfəngləri də yığılaraq, saxlanması qadağan edildi. Biz ordunu necə yaratmaq ona necə yardım göstərmək barəsində müxtəlif zabitlərlə, bu, işin mütəxəssisləri ilə təkliflər işləyib hazırladıq. Eyni zamanda partizan hərəkatı, dağıdıcı və qırıcı batalyonların yaranması bu təkliflərdə öz əksini tapırdı. Respublikada lazımi silahların hazırlanması məsələsi də qaldırıldı.

Nazirlər Kabinetinin iclasında çıxış etdim. İclası Nazirlər Kabinetinin sədri Fehruz Mustafayev aparırdı. Ona müraciətlə dedim: "Siz belə çox arxayın, mehriban iclas aparıb, dağılırsınız. Bəs sizin xəbəriniz yoxdur ki, cəbhədə düşmən tərəfindən nə qədər adam şəhid edilir? Bir zavod kollektivinin məsuliyyətini zavod direktoru daşıyır. Bir kolxoz kollektivinin məsuliyyətini kolxoz sədri daşıyır. Bəs bu 7 milyon əhalinin müqəddəratını kim daşıyacaq? Azərbaycan hökuməti bu məsələni həll etməlidi. Onu qorumalıdı, saxlamalıdı.

Biz ikinci dünya müharibəsində Azərbaycanda çoxlu silah istehsal edirdik. Halbuki imkanımız indikindən qat-qat az idi. İndi biz niyə silah istehsal edib ordunu təmin etmirik? Hətta belə təklif olundu ki, indi istehsal olunan neftin bircə kənd təsərrüfatının, səhiyyənin və elektrik stansiyaların payını saxlamaqla, qalanlarını ordu üçün silahlar almağa yönəltmək lazımdır. Əfsuslar olsun ki, Azərbaycan hökuməti heç bir fəaliyyət göstərmədi. Ordunu yarada bilmədi. Yaranan orduya silahı alıb verə bilmədi. Düşmən bunlardan istifadə edərək ürəyində saxladığı ədavəti, kini üstümüzə tökdü, başqa dövlətlərin silahları ilə yaraqlanıb azərbaycanlıları öz doğma yurdlarından qovmağa nail oldu.

Bu yandan da dövlət göstəriş verib ki, qaçqınların qabağını Əli Bayramlıda kəsin. Bakıya və Sumqayıta gəlməsinlər. Xalqın bu faciəli dövründə var-yoxundan məhrum olmuş adamlar Bakıda, Sumqayıtda qohum, tanış, dostların yanında, yataqxanalarda, sanatoriyalarda, bağlarda çox çətin də olsa yerləşirdilər. Cəmiyyətin üzvləri çoxlu rayon və bölgələrdə oldular. Gəncə ilə Xanlar rayonları arasında Azərbaycan KTİ təzə tikilmiş şəhərciyində Kəlbəcərlilərin, Laçınlıların bir hissəsi sığınacaq tapdı, Sarıqayada, Ceyranbatanda, Sumqayıtda, Bakıda və onun ətraf rayonlarında Qubadlı, Zəngilan, Cəbrayıl və başqa rayon qaçqınları yerləşdilər.

Onların uşaqlarının məktəblərdə təhsil almasına yardımçı olmaq, istedadlı uşaqlara xüsusi kömək etmək daim cəmiyyətin qayğısı olub. Çarəsizlərinə, xəstələrinə dərman haqqı verilməsində köməklik edilib

Mən Mingəçevirdə, Gəncədə, Xanlarda, Goranboyda Yevlaxda olub. Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın rayonlarından olan müxtəlif işgüzar yoldaşlarla görüşmüşəm, zərərçəkənlərə imkan dairəsində arxa durmuşuq. İctimaiyyətin gücü ilə mümkün qədər Zəngəzur Cəmiyyətləri Birliyi bu işi yoluna qoymağa çalışıb.

Cəmiyyətin əsas məqsədi öz torpağını məcburi tərk edib, didərgin düşmüş adamların yerləşmələrinə, məskunlaşmalarına kömək etmək idi. Uşaqlar dərsdən ayrılmamalı, müəllimlər işsiz qalmamalıydı. Xəstələrinə yardım göstərilməliydi. Bu çox çətin məsələ idi. Cəmiyyətin üzvləri qaçqın və köçkünlərin Bakıda, onun rayonlarında, Sumqayıtda, onun bağlarında yerləşməsində kömək etdilər. Suyu, qazı, işığı olmayan yerlərə su çəkdirmək, yarımstansiya tikdirmək, dükan

açdırmaq, nəqliyyat işləməsini təşkil etmək cəmiyyətin qayğısı olub.

Qaçqılığın birinci illərində respublikanın çox qayğıkeş adamları imkansızlara ciddi yardım göstərdilər. Elələri oldu ki, 50-60 adamı uzun müddət öz himayəsində saxladı.

Mən burada xüsusi ilə Sevil xanım Məmmədəliyevanı qeyd etmək istəyirəm. Onun şirkəti böyük imkanlara malik olmasa da, qaçqınlığın birinci günlərindən əlliyə qədər ailəni dolandırır. Onun qardaşı demək olar ki, müstəsna qayğıkeş adamdır.

Zəngəzur məsələsi çox mürəkkəb məsələdi. Bu diyar Azərbaycan tarixində görkəmli alim, vətən qəhrəmanları, mübariz oğul və qızlar yetişdirib. Yadelli düşmənlər daim çalışıblar bu diyarı Azərbaycandan ayırsınlar. Lakin Azərbaycan heç vaxt özünü Zəngəzurdan ayırmayıb. Zəngəzur Cəmiyyətləri Birliyində fikirləşirdim ki, biz indi ümumi Zəngəzur problemi ilə məşğul olaq, yoxsa bu gün çətinliklə dolanan qaçqınların vəziyyəti ilə? Məsləhət oldu ki, hələ bu qaçqınların dərdinə şərik olmaq lazımdı. Ümumi Zəngəzur problemi yaddan çıxan iş deyil. Qaçqınlar öz yerlərinə qayıdandan sonra onun həllini düşünərlər. Qaçqınlarla məşğul olub, onların daha dərin fəlakətə düşənlərini axtarıb tapır, siyahısını tərtib edir, yardım göstərən şirkətlərə verirdik. Toplanan yardımı onlara paylayırdıq. Yardım alanların da hərəsi bir diyarda yaşayır.

Çox gənc vaxtlarımdan Qubadlı rayonundan çıxmışam. Lakin bədnam erməni daşnaklarının respublikamızın torpaqlarına basqını dövründə cəbhə bölgələrinə getdiyim zaman Qubadlı rayonunun da bir çox sərhəd kəndlərində oldum.

Laçının, Zəngilanın, Cəbrayılın kəndlərinin vəziyyətini gördük. Kəndlilərin hamısı öz yurdlarını qəhrəmancasına qoruyublar. Bir qarış da torpaqlarını ciddi döyüşsüz verməmişdilər.

Lakin vəziyyət gərgin olaraq qalırdı. Qubadlı rayonuna düşmənin atəş açmasına baxmayaraq, 1993-cü il avqust aymda orada izdihamlı aktiv keçirildi. Məruzə ilə çıxış etdim. Bütün rayon aktivlərinə müraciət elədim ki, orduda xidmət edən əsgərlərə yardım göstərsinlər. Yoxlama zamanı hiss olunurudu ki, ordunun ərzaqla təchizatı yarıtmazdır. Orduya lazım olan təchizat malları Imişlidən gəlir. Çoxu da keyfiyyətinin itirmiş. Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarında heyvandarlığın aşıb-daşan vaxtı ordu ehtiyac içərisində dolanırdı. Təklif olundu ki, hansı kənddə ordu yerləşirsə, onları həmin kəndlər heyvandarlıq məhsulları ilə təmin etsinlər. Əfsuslar olsun ki, rayon başçıları bu işə vaxtmda və lazımınca fıkir verməmişdilər.

Bizim yaxın qonşumuz olan Ermənistanın məşhur incəsənət xadiminin "Kultura" qəzetində çıxışı onun adına, tutduğu mövqeyə zidd olan bir çıxışdır. Xoren Abramyan öz təhqirli çıxışında deyir ki, bizim guya Ermənistanı əhatə edən türklər, azərbaycanlılar yetişməmiş, kor-koranə adamlardır. Guya elə buna görə də onlar lazımi səviyyədə inkişaf edə bilmirlər. Mən onun təhqirli sözünə qoşulmaq istəmirəm. Ancaq o bir qədər diqqətlə dərindən maraqlansaydı, görərdi ki, bütün illər boyu Ermənistan yanacağını neft, yağ və cürbəcür avadanlıqlarını, yüngül sənayenin bütün tələbatını ödəyən onun dediyi kor-koranə, o "geridə qalmış" adamlar olub .

Azərbaycanın ən gəlirli yerlərində işləyənlərin çoxu ermənilər olub. Millətlər arasında fəlakət tumu səpən də onlar

olub. Görün Azərbaycandan gedən ermənilәri necә lazımi sәviyyәdә yola salıblar. Xәbәr ala bilәrsiniz. Qarabağın Zәyli kәndindәn qәbiristanlıqda işlәyәn fәhlә Zavendәn, onun oğulları Robert, Emin, Pavlikdәn ki, biri mühәndisdir, biri Tibb İnstitutunu bitirmişdir, elәcә dә qızı necә Bakıdan yola salınıb.

Eyni zamanda siz deyәn "dünya görüşü" olan millәtin nümayәndәlәri öz doğma yurdundan 200 min azәrbaycanlıları qışın qarlı günündә o dağlardan ayaqyalın, başıaçıq, hәr bir şeylәrini әlindәn alıb, böyük cәfa verәrәk qadınları, uşaqları, qocaları necә zülümnәn Ermәnistandan qovub, çölә töküblәr.

Mәn hәlә Xocalı faciәsini demirәm. Bu görülmәmiş bir vәhşilikdir. O siz deyәn "dünya görüşü" olan adamlar tәrәfindәn törәdilmişdi. Bu vәhşilik hәlә cavabını gözlәyir.

Dünәn çörәyini yeyib, sabah vәhşilik törәdәnlәri başa salmaq lazımdır ki, siz bu regionda necә yaşayacaqsınız? O şovinizm, millәtçilik hissiyyatından daşının. O, ermәni xalqının da başına az fәlakәt gәtirmәyib. Millәti qızışdırıb yeni-yeni fәlakәtlәr törәtmәyin. Elә eylәyin ki, tovuz quşu kimi sonralar görüşәndә ayaqlarınızı gizlәtmәyәsiniz.

O vaxtları yararsız, bacarıqsız Azәrbaycan hökumәti dünya ictimaiyyәtinin fıkrini bu vәhşiliyә cәlb etmәdi. Onlar başa düşmәdilәr ki, ermәnilәr-daşnaklar Ermәnistanda etnik tәmizlәmә apararaq, sabah Azәrbaycanın başqa bölgәlәrinә hücum edәcәklәr. Ermәnilәr özlәrindәn birisinin törәtdiyi yersiz hәrәkәti, dәrilәrindәn çıxaraq, müdafiә edirdilәr. Bәs harda itib-batmışdı avara-bacarıqsız, heç bir fәaliyyәti olmayan, praktik işdә özünü göstәrmәyәn Azәrbaycan baş-

çıları?! Respublikanın müqəddəratı tapşırılmışdı onlara. Xalqı düşmənə qarşı təşkil edib, silahlandırıb vətəni qorumağı bacarmadılar. Əksinə, camaatda olan quş tüfənglərini də yığdılar.

Düşmən Azərbaycan rayonlarını bir-bir işğal edirdi. Başsız rəhbərlər də ordu yaratmaq, onu silahla təmin etmək əvəzinə, bir- birinə ləkə vururdular. Hərbi nazirlərini tez-tez dəyişməklə məşğul idilər. Bu ağır vəziyyətdə Nazirlər Sovetinin gülüşə-gülüşə iclas keçirirdilər.

**Deyilmişdir**

Ömrünün bitməyinə beş dəqiqə qalanda da özünü darıxdırma. Çalışıb yaxşı əmələ sahib olmaq üçün dörd dəqiqə də yetər.

**Novxanı. Qızılqaya**

1999-cu il. Payız. O, həyatını qələmə alır. Bu həyəti siz tanıyırsız artıq. Elə mən də tanıyıram. Artıq ikinci gündür ki, bir yerdəyik – o, siz, mən... O düşünür, biz səsimizi içimizə çəkib onun nə düşündüyünü eşitmək istəyirik. Bəli, eşitmək. Allaha and olsun, bir-birini anlayan könüllərin dincliyində insanlar düşüncənin səsini də eşidirdilər. O yazır, indi biz xatırlanaraq yazılmış vərəqlər üstündəki fikirləri deyil, ya da düşmədiyinə, xatırlanmadığına görə ağ vərəqlərə yazılmayanları da oxumaq qüdrətinə malikik...

Çünki biz Kamran Hüseynovu tanıyırıq – kimi ata kimi, kimi dost, kimi əmi, kimi dayı, kimi də soydaş, vətəndaş kimi...

...O, sonuncu cümləyə nöqtə qoydu. "Bir ömrün salnaməsi" hazır idi. Əlinin altındaydı. Çox keçməyəcək, kitab iki dildə - Azərbaycan və rus – çap olunacaq, əl-əl gəzəcək. Əgər yadınızdadırsa, biz əsərin qələmə alındığı iki payız gününü müşahidə etmişdik. Lakin o, Salnaməni 1992-ci ildən yazmağa başlamışdı. Nəhayət ki, Allah yol açdı, o, ömür tarixçəsini danışıb başa vura bildi.

Pis alınmadı. Əslində, "Bir ömrün salnaməsi" insanın və zamanın qoşa çəkilmiş şəkli idi. Görünür, elə buna görə də fərdi çərçivəni parçalayıb ictimai dəyər kəsb edən əsər rezonans doğurdu. Bu, həqiqətən də kitab idi. Kiril əlifbasında çap olunmuşdu. Bu əlifba artıq həmin vaxtlarda oxucu və müəllif təmaslarına mane olurdu. Digər tərəfdən, orada dəqiqləşdirmələrə ehtiyac vardı. Beləcə, "Quruculuğa həsr olunmuş ömür" əsərinin meydana çıxmasına zərurət yarandı.

...Yaz qədər xoşa gələn qış davam edirdi. Böyük, həm də kifayət qədər dolaşıq həyat yolu keçən müdrik qocanın, demək olar, şikayətlənməyə heç bir əsası yox idi. Azərbaycan müstəqilliyə qovuşmuşdu. 1993-cü ildən onun kürək söykəyib, ümid bəslədiyi bir insan – Heydər Əliyev hakimiyyətə gəlmişdi, onun əməyini layiqincə qiymətləndirmişdi. Şöhrət ordeninə layiq görülmüşdü, prezidentin fərdi təqaüdünü alırdı. Heydər Əliyev vaxt tapanda telefon açıb kefini soruşur, məsləhət və arzularını dinləyirdi. Ata qayğısını əsirgəmədiyi övladları sarıdan arxayın idi. Hamısı çalışır, işləyir, hamısının layiqli ailəsi... Təkcə o yox idi – Zeynəb, balalarının anası. Yeddi il bundan öncə qadın dünyadan köçmüşdü. Və heç kəs onu əvəz edə bilmirdi...

**...Bir ildən sonra**

Yenə də Novxanı, Qızılqaya...bu dəfə may... Artıq o, ömrün qışındadı. Qışın tən otasında. 2000-ci ildi.

Şükür ilahinin kərəminə, ömür keçdi, gün keçdi... Nə az, nə çox, 66 il bundan qabaq 21 yaşlı Kamran Çərəlidən çıxıb Akara stansiyasına gəldiyi, yekə bir vaqonu çəltiklə doldurub iyirmi manat qazandığı, həmin o iyirmi manatın on manatını çəlimsiz həmyerlisi Məhərrəmə verdiyi, sonra da iki yüz Qubadlı uşağıynan qatara minib Bakıya yetişdiyi gün də yazın axar-baxarlı vaxtına təsadüf edirdi. İndi maydır. Onda da may idi. İndi bütün həyatını xalq işinə həsr edən bu müdrik qocanın ehmal addımlarla gəzib dolaşdığı həyətdə gül-çiçək əlindən tərpənmək olmur. Torpaq yaşamaq dəlisidir! Gül açmayan kol, ağac qalmayıb. Ağacları kötüyünəcən gül basıb, belə getsə, hasarın mişar daşları da göyərəcək. Kim deyir ki, bu dünyanın qara daşı göyərməz?..

"Bir ömrün salnaməsi"nə istinadən işlədiyi "Quruculuğa həsr olunmuş ömür" kitabının əlyazmasını sonuncu dəfə nəzərdən keçirir. Bu dəfə əsər latın qrafikası ilə yığılıb, kompüterdə, sabah nəşriyyatdan gəlib aparacaqlar. Ona elə gəlir ki, eşidib, görüb, bildiklərinin olsa-olsa, fraqmentləri toplanıb bu kitaba.

Yəgin ki, belədir.

Çünki insan ömrü kitaba sığmaz! Bəlkə də insan həyatına dəyər verilərkən əbədi və böyük davamiyyətə verilən töhfələr əsas götürülməlidir. Bəşəriyyətə həsr olunmuş ömür bəşəri ömürdür, həyatın yerdə qalan hissəsi ömür statistikası. Yer üzünə milyardlarla insan gəlib gedib, biz onlardan çox az bir qisminin adı və əməli barədə məlumatlıyıq.

Xalqımız üçün dəyərli olan adlardan biri qəhrəmanımıza aiddir – Kamran Əsəd oğlu Hüseynova.

Sonra o yeni kitabını gördü.

Quruculuğa həsr olnumuş ömür...

O, kitabı sonsuz bir həyəcanla vərəqlədi. Sanki ömrünün günlərini nəhayətsiz bir təşbeh kimi günbəgün dənələyirdi. O təşbehin 33 945 dənəsi vardı. Nədən ki Kamran əmi bu işıqlı dünyada 33 945 gün yaşadı.

Quruculuğa həsr olunmuş ömrə nöqtə qoyandan sonra Allah-təala müqəddəs Mirseyid Nigarinin ruhunu daşıyan bu adama imkan yaratdı ki, dörd-beş il dincəlsin.

Kamran Hüseynov 2006-cı il aprel ayının 19-da dünyasını dəyişdi.

Biz onun ölümü ilə bağlı araşdırma aparmadıq. Çünki Kamran əmi sonu nikbinliklə, qəhrəmanların qələbəsi ilə bitən kitabları xoşlayırdı.

Onu Fəxri Xiyabanda dəfn etdilər. Ömrün beşinci fəslini istəkli oxucuma anlatmaq üçün 2013-cü il dekabr ayının 1-də sübh tezdən həmin o müqəddəs məkana getdim. Vətən torpağının altında hifz olunan həmişəyaşar unudulmaz insanlarının hər birinin ruhu qarşısında baş endirib təzim edərək sonda Kamran əminin Allah tikən dörd divarının üstünə tər çiçəklər düzərək bu şeri pıçıldadım:

**Şeir**

Dəli zəncirə öyrəşən kimi
alışıram dar otağımın
dinməz dörd divanına,

Pərdəsinə toxunuram necə ki,
təzə bəy toxunar təzə gəlin paltarına.

Tavanı göy üzüdü,
közərən işığı uzaq ulduzudu,
Pəncərəsi - qız gözüdü...
Rahatam, elə rahatam –
tabutda ölü kimi,
Dörd divar içində
oxuyuram yalqız
qəfəs bülbülü kimi.

Baxma ki, başımdan çıxan tüstü
tava boyu burulur,
Könlüm bir dolça sudu,
yalnız burda durulur.
Dörd divarım, daş paltarım!

Dörd divar içində hər gün
dəhmərləyirəm canımı
ruzgar atı kimi,
Dörd divar üstündə
çapıqlar qaralır
ürəyimin çatı kimi.
Ömrümün dörd divarı,
heçdi dünyanın varı...
Axırda bizə qalan bir tavandı,
dörd divar,
Öləndə insanı gərək
divanından tanıyalar!



# Epiloq
# və yaxud ilin beşinci fəsli

...Bu sətirlərin yazıldığı payızın son ayı bazar günü sübh tezdən həyətə düşürəm. Gözümə görünən hər şeyə – məhlənin ortasında daşdan hörülmüş dipçək-dipçək yosma kollara, bir az aralıdakı bağçadan görünən uca boylu ağaclara, quş səsinə, göy üzündən seyrək-seyrək keçən buludlara, o buludlar arasından yer üzünə çilənən gün işığına... hər şeyə, hər şeyə salam vermək istəyirdim. Həqiqətən də, səhərin salamının lütfü başqa olur. Onda təmizlik var, bərəkət var, xeyir-dua var.

**Şeir**

Baxma, dan ulduzu indicə doğub –
bu səhər ki var ha,
                    Allah yaşdadı!
Səhər kal yuxudu,
                    Allah bal yuxu –
səhər salamının lütfü başqadı.

Qüruba yol gedən karvandı zaman
Sarbanı səhərdi,
səhər başdadı...
Sübhdən yola çıxan yetişər kama –
Səhər salamının lüftü başqadı.

Bəxtəvər başına, işıq yolçusu,
Üfüq ki, ağardı;
                    həyat başladı...
Sübhün qədəminə səp bir dolça su –
səhər salamının lütfü başqadı.

Ata var, çürüyüb torpağa dönüb
Ana var, ağ alnı qara daşdadı.
Onlara salamla başla hər günü –
Səhər salamının lütfü başqadı.

Nə ox qap, nə daşı yığ ətəyinə,
Qorxma, balan darda, ya savaşdadı...
Baş endir səhərin ağ ətəyinə –
Səhər salamının lütfü başqadı.

**Deyilmişdir**

Kimin ki, bu dünyada yaxşı qonşusu yoxdur, günah onun özündədir. İdeal qonşuluq qəbistranlıqda olur.

Dünya ilə salamlaşa-salamlaşa gedirdim. Ziyarət yerinə nə zaman çatmağımdan xəbər tutmadım. Birinci qapı, orta qapı, nəhayət, daim açıq olan son qapının önündə dayandım...

Xatırlayıram, Fəxri xiyabana ilk dəfə ötən əsrin 70-ci illərinin əvvəlində Bakıya siftə gəlişimdə yolum düşmüşdü. O zaman burada, indiki kimi yadımdadı, Həsən bəy Zərdabinin, Səməd Vurğunun, Şıxəli Qurbanovun, Üzeyir Hacıbəyovun məzarlarının önündən keçdim. İndi xiyaban məzarların sayına görə o vaxtkından yəgin ki, bir neçə dəfə böyüyüb. Xudaya, burada kimlər yoxdur? Bizim qəhrəmanın "Salnaməsi"ndə adı çəkilən görkəmli şəxsiyyətlərin əksəriyyəti Fəxri Xiyabanda uyuyur. Yam-yaşıl rəmzi dağ yamacı önündə ulu öndərin əyilməz qaməti ucaldıqca ucalır, ətrafdakı küknar

ağacları ilə eyni bərabərə qalxır. Öndə onun doğmalarının məzarlarıdır: Əziz Əliyev, Zərifə xanım Əliyeva... Və bütün xiyaban içində səliqə və nizamla sıralanan şöhrətli adlar... Bunlar yazıçılar, bəstəkarlar, ifaçılar, alimlər, dövlət xadimləridir. Bütün xalqının ehtiramını qazanmış insanlardır onlar. Bu ehtiram, şübhəsiz ki, ziyalı insanların əməli, onlardan sonra xalqın sərvətinə çevrilən möhtəşəm irslə bağlıdır.

...İndi mən onunla üzbəüzəm, deyə bilmirəm. Çünki son altı ayda həmişə bir yerdə olmuşuq, Kamran Hüseynovun böyük həyat yolu mənim beynimdən, ürəyimdən gəlib keçib. O, ayrı bir yerdə yox, mənim içimdə zəngin həyat romanını vərəqlərə köçürüb. Anadan olub, böyüyüb, Həkəriynən Bərgüşad arasında, Hərtiz dağlarının ətəyində məktəbə getmək imkanı olmasa da, həyatın əlifbasını öyrənib, sonra iki yüz Qubadlı gəncinə qoşularaq Bakıya gəlib. Neft buruqlarında, zavod sexlərində alın təri töküb, zəhmətinin müqabilində pillə-pillə qalxaraq mühüm dövlət vəzifələri tutub. Siz artıq bunları bilirsiniz.

Məzarın sağ və solunda əkilən şam ağaclarının sayı dörddür, arxada da beş ağac sıralanıb. Onlar hələ ki Kamran müəllimin çiyni bərabərində qalxa biliblər...

Qara, boz, qırmızımtıl rəngləri qovuşduran mərmərdən yonulmuş heykəlin üstünə ətrafdakı çətir kimi sıx ağacların ara-bərəsindən gün işığı düşür. Baxışları sakit, təmkinli, bu görünüşdə nöqtənin ucu boyda narahat bir cizgi yoxdu, onun duruşundan ətrafa dinclik yağır...

Mən onu 1990-cı illərin əvvəllərində Azərbaycanın qarışıq vaxtlarında da belə səbrli, ən gərgin anlarda da təmkinini itirməyən, çıxılmaz anlarda dərin ağıldan və zəngin təcrü-

bədən gələn məntiqlə ağsaqqal yolu göstərdiyini müşahidə edə bildim.

İş elə gətirdi ki, Kamran müəllim də, mən də az bir müddətə (təqribən iki il) Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının üzvləri olaraq fəaliyyət göstərdik. Məhz bu seçkilər ölkənin tarixində yetmiş il ərzində olan seçkilərdən kəskin şəkildə fərqlənirdi. 1988-ci ildə xalq meydanlara çıxmışdı, 1990-cı ildə Qanlı yanvar hadisələri baş vermişdi, ölkəni qaçqın-köçkün dalğası bürümüşdü, digər tərəfdən demokratiya, müstəqil yaşamaq iradəsindən doğan ab-hava qapı-pəncərələri döyəcləməkdə idi. Vətəndaşlar, partiyalar, təşkilatlar ilk dəfə olaraq sərbəst şəkildə namizəd irəli sürür, ölkədə gedən ictimai-siyasi proseslərdə millət vəkili statusunda iştirak etmək istəyirdilər.

Namizədlərin irəli sürülməsi, qeydə alınması çox gərginliklə keçirdi. Bax belə bir şəraitdə, vəziyyəti qanuna uyğun olaraq nizamlayarkən, haqqı nahaqqa verməmək, həm də ölkə qarşısında məsuliyyət hiss etmək tələb olunurdu. Komissiya üzvləri özlərini prosesin içində hiss edir, əksər hallarda müraciətlərə həssaslıqla yanaşırdılar. Əli Kərimov Komissiyanın sədri, Məmməd Qazıyev katib, yadımda qalanlardan Cabir Novruz, Əlövsət Baxışov, Xalidə Hasilova, Kamran Hüseynov, Zeynal Nağdəliyev, Sirus Abasbəyli, mən və digərləri üzvlərdik. Mən indi sizə, özü də kitabın epiloqunda oradakı fəaliyyətimizin tarixçəsini danışmaq fikrində deyiləm. İki məqamı xatırlamaq istəyirəm ki, Kamran Hüseynovun xarakterinə məxsus hansısa unudulmuş cizgilər də yada düşsün.

İndi yadımdan çıxıb, Bakı şəhərinin hansı dairəsindənsə Xəlil Rzanın namizədliyi vardı. O vaxt Xəlil Rza, az qala,

xalqın şəriksiz lideri idi, insanlar elə küçədəcə onu görən kimi başına toplaşır, dalınca düşüb gedirdilər. Belə bir vəziyyətdə seçki dairəsindən məlumat daxil olmuşdu ki, Xəlil Rzanın namizədliyinə səs verilən məntəqələrdə yetərsay olmayıb. Hər gün yüzlərlə siyasətçini dinləyərkən mən hiss edirdim ki, Kamran müəllimin ifrat emosionallıqla arası yoxdur. O, hər işin sakit tərzdə, dava-qışqırıqsız, səbrlə həll olunmasının tərəfdarıdır.

Di gəl hər kəsin bir xarakteri, davranış qaydası var. O, bunu da nəzərə alırdı, qarşısındakı insanın davranış tərzindən asılı olmayaraq xalqa xeyirli olan hər hansı bir addımını həmişə müsbət dəyərləndirir və onu müdafiə edirdi.

Nəsə, Xəlil Rzanın seçki məntəqələrində olan vəziyyəti müzakirə olunur.

İcraçı işçi (komissiyanın aparatından) bildirir ki, bu məntəqələrdə seçki baş tutmayıb. Adətən məsələlərə sonda münasibət bildirən Kamran müəllim elə bil nəsə duyur, soruşur:

- Orada niyə seçki baş tutmayıb?

- Yetərsay olmayıb, ona görə.

- Bu ola bilməz, - Kamran müəllim etiraz edir, - Ayrı nə səbəb yazsanız, bəlkə də keçər, amma Xəlil Rzanın məntəqəsində yetərsay məsələsi qaldırmaq olmaz. İndi bütün xalq onun bir çağırışı ilə meydana axır. Siz isə belə deyirsiniz. İndi bizim vəziyyətimiz elə mərhələdədir ki, Xəlil Rza kimi sözü təsirli adamlar parlamentə gəlməlidir.

Düzdü, o vaxtın iqtidarı bir çox digər bəhanələr gətirərək şairi "qutuda saxladı", bununla belə, hakimiyyətin bəlkə də bizim hər birimizdən daha çox arxalandığı komissiya üzvü həqiqəti çəkinmədən dilə gətirdi. Çünki xalqı düşünən şəxsiyyət idi Kamran Hüseynov...

Bir dəfə də elə komissiya iclasının keçirildiyi zalda Kamran müəllimlə yanaşı əyləşib Naxçıvan Muxtar Respublikasından göndərilmiş seçki protokollarını nəzərdən keçirirdik. Hakimiyyət Heydər Əliyevin parlamentə gələn yolunu əngəlləmək üçün dəridən-qabıqdan çıxırdı, əməlli-başlı çaxnaşma vardı.

- Bura bax, Vaqif, Heydər Əliyevin seçki protokollarına bax. Nə vaxtdan bəri sənədlərə baxırıq, heç belə təmiz sənəd rastına çıxıb?

O, düz deyirdi. Sənədlərin ən yüksək səviyyədə, ləkəsiz, qara-qurasız (halbuki, bir çox işlər əzik-üzük halda, başdan ayağa hərf səhvləri, texniki qüsurlarla gəlirdi) gözəl əl xətti ilə daxil olmuşdu...

Ən xırda nüanslar da nəzərə alındığına, orada həqiqətən də real, obyektiv seçki keçirildiyinə, üstəlik, vətəndaşlar öz səslərini sona qədər qoruyacaqlarını açıq-aşkar bildirdiklərinə görə Heydər Əliyev seçildi... Məhz o seçkidən sonra isə Azərbaycanda Heydər Əliyev erasının başladığını hər kəs bilir...

Gözümü gün işığı altında möhkəm, gen qaya sinəsi kimi parlayan abidəyə zilləyib durmuşam. Kamran əminin surətinə, unudulmaz xatirəsinə daha nələrisə əlavə etmək üçün mənim bundan o yana yolum yoxdur. Olmayan qapını açmaq mümkün deyil, heç kimi olmayan qapıdan çıxarıb özünlə apara bilməzsən. Heç buna ehtiyac da yoxdur. Heç kim bu dünyanı əbədi tutub qalmır. Əbədiyyət yalnız və yalnız insan oğlunun əməllərinə məxsusdur...

...Hə, Kamran əmi, halal elə, qaya kimi möhkəm, pozulmaz yaddaşına söykənərək sənin həyat romanının üzünü köçürdüm. Bu romanın uğuru büsbütün sənə, çatmayan

nələr varsa, büsbütün mənə aiddir. Hər halda, sən yaddaşsan artıq, Kamran əmi, ibrətli bir yaddaş. Yaddaşın cazibədardır, ondan qopmaq olmur, ora dönə bilənlərin gözünün nuru, qəlbinin qüvvəti artir... və istəyir hamıya nağıl eləsin ki, biri var idi, biri yox idi, bu dünyada iki çay vardı, birinin adı Həkəri, o birinin adı Bərgüşad. Bu iki çay, axıb, axıb axırda Araza tökülürdülər. Yüz il bundan qabaq o çaylar ötüb keçən Qubadlı elində Çərəli obasında Əsəd kişinin ailəsində bir oğlan doğuldu, adını Kamran qoydular. Kamran sözünün mənası qüdrətli demək idi.

...Məzarüstü abidə mənim nə düşündüklərimin fərqində deyildi, onun baxışları Zəngəzur dağlarına, Qubadlı ellərinə tərəf baxırdı.

Və sonra mən asta addımlarla abidədən aralandım.

Və sonra möcüzə baş verirdi.

Qulağıma olduqca tanış, mənasını dərindən bildiyim sözlər gəlirdi.

"Taleyimdən razıyam. Onu özüm yaratdım.

Oxumadılar – oxudum. Evləndirmədilər, evləndim. Böyütmədilər, böyüdüm. Dayağa söykənmədim – dayaq oldum. Öyrətmədilər – öyrəndim..."

Başımı göyə qaldırdım. Səma tərtəmiz idi, amma ağ pambıq kimi bir topa bulud güclə hiss olunan bir ləngərlə Zəngəzur dağlarına, üzü Qubadlıya tərəf axıb gedirdi... elə bil, kimsə ah çəkmişdi.

Bakı
Noyabr- dekabr, 2013

Kitab
“Renessans” nəşriyyatında nəşrə
hazırlanmış və ofset üsulu ilə
çap olunmuşdur.

Çapa imzalanmışdır 09.12.2013
Formatı 60x84/16. Həcmi 34.25 ç.v.
Tirajı 1000 nüsxə.